GÖVHƏR BAXŞƏLİYEVA

MƏQALƏLƏR,
MƏRUZƏLƏR,
MÜSAHİBƏLƏR...

I
CİLD

BAKI-2011

AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun
Elmi Şürasının qərarı ilə nəşr edilir.

Elmi redaktor: *akademik Vasim Məmmədəliyev*

Gövhər Baxşəliyeva. «Məqalələr, məruzələr, müsahibələr...». 2 cilddə. Bakı, «Bakı Çap Evi», 2011, I cild. 436 səh.

Kitaba millət vəkili, AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun direktoru, filologiya elmləri doktoru, professor Gövhər Baxşəliyevanın 2003-cü ildə nəşr etdirdiyi **«Hamıdan ucadır alimin yeri»** kitabına daxil edilməyən və bu günəcən pərakəndə halda müxtəlif mətbu nəşrlərdə işıq üzü görmüş məqalə, məruzə, müsahibə və çıxışları, müxtəlif əsərlərə yazdığı ön söz və resenziyaları daxil edilmişdir. Eyni zamanda kitaba müəllifin bügünəcən çap olunmamış bir sıra məqalə və çıxışları da salınıb.

Kitab elmi işçilər, tələbələr, eləcə də elmi və ictimai həyatın ümumi məsələləri ilə maraqlanan geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

İSBN 978-9952-572-14-11

© G.B.Baxşəliyeva, Bakı-2011.

BAXŞƏLİYEVA GÖVHƏR BAXŞƏLİ QIZI

Baxşəliyeva Gövhər Baxşəli qızı 26 noyabr 1954-cü ildə Bərdə şəhərində doğulub. 1972-ci ildə Bakı şəhəri 212 saylı orta məktəbi bitirdikdən sonra elə həmin il Azərbaycan Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinin ərəb bölməsinə daxil olub. 1977-ci ildə ADU-nu fərqlənmə diplomu ilə bitirərək, Azərbaycan Elmlər Akademiyası Şərqşünaslıq institutuna işə qəbul olunub, baş laborant, kiçik elmi işçi, elmi işçi, baş elmi işçi, «Şərq filologiyası» şöbəsinin müdiri vəzifələrində çalışıb.

1993-cü ildən G.Baxşəliyeva Şərqşünaslıq İnstitutunun elmi işlər üzrə direktor müavini, 1997-ci ildən direktoru vəzifəsində çalışır. 1984-cü ildə namizədlik, 1996-cı ildə doktorluq dissertasiyalarını müdafiə edib. Filologiya elmləri doktoru, professordur. Beynəlxalq Elmlər Akademiyasının həqiqi üzvüdür. «Qızıl qələm» mükafatı laureatıdır. Klassik və müasir ərəb ədəbiyyatı, ərəbdilli Azərbaycan ədəbiyyatı, müqayisəli ədəbiyyatşünaslıq, ədəbi əlaqələr və mənbəşünaslıq üzrə mütəxəssisdir.

Onun əsərləri keçmiş sovet respublikalarında və ərəb ölkələrində elmi ictimaiyyət tərəfindən böyük rəğbətlə qarşılanıb, haqqında mətbuatda yazılar gedib, tədqiqatlarda əsərlərinə istinadlar edilib. 3 monoqrafiya, 8 kitab («Əbdüssəlam əl-Üceyli. Həyat və yaradıcılığı», B., Elm, 1989, 5,7 ç.v.; «Bir Məcnun vardı», B., Yazıçı, 1990, 4 ç.v.; Əbülfərəc əl-İsfahani. «Nəğmələr kitabı», ərəb dilindən tərcümə və şərhlər. B., Elm, 1994, 17,75 ç.v.; «Əbülfərəc əl-İsfahaninin «Nəğmələr kitabı» və klassik Azərbaycan ədəbiyyatı». B., Elm, 1998, 12 ç.v.; «İlahi eşq dastanları», B., Maarif, 2001, 23,75 ç.v.; «Hamıdan ucadır alimin yeri», B., 2003, 20,3 ç.v.; Əbülfərəc əl-İsfahani. «Məcnun ləqəbli Qeys ibn Müləvvəh və ərəbdilli Azərbaycan şairləri haqqında hekayətlər». Ərəbcədən filoloji tərcümə, müqəddimə, tədqiqat, şərhlər və göstəricilər, B., Elm, 2007, 23,5 ç.v.; «Müasir Suriya hekayəsi». B., 2007, 20 ç.v.; Əbülfərəc əl-İsfahani. Ölməzliyə aparan yol. Ərəb dilindən tərcümə, tədqiqat, şərh və qeydlər. Bakı, 2009, 156 səh., Cübran Xəlil Cübran. "Qırılmış qanadlar". Ərəb dilindən tərcümə, B., 2010, "Məqalələr, məruzələr, müsahibələr", I və II cild, B., 2011, "Taufiq əl-Həkimin ədəbi görüşləri", B., 2012, "İslam". Ensiklopedik lüğət, B., 2013) və 170-dən çox elmi məqalə və məruzələrin müəllifidir. Şərq filologiyası və mənbəşünaslıq sahəsində bir çox əsərlərin elmi redaktorudur. Bir sıra elmi dərgilərin redaktoru və ya redaksiya heyətinin üzvüdür. «Azərbaycan şərqşünaslığı» və "Elmi araşdırmalar" jurnalının baş redaktorudur.

G.B.Baxşəliyeva Azərbaycan şərqşünaslıq elmini dəfələrlə xarici ölkələrdə (Rusiya Federasiyası (Moskva, Sankt-Peterburq, Mahaçqala, Simferopol şəhərləri), İran, Türkiyə, Rumıniya, Macarıstan, Çin, Birləşmiş Ərəb Əmir-

likləri, Misir Ərəb Respublikası, Səudiyyə Ərəbistanı Krallığı, Fransa, Böyük Britaniya, Almaniya, İtaliya və s.) ləyaqətlə təmsil edib, elmin aktual problemlərinə dair məruzələrlə çıxış etmişdir. Xarici mətbuatda bir çox məqalələri nəşr olunmuşdur.

G.B.Baxşəliyeva şərqşünas kadrlarının hazırlanmasında yaxından iştirak etmiş, onun bilavasitə rəhbərliyi ilə on bir namizədlik dissertasiyası müdafiə olunmuşdur. 10.01.02 – «Türk xalqları ədəbiyyatı» və 10.01.03 - «Dünya ədəbiyyatı» ixtisasları üzrə Müdafiə Şurasının sədridir.

O, pedaqoji fəaliyyətlə də məşğul olmuş, Bakı Dövlət Universitetinin Şərqşünaslıq fakültəsində ərəb ədəbiyyatı fənni üzrə xüsusi kurs aparmışdır.

G.B.Baxşəliyeva elm təşkilatçısı kimi də xeyli işlər görmüşdür. Onun İnstituta rəhbərlik etdiyi dövrdə şərqşünaslıq elminin ən müxtəlif sahələrinə aid onlarca tədqiqat hazırlanıb çap olunmuş, bir sıra beynəlxalq və respublika elmi konfrans və simpoziumları keçirilmiş, institutun perspektiv inkişaf planları işlənib hazırlanmışdır. Qədim tarixi ənənələri olan Azərbaycan şərqşünaslığı onun direktorluğu dövründə yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. İnstitutun profili və aparılan elmi-tədqiqatların başlıca istiqamətləri genişlənmiş, Şərq ölkələrinin tarixi, iqtisadiyyatı, ictimai-fəlsəfi fikri, filologiyası, Azərbaycanın Şərq ölkələri ilə tarixi-mədəni əlaqələrinin aktual problemləri, Şərq-Qərb qarşılıqlı münasibətləri kompleks şəkildə tədqiq olunmuşdur.

G.B.Baxşəliyeva 1997-ci ildə Şərqşünaslıq İnstitutunun çətin bir dövründə direktor olmasına baxmayaraq, öz vəzifəsinin öhdəsindən uğurla gəlmişdir. Onun fəaliyyəti nəticəsində 1990-cı illərin əvvəllərində baş vermiş kadr axınının qarşısı alınmış və istedadlı gənc kadrların cəlb olunması ilə institutun elmi potensialı möhkəmləndirilmişdir. Eyni zamanda institutda şərqşünaslığın ənənəvi klassik istiqamətləri ilə yanaşı Azərbaycan elminin müasir tələblərinə uyğun olaraq yeni tədqiqat sahələrinin inkişafına diqqət yetirilməyə başlanmışdır. Bu məqsədlə institutun strukturunda dəyişikliklər aparılmış, yeni şöbələr («Şərq-Qərb», «Cənubi Azərbaycan», «Mərkəzi Asiya və Uzaq Şərq» şöbələri) və elmi qruplar yaradılmışdır. G.B.Baxşəliyevanın rəhbərliyi ilə son illərdə institutun beynəlxalq elmi əlaqələri xeyli genişlənmişdir, ABŞ, Almaniya, Hollandiya, Çin, Rusiya, Türkiyə, Ərəb ölkələri, İran, Özbəkistan, Qazaxıstan və sairə bu kimi bir sıra xarici ölkələrdəki şərqşünaslıq mərkəzləri ilə fəal elmi mübadilələr həyata keçirilmişdir. Son illərdə G.Baxşəliyeva Azərbaycan Respublikası Prezidenti yanında Elmin İnkişafı Fondu tərəfindən maliyyələşdirilən «Azərbaycanın ərazi bütövlüyünü təsdiq edən qədim və yeni dövr xəritələrin axtarışı və surətlərinin ölkəyə gətirilməsi» mövzusunda layihə üzərində çalışır. Layihə çərçivəsində o 20.VI – 10.VII.2011-ci il tarixllərində İspaniya və Fransada elmi ezamiyyətdə olmuş, Madrid, Escorial və Paris şəhərlərinin bir sıra kitabxana və arxivlərində axtarışlar aparmışdır.

G.B.Baxşəliyeva 5 noyabr 2000-ci ildə 57-saylı Bərdə-Ağcabədi seçki dairəsindən Azərbaycan Respublikasının II çağırış Milli Məclisinə deputat seçilmişdir. 2001-ci ilin iyun ayından 2005-ci ilin dekabr ayınacan Azərbaycan Respublikası Milli Məclisinin sədr müavini olmuşdur. Milli Məclis sədrinin müavini kimi sosial qanunvericiliyə kuratorluq edib. 2005 və 2010-cu illərdə III və IV çağırış Azərbaycan Respublikası Milli Məclisinə üzv seçilib. Milli Məclisin Elm və Təhsil məsələləri üzrə daimi komitəsinin üzvüdür. Azərbaycan Respublikası Milli Məclisinin İslam Əməkdaşlıq Təşkilatı Parlament İttifaqında nümayəndə heyətinin rəhbəridir. Onun 2001-ci ildən hazırkı vaxta kimi rəhbərlik etdiyi Parlament nümayəndə heyəti İƏT Pİ-nin sessiya və konfranslarında Ermənistanın Azərbaycana qarşı təcavüzünü pisləyən, Xocalı soyqırımını insanlığa qarşı cinayət adlandıran, üzv parlamentlərə bu haqda qanunvericiliyə əlavələr etməyi təklif edən, işğal edilmiş Azərbaycan ərazilərində müqəddəs islam məbədlərinin, məscidlərinin və məqbərələrinin dağıdılmasını kəskin pisləyən bir sıra qətnamələrin qəbuluna və yekun bəyannamələrə (İstanbul, Qahirə, Əbu Dabi, Kuala-Lumpur, Dəməşq, Palembanq, İstambul, Niamey, Xartum deklorasiyaları və s.) müvafiq maddələrin salınmasına nail olmuşdur. G.B.Baxşəliyeva Parlamentin Azərbaycan-Misir dostluq qrupunun rəhbəridir. O, bir sıra səfərlərdə Azərbaycan Respublikasının Milli Məclisinin nümayəndə heyətinə rəhbərlik edib (Türkiyə, Misir Ərəb Respublikası, Almaniya Federativ Respublikası, Norveç Krallığı, Fransa, Böyük Britaniya, İtaliya, Malayziya, İndoneziya, Sudan, Niger və sair), çoxsaylı görüşlər keçirib, Azərbaycanın nailiyyətləri, üzləşdiyi problemlər və gələcək əməkdaşlıq perspektivləri haqqında geniş fikir mübadiləsi aparıb. Azərbaycan Parlamentini bir sıra beynəlxalq sessiya və konfranslarda təmsil edib (Qərbi Avropa İttifaqının Parlamentlərarası Assambleyasının 51-ci sessiyası, Paris, may, 2005; Bərpaolunan enerji ehtiyatlarından istifadə, Bonn, may, 2004; Uşaq haqlarının müdafiəsinə həsr olunmuş ümumdünya qadın parlamentarilərin konfransı, Roma, oktyabr, 2004; Beynəlxalq davamlı enerji günləri çərçivəsində keçirilən və enerji təhlükəsizliyinə həsr olunmuş beynəlxalq konfrans, mart, 2006, Avstriya, Uels ş.; 2006 il Aprelin 8-13 İstanbulda İKT Parlament İttifaqının VIII sessiyası və konfransı; 2006-cı il 6-11 sentyabr Liviya-Azərbaycan Parlamentlərarası dostluq qrupunun rəhbəri kimi Liviyaya səfər; İKT Parlament İttifaqının IX sessiyası və konfransı, Qahirə, fevral, 2007; İKT Parlament İttifaqının X sessiyası, Malayziya, Kuala-Lumpur, 11-19 fevral, 2008; İKT Parlament İttifaqının fövqəladə sessiyası, İstanbul, sentyabr, 2008; İKT Parlament İttifaqının XI sessiyası, Niger, Niamey ş., 11-19 fevral, 2009; BMT-nin «Sivilizasiyaların alyansı», II forum, İstanbul, aprel, 2009 və s.; İKT Pİ İcraiyyə Komitəsinin iclası və sessiyası, dekabr, 2009; AR Parlamentinin qadın nümayəndə heyəti tərkibində Rumıniyaya səfər, yanvar, 2010; İKT Pİ II Fövqəladə konfransı. Dəməşq (Suriya),

30 iyun 2010; İKT Pİ 13 sessiyası və konfransı, Əbu-Dabi (BƏƏ), yanvar, 2011 və s.), İKT Pİ 14 sessiyası və konfransı, Niamey (Niger), yanvar, 2012, İKT Pİ 15 sessiyası və konfransı, Palembanq (İndoneziya), yanvar, 2013, İKT Pİ 16 sessiyası və konfransı, Xartum (Sudan), yanvar, 2014, İKT Pİ 17 sessiyası və konfransı, İstanbul (Türkiyə), yanvar, 2015



MƏQALƏLƏR

«XƏMSƏ» MÜƏLLİFİ VƏ ƏRƏB MƏNBƏLƏRİ

Görkəmli ərəb ədəbiyyatçısı və musiqiçisi Əbülfərəc İsfahaninin (897-967) tərtib etdiyi nəhəng ədəbi abidə – «Kitab əl-əğani» («Nəğmələr kitabı») bu gün də böyük dəyərini saxlayır. Əsər təkcə ərəb şeirinin uzaq dünəni, ərəb şairlərinin həyat və irsi haqqında söhbət açmır, həm də Şərq ədəbiyyatları arasında əlaqə, münasibət və qohumluqları araşdırmaqdan ötrü müstəsna əhəmiyyət daşıyır.

Kitabdakı fəsillərdən ikisi Bənu Amir qəbiləsindən çıxmış şair Qeys İbn Müləvvəh – Məcnun haqqındadır. Məcnunun şeirləri toplanılmış «Divan» bu günümüzə qədər gəlib çatıb. Bu şeirlər müxtəlif dillərə, o cümlədən ruscaya tərcümə edilib. Respublika Əlyazmaları Fondunda da Qeys İbn Müləvvəhin şeirlərindən xeyli nümunələr vardır. IX əsr ərəb nasiri və ədəbiyyatşünası əl-Cahiz yazırdı: «Tanınmaz müəlliflərin Leyliyə həsr olunmuş elə bir şeiri qalmayıb ki, adamlar onu Məcnuna aid etməsinlər».

Real tarixi şəxsiyyət olan Məcnunun həyatı və yaradıcılıq sirləri bu günə qədər açılmazdır. Amma böyük bir həqiqət də var ki, gerçək tarixi şəxsiyyət olan Məcnundan çox – ədəbi Məcnun obrazı səkkiz yüz ildən artıqdır ki, dillər əzbəridir. İlk dəfə dahi Azərbaycan şairi Nizami Gəncəvinin qələmə aldığı bu ədəbi qəhrəman XII əsrdən bəri Şərq şairlərinin müxtəlif dillərdə yazdıqları məsnəvilərdə böyük şöhrət tapmışdır. «Leyli və Məcnun»un fars, türk, ərəb, kürd və s. dillərdə yaradılmış nümunələri bir-birindən qidalanan, vaxt ötdükcə regional kontekstdə qovuşan vahid zəncirin həlqələridir.

Şübhəsiz ki, bu yolda birincilik və ötülməzlik Nizaminin payına düşür. «Xəmsə»nin müəllifi, göründüyü kimi, hər bir əsərini yazmadan əvvəl axtarışlar aparmış, ayrı-ayrı dillərdə olan mənbələri, yazılı sənədləri öyrənmişdir. Şirvan hökmdarı Axsitan (1187-1196) Nizami Gəncəviyə Məcnunun Leyliyə sevgisindən poema yazmağı sifariş vermişdi. Təbii ki, Məcnun barədə yazmalı olan Nizami Əbülfərəc İsfahaninin «Nəğmələr kitabı»na müraciət edib. Bu kitabda Məcnun və Leylinin nəsli, Məcnunun Leyliyə olan sevgisi, Məcnunun şeir yaradıcılığı barədə geniş məlumat vardır. Nizaminin üz tuta biləcəyi yazılı mənbələr içərisində Əbülfərəc İsfahaninin «Kitab əl-əğani»sindən mötəbər məlumatlı ikinci bir kitab olmayıb. Ona görə də Əbülfərəcin Məcnuna həsr etdiyi iki fəslin tədqiqi və tərcüməsi nizamişünaslığımız üçün də əhəmiyyətlidir. Həmin fəsillərlə tanışlıqdan sonra görürük ki, Nizami məhz Əbülfərəcin topladığı əhvalatları da öyrənmiş, məsnəvisi boyu istifadə etmişdir. Düzdür, Nizami bütün rəvayətləri yox, özünə gərəklilərini götürmüşdür.

Nizamidən sonra «Leyli və Məcnun» mövzusuna müraciət edən başqa şairlər də, şübhəsiz, «Kitab əl-əğani» «arxivindən» bəhrələnmişlər. Bu əlaqələri öyrənmək üçün «Kitab əl-əğani»nin «Bənu Amir qəbiləsindən olan Məcnun və onun nəsli haqqında hekayətlər» fəsillərini əlimizdə olan «Leyli və Məcnun» məsnəviləri ilə müqayisə etmək vacibdir. Bu, xüsusi bir araşdırma mövzusudur. Bu yazıdasa sadəcə olaraq həmin fəsillərin bəzisindən danışacağıq.

Həm Nizami, həm də Füzuli Qeysi dövründən yüksəkdə dayanan bir mütəfəkkir kimi təqdim etmiş, məcnunluğu zəmanənin ona vurduğu damğa saymışlar. Bu cəhətdən Əbülfərəc İsfahaninin verdiyi bir məlumat diqqətə layiqdir: «Əl-Əsmai (məşhur orta əsr ərəb filoloqu) deyirdi ki, Məcnun dəli deyilmiş. O, yalnız sərgərdan olması ilə seçilirdi».

Əbülfərəc Məcnun təxəllüsü ilə yazan bir neçə ərəb şairinin şeirlərindən parçalar verir, sonra Qeys ibn Müləvvəhin Leyliyə olan sevgi rəvayətlərini yazır. Bir hekayətə görə Qeys başqa qəbilədən olan Mehdi İbn Səədin qızı Leyliyə hələ uşaqkən vurulur. Qoyun otararkən sevişirlər və Leyli həddi-buluğa çatandan sonra ayrı düşürlər.

Mən Leyliyə vurulanda onun hörükləri hələ qısaydı,
Yaşıdları onun xırdaca döşlərinə hələ
fikir vermirdilər.
Biz kiçik idik, qoyun otarırdıq,
Kaş nə biz yaşa dolaydıq, nə qoyunlar böyüyəydi.

Sətri tərcümədə verilən bu şer Məcnunundur. Əbülfərəc adətən kitabına daxil etdiyi əhvalatları hansı mənbələrdən – yazılı yaxud şifahidən götürdüyünü sadalayır.

Qeys hələ Məcnun kimi tanınmazdan əvvəl ondan soruşurlar: «Necə oldu sənin ürəyində Leyli eşqi alovlandı?». O cavab verdi: «Bir dəfə qonağımız gəlmişdi. Ancaq evdə yağ yox idi. Atam məni Leyligilə göndərdi. Leylinin atası: «Leyli, gəl bunun qabına yağ tök», - dedi. Leyli öz qablarından mənim qabıma yağ tökməyə başladı. Yağı tökdükcə söhbət edirdi və bir də onda ayıldıq ki, ayaqlarımız yağa batıb. Nə o, nə mən yağın daşıb töküldüyündən xəbər tutmamışdıq».

«Bir dəfə də məni Leyligilə od gətirməyə göndərdilər. O, mənə əski parçasının içərisində közərmiş kömür verdi. Başladıq söhbət etməyə. Əski alışanda söhbətimiz qırılmasın deyə paltarımdan bir parça cırıb kömürü ona bükürdüm. Sonra yenə. Bir də gördüm ki, söhbətə başım qarışıb, paltarımı tamam cırıq-cırıq edib kömürlə yandırmışam. O mənə elə məftun, mən ona elə vurğundum

ki!».

Kitabda bir rəvayət də var: «Bir gün Uzra qəbiləsindən bir nəfər nə üçünsə onlara gəlir, söhbət məhəbbətdən və aşiqlərdən düşür. Soruşurlar ki, hansınızın qəlbi həssas və zərifdir? Sizlərin, ya amirililərin? O, belə cavab verir: Əlbəttə ki, biz ən zərif və həssas qəlbə malikik. Ancaq amirilər təkcə Məcnunla bizə üstün gəldilər».

«Leyli-Məcnun» məsnəvilərində Qeysin məcnunluqdan qurtulması üçün Məkkəyə, nicat üçün yalvarışa aparılması səhnəsi var. Həmin epizodlardan birində - Məkkə yolunda Mina vadisindən keçərkən Məcnun qəfildən bir səs eşidir. Bir kişi Məcnunun sevgilisi ilə adaş olan qızını çağırır: «Leyli, hardasan, bura gəl». Tövbəyə, Leyli eşqindən xilas olmağa gedən Məcnun Leyli adını eşidən kimi qışqırıb yıxılır, bütün gecəni huşunu itirmiş halda qalır və səhər açılacağın avazımış, taqətsiz Məcnun qalxır, başlayır şeir oxumağa:

Ürəyimə dözməyi təklif etdim və o: «heyhat, dözüm
sənə kömək etməz», - söylədi.
Əgər həsrətində olduğun səndən uzaqlara getdisə,
ölümdən yaxşı yolun yoxdur.
«Leyli» deyib başqasını səslədilər, sanki bu sözlə
mənim ürəyimə qonmuş quşu hürkütdülər.
«Leyli» çağırdılar və tanrı məni yolumdan saxladı.
Axı (mənim) Leylim uzaqlarda – o kasıb yurdda qalıb.

Əbülfərəc İsfahaninin «Kitab əl-əğani»sində Məcnunun dostu Nofəl İbn Müsahiq haqqında da səhifələr var.

Qeys İbn Müləvvəh müqəddəs eşqə mübtəla olub dünyadan köçür. Məhz bu eşq ona ölməzlik gətirir. Azərbaycan mədəniyyəti tarixində Məcnunun ömür distansiyası Nizami Gəncəvi və Üzeyir Hacıbəyovun yaratdığı iki sənət incisinin aralığındakı böyük zamana sığır və gələcəyə üz tutub. Ədəbiyyatımıza doğma olan bu mövzunun daha dəqiq tədqiqi üçün Əbülfərəc İsfahaninin «Kitab əl-əğani»sindəki fəsilləri azərbaycancaya tərcümə çox məqsədəuyğun olardı. O möhtəşəm abidədə verilmiş məlumatları klassik poeziyamızın bir sıra nümunələri ilə müqayisəli tədqiq edəndə ədəbi əlaqə və təsirlərin maraqlı təzahürləri ilə rastlaşırıq.

«Ədəbiyyat və İncəsənət» qəzeti,
12 sentyabr, 1986-cı il, № 37.

«LEYLİ MƏCNUN» VƏ «KİTAB ƏL-ƏĞANİ»

Orta əsrlər Şərqində nəzirə ənənəsinin geniş vüsət tapması yaxşı məlumdur. Bu qəbildən yaranan yüzlərlə əsər arasında dahi Nizaminin «Xəmsə»sinə nəzirə olaraq yaranan poemalar xüsusi maraq doğurur.

Ədəbiyyatşünaslığımızda Nizami və Füzulinin «Leyli və Məcnun»ları müqayisəli şəkildə müəyyən qədər tədqiq olunub. Hər iki əsər forma, məzmun və ideya yaxınlıqları ilə nəzəri cəlb edir. Lakin bütün bunlar Füzulini Nizaminin təqlidçisi etməmişdir. Füzuli əsərində Nizami poemasına yaxın məqamlar varsa da, orijinal, yalnız Füzuliyə məxsus məqamlar da çoxdur. Bunun nəticəsidir ki, Füzuli əsərinin mənbələrini tədqiq edərkən, təkcə Nizaminin eyni adlı poeması ilə məhdudlaşmamalıyıq. Füzuli yaradıcılığına ərəb şer ənənəsinin, bir qədər dəqiq desək, üzri məhəbbət poeziyasının təsiri xüsusilə qeyd olunmalıdır. Şübhəsiz ki, şair VII əsrdə Ərəbistan yarımadasında yaranmış və ərəb aləmində geniş yayılmış üzri şairlərin (Məcnun, Cəmil, Qüsəyyir, Qeys ibn Zərih və b.) həyat və yaradıcılığı haqqında rəvayətlərlə yaxından tanış idi. Bu tanışlıq şairin yaradıcılığının ideya, məzmun və sənətkarlıq xüsusiyyətlərində özünü büruzə verir. Lakin qeyd etmək lazımdır ki, şair əsrlər boyu müxtəlif Şərq şairlərinin tükənməz məzmun və bədii vasitələr mənbəyinə çevrilmiş bu poeziyanı sadəcə təqlid etməyib, ona yaradıcı yanaşaraq, milli Azərbaycan bədii ənənəsi ilə sintezləşdirib və tamamilə yeni bir şəkildə işləyib.

Üzri şairlərin həyatı və şerləri haqqında rəvayətlər ərəb aləmində VIII əsrdən etibarən qələmə alınmağa başlanıb. Bundan sonra elə bir ərəb təzkirəçisi qalmayıb ki, onların şerlərini öz əsərinə salmasın. Bunlardan biz İbn Qüteybə, İbn Əbd Rəbbihi, İbn Sərrac və başqalarını sadalaya bilərik. Lakin bu qəbildən olan kitablar arasında ən mötəbər məlumatlısı X əsr görkəmli ərəb ədəbiyyatçısı və musiqiçisi Əbülfərəc İsfahaninin «Nəğmələr kitabı»dır («Kitab əl-əğani»). Əsərin bir neçə fəsli ərəb üzri şairlərinə həsr edilib. Bu fəsillər aşağıdakılardır: «Qeys ibn Zərih və onun nəsli haqqında hekayətlər», «Cəmilin nəsli və onun haqqında hekayətlər», «Qüsəyyir haqqında rəvayətlər və onun nəsli», «Leyla, onun nəsli və Təubə ibn əl-Hüməyyir haqqında hekayətlər», «Məcnun bənu Amir haqqında hekayətlər və onun nəsli», «Məcnun haqqında hekayətlərin davamı». Ərəb dilini çox gözəl bilən və məhəbbət şairi olan Füzuli bu poeziyanı dərindən mənimsəmişdi. Təbii ki, Leyli və Məcnun mövzusunu qələmə alarkən, şair ilk növbədə «Nəğmələr kitabı»nın Məcnunla bağlı fəsillərinə müraciət etməli idi. Bu tanışlıq bütün əsər boyunca özünü büruzə verir. İlk növbədə Füzulinin «Leyli və Məcnun»da ifadə etdiyi məhəbbət kon-

sepsiyasının üzri məhəbbət konsepsiyasına tam mütabiqliyi xüsusi qeyd olunmalıdır.

Məhəbbətin üzri interpretasiyası təkallahlığı təbliğ edən yeni yaranmış islam dini ilə bağlı idi. Üzri şairlər sanki islamın universal qəlibini intim hisslər aləminə keçirdilər – çoxlu bütpərəstlik səcdəgahları əvəzinə vahid Allah, çoxlu düşmənçilik edən qəbilələr əvəzinə bir müsəlman ümməti, çoxlu qadınlar əvəzinə - yeganə məşuqə. Üzri şairlər amansız tale ilə bir-birindən ayrı düşən iki zavallı aşiqin saf, təmiz, platonik eşqini vəsf edirlər. Rəvayətə görə, Qeys ibn Müləvvəh, Qeys ibn Zərih və bəzi başqa üzri şairlər yara yetişə bilməyib, kədər, qüssə və ümidsizlikdən ölürlər.

Üzri şairlərin qəzavü-qədərə inamı onları məhəbbətdə asketizmə vadar edir, bu da ki, müsəlman dininin axirət dünyasında hər şeyin əvəzinin veriləcəyi vədindən irəli gəlir. Şəhvani hisslərdən azad olaraq, bu şairlər sevgini ilahiləşdirib, ona ideal xarakter verirlər, məhəbbət hissini Allahın əmri ilə irəlicədən məlum obyektə yönəldilmiş, bir növ alına yazılmış faciəli bir ehtiras kimi təsvir edirlər. Məsələn, Cəmil ona tənə edən qohumlarından birinə cavab verərək belə bir beyt söyləyir:

Lakin mən ona dedim: Sənin sezdiyin və mənim Buseynəyə bəslədiyim hisslər Allahın öz əmri ilə yaranıb. Məgər Allahın istəyi yerinə yetməyə bilərdimi?

Eyni fikrə Füzuli poemasının «Bu Məcnunun nəsihət qəbul etmədiyidir və atasının dərdi dərmana yetmədiyidir» fəslində rast gəlirik. Ata-anasının nəsihətinə cavab olaraq, Məcnun onları başa salmağa çalışır ki, özü öz acınacaqlı vəziyyətindən halıdır, lakin nə etmək ki:

Yoxdur bu işimdə ixtiyarım,
Zəbtimdə inani-iqtidarım!

Eşq onun başına öz ixtiyarı ilə yox, yuxarıdan gələn bir əmr ilə salınıb və onun bu mərəzdən sağalması mümkün deyil. Bu eşq onun qismətidir və onu heç bir cəhdlə pozmaq olmaz. «Gülün tikana və tikanın gülə» çevrilməsi mümkün olmadığı kimi, aşiqin də bu eşqdən islahı mümkün deyil, çünki onun cövhəri sevgi ilə yoğurulub.

Yuxarıda qeyd etdiyimiz kimi, üzri aşiqlərin məhəbbəti təmənnasızdır. Onlar şəhvani hissləri təmin etməyə can atmırlar (bəzilərinə isə bu hisslər tamamilə yaddır), sadəcə eşq hissinin özündən zövq alırlar. Daim öz eşqinin saflığına və ali xarakterinə, məhəbbət iztirablarının səmimiliyinə və böyüklüyünə işarə edir, gah ümidsizliyə dalır, ya da amansız talelərindən şikayətlənirlər. Eyni duyğuları Füzuli qəhrəmanı da keçirir:

Fələk ayırdı məni cövr ilə cananımdan,
Həzər etməzmi, əcəb naləvü əfqanımdan?

Füzuli əsərində Leyli əri öləndən sonra Məcnuna rast gəldikdə, ondan vüsal diləyir, lakin Məcnun onu rədd edir. Bu zaman Leyli aşiqi sınadığını, imtahana çəkdiyini söyləyir, təbiətinin paklığına əmin olmaq istədiyini deyir və Məcnunun cismani məhəbbətə tam biganə olduğunu bilib, şad olur:

Eşqində riya güman edərdim,
Ətvarını imtəhan edərdim.
Əlminnətulilləh, oldu məlum
Bəsl olduğu məşrəbində məzmum.

Üzri aşiq məşuqəsi yolunda bütün iztirablara dözməyə razıdır. Bu iztirablara o özü can atır, bu iztirablar aşiqə xoşdur və o bu iztirablardan heç bir vəchlə xilas olmaq istəmir. Şair Qeys ibn Müləvvəhin belə bir beyti var:

Mənə deyirlər: İstəsəydin, onu
unudub, təsəlli tapardın,
Mən isə cavab verirəm: Bəli,
ancaq mən bunu istəmirəm.

Füzuli qəhrəmanı bütün nəsihətləri rədd edib, eşq yolunda bütün iztirablara hazır olduğunu söyləyir, bu yoldan dönməz olduğunu bildirir:

Suzi-dil ilə tökülsə yaşım,
Tiği-ğəm ilə kəsilsə başım,
Candan çıxarıb həvayi-eşqi,
Tərk eyləməzəm bəlayi-eşqi.

Üzri şair üçün məhəbbət yalnız hər şeyə üstün gələn hiss deyil, həyatın özü deməkdir. Qeys ibn Zərih:

O torpaq ki, onun üstündə sevgilim yaşamır, suvarılmış və münbit olsa da, mənim gözlərimdə səhraya bənzər, - deyir.

Füzuli Məcnunu Leylini «afitab» – «günəş» adlandıraraq:

Hər gün ki, görünməz afitabım,
Mən gün deməzəm, budur hesabım, -

söyləyir.

Üzri məhəbbət konsepsiyası aşiqin məşuqə ilə tam mənəvi birləşməsini nəzərdə tuturdu. Əbülfərəcin Leylisinin Məcnuna dediyi: «Sən mənim içimdəsən» sözlərində bu fikir bir rüşeym şəklində öz əksini tapmışdır. Təsadüfi deyil ki, ərəb ədəbiyyatında üzri aşiqin adı mütləq məşuqənin adı ilə birlikdə çəkilir: Məcnun – Leyla, Cəmil – Buseynə, Qüsəyyir – Əzzə və i.a., yəni aşiq məşuqəsiz təsəvvür olunmur və onlar yalnız birlikdə, bir tam kimi dərk edilir. Füzuli yaradıcılığında bu fikir daha da dərinləşdirilərək, Leyli və Məcnunun

«iki təndə bir can» olmaqları kimi mənalandırılır:

Bizdə ikilik nişanı yoxdur,
Hər birinin özgə canı yoxdur.
Sən sanma ki, oldur ol, mənəm mən,
Bir can ilə zindədir iki tən.

Üzri məhəbbət konsepsiyası mənəvi substansiyanın gerçəkliyinə və hər bir canlıda baqi ruhla fani cismin yerləşməsinə islam etiqadından irəli gəlir. Bu konsepsiyaya görə, üzri məhəbbət, hətta, aşiqlərin doğuluşundan əvvəl müəyyən olduğu kimi, onların ölümündən sonra yaşayır və axirət dünyasında sevgililərin ruhu mütləq görüşür. Qeys ibn Zərih:

Eşqimiz bütün müsibətlərə sinə gərib,
Məzarlarımızın qaranlığında bizimlə olacaq, -

deyir.

Füzuli qəhrəmanlarının fikrincə isə ölüm də onları eşqdən qurtarmayacaq və bu qurtuluş onların istəyi də deyil:

Can əgər çıxsa tənimdən əsəri-mehri ilə,
Əsəri-mehrini sanmın ki, çıxar canımdan.

Əsərin sonu - Zeydin yuxuda Leyli ilə Məcnunu cənnət bağında vüsala yetmiş görməsi də məhz bu konsepsiyadan irəli gəlir.

Lakin bütün bunlar Füzulinin sevgiyə baxışı və üzri məhəbbət konsepsiyası arasında bərabərlik işarəsi qoymağa bizə əsas vermir. Füzulinin eşq anlayışı daha geniş, daha müəzzəmdir. Şair üzri eşq əqidəsini və üzri poetik təfəkkürü mənimsəyib onu məhz öz qələminə məxsus dahiyanə üslubda mənalandırıb, bu poeziyaya xas olan ayrı-ayrı ideyaları, motivləri və poetik obrazları daha da dərinləşdirərək öz dühasının süzgəcindən keçirib və nəticədə, ecazkar bir sənət nümunəsi yaradıb. Bu fikri bir sıra dəlillərlə təsdiqləmək olar. Məsələn, əgər Əbülfərəcin Məcnunu Leylinin eşqindən cisminin vəziyyəti haqqında: «Elə quruyub ki, külək onu hara istəsə, ora da əyər», - söyləyirsə, Füzulinin Məcnunu Tanrıdan:

Öylə zəif qıl tənimi firqətindəkim,
Vəslinə mümkün ola yetirmək səba məni, -

diləyir.

Əbülfərəcin Məcnunu:

O eşq ki, aşiqə iztirab vermir,
heç bir qiyməti yoxdur,
Belə aşiq meyitə bənzər, -

söyləyir. Füzuli qəhrəmanı isə Allahdan eşq iztirablarını günbəgün artırmağı təmənna edir:

Yarəb, bəlayi-eşq ilə qıl aşina məni.
Bir dəm bəlayi-eşqdən etmə cüda məni.

Füzuli poemasının ərəb rəvayətinə yaxınlığı yalnız şairin yaratdığı məhəbbət konsepsiyasında və poetik obrazlar sistemində özünü büruzə vermir. Bu yaxınlıq onların başqa xüsusiyyətlərində də aydın duyulur. Belə ki, Füzuli öz əsərində Nizamidən fərqli və rəvayətə uyğun olaraq yeri gəldikdə qəhrəmanların dilindən qəzəllər verir. Məlum olduğu kimi, Əbülfərəcin əsərində də Məcnunun şerlərinə geniş yer verilib və hətta Leylinin də şerlərindən nümunələr göstərilir.

Məlumdur ki, Nizami poemasında hekayə içində hekayə üsuluna geniş yer verilir. Bu üsul Füzuli əsərində işlənmir. Eyni halı ərəb rəvayətində də müşahidə edirik.

Ərəb rəvayətində belə bir məqam var: «Ümumən, Məcnun qadınlarla ünsiyyəti çox sevirdi, tez vurulan idi». Bu fikir Füzuli əsərində sanki daha da inkişaf etdirilir. Şair Qeysin uşaq ikən həmişə nalə etdiyini söyləyir. Bir gün dayə onu gəzdirərkən, bir gözəl qız bu uşağı ağlar görüb qucağına alır. Uşaq onun üzünə baxan kimi ağlamağını unudub gülümsünür, qucağından düşəndə isə yenə ağlayır və i.a. Şair bunun səbəbini belə izah edir.

Eşq idi ki, oldu hüsnə mail,
Hüsnü nə bilirdi tifli-ğafil,
Məlum idi əhli-halə ol hal,
Kim, nüsxeyi-eşqdir bu timsal.

Hər iki müəllif sanki demək istəyir ki, eşq Məcnunun vücudundadır, onun torpağı eşq ilə yoğurulub.

«Leyli və Məcnun»da Füzuli orta əsrlər Şərq qadınının vəziyyətini təsvir edərkən Leylinin dilindən yazır:

Mən gövhərəm, özgələr xiridar,
Məndə deyil ixtiyari-bazar.
Dövran ki, məni məzadə saldı, -
Bilmən kim idi satan, kim aldı?

Nizami əsərində təsadüf olunmayan bu fikir çox aydın şəkildə «Nəğmələr kitabı»nda əks etdirilib. Belə ki, Məcnun Leylinin başqasına ərə getməsini eşidərkən deyir:

Onlar onu (Leylini) qurbanlıq
(quzu) kimi
Bağlı bir yerə saldılar,
Onu bir əşya kimi əldə etdilər,
Məgər onların var-dövləti azmıdır?

Füzulinin Leylisi ixtiyardan mərhum olduğunu bildirərək Məcnuna deyir:

Olsaydı mənim bir ixtiyarım,
Olmaz idi səndən özgə yarım!

Əbülfərəc Leylisinin sevgilisinə göndərdiyi şerdə aşağıdakı beytə diqqəti cəlb edir:

Qurbanın olum, mənim öz ixtiyarım
olsaydı,
Səndən başqa özgə yarım olmaz idi.

Məcnun adının və onun şerlərinin geniş şöhrətlənməsinin səbəbini Füzuli belə izah edir:

Bir neçə əziz onunla həmrah.
Yazırlar idi təmam şerin,
Oxurlar idi müdam şerin;
Aləmlərə ol ğəribü məhcur,
Əksər bu səbəbdən oldu məşhur.

«Nəğmələr kitabı»nda bütün əsər boyu bu haqda bir neçə dəfə danışılır.

Nizami əsərində belə bir beyt var:

Fars oğlu fəsahətli (şirindil)
dehqan,
Ərəbin əhvalını belə xatırlayır
ki…

Professor Rüstəm Əliyev bu beyti şərh edərək yazır: «Əslən isfahanlı olan məşhur «Nəğmələr kitabı»nın müəllifi, ərəb tarixçisi və filoloqu Əbülfərəc İsfahani nəzərdə tutulur». Füzulinin poemasında belə sətirlər var:

Dehqani-fəsihi-farsizad,
Bu gülşənə böylə dikdi şimşad…

Çox ehtimal ki, Füzuli də burada Əbülfərəc İsfahanini nəzərdə tutur.

Beləliklə, bütün yuxarıdakı faktları nəzərə almaqla, demək olar ki, Füzuli «Nəğmələr kitabı»nın nəinki Məcnunla, habelə başqa üzri şairlərlə də bağlı fəsilləri ilə yaxından tanış idi. Öz çoxşaxəli yaradıcılığında şair ərəb ədəbiyyatının ən dəyərli nailiyyətlərindən hesab olunan üzri poeziyanı və onu yaradan şairlərin həyatı haqqında rəvayətləri mənimsəmiş və üzvi surətdə milli Azərbaycan bədii ədəbiyyatı ilə sintezləşdirə bilmişdir. Lakin başqa ədəbiyyat təcrübəsindən qidalanarkən, dahi şair öz orijinallığını, milli spesifikasını və koloritini nəinki qoruyub saxlaya bilmiş, hətta heyrətamiz bir sənət incisi yarada bilmişdir.

Bir məqalədə hər iki əsərin bütün oxşarlıqlarından söz açmaq mümkün deyil. Bu oxşarlıqları öyrənmək üçün Füzulinin ölməz məhəbbət poeması Əbülfərəc İsfahaninin «Nəğmələr kitabı»nın üzri şairlərlə bağlı fəsilləri ilə müqayisəli tədqiq olunmalıdır. Hər iki əsərin ideya-məzmun tərkibi, obraz sistemi, ifadə vasitələri müqayisəli şəkildə bütün təfsilatı ilə öyrənilməlidir. Yalnız bundan sonra Azərbaycan – ərəb ədəbi əlaqələrinin çox maraqlı faktları ilə yaxından tanış ola bilərik.

«Ədəbiyyat qəzeti», 30 aprel 1993-cü il, № 17.

AZƏRBAYCAN ŞƏRQŞÜNASLIQ ELMİNİN AKADEMİK HƏMİD ARASLI MƏRHƏLƏSİ

Həmid Məhəmməd Tağı oğlu Araslı Azərbaycan klassik ədəbiyyatının tədqiqi və nəşri sahəsində müstəsna xidmətləri olan görkəmli ədəbiyyatşünaslardandır. Ədəbiyyatımızın mahir tədqiqatçısı və gözəl mətnşünas kimi fəaliyyət göstərən alimin rəhbərliyi altında orta əsrlər Azərbaycan ədəbiyyatı, bütövlükdə Şərq ədəbiyyatı sahəsinə dair neçə-neçə əsərlər yazılmış, araşdırmalar aparılmış, monoqrafiya və kitablar çap olunmuşdur.

Ali məktəblərdə Azərbaycan ədəbiyyatı tarixinin orta əsrlər kursunun əsasını qoyan alim klassik irsimizin tədrisi, ədəbiyyat dərsliklərinin, proqramlarının tərtibində də yaxından iştirak etmiş, 1936-cı ildən başlayaraq orta məktəbin VIII sinfi üçün ədəbiyyatımızın orta əsrlər dövrünü əhatə edən dərslik yazmışdır. Bu dərslik alimin təkmilləşdirmələri ilə ömrünün sonuna qədər (1983-cü il) nəşr olunmuş, ən yaxşı dərs vəsaiti kimi işlənmişdir.

Ali məktəblərdə ədəbiyyat fənninin, xüsusilə qədim və orta əsrlər Azərbaycan ədəbiyyatının tədrisində alimin tərtib etdiyi proqramlar, yazdığı tədqiqat əsərləri dərs vəsaiti olaraq indi də istifadə olunmaqdadır.

Həmid Araslı respublikanın mədəni-ictimai həyatında da çox fəal iştirak etmişdir. Nizami adına Ədəbiyyat muzeyinin və onun elmi ekspozisiyalarının yaranmasında alimin böyük əməyi olmuşdur. O, 1940-cı ildən başlayaraq muzeydə əvvəlcə elmi katib, sonra elmi işlər üzrə direktor müavini, 1960-68-ci illərdə isə direktor vəzifəsində işləmişdir. Alimin yaratdığı elmi ekspozisiyalar bu gün də saxlanılmaqdadır.

1944-cü ildən ADU (indiki BDU)-nun Yaxın Şərq xalqları ədəbiyyatları kafedrasının müdiri vəzifəsinə təyin olunan H.Araslı klassik Şərq və Azərbaycan ədəbiyyatının tədrisi və gənc şərqşünas kadrların hazırlanması ilə müntəzəm məşğul olmuşdur. O, 1938-ci ildən Nizami adına Dil və Ədəbiyyat İnstitutunda fəaliyyət göstərmiş, 1941-ci ildən «Qədim ədəbiyyat şöbəsi»nin ilk müdiri olmuşdur.

İlk sistemli Azərbaycan ədəbiyyatı tarixinin yaradılması da H.Araslının adı ilə bağlıdır. Onun 1943-cü ildə nəşr olunan «Müxtəsər Azərbaycan ədəbiyyatı tarixi» kitabında ədəbiyyatımızın qədim dövrlərdən tutmuş XVI əsrin sonlarına qədərki inkişaf mərhələləri və bu dövrdə yaşayıb yaratmış Azərbaycan sənətkarlarının yaradıcılığı ilk qaynaqlar və nadir əlyazmaları əsasında araşdırılır.

Alimin mətnşünaslıq sahəsindəki xidmətləri də təqdirəlayiqdir. O, Salman Mümtazla başlayan bu işin fədakar davamçısı olmuş, Füzuli, Vaqif, Vidadi, Xətai, Qövsi, Saib Təbrizi və başqa orta əsr şairlərinin əsərlərini nəşr etməklə

klassik irsin öyrənilməsində mühüm xidmət göstərmişdir.

H.Araslının «XVII-XVIII əsrlər Azərbaycan ədəbiyyatı tarixi» tədqiqatı o dövrlərdə ədəbi ictimaiyyət tərəfindən kifayət qədər tanınmayan Fədai, Əmani, Saib Təbrizi, Qövsi Təbrizi, Tərzi Əfşar, Nişat Şirvani, Ağa Məsih Şirvani, Məhcur Şirvani və başqaları haqqında sistemli şəkildə bəhs edən ilk əsər kimi mühüm əhəmiyyət daşımaqdadır.

Alimin aşıq poeziyasının Qurbani, Sarı Aşıq, Abbas Tufarqanlı, Xəstə Qasım kimi nümayəndələri, «Koroğlu», «Aşıq Qərib», «Şah İsmayıl» dastanları, eləcə də XVIII əsr Azərbaycan ədəbiyyatının maraqlı nümunələrindən olan «Şəhriyar dastanı» ilə bağlı orijinal tədqiqatları da Azərbaycan ədəbiyyatının öyrənilməsində görülən təqdirəlayiq işlərdən sayılır.

«Kitabi – Dədə Qorqud»un tədqiqi ilə Azərbaycanda ilk dəfə H.Araslı məşğul olmuş və 1939-cu ildə «Kitabi – Dədə Qorqud»u nəşr etmişdir. Onun 1962 və 1978-ci illərdəki «Kitabi – Dədə Qorqud» nəşrləri də dastanın geniş oxucu kütləsinə çatdırılmasında və qorqudşünaslığın inkişafında əvəzsiz rol oynamışdır.

H.Araslının Nizami və Füzuli irsi ilə bağlı tədqiqatları xüsusilə diqqətəlayiqdir. Onun hələ 1940-cı ildə yazdığı «Şairin həyatı» kitabı və Nizaminin həyatı, dövrü və yaradıcılığının müxtəlif məsələlərini incələyən çoxsaylı tədqiqatları Nizami sənətinin öz dərin kökləri ilə doğma xalqının mənəvi zənginliklərindən, Azərbaycan xalqının qədim ədəbi-mədəni ənənələrindən ayrılmazlığını elmi dəlillərlə sübut edən əsərlər olub şairin soy-kökü və yaradıcılığının mühüm xüsusiyyətləri ilə bağlı yanlış konsepsiyaların təkzib olunmasında istinad edilən mötəbər mənbələrdir.

H.Araslı Füzuli irsinin də dərin bilicisi, ardıcıl araşdırıcısı və diqqətli naşiri kimi tanınmaqdadır. Onun şairin həyatı, yaradıcılığı və müasirlərinə həsr elədiyi monoqrafiyası, şairin yaradıcılığının mühüm sahələrini tədqiq edən məqalələri və şairin irsini əsasən əhatə edən beş cildlik tənqidi mətnləri bu gün də öz əhəmiyyətini saxlayan mənbələr kimi qiymətlidir.

Alimin orta əsrlər ədəbiyyatımızın zəngin ədəbi əlaqələrinin üzə çıxarılması istiqamətində Hafiz, Cami, xüsusilə Nəvai və başqa görkəmli Şərq sənətkarları ilə əlaqədar araşdırmaları da böyük maraq doğurmuşdur.

H.Araslı filologiya sahəsində elmi kadrların yetişdirilməsi işində ardıcıl çalışmış, neçə-neçə elmlər namizədi və doktorları yetişdirmişdir. Alim Özbəkistan və Türkmənistanda da onlarla elmlər namizədlərinin elmi rəhbəri və doktorların elmi məsləhətçisi olmuşdur.

Azərbaycan EA-nın həqiqi üzvü, əməkdar elm xadimi, görkəmli ədəbiyyatşünas alim, istedadlı elm təşkilatçısı Həmid Araslı Azərbaycanda, habelə

respublikamızdan uzaqlarda başqa xidmətləri ilə yanaşı, görkəmli şərqşünas kimi də geniş şöhrət tapmışdır. Keçmiş SSRİ respublikaları ilə yanaşı, alimi və onun əsərlərini Türkiyədə, İranda, İraqda İordaniyada da gözəl tanıyır və yüksək qiymətləndirirdilər. O, Özbəkistanın əməkdar elm xadimi, Türk Dil Qurumunun fəxri üzvü, İraq Akademiyasının fəxri akademiki və islam sivilizasiyasını öyrənən İordaniya Kral Cəmiyyətinin fəxri üzvü kimi yüksək adlara layiq görülmüşdü.

Azərbaycan ədəbiyyatının ardıcıl tədqiqatçısı, kamil bir mətnşünas və istedadlı folklor mütəxəssisi kimi tanınan alimi tale elə bil özü elmi fəaliyyətinin ilk illərində «Min bir gecə» nağıllarında olduğu kimi ecazkar bir aləmə - şərqşünaslıq aləminə gətirib çıxarmışdı. H.Araslı hələ 1932-ci ildə aspiranturada təhsil aldığı zamanlar o vaxt keçmiş SSRİ EA Zaqafqaziya filialının Azərbaycan bölməsində təşkil edilmiş kitabxananın şərqşünaslıq şöbəsinin müdiri təyin olunmuş və həmin dövrdən başlayaraq Azərbaycan və Şərq klassiklərinin əlyazmalarını toplayaraq sonralar Əlyazmalar fondu yaratmış və yaratdığı fondun ilk müdiri vəzifəsində çalışmışdır.

1968-ci ildə alim Azərbaycan EA Şərqşünaslıq İnstitutunun «Ədəbiyyat» şöbəsinə müdir təyin olunur və elə bu vaxtdan da İnstitutda Şərq ədəbiyyatları üzrə icra olunan problem və mövzulara rəhbərlik edir. 1970-ci ildən 1981-ci ilədək Həmid müəllim Şərqşünaslıq İnstitutunun direktoru vəzifəsində çalışır və İnstitut direktoru kimi böyük elmi-təşkilati iş aparır. O, Azərbaycanda Şərqşünaslıq elminin tərəqqisi, İnstitutun keçmiş SSRİ-nin digər Şərqşünaslıq İnstitutları arasında ön sıraya çıxması, onun ittifaq və xarici ölkələrin şərqşünaslıq mərkəzləri ilə elmi əlaqələrinin möhkəmlənməsi və genişlənməsi üçün qüvvə və bacarığını əsirgəmirdi.

Direktor olduğu ilk vaxtlardan akademik Həmid Araslı İnstitutun elmi-tədqiqat planlarının düzgün müəyyənləşdirilməsinə çalışır, kollektivin səyini Şərq xalqlarının tarixi, iqtisadiyyatı, mədəniyyəti, Azərbaycanın bu ölkələrlə hərtərəfli əlaqələrinin ən vacib problemlərinə dair ümumiləşdirici və monoqrafik əsərlər yaratmağa yönəldir. Akademik H.Araslının rəhbərliyi ilə İnstitutda icra olunan elmi-tədqiqat işləri əsasən aşağıdakı 7 problem çərçivəsində aparılır:

Beynəlxalq fəhlə və milli-azadlıq hərəkatının inkişaf qanunauyğunluqları;
Türkiyə, İran və Ərəb ölkələrinin iqtisadi inkişafı;
İran və Türkiyənin tarixi inkişaf xüsusiyyətləri;
Yaxın və Orta Şərq xalqları ədəbiyyatlarının inkişaf qanunauyğunluqları;
Yaxın və Orta Şərq xalqları dillərinin işlənməsi və inkişafı;
Yaxın və Orta Şərq xalqlarının mədəniyyəti və ictimai fikir tarixi;

Şərq yazılı abidələrinin tədqiqi və nəşrə hazırlanması.

Tədqiq olunan problemlərə 1973-cü ildə iki yeni problem əlavə olunur:

Dünya ədəbiyyatlarının inkişaf qanunauyğunluqları və *Dünya mədəniyyətinin fəlsəfi və sosioloji problemləri*.

1975-ci ildə isə tədqiq olunan problemlərə bir yeni problem əlavə olunur: *inkişafda olan ölkələrin iqtisadi və sosial problemləri*.

1976-cı ildə yenə bir problem əlavə olunur: *Asiya və Afrika xalqlarının yazılı mənbələri, elmi-tənqidi mətnlərin tərtibi*.

Adları çəkilən problemlər çərçivəsində 1970-81-ci illər ərzində İnstitutda hazırlanmış onlarla monoqrafiya, kitab, məcmuə, yüzlərlə elmi məqalə respublika, ümumittifaq və xarici ölkə nəşriyyatlarında çap olunur. Bunlardan «Турция в период правления младотурок» (H.Əliyev, Moskva, 1972), «Реалистическая демократическая поэзия Иранского Азербайджана» (H.Billuri, 1972), «Xətib Təbrizinin həyat və yaradıcılığı» (M.Mahmudov, 1972), «Просвещение в Турции в новейшее время» (T.Dadaşov, 1972), «Nəsimi» (6 dildə, H.Araslı, 1973), Ə.X.Dəhləvinin və Əbdi bəy Şirazinin əsərlərinin ədəbi-tənqidi mətnləri, «Müasir İran» məlumat kitabı, «Türk filologiyası məsələləri», «İran filologiyası məsələləri», «Ərəb filologiyası məsələləri», «Türkiyə tarixi məsələləri», «İran tarixi məsələləri», «İran və Türkiyənin iqtisadi inkişaf məsələləri» adlı məcmuə və monoqrafiyaları xatırlatmaq olar. Onların bir çoxunun elmi redaktoru H.Araslı özü olub, bir çoxu isə bilavasitə alimin rəhbərliyi ilə hazırlanıb. O dövrdə İnstitutda hazırlanan əsərlərdən hələ bu günə qədər nəşrini gözləyənləri də var: Əşrəf Marağainin «Xəmsə»si, «İran ədəbiyyatı tarixi» və s.

Yuxarıda sadaladığımız problemlər çərçivəsində icra olunan bir çox mövzu və elmi işə də Həmid müəllim bilavasitə özü rəhbərlik edib. Bunlardan müasir türk ədəbiyyatında mütərəqqi meyllər, orta əsrlər ərəbdilli Azərbaycan ədəbiyyatı, müasir türk ədəbiyyatında realizm, Azərbaycanın Şərq ölkələri ilə tarixi-mədəni əlaqələri, Nizami yaradıcılığının İran ədəbiyyatına təsiri və sairə mövzuların adlarını çəkmək olar.

Akademik Həmid Araslının direktor kimi təşkilati fəaliyyətinin bir cəhəti də İnstitutun strukturunun optimal şəkildə burada icra olunan işlərin istiqamətinə uyğunlaşdırılmasına yönəlmişdi. 1975-ci ildə H.Araslının təqdimatı və EA-nın Rəyasət heyətinin qərarı ilə İnstitutda ciddi struktur dəyişikliyi aparıldı. İran tarixi, Türkiyə tarixi və Ərəb ölkələri tarixi şöbələrinin əsasında Yaxın və Orta Şərq ölkələrinin yeni və ən yeni tarixi şöbəsi yarandı. Türk və ərəb ədəbiyyatı şöbəsi ayrılaraq 2 şöbə - ərəb və türk filologiyası şöbələri yarandı. Dilçilik şöbəsi ləğv olundu və onun əməkdaşları 3 şöbə - ərəb, türk və

İran filologiyası şöbələrində yerləşdirildi. Yeni 3 şöbə yaradıldı:

Orta əsrlər Şərqi şöbəsi,

Azərbaycanın Şərq ölkələri ilə tarixi və mədəni əlaqələri şöbəsi,

Müasir dövrdə milli-azadlıq hərəkatı problemlərinin tədqiqi şöbəsi.

1976-cı ildə İnstitutda yenə bir yeni şöbə - Azərbaycanın Şərq ölkələri ilə ədəbi əlaqələri şöbəsi yaradıldı.

Böyük vətənpərvər alim H.Araslını xüsusilə narahat edən məsələ xalqımızın orta əsrlər müştərək müsəlman mədəniyyətinin yaradılmasında oynadığı rolun tədqiqi idi və o daim müvafiq şöbə rəhbərlərini bu istiqamətdə tədqiqatlar aparmağa sövq edirdi. Sırf şərqşünaslıq problemlərinin tədqiqini azərbaycanşünaslıqla sıx uzlaşdırmaq məsələsi də daim alimin diqqət mərkəzində idi.

Ərəb Şərqinin dünya geosiyasi xəritəsində kəsb etdiyi böyük əhəmiyyəti tam anlayaraq və Azərbaycan ilə sıx tarixi və mədəni əlaqələrini nəzərə alaraq, Həmid müəllim İnstitutda ərəbşünaslığın inkişafına xüsusi diqqət yetirir, bununla əlaqədar Ərəb filologiyası şöbəsi açır, ərəb tarixini, iqtisadiyyatını, ictimai fikrini öyrənmək üçün şərait yaradırdı, aspiranturaya qəbul zamanı ərəbşünas tələbələrin qəbuluna xüsusi diqqət yetirirdi. Elə il olub ki, o, Azərbaycan Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinin ərəb bölməsinin bütün məzunlarını İnstituta işə götürüb.

Mövzular təsdiq olunanda akademik H.Araslı çalışırdı xırda mövzulardan qaçılsın, böyük kollektiv işlərə, ümumiləşdirici monoqrafiyaların yazılmasına üstünlük verilsin.

İcra olunan işlərin elmi-nəzəri səviyyəsinin daim yüksəlməsi alimin diqqət mərkəzində idi. Bu məqsədlə Həmid müəllim uzun illər İnstitutda şəxsən özü «Sovet şərqşünaslığının aktual problemləri» adlı ümuminstitut elmi-nəzəri seminarı aparmışdır.

Koordinasiya məsələlərinə böyük diqqət yetirən alim daim çalışırdı ki, institutda icra olunan mövzular Akademiyanın başqa institutlarında icra edilən işlərlə uzlaşsın, təkrara yol verilməsin. Alim yüksək ixtisaslı şərqşünas kadrların yetişdirilməsinə də böyük diqqət yetirirdi. O illər İnstitutda onlarla elmlər doktoru və elmlər namizədi hazırlanmışdı ki, onlardan bir çoxu bu gün də Azərbaycan şərqşünaslıq elmini inkişaf etdirən potensialın əsas özəyini təşkil edir. Akademik H.Araslı uzun illər filologiya üzrə Müdafiə Şurasının sədri olub. O, çalışırdı əməkdaşlara zəruri şərait yaratsın – SSRİ-nin Şərqşünaslıq mərkəzlərinə, xarici ölkələrə elmi ezamiyyət üçün yuxarı təşkilatlar qarşısında bu haqda dəfələrlə məsələ qaldırırdı və çox vaxt buna müvəffəq olurdu, onun sayəsində bir çox əməkdaşlar o illər elmi ezamiyyət imkanı əldə etdi. İnstitutun rəhbəri kimi Həmid müəllim Yaxın və Orta Şərq ölkələrinin müxtəlif prob-

lemlərinə həsr olunmuş bir sıra beynəlxalq və regional elmi konfransların, sessiyaların və simpoziumların təşkilatçısı olmuşdur. O, Azərbaycan şərqşünaslıq elmini bir çox xarici ölkələrdə ləyaqətlə təmsil etmişdi.

Bu gün Həmid müəllim haqq dünyasındadır. Amma onun gördüyü işlər, səpdiyi toxumlar hələ də öz bəhrəsini verməkdədir. Həmid müəllim institutumuzun vaxtilə istiqamətləndirmiş olduğu elmi işlərində, yetişdirdiyi və bu gün artıq özləri tələbə yetişdirən tələbələrində və saysız-hesabsız əsərlərində yaşayır. Əsl alim üçün bundan böyük xoşbəxtlik ola bilərmi?

Məqalə akademik Həmid Araslının
90 illiyinə həsr olunmuş elmi konfransda səsləndirilib.
Bakı, 14 oktyabr, 1999-cu il.

PARLAMENTİMİZ VƏ QADIN DEPUTATLAR

Yaşadığımız 2001-ci il Azərbaycanın ictimai-siyasi həyatında bir çox əlamətdar hadisələrlə zəngindir. Bunlardan ən önəmlisi isə Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin fərmanı ilə dövlət müstəqilliyimizin 10 illiyinin qeyd olunmasıdır.

Bu illər ərzində bir çox təhlükələrlə qarşılaşmasına baxmayaraq, xalqımız ən böyük tarixi nailiyyəti olan müstəqilliyini qoruyub saxlaya bilmişdir. Milli dövlətçiliyimizin müqəddəratının həll edildiyi, qardaşın qardaşa düşmən kəsildiyi 1993-cü ilin vahiməli iyun günlərində ümummilli liderimiz Heydər Əliyevin xalqın təkidi ilə ölkə rəhbərliyinə qayıtması uçurumun bir addımlığında dayanan Azərbaycan Respublikasını məhv olmaq fəlakətindən xilas etdi. Ötən illər ərzində möhtərəm Prezidentimizin həyata keçirdiyi xilaskarlıq missiyası sayəsində Azərbaycan dövləti möhkəmləndirildi və inkişaf etdirildi, onun geosiyasi əhəmiyyəti yüksəldi, ölkəmiz qlobal əhəmiyyətli iqtisadi layihələrin mərkəzinə çevrildi.

Son illər Azərbaycan Respublikasında gedən inkişaf proseslərinin üstün istiqamətlərindən biri demokratikləşmə fonunda qadın problemi, qadın hərəkatı, qadın hüquqlarının müdafiəsi, qadınların fəal ictimai qüvvəyə çevrilməsidir. Məhz bunun nəticəsidir ki, bu gün qadınlarımızın həyat tərzinin yaxşılaşdırılması dövlətin həyata keçirdiyi sosial-iqtisadi siyasətin aparıcı istiqamətlərindən birinə çevrilmişdir. Bu siyasətdə, təbii ki, Azərbaycan qadınını ailədə və cəmiyyətdə ənənəvi həyat və təfəkkür tərzini qoruyub yaşadan milli dəyərlər ön plana çəkilir.

Bu gün xalqımızın üzləşdiyi müharibədə Azərbaycan qadını da çox böyük iztirablara, əzablara düçar olmuşdur. İstər Ermənistandan, istərsə də Dağlıq Qarabağdan və ətraf rayonlardan qovulmuş milyonlarla insanın çox hissəsini qadınlar, uşaqlar təşkil edir. Bu günahsız insanlar erməni şovinistlərinin iyrənc işğalçılıq siyasətinin, erməni terrorizminin qurbanlarına çevrilmişlər. Çadır şəhərciklərində dözülməz şəraitdə yaşayan Azərbaycan qadını öz doğma yurd-yuvasına qayıdacağı günü səbirsizliklə gözləyir.

Möhtərəm Prezidentimiz Heydər Əliyev qadın problemlərinin həllini dövlət siyasətinin tərkib hissəsi hesab edərək, Azərbaycan qadınlarının cəmiyyətdə mühüm mövqe tutmasına həmişə böyük diqqət və qayğı göstərmişdir. 1998-ci ildə Prezidentin fərmanı ilə Qadın Problemləri üzrə Dövlət Komitəsi yaradılmışdır ki, bunu da ölkəmizdə qadın problemlərinin həllinə dövlət qayğısı kimi qiymətləndirmək olar.

2000-ci il martın 6-da ölkə Prezidenti «Azərbaycan Respublikasında dövlət

qadın siyasətinin həyata keçirilməsi haqqında» fərman imzalamışdır. Fərmanda qadınların kişilərlə bərabərliyini, xüsusilə onların dövlət idarəçiliyi sistemində lazımi səviyyədə təmsil olunmasını əməli surətdə təmin etmək kimi vəzifələr öz əksini tapmışdır.

Dövlət başçısının üçüncü minilliyin gəlişi münasibəti ilə xalqa müraciətində də Azərbaycan qadınlarının inkişaf yoluna xüsusi nəzər salınmış, qadın hərəkatı yüksək qiymətləndirilmişdir. Bu sənəddə cəmiyyət və dövlət həyatının müxtəlif sahələrində qadınlarımızın nailiyyətləri bir daha təqdir edilmişdir.

Azərbaycan Respublikasının qanunvericiliyi həyatın bütün sahələrində qadın və kişilərin bərabərliyi ideyalarını ifadə edir. 1995-ci ilin iyununda Azərbaycan Respublikası BMT-nin «Qadınlara münasibətdə hər cür ayrı-seçkiliyin ləğv edilməsi barədə» Konvensiyasına qoşularaq öz üzərinə müvafiq öhdəliklər götürmüşdür. Ümumilikdə, müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan dövləti qadınların və uşaqların hüquq və azadlıqları ilə əlaqədar 20-dən çox beynəlxalq konvensiyaya qoşulmuşdur.

Bu gün Azərbaycan qadınları kişilərlə bərabər hüquqlara malik olaraq cəmiyyətin inkişafında mühüm rol oynayırlar. Müstəqil respublikamızın 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş Konstitusiyasında qadınların kişilərlə bərabər hüquqlara malik olması öz əksini tapmış, demokratik dövlət quruculuğu prosesində onların fəal iştirakının hüquqi bazası yaradılmışdır.

Tarixən şərəfli yol keçmiş, öz ucalığını qoruyub saxlamış Azərbaycan qadını bu gün cəmiyyətin bütün sahələrində fəal rol oynayır, bilik və bacarığını müstəqil dövlətimizin möhkəmlənməsinə və inkişafına sərf edir. Bu gün ölkəmizdə elə bir sahə tapılmaz ki, orada qadınlarımız kişilərlə bərabər çalışmasın və ya rəhbər vəzifə tutmasınlar. Müstəqil dövlətimizin parlamentində qadınların deputat kimi fəaliyyəti də onların Azərbaycan cəmiyyətində yüksək nüfuza malik olmasının göstəricisidir. Bu gün qadınlarımızın səsi BMT, Avropa Şurası, Parlamentlərarası İttifaq, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, Müstəqil Dövlətlər Birliyi, İslam Konfransı Təşkilatı kimi nüfuzlu beynəlxalq təşkilatların tribunalarından eşidilir. Avropa Şurasının tam hüquqlu üzvü olan Azərbaycanı bu mötəbər qurumun Parlament Assambleyasında kişi deputatlarımızla yanaşı qadın deputatlarımız da təmsil edirlər.

Birinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin qanunvericilik fəaliyyətində qadın deputatlarımız fəal iştirak etmişlər. Onlar dəfələrlə nüfuzlu beynəlxalq toplantılarda iştirak etmiş, Azərbaycanda baş verən ictimai-siyasi proseslər, demokratik islahatlar barədə dünya ictimaiyyətinə məlumat vermişlər. Ötən çağırışda parlamentdə yer tutmuş qadınların 3 nəfəri elmlər doktoru, 2 nəfəri

elmlər namizədi, 1 nəfəri SSRİ-nin, 2 nəfəri Azərbaycanın xalq artisti, 1 nəfəri SSRİ, 2 nəfəri Azərbaycanın Dövlət mükafatı laureatı idi. Onların hər biri üzərinə düşən vəzifəni layiqincə yerinə yetirməyə çalışmış və buna nail olmuşlar.

İkinci çağırış Azərbaycan Respublikasının Milli Məclisində 13 qadın deputat fəaliyyət göstərir. Onların 3 nəfəri elmlər doktoru, 3 nəfəri elmlər namizədi, 1 nəfəri SSRİ-nin, 2 nəfəri Azərbaycanın xalq artisti, 2 nəfəri Dövlət mükafatı laureatıdır. Qadınlarımızın 8 nəfəri cəmiyyətin aparıcı siyasi qüvvəsi olan Yeni Azərbaycan Partiyasının üzvüdür, 5 nəfəri isə bitərəfdir.

Qadın deputatlarımız ölkəmizdə həyata keçirilən hüquqi, demokratik və dünyəvi dövlət quruculuğunun, vətəndaş cəmiyyəti yaradılmasının, bazar iqtisadiyyatı prinsiplərinin tətbiqinin, geniş miqyaslı islahatların qanunvericilik bazasının yaradılması, təkmilləşdirilməsi və inkişaf etdirilməsi sahəsində onlara həvalə olunan vəzifələri layiqincə yerinə yetirir, parlamentin fəaliyyətinin səmərəli olması üçün bütün qüvvə və bacarıqlarını sərf edirlər.

Milli Məclisin üzvü Asya Manafova parlamentin Təbii ehtiyatlar, energetika və ekologiya məsələləri daimi komissiyasının sədri kimi ölkəmizin təbii sərvətlərindən istifadənin hüquqi mexanizminin təkmilləşdirilməsi istiqamətində uğurlu fəaliyyət göstərir. O, Müsəlman Dövlətləri Qadın Parlament Üzvləri Təşkilatının, «Qloba» ekoloji təşkilatının üzvü, habelə Azərbaycan-Norveç parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəridir.

Milli Məclisin İnsan hüquqları daimi komissiyası sədrinin müavini Rəbiyyət Aslanovanın insan haqlarının qorunmasına, hüquqi, demokratik dövlət quruculuğuna dair qanun layihələrinin hazırlanmasında fəaliyyəti təqdirəlayiqdir. O, Azərbaycan-Moldova parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəridir.

Gültəkin Hacıyeva Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr daimi komissiyası sədrinin müavini, eyni zamanda, Avropa Şurasının Parlament Assambleyasında Azərbaycan Respublikası Milli Məclisi daimi nümayəndə heyətinin üzvüdür. O, AŞPA-nın Hüquq məsələləri və insan haqları, Ekologiya və kənd təsərrüfatı, Qadın və kişilərin bərabərliyi komitələrinin üzvüdür.

Nairə Şahtaxtinskaya Avropa Şurası Parlament Assambleyasının Qaçqınlar və miqrasiya komitəsi sədrinin müavini kimi nəinki Azərbaycan məkanında, eləcə də Avropa miqyasında müxtəlif problemlərin həlli ilə məşğuldur. O, Azərbaycan-Albaniya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun sədri kimi də səmərəli fəaliyyət göstərir.

Gülər Əhmədova Milli Məclisin İntizam komissiyasının katibi olmaqla yanaşı, Azərbaycan-Fransa parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri kimi məsul bir vəzifənin öhdəsindən də layiqincə gəlir. Eyni zamanda, o, Respublika Uşaq Təşkilatının sədri kimi ölkəmizdə uşaqların problemləri ilə

yaxından məşğul olur.

Xalqımızın sevimli sənətkarı Zeynəb Xanlarova Azərbaycan-Hindistan parlamentlərarası işçi qrupunun rəhbəridir. O, Milli Məclisdə mədəniyyət sahəsində hazırlanan qanun layihələrinin təkmil olması üçün əlindən gələni əsirgəmir.

Amaliya Pənahova da görkəmli mədəniyyət xadimidir, eyni zamanda, millət vəkili kimi uğurla çalışır. O, MDB Parlamentlərarası Assambleyasının Mədəniyyət, informasiya, turizm və idman daimi komissiyası sədrinin müavini, Azərbaycan-İtaliya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəridir.

Respublikanın ictimai-siyasi həyatında özünəməxsus yeri olan deputat Bahar Muradova Azərbaycan-Litva parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri kimi də fəaliyyət göstərir.

Görkəmli pedaqoq kimi geniş ictimaiyyətin rəğbətini qazanan deputat Gülçöhrə Məmmədova Milli Məclisin Elm və təhsil məsələləri daimi komissiyasının üzvü kimi bu sahələrə aid qanun layihələrinin hazırlanmasında fəal iştirak edir.

Bir çox ictimai tədbirlərin təşəbbüsçüsü və təşkilatçısı olan deputat Məlahət Həsənova Azərbaycan-Qırğızıstan parlamentlərarası əlaqələr üzrə işçi qrupuna rəhbərlik edir.

Gənc deputatımız, şahmat üzrə beynəlxalq qrossmeyster Aynur Sofiyeva Azərbaycan-Yaponiya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəridir.

Bir sözlə, qadın deputatlar Azərbaycan parlamentinin çox dəyərli üzvləri olub müstəqil dövlətimizin qanunvericilik bazasının möhkəmləndirilməsində və inkişaf etdirilməsində mühüm rol oynayırlar. Bu gün Azərbaycan Respublikasında geniş vüsət almış demokratikləşmə proseslərinin uğurla həyata keçirilməsinə qadınlarımız böyük töhfə verirlər.

Bildiyimiz kimi, Azərbaycanın Qarabağ kimi ağrılı bir problemi vardır. İndi cəbhə xəttində atəşkəs rejimi hökm sürsə də, problemin birdəfəlik aradan qaldırılmaması bütün cəmiyyətimizi, o cümlədən qadınları narahat edir. Həmişə sülhün tərəfdarı olan qadınlar Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin dinc yolla nizama salınması üçün möhtərəm Prezidentimiz Heydər Əliyevin göstərdiyi səyləri ürəkdən dəstəkləyirlər. Onlar inanırlar ki, müstəqil dövlətimizin inkişafı yolunda ən böyük maneə olan bu problem tezliklə həll ediləcək, Azərbaycan sabit inkişaf yolu ilə inamla irəliləyən qüdrətli bir dövlətə çevriləcəkdir. Bu müqəddəs amalın həyata keçməsi üçün qadınlarımız, o cümlədən Azərbaycan Respublikası Milli Məclisinin deputatı olan qadınlarımız bundan sonra da öhdələrinə düşən vəzifələri layiqincə yerinə yetirəcəklər.

Məqalə «Müstəqil dövlətimiz və Parlamentimiz».
Bakı, 2001-ci il kitabında nəşr edilib, səh. 103-111.

ŞƏRƏFLİ ÖMÜR

Görkəmli Azərbaycan alimi, əməkdar elm xadimi, dünya şöhrətli şərqşünas, filologiya elmləri doktoru, professor, Harvard Universitetinin fəxri professoru, məşhur ictimai xadim R.M.Əliyev Azərbaycan xalqının elm və mədəniyyət tarixində tək-tək parlayan zəkalardan idi. Orta əsrlər İran, Azərbaycan, ərəb və türk filologiyası sahəsində yüksək intellektə malik bu görkəmli şərqşünas-alimin farsdilli ədəbiyyatın tədqiqi və nəşri, mənbəşünaslıq və mətnşünaslıq sahələri üzrə apardığı monumental işlər onun istedadının, zəhmətkeşliyinin və elmə məhəbbətinin bəhrəsi kimi yaranmışdı. Xüsusilə elmi-tədqiqat institutlarının fəaliyyətinin çiçəkləndiyi bir dövrdə o, elm aləmində heyrət və həsəd doğuran bir zirvə kimi ucalırdı.

Rüstəm Musa oğlu Əliyev 1929-cu il yanvar ayının 13-də Şəmkir rayonunun Morul kəndində anadan olmuşdur. Onun həyatının, elmi fəaliyyətinin zahiri əlamətlərində bir qeyri-adilik nəzərə çarpır. 1946-cı ildə Nizami adına Morul kənd orta məktəbini bitirən R.Əliyev Azərbaycan Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinə daxil olmuş, bir il oxuduqdan sonra imtahanları müvəffəqiyyətlə verərək Leninqrad Dövlət Universitetinə qəbul olunmuşdur.

Dünya şərqşünaslığının mühüm mərkəzlərindən biri olan Leninqrad Dövlət Universiteti R.Əliyevin elmi fəaliyyətinin formalaşmasında, təşəkkülündə mühüm rol oynamışdır. O özünü, bir tərəfdən, Avropa Şərqşünaslıq məktəbinin yetirməsi A.Y.Krımski, İ.Y.Kraçkovski, Y.E.Bertels, A.A.Freyman, V.V.Struve kimi şöhrətli alimlərin tələbəsi hesab edirdi, digər tərəfdən isə 20-30-cu illərdə Azərbaycanda fəaliyyət göstərən Əhməd bəy Ağayev, Bəkir Çobanzadə kimi görkəmli nümayəndələri olan Azərbaycan şərqşünaslığının davamçısı sanırdı. Avropa şərqşünaslıq məktəbinin elmdə düzlük, dəqiqlik, konkret faktlara əsaslanmaq, saxtakarlıqdan uzaq olmaq xüsusiyyətləri R.Əliyevin yaradıcılıq prinsiplərinə uyğun idi.

Qeyri-adi yaddaş, sərbəst düşüncə tərzi, yüksək intellekt, dilləri öyrənmək məharəti onun istedadının mühüm sahələri kimi elmi fəaliyyətində böyük rol oynamışdır. Rus, fars, ərəb, ingilis, türk dillərini mükəmməl bilməsi ona Şərq və Qərb ədəbiyyatlarını orijinaldan oxumaq imkanı verirdi. Hər bir mətnin, mövzunun mahiyyətini, fəlsəfi mənasını dərindən duymaq, tez qavramaq, azad duyum və düşüncə tərzinə, dərin hiss və ağıla, yüksək natiqlik istedadına malik olmaq, dünyanın müxtəlif ölkələrində elmi və siyasi mövzularda mühazirələrinin qətiliyi, məntiqiliyi, cəsarəti və pafosu ilə dinləyicilərini heyran etmək qabiliyyəti Rüstəm Əliyev fenomenini səciyyələndirən xüsusiyyətlər kimi ona Şərqdə və Qərbdə böyük şöhrət qazandırmışdı.

R.Əliyev 1951-ci ildə Leninqrad Dövlət Universitetini fərqlənmə diplomu ilə bitirmiş və aspiranturada saxlanılmışdı. O, dövrünün ictimai elmləri sırasında fəxri yer tutan şərqşünaslıq sahəsi üzrə elmi fəaliyyətə başlayaraq, Şərq xalqlarının ədəbi-mədəni abidələrinin elmi-tənqidi mətnlərinin hazırlanması və nəşr etdirilməsi kimi məsuliyyətli və nəcib bir işi öz öhdəsinə götürmüşdü.

R.Əliyev 1954-cü ildə «Sədinin «Gülüstan» əsərinin tənqidi mətni» mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir. Artıq elmi ictimaiyyətin yaxşı tanıdığı gənc alimi 1955-ci ildə Y.E.Bertels Moskva Şərqşünaslıq İnstitutuna dəvət etmiş və o, 1971-ci ilədək burada kiçik elmi işçidən «Şərq mətnşünaslığı bölməsi»nin müdiri vəzifəsinədək yüksəlmişdir.

Şərqşünaslığın müxtəlif problemlərinə həsr olunmuş əsərləri ona dünya şöhrəti gətirmiş və bununla əlaqədar olaraq xarici ölkələrin elm və təhsil mərkəzlərinə dəvət olunmuşdur. Hindistan, Misir, Mərakeş, İran, İraq, Suriya, Tunis, ABŞ, İngiltərə, Fransa və başqa ölkələrdə dərin elmi məzmunu, yüksək ifadə səviyyəsi ilə seçilən mühazirələrini dəvət olunduğu ölkələrin dilində oxuması onun sözünün təsirini və şöhrətini artırırdı. R.Əliyev elmi fəaliyyəti ilə yanaşı, 1952-1968-ci illərdə Hərbi Xarici Dillər İnstitutunda, Leninqrad Dövlət Universitetində, Azərbaycan Dövlət Universitetində və başqa elm və təhsil müəssisələrində böyük pedaqoji iş aparmışdır.

Sədinin «Gülüstan» əsərinin elmi-tənqidi mətninin tərtibi, rus dilinə tərcüməsi, geniş müqəddimə və şərhlərin yazılması kimi böyük bir işin icrası ilə eyni vaxtda Cami, Xəyyam, Nizami, Füzuli kimi dahi söz sənətkarlarının əsərləri üzərində tədqiqatlar aparması alimin erkən yaradıcılıq yetkinliyini göstərirdi.

Nizaminin «Leyli və Məcnun», «Lirika», Füzulinin «Seçilmiş əsərləri», «Leyli və Məcnun», «Qəzəllər» kitablarının tərtibi, rus dilinə tərcüməsi, müqəddimə və şərhlərin yazılması, Ömər Xəyyamın «Rübailər»inin tənqidi mətninin tərtibi və s. R.Əliyevin geniş profilli, hərtərəfli bir alim olduğundan xəbər verirdi.

Çoxcəhətli yaradıcılıq imkanları olan alim, əsasən, mətnşünas idi. Hələ tələbə ikən Universitetin nəşriyyatında onun xətti ilə «Ərəb müntəxəbatı» çap olunmuşdu. Alimə şöhrət gətirən, onu Şərq və Qərb aləmində geniş tanıtdıran Firdovsinin «Şahnamə» (IV, V - VIII c.), Ömər Xəyyamın «Rübailər», Sədi Şirazinin «Bustan» və «Gülüstan» əsərlərinin elmi-tənqidi mətninin tərtibi, tərcüməsi və tədqiqi olmuşdur. Sonralar alim Nizaminin «Sirlər xəzinəsi»nin elmi-tənqidi mətninin və «Fəzlullah Nəimi Təbrizi və İmadəddin Nəsimi Şirvaninin fars divanı»nın tərtibi kimi mühüm elmi işlərin öhdəsindən gəlmişdir.

Mətnşünaslıq «şərqşünaslığın ən çətin» (Z.Bünyadov), mürəkkəb və böyük

elmi məsuliyyət tələb edən bir sahəsidir. Bu sahəyə aid faktlar «buzlu okeanlarda üzən aysberqlərə» (N.Rzayev) bənzəyir. Mətnşünaslıq elminin nəzəri və praktik problemlərini dərindən bilən alim öz yaradıcılıq prinsiplərindən çıxış edərək yazmışdı: «Həqiqi mətnşünaslıq müstəsna dərəcədə həssas, riyazi dərəcədə dəqiq elmdir; elə elm ki, mütəxəssislərdən dil, klassik poeziya, tarix, təsəvvüf, üslub, nəzm, obrazlı sistem, poetika, o vaxtkı elm və s. sahələrdə dərin idrak, şairin üslubunu duyum, çoxlu əlyazma nüsxələrində təqdim olunan müxtəlif variantlar içərisindən ən yaxşısını seçmə nəzəriyyəsində və sənətində professional hazırlıq tələb edir».

Bir mətnşünas kimi R.Əliyevin ilk ciddi elmi işi böyük İran şairi Sədinin məşhur «Gülüstan» əsərinin elmi-tənqidi mətninin hazırlanması, filoloji tərcüməsi, həmçinin mətnin tənqidinə, bədii təhlilinə aid tədqiqatlardan ibarət olmuşdur.

Namizədlik və doktorluq dissertasiyalarının «Gülüstan» və «Bustan» əsərlərinə həsr olunması Sədinin yaradıcılığına məftunluğun və məhəbbətin ifadəsi idi. Dünya şərqşünaslığında böyük hadisə olan bu tədqiqatlar alimə dünya şöhrəti gətirmişdi.

1957-ci ildə Moskvada «Gülüstan» əsərinin poetik tərcüməsi çap olundu. Mətnin hazırlanması, filoloji tərcüməsi, müqəddimə və izahların yazılması R.Əliyevə, poetik tərcümə isə A.Starostinə məxsus idi. 1959-cu ildə R.Əliyev «Gülüstan» əsərinin elmi-tənqidi mətnini çap etdirdi. Əsərə yazdığı «Sədinin «Gülüstan»ının əsas nəşrləri, istifadə olunmuş əlyazmalar və mətnin tərtib olunma prinsipləri» adlı geniş ön sözdə alim əsərin ideya-bədii xüsusiyyətlərini, quruluşunu, onu yaşadan və sevdirən məziyyətləri araşdırır, burada orta əsrlərə xas təfəkkür, mədəniyyət və əxlaqın bədii ifadəsinin əhəmiyyətini qeyd edirdi. Alim «Gülüstan» əsərindən XIII əsr Yaxın Şərq feodal cəmiyyətinin həyatının mühüm sahələrini əks etdirən ədəbi abidə kimi bəhs edir, Sədinin həyat və yaradıcılığına dair yeni məlumatlar əldə edir, özünün elmi versiyasını irəli sürməklə «Gülüstan» əsərinin yazılma tarixini müəyyənləşdirirdi.

Didaktik janrın klassik nümunəsi olan, şerlə qafiyəli nəsrin bir-birilə əvəz edilməsi şəklində yazılmış, xırda hekayə və poetik aforizmlərdən ibarət olan «Gülüstan»ın Yaxın və Orta Şərqdə geniş yayılmasının səbəbini xalqın yaradıcılığına, dünyagörüşünə və dilinə bağlılıqla izah edən alim, eyni zamanda, əsərdəki bir sıra nəsihətlərin, aforizmlərin xalqın dilinə keçərək atalar sözü və məsəllərə çevrilməsini də göstərirdi. R.Əliyev «Gülüstan»dan təkcə ideya - bədii məziyyətlərinə görə deyil, tarixi-ədəbi, tarixi-coğrafi məlumatlar mənbəyi, klassik fars dilinin qiymətli abidəsi və b. keyfiyyətləri ilə məşhur olan bir əsər kimi bəhs edirdi. Alimin fikrincə, yarandığı gündən üzü köçürülüb

ölkə-ölkə yayılan, müxtəlif əlavələrə, təhriflərə, düzəlişlərə məruz qalan «Gülüstan» əsərinin hətta bir neçə variantı mövcud olmuşdur.

Şərqdə və Qərbdə 200-ə yaxın nəşri məlum olan bu əsər çox vaxt kommersiya məqsədilə və dərs vəsaiti kimi nəşr olunmuşdu. «Gülüstan»ın ilk variantının bərpa olunması isə şərqşünaslığın qarşısında hər vaxt mühüm vəzifə kimi dururdu. Hələ XVI əsrdə türk, XX əsrdə rus şərqşünasları əsərin ilk variantını bərpa etməyə səy göstərmişlər. R.Əliyev əsərin tənqidi mətnini hazırlamaq üçün XVII əsrin 50-ci illərindən «Gülüstan»la tanışlığa başlamış Avropa şərqşünaslarının nəşrlərini, sonra isə Şərq və rus alimlərinin bu mövzuya həsr olunmuş tədqiqatlarını və çap nüsxələrini nəzərdən keçirmiş, onların qüvvətli və zəif cəhətlərinə, köhnə və yeni nəşrlərə münasibətini bildirmiş, bunların müəyyən keyfiyyətlərlə bir-birini tamamladığını və «Gülüstan»ın mətninin bərpası üçün möhkəm zəmin yaratdığını göstərmişdi. Tədqiq etdiyi hər bir əlyazmaya, hər bir nəşrə böyük ehtiramla yanaşan, yüksək elmi etika nümayiş etdirən alim «Gülüstan»ın elmi-tənqidi mətninin bərpası üçün istifadə etdiyi əlyazmalardan və nəşrlərdən ikisini xüsusilə yüksək qiymətləndirirdi. Bunlardan biri XVI əsrin məşhur türk filoloqu Sədinin öz dolğunluğu və təfsilatı ilə seçilən «Şərhi - «Gülüstan» əsəri idi. R.Əliyev türk aliminin xidmətini onlarla əlyazmanı və bu əlyazmalara yazılmış şərhləri tutuşdurub müqayisə etməklə müəllif variantını bərpa etmək cəhdində görürdü. O biri isə yeni nəşrlərdən Məhəmməd Əli Furuğinin 1936-cı ildə Tehranda çap etdirdiyi «Külliyyati-Sədi» əsəridir. Bu tənqidi mətni tərtib etmək üçün Furuği XVIII əsrin sonunda İsfahanda köçürülmüş qədim bir əlyazmanı əsas götürmüş və İran, London, Paris, Oksford, Bombeydə mövcud olan əlyazmalarla tutuşdurmuşdur.

Son nəşrlərdən Y.E.Bertelsin 1922-ci ildə çap olunan və dəqiqliyi, geniş elmi izahı ilə seçilən tərcüməsinə yüksək qiymət verməklə yanaşı, R.Əliyev onun natamamlığını, kitabda ancaq «seçilmiş» hekayələrin toplandığını da qeyd etmişdir. Sonralar Y.E.Bertels özü də «Gülüstan»ın mükəmməl nəşrinə ehtiyac olduğunu göstərirdi: «.... Bu vaxtadək «Gülüstan»ın yaxşı nəşri yoxdur. Əlyazmalarındakı və nəşrlərdəki mətnlərdə ziddiyyət çox böyükdür. Əsaslı, mükəmməl tənqidi mətn lazımdır.»

«Gülüstan»ın əsaslı, mükəmməl tənqidi mətnini hazırlamaq üçün R.Əliyev 9 əlyazmadan, əlyazmaya 3 şərhdən (şərhin müəllifləri - XVI əsrin məşhur türk filoloqları Süruri, Şəmi, Sədi), «Kitabi-Gülüstan-name-yi-Şeyx Sədi» adlanan bir maraqlı tərcümədən və beş çap variantından istifadə etmiş, bu materiallara tənqidi yanaşaraq, mətnin ilk variantını bərpa etmişdir.

İşin gedişində dilin qrammatik və leksik tələblərinə cavab verən mətn seçilmiş, şairin dil və üslub xüsusiyyətləri, klassik fars dilinin normaları nəzərə

alınmışdır.

60-cı illərdə İran şahının xüsusi fərmanı ilə Sədinin əsərlərinin düzgün variantının tapılması üçün müsabiqə elan olunmuş və bu müsabiqədə üstünlük qazanmış R.Əliyev 1966-cı ildə «Bustan» poemasının tənqidi mətnini hazırlamaq üçün İrana dəvət olunmuşdu. Alim müsahibələrinin birində bu barədə deyirdi: «İrana, əsasən, özümü sınamaq üçün getmişdim. Sədinin «Bustan»ını çox görkəmli yerli mütəxəssislər çapa hazırlamışdılar. ...Dedim görüm, türk təfəkkürü klassik Şərq mədəniyyətini yaratmaq və şərh etmək sahəsindəki orta əsrlərə məxsus səviyyəsini yeni dövrdə necə mühafizə edir...»

R.Əliyev 1968-ci ildə «Sədi Şirazinin poetik irsinin bərpası problemi» mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. Elə həmin ildə Tehranda fars dilində «Sədinamə ya Bustan» kitabı çap olunmuşdur. Kitabda dissertasiyanın birinci hissəsinin əsas müddəaları - «Bustan»ın mətnşünaslıq tarixi, mühüm nəşrləri, əlyazmaların təsviri, şairin tam külliyyatının müəyyənləşdirilməsi, filoloji təhlil mətnin tənqidi ilə birlikdə verilmişdir.

«Sədi Şirazinin poetik irsinin bərpası problemi» əsərində R.Əliyev görkəmli mətnşünas, ədəbiyyatşünas, ədəbiyyat nəzəriyyəçisi, ədəbiyyat tarixçisi və tənqidçisi kimi çıxış etmişdi. O, ilk dəfə olaraq «Bustan» əsərinin orta əsr İran ədəbi həyatında və ictimai fikir tarixində yeni dövr açdığını, bədii sözün, etik və estetik görüşlərin, ən başlıcası isə ədəbiyyatda humanist başlanğıcın gələcək inkişafını müəyyənləşdirdiyini vurğulamış və əsəri bu istiqamətdə təhlil etmişdir.

Alim «Bustan»ın ədəbiyyatşünaslıq baxımından, ideya, məzmun və bədii forma cəhətdən tədqiqata cəlb olunmadığını təəssüflə qeyd edirdi. Bütün bu problemləri həll etməklə «Bustan»ın öz layiqli qiymətini alacağını, Şərq ədəbiyyatında humanizm problemləri, renessans ənənələri kimi mühüm tarixi hadisələrin kökünü müəyyənləşdirmək üçün real imkan yaranacağını göstərirdi.

R.Əliyevə şöhrət gətirən əsərlərdən biri də «Şahnamə»nin tənqidi mətninin bərpası idi. Bütünlükdə bu işə Y.E.Bertelsin başçılığı ilə 15 illik gərgin zəhmət sərf olunmuşdu. Epopeyanın 4-cü cildini (1965) Bertels və Osmanovla birlikdə, 5-8-ci cildləri isə (1967) alim tək hazırlamışdı. 1971-ci ildə o, «Şahnamə»nin elmi-tənqidi mətnini Tehranda çap etdirmişdi.

Yaradıcılığının 1971-ci ildən sonrakı dövründə R.Əliyev bir müddət Azərbaycan EA Əlyazmaları Fondunda «Ərəb əlyazmaları» şöbəsinə rəhbərlik etmişdir. Əlyazmaların təsvirini mətnşünaslığın əsası hesab edən alim əlyazmaların kataloqlaşdırılması, dünya standartları səviyyəsinə çatdırılması sahəsində müəyyən işlər görmüşdür. Əlyazmaların tam kataloqunu tərtib etmiş, 1984-cü ildə müəlliflər heyəti ilə birlikdə «Ərəb əlyazmaları kataloqu» kitabını və

«Əlyazmalar kataloqunun tərtib prinsipləri» mövzusunda məqalə çap etdirmişdir.

Azərbaycan ədəbiyyatı klassiklərindən Rəhməti Təbrizinin «Divan»ı, Nəsiminin 2 cildlik «Lirika» kitabının tərtibi, rus dilinə tərcüməsi, «Fəzlullah Nəimi Təbrizi və İmadəddin Nəsimi Şirvaninin fars «Divan»ının tərtibi və Tehranda çapı alimin 70-ci illər elmi fəaliyyətinin bəhrəsi idi.

O, 1980-ci ildən Nizami adına Ədəbiyyat İnstitutunda «Nizamişünaslıq» şöbəsinə rəhbərlik etmişdir. Özünü birinci dərəcəli nizamişünas adlandıran alim hələ elmi fəaliyyətinin ilk çağlarında Sədi Şirazinin əsərləri üzərindəki tədqiqatı ilə yanaşı, Nizaminin «Leyli və Məcnun» (1957), «Lirika» (1960) kitablarını çap etdirmiş, kitablara yazdığı «Ön söz» və «İzahlar»da Nizami yaradıcılığına böyük məhəbbətini ifadə etmiş, onun dövrü və poeziyası haqqında orijinal elmi fikirlər söyləmişdir. «Nizamişünaslıq» şöbəsinə rəhbərlik edəndən sonra isə bütün elmi potensialını, yaradıcılıq qüdrətini dahi Azərbaycan şairinin əsərlərinin tədqiqi və nəşrinə yönəltmiş, başçılıq etdiyi şöbəni Nizaminin həyatını, poeziyasını araşdırmaq üçün səfərbər etmişdir. 1980-ci ildə «XI-XII əsrlərdə Azərbaycan mədəniyyəti və Nizami Gəncəvinin yaradıcılığı» mövzusunda keçirilmiş konfransda nizamişünaslığın problemləri ilə bağlı çıxış etmiş və Nizami yaradıcılığı ilə məşğul olan mütəxəssislərin elmi fəaliyyətinə istiqamət vermişdir.

Onun təşəbbüsü və rəhbərliyi ilə nizamişünaslığın aktual problemləri və perspektivləri, müxtəlif inkişaf istiqamətləri və s. məsələlər Azərbaycan elminin mühüm sahəsi kimi diqqət mərkəzinə çevrildi. Nizaminin dövrü, ədəbi mühiti və həyatı, əsərlərinin ideya-məzmun və poetik xüsusiyyətləri, həmçinin Nizami və dünya ədəbiyyatı kimi monumental problemlərin - Azərbaycanda hələ 40-cı illərdən əsası qoyulmuş bu məsələlərin həllində başlıca istiqamət olaraq alim, sözsüz ki, Nizami «Xəmsə»sinin yenidən tərcüməsi və nəşri işlərini mühüm hesab edirdi. Onun yorulmaz fəaliyyəti sayəsində digər görkəmli alimlərin tərcümələri də daxil olmaqla 80-ci illərin filoloji tərcümələri nizamişünaslıqda yeni mərhələnin əsasını qoydu.

R.Əliyev Nizami Gəncəvinin 840, 850 illik yubileyləri şərəfinə şairin bütün əsərlərinin Azərbaycan və rus dillərində poetik və filoloji tərcüməsini hazırlayıb nəşr etdirmək kimi nəhəng bir işə başçılıq etdi. Təkcə 1981-ci ildə Azərbaycan, rus, fars dillərində altıdan çox kitab, dövri mətbuatda Nizami yaradıcılığının müxtəlif sahələrinə həsr olunmuş bir sıra məqalələr çap etdirmişdir. Sonrakı illərdə ilk dəfə olaraq Azərbaycan və rus dillərində Nizami yaradıcılığı haqqında «Qısa biblioqrafik məlumat» kitabı, «Görkəmli rus alimləri və yazıçıları Nizami Gəncəvi haqqında», «Şairin kitabxanası» seriyasından Leninqradda

çap olunmuş bir cildlik «Şerlər və poemalar», Moskvada nəfis tərtibatda, orta əsr miniatürləri ilə çap olunmuş 5 cildlik, Bakıda rus dilində irihəcmli «Nizami Gəncəvi. Seçilmiş əsərləri» kitabı (1989), rus dilində «Ölməz məhəbbət haqqında poema» (1991) adlı tədqiqat əsəri və s. alimin böyük istedadının və zəhmətinin bəhrəsi idi.

Ümumiyyətlə, bu illərdə Nizaminin əsərləri, əsasən, R.Əliyevin redaktorluğu, tərtibatı, tərcüməsi, ön sözü və izahları ilə nəşr olunurdu. «Xəmsə»nin fars dilindən Azərbaycan və rus dillərinə filoloji tərcüməsi, tədqiqi R.Əliyevin yaradıcılığının çox mühüm bir sahəsi idi. O, Nizami irsinin əlavələrdən, dəyişikliklərdən təmizlənməsində, orijinalın bərpasında, Azərbaycan və rus dillərinə tərcümə olunmasında əvəzsiz xidmətlər göstərmişdir. Onun bir nizamişünas kimi fəaliyyəti elmi-ədəbi ictimaiyyətin diqqət mərkəzində idi. Çünki onun tərtib və tərcümə etdiyi, ön söz və izahlar yazdığı bu əsərlər hər bir oxucunun intellektual səviyyəsinə uyğun idi. Alimin hər bir kitabı sensasiya doğurur, haqqında məqalələr, rəylər yazılır, müsahibələr aparılırdı. Əgər görkəmli şairimiz B.Vahabzadə «Şəxsən mən Nizaminin böyüklüyünü, onun Azərbaycan milli təfəkküründə hansı böyük fikirləri gətirdiyini Rüstəmin filoloji tərcümələrindən və onlara yazdığı kommentariyalardan öyrənmişəm», - deyirsə, Nizamini sevən başqa oxucuların R.Əliyevin tərtib və tərcümə etdiyi, ön söz və izahlar yazdığı kitablardan necə zənginləşdiyini təsəvvür etmək çətin deyildir.

Nizaminin əsərlərini dəfələrlə çap etdirən, filoloji və poetik tərcüməsinə, tənqidi mətninə müqəddimə yazan alim heç vaxt özünü təkrar etməmiş, yeni nəşrlər yeni tədqiqatların nəticəsi olaraq orijinal elmi mühakimələrlə müşayət olunmuşdur.

R.Əliyevin Nizaminin həyatı və dövrü haqqında tədqiqləri öz yeniliyi və inandırıcılığı ilə mütəxəssislərin diqqətini cəlb edirdi. Xüsusən, bu problem ətrafında alimin 70-ci illərin sonu - 80-ci illərin başlanğıcında çap etdirdiyi sensasiya xarakterli məqalələri: «Nizaminin naməlum müasiri», «Nizaminin poemalarında qıpçaq-oğuz gözəli», «Nizaminin tərcümeyi-halına dair yeni araşdırmalar» nizamişünaslığın inkişafına təkan vermiş oldu. Nizaminin ictimai mənsubiyyəti, xüsusən, babası «Zəki Müəyyəddin» adı ilə bağlı, eləcə də şairin öz anası haqqında işlətdiyi «rəisə» sözünün etimologiyası haqqında, həmçinin onun qıpçaq qızı Afaqla evlənmə tarixinə dair və s. problemlər ətrafında R.Əliyev Nizami dövründə geniş yayılmış antroponimik sistem və onomastikanın qanunlarından istifadə etməklə, şərqşünaslıqda mübahisəli olan bir çox məsələlərə aydınlıq gətirir, onun əldə etdiyi nəticələr nizamişünaslığın uğuru kimi qiymətləndirilirdi.

Nizami yaradıcılığa lirika ilə başlamışdır. R.Əliyev də Nizami haqqında

geniş tədqiqatlara 1960-cı ildə Moskvada çap olunmuş «Lirika» kitabına yazdığı ön söz və izahlarla başlamışdır. Sonralar bir neçə dəfə nəşr edilən «Lirika» kitabına yazdığı ön sözlərdə o, Nizamini hərtərəfli təqdim etmiş, şairin həyatı, dövrü, ictimai-ədəbi mühiti, yaradıcılığı və s. barədə orijinal elmi mühakimələr yürütmüşdür.

Alim Nizami lirikasının öz müasirlərinin lirik əsərlərindən üstünlüyünü və fərqli cəhətlərini insanın emosional həyatının bütün sahələrini əhatə etməsində görürdü.

Nizaminin qəsidə və qəzəllərindən bəhs edən alim bu poetik formaların inkişaf tarixinə nəzər salır. Qəsidənin mənşəyi, məzmunu və quruluşundan bəhs etməklə o, bu formanın bir vaxtlar müxtəlif mövzularda yazıldığını, sonralar mövzuca məhdudlaşıb məzmunsuzlaşaraq ancaq mədhiyyə xarakteri daşıdığını və Nizaminin yaradıcılığında yeni həyat, real məzmun kəsb etdiyini göstərmişdir. Nizami öz qəsidələrində hər şeydən əvvəl insanpərvərlik ideallarını, fəlsəfi düşüncələrini, ictimai-siyasi görüşlərini əks etdirmişdir. Qəsidənin tematika və məzmununda Nizaminin yaratdığı islahatlar bu poetik formanın gələcək inkişafını müəyyənləşdirmişdir. Alimin fikrincə, fəlsəfi-didaktik qəsidə öz yaranışı ilə Nizamiyə borcludur. Şərqin Nizamidən sonra yaşamış böyük şairləri onun yolu ilə getmiş, onun məktəbini davam etdirmişlər.

Nizaminin qəzəl formasına gətirdiyi yenilikləri təhlil edən alim şairin ritorik, təmtəraqlı, oxucunu heyrətləndirən obrazlarla deyil, lirik qəhrəmanın daxili aləmini açmaqla gözəl sənət nümunələri yaratdığını qeyd edirdi.

R.Əliyevin Nizaminin 850 illik yubileyi şərəfinə çap etdirdiyi sanballı əsərlərdən biri Əbu Bəkr ibn Xosrov əl-Ustadın «Munisnamə» əsəri idi. Bu əsərdə alimin tərcüməçilik və ədəbiyyatşünaslıq istedadı birləşmişdi.

«Munisnamə» əsəri 1920-ci ildə Böyük Britaniyaya aparılmış və orada «1001 gecə» adı ilə saxlanmışdı. Akademik Ziya Bünyadovun səyi nəticəsində fotosurəti gətirilmiş bu əsərin üzərində R.Əliyev böyük yaradıcılıq işi aparmış, əsəri rus dilinə tərcümə etmiş, ön söz və izahlar yazmış, əl-Ustadın ədəbi-elmi fəaliyyəti, Nizami ilə münasibətləri barədə maraqlı faktlar aşkar etmişdir.

Ərəb, fars, türkdilli klassik ədəbiyyatın mahir bilicisi və tədqiqatçısı olan R.Əliyev bu dillərdən Azərbaycan və rus dilinə bir sıra tərcümələr etmişdir. O, tənqidi mətnini tərtib etdiyi əsərlərin mükəmməlliyi üçün tərcümə və izahları vacib hesab edirdi. Alimin ilk tərcümələri sırasına Sədinin «Gülüstan»ının, Xəyyamın «Rübailər»inin - M.N.Osmanovla birlikdə - rus dilinə tərcüməsi daxil idi. Onun tərcümə yaradıcılığında farsdilli ədəbiyyatdan, xüsusilə, Nizaminin əsərlərindən nümunələr üstünlük təşkil edir. «Sirlər xəzinəsi», «Yeddi gözəl» əsərlərinin fars dilindən Azərbaycan və rus dillərinə, «Leyli və Məc-

nun», «Lirika» kitablarının rus dilinə filoloji tərcüməsi alimin yaradıcılığının parlaq səhifələrindəndir. Onun farsdilli ədəbiyyatdan etdiyi tərcümələr sırasına «Fars nağılları» və Əbu Bəkr ibn Xosrov əl-Ustadın «Munisnamə» əsəri daxildir.

Türkdilli ədəbiyyatdan N.Hikmətin «Şeyx Bədrəddin Simavi haqqında poema»sını (P. Jeleznovla birlikdə) rus dilinə, M.Ə.Rəsulzadənin «Azərbaycan şairi Nizami» əsərini Azərbaycan dilinə tərcümə etmişdir. Alimin ərəb ədəbiyyatından da bir sıra tərcümələri vardır.

Tənqidi mətnini hazırladığı, tərcümə etdiyi əsərlərə yazdığı ön söz və izahlar R.Əliyevin tədqiqatçılıq istedadının, elmi dünyagörüşünün hüdudlarını nümayiş etdirən maraqlı yaradıcılıq sahələridir. Ətraflı elmi araşdırmalarla zəngin olan, miniatür monoqrafiya təsiri bağışlayan ön sözdə o, tərcümə etdiyi, tənqidi mətnini hazırladığı əsərə tarixi, ictimai, ədəbi fon yaradır. İzahlar isə klassik əsərlərdə bugünkü oxucu üçün anlaşılmaz olan müəyyən tarixi, ədəbi, dini, əfsanəvi sözlərin, ifadələrin, terminlərin, fikirlərin, faktların, coğrafi adların və s. aydınlaşdırılmasına alimin ensiklopedik səviyyədə bələdçilik etməsidir.

R.Əliyev fenomenini şərtləndirən əsas amillərdən biri də onun natiqliyi, elmi-siyasi fikirlərini, görüşlərini pafosla, qəti, təkzibolunmaz məntiqlə söyləməsi idi. Onun nitqindəki cazibə və gözəllik elmi üslubuna da xas idi. O, ən çətin, mürəkkəb mətləbləri aydın, obrazlı, cəlbedici şəkildə demək və yazmaq istedadına malik idi. R.Əliyev dərin elmi düşüncələrini sadə, obrazlı ifadə etməklə, populyarlaşdırmaqla hər bir Azərbaycan və rusdilli oxucunu böyük klassiklərin əsərlərini oxumaq, anlamaq, zövq almaq səadətinə çatdırmışdı. Alimin rus dilində "Ölməz məhəbbət haqqında poema» kitabına yazdığı ön sözdə Z.M.Bünyadov onun yaradıcılığının bu cəhətini yüksək qiymətləndirmişdi: «Sonsuz maraqla, asan oxunmasını kitabın əsas dəyəri hesab etmək olar. Bizcə, müəllif buna hər şeydən əvvəl düzgün təhkiyə tonunun tapılması ilə nail olmuşdur. Hətta ən mürəkkəb və xüsusi elmi məsələlər barədə müəllif sadə və cəlbedici danışa bilir. Oxucunu Nizaminin, onun qəhrəmanlarının mürəkkəb, parlaq dövrünə inamla apara bilir...»

R.Əliyev gənc elmi kadrların hazırlanmasına xüsusi diqqət və qayğı göstərirdi. Elmi-tədqiqat mövzularının seçilməsi, istiqamətləndirilməsi kimi vacib bir məsələdə onlara yardımçı olur, biliyini, təcrübəsini səxavətlə bölüşürdü. Başçılıq etdiyi şöbəyə onun hər gəlişi bir elmi seminara çevrilirdi.

R.Əliyevin böyük xidmətlərindən biri də 60-70-ci illərdə xarici ölkələrdə, o cümlədən tez-tez İranda elmi ezamiyyətlərdə olarkən xaricdə yaşayan azərbaycanlılarla görüşməsi və vətənə dönərkən «Dünyada azərbaycanlılar» mövzusunda televiziyada və mətbuatda xalqın böyük marağına səbəb olan çıxışlar

etməsi idi. Bu sahədə vətənpərvər bir alim kimi onun ən böyük xidməti İran ilə Azərbaycan arasında mənəvi körpü - «Rüstəm körpüsü» (B.Vahabzadə) olması idi. O, İranın tanınmış ziyalıları ilə görüşür və onları əməkdaşlıq naminə səfərbər edə bilirdi.

Alim Şəhriyarı özünün ən böyük kəşfi hesab edir və şairin ona ithaf etdiyi şerləri yüksək qiymətləndirirdi: «... Azərbaycan türkcəsi ilə üç şeri və fars dilində yazdığı iri həcmli mənzumə mənim həyatımda təltif edildiyim ən böyük orden, medal və nişanlardır.» R.Əliyev o taylı, bu taylı şairlər arasında ünsiyyət, əlaqə yaratmışdı. Onlar bir-birinə yazdıqları şerləri, məktubları onun vasitəsilə göndərirdilər. Şairlər onun bu xidmətlərini yüksək qiymətləndirmiş, ona şerlər həsr etmiş, «Ümid körpüsü» (M.H.Şəhriyar), «Elçi göyərçini» (Səhənd) kimi ifadələrlə əzizləmişlər. Azərbaycanca yazan cənublu şairlərin yaradıcılığında R.Əliyevlə tanışlıqdan sonra uğurlu bir dönüş yaranmışdı.

R.Əliyev elmi fəaliyyəti ilə yanaşı, Azərbaycan ilə İran arasında dostluq münasibətlərinin, ictimai-ədəbi-mədəni əlaqələrin inkişafına, möhkəmlənməsinə çalışırdı. O, Azərbaycan-İran dostluq cəmiyyətinin sədri, «Vəhdət ocağı» birgə müəssisəsinin baş direktoru, «Nizami Gəncəvi» jurnalının və «Şəhriyar» qəzetinin baş redaktoru idi. Jurnala və qəzetə Nizami Gəncəvi və Şəhriyarın adının verilməsinin rəmzi mənası vardı. Alim göstərirdi ki, Nizami XII əsrdə Azərbaycan və İran xalqlarını öz qələminin gücü ilə nə qədər yaxınlaşdırmışdısa, bu tarixi xidməti XX əsrdə Şəhriyar göstərmişdir.

R.Əliyev 1994-cü ildə ömrünün və yaradıcılığının yetkin çağında dünyasını dəyişdi. Elmi zirvələr fəth etmiş alim Nizaminin həyat və yaradıcılığına həsr olunmuş, «həyatımın kitabı» adlandırdığı son əsərini tamamlaya bilmədi. Tamamlanmış birinci hissənin çapını görmək də ona qismət olmadı. «Nizami. Həyatı» adlanan, rusca yazılmış bu kitabın çapı oxucuları R.Əliyev istedadının heyrətamiz bir nümunəsi ilə tanış edəcəkdi.

«Rüstəm Əliyev. Biblioqrafiya» Bakı, 2003-cü il
kitabına yazılmış bioqrafik oçerk.
Z.Rəhimova ilə birlikdə.

HEYDƏR ƏLİYEVİN ŞƏRQ SİYASƏTİ

Tarixi inkişafın qaçılmaz qanunauyğunluğu nəticəsində Sovetlər Birliyi dağıldıqdan sonra Azərbaycan öz müstəqilliyini bərpa etdi, bununla da çoxəsrlik tarixinin yeni mərhələsinə qədəm qoydu. Qarşıda Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin yaratdığı ağır nəticələri aradan qaldırmaq, ölkədə əmin-amanlıq yaratmaq, sabitliyi bərpa etmək, iqtisadiyyatı dirçəltmək, dövlətçiliyi xilas etmək kimi çox mürəkkəb vəzifələr dayanmışdı. Belə bir ağır vəziyyətdə geniş xalq kütlələrinin arzu və tələbi ilə yenidən hakimiyyətə qayıdan ümummilli liderimiz Heydər Əliyevin çoxşaxəli və gərgin fəaliyyəti başladı.

Dövlət quruculuğunun bütün sahələri kimi müstəqil dövlətimizin yeni beynəlxalq münasibətlərinin qurulması da Heydər Əliyevin adı ilə bağlıdır. Qüdrətli dövlətlərin mənafelərinin toqquşduğu mühüm geostrateji mövqeyi, zəngin yeraltı və yerüstü sərvətləri ilə böyük dövlətlərin diqqətini çəkən Azərbaycanda bütün bu məsələlərin həlli böyük müdriklik, uzaqgörənlik və polad siyasi iradə tələb edirdi.

İlk günlərdən Heydər Əliyev dövlətin xarici siyasətinin istiqamətlərini, prinsiplərini, xarakterini müəyyənləşdirdi. O, ilk növbədə AXC hakimiyyətinin xarici siyasət sahəsində buraxdığı kobud səhvləri və bunun nəticəsində Azərbaycan ətrafında formalaşmış çox gərgin beynəlxalq siyasi vəziyyəti aradan qaldırmaq istiqamətində iş aparmağa başladı, ölkənin strateji maraqlarını region dövlətlərinin və Qafqazda xüsusi təsiri olan ayrı-ayrı dövlətlərin maraqları ilə uzlaşdırmağa yönəlmiş siyasət yürütməyə başladı. Hələ Milli Məclisin sədri seçilərkən Heydər Əliyev xarici siyasətin başlıca vəzifə və prioritetlərini müəyyənləşdirdi: «Azərbaycanın müstəqilliyini təmin edən atributlardan biri xarici siyasətdir, Azərbaycanın sağlam xarici siyasəti olmalıdır, düşünülmüş xarici siyasəti olmalıdır, uzaqgörən xarici siyasəti olmalıdır, elə xarici siyasəti olmalıdır ki, Azərbaycanı dünya dövlətləri birliyinə bağlasın, Azərbaycanın bütün dövlətlərlə əlaqəsini, Azərbaycanın mənafeyini təmin etsin və Azərbaycanı de-fakto dünya miqyasında bir müstəqil dövlət kimi tanıtmağı təmin edə bilsin. Azərbaycanın indiyə qədər belə sağlam düşüncəli xarici siyasəti olmayıbdır...

Azərbaycanın bütün dövlətlərlə gərək bərabərhüquqlu əlaqəsi olsun, Türkiyə ilə, İran ilə, qonşu Gürcüstan ilə, Rusiya ilə də, Amerika ilə də, Avropa dövlətləri ilə də, Ərəb dövlətləri ilə də, müsəlman dövlətləri ilə də, türkdilli dövlətlərlə də, Orta Asiya dövlətləri ilə, Qazaxıstanla da bərabərhüquqlu əlaqələri olmalıdır...

Mən hesab edirəm ki, xarici siyasət sahəsində böyük səhvlər buraxılıbdır və bu səhvlər düzəldilməlidir. Xarici siyasətdə dövlətlər həmişə həm ikitərəfli müqavilələr bağlayırlar, həm də cürbəcür ittifaqlara daxil olurlar. Məsələn, təsəvvür edin, Amerika kimi böyük bir dövlət, dünya miqyasında ən güclü bir dövlət təkbaşına hərəkət etmədi, onun bir neçə ittifaqları var».

H.Əliyev 90-cı illərin əvvəllərində Azərbaycanın xarici siyasətində yer tutan özünütəcrid xəttinin tamamilə yolverilməz və milli maraqlara zidd olduğunu vurğulayır. O, özünütəcrid xəttinin acı nəticəsi kimi dünyanın Azərbaycanı tanımaması, problemlərimizi bilməməsi, haqq səsimizi eşitməməsini göstərir və belə siyasəti «özümüzün özümüzə vurduğumuz zərbə» adlandırır. Ölkənin mənafelərini qorumaq istiqamətində emosiyadan uzaq, hərtərəfli ölçülüb-biçilmiş addımların atılmasının gərəkliyini vurğulayan H.Əliyev Azərbaycanın dövlətçilik mənafelərini hər şeydən uca tutaraq müxtəlif dövlətlərin bütövlükdə Qafqaz və bilavasitə respublikamız üzərində qurulmuş iqtisadi maraq və nüfuz dairəsi uğrunda mübarizələrini nəzərə alaraq, çevik manevrlər və xüsusi taktiki gedişlər etdi. Onun müstəqil Azərbaycanın dövlət quruculuğu, xarici və daxili siyasəti haqqındakı fikirləri, ideya və düşüncələri, ötən dövrün dərslərindən istifadə edilməklə ölkəmizin işıqlı gələcəyinin gerçəkləşməsinə yönəldilmişdir. Şərq müdrikliyini və Qərb praqmatizmini özündə birləşdirən xarici siyasət konsepsiyasını açıqlayan Heydər Əliyev bildirmişdir: «Bizim xarici siyasətimiz birinci növbədə Azərbaycanın dövlət müstəqilliyini təmin etməyə yönəldilməlidir. Vəzifə dünyanın bütün dövlətləri ilə bərabərhüquqlu, qarşılıqlı faydalı əlaqələr yaratmaqdan və inkişaf etdirməkdən, bu əlaqələrdən həm Azərbaycan Respublikasının beynəlxalq mövqeyini möhkəmlətmək üçün, həm də respublikanın iqtisadiyyatını, elmini, mədəniyyətini inkişaf etdirmək üçün səmərəli istifadə etməkdən ibarətdir. Bizim xarici siyasətimiz sülhsevər siyasətdir, heç bir dövlətin suverenliyinə, ərazi bütövlüyünə toxunmaq məqsədi güdmürük. Lakin eyni zamanda nəyin bahasına olursa-olsun respublikanın suverenliyini, müstəqilliyini və ərazi bütövlüyünü xarici siyasət vasitəsilə təmin etməyə çalışacağıq. Güman edirəm ki, bundan sonra görülən işlər Azərbaycanın daha geniş tanınmasına şərait yaradacaqdır və respublikamız dünya dövlətləri birliyində öz layiqli yerini tutacaqdır... Bizim daxili siyasətimiz, xarici siyasətimiz dünya demokratiyasının açdığı yolla, demokratik prinsiplər əsasında gedəcəkdir».

Göstərilən prinsiplər dövlətimizin xarici siyasətdə rəhbər tutduğu əsas vəzifələrdə öz əksini tapmışdır. Onlardan:

- mənafeyi Azərbaycanın dövlətçilik və milli mənafeləri ilə uyğun gələn, üst-üstə düşən dövlətlərlə tərəfdaşlıq və müttəfiqlik münasibətləri yaratmaq,

respublikamızı beynəlxalq mövqelərinin möhkəmlənməsi üçün onların imkanlarından istifadə etmək,

- regionda gərginliyin aradan qaldırılmasına və mehriban qonşuluq münasibətlərinin yaradılmasına səy göstərmək,

- dövlətimizin bütün beynəlxalq və regional qurumlarda, iqtisadi, elmi-texniki, mədəni, humanitar və s. təşkilatlarda fəal iştirakına çalışmaq, düşünülmüş və xalqımızın mənafeyinə uyğun xarici iqtisadi siyasət yeritmək, ölkə iqtisadiyyatının dünya iqtisadiyyatına inteqrasiya olunması üçün bütün xarici və daxili amillərdən istifadə etmək, - və sairə kimi tezislərə nəzər saldıqda görürük ki, aparılan düzgün xarici siyasət bir çox sahələrdə artıq konkret nəticə vermişdir. Getdikcə Azərbaycanın xarici siyasəti sahəsində əsaslı dönüş yarandı. Axtarışlar dövrü başa çatdı və yeni mərhələ başlandı. Beləliklə, xarici siyasət kursunda mövcud reallıqları nəzərə alan və ölkənin köklü mənafelərinin qorunmasına yönəlmiş əməli dəyişikliklər edildi. İlk növbədə müstəqil Azərbaycan dövlətinin beynəlxalq münasibətlər sistemində yeri, Avropa ölkələri və ABŞ-la, yeni müstəqil dövlətlər və Rusiya ilə, türkdilli dövlətlər və Türkiyə, müsəlman dünyası və İranla əlaqələrin yaxın dövr üçün prioritetləri müəyyənləşdirildi və tədricən həyata keçirilməyə başladı. Dövlətlərarası münasibətlərdə qarşılıqlı əlaqələr genişlənərək bəzi anlarda şəxsi dostluq münasibətlərinə çevrildi.

Azərbaycan coğrafi mövqeyinə görə Şərqin və Qərbin arasında yerləşir. Şərq və Qərb arasındakı strateji mövqeyimizdən yararlanan respublika rəhbərliyi öz xarici siyasətində Azərbaycanın Şərqlə Qərb arasında siyasi, iqtisadi, elmi, mədəni və s. sahələrdə körpü rolunu oynamasından maksimum istifadə etməyə çalışırdı. Məşhur «Şərq - incəlik tələb edir» deyimi var. Heydər Əliyevin xarici siyasətində, Şərqə münasibətdə, qonşu ölkələrlə, xüsusilə Türkiyə, İran və s. ölkələrlə münasibətlərdə mahir davranış, incəlik həmişə duyulurdu.

Ölkəmizlə çoxsaylı dini, mədəni, etnik tellərlə bağlı olan Yaxın və Orta Şərq ölkələrinə münasibətdə dünya siyasətinin istiqamətlərini və qanunauyğunluqlarını çox gözəl anlayan Prezident bu ölkələrlə düzgün münasibətlərin qurulmasına nail olmuşdur. Regionda yerləşən bütün dövlətlərlə yaxın əlaqələr saxlamaq, bu əlaqələri inkişaf etdirib daha da möhkəmləndirmək Azərbaycan üçün çox vacib idi. Burada əsasən dünyada geostrateji əhəmiyyətə malik olan, eyni zamanda region problemləri ilə hər hansı bir əlaqəsi olan və bizə coğrafi və siyasi cəhətdən yaxın olan ölkələrlə münasibətlərə daha çox diqqət yetirilirdi. Belə ölkələrə birinci növbədə Türkiyə, İran, Səudiyyə Ərəbistanı, Misir, Pakistan və s. aiddir. Bu və İslam Konfransı Təşkilatına daxil olan digər ölkələrin Azərbaycana dəstəyi, mənəvi yardımı gənc dövlətimiz üçün çox vacib

idi. Bütün bu amilləri nəzərə alan Heydər Əliyevin apardığı siyasət nəticəsində bu sahədə böyük uğurlar qazanılmış və qazanılmaqdadır.

Ümumiyyətlə, Heydər Əliyevin Şərq dünyası, eyni zamanda onların rəhbərləri ilə əlaqələri 70-ci illərdən qurulmağa, formalaşmağa başlamış, Azərbaycan müstəqilliyini qazandıqdan sonra isə indiki vəziyyətə - mehriban qonşuluq və bərabərhüquqlu əməkdaşlıq münasibətləri səviyyəsinə çatmışdır.

Heydər Əliyevin 1982-1987-ci illərdə Misirə, Pakistana, İordaniyaya, Suriyaya, İraqa, Yəmənə və başqa ölkələrə səfərləri və islam dünyasının kral Hüseyn, Hafiz Əsəd, Yasir Ərafat və digər bu kimi liderləri ilə görüşləri onu dünyada aparıcı siyasətçilərdən biri kimi tanıtdı. O, köhnə əlaqələrini bərpa edərək respublikamızın dünyada öz mövqeyini möhkəmlətməsi üçün yeni münasibətlər yaratdı.

Türkiyə ilə əməkdaşlığın ilk dövrlərindən iki ölkə arasında hərtərəfli münasibətlərin hüquqi bazası yaradılmışdır. Bir çox sahələrə aid saziş, protokollar imzalanmışdır. Müntəzəm surətdə hər iki dövlətin müxtəlif səviyyələrdə rəsmi nümayəndə heyətləri Bakıda və Ankarada görüşür, birgə əməkdaşlıq məsələləri haqqında müzakirələr keçirirlər. Türkiyə dünya dövlətləri arasında birinci olaraq Azərbaycanı suveren dövlət kimi tanımış, ölkəmizlə diplomatik əlaqələr yaratmışdır. Müstəqilliyimizin ilk günlərindən Türkiyə bütün sahələrdə ölkəmizə dəstək vermiş, dayaq olmuşdur. O, bəzən öz maraqlarından belə keçərək Qarabağ probleminin həlli, beynəlxalq təşkilatlarda Azərbaycanın dəstəklənməsi üçün çox işlər görmüşdür. Türkiyənin Ermənistanla münasibətləri məhz Azərbaycana görə tam fərqlidir. Türkiyə Ermənistanı təcavüzkar kimi tanıyır və Azərbaycanın işğal olunmuş torpaqları azad olunmayana qədər heç vaxt Ermənistanla əlaqələrini bərpa etməyəcəyini dəfələrlə bəyan edib.

1994-cü il fevral ayının 8-11-də Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyev Türkiyə Respublikasına dövlət başçısı kimi ilk dəfə rəsmi səfər etdi. Səfər zamanı iki ölkə arasında 16 sənəd imzalandı. Bir çox görüşlər keçirildi. Sonralar ölkə Prezidenti dəfələrlə Türkiyədə rəsmi səfərlərdə olmuş və bu zaman qəbul olunmuş çoxsaylı sənədlər daim Azərbaycan-Türkiyə dostluq və qardaşlıq əlaqələrinin genişlənməsinə xidmət etmişdir.

Heydər Əliyev türk dünyasının problemlərinə də daim diqqət yetirmişdir. İstanbulda İqtisadi Əməkdaşlıq Təşkilatının II forumunun iştirakçılarına 5 iyul 1993-cü il tarixli müraciətində o özünün türklük düşüncəsinin əsas aspektlərini açıqlamışdır: ayrı-ayrı türk dövlətlərinin müstəqilliyinin müdafiə olunması, türk dünyasının birliyinə çalışılması və həmin birliyin dünyada harmoniya yaradılmasına xidmət etməsi.

Türk dünyasına məxsus, indi müstəqil dövlətlərə çevrilən sabiq sovet res-

publikaları ilə qonşuluq, dostluq və qardaşlıq münasibətlərinin bərpası və inkişaf etdirilməsi məhz yuxarıdakı prinsiplərdən irəli gəlirdi. Azərbaycan indiyə qədər türk dövlətləri başçılarının bütün sammitlərində iştirak etmiş, bu ittifaqı möhkəmləndirmək üçün əlindən gələni əsirgəməmişdir. 2000-ci ildə Azərbaycanda keçirilən növbəti sammit bütün türk dünyası və türk dövlətləri ailəsi üçün çox mühüm olan və gələcək əməkdaşlıq üçün proqram xarakteri daşıyan məşhur «Bakı bəyannaməsi»nin elan edilməsi ilə başa çatmışdır.

Azərbaycanla ən uzun sərhədlərə malik olan İranla mehriban qonşuluq münasibətlərinin ölkəmiz üçün zəruriliyini, İranla Azərbaycan arasında çoxsaylı mədəni, tarixi və etnik tellərin olmasını gözəl anlayan Prezident bu sahədə də uzaqgörən, düşünülmüş, tarazlaşdırılmış siyasətə üstünlük verdi. 1992-1993-cü illərdə əvvəlki iqtidarın bu istiqamətdə yol verdiyi səhvlər nəticəsində yaranan problemləri yada salsaq, Azərbaycan-İran münasibətlərinin xüsusi əhəmiyyət kəsb etməsi aydınlaşar. İran İslam Respublikası rəsmi olaraq 12 mart 1992-ci ildə Azərbaycanın müstəqilliyini tanıdı. Azərbaycan-İran münasibətləri Heydər Əliyev hakimiyyətə gəldikdən sonra yüksələn xətlə inkişaf etməyə başlamışdır. Azərbaycan Prezidenti İranla dostluq, qardaşlıq və əməkdaşlıq prinsiplərinə əsaslanan xarici siyasət konsepsiyamızı müəyyənləşdirdi.

Ölkələrimiz arasındakı əlaqələr günü-gündən genişlənməkdə, inkişaf etməkdədir. Elə regionda, ölkəmizdə və İranda baş verən dəyişikliklər də bu prosesə yaxından yardım edir. İran ilə münasibətlərin formalaşdırılmasında Azərbaycan Respublikasının İran İslam Respublikasının şimal əraziləri ilə iqtisadi-coğrafi oxşarlığı, respublikamızda yaşayan azərbaycanlıların İranda yaşayan azərbaycanlılarla etnik, dini, tarixi, mədəni eyniliyi kimi amillər nəzərə alınmağa başlandı. Müxtəlif xarakterli əlaqələr daha da genişləndi. Sərhədlər açıldı, gediş-gəliş, ticari əlaqələr çoxaldı, müxtəlif müqavilələr bağlandı.

Heydər Əliyevin düzgün siyasəti nəticəsində ölkəmiz Xəzər dənizinin statusu ilə əlaqədar müstəqil siyasət apararaq öz sektoruna aid neft yataqlarını işlətdi, eyni zamanda Azərbaycanın demokratik, hüquqi, dünyəvi dövlət kimi inkişaf edərək İranda yaşayan soydaşlarımızın ictimai şüurunun formalaşmasına təsirinin güclənməsinə nail oldu.

Prezident Heydər Əliyev İranla əlaqələrimizin hərtərəfli, qarşılıqlı faydalı inkişaf etdirilməsini ölkəmizin xarici siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyənləşdirərək, qonşu dövləti rəsmi səfərlə ziyarət etdi, həyatımızın bir çox sahələrinə aid müqavilələrin bağlanmasına nail oldu.

Ərəb dünyasının nəhəngləri olan Səudiyyə Ərəbistanı, Misir Ərəb Respublikası, müsəlman dünyasının liderləri olan İndoneziya, Pakistan, Malayziya və başqa dövlətlərlə də qardaşlıq və dostluq əlaqələri qurmaq Azərbaycan Res-

publikasının xarici siyasətinin əsas istiqamətlərindən biri kimi Prezident Heydər Əliyev tərəfindən diqqətə alındı. Əlbəttə, regiondakı siyasi durum bu siyasətin taktika və strategiyasını qurmaqda mühüm və başlıca amillərdən biri oldu.

Məlumdur ki, Yaxın və Orta Şərq regionundakı bütün ictimai-siyasi abhavanı müəyyənləşdirən əsas məsələ - yarım əsr davam edən İsrail - ərəb qarşıdurmasıdır. Ərəb dünyası və İsrail arasındakı gərginliyin hələ də qalması, Fələstin probleminin bu günədək həll olunmaması hər iki tərəfə münasibətdə Azərbaycan Respublikasının həyati maraqlarına cavab verən bir siyasətin aparılmasının vacibliyini göstərir. Bu siyasi xətt konstruktiv olmalı, birtərəfli xarakter daşımalıdır. Bir tərəfdən İsraillə əlaqələrimizdə ölkəmizdə böyük bir yəhudi icmasının yaşayaraq fəaliyyət göstərdiyini, iqtisadi, mədəni, elmi və hərbi sahələrdə bu ölkə ilə əməkdaşlıq etməyin bizim strateji maraqlarımıza cavab verdiyini nəzərə almalı, digər tərəfdən güclü potensiala malik olan ərəb dünyası ilə islam aləminə məxsus olmamız, ənənəvi iqtisadi və mədəni əlaqələrimizin mövcudluğu yaddan çıxarılmamalıdır.

Azərbaycan Prezidenti Heydər Əliyevin apardığı xarici siyasət xətti bütün bunları incəlikləri ilə nəzərə aldı. Düzgün ölçülmüş və tarazlaşdırılmış siyasi xəttin nəticəsidir ki, ölkəmiz həm İKT çərçivəsində böyük müvəffəqiyyətlər qazanmış, həm də İsraillə sabit və konstruktiv əməkdaşlıq edir.

Bu gün Azərbaycanın əksər ərəb dövlətləri ilə (Səudiyyə Ərəbistanı, Misir, Birləşmiş Ərəb Əmirlikləri, Küveyt, Suriya və s.) gözəl dostluq və əməkdaşlıq münasibətləri var. Ölkəmizdə bir sıra ərəb ölkələrinin səfirlikləri fəaliyyət göstərir. Azərbaycanın Səudiyyə Ərəbistanı Krallığı, Misir və BƏƏ-də səfirlikləri var. Yaxın gələcəkdə Küveyt və Suriya kimi ərəb ölkələrində də səfirliklərimizin açılması nəzərdə tutulub. 1994-cü ildə Heydər Əliyev Səudiyyə Ərəbistanı Krallığında səfərdə olmuş, «Azərbaycan Respublikası ilə Səudiyyə Ərəbistanı Krallığı arasında iqtisadiyyat, ticarət, investisiya, texnika, mədəniyyət, gənclər və idman sahələrində əməkdaşlığa dair Baş Saziş» imzalanmışdır.

Azərbaycan müstəqillik qazandıqdan sonra İslam Konfransı Təşkilatına üzv oldu. Heydər Əliyev müsəlman ölkələri arasında əməkdaşlığı möhkəmlətməyi, sülh şəraitini təmin etməyi, mənəvi dəyərlərimizi, mədəniyyətimizi, ənənələrimizi qoruyub saxlamaq və inkişaf etdirməyi əldə rəhbər tutan bu beynəlxalq təşkilatla yaxından əməkdaşlıq etmək, onun vasitəsi ilə müsəlman dünyasının haqq işimizdə bizə dəstəyinə nail olmaq prinsiplərini xarici siyasətimizin vacib istiqaməti hesab edərək bu təşkilatın bütün imkanlarından səmərəli istifadə etmək zərurətini vurğuladı. Azərbaycan 1991-ci ildən İKT-nin üzvü idi və bu təşkilatla əməkdaşlıq sahəsində müəyyən işlər görülmüşdür. Lakin bunlar kifayət deyildi. Heydər Əliyevin 1993-cü ildə yenidən hakimiyyətlə gəlişindən

sonra bu istiqamətdə görülən işlər sanki yeni nəfəs aldı.

İKT xarici işlər nazirlərinin 1993-cü ildə Karaçidə keçirilmiş XXI, 1994-cü ildə Kasablankada keçirilmiş XXII, 1995-ci ildə Konakridə keçirilmiş XXIII konfransları Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında münaqişə haqqında qətnamələr qəbul etmişdir. İKT xarici işlər nazirlərinin 1996-cı ildə Cakartada keçirilmiş XXIV konfransında müvafiq qətnamənin adı dəyişdirilərək, «Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü haqqında» adlandırılmışdır.

Konfrans ölkəmizlə bağlı daha bir sənəd - «Ermənistan Respublikasının təcavüzü nəticəsində Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində islam tarixi və mədəniyyət abidələrinin məhv edilməsi və dağıdılması haqqında» qətnaməni qəbul etmişdir.

Respublikamızla bağlı bütün qətnamə layihələrinin təqdim etdiyimiz şəkildə, mübahisəsiz, heç bir düzəliş və təftişə məruz qalmadan qəbul olunması bir daha təsdiq edir ki, islam aləmi problemlərimizlə yaxından tanışdır və bizi dönmədən dəstəkləyir. Bu da öz növbəsində düzgün qurulmuş xarici siyasətimizin nəticəsidir. Prezident Heydər Əliyevin İKT dövlət və hökumət başçılarının 1994-cü ildə Kasablankada keçirilmiş VII və 1997-ci ildə Tehranda keçirilmiş VIII zirvə konfranslarında şəxsi iştirakı, oradakı nitqi və keçirdiyi görüşləri islam aləmində geniş reaksiyaya səbəb olmuşdur. İKT-nin sabiq Baş katibi İzəddin İraqi dövlət başçılarının Tehran zirvə konfransı günlərində Azərbaycan Prezidenti ilə keçirdiyi görüşdən sonra jurnalistin sualına verdiyi aşağıdakı cavab fikrimizə əyani sübutdur: «Mən fəxr edirəm ki, Azərbaycan Prezidenti Heydər Əliyevlə görüşdüm, onun fikirlərini dinlədim. Fəxr edirəm ki, o, təşkilatımızın işinə yüksək qiymət verdi. Biz təşkilatımızın Azərbaycanla əlaqələrinin daha da sıxlaşması üçün əlimizdən gələni edəcəyik... Mən cənab Prezidenti əmin etdim ki, İKT həmişə Azərbaycanın tərəfində olmuş və bundan sonra da olacaqdır. Mən cənab Prezidenti həmçinin əmin etdim ki, Azərbaycan torpaqlarının işğaldan azad edilməsi bizim dəyişməz mövqeyimizdir. Mən belə hesab edirəm ki, Azərbaycanın İKT ilə sıx əməkdaşlıq etməsi Prezident Heydər Əliyevin böyük zəkaya, ağıla malik olduğuna dəlalət edir».

Məlumdur ki, xarici siyasət daxili siyasətdən doğur və onun məntiqi nəticəsidir. Prezident Heydər Əliyevin Şərq siyasətini qısaca da olsa nəzərdən keçirəndə, onun etdiyi səfərləri, reallaşdırdığı görüşləri, verdiyi müsahibələri, bağladığı müqavilələri, müəyyənləşdirdiyi istiqamət və prinsipləri təhlil edəndə bir daha bu qənaətə gəlirik ki, onun apardığı xarici siyasət də daxili siyasəti kimi daim bir mərama, bir məqsədə, bir amala xidmət edib - müstəqil Azərbaycanı yaşatmaq, onu hərtərəfli inkişaf etdirmək, problemlərimizi həll etmək,

xalqımızın dünya xalqları birliyində özünəlayiq yer tutmasına nail olmaq.

«Azərbaycan» qəzeti, 17 dekabr 2003-cü il.

ŞƏRQ VƏ QƏRB ƏDƏBİYYATLARININ QARŞILIQLI ƏLAQƏ VƏ TƏSİRİNƏ DAİR

Görkəmli şərqşünas alim Aida İmanquliyevanın elmi yaradıcılığı əsasında

«Öz əsərlərində yaşayanlar ölmürlər»
Amerika alimi Kristian Bovio

Surətlə inkişaf edən, qloballaşan dünyamızda hər şey durmadan dəyişir, xalqlar və ölkələr yaxınlaşır, insanlar və talelər birləşir. Bütün bunlar bir daha «Şərq Şərqdir, Qərb isə Qərb, onlar heç vaxt uyğunlaşmayacaqlar», - deyənlərin yanıldığını göstərir.

Bir vaxtlar Şərq və Qərb mədəniyyətlərinin qarşılıqlı əlaqə və təsirinin tədqiqi hakim ideologiyanın tələblərinə uyğun olaraq ciddi təhriflərə məruz qalırdı. Şükürlər olsun ki, o zamanlar artıq arxadadır, ön plana isə qarşıdurma yox, sivilizasiyaların dialoqu və ortaq mədəni-mənəvi dəyərlər çəkilib.

Lakin elə o dövrdə yetişən və alim kimi formalaşan nadir istedad sahibləri var idi ki, zamanı qabaqlayaraq problemə ideoloji aspektdən fərqli olaraq universal modellər, ümumbəşəri dəyərlər müstəvisində yanaşırdılar. Aida Nəsir qızı İmanquliyeva məhz belə alim-tədqiqatçı idi.

Şərq və Qərb ədəbiyyalarının qarşılıqlı əlaqə və təsirinin minilliklərlə tarixi var. Eramızdan əvvəl ikinci minillikdə qədim Şərq mədəniyyətinin yunan mədəniyyətinə təsiri inkaredilməzdir. Müxtəlif xalqların qədim eposlarında genetik əlaqələr və tipoloji paralellər aşkar görünür. Bunu «Gilqameş»ın, «Mahabharata»nın, «Ramayana»nın, «İliada»nın, «Odisseya»nın və digər eposların müqayisəli təhlili əyani şəkildə nümayiş etdirir.

Ellinizm dövründə isə yunan mədəniyyətinin Şərq mədəniyyətlərinə təsiri danılmazdır. Orta əsrlərdə mədəni təsirin istiqaməti yenə də Şərqdən Qərbə yönəldi. Barbarların hücumları nəticəsində yunan-rum sivilizasiyası süquta uğradıqdan sonra məhz ərəb-iran mədəniyyəti antik və Avropa Renessans mədəniyyəti arasında vasitəçi oldu.

Orta əsrlər hind, Şərqi Asiya, Ön Asiya, Bizans və Qərbi Avropa mədəniyyətlərinin təmas xəttində sərhəd ədəbiyyatı adlanan mədəniyyətlər yarandı. Bunlardan ən maraqlısı mütəxəssislərin rəyinə görə ərəb və ispan ədəbiyyatlarının qarşılıqlı əlaqə və təsiri nəticəsində yaranan Əndəlus ədəbiyyatı hesab olunur.

XIX əsrin 20-ci illərində antik, ingilis, fransız, ispan, fars, hind, çin ədəbiy-

yatlarının ən parlaq nümunələri ilə gözəl tanış olan Höte ümumdünya ədəbiyyatı konsepsiyasını irəli sürdü. Lakin o zaman bu konsepsiya Avropameylli olmağa məhkum idi, çünki Şərq ədəbiyyatları özünütəcriddən hələ xilas ola bilməmişdilər.

Yalnız bir qədər sonra, əsasən XIX əsrin ikinci yarısından etibarən, ərəb ölkələri Avropanın mədəni təsirinə fəal reaksiya verməyə başladılar. Şərq ölkələrində siyasi və iqtisadi vəziyyətin pisləşməsi, müstəmləkə asılılığı və milli özünəməxsusluğun və bədii ənənələrin itirilmə təhlükəsi mədəni həyatda daha şüurlu mübadiləyə, bəzən isə Qərb təsirinin fəal mənimsənilməsinə yol açdı.

Bu təmayülün fəal təmsilçiləri milli dəyərləri, ilk növbədə, mədəniyyəti zənginləşdirmək arzusu ilə yaşayan yerli vətənpərvər ziyalılar oldu. Yeni yaranan ədəbiyyat ənənəvi etik və estetik funksiyalarından uzaqlaşdı, ictimai mövzulara üz tutdu. Ənənənin, demək olar ki, bütün sistem – struktur mahiyyəti dəyişdi. Məhz belə bir zamanda ərəb ədəbiyyatında «Suriya-Amerika məktəbi» adlanan ədəbi cərəyan yarandı ki, o çox-çox sonralar, 1970-ci illərin əvvəllərində təzəcə elmə qədəm qoymuş gənc alim Aida İmanquliyevanın nəzər-diqqətini özünə çəkdi. Və elə həmin illərdən Aida xanım, demək olar ki, bu mövzunun vurduğu oldu, onun yorulmaz tədqiqatçısına çevrildi.

Onun çoxsaylı elmi əsərlərində (3 monoqrafiya və 70-dən artıq elmi məqalə) Qərb və Şərq mədəni ənənələrinin sintezi, yaradıcı üslubun inkişafı və yeni bədii üslubun təşəkkül tapması tədqiq olundu ki, bu da nəinki ərəb ədəbiyyatının, həmçinin bütün yeni Şərq ədəbiyyatlarının həmin aspektdə tədqiqi üçün çox mühüm zəmin yaratdı.

Şərq-Qərb mədəniyyətlərinin qarşılıqlı təsir və əlaqələrini öyrənərkən alim hər iki ədəbiyyatın ümumbəşəri dəyərlərini əsas götürdü, mədəni tərəqqini şərtləndirən amillərə istinad etdi. Bir məsələni də xüsusi şəkildə qabartdı. Şərqin bir çox ölkələrinin müasir inkişafı bir həqiqəti ortaya qoyur – Qərbin dəyərləri o zaman yerli zəmində kök sala və onu zənginləşdirə bilər ki, onlar Şərq ənənəsinə və milli xarakterə uyğun formalarda əxz edilsinlər.

Alim ərəb məhcər ədəbiyyatının ən müxtəlif bədii üsluba malik nümayəndələrinin yaradıcılığını araşdırdı: Nuaymə yaradıcılığında rus ədəbiyyatının təsiri ilə formalaşan tənqidi realizmi öyrəndi, Cübran yaradıcılığında ingilis poeziyasının təsiri ilə romantik üslubun inkişaf prosesini izlədi, Amerika transsendentalistlərinin Əmin ər-Reyhani və digərlərinin yaradıcılığında oynadığı rolu müəyyənləşdirdi. Bu zaman o yüzlərlə ədəbiyyat oxuyur, yazıçıların ən məşhur əsərlərini təhlil edir, onların yaradıcılıq metodunu, dünyagörüşünü, nəsr və poeziya dillərinin təkamülünü, lirizmi, müxtəlif qəhrəman obrazlarının xüsusiyyətlərini tədqiq edir, dünya ərəbşünaslığında ilk dəfə olaraq ərəb-

Amerika, Qərbi Avropa və rus ədəbi əlaqələrinin məğzi və əhəmiyyətini tam aşkar edir, ərəb məhcər ədəbiyyatının ən görkəmli nümayəndələrinin bədii üslubunun formalaşmasında Qərb və rus ədəbiyyatlarından mənimsəmə prosesi və onun nəticələrini müəyyənləşdirir.

Alimin gəldiyi qənaətə görə, ədəbi inkişaf prosesi gedişində maarifçi didaktizm, sentimentalizm cizgiləri qeyd olunan ərəb yazıçıları tərəfindən aradan qaldırılmış, romantizmin və tənqidi realizmin poetikası mənimsənilmişdir. Beləcə onlar içərisində olduqları tarixi gerçəkliyi əks etdirmək üçün çox zəruri olan yeni ideya və yeni formaları özündə daşıyan Qərb mədəniyyəti və ədəbiyyatının nailiyyətlərindən yaradıcı surətdə faydalanıblar.

Bu yazıçıların hər biri öz yaradıcılıq metoduna xas olan etik və bədii dəyərlər ehtiyatını işə salaraq, onu özünəməxsus şəkildə bədii təcrübədən keçirmişdir. Cübran və ər-Reyhani Qərb romantizminə müraciət etmişlər. Lakin ərəb romantik şairlərindən fərqli olaraq, bu yazıçılar yalnız onun zahiri xüsusiyyətlərini mexaniki şəkildə qəbul etməmiş, romantizmi yaradıcı metod kimi, yəni onlara ərəb gerçəkliyinə öz münasibətlərini ifadə etmək imkanı verən yeni nəzər nöqtəsi kimi mənimsəmişlər. Onlar ilk olaraq Maarifçiliyin artıq daralmış çərçivəsini qırıb romantizm cəbhəsinə keçmişlər. Cübranın və ər-Reyhaninin yaradıcılığında romantik istiqamət nəinki mənimsənilmiş, həm də zənginləşmiş və mürəkkəbləşmişdir. Bu, bir tərəfdən ərəb ədəbiyyatının xüsusi ənənələri ilə Qərb romantizmi təcrübəsinin mürəkkəb sintezi nəticəsində, digər tərəfdən hər iki sənətkarın fərdi istedadı sayəsində baş vermişdir. Beləcə, onlar ümumbəşəri problemlərin qoyuluşu səviyyəsinə yüksəlmiş və dünya ədəbi prosesinin nəinki bərabərhüquqlu iştirakçısı olmaq, həm də yeni bədii dəyərlərin dünya ədəbiyyatına ötürücüsü kimi çıxış etmək imkanı qazanıblar.

A.İmanquliyeva araşdırmalarının sonunda belə bir müddəa irəli sürür ki, ərəb ədəbiyyatı xarici ədəbiyyatların nailiyyətlərindən faydalanmasında ilk növbədə məhcər ədəbiyyatı nümayəndələrinə borcludur. Məhcər yazıçıları Qərb ədəbiyyatının pozitiv təsiri orbitində olaraq, onun ən yaxşı nailiyyətlərini mənimsəmiş və özlərinə məxsus şəkildə inkişaf etdirmişlər. Öz əsərlərində milli ruhu və milli koloriti qoruyub saxlaya bilən bu yazıçılar yeni ərəb ədəbiyyatının inkişafında əvəzsiz rol oynamışlar. Məhz onların yaradıcılığı sayəsində XX əsr ərəb ədəbiyyatının mövzu dairəsi genişlənmiş, janr tərkibi daha da rəngarəng olmuş, bədii ifadənin yeni formaları yaranmış və ərəb ədəbiyyatı ümumbəşər mədəniyyətinin ayrılmaz hissəsinə çevrilmişdir.

Bu günlərdə görkəmli şərqşünas-alim, elm təşkilatçısı, pedaqoq, filologiya elmləri doktoru, professor Aida xanım İmanquliyevanın yubileyidir. Yaşasaydı, ailəsi, həmkarları, tələbələri ilə birlikdə bu günü fərəhlə qarşılayardı. Çox təəs-

süf ki, onun ömür yolu qısa oldu. Amma onsuz ötən illər bir həqiqəti də ortaya qoydu: Aida xanım bizdən yalnız cismən ayrılıb – adı dillərdən düşmür, xatirəsi ürəklərdən silinmir. Onun ruhu aramızda dolaşır, övladlarında, əsərlərində, tələbələrində, həmkarlarında yaşayır, yolumuzu işıqlandırır, bizi sabaha səsləyir. Əsərləri dönə-dönə oxunulur, təhlil və tədqiq edilir, tərcümə olunur, yenidən işıq üzü görür. Nə qədər ki, onun alim qələmi ilə uğrunda mübarizə apardığı ideya və amallar aktuallığını itirməyib, nə qədər ki Şərq və Qərb münasibətlərində tam anlaşma bərqərar olmayıb, insanlar dönə-dönə Aida İmanquliyevanın əsərlərinə müraciət edəcək və gələcək nəsillər onu daim minnətdarlıqla xatırlayacaqlar.

«525-ci qəzet», 9 oktyabr 2004-cü il.

MİLLİ ELMLƏR AKADEMİYASI - 60

ŞƏRQŞÜNASLIĞIN AKTUAL PROBLEMLƏRİ TƏDQİQ OLUNUR

Azərbaycan şərqşünaslığı dərin tarixi köklərə malikdir. Onun təşəkkülü və inkişafı islam sivilizasiyası, türk dünyası, Yaxın və Orta Şərq ölkələrinin mədəniyyəti ilə sıx əlaqədə olan Azərbaycan mədəniyyətinin tarixi təkamülü ilə bağlı olub.

Böyük Azərbaycan mütəfəkkir və alimləri Bəhmənyar, Xətib Təbrizi, Şəhabəddin Sührəvərdi, M.Şəbüstəri, Nizami Gəncəvi, Məhəmməd ibn Hinduşah Naxçıvani, Seyid Yəhya Bakuvi, Həsən bəy Rumlu, Hacı Zeynalabdin Şirvani və digərləri öz qiymətli əsərləri ilə Şərq xalqlarının tarix, ədəbiyyat, fəlsəfə, coğrafiya və etnoqrafiyasının inkişafına və, ümumiyyətlə, dünya elminə əvəzsiz töhfələr vermişlər.

XIX yüzildə çoxəsrlik milli mədəniyyətin təməlində və Avropa elminin təsiri ilə Azərbaycanda şərqşünaslığın inkişafına təkan vermiş bir sıra parlaq alim və ədiblər meydana çıxmışdır. Həmin dövrdə yaşamış A.Bakıxanov, M.F.Axundov, Mirzə Kazım bəy, M.C.Topçubaşov kimi mütəfəkkir və alimlərimizin Azərbaycanın elm və mədəniyyətinin inkişafındakı xidmətləri misilsizdir. Eyni zamanda, onların Rusiyada və Avropa ölkələrində şərqşünaslıq elminin təşəkkül və inkişafında mühüm rolu olmuşdur.

Sovet dövründə, 1935-ci ildə SSRİ EA Azərbaycan filialının, 1954-cü ildə isə Tarix İnstitutu nəzdində xarici Şərq ölkələri tarixi şöbəsinin yaradılması ilə Azərbaycanda Şərqin sistemli şəkildə tədqiqi başlandı.

Azərbaycan MEA Şərqşünaslıq İnstitutu (1967-1984-cü illərdə Yaxın və Orta Şərq Xalqları İnstitutu) 1958-ci ildə respublika Nazirlər Sovetinin qərarı ilə EA-nın digər institutlarında fəaliyyət göstərən müvafiq şöbə və qrupların əsasında yaradılmışdır. Həmin vaxtdan etibarən Azərbaycan Şərqşünaslığının inkişafında keyfiyyətcə yeni dövr başlandı, coğrafi region və əsas tədqiqat istiqamətləri müəyyənləşdi. İnstitutun qarşısında duran başlıca vəzifə Yaxın və Orta Şərq ölkələrinin tarixi, ictimai-siyasi, iqtisadi və mədəni inkişafının qanunauyğunluqlarını və xüsusiyyətlərini tədqiq və təhlil etmək idi. Eyni zamanda, Azərbaycanın Yaxın və Orta Şərq ölkələri ilə çoxəsrlik mədəni-tarixi əlaqələrini nəzərə alaraq respublika üçün konkret tətbiqi əhəmiyyəti olan aktual tədqiqatlara da önəm verilirdi.

İnstitutun yüksək ixtisaslı kadrlarının və elmi potensialının artması nəticəsində tədricən şərqşünaslığın tematikası genişləndi və zənginləşdi. Kollektivin səyi, əsasən, Yaxın və Orta Şərq ölkələrinin tarixi, iqtisadiyyatı, icti-

mai-siyasi fikri və filologiyasının aktual problemlərinin kompleks şəkildə öyrənilməsinə, Şərq xalqlarının yazılı abidələrinin tədqiqi və nəşrinə, həmçinin Azərbaycan xalqının ərəbdilli və farsdilli abidələrinin tərcümə və araşdırılmasına yönəldi.

Azərbaycan müstəqillik əldə edənə qədər respublikamızda şərqşünaslıq elmi bütövlükdə keçmiş sovet şərqşünaslığının tərkib hissəsi kimi inkişaf edirdi. Belə ki, institutda aparılan elmi araşdırmaların tematikası, xüsusilə Şərq ölkələrinin müasir ictimai-siyasi və ideoloji problemlərlə bağlı bir sıra mövzular, hakim marksizm təliminin tələblərinə uyğun şəkildə tədqiq edilir və Sovet İttifaqının Şərq siyasətinin həyata keçirilməsinə xidmət edirdi. Lakin eyni zamanda, keçmiş İttifaqın aparıcı şərqşünaslıq mərkəzləri ilə daimi əlaqə, elmi təcrübə mübadiləsi, müxtəlif elmi və elmi-informativ məlumatların əldə edilmə imkanı Azərbaycanda bu sahənin inkişafına güclü təkan vermişdir. Təsadüfi deyil ki, keçən əsrin 70-80-ci illərində Azərbaycan şərqşünaslıq elmi keçmiş İttifaqda aparıcı mövqelərdən birini tutmuş və dünyada bu sahənin mütəxəssisləri arasında layiqli şöhrət qazanmışdır. Azərbaycan şərqşünaslığının beynəlxalq nüfuzu akademiklər Ə.Əlizadə, Ə.Sumbatzadə, H.Araslı, Z.Bünyadov, professorlar R.Əliyev, A.İmanquliyeva, R.Seyidov və bir çox digər aparıcı alimlərin yorulmaz əməyi ilə yaradılmışdır.

1991-ci ildə Azərbaycanın öz istiqlaliyyətini bərpa etməsi və müstəqil Azərbaycan Respublikasının yaranması institutun önündə yeni üfüqlər açdı və qarşısında yeni vəzifələr qoydu.

Yeni şəraitdə Azərbaycan şərqşünaslığının məqsəd və problematikası əsaslı şəkildə yenidən işlənmişdir. Xarici siyasət xəttini müstəqil surətdə müəyyən edən Azərbaycan Respublikası üçün Şərq ölkələri ilə iqtisadi, siyasi və mədəni əlaqələrin genişləndirilməsi hal-hazırda olduqca mühüm bir məsələdir. Azərbaycanın xarici siyasət strategiyası baxımından Yaxın və Orta Şərq ölkələrinin ictimai-siyasi və iqtisadi vəziyyətinin öyrənilməsinə ciddi ehtiyac vardır.

Xüsusilə nəzərə almaq lazımdır ki, Yaxın Şərq bu gün dünyanın ən gərgin və böhranlı regionlarından birinə çevrilmişdir. Burada mövcud olan zəngin neft ehtiyatları və digər təbii sərvətlər böyük dövlətlərin və beynəlxalq güc mərkəzlərinin diqqətini daim bölgəyə cəlb edir. Davam edən İsrail-Fələstin qarşıdurması, İraq müharibəsi, müxtəlif ölkələrdə etnik münaqişələr, dini-fundamentalist cərəyanlar, beynəlxalq terrorizm təhlükəsi və s. problemlər bütün dünyada bu regiona marağı artırır. Təsadüfi deyil ki, son illərdə Amerika və Avropada yeni-yeni «Şərq araşdırmaları mərkəzləri» yaranır, region ilə bağlı nəşrlərin sayı artır. ABŞ administrasiyasının elan etdiyi «Böyük Yaxın Şərq» strategiyası yaxın gələcəkdə bu regionda gərginliyin artmasının gözlənildi-

yindən xəbər verir. Müstəqil Azərbaycanın milli və dövlət maraqları burada baş verən və ola biləcək hadisələri ciddi şəkildə təhlil edib nəzarətdə saxlamağı tələb edir.

Eyni zamanda, bazar iqtisadiyyatına keçid dövründə Azərbaycan üçün iqtisadi islahatlar və özəlləşdirmə, habelə bir sıra təbii ehtiyatların istismarı və istehsalı sahəsində qonşu Yaxın Şərq ölkələrinin təcrübəsindən öyrənilməsinə ehtiyac duyulur. Bu sahədə Avropa ilə yanaşı, mentalitet və milli-dini dəyərlər baxımından bizə daha yaxın olan Şərq ölkələrinin təcrübəsinin müsbət və mənfi tərəflərinin tədqiqi aktual məsələdir. Bundan əlavə, Türkiyə, İran və Ərəb ölkələri ilə iqtisadi əməkdaşlığı genişləndirən respublikamız üçün bu sahənin prioritet istiqamətlərini aydınlaşdırmaq lazımdır.

Bütün bunlarla əlaqədar müstəqillik dönəmində institutun elmi fəaliyyət dairəsi daha da genişlənmiş, bir sıra yeni istiqamətlər müəyyənləşdirilmişdir. Hazırda institutda elmi tədqiqat işləri əsasən:

- Şərq ölkələrinin ictimai-siyasi, iqtisadi, mədəni inkişafının qanunauyğunluqlarını öyrənmək;

- Şərq xalqlarının tarixi, filoloji, dini-fəlsəfi irsini araşdırmaq; yazılı abidələri tədqiq, tərcümə və nəşr etmək;

- Şərq-Qərb sivilizasiyalararası münasibətləri araşdırmaq;

- Azərbaycan və Şərq xalqlarının tarixi-mədəni əlaqələrini tədqiq etmək;

- Müstəqil Azərbaycan Respublikası ilə Şərq ölkələri arasında siyasi, iqtisadi, diplomatik və mədəni münasibətləri araşdırmaq; onlara dair proqnoz və tövsiyələr hazırlamaq istiqamətlərində aparılır.

İnstitutun kollektivi öz elmi fəaliyyətini şərqşünaslığın ən aktual problemlərini tədqiq etməyə yönəltmişdir. Türkiyə, İran və Ərəb ölkələrinin tarixi, ictimai-siyasi və iqtisadi inkişafı, Şərq xalqlarının filologiyası, islam tarixi, müasir Yaxın Şərqdə din və ictimai fikir cərəyanları və digər sahələr institut əməkdaşlarının diqqət mərkəzindədir. Son illər xüsusi aktuallıq kəsb edən Güney Azərbaycanın iqtisadi, ictimai və mədəni inkişaf problemləri, habelə islam fundamentalizmi və s. kimi məsələlərin tədqiqi daha geniş vüsət almışdır.

Ötən müddət ərzində institutda 400-dən artıq monoqrafiya, məqalələr məcmuəsi və kitab nəşr edilmişdir.

1998-ci ildə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin fərmanı ilə Şərqşünaslıq İnstitutuna akademik Z.M.Bünyadovun adı verilmişdir.

İnstitutda 9 şöbə fəaliyyət göstərir: Türkiyə tarixi və iqtisadiyyatı, İran tarixi və iqtisadiyyatı, Ərəb ölkələrinin tarixi və iqtisadiyyatı, Türk filologiyası, İran filologiyası, Ərəb filologiyası, Mənbəşünaslıq və yazılı abidələrin tədqiqi

və nəşri, Din və ictimai fikir tarixi, Şərq-Qərb şöbələri.

İnstitut əməkdaşları Azərbaycan şərqşünaslığını bir çox beynəlxalq konqres, konfrans və simpoziumlarda, o cümlədən şərqşünasların XXIV, XXV, XXXII, XXIX və XXXI Beynəlxalq konfranslarında (AFR, SSRİ, Avstraliya, Fransa, Yaponiya), Türk Tarix Qurumunun son on üç konqresində (Ankara, 1966-1999) və s. təmsil etmiş, Almaniya, Çin, Avstriya, Böyük Britaniya, Türkiyə, Rusiya, İran, Misir, Malayziya, İsrail, Hollandiya, Amerika Birləşmiş Ştatları, Özbəkistan, Qırğızıstan və s. ölkələrdə keçirilən şərqşünaslığın müxtəlif problemlərinə həsr edilmiş konfrans və simpoziumlarda iştirak etmişlər.

İnstitutun hazırda Türkiyə, Almaniya, Hollandiya, İran, Birləşmiş Ərəb Əmirlikləri, Misir Ərəb Respublikası və s. ölkələrinin universitet və elmi mərkəzləri, habelə Türk Tarix Qurumu ilə sıx elmi əlaqələri vardır.

Həmçinin institut YUNESKO-nun dəstəyi ilə fəaliyyət göstərən Beynəlxalq Mərkəzi Asiya Araşdırmaları İnstitutunun Azərbaycan üzrə əlaqələndiricisidir. İnstitut bir sıra mühüm beynəlxalq elmi konfrans və simpoziumları – şərqşünasların II Ümumittifaq elmi konfransının, Mustafa Kamal Atatürkün anadan olmasının 110 illiyinə həsr olunmuş beynəlxalq elmi konfransın, Hollandiyanın Utrext Universiteti ilə birlikdə «Azərbaycan və qonşu ölkələrdə XX əsrin əvvəllərində ictimai-siyasi fikir və ideoloji reallıqlar» mövzusunda beynəlxalq elmi konfransın, Türkiyə Respublikasının yaranmasının 75 illiyinə həsr olunmuş beynəlxalq konfransın, «Qafqazda islam sivilizasiyası» adlı beynəlxalq simpoziumun, Osmanlı dövlətinin yaranmasının 700 illiyinə həsr olunmuş beynəlxalq elmi konfransın və s. təşkilatçısı olmuşdur.

«Respublika» qəzeti, 14 may 2005-ci il.

GÖRKƏMLİ ŞƏRQŞÜNAS, PARLAQ ŞƏXSİYYƏT

Azərbaycanın tanınmış elm və mədəniyyət xadimi, dilçi-ədəbiyyatşünas, türkoloq, şair və tərcüməçi, pedaqoq, keçmiş SSRİ Elmlər Akademiyasının Şərqşünaslıq Assosiasiyasının, Şərqşünaslıq Elmi üzrə Əlaqələndirmə Şurasının və şərq ədəbiyyatşünaslığı bölməsinin üzvü, müqayisəli əruzşünaslıq elminin və Azərbaycan milli əruzşünaslıq məktəbinin banisi, filologiya elmləri doktoru, mərhum professor Əkrəm Cəfərin xalqımızın milli elm və mədəniyyətinin inkişafında böyük xidmətləri olmuşdur. 1905-ci il may ayının 5-də İsmayıllı rayonunun Lahıc kəndində, dövlətli tacir Seyid Hacı Səftərin ailəsində dünyaya göz açan Əkrəm Cəfər ibtidai təhsilini mollaxanada alaraq, Qurani-Kərimi öyrənmiş, habelə Sədi Şirazinin «Gülüstan» və «Bustan» əsərlərini mütaliə edərək, ərəb, fars və türk dillərinə yiyələnmişdir. 15 yaşında ikən Əkrəm Bakıya gələrək, Darülmüəlliminə daxil olur. O, burada dahi şair və dramaturq Hüseyn Caviddən, Üzeyir Hacıbəylidən, Abdulla Şaiqdən dərs almışdır. Mikayıl Müşfiqlə yaxın olan Əkrəm Cəfər sənət aləminə şeirlə qədəm qoymuş və özünün ilk bədii fikir nümunələrini mətbuat səhifələrində dərc etdirmişdir. Gənc şairin şeirləri 20-30-cu illərin ədəbi tənqidi tərəfindən yüksək qiymətləndirilmişdir.

Şərqin klassik sənətkarlarının yaradıcılığını, türk dünyasının elmi-fəlsəfi və bədii düşüncə örnəklərini, İslam aləminin, habelə Avropa xalqlarının elm, sənət və ədəbiyyat nümunələrini böyük coşqunluqla öyrənən Əkrəm Cəfər Darülmüəllimini uğurla bitirdikdən sonra Lənkəranda və Qazaxda ədəbiyyat müəllimi kimi çalışmışdır.

1929-cu ildə Əkrəm Cəfər Səməd Vurğun və Osman Sarıvəlli ilə birgə Moskvaya yollanır və Moskva Dövlət Universitetinin dil və ədəbiyyat fakültəsinə daxil olur. 1932-ci ildə bu təhsil ocağını müvəffəqiyyətlə bitirən Əkrəm Cəfəri elə orada pedaqoji fəaliyyətə cəlb edirlər. 1932-1937-ci illərdə o, Moskvanın digər üç institutunda da dərs deyir və hər il mükafat alır. Görkəmli alimimiz 1932-ci ildə aspiranturaya daxil olur və böyük türkoloq, akademik A.N.Samoyloviçin rəhbərliyi ilə «XX əsr Azərbaycan ədəbi dilinin inkişaf mərhələləri (1905-1936)» adlı namizədlik dissertasiyası üzərində işləyərək, uğurla müdafiə edir. 1932-1934-cü illərdə dünya şöhrətli dilşünas, akademik N.Y.Marrın elmi katibi olmaq şərəfi də məhz Əkrəm Cəfərin taleyinə yazılmışdı. Sovet İttifaqının ali hakimiyyət dairələrində zəngin biliyi yüksək qiymətləndirilən alim 1935-ci ildə Kremldə işləməyə dəvət alır və SSRİ hökumətinin qanun və sərəncamlarının Azərbaycan dilindəki nəşrinin məsul redaktoru vəzifəsinə təyin olunur.

1937-ci ildə isə artıq nüfuz sahibi olan Əkrəm Cəfəri Azərbaycan Kommu-

nist Partiyası Mərkəzi Komitəsinin qərarı ilə Bakıya, Azərbaycan Pedaqoji İnstitutuna (APİ) kafedra müdiri vəzifəsinə dəvət edirlər. O, SSRİ Elmlər Akademiyasının filialının əməkdaşı olmaqla yanaşı, 1937-1939-cu illərdə APİ-də, 1939-1942-ci illərdə Azərbaycan Dövlət Universitetində (ADU) Şərq filologiyası və ümumi dilçilik kafedrasının müdiri işləmişdir. Böyük alimin çox mürəkkəb və ziddiyyətli taleyinin ağır dövrü 1942-ci ilə təsadüf edir. Belə ki, ilk yeniyetməlik vaxtlarından Azərbaycan xalqının milli azadlıq ideyaları uğrunda mübarizəsi ruhunda alıb formalaşan və türkçülük, islamçılıq, millətçilik, vətənpərvərlik amallarına qəlbən bağlı olan, təzyiqlərə rəğmən əqidəsindən dönməyən Əkrəm Cəfər 1942-ci il sentyabrın 5-də həbs olunaraq, Hüseyn Cavid, Əhməd Cavad, Mikayıl Müşfiq, Həmid bəy Şaxtaxtinskiyə pərəstiş etdiyinə görə antisovetçi kimi məhkəməsiz Kuybışevə sürgünə göndərilmişdir. Daha sonra, o, Krım çöllərində də zillətlər çəkmişdir.

Əkrəm Cəfər 1949-cu ilə qədər həbsxana və düşərgələrdə yatmış, həmin ildə həbsxanadan çıxdıqdan sonra isə Stalinin ölümünə kimi Türkmənistanın Mərv vilayətində çox ağır sürgün illəri yaşamış, Türkmənistanda da canı qədər sevdiyi elmin xidmətində duraraq, ensiklopedik biliklərini insanlarla bölüşdürmüşdür.

1954-cü ildə min bir əziyyətlərə məruz qalmış alimə, nəhayət ki, Vətənə qayıtmaq səadəti nəsib olur. Onun çox ağrılı-acılı, lakin şərəfli həyatında tamamilə yeni bir mərhələ başlayır. 1954-1957-ci illərdə Əkrəm Cəfər APİ və ADU-da «Qədim türk yazılı abidələri» fənnindən dərs deyir, habelə elmi-tədqiqat işlərinə cəlb olunur. Görkəmli alim 1955-1961-ci illərdə Elmlər Akademiyasının Ədəbiyyat və Dil İnstitutunda, 1961-ci ildən həyatının sonlarına qədər isə pedaqoji fəaliyyəti ilə yanaşı, Şərqşünaslıq İnstitutunda işləmişdir.

Azərbaycan xalqının elm və mədəniyyətinin görkəmli simalarından biri olan professor Əkrəm Cəfər 1940-cı ildə namizədlik, 1969-cu ildə isə doktorluq dissertasiyasını müvəffəqiyyətlə müdafiə etmişdir. O, ümumilikdə, Şərq və Azərbaycan ədəbiyyatşünaslığına, dilçiliyinə və türkologiyaya həsr olunmuş 230-dan artıq əsərin və bir neçə monoqrafiyanın müəllifidir. Azərbaycanda, habelə keçmiş SSRİ-də bir çox filoloq, şərqşünas, musiqişünas, həmçinin aktyorların sənətə yiyələnməsində görkəmli alimin böyük əməyi olmuşdur. Müxtəlif illərdə o, Azərbaycan Pedaqoji İnstitutunda, Azərbaycan Dövlət Universitetində, M.F.Axundov adına Rus dili və Ədəbiyyatı İnstitutunda, Azərbaycan Dövlət İncəsənət İnstitutunda, habelə Dövlət Konservatoriyasında dərs demişdir. Xalq yazıçıları İsmayıl Şıxlı, Əzizə Cəfərzadə, yazıçı Gülhüseyn Hüseynoğlu, xalq şairi Bəxtiyar Vahabzadə, xalq artistləri Əlabbas Qədirov, Rasim Balayev, görkəmli teatr və kino xadimi Hamlet Xanızadə, əməkdar

incəsənət xadimi Rəfiq Zəka Xəndan, akademik Kamal Talıbzadə, AMEA Humanitar və İctimai Elmlər Bölməsinin akademik-katibi Ağamusa Axundov, AMEA-nın müxbir üzvü Əziz Mirəhmədov kimi elm və mədəniyyət xadimlərimiz onun tələbələri olmuşlar.

Şərq aləminin dahi mütəfəkkirləri və söz ustaları olan Məhəmməd Füzuli, Əfzələddin Xaqani, Nizami Gəncəvi, Hafiz Şirazi, Seyid İmadəddin Nəsimi, Ömər Xəyyam, Mirzə Ələkbər Sabir, Hüseyn Cavid, Tofiq Fikrət və başqalarının əsərlərinə yazılmış şərhlər, izahlar, lüğətlər, edilmiş redaktələr Əkrəm Cəfər qələminin məhsuludur. Görkəmli alim, eyni zamanda, Moskvada işlədiyi dövrdə SSRİ-nin ən nüfuzlu elmi-tarixi nəşri olan «Bolşaya Sovetskaya Ensiklopediya»nın cildlərində türk dünyasının böyük ədəbi simalarına həsr etdiyi məqalələrini dərc etdirmiş, habelə «Azərbaycan Sovet Ensiklopediyası»nın əsas, aparıcı müəlliflərindən biri olmuşdur. Şərq dillərində sərbəst danışan Əkrəm Cəfəri biz, şair və tərcüməçi kimi də tanıyırıq. Dahi Ömər Xəyyamın rübailərini o, ilk dəfə olaraq, öz vəznində tərcümə etmiş və 1984-cü ildə Azərbaycan oxucularına çatdırmışdır.

Böyük şair və dramaturq Hüseyn Cavidin əsərlərinin akademik nəşrinin (1982-1985-ci illər) hazırlanması və redaktəsi də Əkrəm Cəfərin adı ilə bağlıdır. Onun ustadı və müəllimi olmuş dahi şairimizin müqəddəs ruhu qarşısındakı borcunu ləyaqətlə yerinə yetirmək alimin ən böyük arzularından idi. Professor bu arzusuna qovuşduğuna görə özünü çox xoşbəxt sayırdı. Bitib-tükənməyən həyat sevgisinə, geniş və rəngarəng yaradıcılıq diapazonuna, bənzərsiz hafizəyə, dərin ensiklopedik biliyə, böyük iradəyə, qeyri-adi zəka və enerjiyə malik olan Əkrəm Cəfər XX əsr elm tarixinə, hər şeydən öncə, dahi əruzşünas alim kimi daxil olmuşdur. Əruzşünaslıq sahəsində silsilə əsərləri («Füzuli şeirinin vəzni», «Nəsimi şeirinin vəzni», «Sabir şeirinini vəzni», «Hafiz Şirazi qəzəllərinin vəzni» və s.) ilə yanaşı, 20 illik gərgin axtarışlarının məhsulu olan, alimlər arasında «Əruz elminin ensiklopediyası» adlandırılan «Əruzun nəzəri əsasları və Azərbaycan əruzu (ərəb, fars, türk və özbək əruzları ilə müqayisədə)» adlı ensiklopedik monoqrafiyası ona böyük şöhrət gətirmişdir. Əkrəm Cəfərin bu nəhəng əsəri, binası VII əsrdə məşhur ərəb filoloqu və musiqişünası Xəlil ibn Əhməd əl-Fərahidi əl-Bəsri tərəfindən qoyulmuş əruz elminin XX əsrə qədər keçdiyi inkişaf yoluna yekun vurur. Böyük alimimiz bu kitabı ilə müqayisəli əruzşünaslıq elminin binasını qoymuş və Azərbaycan milli əruzşünaslıq məktəbinin əsasını yaratmışdır. Əsərin bir nüsxəsi, təxminən, 22 il bundan əvvəl İngiltərə kraliçası II Yelizavetanın SSRİ Elmlər Akademiyasına ünvanladığı məktubuna əsasən Oksford şəhərinə göndərilmiş və oranın məşhur «Bodlean» kitabxanasında saxlanılmaqdadır. Əsər haqqında İraqda,

Misirdə, İngiltərədə, Türkiyədə, İranda, habelə Orta Asiya respublikalarında görkəmli alimlər tərəfindən qiymətli rəylər dərc edilmişdir. Heç şübhəsiz ki, indiki müstəqillik dövrümüzdə bu kitab yeni əlifba ilə nəşr edilərək yenidən elm aləminə təqdim olunmalıdır.

Bu gün Əkrəm Cəfərin adı dünya şərqşünaslığı tarixində, tamamilə haqlı olaraq, böyük simalar – Xəlil ibn Əhməd, Sahib ibn Əbbad, Xətib Təbrizi, Nəsirəddin Tusi, Şəmsəddin Məhəmməd Qeys Razi, Əmir Əlişir Nəvai, Zahirəddin Məhəmməd Babur, Siracəddin Səkkaki, Rampuri kimi görkəmli əruzşünaslarla bir sırada çəkilərək dünya əruzşünaslığı tarixinə əbədi həkk olunmuşdur. Görkəmli alimimizin şəxsiyyəti və zəngin elmi-əbədi yaradıcılığı haqqında müxtəlif Şərq və Qərb ölkələrində 14 dildə məlumat getmişdir.

Əkrəm müəllimin 30 ilə yaxın bir müddətdə böyük yaradıcılıq eşqi ilə çalışdığı Şərqşünaslıq İnstitutunda elmi tədqiqatlarla məşğul olması ilə yanaşı, eyni zamanda, iranşünas və türkoloqların böyük bir nəslinin yüksək ixtisaslı kadrlar kimi yetişmələrində də əvəzsiz xidmətləri olmuşdur. Onun rəhbərliyi, yaxud opponentliyi ilə onlarla namizədlik dissertasiyaları müdafiə olunmuşdur. İnstitut alimlərinin doktorluq dissertasiyalarının müdafiəsində isə elmi məsləhətçi və rəyçi kimi çıxışlar edən Əkrəm müəllimin sanballı elmi-nəzəri fikirləri, tənqidləri birmənalı şəkildə nəzərə alınırdı. O, tədqiqatçılara müxtəlif monoqrafiyalarının, Şərqin qədim yazılı abidələrinin çapa hazırlanması və nəşri işlərində də böyük səxavətlə yardım əlini uzadırdı. Şərq ədəbiyyatşünaslığının aktual problemlərinin tədqiqinə həsr olunmuş elə bir iclas, konfrans və simpoziumlar olmurdu ki, Əkrəm müəllim iştirak və çıxışlar etməsin. Alim, eyni zamanda, keçmiş ittifaqın müxtəlif şəhərlərində SSRİ Elmlər Akademiyasının Şərqşünaslıq Elmi üzrə Əlaqələndirmə Şurasının hər dörd ildən bir keçirilən toplantılarında elmi məruzələrlə çıxışlar edirdi. Əkrəm müəllim dünyanın görkəmli şərqşünas mütəxəssisləri ilə də yaradıcılıq əlaqələri saxlayır, onlarla məktublaşırdı. Avtoreferatlara rəylər göndərilməsi üçün müxtəlif şəhərlərdən Əkrəm müəllimə saysız-hesabsız müraciətlər daxil olurdu. Bu işdə də o, öz missiyasını xeyirxahlıqla yerinə yetirirdi. Fədakar alim, həmçinin, beynəlxalq şərqşünaslıq konfranslarında da Azərbaycanı daim ləyaqətlə təmsil edirdi.

Professor Əkrəm Cəfər sağlığında nəşr etdirdiyi sanballı əsərlərindən əlavə, özündən sonra çox böyük elmi-ədəbi və bədii irs qoymuşdur. «XIII-XX əsrlər Azərbaycan şeirində əruz vəznləri», «İran və türkdilli xalqlarda rübai: tarix, nəzəriyyə və praktika», «Mirzə Ələkbər Sabir şeirinin qafiyə lüğəti» kimi monoqrafiyaları, «Şərq poetikasının izahlı terminlər lüğəti», «Latın dilinin lüğəti», minə qədər təzkirənin izahlı kataloqu, daha neçə-neçə bir birindən mühüm çalışmaları, əlyazmaları böyük şəxsiyyətin, hələ ki, işıq üzü görməmiş əsərləridir.

Əkrəm müəllim böyük arzu və amallarla yaşayırdı. O, Poetika İnstitutu yaratmaq, Azərbaycan ədəbiyyatının xəritəsini qurmaq istəyirdi, yaradıcılıq planları aşıb-daşırdı. Ancaq təəssüflər olsun ki, ömür bu arzuların gerçəkləşməsinə imkan vermədi…

Şərq və Azərbaycan ideallarına qəlbən bağlı olan, doğma xalqını böyük məhəbbətlə sevən Əkrəm Cəfər 1991-ci il avqust ayının 18-də 87 yaşında dünyasını dəyişdi.

Bu il ölkəmizdə böyük şərqşünas alimin anadan olmasının 100 illiyi geniş şəkildə qeyd olunur. Son aylarda onun əziz xatirəsinə həsr olunmuş bir sıra tədbirlər keçirilmişdir. Ümidvarıq ki, görkəmli alimin əziz xatirəsi elmi ictimaiyyət tərəfindən daim minnətdarlıqla yad ediləcək. Allah rəhmət eləsin.

«Elm» qəzeti, 7 noyabr 2005-ci il.

MÜSTƏQİL AZƏRBAYCAN ŞƏRQ-QƏRB YOLAYRICINDA

Sovet rejiminin dağılmasından bilavasitə sonrakı dövr bir vaxtlar sovet xalqları adlanan müsəlman Şərq xalqlarının, o cümlədən Azərbaycan xalqının da tarixində ən ağır və böhranlı dövrlərdən biri oldu. Azərbaycan üçün bu dövrün səciyyəvi xüsusiyyəti ondan ibarət idi ki, ölkənin təkcə siyasi və sosial-iqtisadi müstəqilliyi deyil, həm də və daha çox mədəni-mənəvi müstəqilliyi gözlənilmədən başlanmışdı. SSRİ-nin dağılması ilə Azərbaycan istər-istəməz özü üçün tamamilə yeni bir tarixi reallığa daxil olmuşdu - ölkə xarici aləmə müvafiq hazırlıq işi aparmadan açılmışdı.

Bir yandan, sovet dövründə xeyli sarsımış, varislik əlaqələrini itirmiş ənənəvi mədəniyyətlə, xüsusilə islam mədəniyyəti ilə bağlı dəyərlər tələsik və xaotik şəkildə dirçəldilməyə başlandı. O vaxt Əhməd Elbrusun «Allaha min bir sual» başlığı altında dərc edilən məqalələri dindarların haqlı qəzəbinə səbəb oldu. Müsəlman Şərqi Azərbaycanı öz sıralarına qəbul etdi - ölkə İslam Konfransı Təşkilatının üzvü oldu. 1992-ci ildə tələsik qəbul edilmiş «Dini etiqad azadlığı haqqında» Qanun müxtəlif müsəlman və qeyri-müsəlman məzhəb və təriqətlərinin Azərbaycanda sürətlə yayılmasına imkan yaratdı. Bu sahədə ortaya çıxan problemlər hələ də tamamilə aradan qaldırılmamışdır.

Digər tərəfdən, xalqın hələ təqribən 150 il öncə baş qaldırmış Avropa mədəniyyətinə, tərəqqiyə qovuşmaq əzmi yenidən alovlandı, Azərbaycan Avro-Asiya məkanında yerləşən bir ölkə kimi Avropaya açıldı, Avropa Şurasına qəbul edildi. XX əsrin əvvəllərində ortaya atılan, sonralar sovet dövründə unudulan «avropalaşma, müasirləşmə və islamlaşma» şüarı yenidən aktuallaşdı və Azərbaycanın dövlət bayrağında öz ifadəsini tapdı. Lakin bu sahədə də görülən işlər problemsiz ötüşmədi: yüksək inkişaf etmiş Avropa və ABŞ Azərbaycandakı prosesləri öz meyarları ilə ölçməyə başladılar - demokratiya, vətəndaş cəmiyyəti, bazar iqtisadiyyatı, insan haqları, tolerantlıq, aşkarlıq və s. ilə bağlı dəyərlər haqlı olaraq cəmiyyətin inkişafı, müasirləşmənin, modernləşmənin meyarları kimi təqdim edildi. Bu meyarları qəbul etmək labüd idi.

Dəyərlərin münaqişəsi labüd oldu. Azərbaycan cəmiyyəti müstəqillik qazandıqdan sonra özündən asılı olmayaraq fərqli mədəniyyətlərin qovşağına düşmüş və bu mədəniyyətlərə eyni dərəcədə açılmışdır. Belədə münaqişənin yaranması labüddür. Bu münaqişə özünü mənəvi dəyərlər sahəsində büruzə verir. Cəmiyyətin daxili aləminə girmiş, ətinə-qanına işləmiş bu münaqişə ondan yüksək dərəcədə sayıqlıq, ətraf aləmə münasibətdə rasional oriyentasiyanı mənimsəmək səyi, tərəddüd, uyğunlaşma, nədənsə imtina etmə, nəyisə qəbul etmə, ağıllı seçki qabiliyyəti tələb edir. Cəmiyyət bütün bunları yalnız bir şərtlə

uğurla yerinə yetirə bilər ki, öz «Mən»ini itirməsin (Şərq ölkələrində mədəni dinamika barəsində bax: 1, 416-440).

Müasir insanın modernləşmə tələblərinə tam cavab verə bilməyən ənənəvi dəyərlərlə bu günün reallıqları arasında yaranmış ziddiyyət bir çox müsəlman Şərqi ölkələri kimi Azərbaycanın da hazırki mədəni dinamikasının səciyyəvi cəhətlərindən biridir.

Zənnimizcə, dəyərlər münaqişəsinin Azərbaycan üçün ən məqbul həlli yolu mövcud dəyərlər sistemlərinin - ənənəvi və modern dəyərlər sistemlərinin hansı birindənsə imtina etmək deyil, bu sistemlərin sintezini yaratmaq, mədəni sintez yolu ola bilər. Mədəni sintezi həyata keçirmədən ölkənin gələcək inkişafı və yeniləşməsi yollarını təsəvvürə gətirmək çətindir. Bu cür sintez təkcə Azərbaycan üçün deyil, həm də bütün müsəlman dünyası üçün aktualdır və əldə ediləcəyi təqdirdə geniş bir məkanda model ola bilər, çünki Azərbaycan modernləşmə yolundakı nailiyyətləri sayəsində Şərqin bir çox ölkələrini arxada qoymuşdur. Bundan əlavə, Azərbaycanda mədəni irsin gücü və daxili dinamizmi onun modernləşməyə uyğunlaşmaq qabiliyyətini artırır. Hazırda Avropa mədəniyyətinin praqmatik nailiyyətləri Azərbaycan cəmiyyətinin canına başqa müsəlman cəmiyyətlərinə nisbətən daha çox hopmuşdur. Bu amillər modernləşmənin tələblərinə cavab verən dəyərlərin və həyat oriyentasiyalarının Azərbaycan cəmiyyətində yayılmasına və möhkəmlənməsinə şərait yaradır.

Bu gün Azərbaycanda həyata keçirilən modernləşmə milli mədəniyyətin, ənənələrin, tarixi təcrübənin möhkəm təməli üzərində qurulmalıdır. Milli-mədəni dəyərləri, milli kimliyi dərindən mənimsəmədən Avropa mədəniyyəti dəyərlərini tam tutumunda qəbul etmək və mənimsəmək mümkün deyildir.

Liberal-demokratik dəyərlər ictimai şüura təlqin edilməli, modernləşməyə mane olan ideya və əxlaq stereotipləri sıxışdırılıb şüurlardan çıxarılmalıdır. Modernləşmə dövlət, cəmiyyət və şəxsiyyət arasındakı qarşılıqlı münasibətlərin yeni səviyyəyə qaldırılmasını tələb edir. Demokratik siyasi təsisatların möhkəmləndirilməsi, Milli Məclisin fəaliyyətinin düzgün istiqamətləndirilməsi, hakimiyyətin məqsədyönlü və səmərəli bölüşdürülməsi modernləşmə yolunda mühüm addımlardan sayılmalıdır.

Mədəni sintezin və bütövlükdə modernləşmənin uğurla həyata keçirilməsi üçün daha mühüm bir amil nəzərə alınmalıdır. Bu gün minlərlə azərbaycanlı istər müsəlman dünyası, istərsə də müasir Avropa və Amerika mədəniyyətindən bilavasitə təsirlənmək imkanına malikdir. Biz müxtəlif qrantlar vasitəsilə Şərqdə, Avropa və ABŞ-da işləyən, təhsil alan, təcrübə keçən azərbaycanlıları nəzərdə tuturuq. Bunlar nə vaxtsa Vətənə dönəcək, hər iki mədəniy-

yətin qeyri-ixtiyari ötürücüləri olacaqlar. Onlar mədəni sintezin gedişinə güclü təsir göstərə biləcəklər. Odur ki, bu barədə indidən düşünülməli, sintezin arzu olunan, Azərbaycan gerçəkliyinə münasib səviyyədə gerçəkləşməsi üçün həmin kontingentlə müvafiq iş aparılmalıdır.

Ədəbiyyat

1. **Эволюция восточных обществ: синтез традиционного и современного. М. 1984.**

2. S. Xəlilov. Şərq və Qərb. Ümumbəşəri ideala doğru. Bakı, 2004.

2007-ci il.

LEYLİ VƏ MƏCNUN MÖVZUSUNUN YARANMA VƏ İŞLƏNMƏ TARİXİNDƏN

Əsrlər boyu ümumşərq mədəniyyəti çərçivəsində inkişaf edən Azərbaycan ədəbiyyatı bu mədəniyyətin ayrı-ayrı ədəbiyyatları, o cümlədən ərəb ədəbiyyatı ilə sıx təmasda olmuşdur. Bu zaman qarşılıqlı təsir mövzu, süjet, obraz və motivlərin birbaşa mənimsənilməsindən tutmuş ideya-bədii xüsusiyyətlərin yaradıcı şəkildə işlənməsinə qədər müxtəlif istiqamətlərdə getmişdir. Eyni zamanda əxz olunan material hökmən müəllifin dövrünün bədii-estetik prinsiplərinə uyğun istiqamətdə təqdim edilirdi. Bu materialın təqdimi üsulları mənimsəyən tərəfin yaradıcılıq məqsədlərindən və fərdi üslubunun xarakterindən asılı olurdu. Müəlliflər eyni epizodları dəyişdirir, yenilərini daxil edir, köhnə epizodlara başqa təfsir verir, çoxlu mətndaxili yerdəyişmələr həyata keçirirdilər. Beləliklə, əxz olunan material semantik və leksik dəyişikliyə məruz qalaraq, orijinallıq və yeni müəllif mənsubiyyəti xüsusiyyətləri kəsb edirdi. Deyilənlərə bariz nümunə kimi ədəbiyyatımızda Məcnun haqqında ərəb hekayətinin sonrakı çoxsaylı poemaların mövzusuna çevrilməsini xatırlamaq olar.

Elm aləminə Məcnun haqqında bir neçə qədim yazılı ərəb mənbəsi məlumdur. Bunlardan ən əsası görkəmli ərəb ədəbiyyatçısı və musiqiçisi Əbülfərəc əl-İsfahaninin (897-967) tərtib etdiyi nəhəng ədəbi abidə - «Kitab əl-əğani» («Nəğmələr kitabı») hesab olunur. VI-IX əsrlərdə yaşamış, demək olar, bütün məşhur ərəb şairlərinin həyatı, yaradıcılığı haqda məlumatlar, örnəklər verən bu möhtəşəm təzkirənin iki fəsli Bənu Amir qəbiləsindən çıxmış Məcnun ləqəbli şair Qeys ibn Müləvvəh haqqındadır.

VII əsrin sonlarında vəfat etmiş bu ərəb şairinin adı ətrafında çoxlu əfsanələr, rəvayətlər yaranmış, onlarca başqa naməlum söz ustasının da şeirləri zaman ötdükcə ona aid edilmiş və bir neçə əsr sonra, əslində, bəzi alimlərin fikrincə, gerçək tarixi şəxsiyyət olan Qeys ibn Müləvvəh, mifikləşdirilmişdir. Məcnunun şeirləri toplanmış «Divan» bu günümüzə qədər gəlib çatıb. Bu şeirlər müxtəlif dillərə, o cümlədən, ruscaya tərcümə edilib.

Real tarixi şəxsiyyət olan Məcnunun macəralarla dolu həyatı və mübahisələr doğuran yaradıcılığının bir çox sirləri bu günə qədər açılmamışdır. Amma bu da həqiqətdir ki, gerçək tarixi şəxsiyyət olan Məcnundan daha artıq bir ədəbi obraz olan Məcnun səkkiz yüz ildən çoxdur ki, dünyanı fəth edib. İlk dəfə dahi Azərbaycan şairi Nizami Gəncəvinin qələmində sanballı ədəbi qəhrəmana çevrilən Məcnun XII əsrdən bəri onlarca Şərq şairlərinin müxtəlif dillərdə yazdığı məsnəvilərdə sonsuz şöhrət qazanmışdır.

Azərbaycan poeziyasının parlaq simaları – Nizami ədəbi məktəbinin ardıcılları Əşrəf Marağayi [o, Azərbaycan şairləri arasında Nizamidən sonra ilk bütöv «Xəmsə» yaratmış sənətkardır], Əbdi bəy Şirazi, Məhəmməd Füzuli və başqalarının «Leyli-Məcnun» məsnəviləri bizim ədəbiyyatın faktı olmaqdan əlavə, həm də Yaxın və Orta Şərq ədəbiyyatının faktıdır. Çünki «Leyli və Məcnun»un fars, türk, ərəb, kürd və sairə dillərdə yaradılmış nümunələri bir-birindən rişə alan, bir-birindən qidalanmış fidanlar, böyük bir zəncirin həlqələridir.

Şübhəsiz ki, bu yolda birincilik Nizaminin payına düşür. Nizaminin «Xəmsə»sinə daxil olan beş poemanı oxuduqca bunun da şahidi oluruq ki, o hər bir əsərini yazmazdan əvvəl xeyli axtarış aparmış, ayrı-ayrı dillərdə olan mənbələri, yazılı sənədləri öyrənmişdir. Şirvan hökmdarı Axsitanın [1187-1196] artıq iki şöhrətli məsnəvisi – «Məxzən əl-əsrar» [«Sirlər xəzinəsi»] və «Xosrov və Şirin» müəllifi olan Nizami Gəncəviyə yeni əsər barədə sifarişi konkret idi. O ümumiyyətlə eşq, məhəbbət mövzusunda bir məsnəvi deyil, Məcnunun Leyliyə olan məhəbbətindən bəhs edən bir poema yazmağı sifariş vermişdi. Təbii ki, Məcnun mövzusundan yazmalı olan Nizaminin müraciət etməli, vərəqləməli olduğu ilk və ən mühüm mənbələrdən biri məhz Əbülfərəc İsfahaninin «Nəğmələr kitabı» olmalı idi. Çünki Əbülfərəc bu kitabda Məcnunun və Leylinin nəsli, Məcnunun Leyliyə olan sevgisinin tarixçəsi, Məcnunun şeir yaradıcılığı ilə bağlı ən müxtəlif qaynaqların verdiyi maraqlı xəbərləri, hətta, yeri düşəndə, ziddiyyətli məlumatları belə toplayıb. Nizaminin üz tuta biləcəyi yazılı mənbələr içərisində Əbülfərəc İsfahaninin «Kitab əl-əğani»sindən geniş və mötəbər ikinci bir kitab haqqında soraq yoxdur. Ona görə də Əbülfərəcin Məcnuna həsr etdiyi fəsillərin öyrənilişi və tərcüməsi nizamişünaslığımız üçün də əhəmiyyətli bir istiqamətdir. Çünki həmin fəsillərlə tanış olandan sonra görürük ki, doğrudan da Nizami, Əbülfərəcin gətirdiyi bir sıra əhvalatları şeirləşdirmiş, məsnəvisi boyu istifadə etmişdir. Ancaq Nizami «Kitab əl-əğani»dəki bir para Məcnun ünvanlı rəvayətlərin də üstündən keçmiş, onları poemasına daxil etməmişdir.

Qeys ibn Müləvvəh müqəddəs bir eşqə mübtəla olub dünyadan köçür. Ancaq həmin böyük eşq ona ölməzlik, əbədi ömür bağışlayır. Əbülfərəc İsfahaninin «Nəğmələr kitabı»ndakı qiymətli səhifələr yaşı mini ötən bu ölməz aşiqin varlığı ilə bağlı çox qaranlıq səhifələri açır. Azərbaycan mədəniyyəti tarixində Məcnunun ömür yolu Nizami Gəncəvi və Üzeyir Hacıbəyovun yaratdığı iki sənət incisi arasındakı böyük zamana sığır və gələcəyə üz tutub.

Nizami Gəncəvi, ərəb mənbəyinin bəzi epizodlarından istifadə edərək, bütün rəvayəti vahid süjet ətrafında birləşən gözəl sənət nümunəsi yaratdı. Onun

məsnəvisində cərəyan edən hadisələr dahi sənətkarın qələmilə orta əsrlər Azərbaycanın şəraitinə tam uyğunlaşdırılıb.

Nizaminin Azərbaycan davamçıları tərəfindən «Leyli və Məcnun» mövzusunda çox əsərlər yaradılıb. Bu – farsdilli Azərbaycan şairləri Əşrəf Marağayinin (?-1460) «Eşqnamə», Əbdi bəy Şirazinin (1515-1580) «Məcnun və Leyli», Camali Təbrizinin (XV əsr) «Məhzun və Məhbub» və Səlim Təbrizinin (XVI əsr) «Leyli və Məcnun» əsərləridir.

Azərbaycan dilində XV əsrin sonundan etibarən Leyli və Məcnun mövzusunda məsnəvilər yazılmağa başlandı. Bu sırada Həqirinin (XV əsrin ikinci yarısı – XVI əsrin birinci yarısı), Zamirinin (XVI əsr), böyük Füzulinin və Atainin (?) eyni adlı poemalarını xatırlamaq olar. XIX əsrdə eyni mövzuda azərbaycanca üç poema yazılıb. Bu – Əndəlib Qaracadağının «Qüsseyi Leyli və Məcnun», İsmayıl bəy Nakamın (1829-1906) «Məcnun və Leyli» və Mirzə Hüseyn Çakərin «Leyli və Məcnun» əsərləridir.

Azərbaycan şairləri Əbülfərəc İsfahaninin «Nəğmələr kitabı»nın Məcnun haqqındakı fəsilləri ilə tanış olaraq, ərəb invariantının ideya-tematik və bədii məzmununu yaradıcı şəkildə mənimsəmiş, onun milli ədəbi ənənələrlə üzvi sintezinə nail olmuşlar. Başqa ədəbiyyatın təcrübəsindən faydalanmaqla, Azərbaycan şairləri öz orijinallıqlarını, milli özünəməxsusluq və koloriti qoruyub saxlamış və ərəb invariantının çox da mürəkkəb olmayan süjetini öz dövrlərinin kəskin problemləri və ideya-mənəvi axtarışları səviyyəsinə qaldıra bilmişlər.

«Muğam» jurnalı, № 2, 2007-ci il.

AZƏRBAYCANDA MÖVLANA İRSİNİN TƏDQİQİ TARİXİNDƏN

Məlum olduğu kimi, bütün dünyada Mövlananın həyat və yaradıcılığına dair yazılan əsərlər böyük bir kitabxana təşkil edəcək qədər çoxdur. F.Köçərli «Azərbaycan ədəbiyyatı tarixi»ndə Azərbaycan-türk şairlərinin yaradıcılığından danışarkən onların bəzilərinin Nizami, Firdovsi, Sədi əsərləri ilə yanaşı, Mövlananın «Məsnəvi»sinə nəzirələr yazdıqlarını qeyd edir. Həqiqətən də, Azərbaycan şair və mütəsəvvifləri yüzillər boyu Mövlananın ədəbi, xüsusilə fəlsəfi fikrinə xeyli bağlı olsalar da, çoh təəssüf ki, Azərbaycan elmi mühitində Mövlana haqqında yazılmış araşdırma əsərlərinin sayı olduqca azdır. Bu araşdırma əsərlərini tədqiqat obyektinə və ideya istiqamətinə görə aşağıdakı kimi qruplaşdıra bilərik:

1. Rus imperiyası və sovet dövründə məlum ideologiyanın məhdudlaşdırıcı tələbləri və dar çevrəsinə uyğun yazılmış əsərlər. Bu dövrdə yazılmış əsərlərdə klassiklərin ideya yönümü, düşüncə aləmi, hətta həyat tərzi belə sovet insanının uydurma obrazına uyğunlaşdırılır, klassiklərin irsindən sovet ideologiyasının mövqecə möhkəmləndirilməsi üçün istifadə edilirdi. Mövlana irsi barədə bu dövrdə söylənilənlər də bu məqsədə xidmət edirdi. Bununla da Azərbaycan sovet elmi fikri təcrid olunmuş şəkildə fəaliyyət göstərməkdə idi.

2. Azərbaycan müstəqillik əldə etdikdən sonra yazılan araşdırmalar. Bu araşdırmalar artıq fərqli ideoloji mühitdə yarandığından Mövlana ilə bağlı daha doğru və dünya elmi fikri ilə səsləşən mülahizələr irəli sürülməyə başlandı. Lakin bu araşdırmaların bir qismi ciddi tədqiqat olsa da, böyük əksəriyyəti Mövlananı tədqiqdən artıq, təqdim xarakterli əsərlərdir. Başqa sözlə, bu əsərlərdə Türkiyə və İranda Mövlana haqqında söylənilənləri icmal edərək Azərbaycan oxucusuna çatdırmaq niyyəti izlenilmişdir. Əlbəttə, bu səpkili əsərlər də müəllifdən geniş mütaliə və elmi dəyərləndirmə tələb edir. Bununla belə, Mövlana haqqında monoqrafik tədqiqatların aparılmasına ehtiyac duyulur.

3. İstər sovet dövrü, istərsə də müstəqillik dövründə digər mütəfəkkir və şairlərin (Azərbaycan şairlərindən Nəsimi, Füzuli, türk şairlərindən Rövşəni və s.) ideya qaynaqları, yaxud Azərbaycanın böyük mütəfəkkirlərinin (Nizami Gəncəvi, Nəsimi, Füzuli və s.) təsir dairəsi araşdırılarkən Mövlana irsinə müraciət olunmuşdur. F.Qasımzadə, M.Abbaslı, N.Məmmədli və başqalarının araşdırmalarında bu görkəmli mütəsəvvifin daha çox vəhdəti-vücud və təsəvvüflə bağlı bir sıra mülahizələri tədqiqata cəlb edilmişdir. Digər bir qrupa daxil olan araşdırmalarda (Q.Cahani, A.Musayeva, S.Şıxıyeva və s.) isə Mövlananın şeir sənətindəki uğurları da araşdırmaya cəlb edilərək, onun sələflərinin söz sənətinə təsirindən bəhs edilmiş, müqayisələr aparılmışdır.

4. Özəlliklə Mövlanaya həsr olunmuş araşdırmalar. Bunların sayı olduqca azdır. Bu sahədə Y.Rüstəmov və R.Azadənin əsərlərini qeyd edə bilərik.

Burayadək söylədiklərimiz Azərbaycan elmi fikrində Mövlanaya münasibətin əsas istiqamətlərinin xülasəsidir. İndi isə bu böyük mütəfəkkirlə bağlı Azərbaycan elmi fikrinin tarixi seyrinə bir nəzər salaq:

Qeyd etməliyik ki, Azərbaycan ədəbiyyatşünaslığında Mövlana Cəlaləddin Ruminin fəlsəfi-ədəbi şəxsiyyətinə münasibət bildirilməsi və irsinin dəyərləndirilməsinin tarixini M.F.Axundovdan (XIX), daha dəqiq söyləsək, «Mollayi-Rumi və onun təsnifinin babında» adlı əsərindən başlamaq lazımdır. M.F.Axundov, A.Bakıxanov (XIX) Mövlananın irsi barədə bu gün də elmi dəyərini saxlayan mülahizələr söyləmişlər.

Mövlana irsini araşdıranlara görə, Cəlaləddin Rumi «Məsnəvi»sini sırf fəlsəfi nöqteyi-nəzərdən böyük Azərbaycan mütəfəkkiri M.F.Axundov qədər düzgün qiymətləndirən və onun qədər tənqid edən olmamışdır. Axundov Mövlananın dünyagörüşündə ən çox nəyə yüksək məna verirdi və onun hansı xüsusiyyətlərini rəsmi dinə qarşı qoyurdu? Rus imperiyasının dövlət qulluqçularından olan Axundov Mövlananın axirəti – cənnət, cəhənnəm və ölülərin dirilməsi gününü qəbul etmədiyi qənaətində idi. Başqa sözlə, Axundov bu böyük mütəfəkkirin islamın, şəriətin əsas müddəalarına qarşı çıxmasını bildirərək, bu cəhətdən onu özünün müttəfiqi sayırdı. Axundov yazırdı: «Onun məqsədi peyğəmbərlərin yalançılığını ifşa etmək və bununla bərabər öz qorxulu əsrinin cahil güruhunun təərrüz və hücumlarından sağ və salamat qalmaq idi. Xülasə onun etiqadı müqəddəs şəriətə tamamilə zidd idi. Lakin o öz əqidəsini tülkülər və çaqqallar haqqındakı təmsillərinin arxasında elə gizlədirdi ki, onları anlamaq çətin idi...»; «... O, bütün həyatı boyu qorxurdu və buna görə də həmin kələklərə əl atırdı. Doğrudur, bu kələklər Avropa yazıçılarının xoşuna gəlmir, lakin Mollayi-Rumi üçün bu, sənətkarlıqdır, elə bir sənətkarlıq ki, başqaları bunu bacarmır».

Göründüyü kimi, Axundov yüzillər boyu ənənəsi olan təsəvvüfi şeirin rəmzi dilini, Mövlananın qeyb aləminə dair söylədiklərini təhrif edərək, bunu adi bəşəri qorxu ilə əlaqələndirmişdir. Halbuki, sovet dövründə də bu mütəfəkkirlə bağlı təhrifli fikirlər irəli sürülsə də, belə kəskin mövqeyə rast gəlmədik.

A.Musayevanın doğru olaraq qeyd etdiyi kimi, Axundov Mövlananın «ağıl, şüur və zövqünü yüksək dəyərləndirsə də, yeni ədəbiyyat uğrunda mübarizə apardığı üçün «Məsnəvi»nin bəzi cəhətlərini tənqid etmişdir». Bununla belə, Mövlana yaradıcılığına yuxarıda verdiyi qiymət bu günün tələbləri baxımından təhrifli və qeyri-məqbul olsa da, Axundov Mövlana irsinə bağlı bir ədib olmuş, Rumi təsiri ilə üç hekayə qələmə almışdır.

Sovetlər dövründə Azərbaycanda Mövlanaya xüsusi araşdırma həsr edilməsə də, bu mütəfəkkirin sələf (Nizami, Əttar və s.) və xələflərindən (Nəsimi, Rövşəni, Gülşəni, Füzuli və s.) söz açılarkən onların ideya qaynağı olaraq Mövlana anılmış, müqayisələr aparılmışdır. Sovet dövründə bütün klassiklər kimi Mövlana haqqında söylənilən mülahizələrdə birtərəflilik və təhrif olsa da, dəyərli qənaətlər də yer almaqdadır. Bu dəyərli mülahizələr daha çox Mövlananın sələf və xələfləri ilə fikri əlaqələrinin müəyyənləşdirilməsinə aiddir. İdeyaların mahiyyəti və müəlliflərin məqsədi çox zaman təhrif edilsə də, yaradıcılıq əlaqələri barədə söylənilənlər bu gün də öz elmi dəyərini qorumaqdadır. Örnək olaraq bir neçə araşdırmaya nəzər salaq.

Sovet dövründə Mövlana irsinə bağlılıqlar və bu qaynaqdan bəhrələnmələri dəyərləndirərkən bir çox sovet alimi kimi Q.Cahani də sovet ədəbiyyatşünaslığının ənənəsinə sadiq qalmışdır. Q.Cahani yazır: «Cəlaləddin Rumi Nizami poemaları mövzusunda əsər yazmamışdır. Amma dahi sələfinin ideya-estetik görüşlərinin, fəlsəfi prinsiplərinin ən hərarətli və orijinal təbliğatçılarından olmuşdur». Bu mülahizəsində haqlı olan Q.Cahani də dövrünün tələb və zövqünə uyğun mülahizələr söyləmək məcburiyyətində olmuşdur. Araşdırıcı yazır: «İstər Rumi, istərsə də Nəsimi şeirlərində insan təbiətin ən qüdrətli yaradıcısı kimi təsvir olunmuşdur. İnsan şəxsiyyəti hər şeydir. Bütün kainat onun ixtiyarındadır. O həm fatehdir, həm məğlub, həm qətrədir, həm dərya, həm sədəfdir, həm inci. İnsan iki dünyaya sığmayan, varlığın fövqündə duran həm xaliqdir, həm məxluq...».

Amma təsəvvüfi şeirin və Mövlana irsinin araşdırıcılarına yaxşı məlumdur ki, istər bu mütəfəkkir, istərsə də Nəsimi üçün önəmli olan haqqa qovuşmaq olmuş, onların fəxriyyə xarakterli şeirlərində kamil insan ilahi cövhərə malik olmasına görə mədh edilmişdir. Başqa sözlə, onları düşündürən adi, öləri insan deyil, haqqa qovuşmuş kamil insandır.

«Cavidannamə»nin qaynaqları barədə dəyərli araşdırma müəllifi M.Abbaslı hürufiliyin bəzi müddəaları ilə Mövlananın müvafiq məsələlər barədəki mülahizələrini müqayisə edərək, elmi qənaətlər söyləmişdir. Maraqlıdır ki, bu araşdırıcı Mövlananın irfani görüşləri, o cümlədən müşahidə və təcəlla barədəki mülahizələrini təhlil edərkən mətnə son dərəcə sadiq qalmış və beləliklə də, sovet dövrünün ənənəvi təhriflərindən qaçmağı bacarmışdır.

Füzuli irsini tədqiq edərkən F.Qasımzadə Füzuli şeirinin qaynağı olaraq Mövlananın ədəbi-fəlsəfi irsindən də söz açır. Mütəfəkkirin eşq, rəqs və musiqi barədəki mülahizələrinə düzgün dəyər verdikdən sonda araşdırıcı sovet dövrünün tələblərinə uyğun olaraq, Mövlananın hicaba münasibəti barədə mübahisə doğuran mülahizələr söyləyir. F.Qasımzadə yazır: «Rumi qadınların ör-

tünməsinin əleyhinə idi» (7, 79).

Beləliklə də, Azərbaycan klassikləri kimi Mövlananın fəlsəfi-təsəvvüfi mülahizələri və ideya yönümü barədə təhriflərin ifadəsi ilə qarşılaşırıq. Başqa sözlə, sovet ideologiyasının təsiri Mövlana irsinin tədqiqində də özünü büruzə vermiş, onu təhriflərə məruz qoyaraq yanlış təsəvvürlər formalaşdırmışdır.

Burayadək dediklərimizi ümumiləşdirərək, söyləyə bilərik ki, Azərbaycanlı tədqiqatçılardan Mir Cəlal, F.Qasımzadə, Q.Cahani, M.Abbaslı, A.Musayeva, N.Göyüşov, S.Şıxıyeva, N. Məmmədli və başqaları Mövlananın irsini müqayisəli tədqiqata cəlb edərək, bu görkəmli mütəfəkkirin islami, irfani və ədəbi fikir tarixindəki yerini müəyyənləşdirmişlər. Son illərdə Mövlana haqqında ayrıca monoqrafiyaların (Y.Rüstəmov, R.Azadə) yazılması, Mövlananın Azərbaycan ədəbi-fəlsəfi fikrinə təsirinə və ustadı Şəmsə dair yazılmaqda olan dissertasiyalar (V.Teymurxanlı, M.Məhəmmədi), «Məsnəvi»dən Azərbaycan türkcəsinə çevirmələr (Azad Yaşar) Azərbaycan elmi fikrinin Mövlanaya marağının ifadəsidir. 2006-cı ildə Azərbaycan Milli Elmlər Akademiyası Şərqşünaslıq İnstitutu və Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlar institutunun təşəbbüsü ilə keçirilən Mövlananın 800 illiyinə həsr olunmuş konfrans və burada Mövlana ilə bağlı bir sıra fəlsəfi və ədəbi məsələlərin təhlilinə həsr olunmuş məruzələrin səslənməsi də, zənnimizcə, mövlanaşünaslığa töhfədir.

Qeyd etməliyik ki, Mövlana ili olaraq elan olunan 2007-ci ildə Azərbaycanda da çeşidli elmi, ədəbi və mədəni tədbirlər keçirilmiş, Azərbaycan alimləri istər ölkə daxilində, istərsə də xaricdə, xüsusilə Türkiyədə keçirilən elmi konfranslarda iştirak etməklə bu sahədəki müəyyən boşluğu doldurmağa çalışmış və mövlanaşünaslığa xidmət etməyə səy göstərmişlər.

Ədəbiyyat

1. Abbaslı M. Yüksək bəşəri düşüncələrin görkəmli tərənnümçüləri. - Nəsimi (məqalələr məcmuəsi), «Elm», 1973, s. 241-265.

2. Axundov M.F. Mollayi-Rumi və onun təsnifi. - Əsərləri, c. II, Bakı, «Elm», 1961.

3. Köçərli, Firudin bəy. Azərbaycan ədəbiyyatı, I c., Bakı, «Elm» nəşriyyatı, 1978.

4. Azadə R. Mövlana Cəlaləddin Rumi, Bakı, «Elm», 2005.

5. Bakıxanov. «Gülüstani-İrəm», Bakı, Azərb. SSRİ EA nəşri, 1951.

6. Cahani Q. Azərbaycan ədəbiyyatında Nizami ənənələri. Bakı, «Elm» nəşriyyatı, 1979, s. 163-165.

7. Qasımzadə F. «Qəm karvanı», yaxud zülmətdə nur (Füzulinin dünya-

görüşü). Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1968, s. 78-89.

8. Məmmədli N. Füzulinin «Leyli və Məcnun» əsərində təsəvvüf və onun bədii ifadə sistemi. Filologiya elmləri namizədi alimlik dərəcəsini almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı, Bakı, 2000.

9. Paşayev, Mir Cəlal. Füzuli sənətkarlığı. Bakı, «Maarif», 1994.

10. Mövlana Cəlaləddin Ruminin 800 illik yubileyinə həsr olunmuş Beynəlxalq konfransın (10 noyabr 2006-cı il) materialları. Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlar İnstitutu, Bakı, 2006.

11. Mövlanə Cəlaləddin Rumi. «Məsnəvi»dən seçmələr. Bakı, «Yom» yayınları, 2007.

12. Musayeva A. Dədə Ömər Rövşəni əlyazmaları üzərində araşdırmalar. Bakı, «Nurlan», 2003, s. 53-54, 72-83.

13. Musayeva A. Əlyazma kitabı və XV-XVI əsrlər Azərbaycan ədəbiyyatı: problemlər, araşdırmalar (tekstoloji, filoloji tədqiqat), Bakı, 2002, s. 189-199.

14. Rüstəmov Y. Mövlana Cəlaləddin Ruminin sufilik fəlsəfəsi. Bakı, «Nurlar», 2006.

15. Şıxıyeva S. «Ənəlhəq» Mövlana və Nəsiminin yozumlarında. Mövlana Cəlaləddin Ruminin 800 illik yubileyinə həsr olunmuş Beynəlxalq konfransın materialları. Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlar İnstitutu, Bakı, 2006, s. 113-122; Şıxıyeva S. «Hürufiliyin irfani-ədəbi yönümü və Mövlana». - «Şərqşünaslığın aktual problemləri», Bakı Dövlət Universiteti respublika elmi konfransının materialları, Bakı Dövlət Universiteti nəşriyyatı, Bakı, 2003, s. 152-154.

16. Şıxıyeva S. «Nəsiminin sələfləri ilə «mübahisə»ləri (Mövlana və Nəsimi)», «Elmi araşdırmalar», № 1-4, 2001, s. 55-61.

2007-ci il.

İKT PARLAMENT İTTİFAQI AZƏRBAYCANIN HAQQ İŞİNƏ HƏMİŞƏ DƏSTƏK VERİB

İslam Konfransı Təşkilatının əsas məqsədi müsəlman aləmini birləşdirərək onun həmrəyliyini təşkil etmək, müsəlman ölkələrinin birliyinə nail olaraq siyasi, iqtisadi və mədəni əməkdaşlıq yaratmaq, müsəlman xalqlarının mənafelərini, milli hüquqlarını, müstəqilliyini qorumaq üçün birgə və yekdil fəaliyyət göstərməkdir.

Respublikamız öz müstəqilliyini əldə etdikdən sonra keçmiş Sovetlər Birliyinin müsəlman respublikaları arasında birinci olaraq İKT-yə üzv qəbul olunmaq üçün müraciət etmiş və 1991-ci ilin dekabrında bu təşkilata qəbul olunmuşdur. Daha sonra ümummilli liderimiz H.Əliyevin rəhbərliyi, yorulmaz fəaliyyəti və bilavasitə iştirakı ilə ölkəmiz bu nüfuzlu beynəlxalq təşkilat ilə fəal əməkdaşlıq münasibətləri qurdu, təşkilat tərəfindən Azərbaycanın haqq işini dəstəkləyən bir sıra qətnamə və bəyannamənin qəbul olunmasına nail oldu.

Möhtərəm Prezidentimiz İlham Əliyevin də çoxşaxəli xarici siyasətində Şərq amili daim önəmli yer tutub, islam ölkələri və İKT ilə münasibətlər yüksələn xətlə inkişaf edib. Bunu ölkə başçısının islam ölkələrinə müntəzəm səfərləri, bağlanan çoxsaylı müqavilələr, İKT yığıncaqlarında fəal iştirakı və bu təşkilatın Azərbaycanla bağlı qəbul etdiyi çoxsaylı qərar və qətnamələri təsdiq edir.

Azərbaycanın haqq səsinin eşidilməsində ərazi bütövlüyünün müdafiəsində İKT-a üzv dövlətlərin Parlament İttifaqı (İKT Pİ) da mühüm rol oynayır. Təşkilatın təsis konfransı 1999-cu ildə Tehranda keçirilmiş və həmin konfransda hüquqi sənəd kimi təşkilatın nizamnaməsi qəbul edilmişdir. 2008-ci ilin may ayından təşkilatın baş katibi Prof. Dr. Mahmud Erol Kılıcdır (Türkiyə). Halhazırda təşkilatın 50 üzvü var. Bir neçə regional beynəlxalq təşkilat və parlament İttifaqda müşahidəçi statusuna malikdir.

İttifaqın əsas vəzifələri üzv ölkələrin qanunvericilik və məşvərət məclisləri arasında hərtərəfli əməkdaşlığı inkişaf etdirmək, bu əməkdaşlığın səmərəli həyata keçirilməsi üçün müvafiq hüquqi əsaslar yaratmaq və beynəlxalq hüquq prinsiplərini və normalarını rəhbər tutmaqla digər beynəlxalq, hökumət və qeyri-hökumət təşkilatlarla əməkdaşlıq etməkdir.

İttifaqın təsis konfransında Azərbaycan Respublikası Milli Məclisinin Sədri Murtuz Ələsgərovun başçılığı ilə Azərbaycan parlament nümayəndə heyəti də iştirak etmişdir. Təsis konfransı zamanı Azərbaycan Parlament nümayəndə heyəti Ermənistanın ölkəmizə qarşı təcavüzü barədə məlumatı iştirakçıların

diqqətinə çatdırmış və bu istiqamətdə müvafiq sənəd qəbul olunmuşdur.

Ümumiyyətlə, qeyd olunmalıdır ki, İKT Pİ-nin yarandığı vaxtdan günümüzəcən təşkilatla Parlamentimizin arasında çox işgüzar və səmərəli əməkdaşlıq münasibətləri yaranıb. Azərbaycan Respublikası Milli Məclisinin nümayəndə heyəti İKT PK-nın məclislərində daim iştirak edib, məruzələrlə çıxış edib, rəy və təkliflərini bildirib, bir sıra qətnamə, bəyanat, yekun bəyannamələrə Azərbaycanın ərazi bütövlüyü ilə bağlı maddələrin salınmasına nail olub.

12 aprel 2006-cı il İstanbul şəhərində keçirilən İKT Parlament İttifaqının konfransında Azərbaycan Respublikası Milli Məclisinin nümayəndə heyətinin təklif etdiyi Qətnamə - («İKT Pİ Konfransı beynəlxalq hüquq və BMT prinsiplərinin kobud pozulması sayılan, Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünə qarşı Ermənistan Respublikasının davamlı təcavüzünü qətiyyətlə pisləyir. Konfrans Ermənistan silahlı qüvvələrinin tamamilə, qeyri-şərtsiz və tezliklə bütün işğal edilmiş Azərbaycan torpaqlarından çıxarılmasına çağırır. Konfrans Ermənistan tərəfindən Azərbaycanın işğal olunmuş torpaqlarına erməni millətindən olan insanların köçürülməsi, süni coğrafi, mədəni və demoqrafik dəyişikliklər, qeyri-qanuni iqtisadi fəaliyyət və bu torpaqların təbii sərvətlərinin işlənməsi kimi qeyri-qanuni fəaliyyət nəticəsində əmələ gələn sülh prosesinə maneələrin aradan qaldırılması işində Azərbaycan hökumətinin səylərini dəstəkləyir. Konfrans üzv ölkələri Azərbaycan xalqı ilə həmrəyliyini möhkəmlətməyə, BMT-nin müvafiq regional və beynəlxalq təşkilatlarla əməkdaşlığı daxil etməklə, BMT-nin potensialını işlətməyə yönəldilmiş cəhdlərinə tam dəstək verməyə və Azərbaycan Respublikasının tam suverenliyini və ərazi bütövlüyünü tezliklə bərqərar edilməsinə çağırır» – konfransın yekun sənədlərinə daxil edildi. Bundan başqa Azərbaycan nümayəndə heyətinin səyləri və çıxışları nəticəsində tədbirin sonunda müzakirəyə qoyulan «İstanbul Bəyannaməsinə» Azərbaycanın təklif etdiyi bənd əlavə edildi: «Konfrans beynəlxalq hüquq və BMT prinsiplərinin kobud pozulması sayılan, Azərbaycan Respublikasının suverenliyinə və ərazi bütövlüyünə qarşı yönəldilmiş Ermənistan Respublikasının təcavüzünü qətiyyətlə pisləyir. Konfrans Ermənistan silahlı qüvvələrinin tamamilə, qeyd-şərtsiz və tezliklə bütün işğal edilmiş Azərbaycan torpaqlarından çıxarılmasına çağırır».

Azərbaycan nümayəndə heyətinin rəhbəri kimi mən konfransın plenar iclasında geniş məruzə ilə çıxış etdim. Məruzədə Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü, ermənilərin ərazilərimizdə törətdikləri terror aktları barədə faktları, rəqəmləri iştirakçıların diqqətinə çatdırdım. Konfransın əsas mövzusu terrorizmlə mübarizə olduğu ilə əlaqədar bildirdim ki, Ermənistan Azərbaycana

qarşı terror fəaliyyəti üçün bir sıra xarici ölkələrin vətəndaşlarının işğal olunmuş Azərbaycan torpaqlarında hazırlığını, maliyyə və texniki yardımı təşkil edir. Erməni terrorizmi dünyada tanınmış bir çox terrorçu təşkilatlarla sıx əməkdaşlıq münasibətlərindədir. Ermənistan öz məkrli və ekspansionist məqsədləri üçün istifadə etdiyi ASALA terror təşkilatının fəal üzvlərini az qala milli qəhrəman kimi qələmə verir, Ermənistan ərazisində, eləcə də Azərbaycanın işğal olunmuş torpaqlarında terrorçuların hazırlanması üçün dayaq bazaları və düşərgələr yaradır. Toplantı iştirakçılarının diqqətinə o da çatdırıldı ki, Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları və prinsiplərinə uyğun, ölkəmizin ərazi bütövlüyü çərçivəsində ədalətli şəkildə nizama salınmasını, bu münaqişə ilə bağlı BMT Təhlükəsizlik Şurasının qətnamələrinin, həmçinin digər beynəlxalq təşkilatların qərarlarının yerinə yetirilməsini tələb edir. O da bildirildi ki, BMT Təhlükəsizlik Şurasının qətnamələrinə uyğun olaraq, Azərbaycan Respublikası terrorçuluq əleyhinə mübarizə çərçivəsində, xüsusilə də terrorun maliyyələşdirilməsinin qarşısının alınması məqsədilə müvafiq tədbirlər görməkdədir. Məruzədə xüsusi vurğulandı ki, terrorizmə qarşı mübarizə sahəsində bizim üçün ən başlıca əngəl Azərbaycanın Ermənistan tərəfindən işğal olunan və nəzarət altından çıxan ərazilərdir. Beynəlxalq terrorçular bu ərazilərdən silah, narkotik maddə qaçaqmalçılığı və insan alveri məqsədilə yararlanırlar. Beynəlxalq ictimaiyyət tərəfindən terrorçuluq əleyhinə mübarizə ilə bərabər aqressiv separatçılıq və ekstremizmə qarşı da aktiv mübarizə aparılmalıdır. Beynəlxalq terrorizmə qarşı hüquqi bazanın formalaşdırılması olduqca vacibdir. Bu baxımdan 1999-cu ildə Azərbaycan parlamenti terrorizmə qarşı konkret tədbirləri nəzərdə tutan «Terrorizmlə mübarizə»yə aid qanun qəbul edib. Azərbaycan artıq beynəlxalq terrorizmə qarşı məsələlər üzrə on bir beynəlxalq konvensiyaya qoşulub. Məruzədə o da qeyd edildi ki, biz ölkəmiz üçün, eləcə də bölgə üçün ən böyük təhlükə mənbəyi olan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllində İKT-nin və digər təşkilatların dəstəyini yüksək dəyərləndiririk. Biz terrorizmin bütün formalarını qətiyyətlə pisləyir, onun törədilməsi səbəbindən, nə zaman və kim tərəfindən həyata keçirilməsindən asılı olmayaraq beynəlxalq aləm üçün ən dəhşətli və ciddi təhlükə sayırıq. Əlavə etdim ki, terrorizmə qarşı mübarizənin pozitiv nəticələrini yalnız və yalnız beynəlxalq əməkdaşlıq imkanları və bütün səviyyələrdə terrorizmlə qarşıdurmanın gücləndirilməsi ilə əldə etmək olar.

2007-ci ilin fevralında Malayziyanın Kuala-Lumpur şəhərində İKT Pİ Şurasının IX sessiyası keçirilmişdir. Sessiyada iştirak edən Azərbaycan nümayəndə heyətinin təklifi ilə ayrıca bənd – «Şura Ermənistanın Azərbaycan Respublikasına qarşı davam edən təcavüzünü və Ermənistan silahlı qüvvələri-

nin Azərbaycanın işğal edilmiş torpaqlarında apardığı qeyri-qanuni hərəkətlərini (etnik təmizləmə, İslam mədəniyyəti abidələrinin vəhşicəsinə məhvi, milli sərvətlərin talan edilməsi) qətiyyətlə pisləyir. Şura Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal edilmiş torpaqlarından tezliklə çıxarılmasını tələb edir» – həmin tədbirin yekun sənədinə - Kuala-Lumpur Bəyannaməsinə salındı.

2008-ci ilin yanvarında Qahirə şəhərində keçirilmiş Parlament İttifaqının V konfransında Azərbaycan Respublikası Milli Məclisinin nümayəndə heyətinin təklifi ilə «Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü haqqında» və «Ermənistan Respublikasının təcavüzü nəticəsində Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində İslam tarixi və mədəniyyət abidələrinin məhv edilməsi və dağıdılması haqqında» qətnamələr Təşkilatın Siyasi və İqtisadi məsələlər üzrə komitələrinə təqdim olundu və konfransın yekun sənədlərinə salındı.

Həmin sənədlərlə oxucuları tanış etmək istərdik.

«Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü haqqında» qətnamədə.

İKT Nizamnaməsinin məqsəd və prinsiplərindən **çıxış edərək,**

20%-dək Azərbaycan ərazisinin işğalı ilə nəticələnmiş Ermənistan Respublikası tərəfindən Azərbaycan Respublikasına qarşı həyata keçirilən təcavüzdən **ciddi narahatlığını ifadə edərək,**

Ermənistanın təcavüzü nəticəsində bir milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkünün vəziyyəti, humanitar problemlərin kəskinləşməsi və həmçinin artması ilə əlaqədar **dərin təəssüfünü bildirərək,**

Ötən konfransların həmin problemlə əlaqədar bütün müvafiq qətnamələrini **bir daha təsdiq edərək,**

BMT Nizamnaməsinə və Təhlükəsizlik Şurasının qətnamələrinə ciddi surətdə əməl edilməsinə **çağıraraq,**

Ermənistan və Azərbaycan arasındakı münaqişənin həlli üzrə bütün diplomatik və digər səyləri **alqışlayaraq,**

Bütün üzv dövlətlərin Azərbaycan Respublikasının suverenliyini, ərazi bütövlüyü və siyasi müstəqilliyinə ehtiramını **bir daha təsdiq edərək,**

Ermənistanın davam etdirdiyi təcavüzkarlıq siyasətinin ATƏT çərçivəsində aparılan sülh prosesinə dağıdıcı təsirini **qeyd edərək:**

1. İslam Konfransı Təşkilatına üzv dövlətlərin Parlament İttifaqı Ermənis-

tan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzünü **kəskin şəkildə pisləyir,**

2. İşğal edilmiş Azərbaycan ərazilərində mülki azərbaycanlı sakinlərə qarşı edilən hərəkətləri bəşəriyyətə qarşı cinayət kimi **qiymətləndirir,**

3. İşğal edilmiş Azərbaycan ərazilərində arxeoloji, mədəni və dini abidələrin talan və məhv edilməsini **qətiyyətlə pisləyir,**

4. BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrinin ciddi şəkildə yerinə yetirilməsinə, erməni silahlı qüvvələrinin işğal edilmiş Azərbaycan ərazilərindən, o cümlədən Dağlıq Qarabağ bölgəsindən tam, qeyd-şərtsiz və dərhal çıxarılmasını qəti surətdə tələb edir, Ermənistanı Azərbaycan Respublikasının suverenliyinə və ərazi bütövlüyünə **ehtiramla yanaşmağa çağırır,**

5. Təhlükəsizlik Şurasının məlum qətnamələrinin müddəalarının Ermənistan tərəfindən hələ də yerinə yetirilməməsi ilə əlaqədar **narahatlığını ifadə edir,**

6. Təcavüzkar tərəfindən münaqişənin şiddətləndirilməsinin və Azərbaycan ərazisinin işğalının davam etdirilməsinin qarşısının alınması məqsədilə bütün üzv dövlətləri Ermənistana silah və hərbi sursat təqdim etməkdən çəkinməyə **çağırır.** Üzv dövlətlərin ərazisi bu kimi təchizatların tranziti üçün istifadə edilməməlidir;

7. Erməni təcavüzü və Azərbaycan ərazilərinin işğalına son qoyulması məqsədilə üzv dövlətləri və beynəlxalq birliyin digər dövlətlərini bütün effektiv siyasi və iqtisadi vasitələrdən istifadə etməyə **çağırır,**

8. Ermənistan və Azərbaycan arasındakı münaqişənin dövlətlərin ərazi bütövlüyü və beynəlxalq ictimaiyyət tərəfindən tanınmış sərhədlərin toxunulmazlığına ehtiram prinsipləri əsasında ədalətli şəkildə və sülh yolu ilə həll edilməsinə **çağırır;**

9. ATƏT-in 1996-cı ildə Lissabonda keçirilmiş Zirvə Görüşündə icraçı sədrin bəyanatının ehtiva etdiyi Ermənistanla Azərbaycan arasındakı silahlı münaqişənin həllinin üç prinsipini - Azərbaycan Respublikasının və Ermənistan Respublikasının ərazi bütövlüyü, Dağlıq Qarabağa Azərbaycanın tərkibində yüksək muxtariyyət statusunun verilməsi, region və onun əhalisinin təhlükəsizliyinə zəmanət verilməsini dəstəklədiyini **ifadə edir,**

10. Ermənistanla Azərbaycan arasındakı silahlı münaqişənin mərhələli həlli istiqamətində ATƏT-in Minsk qrupunun fəaliyyətini, Azərbaycan və Ermənistan xarici işlər nazirləri səviyyəsində aparılan məsləhətləşmələri dəstəkləyir və məsələyə bu cür yanaşmanı Azərbaycana qarşı təcavüzün ciddi nəticələrinin aradan qaldırılması üçün vasitə kimi **qiymətləndirir,**

11. Azərbaycan hökuməti və xalqının öz ölkəsinin müdafiəsi naminə göstərdiyi cəhdləri bütövlükdə dəstəklədiyini və onlarla tam şəkildə həmrəy olduğunu **bir daha təsdiq edir,**

12. Qaçqın və köçkünlərin öz yaşayış yerlərinə təhlükəsiz, hörmət və şərəflə dönmələrinə imkan yaradılmasına **çağırır.**

«Ermənistan Respublikasının təcavüzü nəticəsində Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində İslam tarixi və mədəniyyət abidələrinin məhv edilməsi və dağıdılması haqqında» qətnamə

İKT Nizamnaməsinin islam irsinin qorunması və müdafiəsi barədə səylərin birləşdirilməsinə dair məqsəd və prinsiplərindən çıxış edərək,

Ermənistan tərəfindən işğal edilmiş ərazilərdəki Azərbaycan tarixi, mədəniyyəti, arxeologiyası, etnoqrafiyasının Azərbaycan tarixi və mədəniyyətinin ayrılmaz hissəsi olduğunu dərk edərək,

BMT Təhlükəsizlik Şurasının Laçın və Şuşa rayonları daxil olmaqla Azərbaycanın işğal olunmuş bütün ərazilərindən erməni silahlı qüvvələrinin dərhal, qeyd-şərtsiz və tam çıxarılmasını, habelə Ermənistan tərəfindən Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünə hörmət edilməsini tələb edən 822, 853, 874 və 884 saylı qətnamələrini təsdiq edərək,

Ermənistan Respublikasının işğal etdiyi Azərbaycan ərazilərində erməni təcavüzkarları tərəfindən islam irsinə vurulmuş böyük zərərin - nadir islam mədəniyyəti və memarlıq abidələrinin, habelə məscidlərin, məbədlərin, məzarlıqların, arxeoloji qazıntıların, muzeylərin, kitabxanaların, rəsm qalereyalarının, dövlət teatrlarının, musiqi məktəblərinin tam və ya qismən dağıdılması, zəbt edilmiş muzeylərdən çoxsaylı qiymətli əşyaların, milyonlarla kitab və tarixi əlyazmalarının çıxarılması və məhv edilməsi faktları nəzərə alaraq, Azərbaycan xalqının bununla əlaqədar narahatlığını tam bölüşərək:

– Erməni təcavüzkarlarının Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində islam sivilizasiyasının tam məhv edilməsinə yönəldilmiş vəhşi hərəkətlərini ciddi surətdə pisləyir,

– Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrinin Ermənistan Respublikası tərəfindən qeyd-şərtsiz və mütləq yerinə yetirilməsini qəti surətdə tələb edir,

– Təcavüzə son qoymaq istiqamətində Azərbaycanın beynəlxalq təşkilat-

lar səviyyəsində apardığı səylərini dəstəklədiyini ifadə edir.

Azərbaycan nümayəndə heyətinin təklif etdiyi dörd bənd tədbirin sonunda müzakirəyə qoyulan yekun sənədə - «Qahirə Bəyannaməsinə» salındı («Tədbir iştirakçıları BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrinin ciddi şəkildə yerinə yetirilməsini, erməni silahlı qüvvələrinin işğal edilmiş bütün Azərbaycan ərazilərindən tam, qeyd-şərtsiz və dərhal çıxarılmasını qəti surətdə tələb edir; Ermənistanı Azərbaycan Respublikasının suverenliyinə və ərazi bütövlüyünə ehtiramla yanaşmağa çağırır; İslamın arxeoloji və mədəni irsinə vurulmuş böyük zərərlə nəticələnən məscidlərin və digər müqəddəs İslam məbədlərinin Azərbaycan Respublikasının ərazilərində vəhşicəsinə dağıdılmasını ciddi surətdə pisləyir; Azərbaycan hökuməti və xalqının öz ölkəsinin müdafiəsi naminə göstərdiyi cəhdləri bütövlükdə dəstəklədiyini və onlarla tam şəkildə həmrəy olduğunu təsdiq edir».

Konfransda Asiya, Afrika və Ərəb qruplarından İcraiyyə Komitəsinə üzvlər seçildi. Asiya qrupundan mənim namizədliyim səsə qoyuldu və dəstəkləndi. Bununla da, Azərbaycan nümayəndə heyəti İcraiyyə Komitəsində, Şurada, Siyasi və İqtisadi məsələlər və Hüquq məsələləri, insan haqları və ətraf mühit üzrə xüsusi daimi komitələrdə təmsil olundu. Konfransda Azərbaycan nümayəndə heyətinin rəhbəri kimi mən aşağıdakı geniş məruzə ilə çıxış etdim: «1999-cu ilin iyun ayında Tehranda keçirilmiş İslam Konfransı Təşkilatının Parlament İttifaqının təsis konfransından keçən dövrdə dünyada böyük dəyişikliklər baş vermişdir. Özündə Avropa və Şərq mədəniyyətinin ənənələrini birləşdirən Azərbaycan Respublikası da bəşəriyyətin və İslam dünyasının bir parçası kimi bu proseslərdən kənarda qalmayaraq istiqlaliyyət yolunda inamlı addımlarını atmaqdadır. Qeyd etmək lazımdır ki, islami dəyərlərə və əqidəsinə sadiq qalan Azərbaycan xalqı 70 il Sovetlər Birliyi tərkibində güclü ateist təbliğatı altında olmasına baxmayaraq islam dininə sadiq qalmışdır. Hazırda Azərbaycan Respublikasında ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ümummilli liderimiz Heydər Əliyevin siyasi xətti davam edilərək demokratiyanın inkişafı, əsas insan azadlıqlarının təmin edilməsi, dünya iqtisadiyyatına inteqrasiya istiqamətində mühüm islahatlar həyata keçirilməkdədir. Ölkə vətəndaşları Azərbaycan Konstitusiyasında təsbit edilmiş bütün hüquqlardan, o cümlədən söz, vicdan, əqidə azadlıqlarından sərbəst surətdə istifadə edirlər.

Lakin ölkəmizin demokratik inkişafı yolunda xalqımızın ən ağrılı problemi Ermənistanın Azərbaycana qarşı təcavüzü böyük əngəllər törətməkdədir. Belə ki, bu təcavüzün nəticəsində Azərbaycanın tarixi torpaqları olan Dağlıq Qarabağ bölgəsi və onun ətrafında yerləşən 7 rayon ilə birlikdə torpaqlarımızın 20%-i işğal edilmiş, 1 milyondan artıq soydaşımız doğma ata-baba yurdların-

dan didərgin düşmüşlər. Erməni qəsbkarlarının işğalı Azərbaycan xalqına böyük maddi və mənəvi ziyan vurmuşdur. İşğal olunmuş torpaqlarımızda erməni silahlı qüvvələri xeyli sayda mədəniyyət abidələrimizi məhv etmiş, tarixi məscidlərimizi, müqəddəs islam ocaqlarını, qəbiristanlıqları yerlə-yeksan etmişlər, müsəlman sivilizasiyasının izlərini silmişlər. Bu vandalizm təkcə Azərbaycan xalqına qarşı deyil, bütün islam dünyasına vurulan bir zərbədir. Hərbi təcavüz və etnik təmizləmə nəticəsində 20 mindən çox azərbaycanlı öldürülmüş, 50 mindən çox adam əlil olmuş, dörd mindən çox adam əsir və itkin düşmüş, girov götürülmüşdür. Uşaqlar, qadınlar və qocalar erməni təcavüzkarlarının törətdikləri soyqırımın bütün dəhşətlərini görmüşlər. Yanvar ayı bitmək üzrədir. Bir neçə gündən sonra Azərbaycan xalqı üçün kədər və qüssə ayı olan fevral ayı başlayır. Məhz fevralın 26-da mənim xalqımın tarixində ən böyük faciələrdən biri baş verib. 1992-ci ilin məhz bu günündə erməni işğalçıları tərəfindən Xocalı adlı Azərbaycan şəhəri yerlə-yeksan edilmiş, 613 dinc sakin, o cümlədən 63 uşaq və 106 qadın vəhşicəsinə öldürülmüşdür. 1275 sakin – qocalar, uşaqlar, qadınlar əsir aparılmış, olmazın təhqir və işgəncələrə məruz qalmışlar. 150 əsirin, o cümlədən 68 qadın və 26 uşağın taleyi bu günə qədər məlum deyil.

Bundan başqa, Azərbaycan erməni terrorçularının və eləcə də ASALA kimi məşhur terror təşkilatının geniş miqyaslı fəaliyyəti üçün poliqona çevrilmişdir.

Erməni terrorçularının törətdikləri 30-dan artıq terror aktları nəticəsində iki mindən çox günahsız Azərbaycan vətəndaşı qətlə yetirilmiş, on minlərlə insan xəsarət almışdır.

Bizim üçün terrorçuluq əleyhinə mübarizə sahəsində əsas əngəl Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş və nəzarət olunmayan əraziləridir. Bu ərazilər beynəlxalq terrorçular tərəfindən silah, narkotik maddə qaçaqmalçılığı və insan alveri məqsədilə istifadə olunmaqdadır.

Beynəlxalq hüquq normalarını kobud surətdə pozaraq, Ermənistan Respublikası işğal olunmuş Azərbaycan ərazilərində yeni yaşayış məskənləri salaraq, ərazinin demoqrafik vəziyyətini dəyişdirməyə çalışır. Mənbələr «Artsaxa qayıdış» adlı planın mövcudluğundan xəbər verir. Bu plana uyğun olaraq 2010-cu ilə qədər Dağlıq Qarabağda erməni əhalisinin sayını 300 minə çatdırmaq nəzərdə tutulub, halbuki münaqişənin başlanğıcında burada üç dəfə az erməni yaşayırdı.

Erməni silahlı qüvvələrinin torpaqlarımızdan çıxarılmasını tələb edən BMT-nin məlum 4 qətnaməsini, beynəlxalq təşkilatların qərarlarını, o cümlədən İslam Konfransı Təşkilatı kimi çox nüfuzlu beynəlxalq təşkilatın Ermənistanın işğalçılıq siyasətini pisləyən, zəbt olunmuş torpaqlarımızın azad

edilməsini tələb edən qətnamələrini qulaq ardına vuran Ermənistan bu günə kimi Azərbaycan torpaqlarını işğal altında saxlayaraq Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə nizama salınması prosesinə böyük maneələr törədir. Yeri gəlmişkən Avropa Şurası Parlament Assambleyasında son günlər Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Ermənistan işğalçı, Dağlıq Qarabağ ermənilərini separatçı adlandıran qətnamənin qəbul edilməsini də burada xatırlatmaq istərdim.

Hörmətli konfrans iştirakçıları! Mən bu yüksək tribunadan üzümü sizə tutaraq Ermənistanın Azərbaycana qarşı təcavüzünün aradan qaldırılması, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə beynəlxalq hüquq normaları və prinsiplərinə uyğun şəkildə həll edilməsi istiqamətində səylərinizi bundan sonra da əsirgəməməyə çağırıram və hazırkı sessiyanın yekun sənədlərinə Azərbaycan nümayəndə heyətinin təqdim etdiyi Ermənistanın Azərbaycana qarşı təcavüzünü pisləyən qətnamələrin əlavə edilməsinin vacibliyini diqqətinizə çatdırıram».

2009-cu ilin 18-19 fevral tarixlərində Nigerin paytaxtı Niamey şəhərində İKT Pİ-nın növbəti sessiyası keçirildi. Tədbirdə Azərbaycan nümayəndə heyəti 16/11-CNCL №-li «Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi» adlı Qətnamənin qəbul olunmasına nail oldu. Qətnamədə deyilir:

18-19 fevral 2009-cu il tarixində Niameydə (Niger) İslam Konfransı Təşkilatına üzv dövlətlərin Parlament İttifaqının keçirilmiş Şurası

İKT məqsəd və prinsiplərini rəhbər tutaraq,

Azərbaycan torpaqlarının 20% işğalı ilə nəticələnən Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzündən dərindən təəssüflənərək,

Münaqişənin bu günə qədər həll edilməməsindən dərin narahatlıq keçirərək,

Ermənistanın təcavüzü və humanitar problemlər sərtliyindən irəli gələn bir milyondan artıq Azərbaycanlı qaçqının və məcburi köçkünün iztirablarından kədərlənərək,

Azərbaycanın işğal edilmiş torpaqlarından bütün işğalçı qüvvələrin qeyd-şərtsiz çıxarılmasını tələb edən BMT Təhlükəsizlik Şurasının bütün qətnamələrini xatırladaraq,

Bütün qəbul olunmuş əvvəlki müvafiq qətnamələri yenidən xatırladaraq,

Münaqişənin həlli istiqamətində atılan bütün diplomatik və digər səyləri alqışlayaraq,

Azərbaycan Respublikasının suverenliyinə, birliyinə, ərazi bütövlüyünə və siyasi müstəqilliyinə üzv dövlətlərin hörmətini yenidən təsdiqləyərək,

ATƏT-in apardığı sülh prosesinə manea törədən Ermənistanın təcavüz si-

yasətinin destruktiv təsirini nəzərə alaraq:

1. Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzünü qətiyyətlə pisləyir,

2. Azərbaycan torpağında Azərbaycan vətəndaşlarına qarşı aparılan fəaliyyəti bəşəriyyətə qarşı cinayət hesab edir,

3. İşğal edilmiş Azərbaycan torpaqlarında qədim mədəni və dini sərvətlərin qarət və talan edilməsini qətiyyətlə pisləyir,

4. BMT Təhlükəsizlik Şurasının 822, 853, 874, 884 saylı qətnamələrinə əməl etməyə, Azərbaycanın bütün işğal olunmuş torpaqlarından Erməni silahlı qüvvələrini tam və qeyri-şərtsiz çıxarılmasını qətiyyətlə tələb edir, Ermənistanı Azərbaycan Respublikasının suverenliyinə və ərazi bütövlüyünə hörmət etməyə çağırır,

5. BMT Təhlükəsizlik Şurasının qətnamələrindəki tələblərə Ermənistanın məhəl qoymamasından narahatlığını bildirir; Ermənistanı beynəlxalq təşkilatların münaqişə ilə bağlı bütün qətnamə və qərarları yerinə yetirməyə və silahlı qüvvələri işğal edilmiş Azərbaycan torpaqlarından çıxarmağa çağırır,

6. Təhlükəsizlik Şurasının Azərbaycan Respublikasına qarşı edilən təcavüzün mövcudluğunu tanımağa çağırır; Azərbaycan Respublikasını BMT Nizamnaməsinin VII maddəsinə uyğun olaraq, Təhlükəsizlik Şurasının qətnamələrinin Ermənistan tərəfindən yerinə yetirilməsi üçün müvafiq addımlar atmağa, Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünə qarşı təcavüzü pisləməyə və ona son qoymağa çağırır; bu məqsədlə üzv dövlətləri BMT-də birgə fəaliyyətə çağırır,

7. Bütün dövlətləri təcavüzkarı münaqişənin böyüməsinə həvəsləndirən və Azərbaycan torpaqlarının işğalının davamına səbəb ola biləcək Ermənistana silah və hərbi sursat göndərməyi dayandırmağa çağırır. Üzv dövlətlərin əraziləri bu cür təchizat üçün keçid yeri ola bilməz,

8. Üzv dövlətləri və bütün beynəlxalq ictimaiyyəti Ermənistanın təcavüzünə və Azərbaycan torpaqlarının işğalına son qoymaq məqsədi ilə bütün effektiv siyasi və iqtisadi üsullardan istifadə etməyə çağırır,

9. Bütün İKT Pİ üzvlərini Ermənistanla Azərbaycan arasında olan münaqişənin ən tez bir zamanda dinc həllinə nail olunması işinə səmərəli töhfələrini verməyə və təcavüzkar Ermənistanla bütün əlaqələri kəsməyə çağırır,

10. Beynəlxalq birliyi təkidlə Azərbaycanlı qaçqın və məcburi köçkünlərin ağır həyat şəraitinə laqeyd qalmamağa çağırır,

11. Dövlətlərin ərazi bütövlüyü və beynəlxalq aləmdə tanınmış sərhədlərin pozulmasının qeyri-mümkünlüyü prinsiplərinə hörmət əsasında Ermənistan və Azərbaycan arasındakı münaqişənin ədalətli və dinc həllinə çağırır,

12. Ermənistanla Azərbaycan arasında silahlı münaqişənin həlli üzrə 1996-cı ildə Lissabon Sammitində qəbul olunmuş və ATƏT-in Bəyannaməsinə daxil edilmiş üç prinsipə: Ermənistan Respublikasının və Azərbaycan Respublikasının ərazi bütövlüyünün təminatına, Azərbaycanın tərkibində Dağlıq Qarabağa ən yüksək səviyyədə özünüidarəetmə hüququnun verilməsinə, Dağlıq Qarabağ və onun bütün əhalisinin təhlükəsizliyinə təminat verilməsinə tam dəstək olduğunu ifadə edir,

13. ATƏT-in Minsk Konfransında sədrlər tərəfindən irəli sürülmüş Ermənistanla Azərbaycan arasındakı silahlı münaqişənin mərhələli həlli üçün təklifi ATƏT-in Minsk qrupu çərçivəsində danışıqlar üçün əsas sayır və başa düşür ki, bu addım Azərbaycan Respublikasına qarşı təcavüzün dəhşətli təsirlərinin aradan qaldırılmasını daxil edir,

14. Ermənistan və Azərbaycan arasında beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanan ədalətli sülh sazişinin bağlanmasına kömək məqsədilə beynəlxalq təşkilatlara, dünya ölkələrinin parlament və hökumətlərinə səylərini artırmaq üçün müraciət edir,

15. Azərbaycan hökuməti və xalqının öz ölkəsinin müdafiəsi naminə göstərdiyi cəhdləri bütövlükdə dəstəklədiyini və onlarla həmrəy olduğunu yenidən vurğulayır; qaçqın və məcburi köçkünlərin təhlükəsizlik, şərəf və ləyaqətlə öz evlərinə dönmələrini təmin etməyə çağırır,

16. Qaçqın və məcburi köçkünlərə humanitar yardım göstərən bütün üzv dövlətlərə öz minnətdarlığını bildirir və digər ölkələri də belə yardım göstərməyə çağırır.

Niamey Bəyannaməsinə Azərbaycan nümayəndə heyətinin təklifi ilə Ermənistan – Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə aid bənd daxil edildi: «Şura Ermənistanın Azərbaycan Respublikasına qarşı davamlı təcavüzünü kəskin pisləyir, BMT Nizamnaməsinə və Təhlükəsizlik Şurasının bütün qətnamələrinə əməl etməyə çağırır. Şura üzv dövlətləri və dünyanın digər dövlətlərini Ermənistanın təcavüzünə və Azərbaycan torpaqlarının işğalına son qoymaq məqsədilə bütün effektiv siyasi və iqtisadi vasitələrdən istifadə etməyə çağırır. Şura bir milyondan artıq Azərbaycan qaçqın və məcburi köçkünün üzləşdiyi humanitar problemlərdən ciddi narahatlıq keçirdiyini bildirir».

2010-cu ilin iyun ayında Dəməşq şəhərində İKT Pİ növbədənkənar Konfransı çağırıldı. «Qəzzanın blokadasına yox» şüarı ilə keçirilən mötəbər məclisdə 16 spiker iştirak edirdi. İclasa Suriya Parlamentinin spikeri Mahmud əl-Əbraş sədrlik edirdi.

Azərbaycan Parlamentini tədbirdə mən təmsil etdim, çıxış edərək, Azərbaycan Respublikasının dost Fələstin xalqının sülh və sabitliyə nail olmasını,

Qüds paytaxt olmaqla, müstəqil, suveren Fələstin dövlətinin yaradılması sahəsində səylərini dəstəklədiyini qeyd etdim. Qəzza bölgəsinin blokadasının beynəlxalq hüququn bütün normalarına zidd hesab olduğunu söylədim, son illər islama qarşı ciddi təhdidlər, dözümsüzlük və diskriminasiya kimi halların aradan qaldırılması üçün birgə səylərin göstərilməsinin vacibliyini vurğuladım.

Son iyirmi ildə Azərbaycan xalqının qarşılaşdığı əsas problemin – Ermənistanın Dağlıq Qarabağı və ətraf rayonları işğal etməsini xatırladaraq 1 milyondan çox azərbaycanlının öz ata-baba yurdundan qovulduğunu, erməni işğalının xalqımıza sağalmaz maddi və mənəvi yaralar vurduğunu qeyd etdim: «İşğal nəticəsində torpaqlarımızda çoxsaylı maddi mədəniyyət nümunələri, mədəni abidələr, tarixi məscidlər, müqəddəs islam abidələri, müsəlman qəbiristanlıqları tam dağıdılıb. Bu vandallıq təkcə Azərbaycan xalqına qarşı deyil, eyni zamanda bütöv islam aləminə qarşı zərbədir».

Erməni terroristlərinin Azərbaycan ərazilərini terror təşkilatlarının fəaliyyət meydanına çevirdiyini xatırladaraq, 30 terror əməliyyatı nəticəsində Azərbaycanda 2 000 çox insanın həlak olduğunu xatırlatdım. Bu günəcən Ermənistanın BMT Təhlükəsizlik Şurasının qətnamələrini və digər mötəbər beynəlxalq təşkilatlarının, o cümlədən İslam Konfransı Təşkilatının çoxsaylı qərar və qətnamələrini qulaq ardına vurduğunu diqqətə çatdıraraq qeyd etdim ki, Fələstin və Azərbaycan xalqlarının pozulmuş hüquqlarının bərpası üçün beynəlxalq səyləri daha da artırmaq, İKT-yə üzv dövlətlərin islam həmrəyliyini daha da gücləndirməsi son dərəcə vacibdir.

«Azərbaycan» qəzeti, 6 aprel 2008-ci il.

İSLAM ÖLKƏLƏRİNİ AZƏRBAYCANIN STRATEJİ TƏRƏFDAŞINA ÇEVİRƏN LİDER

«İslam Konfransı Təşkilatı böyük bir yol keçibdir, şübhəsiz ki, onun böyük xidmətləri olubdur. O, dünyada sülhün, əmin-amanlığın və təhlükəsizliyin təmin edilməsi üçün öz töhfələrini verib, öz səylərini göstərib»

Heydər Əliyev

Xalqımızın ümummilli lideri Heydər Əliyevin 85 illik doğum günü yaxınlaşır. Bu ərəfədə böyük öndərimizin keçdiyi zəngin həyat yolunu, çoxşaxəli fəaliyyətini, yeritdiyi daxili və xarici siyasəti, dövlət quruculuğunda gördüyü böyük işləri bir daha nəzərdən keçirmək və təhlil etmək zərurəti yaranır. Təqdim edilən məruzədə onun titanik fəaliyyətinin kiçik bir hissəsi – İslam Konfransı Təşkilatı ilə əlaqədar apardığı siyasət və gördüyü işlər haqda qısa məlumat verib, müəyyən təhlillər apararaq, öz mülahizələrimizlə bölüşəcəyik.

1993-cü ildə hakimiyyətə yenidən qayıtdığı ilk günlərdən Heydər Əliyev Azərbaycanın xarici siyasətini yeniləşdirdi və ölkənin strateji maraqları əsasında yenidən qurdu. O, ilk növbədə sabiq hakimiyyətin xarici siyasət sahəsində buraxdığı kobud səhvləri və bunun nəticəsində Azərbaycan ətrafında formalaşmış çox gərgin beynəlxalq siyasi vəziyyəti aradan qaldırmaq istiqamətində iş aparmağa başladı, ölkənin strateji maraqlarını region dövlətlərinin və Qafqazda xüsusi təsiri olan ayrı-ayrı dövlətlərin maraqları ilə uzlaşdırmağa yönəlmiş siyasət yürütməyə başladı. Hələ Milli Məclisin sədri seçilərkən o, xarici siyasətin başlıca vəzifələrini və istiqamətlərini müəyyənləşdirdi: «Azərbaycanın müstəqilliyini təmin edən atributlardan biri xarici siyasətdir, Azərbaycanın sağlam xarici siyasəti olmalıdır, düşünülmüş xarici siyasəti olmalıdır, uzaqgörən xarici siyasəti olmalıdır, elə xarici siyasəti olmalıdır ki, Azərbaycanı dünya dövlətləri birliyinə bağlasın, Azərbaycanın bütün dövlətlərlə əlaqəsini, Azərbaycanın mənafeyini təmin etsin və Azərbaycanı de-fakto dünya miqyasında bir müstəqil dövlət kimi tanıtmağı təmin edə bilsin. Azərbaycanın indiyə qədər belə sağlam düşüncəli xarici siyasəti olmayıbdır». Sözünə davam edərək, Heydər Əliyev bu sahədə buraxılan səhvlərə diqqəti yönəldir: «Azərbaycanın bütün dövlətlərlə gərək bərabər hüquqlu əlaqəsi olsun, Türkiyə ilə, İran ilə, qonşu Gürcüstan ilə, Rusiya ilə də, Amerika ilə də, Avropa dövlətləri ilə də, Ərəbistan dövlətləri ilə də, müsəlman dövlətləri ilə də, türkdilli dövlətlərlə də, Orta Asiya dövlətləri ilə, Qazaxıstanla da bərabərhüquqlu əlaqələri olmalıdır». Heydər Əliyev son illərdə Azərbaycanın

xarici siyasətində yer tutan özünütəcrid xəttinin tamamilə yolverilməz və milli maraqlara zidd olduğunu vurğulayır. O, özünütəcrid xəttinin acı nəticəsi kimi dünyanın Azərbaycanı tanımamasını, problemlərimizi bilməməsini, haqq səsimizi eşitməməsini göstərir və belə siyasəti «özümüzün özümüzə vurduğumuz zərbə» adlandırır. Ölkənin mənafelərini qorumaq istiqamətində hərtərəfli ölçülüb-biçilmiş addımların atılmasının gərəkliyini vurğulayan Heydər Əliyev Azərbaycanın dövlətçilik mənafelərini hər şeydən uca tutaraq müxtəlif dövlətlərin bütövlükdə Qafqaz və bilavasitə respublikamız üzərində qurulmuş iqtisadi maraq və nüfuz dairəsi uğrunda mübarizələrini nəzərə alaraq, çevik manevrlər və xüsusi taktiki gedişlər etdi.

Beləliklə, xarici siyasət xəttində mövcud reallıqları nəzərə alan və ölkənin mənafelərinin qorunmasına yönəlmiş əməli dəyişikliklər edildi. İlk növbədə müstəqil Azərbaycan dövlətinin beynəlxalq münasibətlər sistemində yeri, Avropa ölkələri və ABŞ-la, yeni müstəqil dövlətlər və Rusiya ilə, türkdilli dövlətlər və Türkiyə, müsəlman dünyası və İranla, nüfuzlu beynəlxalq təşkilatlarla əlaqələrin yaxın dövr üçün prioritetləri müəyyənləşdirildi və tədricən həyata keçirilməyə başlandı.

Azərbaycan müstəqillik qazandıqdan sonra İslam Konfransı təşkilatına üzv oldu. Heydər Əliyev müsəlman ölkələri arasında əməkdaşlığı möhkəmlətməyi, sülh şəraitini təmin etməyi, mənəvi dəyərlərimizi, mədəniyyətimizi, ənənələrimizi qoruyub saxlamaq və inkişaf etdirməyi əldə rəhbər tutan bu beynəlxalq təşkilatla yaxından əməkdaşlıq etmək, onun vasitəsi ilə müsəlman dünyasının haqq işimizdə bizə dəstəyinə nail olmaq prinsiplərini xarici siyasətimizin vacib istiqaməti hesab edərək bu təşkilatın bütün imkanlarından səmərəli istifadə etmək zərurətini vurğulamışdı. 1993-cü ilin ikinci yarısından başlayaraq bu istiqamətdə görülən işlər sanki yeni nəfəs aldı, İKT ilə ölkəmiz arasındakı əlaqə və təmaslar intensivləşməyə və fəallaşmağa başladı.

23 noyabr 1993-cü ildə İKT-yə üzv ölkələrin xarici işlər nazirlərinin BMT iqamətgahında keçirilmiş koordinasiya toplantısı Ermənistanın Azərbaycan Respublikasına qarşı təcavüzü ilə bağlı regiondakı vəziyyəti müzakirə edərək özünün ölkəmizlə bağlı ilk sənədlərindən biri olan bəyanatı qəbul etdi. Toplantı iştirakçılarına Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin müraciəti təqdim edilmişdi. Müraciətdə Ermənistanın Azərbaycanın 20 faizdən çox ərazisinin işğalı nəticəsində ölkədə yaranmış vəziyyət, bir milyondan artıq qaçqın ordusunun olması öz əksini tapmışdı. Toplantı iştirakçıları Ermənistan-Azərbaycan münaqişəsinin genişlənməsi ilə bağlı dərin narahatlıq hisslərini ifadə etmiş və Ermənistanın son təcavüzünün sülhə və əmin-amanlığa təhlükə yaratdığını qeyd etmişdilər. Toplantı iştirakçıları eyni zamanda Azərbaycan

Prezidentinin Azərbaycan qaçqınlarına təcili humanitar yardım göstərilməsi barədəki müraciətini dəstəklədiklərini bildirmişlər.

Bundan sonra ölkəmiz ilə İKT arasında əlaqələr Prezident Heydər Əliyevin göstərişi ilə daha da intensivləşdi. Azərbaycan bu təşkilatın informasiya, maliyyə və siyasi dəstək göstərmək imkanlarından tam gücü ilə istifadə etməyə başladı. 1994-cü ilin sentyabr ayında İKT xarici işlər nazirlərinin Pakistan İslam Respublikasının İslamabad şəhərində keçirilmiş VII Konfransı Ermənistan-Azərbaycan münaqişəsi üzrə daha bir qətnamə qəbul etdi. Qətnamədə Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü və Azərbaycan Respublikası ərazilərinin 20 faizdən çoxunun işğalı qətiyyətlə pislənmiş, münaqişənin dövlətlərin ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığı prinsiplərinə hörmət əsasında ədalətlə və sülh yolu ilə həllinə çağırış səsləndirilmişdir.

Ulu öndər Heydər Əliyevin İKT Baş katibi, doktor Həmid əl-Qabidlə 1994-cü ilin noyabr ayında Bakıda keçirdiyi görüşlər və danışıqlar respublikamızla İKT arasındakı əməkdaşlığı daha da fəallaşdırmaqla yanaşı, bir sıra müsəlman ölkələri ilə diplomatik münasibətlər yaratmaq nöqteyi-nəzərindən də çox mühüm əhəmiyyət kəsb etmişdir. Belə ki, İKT Baş katibi səfərdən qayıtdıqdan sonra respublikamızın o vaxtadək diplomatik münasibətlər qurmadığı müsəlman ölkələrinin rəhbərlərinə məktubla müraciət edərək, onların diqqətini bu məsələyə cəlb etmişdir.

1994-cü ilin may ayından etibarən Azərbaycan Respublikasının Səudiyyə Ərəbistanı Krallığındakı səfirinə İKT Baş Katibliyində Azərbaycanın daimi nümayəndəsi funksiyasını daşımaq həvalə edildikdən sonra, səfirlik vasitəsilə İKT Baş Katibi və onun müxtəlif qurumları ilə mütəmadi və səmərəli iş aparılmağa başlanmışdı.

Azərbaycan Respublikasının İKT-nin beynəlxalq aləmdəki nüfuz və imkanlarından lazımi səviyyədə istifadə edə bilməsi istiqamətində Prezident Heydər Əliyevin 1994-cü ilin iyul ayında Səudiyyə Ərəbistanına rəsmi səfəri dönüş nöqtəsi oldu. Azərbaycan Prezidentinin Səudiyyə Ərəbistanı kralı Fəhd bin Abduləziz Əl-Səudla faydalı danışıqları və İKT rəhbərliyi ilə səmərəli görüşləri müsəlman aləmində ölkəmizə olan maraq və diqqəti daha da artırdı. Azərbaycanın islam aləminin bir hissəsi olması bir daha yüksək səviyyədə təsdiqləndi. Ermənistan-Azərbaycan münaqişəsi ilk dəfə 1994-cü ildə İKT-nin BMT ilə əməkdaşlığı üzrə problemlər siyahısına salındı. Münaqişənin informasiya cəhətdən və siyasi tərəfdən işıqlandırılması, dünya səviyyəsində onun həlli yollarının və üsullarının araşdırılması ölkəmiz üçün çox mühüm əhəmiyyət kəsb edirdi.

1994-cü ilin dekabr ayında ilk dəfə olaraq Azərbaycan Respublikasının

Prezidenti Heydər Əliyev İKT-yə üzv ölkələrin Dövlət və Hökumət Başçılarının Zirvə toplantısında iştirak etdi.

Toplantıya yola düşərkən jurnalistlərlə söhbətində Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev İslam Konfransı Təşkilatının nüfuzlu beynəlxalq təşkilat olduğunu qeyd edərək bu təşkilatın Azərbaycan üçün əhəmiyyətini çox yüksək dəyərləndirdi: «İslam ölkələri dünyanın böyük bir hissəsini təşkil edirlər. Onların bir milyard nəfərdən artıq əhalisi var. İslam Konfransı Təşkilatı bu ölkələrin ümumi potensialından istifadə edərək həm ümumbəşəri proseslərdə iştirak edir, həm də İslam ölkələrinə məxsus spesifik problemlərin həll olunmasına çalışır. Mən şəxsən hesab edirəm ki, hər bir belə regional təşkilat əhəmiyyətlidir və bu kimi təşkilatlar öz səylərini, nəhayət, birləşdirə bilsələr, dünyada sülh daimi olar, əmin-amanlıq, təhlükəsizlik təmin edilə bilər. Ona görə də mən bu Zirvə toplantısına həvəslə gedirəm və şübhəsiz ki, bu toplantıdan çox şey gözləyirəm bir də ona görə ki, İslam Konfransı Təşkilatı öz əvvəlki toplantısında da qətnamə qəbul edərək Ermənistanın Azərbaycana təcavüzünü pisləyib, bu barədə beynəlxalq təşkilatlara müraciətlər edibdir».

Ulu öndər bu toplantını bir növ ATƏT-in üzvü olan ölkələrin Dövlət və Hökumət Başçılarının Budapeşt Zirvə toplantısının davamı hesab edir, orada da Azərbaycan üçün taleyüklü bir çox yeni qərarların qəbul ediləcəyini gözləyirdi. Elə buna görə də orada bu istiqamətdə bir sıra işlər görüləcəyini bəyan etmişdi.

Sammitdə Azərbaycan və onun rəhbəri bütün dövlət başçılarının, diplomatların, KİV nümayəndələrinin, demək olar ki, bütün islam dünyasının diqqət mərkəzində idi. Bu, islam ölkələri toplantısında ölkəmizin başçısının ilk iştirak etdiyi sammit, onlara Azərbaycan həqiqətlərini çatdırmaq üçün əldə olunmuş ilk geniş fürsət idi. Bu həm də İKT-yə üzv olan dövlət başçıları üçün Azərbaycanla yaxından tanış olmaq, onun rəhbərini dinləmək, ölkəmizlə əlaqələr qurmaq, Prezident Heydər Əliyevin simasında həm də təşkilata yenicə üzv qəbul olunmuş müsəlman respublikalarının dünya siyasətinin bir çox məsələləri ilə bağlı nöqteyi-nəzəri ilə tanış olmaq üçün fürsət yaradırdı.

Heydər Əliyev həmişə olduğu kimi bu Zirvə toplantısında da ölkəmizi layiqincə təmsil edərək onun imicini yüksəklərə qaldırdı. Sammitdə Prezidentimizin çıxışı xüsusi diqqət və rəğbətlə qarşılandı, dəfələrlə alqışlara səbəb oldu. Son dövrdə ölkəmizin başına gələn fəlakətlərdən, Ermənistan-Azərbaycan münaqişəsinin səbəblərindən və onun həlli yollarından, müsəlman dünyasının qarşılaşdığı kəskin problemlərdən açıq, hərarətlə və səmimiyyətlə danışan Azərbaycan Prezidenti dünyaya və islam aləminə bizim baxışlarımızı yüksək tribunadan bəyan etdi.

Heydər Əliyevə göstərilən hörmət və diqqətin, böyük ehtiramın nəticəsi kimi İKT katibliyinin və bir sıra dövlətlərin xahişi ilə Azərbaycan Res-

publikasının Prezidenti konfransda Asiya dövlətləri adından da nitq söylədi.

Bu nitqdə Azərbaycan Prezidenti toplantıda iştirak edən dövlət başçılarına müraciətlə İslam Konfransı Təşkilatında Asiya dövlətləri adından söz demək üçün ona imkan yaradılmasından böyük şərəf duyduğunu və bunu yüksək qiymətləndirdiyini qeyd etdi. O, göstərdi ki, VII Kasablanka Zirvə toplantısı dünya müsəlmanlarının həmrəyliyinin daha da möhkəmlənməsində, islam dövlətlərinin nüfuz və qüdrətinin artmasında yeni bir mərhələ olacaqdır, islam aləminin qarşılaşdığı çətinliklərin və problemlərin dünya ictimaiyyəti tərəfindən daha aydın başa düşülməsinə geniş imkanlar yaradacaqdır. Dövlətimizin başçısı VII Zirvə toplantısında Asiya qitəsindən olan ölkələrin artan fəallığının onların İslam Konfransı Təşkilatında daha geniş təmsil olunması ilə səciyyələndiyini, sonuncu ildə İslam Konfransı Təşkilatının sıralarının 45-dən 52-yə çatmasının deyilənlərə əyani sübut olduğunu toplantı iştirakçılarının diqqətinə çatdırdı. Azərbaycan Prezidenti burada qəbul edilən qərarların bütün islam aləminin, xüsusən Asiya qitəsinin müsəlman ölkələrinin qarşısında duran problemlərin həllinə sanballı töhfə olacağını, Asiya qitəsinin müstəqilliyini yenidən qazanmış bir sıra müsəlman ölkələrinin, o cümlədən Azərbaycanın İslam Konfransı Təşkilatının diqqət və qayğısına böyük ehtiyac duyduğunu söylədi. Bu ölkələrin həm keçmişdən miras qalmış ağır problemlərlə, həm də möhkəmlənməkdə olan müstəqilliklərinin doğurduğu təbii çətinliklərlə üzləşdiklərini, dərinləşməkdə olan iqtisadi böhranların, ictimai-siyasi sistemin dəyişməsi ilə bağlı keçid dövrünün yaratdığı çətinliklərin, bəzi dövlətlərin məruz qaldığı müharibələrin, iqtisadi blokada və müxtəlif siyasi təzyiqlərin də vəziyyətə təsir göstərdiyini bəyan etdi.

Azərbaycan Prezidenti Tacikistanda və Əfqanıstanda qardaş qanının axıdılması, Kəşmir və Fələstin problemləri, Ermənistanın Azərbaycana qarşı altı ildən bəri davam edən təcavüzü və onlarca digər problemlərin bu gün çox ciddi narahatlıqlar doğurduğunu, Asiya qitəsinin bütün ağır problemlərinin konfransda qaldırılmasını təqdir etdi, həm də onların həlli ilə bağlı nikbinliyin artmasını vurğuladı. Prezidentimiz bu problemlərin həllini dost və qardaş müsəlman ölkələrinin iqtisadi və siyasi yardımı ilə xeyli asanlaşa biləcəyini, İslam Konfransı Təşkilatının mövcud gərginliyin aradan qaldırılmasına, müharibə ocaqlarının söndürülməsinə, doğma yurdlarından didərgin düşənlərin el-obasına qayıtmasına kömək edəcəyinə, günahsız insanların qanının axıdılmasına son qoymaq üçün öz nüfuz və səylərini daha da artıracağına ümid etdiyini bildirdi.

Heydər Əliyev iştirakçıların diqqətinə onu da çatdırdı ki, Asiya regionunun müsəlman dövlətləri, o cümlədən Azərbaycan İslam Konfransı Təşkilatının fəaliyyətində, habelə Zirvə toplantısında qəbul edilmiş qərarların ardıcıllıqla

yerinə yetirilməsində öz səylərini durmadan artıracaq, bu təşkilatın nüfuzunun daha da yüksəlməsi üçün əlindən gələni əsirgəməyəcəkdir.

Sonda Azərbaycan Prezidenti İslam Konfransı Təşkilatının VII Zirvə toplantısının uğurla başa çatması münasibətilə üzv dövlətlərin başçılarını bir daha təbrik etdi, onlara və onların xalqlarına, müsəlman bacı və qardaşlarımıza səadət və əmin-amanlıq arzuladı.

Səfər zamanı Azərbaycan Prezidenti İKT rəhbərliyi ilə keçirdiyi səmərəli görüşlərlə bərabər, Azərbaycanla İKT-yə üzv ölkələr arasında olan əlaqələri genişləndirmək və inkişaf etdirmək məqsədilə bir sıra ölkələrin Dövlət və Hökumət Başçıları ilə də ikitərəfli görüşlər keçirmişdir.

Azərbaycan Prezidentinin bu səfəri, orada keçirdiyi görüşlər, apardığı danışıqlar, qazandığı uğurlar öz müsbət nəticələrini verməyə başladı. Bu səfərdən sonra iKT ilə əlaqələrimizdə yeni uğurlar və nailiyyətlər dövrü başlandı.

İKT-yə üzv ölkələrin xarici işlər nazirlərinin 1994-cü ilin dekabr ayında Kasablankada keçirilmiş VII Zirvə toplantısı və XXII konfransı, 1995-ci ilin dekabrında Konakridə keçirilmiş XXIII konfransı, 1996-cı ilin dekabr ayında Cakartada keçirilmiş XXIV konfransı İKT Baş katibinin Ermənistan-Azərbaycan münaqişəsi üzrə məruzəsini müzakirə edərək, Ermənistanın Azərbaycana qarşı təcavüzünü kəskin şəkildə pislədi. Bütün bu konfranslarda qəbul edilən sənədlərdə də erməni silahlı qüvvələrinin işğal edilmiş Azərbaycan torpaqlarından təcili surətdə çıxarılması, Azərbaycan Respublikasının suverenliyinə və ərazi bütövlüyünə hörmət edilməsi tələbi qoyuldu.

Ulu öndər İKT ilə olan əlaqələrimizi daim öz nəzarəti altında saxlamış, onların durmadan inkişafı üçün müvafiq tədbirlər görülməsinə, bu sahədə ardıcıl iş aparılmasına xüsusi diqqət verirdi. 1996-cı il sentyabr ayının 21-də Bakıda keçirilən İslam İnkişaf Bankının Beynəlxalq İnvestisiya Konfransı məhz belə tədbirlərdən idi. Bu konfransın işində də Azərbaycan Prezidenti şəxsən iştirak etmişdir. Konfransda çıxış edən Azərbaycan Prezidenti bildirmişdir ki, İslam İnkişaf Bankının belə böyük tərkibdə, yüksək səviyyədə konfransının Azərbaycanda keçirilməsini yüksək qiymətləndirir və bunu Azərbaycan Respublikası ilə İslam ölkələri, İslam İnkişaf Bankı arasında mövcud olan sıx əlaqələrin təzahürü hesab edir. Prezident Heydər Əliyev əmin olduğunu bildirmişdir ki, İslam İnkişaf Bankının Azərbaycanda ilk dəfə keçirdiyi yüksək səviyyəli, geniş tərkibli mötəbər konfransı bundan sonra həm İslam İnkişaf Bankının bütün müsəlman ölkələrindəki fəaliyyətinə təkan verəcək, həm də İslam İnkişaf Bankı və onun ətrafında olan iş adamları ilə Azərbaycan arasındakı əlaqələri daha da genişləndirəcəkdir.

1997-ci ildə Prezident Heydər Əliyev Tehranda İKT-nin VIII Zirvə toplan-

tısında iştirak etmiş, geniş məruzə ilə çıxış etmiş və çoxsaylı görüşlər keçirmişdir. Prezidentimizin orada söylədiyi nitqi və keçirdiyi görüşləri islam aləmində geniş reaksiyaya səbəb olmuşdur. İKT-nin sabiq Baş katibi İzəddin İraqı dövlət başçılarının Tehran zirvə konfransı günlərində Azərbaycan Prezidenti ilə keçirdiyi görüşdən sonra jurnalistin sualına verdiyi aşağıdakı cavab fikrimizə əyani sübutdur: «Mən fəxr edirəm ki, Azərbaycan Prezidenti Heydər Əliyevlə görüşdüm, onun fikirlərini dinlədim. Fəxr edirəm ki, o, təşkilatımızın işinə yüksək qiymət verdi. Biz təşkilatımızın Azərbaycanla əlaqələrinin daha da sıxlaşması üçün əlimizdən gələni edəcəyik… Mən cənab Prezidenti əmin etdim ki, İKT həmişə Azərbaycanın tərəfində olmuş və bundan sonra da olacaqdır. Mən cənab Prezidenti həmçinin əmin etdim ki, Azərbaycan torpaqlarının işğaldan azad edilməsi bizim dəyişməz mövqeyimizdir. Mən belə hesab edirəm ki, Azərbaycanın İKT ilə sıx əməkdaşlıq etməsi Prezident Heydər Əliyevin böyük zəkaya, ağıla malik olduğuna dəlalət edir».

Beləliklə, Prezident Heydər Əliyevin gərgin zəhməti və yorulmaz fəaliyyəti nəticəsində ilk vaxtlar İKT Baş Katibliyi Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı respublikamızın mövqeyini dəstəkləyən bəyanatlar verdiyi halda, sonrakı mərhələdə İKT konfransları Ermənistan-Azərbaycan münaqişəsi haqqında daha kəsərli qətnamələr qəbul etmişdir. Bu qətnamələrdə Ermənistan-Azərbaycan münaqişəsi birmənalı şəkildə Ermənistan Respublikasının Azərbaycan Respublikasına təcavüzü kimi qiymətləndirilir.

İKT xarici işlər nazirlərinin 1993-cü ildə Kəraçidə keçirilmiş XXI, 1994-cü ildə Kasablankada keçirilmiş XXII, 1995-ci ildə Konakridə keçirilmiş XXIII konfransları Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında münaqişə haqqında qətnamələr qəbul etdi. İKT xarici işlər nazirlərinin 1996-cı ildə Cakartada keçirilmiş XXIV konfransında müvafiq qətnamənin adı dəyişdirilərək, «Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü haqqında» adlandırılmışdır. O vaxtdan etibarən xarici işlər nazirlərinin bütün konfranslarında bu qəbildən olan qətnamələrin adı dəyişilməz qalmışdır. Qeyd etmək lazımdır ki, İKT dövlət və hökumət başçılarının 1997-ci ildə Tehranda keçirilmiş VIII, 2000-ci ildə Dohada keçirilmiş IX və 2003-cü ildə Malayziyanın Putracaya şəhərində keçirilmiş X konfransları eyni adlı qətnamələr qəbul etmişdir. Əvvəlki qətnamələrdən fərqli olaraq, son qətnamələr xeyli təkmilləşdirilmiş, onlara yeni bəndlər əlavə edilmişdir: «İKT bütün dövlətləri təcavüzkarı münaqişəni dərinləşdirməyə təşviq edən və Azərbaycan ərazilərinin işğalını davam etdirməyə imkan yaradan silah və döyüş sursatı təchizatından imtina etməyə çağırır; İKT-yə üzv dövlətləri və dünya birliyinin digər ölkələrini Ermənistanın təcavüzünə və Azərbaycan ərazilərinin işğalına son qoyulması üçün təsirli siyasi və iqtisadi təz-

yiqlərdən istifadəyə dəvət edir; hesab edir ki, Azərbaycan ona dəymiş ziyana görə kompensasiya almaq hüququna malikdir və bu ziyanın tam şəkildə ödənilməsi üçün məsuliyyət Ermənistanın üzərinə düşür; bu məsələ üzrə İKT-yə üzv dövlətlərin mövqeyi barədə ATƏT-in hazırki sədrinə məlumat verməsini İKT Baş katibindən tələb edir» və s.

İKT dövlət və hökumət başçılarının təkcə 2003-cü ilin oktyabr ayında Putracayada keçirilmiş X Zirvə Konfransının qəbul etdiyi qətnamələr Azərbaycan-İKT münasibətlərinin indiki vəziyyətinin əyani göstəricisidir. Konfrans qeyd edilən siyasi qətnamə ilə yanaşı, «Azərbaycan Respublikasına iqtisadi yardım göstərilməsi haqqında» qətnamə qəbul etmişdir. Qətnamədə Ermənistanın Azərbaycan Respublikasının Dağlıq Qarabağ və digər bölgələrinin işğalı, bir milyonadək əhalinin öz yurdundan zorla qovulması ilə müşayiət olunan əməlləri pislənir, ölkənin tarixi üçün belə çətin və böhranlı vaxtda Azərbaycan hökuməti və xalqı ilə tam həmrəylik ifadə olunur, Azərbaycan xalqının əzabəziyyətini yüngülləşdirmək məqsədilə İKT-yə üzv dövlətlərə, islam qurumlarına, eləcə də beynəlxalq təşkilatlara müraciət edilir ki, respublikamıza lazımi iqtisadi, maliyyə və humanitar yardım göstərsinlər.

Konfrans ölkəmizlə bağlı «Ermənistan Respublikasının təcavüzü nəticəsində Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində islam tarixi və mədəniyyəti abidələrinin məhv edilməsi və dağılması haqqında» qətnamə qəbul etmişdir. Geniş və əhatəli preambula və 7 bənddən ibarət bu qətnamə işğal edilmiş torpaqlarımızdakı mədəniyyət və tarixi abidələrimizin müdafiəsinə yönəlmişdir. Konfrans İKT Baş katibinin bu barədə müvafiq hesabatını nəzərdən keçirərək, erməni təcavüzkarlarının Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində islam sivilizasiyasının tam məhvinə yönəldilmiş vəhşi hərəkətlərini ciddi surətdə pisləmiş, BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrinin Ermənistan tərəfindən qeyd-şərtsiz və hökmən yerinə yetirilməsini tələb etmiş, problemlə bağlı İKT-yə üzv dövlətlərin mövqeyi barədə BMT, ATƏT və digər beynəlxalq təşkilatlara məlumat verməsini İKT Baş katibindən xahiş etmişdir.

İKT qətnamələri Azərbaycan üçün təkcə siyasi əhəmiyyət daşımır, respublikamıza müsəlman ölkələri tərəfindən göstərilən humanitar, texniki və başqa yardımın böyük bir hissəsi İKT konfranslarının qəbul etdiyi mühüm sənədlər əsasında həyata keçirilir. İslam İnkişaf Bankı 1994-cü ildən etibarən mütəmadi olaraq qaçqınlarımıza humanitar yardım göstərir, onlar üçün iş yerləri yaradılması məqsədi ilə dəzgah və avadanlığın alınmasına 1 milyon ABŞ dolları vəsait ayırmışdır. Respublikamızın sosial inkişaf layihələrinin texniki-iqtisadi əsaslandırılmasının hazırlanmasına İslam İnkişaf Bankı təmənnasız olaraq

1,424 milyon ABŞ dolları vəsait ayırmışdır. Bankın respublikamıza təqdim etdiyi güzəştli kreditin ümumi məbləği 74 milyon dollardan artıqdır. Səudiyyə Ərəbistanının humanitar müəssisələri, Kral Fəhd adına yardım proqramı, Körfəz ölkələrinin bir sıra humanitar təşkilatlarının və fondlarının yardımı qeyd olunan sənədlər əsasında həyata keçirilir.

Ümummilli liderimiz Heydər Əliyev İKT və onun müxtəlif ölkələrdə yerləşən mərkəzləri ilə ölkəmiz arasında əlaqələr yaradılmasını, ədəbiyyat, mədəniyyət və sənət əsərlərimizin islam dünyasında da öyrənilməsini və yayılmasını həmişə mühüm saymış, bunun üçün bütün tədbirlərin görülməsi barədə müvafiq tapşırıqlar vermişdir. 1997-ci il mayın 8-də İstanbulda olarkən respublikamızın Prezidenti orada yerləşən İKT tarix və mədəniyyət mərkəzini (İRSİCA) də ziyarət etmişdir. O, öz çıxışlarında qeyd etmişdir ki, islam tarixinə aid Azərbaycanda da böyük araşdırmalar aparılır. Bu araşdırmalar islam dünyasında geniş təbliğ edilməlidir. İslam Konfransı Təşkilatının İstanbuldakı bu mərkəzi ilə Azərbaycan Elmlər Akademiyasının, onun Şərqşünaslıq İnstitutunun və respublikamızdakı bir sıra mərkəzlərin əlaqələrinin daha da sıxlaşdırılması vacibdir. Yaradılacaq belə münasibətlər xalqlarımızın və islam tarixinin, mədəniyyətinin öyrənilib daha geniş təbliğ edilməsində mühüm rol oynaya bilər.

Ulu öndər qeyd etmişdir ki, Azərbaycanın görkəmli şəxsiyyətlərinin yaradıcılığı və xalqımızın qədim tarixə malik mədəniyyəti ümumtürk və islam tarixində özünəməxsus yer tutur. Türk və islam tarixləri yenidən işlənib hazırlanarkən orada Azərbaycanın mütəfəkkir şəxsiyyətlərinin həyat və yaradıcılığı da öz layiqli əksini tapmalıdır.

Dövlət başçısı bildirmişdir ki, Azərbaycan mədəniyyətinin, incəsənətinin zəngin tarixi vardır. Bu tarixin öyrənilib yayılmasının əhəmiyyəti böyükdür. Yola salmağa hazırlaşdığımız XX əsrdə Azərbaycan ədəbiyyatında, mədəniyyətində, incəsənətində əldə olunmuş uğurlar isə xüsusilə təqdirəlayiq və cahanşümul nailiyyətlərdir. Görkəmli bəstəkar Üzeyir Hacıbəyov dahi Nizaminin və Füzulinin «Leyli və Məcnun» poemaları əsasında 1908-ci ildə «Leyli və Məcnun» operası yaratdı, Qara Qarayev isə 1960-cı ildə «Leyli və Məcnun» simfonik poemasını bəstələyərək klassik Şərq mövzusunu müasir sənət səviyyəsinə çatdırdı. Əlbəttə, xalqımızın içərisindən çıxmış belə dahi şəxsiyyətlərin sayı olduqca çoxdur və onların hər birinin yaradıcılığı haqqında saatlarla, günlərlə söhbət açmaq olar. Onlar həm də islam dünyasının böyük şəxsiyyətləri olduqlarına görə bu adamların yaradıcılığının islam aləmində və türk, ərəb dünyasında geniş öyrənilib yayılması olduqca vacibdir. Sözünün sonunda Azərbaycan Prezidenti vurğulamışdır ki, bununla bağlı olaraq İslam Konfransı Təşkilatının mərkəzi ilə Azərbaycanın əlaqələrinin

daha da sıxlaşdırılması üçün birgə tədbirlər hazırlanmasının və keçirilməsinin təşkilinə diqqəti artırmaq vacibdir.

Məhz ümummilli liderimizin bu tövsiyələri əsasında AMEA Şərqşünaslıq İnstitutu ilə İRSİCA arasında sıx əlaqə yaranmış və bu gün də bir çox istiqamətləri əhatə edən birgə əməkdaşlıq davam edir, müştərək mövzular işlənilir, qarşılıqlı ezamiyyətlər həyata keçirilir, birgə elmi tədbirlər təşkil edilir.

1997-ci il oktyabr 4-də BMT Baş Məclisinin 52-ci sessiyası çərçivəsində İKT xarici işlər nazirlərinin BMT iqamətgahında keçirilmiş əlaqələndirmə toplantısının yekun bəyanatında islam dünyasının digər problemləri ilə yanaşı, Ermənistan Respublikasının Azərbaycan Respublikasına təcavüzü də öz əksini tapmışdır.

Toplantı Ermənistanın Azərbaycan Respublikasına təcavüzünü pisləmiş və erməni silahlı qüvvələrinin işğal edilmiş bütün Azərbaycan torpaqlarından dərhal, qeyd-şərtsiz və tamamilə çıxarılmasını tələb etmiş, ərazilərin güc tətbiq etməklə işğalının yolverilməzliyini bir daha təsdiq etmişdir. Münaqişənin dövlətlərin ərazi bütövlüyü və beynəlxalq tanınmış sərhədlərin toxunulmazlığına ehtiram prinsipləri əsasında ədalətlə və sülh yolu ilə həll edilməsinə çağırmışdır.

Beləliklə, islam aləmi problemlərimizlə yaxından tanışdır və bizi dönmədən dəstəkləyir. Bu ilk növbədə Prezident Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilmiş düzgün xarici siyasətimizin nəticəsidir. Məlumdur ki, xarici siyasət daxili siyasətdən doğur və onun məntiqi nəticəsidir. Prezident Heydər Əliyevin Şərq siyasətini, o cümlədən, İKT ilə münasibətdə yeritdiyi siyasəti qısaca da olsa nəzərdən keçirəndə, onun etdiyi səfərləri, reallaşdırdığı görüşləri, verdiyi müsahibələri, bağladığı müqavilələri, müəyyənləşdirdiyi istiqamət və prinsipləri təhlil edəndə bir daha bu qənaətə gəlirik ki, böyük öndərimizin apardığı xarici siyasəti də daxili siyasəti kimi daim bir mərama, bir məqsədə, bir amala xidmət edib – müstəqil Azərbaycanı yaşatmaq, onu hərtərəfli inkişaf etdirmək, problemlərimizi həll etmək, xalqımızın dünya xalqları birliyində özünəlayiq yer tutmasına nail olmaq.

«Azərbaycan» qəzeti, 25 aprel 2008-ci il.

HƏMİD ARASLI – 100

ELMİMİZİN BÖYÜK CƏFAKEŞİ

Azərbaycan klassik ədəbiyyatından söhbət düşərkən istər-istəməz ədəbi irsimizi sevən, arayıb-araşdıran, bu mənəvi xəzinənin xalqa çatdırılmasında böyük əmək sərf edən fədakar alimlərimiz yada düşür. Onların içərisində ədəbiyyat elmimizin böyük cəfakeşi, görkəmli filoloq-şərqşünas akademik Həmid Araslının da öz yeri vardır. F.Köçərli, B.Çobanzadə, S.Mümtaz, Ə.Nazim, İ.Hikmət və başqa ədəbiyyatşünas alimlərin başladığı işi uğurla davam etdirən görkəmli alim doğma ədəbiyyatın öyrənilməmiş problemlərini, onun orta əsrlər mərhələsinin bir çox naməlum və ya az tanınan simaları və bədii nümunələri haqqında ilk araşdırıcı sözünü demiş, özünün elmi-nəzəri mülahizələri, üzə çıxardığı yeni materiallar, mənbələrə orijinal yanaşma və özünəməxsus düşüncə tərzi ilə sələflərinin ənənələrini inkişaf etdirərək yeni bir ədəbi məktəbin əsasını qoymuşdur. Onun çoxcəhətli zəngin yaradıcılığı ədəbi bədii fikir tariximizdə yeni mərhələ təşkil edir. Bütün həyatını və yaradıcılıq qüvvəsini klassik ədəbi irsin öyrənilməsinə və təbliğinə həsr edən alim mənalı bir ömür yolu keçmiş, Azərbaycan ədəbiyyatının ayrı-ayrı tarixi mərhələləri və problemlərinə, klassik söz ustalarının həyat və yaradıcılığına dair onlarla monoqrafik tədqiqatın, 500-ə qədər elmi məqalə, 60-dan artıq tərtib və çoxsaylı dərslik və dərs vəsaitlərinin müəllifi olmuşdur. Alimin məsləhəti, redaktəsi, elmi rəyi və xeyir-duası ilə neçə-neçə elmi əsərlər işıq üzü görmüşdür.

H.Araslı eyni zamanda Azərbaycan ədəbiyyatının tədrisi məsələləri ilə də müntəzəm məşqul olmuş, ali və orta məktəblər üçün proqramlar tərtib etmiş, müntəxabat və dərsliklər yazmışdır. Onun 1937-ci ildə orta məktəbin VIII sinifi üçün yazdığı ədəbiyyat dərsliyi müəyyən təkmilləşdirmələrlə hər il nəşr olunaraq ən yaxşı dərslik kimi alimin ömrünün sonuna qədər istifadə olunmuşdur.

Həmid Araslı 1909-cu ildə fevral ayının 23-də Şərqin qədim mədəniyyət mərkəzlərindən olan Gəncə şəhərində dünyaya göz açmışdır. Atası Hacı Məhəmmədtağı Ərəszadə zəmanəsinin mükəmməl təhsilli alim-ruhanilərindən olmuşdur. O, qəzetlərdə çıxış edir, şəriət məsələləri ilə bağlı mülahizələr söylərdi. Onun ərəb dilindən etdiyi bəzi tərcümələri və yazdığı «Vəşrihi-fəraiz» adlı kitab bu günə qədər alimin kitabxanasında saxlanılır.

H.Araslı iki yaşına çatmamış atası vəfat etmişdir. Anası Dürrübəyim xanım savadlı qadın olmuş, oğluna xalq yaradıcılığına qarşı onda məhəbbət yarada bilmişdi.

H.Araslı 1915-ci ildə Gəncənin Şah Abbas məscidi nəzdindəki mədrəsədə təhsil almağa başlayır. Ancaq çox keçmir ki, o anasını da itirir və qohumlarının himayəsində yaşamalı olur.

1922-ci ildə Gəncə Darülmüəllimin seminariyasında təhsilini davam etdirir. 1926-cı ildə seminariyanı bitirib Nəbiağalı kənd məktəbində əvvəlcə müəllim, sonra isə direktor vəzifəsində işləyir. O bu illərdə folklor nümunələrini toplamaqla məşğul olur, tələbələrini də bu işə cəlb edir. 1929-cu ildə Bakıya gəlib Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Dil və Ədəbiyyat fakultəsinə daxil olur. İnstitutu vaxtından əvvəl bitirib 1931-ci ildə Gəncəyə qayıdaraq maarif şöbəsində müdir müavini vəzifəsinə təyin olunur. 1932-ci ildə aspiranturaya daxil olmaq üçün Bakıya gəlir aspiranturada təhsil almaqla yanaşı keçmiş SSRİ EA-nın Azərbaycan filialının nəzdində təşkil olunmuş kitabxananın Şərq şöbəsində müdir işləyir. Həmin illərdə Şərq əlyazmalarını toplayaraq Əlyazmalar Fondunu yaratmaq kimi mühüm bir işə başlayır və tezliklə yaratdığı Fondun direktoru olur.

1935-ci ildən elmi yaradıcılığa başlayır. Bir il sonra (1936) Azərbaycan Yazıçılar İttifaqının üzvü seçilir.

1938-ci ildə Fondda saxlanılan əlyazmaları içərisində sovet ideologiyasına uyğun olmayan nümunələr tapıb onu komsomoldan xaric etməklə cəzalandırır və işdən azad edirlər. 1938-39-cu illərdə Azərnəşrin «Bədii Ədəbiyyat» şöbəsində redaktor vəzifəsinə qəbul olunur. 1938-ci ildə Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsində «Orta əsrlər Azərbaycan ədəbiyyatı tarixi»ndən dərs deməyə dəvət olunur. 1939-cu ildə Nizami adına Azərbaycan Ədəbiyyatı və Dili İnstitutunda «Orta əsrlər ədəbiyyatı», 1957-ci ildə isə «Mətnşünaslıq» şöbələrinə rəhbərlik edir. 1943-cü ildə «XIII-XVI əsrlərdə Azərbaycan ədəbiyyatı» mövzusunda dissertasiya müdafiə edərək filologiya elmləri namizədi elmi adını alır. 1944-cü ildən başlayaraq Azərbaycan Dövlət Universitetində Yaxın Şərq ədəbiyyatı kafedrasının müdiri vəzifəsinə təyin olunur. 1954-cü ildə «XVII-XVIII əsrlər Azərbaycan ədəbiyyatı tarixi» mövzusunda doktorluq dissertasiyası müdafiə edib filologiya elmləri doktoru elmi dərəcəsini alır. Bir il sonra professor adı verilir.

H.Araslı 1958-ci ildə Azərbaycan EA-nın müxbir üzvü, 1968-ci ildə həqiqi üzvü seçilir. 1968-ci ildə Özbəkistanın, 1979-cu ildə Azərbaycanın əməkdar elm xadimi adına layiq görülür.

H.Araslı XX əsr Azərbaycanın elmi və ədəbi-ictimai həyatında aparıcı mövqeyə malik şəxsiyyətlərdən biri idi. Şərq xalqlarının ədəbi-bədii fikir tarixinə, qədim türk, fars, ərəb dillərinə yaxşı bələd olan, ümumşərq mədəniyyəti ilə yaxından tanış olan alim tədqiqatlarında olduğu kimi dərsliklərində də klassik şerimizin incəliklərinin elmi-nəzəri şərhinə xüsusi diqqət yetirmiş, nəsilləri milli türkçülük ruhunda tərbiyələndirmək, soy-kökümüzlə bağlı məsələləri doğru-düzgün şərh etmək üçün əlindən gələni əsirgəməmişdir.

Alimin yaradıcılığının mühüm bir hissəsi repressiyanın baş alıb getdiyi ağır

illərə təsadüf edir. Dəfələrlə haqsız tənqidlərə, xüsusilə də «Kitabi – Dədə Qorqud»un nəşri ilə bağlı təzyiq və hücumlara məruz qalır. Ancaq prinsipiallıq göstərərək yad təsirlərə uymayaraq, öz mövqeyini sona qədər qətiyyətlə müdafiə etdi. «Kitabi – Dədə Qorqud»la bağlı deyilənlərin müqabilində susdu, nə öz «günahını» boynuna aldı, nə də abidə ilə bağlı deyilən sözlərlə razılaşdığını dilinə gətirdi. «Dədə Qorqud» eposu ilə yanaşı, Xaqani, Xətai, Hadi, Səməd Vurğun yaradıcılıqlarının yanlış mövqedən qiymətləndirildiyi zamanlarda da öz mövqeyini dəyişmədi.

H.Araslı ədəbiyyatımızla bağlı təkcə keçmiş sovet məkanında deyil, dünya miqyasında aparılan tədqiqatları diqqətlə izləyir, ədəbiyyatımızın, mədəniyyətimizin qədimliyinə xələl gətirən mülahizələrə həssaslıqla yanaşır, Azərbaycan ədəbiyyatı və onun nümayəndələri haqqında söylənilən haqsız fikirləri, qərəzli mülahizələrə qarşı çıxır, həqiqəti axıra qədər müdafiə edərdi. Ədəbiyyat tariximizin sistemləşdirilərək elmi istiqamətdə öyrənilməsində H.Araslının müstəsna xidməti olmuşdur. 1943-44-cü illərdə nəşr olunmuş iki cildin «Müxtəsər Azərbaycan ədəbiyyatı» tarixinin ilk cildində ədəbiyyatımızın ən qədim dövrlərindən başlayaraq XVII əsrə qədərki inkişaf mərhələlərinin ədəbi-mədəni mənzərəsini yaratmış, bu əsrlərdə yaşayan sənətkarlarımızın bilavasitə öz irsinə istinadən onların dolğun portretlərini yaratmışdır.

Onun ədəbiyyat tariximizlə bağlı tarixi xidmətlərindən biri də 1960-cı ildə nəşr olunan üç cildlik «Azərbaycan ədəbiyyatı tarixi»dir.

Anadilli ədəbiyyatımızın təşəkkülündə mühüm rol oynamış Qazi Bürhanəddin, Nəsimi, Kişvəri, Xətai, Füzuli kimi sənətkarların da ədəbiyyat tariximizdəki yerini müəyyənləşdirərək, onların bədii-ictimai fikir tariximizə təsirini aydınlaşdırır. Şairlərimizdən İ.Həsənoğlu, Q.Bürhanəddin, İ.Nəsimi, Ş.İ.Xətai, Kişvəri, Həbibi, Füzuli, Qövsi, Saib, Məsihi, Fədai, Vidadi, Vaqif və başqaları haqqında ilkin mötəbər tədqiqat, dəyərli elmi-nəzəri ümumiləşdirmələr də akad. H.Araslıya məxsusdur.

H.Araslının klassik irsin öyrənilməsi ilə bağlı fəaliyyətinin mühüm bir hissəsi Nizami və Füzuli yaradıcılığının tədqiqi istiqamətində olmuşdur. O hələ keçən əsrin 30-cu illərinin axırlarından başlayaraq Nizaminin həyat və yaradıcılığının müxtəlif problemləri ilə bağlı araşdırmalar aparmış, əsərlərinin tərcümə və nəşr olunub geniş oxucu kütləsinə çatdırılması istiqamətində görülən işlərdə fəal iştirak etmişdir. Şairin əsərlərində işlənən çoxsaylı türk sözlərini, türk təfəkküründə xas, türk məişətindən gələn danışıq ifadələrini, xalq deyim və məsəllərini üzə çıxarmışdır. Alim Nizami sənətinin XII əsr Azərbaycanında təsadüfi hadisə olmadığına, şairi ictimai-mədəni yüksəlişlə səciyyələnən əlamətdar bir dövr, mərhələnin yetirdiyini söyləyir.

H.Araslı Nizaminin Qumdan olması haqqındakı əfsanəni alt-üst etmişdir. O, Məhəmməd Füzulinin də ardıcıl tədqiqatçısı və Azərbaycandan uzaqlarda da tanınan naşiri olmuşdur. Onun şairin həyat və yaradıcılığının müxtəlif problemlərinə həsr etdiyi 20-dən artıq məqaləsi və çoxillik araşdırmalarının yekunu olan rus və Azərbaycan dillərində nəşr olunan «Böyük Azərbaycan şairi Füzuli» monoqrafiyası vardır.

H.Araslı tərəfindən nəşr olunan beş cildlik tənqidi mətni füzulişünaslığın inkişafında mühüm əhəmiyyət daşımışdır, dünya füzulişünas alimlərinin bu gün də müraciət etdikləri mötəbər mənbədir.

H.Araslı Nəsiminin də ilk araşdırıcılarından sayılır, «Fədakar şair» oçerki, elmi məqalələr və Nəsimi əsərlərinin nəşrlərinə məzmunlu müqəddimələr yazmışdır. Nəsiminin 600 illik yubileyi ərəfəsində nəşr olunan – «İmadəddin Nəsimi» kitabçasında mütəfəkkir şairin əzəmətli obrazını yaradan müəllif şairin həyatının bəzi qaranlıq məqamlarına aydınlıq gətirmiş, Nəsimi şerinin dil və poetik ifadə gözəlliklərindən söz açmışdır.

H.Araslı bir mətnşünas alim kimi də çox məhsuldar olmuşdur. Onun bu sahədəki fəaliyyəti mətnşünaslıq elmimizdə ayrıca bir mərhələ təşkil edir. Alim müxtəlif illərdə Məhsəti, Nəsimi, Xətai, Füzuli, Saib, Qövsi, Vidadi, Vaqif və başqa görkəmli şairlərin əsərlərini dəfələrlə nəşr etmişdir. Bu sahədəki axtarışları, klassik irslə yaxından tanışlığı, əlyazmalarla işləmək səriştəsi sayəsində mətnlər üzərində təshihlər aparır, sözlük və şərhlərə yenidən nəzər salır. Bunun nəticəsidir ki, onun tərtib etdiyi mətnlər tədqiqatçılar tərəfindən daha mötəbər sayılır. H.Araslı 1939-cu ildə «Kitabi – Dədə Qorqud»u nəşr etdirməklə ədəbiyyatımıza, mədəniyyətimizə, eləcə də bütün türkologiya elminə böyük xidmət göstərmişdir. Alim əsərin nəşri ilə yanaşı onun tədqiqi və təhlili ilə də ciddi məşğul olmuşdur. O, Türk xalqlarının müştərək eposu olan «Kitabi – Dədəm Qorduq»da dil, üslub, hadisələrin cərəyan etdiyi məkan etibarilə Azərbaycanla bağlılığını konkret dəlillərlə əsaslandırmış, dastanda çətin anlaşılan müasir dilimizdən çıxmış bir çox kəlmələrin folklor və klassik şairlərimizin əsərlərində işlənməsini gətirdiyi bədii nümunələrlə təsdiq edərək, abidənin dilinin Azərbaycan dilinə yaxınlığını göstərmişdir. Böyük əmək sərf etdiyi bu abidə ilə bağlı axtarışlarını sonralar da davam etdirərək 1962 və 1978-ci illər nəşrlərində bəzi təshihlərlə daha da təkmilləşdirmişdir.

H.Araslının 1956-cı ildə nəşr edilmiş «XVII-XVIII əsrlərdə Azərbaycan ədəbiyyatı tarixi» əsəri də ədəbiyyatşünaslığımızın nailiyyətlərindən biri kimi dəyərləndirilir. Alim bu əsərində ədəbiyyatımızın az öyrənilmiş və bu səbəbdən də doğru səciyyələndirilməyib tənəzzül mərhələsi kimi anlaşılan bu yüzillikləri ilkin mənbələr əsasında araşdıraraq, onun əsas qiymətini müəyyənləşdirdi. O,

ilk dəfə üzə çıxardığı cung, təzkirə və ayrı-ayrı əlyazmalara istinad etməklə dövrün ədəbi-mədəni mənzərəsini ətraflı işıqlandırmış, qaranlıq olan bəzi məsələlərə aydınlıq gətirmiş, oxuculara məlum olmayan və ya az tanınan ədəbi simalar – Əmani, Fədai, Kişrəvi, Saib, Qövsi, Tərzi, Əfşar, Nişat Şirvani, Məhcur Şirvani haqqında ətraflı məlumat vermişdir.

H.Araslı müasir Azərbaycan folklorşünaslığını yaradan alimlərdən biri kimi də tanınır. Alim şifahi xalq ədəbiyyatı və folklorumuzun tədqiqi sahəsində də böyük əmək sərf etmişdir. «XVII-XVIII əsr Azərbaycan ədəbiyyatı tarixi» kitabı və «Aşıq yaradıcılığı» əsərlərində Qurbani, Sarı Aşıq, Abbas Tufarqanlı, «Xəstə» Qasım, Aşıq Ələsgər və başqa klassik aşıqların həyat və yaradıcılığı, XVII əsrdə yaranan «Əsli və Kərəm», «Aşıq Qərib», «Şah İsmayıl» və «Koroğlu» eposu haqqında orijinal elmi mülahizələr söyləmişdir.

Alim digər Şərq xalqlarının ədəbi irsinə də geniş maraq göstərmiş Azərbaycan ədəbiyyatı və klassiklərimizlə bağlı olan Şərq şairləri Firdovsi, Cami, Hafiz, xüsusilə böyük özbək şairi Əlişir Nəvai irsini də tədqiq etmiş, orta əsrlər Azərbaycan ədəbiyyatının əlaqələrinə dair ilkin araşdırmaların müəllifi kimi də məşhurlaşmışdır.

H.Araslı elmi-tədqiqat işləri ilə təşkilatçılıq fəaliyyətini özündə birləşdirən elm adamlarından idi. O respublikanın mədəni-ictimai həyatında yaxından iştirak edirdi. Nizami adına Ədəbiyyat muzeyinin yaranmasında onun böyük zəhməti olmuşdur. Həmid müəllim 1940-cı ildən öz elmi-təşkilati fəaliyyətini də muzeylə bağlamış, əvvəlcə elmi katib, sonra elmi işlər üzrə direktor müavini, 1960-68-ci illərdə isə direktor vəzifəsində çalışmışdır.

H.Araslı həyatı boyu yüksək ixtisaslı kadrların hazırlanmasında qayğı və məhəbbətlə çalışmış, təkcə Azərbaycanda deyil, Özbəkistanda, Türkmənistanda və Tatarıstanda aspirant, dissertant və doktorantlara rəhbərlik etmiş, onlarla elmlər doktoru, 50-yə qədər elmlər namizədi yetişdirmişdir.

A.Dadaşzadənin təbiri ilə desək: «Onun çap etdirdiyi, nəşrə hazırladığı, redaktə və tərtib etdiyi əsərlərin sadəcə siyahısı oxucunu heyrətləndirməyə bilməz. Cəsarətlə deməliyik ki, klassik Azərbaycan ədəbiyyatı və folklorunun elə bir əhəmiyyətli sahəsi və siması yoxdur ki, H.Araslı burada öz sözünü deməmiş olsun».

Akademik Həmid Araslının vəfatından artıq 25 il keçir. Lakin onun elm və ədəbiyyat sahəsində gördüyü işlər bu gün də öz əhəmiyyətini saxlayır və zaman keçdikcə onların dəyəri və miqyası yeni nəsillər tərəfindən daha çox anlanılır. Onun əsərlərinə istinad etmədən, xidmətlərini xatırlamadan klassik ədəbiyyatımızdan və folklorumuzdan, bütövlükdə Azərbaycan ədəbiyyatı tarixindən danışmaq mümkün deyil.

«Azərbaycan» qəzeti, 21 dekabr 2008-ci il.

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI AKADEMİK Z.M.BÜNYADOV ADINA ŞƏRQŞÜNASLIQ İNSTİTUTU

Azərbaycan şərqşünaslığı dərin və qədim tarixi köklərə malikdir. Böyük Azərbaycan mütəfəkkirləri və alimləri Bəhmənyar, Xətib Təbrizi, Şəhabəddin Sührəvərdi, Mahmud Şəbüstəri, Nizami Gəncəvi, Məhəmməd ibn Hinduşah Naxçıvani, Hacı Zeynəlabdin Şirvani, A.Bakıxanov, M.F.Axundov, Mirzə Kazım bəy, M.C.Topçubaşov və digərləri öz qiymətli əsərləri ilə Şərq xalqlarının tarix, ədəbiyyat və fəlsəfəsinin inkişafına əvəzsiz töhfələr vermişlər.

1958-ci ildə Azərbaycan SSRİ Nazirlər Sovetinin qərarı ilə EA Şərqşünaslıq İnstitutunun yaradılmasından etibarən Azərbaycan şərqşünaslığının inkişafında keyfiyyətcə yeni dövr başlandı, coğrafi region və əsas tədqiqat istiqamətləri müəyyənləşdi. İnstitutun qarşısında duran başlıca vəzifə Yaxın və Orta Şərq ölkələrinin tarixi, ictimai-siyasi, iqtisadi və mədəni inkişafının qanunauyğunluqlarını və xüsusiyyətlərini tədqiq etmək idi. Eyni zamanda, Azərbaycanın Yaxın və Orta Şərq ölkələri ilə çoxəsrlik mədəni-tarixi əlaqələrini nəzərə alaraq Respublika üçün konkret tətbiqi əhəmiyyəti olan aktual tədqiqatlara da önəm verilirdi.

Yarandığı gündən İnstitut dünya şərqşünaslığının aparıcı elmi mərkəzlərindən birinə çevrildi. İnstitutda uzun müddət fəaliyyət göstərmiş dünya şöhrətli alimlər akademik Əbdülkərim Əlizadə, akademik Əlisöhbət Sumbatzadə, akademik Həmid

Araslı, akademik Ziya Bünyadov, müxbir üzv Böyükağa Hüseynov, professor Aida İmanquliyeva, professor Rüstəm Əliyev, professor Əkrəm Cəfər, professor Rauf Seyidov və digər görkəmli alimlərin elmi əsərləri Azərbaycan şərqşünaslığının şöhrətini istər keçmiş Sovet məkanında, istərsə də beynəlxalq səviyyədə ən yüksək zirvələrə qaldırmışdır.

Müstəqillik dönəmində institutun elmi fəaliyyət dairəsi daha da genişlənmiş, bir sıra yeni istiqamətlər müəyyənləşdirilmişdir. Hazırda İnstitutda elmi tədqiqat işləri əsasən aşağıdakı istiqamətlərdə aparılır:

- Şərq ölkələrinin ictimai-siyasi, iqtisadi, mədəni inkişafının qanunauyğunluqlarının öyrənilməsi;
- Şərq xalqlarının tarixi, filoloji, dini-fəlsəfi irsinin araşdırılması; yazılı abidələrin tədqiq, tərcümə və nəşr edilməsi;
- Şərq-Qərb sivilizasiyalararası münasibətlərinin araşdırılması;
- Azərbaycan və Şərq xalqlarının tarixi-mədəni əlaqələrinin tədqiqi;
- Müstəqil Azərbaycan Respublikası ilə Şərq ölkələri arasında siyasi, iqti-

sadi, diplomatik və mədəni münasibətlərin araşdırılması və onlara dair proqnoz və tövsiyələrin hazırlanması.

İnstitutun ilk direktoru, görkəmli mənbəşünas və mətnşünas alim, akademik Ə.Əlizadə (1958-1963) olmuşdur. Sonralar instituta akademik S.Sumbatzadə (1963-1970), akademik H.M.Araslı (1970-1981), akademik M.Bünyadov (1981-1991, 1992-1997), professor A.N.İmanquliyeva (1991-1992) kimi dünya şöhrətli alimlər başçılıq etmişlər. Hal-hazırda İnstitutun direktoru professor G.B.Baxşəliyevadır.

Ötən müddət ərzində İnstitutda 500-dən artıq monoqrafiya və kitab nəşr edilmişdir. Akad. Ə.Əlizadənin nəşr etdirdiyi Rəşidəddinin «Cami ət-təvarix» və Naxçıvaninin «Dəstur əl-katib» əsərləri, akad. Z.Bünyadovun «Azərbaycan Atabəyləri dövləti», prof. A.İmanquliyevanın «Ərəb ədəbiyyatının dühaları», prof. R.Əliyevin hazırladığı Nizami Gəncəvi «Xəmsə»sinin filoloji tərcüməsi və tədqiqi və digər əsərlər dünya şərqşünaslıq elminin qızıl fonduna daxildir. İnstitut əməkdaşlarının çap etdirdiyi bir sıra kitab və minlərlə elmi məqalənin böyük hissəsi xarici ölkələrin, o cümlədən Almaniya, Amerika Birləşmiş Ştatları, Kanada, İtaliya, Avstriya, Fransa, İngiltərə, Rusiya, Türkiyə, Misir, İran, İsrail, Çin, Yaponiya, Malayziya və digər ölkələrin nüfuzlu elmi jurnal və məcmuələrində işıq üzü görmüşdür.

1998-ci ildə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin fərmanı ilə Şərqşünaslıq İnstitutuna akademik Z.M.Bünyadovun adı verilmişdir.

Hazırda institutda 10 şöbə və bir elmi qrup fəaliyyət göstərir: İran tarixi və iqtisadiyyatı, Türkiyə tarixi və iqtisadiyyatı, Ərəb ölkələrinin tarixi və iqtisadiyyatı, Türk filologiyası, İran filologiyası, Ərəb filologiyası, Mənbəşünaslıq və yazdı abidələrin tədqiqi və nəşri, Din və ictimai fikir tarixi, Şərq-Qərb qarşılıqlı münasibətləri, Cənubi Azərbaycan şöbələri və Mərkəzi Asiya və Uzaq Şərq ölkələri elmi qrupu.

İnstitut YUNESKO-nun Mərkəzi Asiya Beynəlxalq Tədqiqatları İnstitutunun regional təmsilçisidir.

İnstitut əməkdaşları Azərbaycan şərqşünaslığını bir çox beynəlxalq elmi konqres, konfrans və simpoziumlarda təmsil etmişlər.

İnstitutda dövrü olaraq «Elmi araşdırmalar», «Şərq filologiyası məsələləri», «Orta əsrlər Şərq tarixi» adlı elmi məcmuələr nəşr olunur.

Bu gün AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu müstəqil Azərbaycanın milli və dövlətçilik maraqlarına xidmət edən mühüm elmi-tədqiqat mərkəzi kimi dövrün tələbləri ilə ayaqlaşaraq yeni inkişaf mərhələsinə qədəm qoyub.

2008-ci il.

ÖLÜMSÜZLÜYƏ QOVUŞAN ÖMÜR

Azərbaycan xalqının milli mənafelərini qorumaq nöqteyi-nəzərindən və tarixi həqiqəti bugünkü nəsillərə, dünya tarixinə çatdırmaq baxımından Ziya Bünyadovun əsərləri əvəzsizdir.

Heydər Əliyev

Sovet İttifaqı Qəhrəmanı, Dövlət mükafatı laureatı, Azərbaycan şərqşünaslıq və tarix elminin korifeyi akademik Ziya Musa oğlu Bünyadovun həyat və yaradıcılığı parlaq bir ömrün güzgüsü olaraq zəngin yaradıcılıq və qəhrəmanlıq yolunu əks etdirir.

O, öz fundamental tədqiqatları ilə Azərbaycan şərqşünaslıq məktəbinin şöhrətini ölkənin hüdudlarından çox-çox uzaqlara yayaraq orta əsrlər Şərqi və Ərəb xilafəti, Azərbaycan, Qafqaz və Orta Asiya tarixi üzrə görkəmli mütəxəssis kimi dünyada tanınmış, geniş oxucu kütlələrinin rəğbətini və məhəbbətini qazanmışdır.

Ziya Musa oğlu Bünyadov 21 dekabr 1923-cü ildə Astara şəhərində hərbi tərcüməçi ailəsində anadan olmuşdur. O, on altı yaşında ikən Göyçay şəhərində orta məktəbi bitirmiş və Bakı Hərbi Piyadalar Məktəbinə daxil olmaq üçün yaşını iki il artırmışdır.

Hərbi məktəbi bitirdikdən sonra (1941) leytenant Z.M.Bünyadov Böyük Vətən müharibəsi cəbhələrində vuruşmuş, Ukrayna, Moldova, Qafqaz, Belorus, Polşa və Berlin şəhəri uğrunda döyüşlərdə fəal iştirak etmişdir. İki dəfə yaralanmış və kontuziya almışdır. Hərbi tapşırığı yerinə yetirərkən göstərdiyi şücaətə, qəhrəmanlıq və igidliyə görə 27 fevral 1945-ci ildə Z.M.Bünyadova Sovet İttifaqı Qəhrəmanı adı verilmişdir.

Sonra bir il Berlin şəhərinin Pankov rayonunun komendant köməkçisi olan gənc zabit Z.Bünyadov şəhərin təsərrüfat və mədəni həyatının bərpa edilməsində fəal iştirak etmişdir. Keçmiş ADR hökuməti Ziya Bünyadovun xidmətini yüksək qiymətləndirərək onu «Vaffenbrudersaft», «Artur Bekker» qızıl medalları ilə fəxri çekist adı ilə təltif etmişdir.

1946-cı ildə Sovet Ordusu sıralarından tərxis olunduqdan sonra Z.M.Bünyadov N.Nərimanov adına Moskva Şərqşünaslıq İnstitutuna, 1950-ci ildə isə həmin institutun aspiranturasına daxil olmuşdur. Tələbəlik illərində görkəmli Sovet ərəbşünası prof. Y.A.Belyayev onun müəllimi olmuşdur. Böyük şərqşünasla yaxınlıq Ziya Bünyadovun sonrakı fəaliyyətində, onun ərəbşünas və mediyevist kimi formalaşmasında həlledici rol oynamışdır. 1954-

cü ildə Y.A.Belyayevin rəhbərlik etdiyi kafedrada Z.M.Bünyadov ilk tədqiqat işi olan «Afrikada İtaliya imperializmi» adlı namizədlik dissertasiyasını müvəffəqqiyyətlə başa çatdıraraq uğurla müdafiə etmişdir.

1954-cü ildə Z.M.Bünyadov Bakıya qayıtmış və Azərbaycan EA Tarix İnstitutunda böyük elmi işçi vəzifəsinə qəbul edilmişdir.

Z.M.Bünyadov 1958-1959-cu illərdə Azərbaycan Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinin müəllimi olmuşdur. 1964-1981-ci illərdə Z.M.Bünyadov Yaxın və Orta Şərq Xalqları İnstitutunun (Şərqşünaslıq İnstitutu o vaxt belə adlanıb – G.B) Şərqin orta əsrlər tarixi şöbəsinə rəhbərlik etmiş, 1981-1986-cı illərdə Azərbaycan EA Şərqşünaslıq İnstitutunun direktoru vəzifəsində işləmişdir.

Ziya Bünyadovun elmi yaradıcılığı iki istiqamətdə inkişaf etmişdir: Yaxın və Orta Şərq ölkələrinin feodalizm dövrü tarixinin tədqiqi və Yaxın və Orta Şərq xalqlarının tarixinə, elm və mədəniyyətinə dair orta əsr müəlliflərin əsərlərinin araşdırılması, izahlı tərcüməsi və nəşri.

1964-cü ildə Z.M.Bünyadov tarix elmləri doktoru alimlik dərəcəsi almaq üçün «Azərbaycan VII-IX əsrlərdə» mövzusunda dissertasiya müdafiə etmişdir. 1965-ci ildə Ali Attestasiya Komissiyası ona professor adı vermişdir.

1965-ci ildə çap olunan «Azərbaycan VII-IX əsrlərdə» kitabı Z.M.Bünyadova Azərbaycanın orta əsrlər tarixi üzrə ciddi tədqiqatçı və mütəxəssis şöhrəti qazandırmışdır. Bu, Azərbaycan tarixinin Ərəb xilafəti dövrünə dair Sovet tarixşünaslığında yazılmış ilk tədqiqat əsəri idi. Burada geniş şəkildə tədqiqata cəlb olunmuş ərəb, fars, türk, erməni, gürcü mənbələrinin, o vaxtadək məlum olmayan və çətin əldə edilən yazılı abidələrin dərin tədqiqi və təhlili sayəsində ərəb işğalı ərəfəsində və xilafət dövründə Azərbaycanın sosial-iqtisadi və siyasi həyatı hərtərəfli təhlil olunmuş, Azərbaycanın orta əsrlər tarixinə dair bir sıra mühüm problemlər ətraflı şəkildə araşdırılaraq öz həllini tapmışdır. Əsərdə xilafətə qarşı xalq kütlələrinin mübarizəsinə xüsusi yer verilmiş, Babəkin başçılıq etdiyi xürrəmilər hərəkatı geniş şəkildə işıqlandırılmışdır.

1967-ci ildə Z.M.Bünyadov Azərbaycan Elmlər Akademiyasının müxbir üzvü seçilmiş, 1970-ci ildə «Azərbaycan SSRİ Elmlər Akademiyasının xəbərləri. İctimai elmlər seriyası (tarix, fəlsəfə və hüquq seriyası)» jurnalının baş redaktoru təyin olunmuşdur.

1978-ci ildə Z.M.Bünyadov «Azərbaycan Atabəylər dövləti (1136-1225-ci illər)» adlı monoqrafiyasını nəşr etdirmişdir. Alimin çoxillik əməyinin məhsulu olan bu sanballı tədqiqat işində səlcuq dövründə Azərbaycanın iqtisadi, sosial və mədəni inkişafı araşdırılmışdır. Kitabda Azərbaycanın o dövrdəki siyasi tarixi məsələləri ilə yanaşı XII əsrin ikinci yarısı – XIII əsrin birinci rübündə Or-

ta Şərqin feodal sülalələrinə mənsub hökmdarların qurduğu dövlətlərin, o cümlədən, Azərbaycan Eldəniz Atabəyləri dövlətinin dövrün siyasi və mədəni həyatında mühüm rol oynadığı göstərilmişdir. Əsərdə həmçinin o dövrdə Qafqazda siyasi şəraiti xarakterizə edən bir çox qiymətli və ilk dəfə elmi dövriyyəyə daxil edilmiş materiallar yerləşdirilmişdir. Z.M.Bünyadov öz monoqrafiyasında Azərbaycanın və qonşu ölkələrin orta əsr tarixinə dair bir sıra problemlərin gələcək həlli, kifayət qədər öyrənilməmiş məsələlərin tədqiqi üçün böyük əhəmiyyət kəsb edən əsaslı elmi nəticələr əldə etmiş, bununla da feodalizm dövrü tarixinin başlıca problemlərinin, Şərqdə feodalizmin inkişafının ümumi qanunauyğunluqları və fərdi xüsusiyyətləri kimi mühüm nəzəri məsələlərin həllinə böyük töhfə vermişdir.

Görkəmli alimin «Azərbaycan Atabəylər dövləti» əsəri ölkəmizin və qonşu ölkələrin tarixinin çox az öyrənilən dövrünün araşdırılmasında mühüm mərhələ olduğuna görə elmi ictimaiyyət tərəfindən layiqincə qiymətləndirilmişdir. Əsər 1980-ci ildə elm və texnika sahəsində Azərbaycan Dövlət mükafatına layiq görülmüşdür.

1982-ci ildə Z.M.Bünyadov Azərbaycan SSRİ Əməkdar elm xadimi fəxri adına layiq görülmüşdür. Elə həmin ildə türk xalqları tarixinin öyrənilməsində böyük xidmətlərinə görə Türk Tarix Qurumunun müxbir üzvü seçilmişdir.

1986-cı ilin yanvarından 1988-ci ilin mayınadək Z.M.Bünyadov Azərbaycan SSRİ Şərqşünaslıq İnstitutunun Şərqin orta əsrlər tarixi şöbəsinin müdiri vəzifəsində işləmişdir.

1986-cı ildə Moskvada «Nauka» nəşriyyatı tərəfindən alimin «Xarəzmşahlar-Anuştəginlər dövləti 1097-1231-ci illər» adlı monoqrafiyası nəşr edilmişdir.

1988-ci ilin mayında Z.M.Bünyadov Aral dənizinin xilas etmə komitəsinin tərkibinə daxil edilmişdir. Həmin ildə Urgənc (Xarəzm) şəhərinin 340 illiyinin bayram edilməsi ilə əlaqədar olaraq şəhərin tarixi və ədəbiyyatının öyrənilməsi sahəsində xidmətlərinə və Aral dənizinin ekoloji probleminin həll edilməsinə böyük kömək göstərdiyinə görə Z.M.Bünyadova yeni təsis olunmuş «Urgənc şəhərinin fəxri vətəndaşı» adı verilmişdir.

Ziya Bünyadov 1988-ci ilin mayında 1990-cı ilədək Azərbaycan SSRİ EA Şərqşünaslıq İnstitutunun direktoru olmuşdur. 1988-ci ilin oktyabrında türk xalqları tarixinin öyrənilməsində xidmətlərinə görə Türk Tarix Qurumunun fəxri üzvü, 1990-cı ilin iyununda isə Azərbaycan Elmlər Akademiyasının vitse-prezidenti seçilmişdir. 1992-ci ilin oktyabrından ömrünün sonuna qədər yenidən Şərqşünaslıq İnstitutuna rəhbərlik etmişdir.

Müxtəlif illərdə akademik çeşidli Şərq mənbələrinin şərhli tərcümələrini nəşr etdirmişdir: Mxitar Qoş. Alban salnaməsi. B., 1960; Abidələrin xülasəsi

və qüdrətli hökmdarların möcüzələri. Ərəb dilindən şərhli tərcümə. M., «Nauka», 1971 (rus d.). 1992-ci ildə Azərbaycan dilində nəşr edilib; Şihabəddin Məhəmməd ən-Nəsəvi. Sirat əs-sultan Cəlal əd-Din Mankburnı. Ərəb dilindən şərhli tərcümə. Bakı, «Elm», 1973. Kitab 1996-cı ildə «Lukoyl» neft şirkətinin sponsorluğu ilə yenidən nəşr edilib; Sədrəddin Əli əl-Hüseyni. Əxbər əd-daulət əs-səlcukiyyə. Ərəb dilindən şərhli tərcümə. M., «Nauka», 1980; Əbu Məhəmməd Əhməd ibn Ə`sam əl-Kufi. Kitab əl-futuh. VII-XI əsrlər Azərbaycan tarixinə aid iqtibaslar. Ərəb dilindən şərhli tərcümə. Bakı, «Elm», 1981; Əbülqasim əz-Zəhravi. Cərrahiyyə və alətlər haqqında traktat. Ərəb dilindən şərhli tərcümə. M., «Nauka», 1982; Yaqut əl-Həməvi. Mü`cəm əl-buldan. Azərbaycan haqqında məlumatlar. Ərəb dilindən şərhli tərcümə. Həmdullah Qəzvini. Azərbaycan haqqında məlumatlar İngilis dilindən tərcümə. Bakı, «Elm», 1983; Abbasqulu Ağa Bakıxanov. «Gülüstani-İrəm». Müqəddimə, şərhlər və qeydlər. Bakı, «Elm», 1991.

Ziya müəllimin elmi axtarışları təkcə orta əsrlər dövrü ilə məhdudlaşmırdı. Alimi Vətənin yaxın keçmişi də maraqlandırırdı. O, əsrin əvvəlində Azərbaycanda baş verən hadisələr, ADR-in fəaliyyəti, Bakı kommunası və sair mövzulara bir sıra məqalələr həsr edib. 30-cu illərin repressiyaları isə alimin «Qırmızı terror» adlı kitabında (Bakı, 1993) işıqlandırılıb. Kitab bilavasitə çoxsaylı arxiv sənədləri əsasında yazılıb.

Ötən əsrin 90-cı illərin əvvəllərindən başlayaraq Ziya müəllimin elmi fəaliyyətinin bir istiqaməti də xalq tərəfindən islam dininin doğru-dürüst öyrənilməsinə yönəlmişdir. Alim professor V.Məmmədəliyevlə birgə müqəddəs «Qurani-Kərim»i dilimizə çevirir, ona şərhlər yazır. Sonra «Dinlər, təriqətlər, məzhəblər» adlı irihəcmli soraq kitabı hazırlayır. «İndi xalq öz dininə qayıdır, lakin dininə, imanına qayıtması üçün nə dərsliklər, nə elmi ədəbiyyat, nə soraq kitabçaları, nə də başqa vəsait vardır», - yazan müəllif yaranmış boşluğu bu kitabla aradan götürməyə çalışır. Kitab alimin vəfatından sonra 1997-ci ildə ümummilli liderimiz Heydər Əliyevin şəxsi təşəbbüsü və qayğısı sayəsində işıq üzü görmüşdür.

Alim 1990-cı ildə «Qurani-Kərim»in tərcüməsinə görə H.Z.Tağıyev adına mükafata, 1993-cü ildə A.A.Bakıxanovun «Gülüstani-İrəm» əsərinin şərhli nəşrinə görə A.A.Bakıxanov adına mükafata layiq görülmüşdür.

Bir çox beynəlxalq elmi məclislərin iştirakçısı olan akademik Z.Bünyadov Azərbaycan elmini ləyaqətlə təmsil edib. Türk Tarix Qurumunun VI-XII konqreslərində, Bağdadda tarixçilərin Beynəlxalq konqresində, Tokioda şərqşünasların XXXI Beynəlxalq konqresində, İranda Təbərinin 1100 illiyinə, Füzulinin 500 illiyinə həsr olunmuş beynəlxalq konfranslarda, Misirdə məşhur

tarixçi əs-Süyutinin yubileyinə həsr olunmuş Beynəlxalq konfransda iştirak edərək sanballı məruzələrlə çıxış etmişdi.

İnstitut direktoru kimi Ziya müəllim böyük elmi-təşkilati iş aparırdı. O, Azərbaycan şərqşünaslıq elminin tərəqqisi, institutumuzun keçmiş İttifaqın digər şərqşünaslıq institutları və xarici ölkələrin şərqşünaslıq mərkəzləri ilə elmi əlaqələrinin möhkəmlənməsi və genişlənməsi üçün qüvvə və bacarığını əsirgəmirdi.

Akademik Z.M.Bünyadov Şərqşünaslıq İnstitutunun rəhbəri kimi Yaxın və Orta Şərq ölkələri probleminə həsr olunmuş bir sıra Beynəlxalq və regional elmi konfransların təşkilatçısı olmuşdur: «Şərqşünasların II Ümumittifaq konfransı» (1983), «İslamın aktual problemləri» (1985, 1987, 1992), «Fars körfəzi problemi» (1988), «Zaqafqaziyanın gənc şərqşünaslarının I konfransı» (1989), «Atatürkün anadan olmasının 100 illiyinə həsr olunmuş Beynəlxalq konfrans» və s. O, ömrünün sonunadək «Vətən tarixi», «Ümumi tarix» və «Din tarixi və nəzəriyyəsi» ixtisasları üzrə birləşmiş müdafiə şurasına sədrlik etmişdir.

1992-ci ildə, Azərbaycanın ən çətin dövründə Z.M.Bünyadov özünün siyasi seçimini edir. Onu Yeni Azərbaycan partiyasına sədr müavini seçirlər.

1993-cü ildə «Astaranın fəxri vətəndaşı», 1994-cü ildə isə «Göyçayın fəxri vətəndaşı» adına layiq görülmüşdür.

12 noyabr 1995-ci ildə Z.M.Bünyadov Milli Məclisin deputatı seçilir.

Akademik Z.M.Bünyadovun Vətən qarşısında xidmətləri dövlət rəhbərliyi tərəfindən həmişə yüksək qiymətləndirilmişdir: o, SSRİ-nin bir sıra orden və medalları, Oktyabr inqilabı ordeni ilə təltif edilmişdir. 1983-cü ildə ona elmin inkişaf etdirilməsində əldə etdiyi nailiyyətlərə görə SSRİ XTNS-in gümüş medalı, 1985-ci ildə isə faşist Almaniyası üzərində Böyük Vətən müharibəsinin 40 illik qələbəsi münasibətilə I dərəcəli Vətən Müharibəsi ordeni verilmişdir.

21 fevral 1997-ci ildə Sovet İttifaqı qəhrəmanı, Milli Məclisin deputatı, akademik Ziya Musa oğlu Bünyadovun həyatına faciəli şəkildə son qoyuldu. O, öz evinin astanasında vəhşicəsinə qətlə yetirildi.

Həmin mənfur gündən bizləri on bir ilə yaxın zaman kəsiyi ayırır. Bu vaxt ərzində Ziya müəllimin elmi irsi, həyatı və işıqlı şəxsiyyəti haqda bir çox fikirlər söylənilib, məqalələr yazılıb. Onların hamısının fövqündə, əlbəttə ki, akademik Z.M.Bünyadovla vida mərasimində ulu öndərimiz Heydər Əliyevin söylədiyi nitq durur: «Ermənistanın millətçi və separatçı qüvvələri tərəfindən Qafqaz tarixinə aid, o cümlədən Ermənistan-Azərbaycan tarixinə aid cürbəcür və tariximizi təhrif edən, saxtalaşdıran, Ermənistanda meydana çıxmış müxtəlif yazıların, məqalələrin əleyhinə ilk dəfə səsini qaldıran və onlara əsaslı, dəlilli və tarixi mənbələrə istinadla cavab verən, onların qarşısını alan alim Ziya Bün-

yadov idi.

O vaxtlar Sovet İttifaqı mətbuatında, Ermənistan mətbuatında, onların kitablarında, elmi yazılarında, Azərbaycan və Moskva mətbuatındakı məqalələrdə gedən mübahisələr çoxlarının yadındadır. Hər tərəfdən dəstə ilə alimlər, yaxud da alim adı daşıyan cürbəcür adamlar Azərbaycan tarixinə o vaxtlar təcavüz edirdilərsə, bu tərəfdən Ziya Bünyadov, yenə də deyirəm, öz iradəsi, biliyi ilə, elmi əsərləri ilə onlara layiqli cavab verirdi və Azərbaycan tarixinin doğru-düzgün olduğunu dünyaya sübut edirdi və onu qoruyurdu.

Buna görə də erməni millətçiləri, erməni separatçıları və ümumiyyətlə, Azərbaycana mənfi münasibət göstərən cürbəcür xarici qüvvələr Ziya Bünyadovu özlərinə düşmən kimi qəbul edirdilər.

...Xatirimdədir, 60-cı illərin ikinci yarısında Azərbaycanın 150 il öncə Rusiyaya könüllü surətdə qəbul olunması haqqında elmi mübahisələr gedirdi. Məlumdur ki, 1964-cü ildə qərar qəbul edilmişdi ki, 150 il öncə Azərbaycan könüllü surətdə Rusiyanın tərkibinə daxil olmuşdu.

Amma Ziya Bünyadov bir alim kimi heç nədən qorxmayaraq, heç kəsdən çəkinməyərək öz elmi fikirlərini söyləyirdi. Xatirimdədir, 67-68-ci illərdə Ziya Bünyadov bu barədə artıq bir neçə dəfə açıq bildirmişdi ki, doğrudur, Azərbaycan Rusiyanın tərkibinə daxil olubdur. Amma bu, könüllü olmayıbdır. Odur ki, tarixi həqiqəti demək lazımdır.

O vaxtkı siyasi mühit, siyasi konyunktura bunu qəbul etmirdi. Ziya Bünyadov hətta buna görə günahlandırılırdı, onu hətta cəzalandırmaq istəyirdilər. Sonralar, əvvəlki bütün tarix araşdırıldıqdan sonra hamı bu fikrə gəldi ki, o vaxtlar Ziya Bünyadov doğru deyirdi. Həqiqət bunda idi. Həqiqəti Ziya Bünyadov deyirdi, öz yazılarında göstərirdi».

1998-ci ildə Ziya Bünyadovun vəfatından sonra Azərbaycanın ən yüksək mükafatı – «İstiqlal» ordeninə layiq görülmüşdür.

Görkəmli alimin zəngin biliyi, geniş dünyagörüşü, hədsiz zəhmətsevərliyi və böyük tədqiqatçı istedadı onun qələminə məxsus hər bir əsərdə özünü büruzə verir.

Alimin saysız-hesabsız məqalələrindən hər biri, onun istər orta əsr yaşayış məntəqələrinin müəyyən edilməsinə və geneoloji cədvəllərin dəqiqləşdirilməsinə, istərsə də Azərbaycanın ilafət dövrü mərhələsinin və qonşu ölkələrlə əlaqələrinin öyrənilməsinə, və ya bütün orta əsrlər müsəlman dünyasının siyasi, sosial-iqtisadi və mədəni tarixinə həsr olunmuş hər bir tədqiqat əsəri və ya tibb, astronomiya, seysmologiya və s. sahələrə aid orta əsr qaynaqlarından əxz edilmiş məlumatların şərhinə, yeni məxəzlərin üzə çıxarılması və əldə olunmuş məlumatların elmi dövriyyəyə daxil edilməsinə yönəldilmiş tədqiqat işi gərgin

axtarışların, tükənməz səbr və əməyin nəticəsidir. Bütün bunlar akademikin dərin düşüncə tərzinin, dəqiq və mükəmməl təhlil metodunun, incə və sərraf tədqiqatçı məharətinin göstəriciləridir.

Z.M.Bünyadov ixtisaslı şərqşünas kadrların hazırlanmasında da böyük xidmətlər göstərmişdir. O, Azərbaycanda mediyevist tarixçi ərəbşünaslar məktəbinin banisi və rəhbəri olmuşdur. O, İraq və Suriya Ərəb Respublikaları üçün yüksək ixtisaslı kadrların hazırlanmasında mühüm rol oynamışdır. 27 namizədlik işinin rəhbəri və məsləhətçisi, 12 doktorluq dissertasiyasının opponenti olmuşdur.

İllər ötəcək, Azərbaycan xalqının böyük oğlu, ölkəmizin cəfakeş vətəndaşı Z.M.Bünyadovun əziz xatirəsi qədirbilən xalqımızın, gələcək nəsillərin yaddaşında əbədi yaşayacaqdır. Onun insanlara bilik, ziya bəxş edən ölməz əsərlərindəki ruhu qəlbləri təlatümə gətirəcək, hər kəsi vətəndaşlıq borcuna – Vətəni sevməyə, ona vicdanla və sədaqətlə xidmət etməyə çağıracaq. Son nəfəsədək! Ziya Musa oğlu Bünyadov kimi!

«Azərbaycan» qəzeti, 21 dekabr 2008-ci il.

BİR DAHA BÖYÜK FÜZULİNİN MƏHƏBBƏT KONSEPSİYASI HAQQINDA

Bu və ya digər ədəbiyyatın inkişaf qanunauyğunluqları onun başqa ədəbiyyatlarla qarşılıqlı təsir dairəsindən kənarda anlaşıla bilməz. Əsrlər boyu müştərək müsəlman mədəniyyəti çərçivəsində inkişaf edən Azərbaycan ədəbiyyatı bu mədəniyyətin ayrı-ayrı ədəbiyyatları, o cümlədən ərəb ədəbiyyatı ilə sıx təmasda olmuşdur. Müxtəlif Azərbaycan şairləri – istər «Leyli və Məcnun» mövzusunda məsnəvi yazanlar, istərsə də qəzəl janrında qələm sınayanlar – qədim ərəb şerinin ideya-məzmun və bədii-estetik xüsusiyyətlərindən qidalanmışlar. Bu gün biz qədim ərəb şerini, xüsusən onun üzri məhəbbət lirikasını yaxşı bildikcə, Azərbaycan ədəbiyyatının ərəb və başqa Şərq ədəbiyyatları ilə qohumluq münasibətlərini daha aydın görə bilirik.

IX əsr ərəb filoloqu İbn Qüteybə əd-Dinavari yazır ki, bir dəfə bir bədəvidən hansı qəbilədən olduğunu soruşurlar. O belə cavab verir: «Mən, aşiqlərin bircə dəfə sevgiyə düçar olub-ölən qəbilədənəm!» Həmin söhbəti eşidən bir qız riqqətə gəlib dillənir: «And olsun Kəbəyə ki, o Üzra qəbiləsindəndir!»

Üzri məhəbbət poeziyası orta əsr ərəb şerinin ən cazibəli istiqamətlərindən biri olmuşdur. Onun hər bir nümunəsində üzri məhəbbət poeziyasına xas olan mühüm əlamətlər – ülvi məhəbbət, platonik eşq, sevginin faciəli aqibəti və keşməkeşli taleyi kimi zərif notlar qabarıqdır. O, VII əsrin ikinci yarısında Səudiyyə Ərəbistanında yaşayan və köçəri Üzra qəbiləsinə mənsub olan bədəvi şairlər (Qeys ibn Zərih, Cəmil ibn Mamar, Qüsəyyir, üzri şairlər arasında yeganə qadın şairə Leyla əl-Əhyəliyyə və s.) tərəfindən yaradılmışdır. Bənu Amir qəbiləsindən olmasına baxmayaraq, məşhur Məcnun ləqəbli şair Qeys ibn Müləvvəhin də yaradıcılığı öz ideya-bədii məzmununa görə üzri məhəbbət lirikasına aiddir.

X əsr ərəb filologu Əbü-l-Fərəc əl-İsfahani belə bir anı xatırlayır: «Həsən ibn Əli mənə Əhməd ibn Əbdülcəbbar əs-Sufinin İbrahim ibn Səəd əz-Zəhraviyə istinad edərək söylədiyi bu əhvalatı danışdı ki, bir gün Üzra qəbiləsindən bir nəfər hansı işləsə bağlı onlara gəlir. Söhbət məhəbbətdən və aşiqlərdən düşür. Ondan soruşurlar ki, kim daha ürəyi nazik, zərif qəlblidir – sizlər ya amirilər? O belə cavab verir: «Əlbəttə ki, bizlər ən zərif və həssas qəlbə malikik. Ancaq amirilər bircə Məcnunla bizə üstün gəldilər!»

Üzri şairlərin həyatı və şerləri haqqında rəvayətlər ərəb aləmində VIII əsrdən etibarən qələmə alınmağa başlanıb. Bundan sonra elə bir ərəb təzkirəçisi qalmayıb ki, onların şerlərini öz əsərinə salmasın. Bunlardan biz İbn Qüteybə, İbn Əbd Rəbbihi, əl-Valibi, İbn Sərrac və başqalarını sadalaya bilərik. Lakin bu

qəbildən olan kitablar arasında ən mötəbər məlumatlısı X əsr görkəmli ərəb ədəbiyyatçısı və musiqiçisi Əbülfərəc İsfahaninin «Nəğmələr kitabı»dır («Kitab əl-əğani»). Əsərin bir neçə fəsli ərəb üzri şairlərinə həsr edilib. Bu fəsillər aşağıdakılardır: «Qeys ibn Zərih və onun nəsli haqqında hekayətlər», «Cəmilin nəsli və onun haqqında hekayətlər», «Qüsəyyir haqqında rəvayətlər və onun nəsli», «Leyla, onun nəsli və Təubə ibn əl-hüməyyir haqqında hekayətlər», «Məcnun Bənu Amir haqqında hekayətlər və onun nəsli», «Məcnun haqqında hekayətlərin davamı». Ərəb dilini çox gözəl bilən və məhəbbət şairi olan Füzuli bu poeziyanı dərindən mənimsəmişdi. Təbii ki, Leyli və Məcnun mövzusunu qələmə alarkən, şair ilk növbədə «Nəğmələr kitabı»nın Məcnunla və digər üzri şairlərlə bağlı fəsillərinə müraciət etməli idi. Bu tanışlıq bütün əsər boyu özünü büruzə verir. İlk növbədə Füzulinin «Leyli və Məcnun»da ifadə etdiyi məhəbbət konsepsiyasının üzri məhəbbət konsepsiyasına mütabiqliyi xüsusi qeyd olunmalıdır.

Məlumdur ki, çoxsaylı «Leyli və Məcnun» məsnəvilərinin əsas mövzusu məhəbbət mövzusudur, daha dəqiq desək, platonik eşq, ülvi məhəbbət, iki nakam aşıqın talesiz aqibətidir. Əsas diqqəti bu məsələyə yetirərək, şairlər bir çox səhifələrdə Məcnunun məhəbbət hissinin xüsusiyyətlərini təsvir edir, ilahi eşq haqda fikir yürüdürlər. Şairlərin bu zaman yaratdıqları məhəbbət konsepsiyası sonralar bir çox araşdırmanın elmi tədqiqat obyektinə çevrilib.

Uzun illər orta əsrlər Azərbaycan ədəbiyyatını öyrənən görkəmli alimlər (Y.Bertels, H.Araslı, P.Azadə və b.) «Leyli və Məcnun» məsnəvilərini araşdıraraq və burada sufi alleqoriyasının, mistik ilahi eşqin əlamətlərini taparaq, eyni zamanda kifayət qədər dəqiq dəlillərlə şairlərin çoxlarının yaradıcılığında məhəbbət konsepsiyasının sufi şərhini qəbul etmirdilər. Alimlər hesab edirdilər ki, Azərbaycan şairlərinin yaratdığı məhəbbət konsepsiyası vəhdəti-vücud nəzəriyyəsindən daha çox psixoloji aspektdən mürəkkəb ülvi hisslərin inkişafı kimi tədqiq edilməlidir.

Füzulinin yaratdığı məhəbbət konsepsiyasında sufi və ümumbəşəri cəhətlər aydın görünür. «Leyli və Məcnun»un əvvəlində şair açıq bildirir ki, əsər mistik səciyyə daşıyır və Məcnunun Leyliyə məhəbbəti – sufi aşiqin İlahiyə məhəbbətidir:

Tutsam tələbi – həqiqətə rahi məcaz ,
Əfsanə bahənasilə əzr etsəm raz,
Leyli səbəbilə vəsfin etsəm ağaz,
Məcnun dili ilə etsəm izhari-niyaz...

Məsnəvinin mistik ideyası müvafiq sufi istilahları (şövq, təcəlli, məni, hal, qurb, tövhid, fəna, bəqa və s.) ilə də oxucuya çatdırılır.

Müəllifin yaratdığı Məcnun obrazı da ilk baxışda əsərin əsas ideyasına xidmət edir. Füzulinin Qeysi dünyəvi hisslərdən əl çəkmiş «hal» içində olan bir zahid, Allaha məhəbbət rəmzidir. Bununla belə Füzuli öz qəhrəmanlarının ən ülvi insani hisslərini tərənnüm edir ki, bu da əsərdəki obrazların ruhi təəssüratını dərindən təsvir etməyə imkan verir. Böyük psixoloq və insan qəlbinin mahir bilicisi olan Füzuli real ehtirasları oyadan və yalnız real insanlara məxsus ola bilən ən incə və nəcib qəlb təlatümlərini, təmiz insani hissləri əks etdirir və bununla da Leyli-Məcnun məhəbbətini ali eşqin rəmzinə çevirir. Üzri ərəb poeziyasının ülvi məhəbbət haqqında ideyasını dərindən duyaraq, şair bu poeziyaya xas olan bir sıra cəhətləri əsəri boyu yaradıcı şəkildə istifadə edir. Bizim dərin qənaətimizə görə, Füzulinin yaratdığı məhəbbət konsepsiyasına üzri məhəbbət nəzəriyyəsinin böyük təsiri olmuşdur.

Məhəbbətin üzri interpretasiyası təkallahlığı təbliğ edən yeni yaranmış islam dini ilə bağlı idi. Üzri şairlər sanki islamın universal qəlibini intim hisslər aləminə keçirdilər – çoxlu bütpərəstlik səcdəgahları əvəzinə vahid Allah, çoxlu düşmənçilik edən qəbilələr əvəzinə bir müsəlman ümməti, çoxlu qadınlar əvəzinə - yeganə məşuqə. Üzri şairlər amansız tale ilə bir-birindən ayrı düşən iki zavallı aşiqin saf, təmiz, platonik eşqini vəsf edirlər. Rəvayətə görə, Qeys ibn Müləvvəh, Qeys ibn Zərih və digər üzri şairlər yara yetişə bilməyib, kədər, qüssə və ümidsizlikdən ölürlər.

Üzri şairlərin qəzavü-qədərə inamı onları məhəbbətdə asketizmə vadar edir, bu da ki, müsəlman dininin axirət dünyasında hər şeyin əvəzinin veriləcəyi vədindən irəli gəlir. Şəhvani hisslərdən azad olaraq, bu şairlər sevgini ilahiləşdirib, ona ideal xarakter verirlər, məhəbbət hissini Allahın əmri ilə irəlicədən məlum obyektə yönəldilmiş, bir növ, alına yazılmış faciəli bir ehtiras kimi təsvir edirlər. Məsələn, üzri şair Cəmil ona tənə edən qohumlarından birinə cavab verərək belə bir beyt söyləyir:

Sənin sezdiyin və mənim Buseynəyə bəslədiyim hisslər
Allahın öz əmri ilə yaranıb.
Məgər Allahın istəyi yerinə yetməyə bilərdimi?

Eyni fikrə Füzuli poemasının «Bu, Məcnunun nəsihət qəbul etmədiyidir və atasının dərdi dərmanə yetmədiyidir» fəslində rast gəlirik. Ata-anasının nəsihətinə cavab olaraq, Məcnun onları başa salmağa çalışır ki, özü öz acınacaqlı vəziyyətindən halıdır, lakin nə etmək ki:

Yoxdur bu işimdə ixtiyarım,
Zəbtimdə inani-iqtidarım!

Eşq onun başına öz ixtiyari ilə yox, yuxarıdan gələn bir əmr ilə salınıb və

onun bu mərəzdən sağalması mümkün deyil. Bu eşq onun qismətidir və onu heç bir cəhdlə pozmaq olmaz. «Gülün tikana və tikanın gülə» çevrilməsi mümkün olmadığı kimi, aşiqin də bu eşqdən islahı mümkün deyil, çünki onun cövhəri sevgi ilə yoğurulub.

Yuxarıda qeyd etdiyimiz kimi, üzri aşiqlərin məhəbbəti təmənnasızdır. Onlar şəhvani hissləri təmin etməyə can atmırlar (bəzilərinə isə bu hisslər tamamilə yaddır), sadəcə eşq hissinin özündən zövq alırlar. Daim öz eşqinin saflığına və ali xarakterinə, məhəbbət iztirablarının səmimiliyinə və böyüklüyünə işarə edir, gah ümidsizliyə dalır, gah da amansız talelərindən şikayətlənirlər. Eyni duyğuları Füzuli qəhrəmanı da keçirir:

Fələk ayırdı məni cövr ilə cananımdan,
Həzər etməzmi, əcəb, naləvü əfğanımdan?

Füzuli əsərində Leyli əri öləndən sonra Məcnunla qarşılaşanda, ondan vüsal diləyir, lakin Məcnun onu rədd edir. Bu zaman Leyli aşiqi sınadığını, imtahana çəkdiyini söyləyir, təbiətinin paklığına əmin olmaq istədiyini deyir və Məcnunun cismani məhəbbətə tam biganə olduğunu bilib, şad olur:

Eşqində riya güman edərdim,
Ətvarını imtəhan edərdim.
Əlminnətulilləh, oldu məlum
Vəsl olduğu məşrəbində məzmum.

Üzri aşiq məşuqəsi yolunda bütün iztirablara dözməyə razıdır. Bu iztirablara o özü can atır, bu iztirablar aşiqə xoşdur və o bu iztirablardan heç bir vəchlə xilas olmaq istəmir. Şair Qeys ibn Müləvvəhin belə bir beyti var:

Mənə deyirlər: İstəsəydin, onu unudub, təsəlli tapardın,
Mən isə cavab verirəm: Bəli, ancaq mən bunu istəmirəm!

Füzuli qəhrəmanı bütün nəsihətləri rədd edib, eşq yolunda bütün iztirablara hazır olduğunu söyləyir, bu yoldan dönməz olduğunu bildirir:

Suzi-dil ilə tökülsə yaşım,
Tiği-ğəm ilə kəsilsə başım,
Candan çıxarıb həvayi-eşqi,
Tərk eyləməzəm bəlayi-eşqi.

Üzri şair üçün məhəbbət yalnız hər şeyə üstün gələn hiss deyil, həyatın özü deməkdir. Qeys ibn Zərih:

O torpaq ki, üstündə sevgilim yaşamır, suvarılmış və münbit olsa da,
Mənim gözlərimdə səhraya bənzər,

- deyir.

Füzuli Məcnunu Leylini «afitab» – günəş adlandıraraq:

Hər gün ki, görünməz afitabım,
Mən gün deməzəm, budur hesabım, -

söyləyir.

Üzri məhəbbət konsepsiyası aşiqin məşuqə ilə tam mənəvi birləşməsini nəzərdə tuturdu. Əbülfərəcin Leylisinin Məcnuna dediyi «Sən mənim içimdəsən» sözlərində bu fikir bir rüşeym şəklində öz əksini tapmışdır. Təsadüfi deyil ki, ərəb ədəbiyyatında üzri aşiqin adı mütləq məşuqənin adı ilə birlikdə çəkilir: Məcnun – Leyla, Cəmil – Buseynə, Qüsəyyir – Azza və i.a., yəni aşiq məşuqəsiz təsəvvür olunmur və onlar yalnız birlikdə bir tam kimi dərk edilir. Füzuli yaradıcılığında bu fikir daha da dərinləşdirilərək, Leyli və Məcnunun «iki təndə bir can» olmaqları kimi mənalandırılır:

Bizdə ikilik nişanı yoxdur,
Hər birinin özgə canı yoxdur.
Sən sanma ki, oldur ol, mənəm mən,
Bir can ilə zindədir iki tən.

Üzri məhəbbət konsepsiyası mənəvi substansiyanın gerçəkliyinə və hər bir canlıda baqi ruhla fani cismin yerləşməsinə islam etiqadından irəli gəlir. Bu konsepsiyaya görə, üzri məhəbbət, hətta, aşiqlərin doğuluşundan əvvəl müəyyən olduğu kimi, onların ölümündən sonra da yaşayır və axirət dünyasında sevgililərin ruhu mütləq görüşür. Qeys ibn Zərih:

Eşqimiz bütün müsibətlərə sinə gərib,
Məzarlarımızın qaranlığında bizimlə olacaq, -

deyir.

Füzuli qəhrəmanlarının fikrincə isə ölüm də onları eşqdən qurtarmayacaq və bu qurtuluş onların istəyi də deyil:

Can əgər çıxsa tənimdən əsəri-mehri ilə,
Əsəri-mehrini sanmın ki, çıxar canımdan.

Əsərin sonu – Zeydin yuxuda Leyli ilə Məcnunu cənnət bağında vüsala yetmiş görməsi də məhz bu konsepsiyadan irəli gəlir.

Lakin bütün bunlar Füzulinin sevgiyə baxışı və üzri məhəbbət konsepsiyası arasında bərabərlik işarəsi qoymağa bizə əsas vermir. Füzulinin eşq anlayışı daha geniş, daha müəzzəmdir. Bu fikri bir sıra dəlillərlə təsdiqləmək olar. Məsələn, əgər Əbülfərəcin Məcnunu Leylinin eşqindən cisminin vəziyyəti haqqında: «Elə quruyub ki, külək onu hara istəsə, ora da əyər», - söyləyirsə, Füzulinin Məcnunu Tanrıdan:

Öylə zəif qıl tənimi firqətində kim,
Vəslinə mümkün ola yetirmək səba məni, -

diləyir.

Əbülfərəcin Məcnunu:

O eşq ki, aşiqə iztirab vermir,
Heç bir qiyməti yoxdur,
Belə aşiq meyitə bənzər, -

söyləyir. Füzuli qəhrəmanı isə Allahdan eşq iztirablarını günbəgün artırmağı təmənna edir:

Yarəb, bəlayi-eşq ilə qıl aşina məni
Bir dəm bəlayi-eşqdən etmə cüda məni.

Beləliklə, Füzuli ərəb aləmində geniş yayılmış üzri şairlərin həyat və yaradıcılığı haqqında rəvayətlərlə yaxından tanış idi. Bu tanışlıq onun yaradıcılığının ideya, məzmun və sənətkarlıq xüsusiyyətlərində özünü bariz şəkildə büruzə verir. Lakin qeyd etmək lazımdır ki, şair əsrlər boyu müxtəlif Şərq şairlərinin tükənməz məzmun və bədii vasitələr mənbəyinə çevrilmiş bu poeziyanı sadəcə təqlid etməyib, ona yaradıcı yanaşaraq, milli bədii ənənə ilə sintezləşdirib və xeyli təkmilləşdirərək, ecazkar sənət nümunəsi yaradıb. Füzuli üzri eşq əqidəsini və üzri poetik təfəkkürü mənimsəyib onu məhz öz qələminə məxsus dahiyanə üslubda mənalandırıb, bu poeziyaya xas olan ayrı-ayrı ideyaları, motivləri və poetik obrazları daha da dərinləşdirərək öz dühasının süzgəcindən keçirib və nəticədə ali eşq haqda öz məşhur nəzəriyyəsini yaradıb. Şair iki gəncin məhəbbəti haqda rəvayəti dərin sosial-psixoloji dram səviyyəsinə ucaldıb. Füzuli eşqi – təmiz, ülvi, təmənnasız hissdir. Xeyirxahlıq, mərhəmət, humanizm, zəif və kimsəsizlərə rəğbət, ədalətsizliyə nifrət Füzuli aşiqinin keyfiyyətləridir. Odur ki, böyük şairin təsvirində məhəbbət hər şeydən öncə mənəvi kateqoriyadır: həqiqi aşiq öz səadətini sevdiyinin səadətində görür.

«Leyli və Məcnun» əfsanələrindəki bir anı yada salaq. Məcnun məhzun Leylisinə yazdığı məktubu bəyaz bir göyərçinin ayaqlarına bənd edir. Göyərçin qum təpələrinin, vadilərin üstündən uça-uça Leylinin obasına çatır, Leylinin çadırını tapır, aşiq naməsini yara yetirir. Leyli göyərçini zərif əllərilə oxşayır, məktubu oxuyur, həyəcanlanır, sevinir, riqqətə gəlir.

Füzuli əsərini vərəqləyirik. Məcnunlu, Leylili səhifələri çeviririk. Sanki ağappaq bir göyərçinin qanadlarında məktub gəlib bizə çatıb. Oxuyuruq. Bir sevdanın uğursuz sonuna acıyırıq, həyəcana gəlirik, həm də sevinirik – eşqin ölməzliyinə, məhəbbətin əbədiliyinə sevinirik!

2007-ci il.

AMNİSTİYA MƏRHƏMƏT VƏ HUMANİZMİN TƏZAHÜRÜDÜR

DÖVLƏT VƏ ONUN QANUNLARI AİLƏ-MƏİŞƏT ZƏMİNİNDƏ CİNAYƏT TÖRƏTMİŞ QADINLARA DAHA MƏRHƏMƏTLİ OLMALIDIR

Milli Məclisin deputatı, Heydər Əliyev fondunun prezidenti Mehriban xanım Əliyeva tərəfindən «Novruz bayramı münasibətilə amnistiya elan edilməsi haqqında Azərbaycan Respublikası Milli Məclisinin qərarı» haqqında qanun layihəsini mən çox yüksək qiymətləndirirəm. Bu Heydər Əliyev fondunun yarandığı gündən həyata keçirdiyi çoxsaylı xeyirxah işlərin növbətisidir, insanpərvərlik, mərhəmət və humanizmin təzahürüdür.

Ümumiyyətlə, Heydər Əliyev fondu son illər xalqımızın ümid və pənah yerinə çevrilmişdir. Minlərlə insanlar ən müxtəlif məsələlərlə əlaqədar fonda müraciət edir və problemlərinin müsbət həllini tapırlar. Heydər Əliyev fondu hər bir qayğı və yardıma ehtiyacı olan azərbaycanlının köməyinə gəlir, imkanlarını əsirgəmir. Fond məhkum edilmiş şəxslərin və onların ailə üzvlərinin də müraciətlərini diqqətlə öyrənir, araşdırır, təhlillər aparır. Bunun nəticəsi kimi bugün müzakirəmizə təqdim olunan amnistiya haqqında qanun layihəsidir. Bu amnistiya aktına görə 1700 məhkumun, ilk növbədə qadınların, yetkinlik yaşına çatmayanların, əlillərin azadlığa çıxması nəzərdə tutulub. O, bütövlükdə 9 min insana şamil edilir. Amnistiya aktının layihəsinə əsasən böyük ictimai təhlükə törətməyən və az ağır bir sıra cinayətlərə görə məhkum edilmiş qadınlar, cinayət törədərkən 18 yaşına çatmayanlar, birinci və ya ikinci qrup əlillər, 60 yaşına çatmış kişilər, öhdəsində yetkinlik yaşına çatmayan yaxud birinci və ya ikinci qrup əlil övladı olanlar və bəzi digər kateqoriyalardan olan şəxslər azadlıqdan məhrum etmə cəzasından azad ediləcəkdir.

Həmçinin, azadlıqdan məhrum edilmiş və cəzalarının bitməsinə bir il qalmış qadınlara və altı ay qalmış kişilərə, azadlığın məhdudlaşdırılması cəzalarının bitməsinə iki il qalmış qadınlara və bir il qalmış kişilərə, islah işləri, ictimai işlər cəzalarına məhkum edilmiş bütün şəxslərə, habelə cərimə cəzasına məhkum edilmiş, cəzasının çəkilməsi təxirə salınmış, şərti məhkum edilmiş və digər qruplara daxil olan bir sıra məhkumlara amnistiya tətbiq edilməklə, onların cəzadan azad olunmaları təklif edilir. Təsəvvür edirsiniz, nə qədər ailə bayramqabağı sevinəcək.

Şərq aləminin böyük dühalarından olan İbn Sinanın sözləri var: «Bağışlamağı bacaran insan xoşbəxtdir». Hesab edirəm, bu sözləri dövlətə və cəmiyyətə də şamil etmək olar. Eyni zamanda bu qanun layihəsi bağışlamaq bacarığı və

digər ən ali insan duyğularının təcəssümü olaraq, bütövlükdə xalqımızın milli-mənəvi dəyərlərinin qorunub saxlanmasına xidmət edir.

Ümumiyyətlə, Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyətinin bu istiqamətini xüsusi qeyd etmək istərdim. Onun gerçəkləşdirdiyi müxtəlif layihələr, istər uşaq evlərinə, əlil və kimsəsizlərə göstərdiyi qayğı, digər mərhəmət və xeyirxahlıq aksiyaları, müxtəlif mədəniyyət layihələri (elə bu günlərdə keçiriləcək Beynəlxalq Muğam Festivalı) bütövlükdə xalqımızın saflaşmasına, milli-mənəvi dəyərlərimizin qorunub inkişaf etdirilməsinə xidmət edir. Mən bütün bu işlərə görə, eyni zamanda Novruz bayramı münasibətilə elan olunan bugünkü amnistiya haqqında qanun layihəsinə görə Mehriban xanıma təşəkkür edirəm.

İki məsələyə xüsusi toxunmaq istərdim.

Birincisi, məhbusların azadlığa çıxandan sonra cəmiyyətə inteqrasiyası, sosial adaptasiyası ilə bağlıdır. Məlumdur ki, keçmiş məhbuslar azadlıqda bir sıra problemlərlə üzləşirlər. Bəzən onları ailələri qəbul etmək istəmir. Bu, xüsusən, qadınlara münasibətdə daha çox olur. Bəzən yaşayış sahələrini itirirlər. Bəzən isə işlə təmin olunmaqda böyük çətinliklərlə üzləşirlər. Bax bu zaman aidiyyatı orqanlar, bütövlükdə cəmiyyət bu insanlara daha diqqətlə və həssas yanaşmalıdır, köməyini onlardan əsirgəməməlidir ki, keçmiş məhbuslar mümkünçə daha tez normal həyata qayıda bilsinlər.

İkinci məsələ sırf qadın məhbuslara aiddir. Təcrübə göstərir ki, azərbaycanlı qadınlar kişilərlə müqayisədə qat-qat az cinayət törədirlər. Lakin cinayət edəndə, ağır cinayət olur. Bu isə əsasən ailə-məişət münaqişələri zəminində baş verir. Qadına qəddar münasibət, onun həyat yoldaşı tərəfindən hər növ mənəvi və fiziki təhqirlərə və işgəncələrə məruz qalması, çıxılmaz vəziyyətə salınması bəzən çox ağır nəticələr verir. Cana doymuş qadın son çıxış yolu kimi cinayətə əl atır. Bu baxımdan əhali arasında ailə, ər-arvad münasibətləri haqda geniş maarifləndirmə işləri aparılmalıdır. Bu iş bütövlükdə Ailə, Qadın və Uşaqlarla iş üzrə Dövlət Komitəsinin üzərinə düşür. Digər tərəfdən hesab edirəm ki, Cinayət Məcəlləsində ailə-məişət zəminində qadınlar tərəfindən törədilən cinayətlərə görə nəzərdə tutulmuş cəzaların monitorinqi aparılmalıdır və, mümkün olduqda, qadınlara qarşı tətbiq olunan cəzalar yumşaldılmalıdır. Dövlət, onun qanunları və bütövlükdə cəmiyyət qadınlara münasibətdə daha mərhəmətli olmalıdırlar.

«525-ci qəzet», 18 mart 2009-cu il.

ELMDƏ İSLAHATLAR GÜNÜN TƏLƏBİDİR

«XXI əsrdə yalnız yüksək elmi potensiala və elm tutumlu texnologiyaya malik ölkələr öz xalqları üçün xoşbəxt və firavan həyat tərzi təmin etmək imkanına malik olacaq»

Heydər Əliyev

Hər bir dövlətdə ictimai şüurun milli-mədəni ənənələr və mənəvi dəyərlər üzərində formalaşması və inkişafı, təbii ki, ictimai və humanitar elmlərin vəzifəsidir, onun, necə deyərlər, praktik faydasıdır. Burada Artur Şopenhauerin bir kəlamını xatırlatmaq yerinə düşər: «Bütün təbiət elmlərinin belə bir labüd çatışmazlığı var ki, onlar gerçəkliyi sırf obyektiv cəhətdən nəzərdən keçirir, onun subyektiv tərəfini isə yaddan çıxarırlar». Dəqiq elmlərin «yaddan çıxardığı» həmin subyektiv tərəf isə ictimai və humanitar elmlərin fəaliyyət sahəsidir. Bununla da sözü gedən elmlər gerçəkliyin elmi şəkildə dərki istiqamətində mühüm bir funksiyanı yerinə yetirir, cəmiyyətdə elmi şüurun hakim mövqe qazanmasında ciddi rol oynayırlar.

Əvvəlcə bir mühüm məqama toxunmaq istərdim: Digər elm sahələri özəl sifarişlər, istehsalatla bağlı layihələr, hətta xarici ölkələrdən alınan qrantlar sayəsində gəlirlər əldə edə bilərlər. Humanitar və ictimai elmlər isə daha çox dövlətimizin himayəsinə güvənməlidir. Bu sahə mənəvi sfera ilə, milli ideologiya və dövlətçilik düşüncəsi ilə birbaşa bağlı olduğundan xüsusi qayğı ilə əhatə olunmalıdır. Bu elmlərə dar mənada «praktik fayda» meyarı ilə yanaşmaq olmaz. Bütövlükdə fundamental elm belə yanaşmanı qəbul etmir. Məşhur bir misalı xatırladaq: Faradeyin elektromaqnit induksiya effektini kəşf etməsi ilə bəşəriyyətin bütün tarixi boyu elmə xərclənən vəsait özünü doğrultmuşdur. Yaxud Ziya Bünyadovun «Azərbaycan VII-IX əsrlərdə», «Azərbaycan Atabəylər dövləti» kitablarının milli şüurun inkişafında oynadığı rolu hansı pul ekvivalenti ilə ölçmək olar?! Fundamental elmə xərclənən vəsait gələcəyə - millətin və dövlətin gələcəyinə qoyulan sərmayədir. Əgər bu gün tələb olunan maliyyə vəsaitini əsirgəsək, sabah bundan yüz qat artığını qoymalı olacağıq. İslahatlar da bu perspektivi nəzərə almaqla həyata keçirməlidir.

Elm mənəvi fəaliyyət sahəsi olduğundan burada ilk stimul rolunu, təbii ki, mənəvi amillər oynayır. Yəni qəlbinin hökmü ilə elmə gələn hər bir kəs onun vurğunu, müəyyən mənada fanatı olur. Amma biz maddi dünyada yaşayırıq və maddi təminat kifayət qədər olmadan hər hansı bir fəaliyyət, o cümlədən elmi fəaliyyət qeyri-mümkündür.

Fundamental elmin ictimai şüurun düzgün istiqamətdə təkamülündə müstəsna rolunu gözəl bilən ümummilli liderimiz Heydər Əliyev məhz buna görə hakimiyyətə qayıtdıqdan və ölkədə ictimai-siyasi sabitlik yaratdıqdan sonra əsas elm məbədimiz ətrafında söz-söhbətlərə son qoydu, ardınca öz tarixi fərmanı ilə AMEA-nın statusun müəyyənləşdirdi. Bütün sahələrdə olduğu kimi, elmə münasibətdə də Heydər Əliyev kursunun layiqli davamçısı olan möhtərəm prezidentimiz İlham Əliyev isə elmdə islahatlar, elmin inkişaf strategiyası, Elmin İnkişafı Fondunun yaradılması ilə bağlı sərəncamları ilə Azərbaycan elminin günün tələbləri səviyyəsinə yüksəlməsi istiqamətində mühüm addımlar atdı.

Etiraf etmək lazımdır ki, yaxın keçmişdə Azərbaycan elmində özünü göstərən böhran təkcə ideoloji və metodoloji deyil, həmdə struktur xarakterli olmuşdur. Başqa sözlə, sovet dövründən qalma paradiqmanın özünü tükəndirməsi elmin cəmiyyətdəki roluna bilavasitə mənfi təsirlər bağışlamışdır. Aydındır ki, elmin təşkili, idarə olunması və maliyyələşdirilməsinin köhnə metod və prinsipləri, o cümlədən, əməyin ödənilməsindəki «bərabərçilik» özünü doğrulda bilməz və bu mənada alimlər yeni yaradılmış Elmin İnkişafı Fonduna böyük ümidlər bəsləyirlər. Məşhur rus tarixçisi Vasili Klyuçevski yazırdı: «Elmi çox zaman biliklə qarışdırırlar. Bu kobud bir anlaşılmazlıqdır. Elm təkcə bilik deyil, həm də şüurdur, yəni bilikdən lazım olduğu kimi istifadə etmək bacarığıdır». Bizdə bilikli, savadlı insanlar az deyil. Bütün çətinliklərə rəğmən, Azərbaycan elmi öz ənənələrini qoruya bilib. Odur ki, hazırkı mərhələdə əsas məqsəd, islahatların başlıca hədəfi mövcud potensialdan daha düzgün istifadədən ibarət olmalıdır.

Əlbəttə, ötən dövr ərzində AMEA-da, konkret olaraq, onun humanitar və ictimai elmlər bölməsinə daxil olan institutlarda bir sıra islahatlar aparılmış, zamanın tələbinə cavab verən yeni elmi istiqamətlər, yeni şöbə və qruplar yaradılmışdır.

Bu istiqamətlər işığında otuz ildən çox bir müddətdə çalışdığım AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun fəaliyyəti haqqında nə deyə bilərəm?

Hər şeydən əvvəl, onu xüsusi vurğulamalıyam ki, şərqşünaslıq kompleks bir elm sahəsidir. Şərqşünas öz tədqiqat predmetinə tarixi-coğrafi, mədəni-ədəbi və sosial-siyasi aspektlərin qarşılıqlı əlaqəsi və bağlılığı zəminində yanaşır və öyrəndiyi problemin dolğun mənzərəsini yaradır. Bu mənada şərqşünaslıq unikal elm sahəsidir, üstəlik bir çox ölkələrdə (o cümlədən, qonşu Rusiyada) həm də strateji bir elm sahəsi kimi dəyərləndirilir. Azərbaycan şərqşünaslığı həm də elmi məktəbləri olan bir elm sahəsidir – bunu digər sahələrdən olan

həmkarlarımız da bilir və etiraf edirlər. Yarım əsr əvvəl Yaxın və Orta Şərq xalqları İnstitutu kimi kiçik bir kollektivlə fəaliyyətə başlayan Şərqşünaslıq İnstitutu tezliklə öz simasını formalaşdırmış və burada akad. Ə.Əlizadənin mətnşünaslıq, akad. Z.Bünyadovun mediyevistika, akad. H.Araslının türkologiya, prof. R.Əliyevin iranşünaslıq, prof. A.İmanquliyevanın ərəbşünaslıq məktəbləri yaranmışdır. Bu gün Şərqşünaslıq institutunda çalışanların əksəriyyəti bu böyük alimlərin bilavasitə şagirdləri və davamçılarıdır. Son illərdə institutun kollektivi nəinki mövcud çətinliklərə sinə gərmiş, həm də yeni elmi araşdırma sahələri və mövzuları müəyyənləşdirmiş, dünyanın müxtəlif şərqşünaslıq mərkəzləri ilə əlaqələr qurmuş, beynəlxalq əməkdaşlığı genişləndirmişdir. Təkcə başa vurmaqda olduğumuz 2009-cu ildə əməkdaşlarımız 50-dən çox xarici ölkələrdə təşkil olunan beynəlxalq elmi, konfranslarda iştirak edib, elmimizi ləyaqətlə təmsil etmişlər. Bu, həm də Azərbaycan şərqşünaslıq elminin beynəlxalq miqyasda etiraf olunması deməkdir. Onu da nəzərə almaq lazımdır ki, sovet dönəmində, «dəmir pərdə»nin mövcud olduğu şəraitdə alimlərimizin birbaşa beynəlxalq əlaqələr qurmaq imkanı məhdud idi.

Unutmamalıyıq ki, Azərbaycanın çoxəsrlik tarixi, ictimai fikri, mədəniyyəti, ədəbiyyatı məhz Yaxın və Orta Şərq ölkələrində gedən proseslərlə üzvi sintezdə inkişaf edərək təşəkkül tapmışdır. Böyük alim və mütəfəkkirlərimiz öz qiymətli əsərləri ilə daim Şərq xalqlarının elm və mədəniyyətini zənginləşdirmiş, həmin xəzinəyə qiymətli töhfələr vermişlər. Bu gün demokratik dünyaya inteqrasiya olunan ölkəmiz yeni sistemə məhz tarixən formalaşmış həmin milli-mənəvi dəyərlərlə daxil olur. Belə bir vəziyyətdə, yəni çoxəsrlik mədəniyyətinin təməlində ümumşərq faktoru aparıcı yer tutan müstəqil dövlətimizin Şərq ölkələrinə diqqətinin artması çox təbiidir. Bunu Prezident İlham Əliyevin Şərq ölkələrinə ardıcıl səfərləri, İslam Konfransı Təşkilatı və EKO-da Azərbaycanın fəal iştirakı da təsdiqləyir. Şərqin tarixini, mədəniyyətini, iqtisadiyyatını, ictimai-siyasi fikrini, filologiyasının aktual problemlərini kompleks şəkildə öyrənmədən, proseslərin mahiyyətini təhlil etmədən regionda baş verən hadisələri diqqətdə saxlamaq və onlardan bəhrələnmək mümkün deyil.

Azərbaycanda Şərqin öyrənilməsinin böyük tarixi ənənəsi olsa da, oraya hələ XIX yüzildə A.Bakıxanov, M.F.Axundov, Mirzə Kazım Bəy, M.S.Topçubaşov kimi böyük alim və mütəfəkkirlərimiz imzalarını qoysalar da, onun sistemli şəkildə tədqiqinə ötən əsrin 50-ci illərindən başlanıb. Lakin ölkəmiz müstəqillik əldə edənə qədər bu elm bütövlükdə keçmiş sovet şərqşünaslığının tərkib hissəsi kimi inkişaf edib. Belə ki, institutda aparılan elmi araşdırmaların tematikası, xüsusilə Şərq ölkələrinin müasir ictimai-siyasi və ideoloji problemləri ilə bağlı bir sıra mövzular hakim marksizm təliminin

tələblərinə uyğun şəkildə tədqiq edilərək, Sovet İttifaqının Şərq siyasətinin həyata keçirilməsinə xidmət edib.

Ümumiyyətlə isə, Azərbaycan şərqşünaslıq elmi həmişə Yaxın və Orta Şərqin siyasətini, iqtisadiyyatını, mədəniyyətini, tarixini, ədəbiyyatını əlahiddə və yaxud ümumdünya proseslərindən təcrid olunmuş şəkildə deyil, Şərq-Qərb sivilizasiyalarının müqayisəsində və ənənələrinin sintezində tədqiq edərək, bu gün bütün siyasi güclərin vurğuladığı qütblərarası dialoqun yaranmasına zəmin hazırlamağa çalışmışdır.

Respublikamızın müstəqillik qazanması institutun önündə yeni üfüqlər açmaqla bərabər, həm də ciddi vəzifələr qoyub. Belə ki, xarici siyasət xəttini bu gün müstəqil surətdə müəyyən edən Azərbaycan Respublikası üçün həm Şərq ölkələri ilə iqtisadi, siyasi və mədəni əlaqələrin genişləndirilməsi və həm də regionda gedən proseslərdə dövlət maraqlarının qorunması institutun elmi fəaliyyəti dairəsinin daha da tutumlu olmasını, bir sıra yeni istiqamətlərin yaradılması və ciddi keyfiyyət dəyişikliklərinin həyata keçirilməsini vacib edib. İnstitutun kollektivi bu yeni şəraiti qiymətləndirərək qeyd edilən problemlərin həlli istiqamətində addımlar atıb və atmaqdadır. Bu gün institutda elmi tədqiqat işləri əsasən aşağıdakı istiqamətlərdə aparılır: Şərq ölkələrinin tarixi, bu ölkələrdə cərəyan edən ictimai-siyasi, iqtisadi və etnokonfessional proseslər, bu ölkələrin beynəlxalq münasibətlər sistemində rolu, Şərq xalqlarının tarixi və filoloji irsi, yazılı abidələrin tədqiqi, tərcüməsi və nəşri, islam mədəniyyətinin təşəkkül tapmasında Azərbaycan xalqının iştirakı, Yaxın və Orta Şərq ölkələrinin ictimai-siyasi həyatında İslam amili və sair.

İnstitutumuzda aparılan tədqiqat işlərinin bir çoxu Azərbaycan Respublikasının Yaxın və Orta Şərq siyasətində aktuallıq kəsb edən məsələlərin araşdırılmasına həsr edilib. Bunlar Azərbaycan və Şərq xalqlarının tarixi-mədəni əlaqələri, müstəqil Azərbaycan Respublikası ilə Şərq ölkələri arasında siyasi, iqtisadi, diplomatik və mədəni münasibətləri, Şərq-Qərb sivilizasiyalararası dialoq, Azərbaycanın Şərq-Qərb münasibətlərində yeri və rolu, Şərq-Qərb dialoqunun geopolitik və kulturoloji aspektləri və sairdir. Göründüyü kimi, elmi tədqiqat işlərinin istiqaməti klassik şərqşünaslıqla (qədim mənbələrin tədqiqi) bahəm müasir şərqşünaslığın da inkişafını təmin edir, Şərq ölkələrinin yeni ictimai-siyasi, iqtisadi münasibətlər sisteminə keçmiş Azərbaycan üçün faydalı ola biləcək təcrübəsinin, həmin təcrübənin müsbət və mənfi tərəflərinin aydınlaşdırılmasını, Türkiyə, İran, Ərəb və digər Şərq ölkələri ilə iqtisadi, mədəni əməkdaşlığın prioritet sahələrinin müəyyənləşdirilməsini əhatə edir. İnstitut əməkdaşlarının monoqrafiyaları, kitabları, elmi məqalələri və müxtəlif elmi məclislərdə oxuduqları məruzələr bu sahədə xüsusi önəm daşıyır və ölkələri-

miz arasındakı münasibətlərin inkişafı üçün stimul ola biləcək faktlardandır.

Elmi istiqamətlər çərçivəsində işlər əsasən iki yolla aparılır. Bunlardan birincisi, şərqşünaslıq elminin əsasını təşkil edən Şərq tarixinin, mədəniyyətinin, bədii təfəkkür tərzinin, ictimai və fəlsəfi fikirlərinin ən vacib və aktual aspektlərini öyrənən fundamental tədqiqatların aparılmasıdır. İkincisi isə, elmi dəyəri ilə yanaşı, geniş oxucu kütləsini maraqlandıran elmi-populyar əsərlərin, eləcə də cari dövr üçün siyasi və ictimai əhəmiyyəti olan və elmi proqnozlar verən təhlili – informatik məlumatların hazırlanmasıdır.

Əməkdaşlarımız müasir Qərb sivilizasiyasına tarixi təkamül prosesində çoxəsrlik Şərq mədəniyyətinin təsiri, Qərbin sürətli iqtisadi-texniki və mədəni tərəqqi təcrübəsinin Şərq ölkələrində məqsədyönlü şəkildə tətbiqi imkanlarını, qloballaşma şəraitində Şərq-Qərb münasibətlərinin ziddiyyətli məqamlarını, onların mahiyyətini və aradan qaldırılma yollarını araşdırırlar. Alimlərimiz Şərqlə Qərbin qovuşduğu bir məkanda yerləşən ölkəmiz üçün müstəqillik şəraitində Qərb mədəniyyətinə yiyələnməklə milli mədəniyyətin fundamental dəyərlərini və mütərəqqi cəhətlərini qoruyub saxlamaq yollarını arayırlar. Ötən dövrdə yeni şəraitin tələbləri nəzərə alınmaqla İnstitutda yeni «Şərq-Qərb» şöbəsi, «Mərkəzi Asiya və Uzaq Şərq» elmi qrupu yaradılmış, bir vaxtlar əsassız olaraq ləğv edilən «Cənubi Azərbaycan» şöbəsi bərpa edilmişdir. 90-cı illərin ikinci yarısından etibarən İnstitutun elmi planlarında Azərbaycanşünaslıq istiqamətində mühüm dəyişikliklər edilmişdir. Əməkdaşlarımız ilk növbədə ərəbdilli və farsdilli Azərbaycan alimlərinin və ədiblərinin yaradıcılığına dair tədqiqatlar aparır, Azərbaycan tarixinə, mədəniyyətinə, dilinə, ictimai-fəlsəfi fikrinə dair ərəb və fars dilində olan qaynaqların tapılıb araşdırılması üçün səmərəli fəaliyyət göstərirlər.

Bütün bunlar, əlbəttə, bizi arxayınlaşdırmır və biz istər dövlətçiliyimizin tələbləri, istərsə də dünya şərqşünaslığının inkişaf meylləri baxımından öz işimizdə dəyişikliklər edilməsi zərurətini yaxşı başa düşürük.

Hazırda İnstitutumuz qarşısında konkret vəzifə qoyulub: yeni tarixi şəraitdə müasir Azərbaycanın gerçəkliklərinə uyğun öz yeni simasını formalaşdırmaq. Əslində İnstitutumuza dair qoyulan vəzifəni kollektivimiz xeyli vaxtdır ki dərk edib və bütün potensialını öz işini yeni tarixi şəraitdə müstəqil Azərbaycanın mənafeyinə və tələbatına uyğun qurmağa çalışıb. Tədqiqat planlarımıza ilk növbədə Azərbaycanın ərazi bütövlüyünün müdafiəsinə yönəlmiş, xalqımızın tarixinə və mədəni inkişaf məsələlərinə töhfələr verə biləcək əsərlər salınıb. Təəssüf ki bir məqalədə bu istiqamətdə apardığımız tədqiqatlar, gördüyümüz işlər barədə konkret məlumat vermək imkan xaricindədir.

Bununla belə İnstitutumuzun elmi şurası məqalədə səslənən fikir və müla-

hizələrin doğru və əsaslı olduğunu nəzərə alaraq növbəti illər üçün elmi-tədqiqat planlarında konkret dəyişikliklər etdi. Son 6 ildə Azərbaycan Prezidenti hörmətli İlham Əliyevin apardığı müdrik və tarazlaşmış xarici siyasəti və bu siyasətdə Şərq ölkələrinin mühüm yer tutduğunu nəzərə alaraq «Prezident İlham Əliyevin Şərq siyasəti» adlı irihəcmli monoqrafiya tədqiqat planlarımıza salınıb. Azərbaycanda «dövlət-din-cəmiyyət» münasibətlərində görülən böyük işləri, hökm sürən sabitliyi və bunların bir çox Şərq ölkələri üçün örnək ola biləcəyini nəzərə alaraq, bu istiqamətdə də geniş araşdırma aparmağı planlaşdırmışıq. Türkdilli xalqların inteqrasiyası sahəsində müstəqil Azərbaycanda dövlət səviyyəsində görülən işlər də tədqiqat obyektinə çevrilməlidir. Məqalədə inkişafın Azərbaycan modeli ilə bağlı fundamental təhlillərin zərurətindən danışılır. Kollektivimiz hesab edir ki, Azərbaycanın müasir sosial-iqtisadi və mədəni inkişafı, qazandığı uğurlar təbliğ olunmalı və tədqiq edilərək Şərq cəmiyyətlərinə bir model kimi təqdim olunmalıdır. Bunun Şərq xalqları üçün böyük əhəmiyyəti və faydası olacaq. Bu baxımdan, ilk addım kimi, 2010 il mart ayının 17-18 tarixlərində «Müasir Şərq ölkələrinin sosial-iqtisadi inkişafı və Azərbaycan modeli» adlı beynəlxalq konfrans təşkil etmək fikrindəyik. Onu da əlavə edim ki yuxarıda adı çəkilən tədqiqatların nəticələri və adı çəkilən konfransın materialları qısa zamanda ərəb, fars və türk dillərinə çevrilərək, yayımlanacaq.

Müasir dünyada şərqşünaslıq elminə maraq son dərəcə artmışdır. Təkcə böyük dövlətlərdə deyil, Malta kimi kiçik ölkələrdə də yeni şərqşünaslıq mərkəzləri yaradılır, mövcud araşdırma qurumları genişləndirilir. Bu da beynəlxalq proseslərdə Şərq dövlətlərinin rolu və yerinin güclənməsi ilə birbaşa bağlıdır. Hazırda dünyanın diqqət mərkəzində regional münaqişələr və terrorizm problemləri, etnokonfessional münasibətlər və demoqrafiya məsələləri, islam fundamentalizmi və radikal islami qruplaşmalar kimi mövzular dayanır ki, bunların da əsas meydanı Şərqdir. Azərbaycan bir tərəfdən Yaxın və Orta Şərq regionuna yaxındır, digər tərəfdən Avrasiya geosiyasi məkanına daxildir. Belə olan halda aparıcı Şərq ölkələrində gedən proseslərin elmi araşdırılmasının ölkəmiz üçün əhəmiyyətini sübut etməyə ehtiyac varmı?

Azərbaycanın tarixi, mədəniyyəti, ədəbiyyatı, incəsənəti müsəlman Şərqinə qırılmaz tellərlə bağlıdır, cəmiyyətimizdəki bir sıra mental xüsusiyyətlər, sosial-psixoloji faktlar islam dinindən qaynaqlanır. Bütün bunlar Azərbaycan şərqşünaslığının öyrənməli olduğu məsələlərdir.

Müasir mərhələdə Şərqşünaslıq İnstitutu ənənəvi İran-Türkiyə-Ərəb ölkələri üçbucağından çıxmalıdır. Bunu həm müstəqil dövlətimizin beynəlxalq mövqeyi və əlaqələri, həm də bu elmin inkişaf perspektivləri tələb edir. Belə

ki, biz artıq Şərq anlayışına qonşu müsəlman dövlətləri çərçivəsində yanaşa bilmərik. Ölkəmizin Çin, Yaponiya, Cənubi Koreya, Hindistan, Pakistan, Mərkəzi Asiya dövlətləri ilə günbəgün genişlənən əlaqələri bu regionun öyrənilməsini də zəruriləşdirir. İnkişafın özünəməxsus modelini tapmış Malayziya , Cənub-Şərqi Asiya ölkələrinin tədqiqi də bizim üçün önəmlidir. Həm də bütün dünyada şərqşünaslıq elmi şərq araşdırmalarından (oriental studies) Asiya tədqiqatlarına doğru (Asian studies) istiqamət götürmüşdür.

Tədqiqat coğrafiyasının genişləndirilməsi istiqamətində biz artıq bəzi addımlar atmışıq. «Çin Xalq Respublikası» adlı məlumat kitabı hazırlanaraq nəşr olunub, «Şərq ölkələri» adlı 50 çap vərəqi həcmində məlumat kitabı çapa təqdim edilib. Əsərdə bütün Şərq ölkələrinin tarixi, coğrafiyası, əhalisi, iqtisadiyyatı, etnik və dini tərkibi, təbii sərvətləri, mədəniyyəti və müxtəlif sahələrdəki inkişaf göstəriciləri haqqında müfəssəl məlumat verilir. Hazırda İnstitutda İslam ensiklopediyası üzərində iş gedir. Mütəmadi olaraq üç dövrü nəşr – «Elmi araşdırmalar», «Orta əsrlər Şərqi» və «Şərq filologiyası» topluları nəşr edilir. Bununla belə geniş ictimaiyyəti İnstitutumuzun fəaliyyəti və ümumən Şərq haqqında ən mühüm məlumatlarla daha yaxından tanış etmək üçün «Azərbaycan şərqşünaslığı» adlı elmi-kütləvi jurnalın nəşrinə başlamışıq.

Daha bir məsələ. Azərbaycan Respublikası bütün dünya azərbaycanlılarının dövlətidir. Bunu cənab İlham Əliyevin «Mən 50 milyonluq Azərbaycan xalqının prezidentiyəm» sözləri də təsdiq edir. Bu xalqın böyük bir hissəsi Arazın o tayında – İran İslam Respublikasında yaşayır. Düşünürəm ki, Cənubi Azərbaycanda yaşayan soydaşlarımızın ictimai-siyasi və mədəni inkişafının öyrənilməsi də bizim İnstitutumuzun prioritet istiqamətindən biri olmalıdır. Nəzərə alaq ki, cənubi azərbaycanşünaslıq elmi istiqamət kimi məhz Şərqşünaslıq İnstitutunda yaranıb və bu gün də uğurla inkişaf edir. Bir sözlə, Şərqşünaslıq İnstitutu bu gün müstəqil Azərbaycanın milli və dövlət maraqlarına xidmət edən zəruri bir elmi tədqiqat mərkəzi olmaqla yeni dövrün tələbləri ilə ayaqlaşan inkişaf mərhələsinə qədəm qoyub.

Beləliklə, Şərqşünaslıq İnstitutunun öyrənəcəyi məsələlər dairəsi kifayət qədər genişdir və onun perspektiv inkişafı üçün obyektiv şərtlər yetərincədir. Həllini tapmalı olan məsələlərdən biri İnstitutun müvafiq dövlət orqanları (Xarici işlər Nazirliyi, Milli Təhlükəsizlik Nazirliyi, Dini Qurumlarla iş üzrə Dövlət Komitəsi, Xaricdə yaşayan soydaşlarımızla iş üzrə dövlət Komitəsi və s.) ilə sıx əməkdaşlığının forma və mexanizmlərinin işlənməsi, həmin qurumların analitik informasiya təminatında alimlərimizin potensialından səmərəli istifadə olunmasıdır. Hərçənd, ötən dövr ərzində ayrı-ayrı məsələlərə dair belə əməkdaşlığın nümunələri kifayət qədər olub.

Şübhə doğurmayan məsələ budur ki, elmdə islahatlar günün tələbidir. Həm də bu islahatlar, məqalədə qeyd olunduğu kimi, varisliklə novatorluğun vəhdəti əsasında həyata keçirilməlidir. Belə olarsa, biz azərbaycanlı olaraq, dünyanın hər yerində təkcə təbii sərvətlərimizlə deyil, həm də elmi-intellektual sərvətlərimizlə öyünə bilərik.

İslahatlar zamanı xüsusi diqqət elmin təşkilində çevikliyin təmin olunmasına yetirilməlidir. Bu sahədə kök salmış bürokratik metodlardan imtina edilməli, elmi fəaliyyətin maliyyələşdirilməsində daha müasir və mütərəqqi formalardan istifadəyə üstünlük verilməlidir. Bu gün ən başlıca məqsəd Azərbaycan elmini daha çevik, dövlətin və cəmiyyətin real tələbatına cavab verən və gələcək inkişafına xidmət edən səviyyəyə yüksəltməkdir.

«Azərbaycan» qəzeti, 19 dekabr 2009-cu il.
«İctimai və humanitar elmlər:
zaman kontekstində baxış» kitabında
2010-cu ildə yenidən çap edilib.

GÖRKƏMLİ ŞƏRQŞÜNAS-ALİM, PROFESSOR AİDA İMANQULİYEVANIN AZƏRBAYCAN ŞƏRQŞÜNASLIQ ELMİNİN İNKİŞAFINDA ROLU

Azərbaycan elminin çoxəsrlik inkişafı tarixində XX əsrin xüsusi yeri var. Məhz bu zaman ölkəmizdə elmin ən müxtəlif sahələrinin sistemli inkişafı və çiçəklənməsi başlanır. Digər elm sahələri ilə yanaşı ictimai və humanitar elmlər də surətlə inkişaf edir, milli və ümumbəşər elminə dəyərli töhfələr verir. Bu sırada Azərbaycan şərqşünaslıq elmi xüsusi qeyd olunmalıdır. Məhz bu dövrdə şərqşünaslıq elminin ən müxtəlif sahələri inkişaf etmiş, qüdrətli elmi potensial yaranmış, yüksək ixtisaslı milli şərqşünas kadrlar yetişmişdir. Hər əsəri elmdə yeni söz, yeni tapıntı olan parlaq alimlər, işıqlı şəxsiyyətlər yaşayıb-yaratmışlar. Görkəmli şərqşünas-alim, Azərbaycanda ərəbşünaslıq üzrə ilk filologiya elmləri doktoru, professor Aida xanım İmanquliyeva belə alimlərdəndir. Dərin nəzəri bilikləri, analitik təfəkkürü, yüksək erudisiyası, geniş mütaliəsi, bir neçə şərq və qərb dillərini bilməsi sayəsində apardığı tədqiqatlar və yazdığı əsərlər qısa bir vaxt ərzində ona nəinki keçmiş Sovetlər Birliyində, hətta bir çox xarici ölkələrdə geniş şöhrət gətirmişdir.

Aida Nəsir qızı İmanquliyeva 1939-cu il oktyabrın 10-da Bakı şəhərində ziyalı ailəsində anadan olmuşdur. 1957-ci ildə Bakı şəhərinin 132 saylı orta məktəbini qızıl medalla bitirmişdir. 1957-ci ildə S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinin ərəb filologiyası bölməsinə daxil olmuşdur. 1962-ci ildə Universiteti bitirəndən sonra həmin universitetin Yaxın Şərq xalqları ədəbiyyatı tarixi kafedrasının aspirantı olmuş, daha sonra keçmiş SSRİ EA Asiya xalqları institutunun aspiranturasında təhsil almışdır. 1966-cı ildə namizədlik dissertasiyasını müdafiə edən Aida İmanquliyeva Azərbaycan EA Şərqşünaslıq İnstitutunda işə başlamışdır.

Aida xanım elmin bütün enişli-yoxuşlu yollarını pillə-pillə keçmişdi, öz zəhməti, istedadı, zəkası, qabiliyyəti sayəsində kiçik elmi işçidən, baş elmi işçi, şöbə müdiri, elmi işlər üzrə direktor müavini və, nəhayət, Azərbaycan Elmlər Akademiyası Şərqşünaslıq institutunun direktoru vəzifəsinəcən yüksəlmişdi.

1989-cu ildə Aida xanım İmanquliyeva Tbilisi şəhərində müvəffəqiyyətlə doktorluq dissertasiyası müdafiə etmiş, filologiya elmləri doktoru elmi dərəcəsini və tezliklə bu ixtisas üzrə professor adı almışdır.

3 monoqrafiya («Mixail Nüaymə» və «Qələmlər birliyi», M., 1975; «Cübran Xəlil Cübran», B., 1975; «Yeni ərəb ədəbiyyatı korifeyləri», B., 1991) və 70-dən artıq elmi məqalənin müəllifi olan A.N.İmanquliyeva Şərq filologiyası sahəsində

yazılmış bir çox elmi əsərlərin redaktoru olmuşdur. Azərbaycan EA Şərqşünaslıq İnstitutunda fəaliyyət göstərən «Asiya və Afrika xarici ölkələri xalqları ədəbiyyatları» ixtisası üzrə müdafiə şurasının sədri olmuşdur.

Prof. A.N.İmanquliyeva Azərbaycan şərqşünaslıq elmini dəfələrlə yaxın və uzaq xarici ölkələrdə (Moskva, Kiyev, Poltava, Sankt-Peterburq, Hamburq, Halle və s.) təmsil etmişdir.

Aida İmanquliyeva elmi-təşkilati fəaliyyətində yüksək ixtisaslı ərəbşünas kadrların hazırlanmasını diqqət mərkəzində saxlamışdır. Onun rəhbərlik etdiyi «Ərəb filologiyası» şöbəsində qısa müddətdə 10-dan artıq namizədlik dissertasiyası müdafiə edilmişdir.

Aida İmanquliyeva Ümumittifaq Şərqşünaslar Cəmiyyətinin Rəyasət Heyətinin, Şərq ədəbiyyatlarının tədqiqi üzrə Ümumittifaq Koordinasiya Şurasının və Azərbaycan Yazıçılar Birliyinin üzvü olmuşdur.

O, uzun illər pedaqoji fəaliyyətlə də səmərəli məşğul olmuş, Azərbaycan Dövlət Universitetində ərəb filologiyası fənnindən mühazirələr oxumuşdur.

Professor A.İmanquliyeva Azərbaycanda Şərq-Qərb qarşılıqlı ədəbi əlaqə və təsirini sistemli şəkildə araşdıran ilk azərbaycanlı alimdir. Şərq və Qərb mədəniyyətlərinin qarşılıqlı təsir və əlaqələrini öyrənərkən alim hər iki ədəbiyyatın ümumbəşəri dəyərlərini əsas götürür, mədəni tərəqqini şərtləndirən amillərə istinad edirdi. Onun tədqiqatları nəticəsində mütləq bir həqiqət müəyyənləşmişdir: Şərqin bir çox ölkələrinin müasir inkişafı bir həqiqəti ortaya qoyur - Qərbin mədəni dəyərləri o zaman yerli zəmində kök sala və onu zənginləşdirə bilər ki, onlar Şərq ənənəsinə və milli xarakterə uyğun formalarda əxz edilsinlər. Alimin çoxsaylı elmi əsərlərində Qərb və Şərq mədəni ənənələrinin sintezi, yaradıcı üslubun inkişafı və yeni bədii üslubun təşəkkül tapması tədqiq olunur ki, bu da nəinki ərəb ədəbiyyatının, həmçinin bütün yeni Şərq ədəbiyyatlarının həmin aspektdə tədqiqi üçün çox mühüm zəmin yaradır.

Bir vaxtlar Qərb və Şərq mədəniyyətlərinin qarşılıqlı əlaqə və təsirinin tədqiqi hakim ideologiyanın tələblərinə uyğun olaraq ciddi təhriflərə məruz qalırdı. Şükürlər olsun ki, o zamanlar artıq arxadadır, ön plana isə qarşıdurma yox, sivilizasiyaların dialoqu və ortaq mədəni və mənəvi dəyərlər çəkilib. Lakin elə o dövrdə yetişən və alim kimi formalaşan nadir istedad sahibləri var idi ki, zamanı qabaqlayaraq problemə ideoloji aspektdən fərqli olaraq universal modellər, ümumbəşəri dəyərlər müstəvisində yanaşırdılar. Aida Nəsir qızı İmanquliyeva məhz belə alim-tədqiqatçılardan idi.

Bir alim kimi Aida xanım İmanquliyevanın maraq dairəsi geniş və çoxşaxəli idi. Amma onun çoxsaylı elmi araşdırmalarının əsas tədqiqat obyekti ərəb məhcər ədəbiyyatı idi.

XIX əsrin sonunda bir çox ərəb ölkəsinin, ilk növbədə Livanın, ictimai-

siyasi və iqtisadi həyatındakı problemləri insanları vətəni tərk edib, kütləvi şəkildə ABŞ-a mühacirət etməyə məcbur etdi. Yaradıcı Livan ziyalılarının ABŞ-a, xüsusilə də, Nyu-York şəhərinə mühacirəti ilə ərəb məhcər ədəbiyyatının təşəkkülü başlandı, bu da nəticədə yeni ərəb ədəbiyyatının formalaşmasında əhəmiyyətli rol oynayan xüsusi və özünəməxsus «Suriya-Amerika məktəbi»nə çevrildi. Ərəb ədəbiyyatını fəal şəkildə əcnəbi ədəbiyyatların təcrübəsinə qoşmaq yolu ilə onu yeniləşdirmək rolu «Suriya-Amerika məktəbi»nin aparıcı nümayəndələrinin üzərinə düşdü.

Alimin çoxsaylı və gərgin araşdırmaları sayəsində aşağıdakı nəticələr əldə edilmişdir: Ərəb məhcər ədəbiyyatı yazıçılarının yaradıcılığının əhəmiyyəti ondadır ki, onlar Avropa və Amerika ədəbiyyatının etik və bədii dəyərlərini yenilik ruhunda əxz etmiş, yeni formada ifadə etmiş, onların nailiyyətlərinin ən yaxşı milli ənənələrlə sintezdə təcəssüm etdirmişlər. «Suriya-Amerika məktəbi»nin ən istedadlı sənətkarları əcnəbi ədəbiyyatlarını məhz ərəb ölkələrinin ən mühüm ictimai inkişaf tələblərinə cavab verən nailiyyətlərini mənimsəmişlər. Bu yazıçıların fəaliyyəti sayəsində XX əsrin əvvəllərində ərəb ədəbiyyatı regional birliklər çərçivəsində qapanaraq qalmaq ənənəsini dəf edə və dünya ədəbi prosesinə fəal şəkildə qoşula bilmişdir. «Suriya-Amerika məktəbi» yazıçılarının yaradıcılığı qeyri-adi vəziyyətin nümunəsi oldu - onun əlaqə dairəsinə eyni vaxtda üç ənənə: «göl məktəbi», Amerika transsendentalizmi və rus ədəbiyyatının tənqidi realizmi daxil oldu. Bunları təhlil edən tədqiqatçı yazır: «Ədəbi faktların təsviri, müqayisəli təhlili və öyrənilməsi yeni ərəb ədəbiyyatının formalaşmasına dair təsəvvürləri nəinki genişləndirir, həm də Şərqin yeni ədəbiyyatının tarixi inkişafının mürəkkəb və ziddiyyətli formalarının tipoloji baxımdan həqiqi mənzərəsini canlandırdı. «Suriya-Amerika məktəbi»nin adı çəkilən üç cərəyanla təmasının nəticəsi burada müəyyən bədii metodların formalaşması oldu: «göl məktəbi» və transsendentalizm Cübran və ər-Reyhaninin yaradıcılığında romantik metodun təşəkkül tapmasına səbəb oldusa, rus ədəbiyyatı ilə əlaqə və ünsiyyət isə realist Nüayməni formalaşdırdı».

Tədqiqatçı məhcər ədəbiyyatının yaradıcılarının ədəbi-bədii üslubunun bütün incəliklərini tədqiqat obyektinə çevirir: «Mühacir yazıçılar yeni ədəbi üslubun yaradıcıları idilər. Onlar mümkün olan qədər bu üslubu arxaizmlərdən, ağır sintaktik quruluşlardan, müxtəlif növ süni bəzək yığınından azad etmişlər. Bununla bərabər, onlar ərəb klassik ədəbiyyatının ənənə və dəyərlərinə qayğılı münasibət nümayiş etdirmişlər».

Alim ərəb məhcər ədəbiyyatının ən müxtəlif bədii üsluba malik nümayəndələrinin yaradıcılığını araşdırdı: Nuaymə yaradıcılığında rus ədəbiyyatının təsiri ilə formalaşan tənqidi realizmi öyrəndi, Cübran yaradıcılığında ingilis

poeziyasının təsiri ilə romantizm üslubunun inkişaf prosesini izlədi, Amerikan transsendentalistlərinin Əmin ər-Reyhani və digərlərinin yaradıcılığında oynadığı rolu müəyyənləşdirdi. Bu zaman o yüzlərlə ədəbiyyat oxuyur, yazıçılarının ən məşhur əsərlərini təhlil edir, onların yaradıcılıq metodunu, dünyagörüşünü, nəsr və poeziya dillərinin təkamülünü, lirizmi, müxtəlif qəhrəman obrazlarının xüsusiyyətlərini tədqiq edir, dünya ərəbşünaslığında ilk dəfə olaraq ərəb-Amerika, Qərbi Avropa və rus ədəbi əlaqələrinin məğzi və əhəmiyyətini tam aşkar edir, ərəb məhcər ədəbiyyatının ən görkəmli nümayəndələrinin bədii üslubunun formalaşmasında Qərb və rus ədəbiyyatlarından mənimsəmə prosesi və onun nəticələrini müəyyənləşdirir.

Alimin gəldiyi qənaətə görə, ədəbi inkişaf prosesi gedişində maarifçi didaktizm, sentimentalizm cizgiləri qeyd olunan ərəb yazıçıları tərəfindən aradan qaldırılmış, romantizmin və tənqidi realizmin poetikası mənimsənilmişdir. Beləcə onlar içərisində olduqları tarixi gerçəkliyi əks etdirmək üçün çox zəruri olan yeni ideya və yeni formaları özündə daşıyan Qərb mədəniyyəti və ədəbiyyatının nailiyyətlərindən yaradıcı surətdə faydalanmışlar.

Bu yazıçıların hər biri öz yaradıcılıq metoduna xas olan etik və bədii dəyərlər ehtiyatmı işə salaraq, onu özünəməxsus şəkildə bədii təcrübədən keçirmişdir.

Cübran və ər-Reyhani Qərb romantizminə müraciət etmişlər. Lakin ərəb romantik şairlərdən fərqli olaraq, bu yazıçılar yalnız onun zahiri xüsusiyyətlərini mexaniki şəkildə qəbul etməmiş, romantizmi yaradıcı metod kimi, yəni onlara ərəb gerçəkliyinə öz münasibətlərini ifadə etmək imkanı verən yeni nəzər nöqtəsi kimi mənimsəmişlər. Onlar ilk olaraq Maarifçiliyin artıq daralmış çərçivəsini qıraraq romantizm cəbhəsinə keçmişlər. Cübranın və ər-Reyhaninin yaradıcılığında romantik istiqamət nəinki mənimsənilmiş, həm də zənginləşmiş və mürəkkəbləşmişdir. Bu, bir tərəfdən ərəb ədəbiyyatının xüsusi ənənələri ilə Qərb romantizmi təcrübəsinin mürəkkəb sintezi nəticəsində, digər tərəfdən hər iki sənətkarın fərdi istedadı sayəsində baş vermişdir. Beləcə, onlar ümumbəşəri problemlərin qoyuluşu səviyyəsinə yüksəlmiş və dünya ədəbi prosesinin nəinki bərabərhüquqlu iştirakçısı olmaq, həm də yeni bədii dəyərlərin dünya ədəbiyyatına ötürücüsü kimi çıxış etmək imkanı qazanmışlar.

A.İmanquliyeva araşdırmalarının sonunda belə bir müddəa irəli sürür ki, ərəb ədəbiyyatı xarici ədəbiyyatların nailiyyətlərindən faydalanmasında ilk növbədə məhcər ədəbiyyatı nümayəndələrinə borcludur. Məhcər yazıçıları Qərb ədəbiyyatının pozitiv təsiri orbitində olaraq, onun ən yaxşı nailiyyətlərini mənimsəmiş və özlərinə məxsus şəkildə inkişaf etdirmişlər. Öz əsərlərində milli ruhu və milli koloriti qoruyub saxlaya bilən yazıçılar, yeni ərəb ədəbiyyatının

inkişafında əvəzsiz rol oynamışlar. Məhz bu yazıçıların yaradıcılığı sayəsində XX əsr ərəb ədəbiyyatının mövzu dairəsi genişlənmiş, janr quruluşu daha da rəngarəng olmuş, bədii ifadənin yeni formaları yaranmış və ərəb ədəbiyyatı ümumbəşər mədəniyyətinin ayrılmaz hissəsinə çevrilmişdir.

Bütün bunlarla bahəm A. İmanquliyeva tədqiqatlarında mövzu ilə əlaqəli ümumbəşər elmi-ədəbi və fəlsəfi fikrində mövcud olan müxtəlif ideya axınlarını, onların xüsusiyyətlərini, tətbiq sahələrini öyrənmiş və nəzəri təhlillər aparmışdır.

Aida xanımla 15 il birgə çalışan bir insan kimi bir məsələni də xüsusi vurğulamaq istəyirəm. Ana təbiət Aida xanımı yaradarkən çox səxavətli olmuş, ona şəxsi və intellektual keyfiyyətlərlə yanaşı, qibtəedici bir zahiri gözəllik də bəxş etmişdi. Onun gözəlliyini vəsf etmək üçün bəlkə də Füzuli qələmi, Ələsgər sözü gərəkdir. Aida xanımın həyatdan erkən getməsi onun həmkarlarını və tələbələrini hədsiz kədərləndirdi və sarsıtdı.

Bu günlərdə görkəmli şərqşünas-alim, elm təşkilatçısı, pedaqoq, filologiya elmləri doktoru, professor Aida xanım İmanquliyevanın yubileyidir. Yaşasaydı, ailəsi, həmkarları, tələbələri ilə birlikdə bu günü fərəhlə qarşılayardı. Çox təəssüf ki, onun ömür yolu qısa oldu. Amma onsuz ötən illər bir həqiqəti də ortaya qoydu: Aida xanım bizdən yalnız cismən ayrılıb. Adı dillərdən düşmür, xatirəsi ürəklərdən silinmir. Onun ruhu aramızda dolanır, övladlarında, əsərlərində, tələbələrində, həmkarlarında yaşayır, yolumuzu işıqlandırır, bizi sabaha səsləyir. Əsərləri dönə-dönə oxunulur, təhlil və tədqiq edilir, tərcümə olunur, yenidən işıq üzü görür. Nə qədər ki, onun alim qələmi ilə uğrunda mübarizə apardığı ideya və amallar aktuallığını itirməyib, nə qədər ki, Şərq və Qərb münasibətlərində tam harmoniya bərqərar olmayıb, insanlar yenə və yenə Aida İmanquliyevanın əsərlərinə müraciət edəcək və gələcək nəsillər onu daim minnətdarlıqla xatırlayacaqlar.

Düşünürəm ki, bu yubiley günlərində biz Aida xanımın xatirəsi qarşısında bir borcumuzu da verməliyik: onun xatirəsi layiqincə əbədiləşdirilməlidir. Bu - Aida xanımın özünə yox, böyüməkdə olan gənc nəslə, onun elmə, alimə hörmət və ehtiram ruhunda tərbiyə olunması üçün zəruridir.

Allah qəni-qəni rəhmət eləsin! Məzarı nurla dolsun!

«Azərbaycan şərqşünaslığı» jurnalı,
№ 2, 2009-cu il.

AMEA AKAD. Z.M.BÜNYADOV ADINA ŞƏRQŞÜNASLIQ İNSTİTUTUNDA 2010-2015-Cİ İLLƏRDƏ ELMİN İNKİŞAFI STRATEGİYASI

«Qoca Şərqin qapısı» adlanan Azərbaycanın çoxəsrlik tarixi, ictimai fikri, mədəniyyəti, ədəbiyyatı məhz Yaxın və Orta Şərq ölkələrində gedən proseslərlə üzvi sintezdə inkişaf edərək təşəkkül tapmışdır. Böyük alim və mütəfəkkirlərimiz öz qiymətli əsərləri ilə daim Şərq xalqlarının elm və mədəniyyətini zənginləşdirmiş, həmin xəzinəyə qiymətli töhfələr vermişlər. Bu gün demokratik dünyaya inteqrasiya olunan ölkəmiz yeni sistemə məhz tarixən formalaşmış həmin mədəni-mənəvi dəyərlərlə daxil olur. Belə bir vəziyyətdə, yəni çoxəsirlik mədəniyyətinin təməlində ümumşərq faktoru aparıcı yer tutan müstəqil dövlətimizin dünyanın maraq dairəsində olan regiona diqqətinin artması çox təbiidir. Bunu Prezident İlham Əliyevin Şərq ölkələrinə ardıcıl səfərləri, İslam Konfransı Təşkilatı və EKO-da Azərbaycanın fəal iştirakı da təsdiqləyir. Amma bir həqiqət də var ki, Şərqin tarixini, mədəniyyətini, iqtisadiyyatını, ictimai-siyasi fikrini, filologiyasının aktual problemlərini kompleks şəkildə öyrənmədən, baş verən proseslərin mahiyyətini təhlil etmədən regionda baş verən hadisələri diqqətdə saxlamaq və onlardan bəhrələnmək mümkün deyil.

Ümumiyyətlə, Azərbaycan şərqşünaslıq elmi həmişə Yaxın və Orta Şərqi əlahiddə və yaxud ümumdünya proseslərindən təcrid olunmuş şəkildə deyil, Şərq-Qərb sivilizasiyalarının müqayisəsində və ənənələrin sintezində tədqiq edərək, bu gün bütün siyasi güclərin vurğuladığı qütblərarası dialoqun yaranmasına zəmin hazırlamağa çalışmışdır.

Respublikamızın müstəqillik qazanması AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun önündə yeni üfüqlər açmaqla bərabər, həm də ciddi vəzifələr qoyub. Belə ki, xarici siyasət xəttini bu gün müstəqil surətdə müəyyən edən Azərbaycan Respublikası üçün Şərq ölkələri ilə iqtisadi, siyasi və mədəni əlaqələrin genişləndirilməsi və regionda gedən proseslərdə dövlət maraqlarının qorunması İnstitutun elmi fəaliyyət dairəsinin daha da tutumlu olmasını, bir sıra yeni istiqamətlərin yaradılmasını və ciddi keyfiyyət dəyişikliklərinin həyata keçirilməsini vacib edib.

Fikrimizcə, Azərbaycanda şərqşünaslıq elminin inkişaf strategiyası aşağıdakı on əsas elmi istiqamətlə bağlı olmalıdır.

1. Şərq ölkələrinin tarixi, bu ölkələrdə cərəyan edən ictimai-siyasi, iqtisadi və etnik proseslər, bu ölkələrin beynəlxalq münasibətlər sistemində rolu, Azərbaycanla əlaqələri.

Məlumdur ki, yaxın keçmişimizəcən hər hansı bir Şərq ölkəsinin tarixində baş verən ictimai-siyasi prosesə sinfi mübarizə baxımından qiymət verilirdi. Zaman tələb edir ki, Şərq xalqlarının obyektiv tarixi yazılsın. Ölkənin tarixi yazılarkən onun etnoqrafiyası, arxeologiyası, xalqın psixologiyası, etnogenezi, dini mənsubiyyəti yaddan çıxarılmasın. Müasir dövrdə Şərq ölkələrinin beynəlxalq aləmdə tutduğu mövqe, regional problemlərin həllində yürütdükləri siyasət, ölkənin həyatında müxtəlif siyasi cərəyanların və dini hərəkatların müəyyənləşdirilməsi, milli və etnik problemlərin öyrənilməsinə diqqət xüsusilə artırılmalıdır.

Aşağıdakı istiqamətlərdə aparılan tədqiqatlardan əldə edilən nəticələr müstəqil Azərbaycan dövlətinin Şərq siyasətinin formalaşmasında istifadə oluna bilər:

- Şərq ölkələrində daxili və xarici siyasətin öyrənilməsi;
- Şərq ölkələrində ictimai proseslərin, ictimai şüur səviyyəsinin və strukturunun öyrənilməsi;
- Şərq ölkələrinin diplomatik tarixinin öyrənilməsi;
- Şərq ölkələrində milli münasibətlərin öyrənilməsi;

Son illərdə Yaxın Şərqdə baş verən geosiyasi proseslər, qloballaşmanın ictimai-siyasi, iqtisadi və mədəni həyata təsiri, Şərqlə Qərb arasında sivilizasiyalararası dialoq kimi məsələlərin ortaya çıxması şərqşünaslığın tematikasını genişləndirməyi tələb edir. Digər tərəfdən, müstəqil Azərbaycan Respublikasının beynəlxalq əlaqələrinin artması ilə əlaqədar Cənub-Şərqi Asiya və Uzaq Şərq regionu ölkələrinin (Yaponiya, Çin, Koreya, İndoneziya, Hindistan və s.) müasir durumunun araşdırılmasına və ətraflı məlumat bazasının toplanmasına ehtiyac duyulur.

Müasir dövrdə regionun artmaqda olan strateji əhəmiyyəti, burada cərəyan edən iqtisadi və siyasi proseslər Cənubi Azərbaycan problemini daha da aktuallaşdırır, Cənubi Azərbaycan tarixi məsələlərinin İran tarixinə dərindən bələd olan şərqşünas-alimlər tərəfindən hərtərəfli və İranda baş verən siyasi proseslərlə əlaqəli şəkildə öyrənilməsini tələb edir. İran İslam Respublikasında milli münasibətlər mövzusu İranda bu problemin demokratik prinsiplər əsasında tənzimlənməsi, etnik azərbaycanlıların qeyri-bərabər hüquqlu çoxsaylı milli azlıq (əslində çoxluq) təşkil etməsi, milli hərəkatlarının intevsivləşməsi, bütün etnososial birliklərin «bölünmüş xalqlar» kateqoriyasına daxil olması məsələnin aktuallığını nümayiş etdirir və öyrənilməsini zəruri edir.

Bu gün iqtisadi məsələlərin ön plana çəkildiyi və yenidən qurulduğu bir dövrdə xarici Şərq ölkələrinin iqtisadi inkişaf yolları araşdırılarkən, əsas diqqət müasir dövrə yönəldilməlidir:

- Azərbaycanın Şərq ölkələri üzrə əsas iqtisadi partnyorlarının maddi istehsal və istehsal infrastrukturunun əsas sahələrinin hazırkı vəziyyəti və inkişaf tendensiyaları, bu ölkələrin istehsalatının ixraca yönəldilmiş sahələrinin formalaşması və fəaliyyət xüsusiyyətləri, onların idxal tələbatları və imkanları;

- xarici iqtisadi əməkdaşlığı nöqteyi-nəzərindən Şərq ölkələrinin əsas sənaye, kommersiya, tikinti-podryat şirkətlərinin və maliyyə təşkilatlarının maliyyə-təsərrüfat vəziyyəti;

- yığdıqları müsbət təsərrüfatçılıq təcrübələrindən istifadə etmək məqsədilə Şərq ölkələrində bazar iqtisadiyyatının inkişaf modelləri, habelə onların xarici iqtisadi siyasətinin əsas prinsipləri və xüsusiyyətləri;

- Şərq ölkələrində xarici sərmayədən istifadə yolları.

Şərq ölkələrinin iqtisadiyyatını araşdırarkən, üstünlük yüksək iqtisadi inkişafa malik və Azərbaycanın xarici iqtisadi əlaqələrində mühüm rol oynayan, yaxud yaxın gələcəkdə oynaya biləcək ölkələrə verilməlidir.

2. Müstəqil Azərbaycan Respublikası və Şərq ölkələri: qarşılıqlı əlaqələr və təcrübə mübadiləsi. İnkişafın Azərbaycan modeli və müasir Şərqin sosial-iqtisadi inkişafı.

3. Azərbaycanın xarici siyasətində Şərq amili. Prezident İlham Əliyevin Şərq siyasəti.

Müstəqil Azərbaycanın xarici siyasətində Şərq amili böyük rol oynayır. Bunu ümummilli liderimiz Heydər Əliyevin Şərq ölkələrinə dair xarici siyasəti və Prezident İlham Əliyevin Şərq ölkələrinə ardıcıl səfərləri, İslam Konfransı Təşkilatı və EKO-da Azərbaycanın fəal iştirakı da təsdiqləyir. Ölkəmizin xarici Şərq siyasətində qazandığı uğurlar, əldə etdiyi nailiyyətlər, qurduğu çoxtərəfli əlaqələr ətraflı təhlil və tədqiq edilməlidir.

4. Türkdilli xalqların inteqrasiyası və müstəqil Azərbaycan Respublikasının dövlət siyasəti.

- İnstitut daxilində Mərkəzi Asiya respublikalarını tədqiqata cəlb etməklə türkoloji araşdırmalar gücləndirilməlidir. Ortaq tarixi-mədəni keçmişə malik olduğumuz türk xalqları ilə ictimai-siyasi, mədəni və iqtisadi inteqrasiyanı dərinləşdirmək zərurəti də Mərkəzi Asiya regionunun dərindən araşdırılmasını tələb edir. Müasir Azərbaycan Respublikasının banisi, ümummilli liderimiz Heydər Əliyevin və Prezident İlham Əliyevin Türkdilli xalqların inteqrasiyasına yönəlmiş daxili və xarici siyasəti araşdırılmalı, bu sahədə əldə edilmiş nailiyyətlər təhlil olunmalıdır.

5. Qarabağ probleminə və digər prioritet mövzulara həsr olunmuş müxtəlif materialların ərəb, fars və türk dillərinə qısa zamanda tərcüməsi və çap edilərək yayımlanması.

Konkret yerli və beynəlxalq sənədlər əsasında Ermənistanın Azərbaycana qarşı təcavüzü haqqında kitablar hazırlanmalı və başqa dillərə tərcümə edilərək yayımlanmalıdır.

6. Şərqin yazılı abidələrinin tədqiqi, tərcüməsi və nəşri.

Azərbaycan və Şərq xalqlarının tarixinə, ədəbiyyatına, elminə və mədəniyyətinə aid əlyazmaların və qədim mənbələrin tekstoloji tədqiqi və təhlili, şərhli tərcüməsi və nəşri davam etdirilməlidir.

Bu günə qədər Azərbaycanın mədəni inkişafına dair müxtəlif mənbələr dünyanın bir sıra kitabxanalarında saxlanılaraq hələ xalqımıza çatdırılmayıb. Alimlərimiz tərəfindən bu mənbələrin əldə edilməsi, tədqiqi və nəşri elmin çox mühüm və təxirəsalınmaz bir vəzifəsidir.

Şərq dillərindən Azərbaycan dilinə yalnız orta əsr mənbələrini deyil, eyni zamanda dünya şərqşünaslıq elminin görkəmli nümayəndələrinin son iki əsrdə yazdıqları bəzi tarixi, fəlsəfi və filoloji əsərləri də şərhlərlə tərcümə etmək faydalı olardı. Görkəmli dünya şərqşünaslarının Azərbaycana aid əsərlərini də şərhlərlə tərcümə etmək məqsədəuyğundur.

7. Yaxın və Orta Şərq ölkələrində ictimai fikir və din tarixi. Azərbaycanda islam.

Şərq ölkələrində baş verən ictimai-siyasi dəyişikliklər, dinin cəmiyyətdə roluna yeni baxış, dinin, o cümlədən islam dininin siyasətdə, ölkələrarası münasibətlərdə, dünya siyasətində rolu şərqşünas alimlər qarşısında yeni vəzifələr qoyur. Perspektivdə bu sahədə tədqiqatları aşağıdakı istiqamətlərdə aparmaq nəzərdə tutulur:

- İslam dinini, onun tarixini, yaranma səbəblərini, qloballaşan dünyada rolunu, siyasətdə, dövlət quruculuğunda yerini elmi nöqteyi-nəzərdən tədqiq etmək;
- Hazırda Şərq ölkələrində dini ideologiyanın ön plana çəkilməsinin səbəbləri və dinə pozitiv baxışın yaxın gələcəkdə hansı ictimai-siyasi dəyişikliklər yaradacağı məsələləri, onların Qafqaz bölgəsinə, xüsusilə Azərbaycana təsiri probleminin obyektiv işıqlandırılması;
- Azərbaycanda son dövrdə yaranmış və aktiv fəaliyyət göstərən müxtəlif dini təriqət və məzhəblərin hərtərəfli öyrənilməsi;
- Şərqdə ictimai fikir və onun inkişaf meyllərinin araşdırılması.

8. Şərq ədəbiyyatlarının və filologiyasının tədqiqi.

Qədim və müasir Şərq ədəbiyyatında mövcud olan müxtəlif ədəbi cərəyanlar və bədii üslubların tədqiqi və təhlili, bu ədəbiyyatların ən görkəmli nümayəndələrinin ədəbi irsinin araşdırılması nəzərdə tutulur. Perspektivdə bu istiqamət çərçivəsində «Türk ədəbiyyatı tarixi», «Ərəb ədəbiyyatı tarixi», «İran

ədəbiyyatı tarixi» kimi fundamental əsərlər yazılmalıdır. Müxtəlif Şərq xalqlarına məxsus nəsr və şeir antologiyaları tərtib edilməli və dilimizə çevrilərək xalqımıza çatdırılmalıdır.

Əsrlər boyu Azərbaycan ədəbiyyatı və bütövlükdə filologiya elmi müştərək ərəb-müsəlman mədəniyyətinin bir qolu kimi inkişaf etdiyindən, Azərbaycan-ərəb, Azərbaycan-fars və Azərbaycan-türk filoloji əlaqələrinin və genetik yaxınlığının çoxsaylı təzahürləri üzə çıxır ki, onları da müfəssəl surətdə öyrənmək filoloq-şərqşünasların üzərinə düşür. Səylərimizi müsəlman aləmində elmin və mədəniyyətin inkişafında müstəsna rolu olmuş, ərəb və fars dillərində yazmış azərbaycanlı alim və ədiblərin zəngin mənəvi irsinin araşdırılmasına və onları xalqa tanıtmağa yönəltməliyik. Şərqin özünəməxsus xüsusiyyətlərindən biri də, bəlkə də ən səciyyəvisi odur ki, onun ictimai-fəlsəfi fikri, bəzən də tarixi hadisələr məhz bədii əsərlərdə əks olunub. Belə əsərləri tədqiq edib dilimizə çevirmək son dərəcə zəruridir.

Müqayisəli dilçilik baxımından türk, ərəb və fars leksikoqrafiyasının araşdırılması davam etdirilməlidir. Bu sahədə aparılan tədqiqat Azərbaycan dilinin yaranması və inkişaf tarixinin araşdırılmasında müstəsna əhəmiyyətə malikdir.

Ərəb-Azərbaycan, Azərbaycan-ərəb, fars-Azərbaycan, Azərbaycan-fars və sairə Şərq dillərinə aid ikidilli irihəcmli və kiçikhəcmli lüğətlərin tərtibi davam etməlidir.

9. Şərq-Qərb sivilizasiyalararası münasibətlərin tədqiqi

Şərq-Qərb dialoqunun geopolitik və kultoroloji aspektləri tədqiq edilməlidir. Azərbaycanın Şərq-Qərb münasibətlərində yeri və rolu müəyyənləşdirilməlidir. Qloballaşan dünyada dinlərin və mədəniyyətlərin dialoqu hərtərəfli tədqiq olunmalıdır. Şərq-Qərb tarixi, iqtisadi, mədəni əlaqələri araşdırılmalıdır.

10. Müxtəlif Şərq ölkələrinə aid təhlili-analitik bülletenlərin müntəzəm hazırlanaraq, yayımlanması.

Müxtəlif Şərq ölkələrinin müasir durumuna dair məlumat xarakterli broşurların və təhlili-analitik bülletenlərin hazırlanması.

Şərq ölkələrində gələcək inkişaf mərhələlərinin və istiqamətlərinin proqnozlaşdırılması və Azərbaycanın bu ölkələrlə siyasi strategiyasına dair tövsiyələrin hazırlanması.

Nəzərə almaq lazımdır ki, şərqşünaslıq elmi bütövlükdə kompleks elmdir. O, müxəlif elm sahələrini (tarix, filologiya, fəlsəfə, iqtisadiyyat və s.) birləşdirərək, nəinki sistemli, hərtərəfli şəkildə Şərqin keçmişini öyrənir, eyni zamanda müasirliyi təhlil edir və hətta gələcək haqqında müəyyən proqnozlar verir.

Bu baxımdan yuxarıda göstərilən elmi istiqamətlər çərçivəsində işlər əsasən

iki yolla aparılmalıdır:

1. Şərqşünaslıq elminin əsasını təşkil edən Şərq tarixinin, mədəniyyətinin, bədii təfəkkür tərzinin, ictimai və fəlsəfi fikirlərinin ən vacib və aktual aspektlərini öyrənən fundamental tədqiqatların aparılması.

2. Elmi dəyəri ilə yanaşı geniş oxucu kütləsini maraqlandıran elmi-polulyar əsərlərin yazılması, eləcə də cari dövr üçün siyasi və ictimai əhəmiyyəti olan və elmi proqnozlar verən təhlili-informatik məlumatların hazırlanması.

Ümumiyyətlə, Şərqşünaslıq İnstitutunda aparılan tədqiqat işləri müasir dünyada gedən qlobal proseslərin mahiyyətinin anlaşmasında, problemlərin köklərinin üzə çıxmasında və dövlətimizin strateji maraqlarına xidmət edən xarici siyasət kursunun müəyyənləşməsində xüsusi önəm daşımalıdır.

Elmi-təşkilati sahədə görüləcək tədbirlər. Azərbaycan şərqşünaslıq elminin müasir dövrün tələblərinə cavab verəcək şəkildə inkişafını təmin etmək üçün aşağıdakı tədbirlərin həyata keçirilməsi zəruridir:

1) Yüksək ixtisaslı kadrların hazırlanmasını təmin etmək. Bu məqsədlə gənc aspirant, doktorant və mütəxəssislərin bilik səviyyələrinin yüksəldilməsi, elmi təcrübələrinin artırılması üçün onları dünyanın aparıcı elmi mərkəzlərinə stajirovkaya göndərilmələrini təmin etmək.

2) Beynəlxalq elmi əlaqələri gücləndirmək. Bu məqsədlə

- elmi işçilərin dünyanın aparıcı elmi mərkəzlərinə ezamiyyətə göndərilmələrini,
- elmi-informasiya mübadiləsinin təmini üçün tanınmış xarici alim və ekspertlərin Bakıya dəvət edilməsini,
- müvafiq sahələrdə dünyanın elmi mərkəzləri ilə müştərək elmi-araşdırma layihələrinin həyata keçirilməsini, beynəlxalq konfrans və simpoziumların təşkil edilməsini,
- Azərbaycanın şərqşünas alimlərinin əsərlərini aparıcı beynəlxalq elmi nəşr orqanlarında dərc edilməsini təmin etmək.

3) Azərbaycan şərqşünaslıq elmində tarixən yaranmış elmi ənənələrin və məktəblərin qorunmasını və davamlılığını təmin etmək. Bu məqsədlə böyük şərqşünas alimlərin elmi irsini davamlı tədqiq və nəşr etdirmək, gənc nəsilləri maarifləndirmək üçün bu alimlərin adına mütəmadi elmi tədbirlər (konfranslar, simpoziumlar, seminarlar) təşkil etmək.

4) Şərqşünaslıq institutu ilə ölkə daxilində şərqşünaslığın müxtəlif sahələri ilə məşğul olan digər qurumlar arasında elmi əlaqələri və koordinasiyanı gücləndirmək.

5) İnstitutun maddi-texniki bazasını müasirləşdirmək. Bu məqsədlə elmi

işçilərin iş yerlərini müasir texniki avadanlıqla (kompüter) və informasiya-kommunikasiya şəbəkəsi (internet) ilə təmin etmək.

6) Elmi-tədqiqat işlərinin yüksək səviyyədə aparılması üçün zəruri olan informasiya və elmi ədəbiyyatı təmin etmək. Bu məqsədlə xarici elmi mərkəz və kitabxanalarla informasiya mübadiləsini günün tələblərinə uyğun şəkildə qurmaq, bu işə lazım olan vəsaiti təmin etmək, o cümlədən elektron-əlaqə vasitələrindən istifadəni genişləndirmək.

7) Alimlərin sosial müdafiəsini təmin etmək, onların maddi təminatını və cəmiyyətdəki sosial statusunu müasir tələblər səviyyəsinə yüksəltmək.

2009-cu il.

ELMİ TƏXRİBAT

İran İslam Respublikasının Rusiyadakı səfirliyinin və www.iichs.org saytının yaydığı məlumata görə 2010-cu ilin 25-26 may tarixlərində İran İslam İnqilabının Rəhbərinin Ərdəbil universitetindəki nümayəndəsinin (Rəhbərin nümayəndələri institutu səlahiyyətləri İİR-in Əsas qanununda təsbit olunmasa da, müxtəlif səviyyəli orqanlarda ali hakimiyyəti təmsil edir) Müasir İran Tarixi İnstitutu ilə birlikdə Ərdəbildə Azərbaycan (oxu: Cənubi Azərbaycan – G.B.) və Aran (oxu: Şimali Azərbaycan – G.B.) haqqında mövcud tədqiqatların tənqidi və təhlilinə həsr olunmuş beynəlxalq konqres keçiriləcək.

2009-cu ilin dekabr ayının 7-də nəşr olunmuş məlumatda qeyd olunur ki, konfransın məqsədi qədim dövrlərdən müasir dövrə qədər Şimali Azərbaycana və Cənubi Azərbaycana aid yazılmış müxtəlif sahələri əhatə edən ədəbiyyatı nəzərdən keçirməkdir.

Daha sonra aşağıdakı məsələlərin nəzərdən keçirilməsi planlaşdırılır:

1. Hər iki regionun coğrafi arealı
2. Dilləri və ləhcələri
3. Dini
4. Ayrıca Şimali Azərbaycan milliyyətləri (talış, tat, ləzgi, avar və s.)
5. Hər iki regionun mədəni birliyi (Novruz bayramı, çərşənbə, musiqi, adət-ənənə, təziyyə və s.)
6. Rəvayət və əfsanələr.
7. Cənubi Azərbaycan xalqlarının mənşəyi və etnoqrafiyasının öyrənilməsi
8. Cənubi Azərbaycan və Şimali Azərbaycanda sosial-siyasi hərəkatlar
9. Arazın hər iki tərəfində aşkar edilən arxeoloji tapıntıların eyniliyi
10. 1905-1911-ci illər İran inqilabının Şimali Azərbaycan hadisələrinə təsiri

Bu ümumi məsələlərlə yanaşı konfransda həmçinin aşağıdakı konkret məsələlərin də nəzərdən keçirilməsi planlaşdırılır.

1. «Aranın» İrandan ayrılması nəzəriyyələrinin yaradılması və ayrılmanın mədəni amillərinin formalaşması. Bu məsələ Azərbaycanın Rusiya, Sovet İttifaqı tərkibində, müstəqillik dövrlərində nəzərdən keçirilməli və xüsusi olaraq aşağıdakılara diqqət yetirilməlidir: yeni tarixşünaslığın formalaşması, dinə diqqət göstərilməməsi, şiəliyin zəifləməsi, fars dilinin tədricən sıradan çıxması, yerli ləhcələrin (talış, tat və s.) zəiflədilməsi, adların, terminlərin yer adların dəyişdirilməsi və s.

Keçiriləcək Beynəlxalq konqresdə qoyulan məsələlərə münasibət bildirməzdən əvvəl qısa şəkildə İran İslam Respublikasında mənəvi mədəniyyətin

inkişaf etdirilməsi sahəsində həyata keçirilmiş tədbirlər və nəticələri barədə söz açmağı zəruri hesab edirik.

İran İslam Respublikasında təhsilin və elmin inkişafına böyük diqqət yetirilir. Bunun əyani göstəriciləri dövlət və özəl ali məktəb şəbəkəsinin, müəllim və tələbə kontingentinin bir neçə dəfə böyüməsi, müstəqil və sahə elmi-tədqiqat mərkəzlərinin geniş yayılmasıdır. Belə tədqiqat mərkəzləri Rəhbərlik, məclis, prezidentlik institutlarından əlavə hər bir nazirlikdə və bütün universitetlərdə mövcuddur. İranda elmin inkişafına göstərilən diqqətin və elmin müəyyən sahələrinin inkişafının göstəricilərindən biri bu ölkədə müxtəlif məsələlərlə bağlı beynəlxalq konfransların keçirilməsidir.

Son dövrdə İranda mədəniyyətin inkişafına diqqət İran İslam Respublikasının prioritet məsələsi elan olunmuşdur. Bura incəsənətin inkişafı, incəsənət xadimləri və işçilərinin sosial müdafiəsini gücləndirmək, İran islam mədəniyyətini daha geniş miqyasda xaricdə təmsil etmək, orta təhsil sisteminin strukturunu, orta və ali təhsil proqramlarının dini istiqamətdə təkmilləşdirilməsi, o cümlədən orta məktəb dərsliklərinin yenidən yazılması, doktorantura mərhələsində təhsilin şərtlərinin təkmilləşdirilməsi, həmin pillədə təhsil alanların sosial vəziyyətinin yaxşılaşdırılması hesabına xaricdə təhsilin məhdudlaşdırılması və s. sahələrdə proqramlar aiddir. İran İslam Respublikasında həmçinin əyalətlərin sosial-iqtisadi, mədəni inkişafına, İran xalqlarının mədəniyyətinin inkişafına, onların etnoqrafiyasının öyrənilməsinə və s. yönəlmiş tədbirlər həyata keçirilir.

İran İslam Respublikasının 1997-ci ildən elan edilmiş yeni regional siyasəti məntəqə dövlətlərinin daha sıx əlaqələr qurmasını, hərtərəfli əməkdaşlığın, o cümlədən elmi və mədəni sferalarda genişləndirilməsini nəzərdə tutur. Məlum olduğu kimi İran İslam Respublikası yeni regional siyasət kursuna uyğun olaraq Azərbaycan Respublikası ilə əlaqələrin daha da möhkəmləndirilməsi və genişləndirilməsinə xüsusi əhəmiyyət verir. İran Azərbaycan Respublikasının ərazi bütövlüyünü tanıyır, Ermənistan-Azərbaycan-Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinə tərəfdar olduğunu rəsmi şəkildə bəyan edir.

İran-Azərbaycan əməkdaşlığının genişlənməsinə yönəlmiş tədbirlərdən biri də 2010-cu ilin fevral ayının 1-dən Azərbaycan vətəndaşlarına İrana vizasız səfər etmək hüququnun verilməsidir.

İranda Azərbaycan Respublikasında baş verən bütün prosesləri diqqətlə izləyir və öyrənirlər. İslam Respublikasının mövcud olduğu illərdə İranda Azərbaycanşünaslıq elmi meydana gəlmişdir. Azərbaycan Respublikasının ictimai həyatının müxtəlif sahələrinə aid qəzetlərdə, jurnallarda publisistik, elmi yazılar dərc olunur, kitabçalar, kitablar nəşr olunur. Ali məktəblərdə Azərbay-

canla bağlı diplom işləri, doktorantura mərhələsində dissertasiyalar yazılıb müdafiə olunur. Bu baxımdan yuxarıda qeyd edilən Beynəlxalq elmi konqresi hər iki Azərbaycanda bir-biri haqqında yazılmış yazılara bir mərhələ baxışı hesab etmək olar. Konfrans ilk növbədə hansı sahələrin və nə dərəcədə öyrənilməsi məsələsini müəyyən etməklə bu sahədəki boşluqları doldurmağa yönələcək gələcək fəaliyyət proqramını aydınlaşdırmaq baxımından dəyərləndirilə bilər və onu hər iki ölkənin tarixi, ictimai, elmi fikrinin inkişafına mühüm töhfə hesab etmək olar. Bununla da elmi əlaqələrin möhkəmləndirilməsi, qarşılıqlı elmi mübadilənin genişləndirilməsi istiqamətində mühüm addım atılmış olar. Konfransın ən mühüm nəticələrindən biri hər iki ölkə alimlərinin hər iki ölkənin mühüm ictimai, siyasi, mədəni və s. məsələlərinə dair birgə elmi tədqiqatlar aparmaq haqqında qərar qəbul edilməsi olardı.

Lakin təəssüf ki, ilk baxışda elmi əlaqələrin möhkəmləndirilməsi, ortaq elmi fikirlərin formalaşdırılması istiqamətində bir addım kimi dəyərləndirilən Beynəlxalq konqres onun təşkilatçıları arasında millətçi, ekspansionist meylli «alimlər»in səyi ilə Azərbaycan ilə İran arasında elmi əlaqələri möhkəmləndirmək əvəzinə inkişaf etməkdə və möhkəmlənməkdə olan siyasi münasibətlərin gərginləşdirilməsinə yönəldilib.

Şimali Azərbaycan Respublikasını paniranizm ruhunda «Aran» adlandırmaq yalnız iki ölkə arasında dostluq münasibətlərinə xələl gətirməyə yönəlmişdir. BMT-nin üzvü, Cənubi Qafqaz regionunun lideri, Tehranda 20 ilə yaxın bir müddətdə səfirliyi olan müstəqil və İranın özünə dost hesab etdiyi Azərbaycan Respublikasını «Aran» adlandırmaq məhz belə çirkin məqsədə xidmət edir. Konfransın təşkilatçısının İran İslam Respublikasının Rəhbərinin nümayəndəsi olması qoyulan adın İranın Ali hakimiyyətinin mövqeyi kimi dəyərləndirməyə yol açır. Güman edilir ki, ən humanist sahə olan elmi tədqiqatlardan dövlətlərin və xalqların yaxınlaşmasına yardım etmək məqsədi deyil, onların münasibətlərini gərginləşdirmək məqsədi kimi istifadə edilməsi millətçi ünsürlərin çirkin məqsədinə xidmət edir.

Qəribə də olsa İranın istər inqilabdan əvvəl, istərsə də İslam inqilabından sonra elmi, ictimai fikrində, kütləvi informasiya vasitələrində Sovet Azərbaycanı, sonra Azərbaycan Respublikası terminlərini işlətməkdən demək olar ki, imtina edir, müxtəlif ifadələr işlətməyə üstünlük verirlər: Qafqaz, Cənubi Qafqaz, Arazın Şimalı, Azərbaycan əvəzinə Bakı; azərbaycanlılar əvəzinə müsəlmanlar və s. Millətçi ziyalı iranlılar sanki Azərbaycan Respublikası termini işlətməməklə müstəqil Azərbaycan dövlətinin mövcud olmadığına özlərini inandırmaq istəyirlər.

Qeyd edildiyi kimi, İran KİV və elmi yazılarında Azərbaycan Respublikası

ifadəsinə qısqanclıqla yanaşılsa da, iranlılar belə bir dövlətin mövcud olduğunu, daim inkişaf etdiyi və qüdrətləndiyini yaxşı bilirlər. Məhz Azərbaycan Respublikasının artan qüdrəti və nüfuzunu gözü götürməyənlər onun İranla münasibətlərini gərginləşdirmək yolunda cüzi də olsa növbəti addımı atmışlar.

Konfransın gündəliyindən göründüyü kimi, araşdırılmalı olan məsələlərdən biri iranlıların əl çəkə bilmədikləri stereotip əsasında formulə edilmişdir. Şimali Azərbaycanın İrandan ayrılmasının müxtəlif aspektləri, xüsusi diqqət edilməli olan bəndlərin sadalanması göstərir ki, söhbət Şimali Azərbaycan xanlıqlarının Rusiya tərəfindən işğal olunması və ondan sonrakı dövrdən gedir. Bununla bağlı bir neçə ümumi məsələni yada salmaq lazımdır:

1. Siyasi baxımdan İran adlı dövlət III-VII əsrlərdə və 1935-ci ildən sonra mövcud olduğundan siyasi mənada «İrandan ayrılmaq» mənasız bir ifadədir. Şimali Azərbaycan xanlıqları Azərbaycan-türk Səfəvi dövlətinin süqutundan sonra müstəqillik əldə etdilər. Burada yenə də İran anlayışından söhbət belə gedə bilməz. Böyük Səfəvi dövlətinin süqutu ilə onun yerində bir sıra yeni siyasi qurumlar meydana gəlmiş, digər türk sərkərdəsi Nadir şah Əfşar Səfəvi dövlətini qısa müddətə bərpa edib xanlıqların müstəqilliyinə son qoysa da, onun ölümündən sonra xanlıqlar qəti müstəqillik əldə etdilər. İrandilli tayfaların nümayəndəsi olan Kərim xan Zənd isə Səfəvi dövlətinin ərazisini bərpa etməyə qadir olmadığından həmin xanlıqlar öz müstəqilliklərini qoruyub saxladılar. Ağa Məhəmməd şah Qacar azərbaycanlı-Səfəvi dövlətinin sərhədlərini bərpa etmək siyasəti yeritsə də, sui-qəsd nəticəsində həlak olduğundan bu planı həyata keçirə bilmədi.

2. İrandan ayrılmaq, millətçi iranlıların başa düşdüyü kimi İran, daha doğrusu fars mədəni mühiti və fars dili arealından ayrılmağa gəlincə, belə bir birlik və bütövlük mövcud olmadığından ondan ayrılmaqdan danışmaq da mənasızdır. İslam dininin qələbəsindən sonra indi İran adlanan ərazidə fars mədəni mühitindən danışmaq da mənasızdır.

Fars dilini İranın əhalisinin bir hissəsi Mərkəzi Asiyanın cənubunda, Əfqanıstanda taciklərin, sonra türklərin (qəznəvi) təsis etdikləri dövlətlərdə geniş inkişaf etmiş və əhalinin əsasən yuxarı təbəqələrini əhatə edən tacik, dəri dillilərdən mənimsəmişlər, digərləri isə öz dillərini qoruyub saxlamışlar. Bu proses dəri dilini özü ilə qərbə doğru hərəkət etdirən türk Səlcuq imperiyası və sonrakı Səlcuq, Atabəylər dövlətləri zamanı daha da inkişaf etmiş və məhdud funksional xarakter kəsb etmişdir. Fars dili artıq fars dilini qəbul etmiş əhalinin yaşadığı zonadan xeyli uzaqlara yayılaraq kargüzarlıq və yuxarı dairələrin ədəbi dili funksiyasını yerinə yetirmiş və geniş kütlə üçün tamamilə yad bir dil olmuşdur. Bu baxımdan da «İrandan ayrılmaq» fars millətçilərinin bəzən təskinlik məqsədi ilə yaratdıqları illüziyadan başqa bir şey deyildir.

3. Məsələnin dini aspektinə nəzər salsaq, bu sferada da «İrandan ayrılmaq» ifadəsinin mənasızlığı aydın görünür. Birincisi, məlum olduğu kimi Azərbaycan və ondan kənar əraziləri əhatə edən Səfəvilər dövləti, yəni azərbaycanlılar, şiəliyi dövlət dini elan edərək onun mövqeyini və rolunu yüksəltmiş və möhkəmləndirmişlər. Şiəlik farsların ümumi qəbul edilmiş dini deyildi, səfəvilər zamanı onlar islam dininin həmin təriqətini elliklə qəbul etməyə məcbur olmuşlar.

1906-1907-ci il konstitusiyasında şiəlik Qacar dövlətinin rəsmi, dövlət dini elan edilmiş, lakin 1979-cu ilə kimi həmin statusda çıxış edə bilməmişdir. Yalnız 1979-cu il inqilabından sonra şiəlik ictimai həyatın bütün sferalarına nəzarət edən rəsmi dövlət dini rolunu yerinə yetirməyə başlamışdır. Bugünkü mövqedən çıxış edərək «İrandan ayrılmaq» şiəliyin zəiflədilməsi kimi qələmə vermək mənasızdır. İkincisi, Şimali Azərbaycanın müsəlman əhalisinin böyük əksəriyyəti şiə təriqətində qalır. Lakin onlar sivil, demokratik, hüquqi və dünyəvi dövlətdə yaşadıqları üçün vicdan azadlığı hüququna malikdirlər və həmin hüququn təmin olunması üçün bütün zəruri şərait yaradılmışdır. Bu mənada Şimali Azərbaycan şiəlikdən ayrılmamış, öz dini inanc və etiqadını qoruyub saxlamış və ona azad şəkildə, amma dünyəvi dövlət çərçivəsində əməl etməkdədir.

Azərbaycanlıların Qacarların hakimiyyəti zamanı İrana olan isti münasibətlərinin soyumasında ilk növbədə fars hakim millətçiləri günahkardır. 50 il ərzində ən çoxsaylı xalqın varlığını inkar edən bir dövlətə hüquqları tapdalanan xalqın soydaşları necə münasibət bəsləməli idi?

İran islam inqilabından sonra da hakim – milliyyətçilik siyasəti mədəni-məişət səviyyəsində özünü göstərməsə də mahiyyət etibarı ilə dəyişməmiş və üstüörtülü vasitələrlə daha da güclənmişdir. Sıravi vətəndaşların İran İslam Respublikasına münasibətində bu amilin böyük rolu vardır.

Beləliklə, vacib elmi məsələyə həsr olunacaq konfrans yuxarıda qeyd edilən istiqamətdə siyasi məsələləri əsaslandırmağı qarşısına məqsəd qoyubsa, onda iki ölkə arasında mövcud olan daim genişlənməkdə olan dostluq, bərabərhüquqlu tərəfdaşlıq münasibətlərinə ciddi zərbə vura bilər. Bu addım həm də İran İslam Respublikasının Azərbaycan Respublikasına münasibətdə yeritdiyi dövlət siyasətinin prinsiplərinə ziddir. Belə təsəvvür yaranır ki, İranın bəzi ruhaniləri və başa-bəla, amma millətçi ziyalıları dövlətin Azərbaycan siyasətini nəinki dəstəkləmir, hətta onun həyata keçirilməsinə mane olmağa çalışırlar. Fikrimizcə, konqresin təşkilatçıları həmin məsələyə diqqət yetirməyi unutmamalıdırlar.

«525-ci qəzet», 27 may 2010-cu il.

ŞƏRQŞÜNASLIQ ELMİ MÜSTƏQİL AZƏRBAYCANIN MİLLİ VƏ DÖVLƏT MARAQLARINA XİDMƏT EDİR

Yaxın və Orta Şərq bu gün dünyanın ən diqqətçəkən regionlarından birinə çevrilib. Xüsusilə, inkişaf etmiş Qərb dövlətlərində enerjidaşıyıcılarına olan ehtiyacın gündən-günə artması neftlə zəngin Şərq ölkələrinə diqqəti daim artırmaqdadır. Buna görə də onlar regionda gedən prosesləri dərindən araşdırmağa, dəqiq nəticələr çıxarmağa və bunun əsasında onu nəzarət altında saxlamağa çalışırlar. Bu məqsədlə də Avropa və Amerikada Yaxın və Orta Şərq ölkələrinin ictimai-siyasi, iqtisadi, etnomədəni münasibətlərini, dini təriqət və cərəyanlarını, tarixi-filoloji məsələlərini öyrənən institutların, elmi mərkəzlərin sayı sürətlə çoxalır. Şərqlə bağlı yeni-yeni məcmuələr, nəşrlər meydana çıxır. Xüsusilə, ABŞ administrasiyasının elan etdiyi «Böyük Yaxın Şərq» strategiyası regionun hələ gələcəkdə də uzun zaman dünyanın diqqət mərkəzində olacağından xəbər verir. Təbii ki, belə bir şəraitdə Şərqin qapısı adlanan müstəqil Azərbaycanın da milli və dövlət maraqları regionda baş verən və gələcəkdə baş verə biləcək hadisələri ciddi təhlil edib, nəticə çıxarmağı tələb edir. Onu da qeyd edək ki, Azərbaycanın çoxəsrlik tarixi, ictimai fikri, mədəniyyəti, ədəbiyyatı məhz Yaxın və Orta Şərq ölkələrində gedən proseslərlə üzvi sintezdə inkişaf edərək təşəkkül tapmışdır. Böyük alim və mütəfəkkirlərimiz öz qiymətli əsərləri ilə daim Şərq xalqlarının elm və mədəniyyətini zənginləşdirmiş, həmin xəzinəyə qiymətli töhfələr vermişlər. Bu gün demokratik dünyaya inteqrasiya olunan ölkəmiz yeni sistemə məhz tarixən formalaşmış həmin mədəni-mənəvi dəyərlərlə daxil olur. Əlbəttə, belə bir vəziyyətdə, yəni çoxəsrlik mədəniyyətinin təməlində ümumşərq faktoru aparıcı yer tutan müstəqil dövlətimizin dünyanın maraq dairəsində olan regiona diqqətinin artması çox təbiidir. Bunu dövlət başçısı, hörmətli prezidentimiz İlham Əliyevin Şərq ölkələrinə ardıcıl səfərləri, İslam Konfransı Təşkilatında Azərbaycanın fəal iştirakı da təsdiqləyir. Amma bir həqiqət də var ki, Şərqin tarixini, mədəniyyətini, iqtisadiyyatmı, ictimai-siyasi fikrini, filologiyasının aktual problemlərini kompleks şəkildə öyrənmədən, hazırda baş verən proseslərin mahiyyətini dərindən təhlil etmədən regionda baş verən hadisələri diqqətdə saxlamaq və onlara müdaxilə etmək də mümkün deyil. Məhz bu ağır işi neçə illərdir ki, Azərbaycan Milli Elmlər Akademiyasının akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutu uğurla həyata keçirir.

Azərbaycanda Şərqin öyrənilməsinin böyük tarixi ənənəsi olsa da və hələ XIX yüzildə A.Bakıxanov, M.F.Axundov, Mirzə Kazım bəy, M.S.Topçubaşov

kimi böyük alim və mütəfəkkirlər öz imzalarını qoysalar da, onun sistemli şəkildə tədqiqinə ötən əsrin 50-ci illərindən başlanıb. Lakin ölkəmiz müstəqillik əldə edənə qədər bu elm bütövlükdə keçmiş sovet şərqşünaslığının tərkib hissəsi kimi inkişaf edib. Belə ki, institutda aparılan elmi araşdırmaların tematikası, xüsusilə Şərq ölkələrinin müasir ictimai-siyasi və ideoloji problemləri ilə bağlı bir sıra mövzular hakim marksizm təliminin tələblərinə uyğun şəkildə tədqiq edilərək, Sovet İttifaqının Şərq siyasətinin həyata keçirilməsinə xidmət edib. Bununla bərabər, dərin elmi araşdırmalar, yüksək hazırlıqlı kadr potensialı hesabına Azərbaycan şərqşünaslıq elmi keçmiş ittifaqda aparıcı yerlərdən birini tutub. Akademiklər Ə.Əlizadə, Ə.Sumbatzadə, H.Araslı, Z.Bünyadov, müxbir üzv B.Hüseynov, professorlar A.İmanquliyeva, R.Əliyev, Ə.Cəfər, R.Seyidov və bir çox digər görkəmli alimlərimizin yorulmaz əməyi isə ona beynəlxalq nüfuz gətirib.

Məsələn, mətnşünaslığın Azərbaycanda bir elm kimi formalaşması bu institutun çərçivəsində baş verib. Görkəmli şərqşünas alim, akademik Ə.Əlizadənin Nizami Gəncəvi, Fəzlullah Rəşidəddin, Məhəmməd ibn Hinduşah Naxçıvani kimi mütəfəkkirlərin irsinin toplanması, onların əsərlərinin elmi-tənqidi mətnlərinin tərtib edilməsi sahəsindəki fəaliyyəti zaman-zaman tarixin müxtəlif qatlarında gizli qalmış ədəbiyyat və mədəniyyət xəzinəmizin «qızıl açarının» tapılmasında əhəmiyyətli rol oynayıb. Böyük alimin açdığı yolla gedən və onun geniş təcrübəsindən istifadə edən sonrakı şərqşünaslar nəsli ədəbiyyatımızın və mədəniyyətimizin tarixində xidmətləri olmuş yüzlərlə alim və şairin əlyazmalarını tədqiq edərək əsl elmi həqiqətləri üzə çıxara bilmişlər.

Bütün yaradıcılıq qüvvəsini, çoxcəhətli istedadını Azərbaycan ədəbiyyatşünaslığının inkişafına və klassik ədəbi irsin öyrənilməsinə sərf edən akademik H.Araslının da elmi fəaliyyətinin ən məhsuldar illəri bu institutda çalışdığı dövrə düşüb. Azərbaycan ədəbiyyatı tarixinin yaradılmasında müstəsna xidmətləri olan görkəmli alim şərqşünaslıq elminin Azərbaycanın strateji maraqları üçün xüsusi əhəmiyyət daşıdığını dəfələrlə vurğulayıb.

Uzun illər instituta rəhbərlik etmiş akademik Ziya Bünyadov da Azərbaycan tarixini ümumşərq kontekstində araşdırmaqla bugünkü müstəqil dövlətimizin Yaxın və Orta Şərq ölkələri ilə dostluq və qonşuluq münasibətlərinin böyük tarixi ənənə üzərində yüksəldiyini elmi dəlillərlə əsaslandırdı. Sonrakı mərhələdə filologiya elmləri doktoru, professor A.İmanquliyeva bu elmin əhatə dairəsini bir qədər də genişləndirərək bir çox problemləri Şərq-Qərb mədəni ənənələrinin sintezində təhlil etməklə Azərbaycanın təkcə Şərq yox, həm də Qərb dünyası ilə münasibətlərinin ayrı-ayrı mərhələlərinin tədqiqi üçün zəmin hazırladı.

Ümumiyyətlə isə, Azərbaycan şərqşünaslıq elmi həmişə Yaxın və Orta Şərqin siyasətini, iqtisadiyyatım, mədəniyyətini, tarixini, ədəbiyyatını əlahiddə və yaxud ümumdünya proseslərindən təcrid olunmuş şəkildə deyil, Şərq - Qərb sivilizasiyalarının müqayisəsində və ənənələrin sintezində tədqiq edərək, bu gün bütün siyasi güclərin vurğuladığı qütblərarası dialoqun yaranmasına zəmin hazırlamağa çalışmışdır.

Respublikamızın müstəqillik qazanması institutun önündə yeni üfüqlər açmaqla bərabər, həm də ciddi vəzifələr qoyub. Belə ki, xarici siyasət xəttini bu gün müstəqil surətdə müəyyən edən Azərbaycan Respublikası üçün həm Şərq ölkələri ilə iqtisadi, siyasi və mədəni əlaqələrin genişləndirilməsi və həm də regionda gedən proseslərdə dövlət maraqlarının qorunması institutun elmi fəaliyyət dairəsinin daha da tutumlu olmasını, bir sıra yeni istiqamətlərin yaradılmasını və ciddi keyfiyyət dəyişikliklərinin həyata keçirilməsini vacib edib. İnstitutun kollektivi bu yeni şəraiti vaxtında qiymətləndirərək qeyd edilən problemlərin həlli istiqamətində uğurlu addımlar atıb və atmaqdadır. Bu gün institutda elmi tədqiqat işləri əsasən aşağıdakı istiqamətlərdə aparılır: Şərq ölkələrinin ictimai-siyasi inkişafının qanunauyğunluqları, Şərq ölkələrinin tarixi, bu ölkələrdə cərəyan edən ictimai- siyasi, iqtisadi və etnik proseslər, bu ölkələrin beynəlxalq münasibətlər sistemində rolu, Şərq xalqlarının tarixi və filoloji irsi; yazılı abidələrin tədqiqi, tərcüməsi və nəşri; Şərq ölkələrində ictimai fikir və din, Yaxın və orta Şərq ölkələrinin ictimai- siyasi həyatında İslam amili; Azərbaycan və Şərq xalqlarının tarixi-mədəni əlaqələri; müstəqil Azərbaycan Respublikası ilə Şərq ölkələri arasında siyasi, iqtisadi, diplomatik və mədəni münasibətlər; Şərq-Qərb sivilizasiyalararası münasibətləri; Azərbaycanın Şərq-Qərb münasibətlərində yeri və rolu; Şərq-Qərb dialoqunun geopolitik və kulturoloji aspektləri. Göründüyü kimi, elmi tədqiqat işlərinin istiqaməti klassik şərqşünaslıqla (qədim mənbələrin tədqiqi) bahəm müasir şərqşünaslığın da inkişafını təmin edir, Şərq ölkələrinin yeni ictimai-iqtisadi münasibətlər sisteminə keçmiş Azərbaycan üçün faydalı ola biləcək təcrübəsinin öyrənilməsini, həmin təcrübənin müsbət və mənfi tərəflərinin aydınlaşdırılmasını, Türkiyə, İran, Ərəb və digər Şərq ölkələri ilə iqtisadi, mədəni əməkdaşlığın prioritet sahələrinin müəyyənləşdirilməsini əhatə edir. İnstitut əməkdaşlarının monoqrafiyaları, kitabları, elmi məqalələri və müxtəlif elmi məclislərdə oxuduqları məruzələr bu sahədə xüsusi önəm daşıyır və ölkələrimiz arasındakı münasibətlərin inkişafı üçün stimul ola biləcək faktlardandır.

Aparılan tədqiqat işlərinin bir çoxu Azərbaycan Respublikasının Yaxın və Orta Şərq siyasətində aktuallıq kəsb edən məsələlərin araşdırılmasına həsr edilib.

Nəzərə almaq lazımdır ki, şərqşünaslıq elmi bütövlükdə kompleks elmdir. O, müxtəlif elm sahələrini (tarix, filologiya, fəlsəfə, iqtisadiyyat və s.) birləşdirərək, nəinki sistemli, hərtərəfli şəkildə Şərqin keçmişini öyrənir, eyni zamanda müasirliyi təhlil edir və hətta gələcək haqqında müəyyən proqnozlar verir.

Bu baxımdan yuxarıda göstərilən elmi istiqamətlər çərçivəsində işlər əsasən iki yolla aparılır:

1 . Şərqşünaslıq elminin əsasını təşkil edən şərq tarixinin, mədəniyyətinin, bədii təfəkkür tərzinin, ictimai və fəlsəfi fikirlərinin ən vacib və aktual aspektlərini öyrənən fundamental tədqiqatların aparılması;

2. Elmi dəyəri ilə yanaşı geniş oxucu kütləsini maraqlandıran elmi-populyar əsərlərin, eləcə də cari dövr üçün siyasi və ictimai əhəmiyyəti olan və elmi proqnozlar verən təhlili - informatik məlumatların yazılması.

Ümumiyyətlə, institutun ayrı-ayrı şöbələrində aparılan tədqiqat işlərinin hər biri müasir dünyada gedən qlobal proseslərin mahiyyətinin anlaşmasında, problemlərin köklərinin üzə çıxmasında və dövlətimizin strateji maraqlarına xidmət edən xarici siyasət kursunun müəyyənləşməsində xüsusi önəm daşıyır. Bu mənada ötən il başa çatmış «İslam dünyasının mədəni-tarixi hüdudlarının formalaşması» adlı tədqiqat işini ayrıca qeyd edə bilərik. Tədqiqat işində əslində müasir dünyanın aktual problemi olan sivilizasiyalararası konfliktlərin kökü, meyarları müəyyən edilmiş və konkret olaraq ərəb-müsəlman və Mərkəzi Asiya türk mədəniyyətlərinin toqquşması müstəvisində onların şərhi verilmişdir. Problemin bu gün Şərq-Qərb, daha doğrusu, bir çox terrorist təşkilatlar tərəfindən islam-xristian miqyasına gətirilməsinə cəhd edildiyini nəzərə alsaq, o zaman araşdırmanın elmi aktuallığını lazımınca dəyərləndirə bilərik.

Yaxud «Müasir Türkiyə ictimai fikrində islam» adlı digər bir tədqiqat işində qardaş ölkənin bu gün yaşadığı problemlərin tarixi, siyasi və ideoloji səbəbləri dərindən araşdırılmaqla bərabər, həm də radikal meyllərin meydana çıxmasını şərtləndirən faktorlar geniş şəkildə təhlil olunur ki, bu da demokratik inkişaf yolu tutmuş bütün cəmiyyətlərə xəbərdarlıqdır və onların əsas prinsiplərdə güzəştə getməməsinin vacibliyinin tutarlı elmi dəlillərlə sübutudur.

Azərbaycan Respublikasının müstəqillik qazanmasından sonra Cənubi Azərbaycan probleminə, İraqda Kərkük məsələsinə xüsusi diqqət ayrılmasını institutun müsbət addımları sırasına aid etmək olar. Bu sıraya «Güney Azərbaycan. Tarixi oçerklər» kitabının üç cildliyinin çapa hazırlanması da daxildir. Kitabda Güney Azərbaycanın siyasi, sosial-iqtisadi, mədəni inkişafının mühüm problemləri tədqiq olunur, milli qüvvələrin ölkədaxili proseslərdə rolu araşdırılır.

İran tarixçisi Səməd Sərdarniyanm «Arazın hər iki sahilində müsəlmanların soyqırımı» kitabının institutun əməkdaşları tərəfindən tərcümə edilərək, çap edilməsi isə Azərbaycan diplomatiyasını iyrənc erməni təbliğatına qarşı mübarizədə ciddi faktlarla təchiz edir. Kitabda erməni quldur dəstələrinin Türkiyə, İran və Azərbaycan ərazilərində törətdikləri çoxsaylı cinayətlərdən, müsəlman kənd və şəhərlərini xarabazara çevrələrindən, yüz minlərlə günahsız insanın qanının tökülməsindən sənədlər və mənbələr əsasında söhbət açılır.

«Qloballaşan dünyada islam», «Yaxın Şərqin ictimai-siyasi həyatında islam amili», «İslam fundamentalizmi: mahiyyəti, əsas prinsipləri və təzahür formaları», «ABŞ-da İslam», «Böyük Britaniyada İslam», «Şərqin tarixi abidələri», Türkiyə iqtisadiyyatının dövlət sektorunda bazar islahatları», «Azərbaycan və İran körfəzi ölkələri», «Türkiyə ictimai fikrində islam» və sairə işlər öz aktuallığı ilə seçilir.

Ümumiyyətlə, institutda aparılmış tədqiqat işlərinin hər biri respublikamız üçün konkret əhəmiyyəti olan aktual məsələləri əhatə edir. Təbii ki, bir yazıda onlar barədə geniş danışmaq, qoyulan problemlərin əhəmiyyətini sadalamaq qeyri- mümkündür. Təkcə cari ilin birinci yarısında institut əməkdaşlarının bu və digər mövzularla bağlı 9 kitabı çap olunmuş, «Elmi araşdırmalar» toplusunun 4 nömrəsi oxucuların istifadəsinə verilmiş, 100-ə yaxın məqalə dərc olunub ki, onların da xeyli hissəsi xarici ölkələrin ayrı-ayrı məcmuələrində işıq üzü görüb.

Bundan əlavə, institutun beynəlxalq əlaqələri də ildən-ilə genişlənir; həm xarici ölkələrin elmi müəssisələrindən Şərqşünaslıq İnstitutuna səfərlər, həm də institut əməkdaşlarının beynəlxalq elmi yığıncaqlarda iştirakı intensivləşib. Ötən 8 ay ərzində əməkdaşlarımız Türkiyə, İran, Almaniya, Gürcüstan, Malayziya, Rusiya və digər ölkələrdə keçirilən beynəlxalq konfranslarda iştirak etmişlər.

İnstitut əməkdaşları öz fəaliyyətlərini yüksələn xətt üzrə davam etdirməkdədirlər. Bu mənada cari planlar daha geniş və daha əhatəlidir. Burada ilk növbədə regionda tez-tez dəyişən situasiya, sivilizasiyalararası münasibətlərdəki problemlərin ayrı-ayrı tərəfləri, onların tarixi kökləri və tənzimlənmə yolları araşdırılır. Problemlərin əksər halda Azərbaycanla əlaqəli şəkildə araşdırılması, Şərq ölkələrinin ictimai-siyasi, iqtisadi və mədəni inkişafının respublikamızla sintezdə öyrənilməsi tədqiqat işlərinin aktuallığını daha da artırır. Məsələn, hazırda bütün dünyanın diqqət mərkəzində olan yaxın qonşumuz İran İslam Respublikasının tarixinin, mədəniyyətinin, iqtisadiyyatının, ictimai-siyasi vəziyyətinin araşdırılmasına yönəlmiş mövzuların əksəriyyətində bu ölkənin Azərbaycanla əlaqələri, regional münasibətlər və Güney Azərbay-

canda yaşayan soydaşlarımızın fəaliyyəti, milli haqlar uğrunda mübarizəsi ön plana çəkilir. «Cənubi Azərbaycanın müasir tarixi», «XX əsrin ortalarında Cənubi Azərbaycanda siyasi və mədəni mühit», «XX əsrdə SSRİ-də İranlı diasporu» və s. mövzular üzərində hazırda aparılan işlər dediklərimizə nümunədir.

Bu fikirləri Türkiyə ilə bağlı mövzular üzrə aparılan tədqiqat işlərinə də aid etmək olar. Araşdırmalarda qardaş ölkənin tarixi, ictimai-siyasi vəziyyəti, iqtisadiyyatı, mədəniyyəti təhlil edilməklə bərabər, həm də Türkiyə dövlətinin gənc Respublikamız üçün səmərəli ola bilən bazar islahatları sahəsindəki təcrübələrinə xüsusi diqqət yetirilib. İlin sonunadək institut tərəfindən «Türkiyə iqtisadiyyatının dövlət sektorunda bazar islahatları» kitabının çapa hazırlanması planlaşdırılıb.

Bununla bərabər, «Türk tarixşünaslığı» və «Türk tarixşünaslığı Azərbaycan haqqında» mövzuları daxilində «XVIII yüzilin I yarısında Borçalı ərazisində etnodemoqrafik vəziyyət (Osmanlı və Gürcü mənbələrinin müqayisəli təhlili əsasında)», «Ö.Çələbinin «Səyahətnamə» əsərinin tərcüməsi və tədqiqi», «Ə.Zəki Vəlidi Toğan və Türkiyə tarixşünaslığı» mövzularında tədqiqat işlərinin yaxın zamanlarda başa çatdırılması nəzərdə tutulub. Göründüyü kimi, adıçəkilən araşdırmaların hər birinin əsasında ölkələrimiz arasındakı münasibətləri dərin tarixi köklərə, böyük mədəni-iqtisadi ənənələrə malik olduğunu elmi faktlarla sübut etmək dayanır ki, bu da müasir dövrdə xalqlarımızın birbirinə daha da yaxınlaşmasına, ünsiyyətin dərinləşməsinə şərait yaradır.

Ərəb ölkələrinin tarixi, iqtisadiyyatı, ictimai-siyasi vəziyyəti elmi istiqamətində aparılan tədqiqat işləri isə müasir dünyanın qlobal problemlərinin öyrənilməsi baxımından daha diqqətçəkəndir. Bu gün dünyanın əksər elmi mərkəzləri sivilizasiyalararası münasibətlərdə dərin çatlar yarandığını, dini dözümsüzlüyün kritik həddə yaxınlaşdığını etiraf edir və diqqəti əsasən ərəb ölkələrində gedən ictimai-siyasi proseslərə yönəldirlər. Təbii ki, belə bir məqamda Azərbaycan alimləri də regionda baş verən hadisələri dərindən araşdıraraq təhlil etməli və əlaqələri strateji maraqlar çərçivəsində qurmalıdır. Şərqşünaslıq institutunda aparılan tədqiqat işlərində də məhz bu amil önə çəkilmişdir. «Müsəlman Şərqi beynəlxalq münasibətlər sistemində», «Yaxın və Orta Şərq ölkələrində islamın durumu», «Qloballaşma və Şərq-Qərb münasibətləri», «Vatikanın beynəlxalq siyasəti və Avropada islam», «Müasir Azərbaycan şüurunda Şərq-Qərb paradiqmasının qavranması» və s. mövzularda aparılan elmi araşdırmalarda qeyd edilən problemin hərtərəfli öyrənilməsi qarşıya məqsəd kimi qoyulmuşdur. Əməkdaşlarımız, müasir Qərb sivilizasiyasına tarixi təkamül prosesində çoxəsrlik Şərq mədəniyyətinin təsiri, Qərbin sürətli

iqtisadi-texniki və mədəni tərəqqi təcrübəsinin Şərq ölkələrində məqsədyönlü şəkildə tətbiqi imkanlarını, qloballaşma şəraitində Şərq-Qərb münasibətlərinin ziddiyyətli məqamlarım, onların mahiyyətini və aradan qaldırılma yollarmı araşdırır, qloballaşma prosesinin labüd olaraq hər bir ölkənin ictimai-siyasi və mədəni həyatına təsir göstərdiyini nəzərə alaraq, Azərbaycanın Şərq-Qərb münasibətlərində yerini və rolunu müəyyənləşdirirlər. Alimlərimiz Şərqlə Qərbin qovuşduğu bir məkanda yerləşən Azərbaycan üçün müstəqillik şəraitində Qərb mədəniyyətlərinə yiyələnməklə Milli mədəniyyətin fundamental dəyərlərini və mütərəqqi cəhətlərini qoruyub saxlamaq yollarmı arayırlar.

Bütün bunlarla bərabər, institutda Yaxın və Orta Şərq ölkələrinin ədəbi, mədəni irsinin, dil məsələlərinin, Şərq ölkələrinin Azərbaycanla əlaqələrinin daha geniş araşdırılması əməkdaşların qarşısında mühüm vəzifə kimi qoyulmuşdur. Əsası akademik Ziya Bünyadov tərəfindən qoyulmuş Azərbaycana aid məşhur Osmanlı dəftərlərinin təhlili, müasir əlifbaya transliterasiya və nəşri davam etdirilir. İrəvan əyalətinin, Naxçıvan sancağının, Gəncə-Qarabağ və Tiflis əyalətlərinin, Lori vilayətinin icmal dəftərlərindən sonra Ərdəbil livasının müfəssəl dəftəri işıq üzü görmüşdür.

Türk xalqının möhtəşəm eposu «Saltuknamə» təhlil edilmiş və Azərbaycan türkcəsinə çevrilərək, çapa təqdim olunmuşdur.

Azərbaycan dilinin inkişaf mərhələləri orta əsrlər ikidilli ərəb-türk və fars-türk lüğətləri timsalında araşdırılır. Bu günə qədər Xubeyş Tiflisinin, İbn Firiştənin, Əbu Həyyan Əndəlusinin və bir çox filoloqların lüğətləri təhlil edilərək nəşr olunub. İctimai həyatın müxtəlif sahələrinə aid xüsusi lüğətlərin tərtibi davam etdirilir. Bu günlərdə «Tibb terminləri lüğəti» işıq üzü görməlidir. «Ərəbdilli mənbələr Azərbaycan tarixi və coğrafiyası haqqında», Orta əsrlərdə Şərq dillərinin qarşılıqlı əlaqələri və Azərbaycan ədəbi dili», «Klassik fars şeirinin Azərbaycan dilinə tərcümə məsələləri», «Türk ədəbiyyatının tədqiqi», «Orta əsrlər türk xalqları ədəbiyyatının tədqiqi», «Türk ədəbiyyatının inkişafı», «Ərəb-Azərbaycan dil əlaqələrinin tədqiqi» və s. mövzularda tədqiqat işləri davam etməkdədir.

Ənənəvi olaraq institutumuzda uzun illər Ərəb Şərqi, İran və Türkiyə öyrənilmişdir. Bu gün institutda aparılan tədqiqatların coğrafi hüdudları genişləndirilir. Kollektivimiz gözəl dərk edir ki, Yaxın və Orta Şərq ölkələri ilə yanaşı, bu gün biz Mərkəzi Asiya, Uzaq Şərq, Cənub-Şərq, Çin və sairə Şərq ölkələrini də öyrənməliyik. Artıq bu istiqamətdə müəyyən işlər də görülmüşdür. Belə ki, «Çin Xalq Respublikası» adlı məlumat kitabı hazırlanaraq nəşr edilmiş, «Şərq ölkələri» adlı 50 çap vərəqi həcmində ensiklopediya çapa təqdim edilmişdir. Kitabda bütün Şərq ölkələrinin tarixi, coğrafiyası, əhalisi,

iqtisadiyyatı, etnik və dini tərkibi, təbii sərvətləri, mədəniyyəti və müxtəlif sahələrdəki inkişaf göstəriciləri haqqında müfəssəl məlumat verilir. Hazırda İnstitutda İslam ensiklopediyası üzərində iş gedir.

Bir sözlə, Milli Elmlər Akademiyasının Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutu bu gün müstəqil Azərbaycanın milli və dövlət maraqlarına xidmət edən zəruri bir elmi tədqiqat mərkəzi olmaqla yeni dövrün tələbləri ilə ayaqlaşan inkişaf mərhələsinə qədəm qoyub.

«Azərbaycan» qəzeti,
15 avqust 2010-cu il.

AZƏRBAYCANDA İSLAM FAKTORU

Son zamanlar Azərbaycanda müxtəlif dini təşkilatların fəallığı müşahidə olunsa da, bütövlükdə İslam faktorunun siyasi həyatda aparıcı rol oynamaq ehtimalı zəifdir. Bu, ilk növbədə İslam dininin özü ilə deyil, həmin dindən siyasi ideologiya kimi istifadə etməyə çalışan qüvvələrin cəmiyyətdə tutduğu siyasi, iqtisadi, mədəni mövqeyi, həmin qüvvələrin qarşılıqlı münasibətləri ilə bağlıdır.

İslam dinindən Azərbaycanda öz siyasi, iqtisadi mövqelərini möhkəmləndirmək məqsədi ilə istifadə etməyə çalışan xarici qüvvələr, demək olar ki, siyasi təşəkkül prosesinin erkən mərhələsini yaşayırlar və hələlik bir sıra kiçik qruplar yaratmağa nail olublar. Bu deyilənlər ilk növbədə Türkiyə və Ərəb ölkələri islam təşkilatlarının fəaliyyətini xarakterizə edir. Onların fəaliyyətinin nisbətən zəif olması Azərbaycan əhalisinin dini strukturu və ilk növbədə azlıq təşkil edən sünni məzhəblərə istinad etmələri ilə bağlıdır.

Bu baxımdan İranın Azərbaycanda təsir göstərmək imkanı daha genişdir, çünki bir tərəfdən əksəriyyət təşkil edən həmməzhəblərə arxalanır, digər tərəfdən dövlət və rəsmi siyasətlə gücləndirilir. Lakin, bizə belə gəlir ki, perspektivdə İran təsiri də elə bir uğur qazanmayacaqdır. Bu hər şeydən əvvəl İranın özündə dini hakimiyyətin və bu hakimiyyətin daşıyıcıları olan ruhanilərin hakimiyyətinin sonunun başlanması ilə izah oluna bilər. İranda 20 illik dini, ruhani hakimiyyəti İslamın irəli sürdüyü sosial ədalət prinsiplərini reallaşdıra bilmədiyindən indi, necə deyərlər, geri çəkilmək mərhələsinə qədəm qoymuşdur.

İranda ruhanilərin hakimiyyəti uzun illər xalqın xatirində insanların şəxsi həyatı üzərində amansız və sərt nəzarət və bu nəzarəti təşkil və icra edənlərin özbaşınalıqlarının acı təcrübəsi kimi qalacaqdır. Geyimə nəzarət, adət-ənənələrin yerinə yetirilməsinin İslam normalarına tabe etdirilməsi, hətta ev şəraitində bu normaların pozulmasının qarşısının alınması, dini ayinlərin yerinə yetirilməsinə sərt nəzarət və sairə buna tutarlı sübutdur. Hətta parlamentə son seçkilər zamanı deputatlığa namizədin cümə namazlarında və dövlətin təşkil etdiyi nümayişlərdə iştirak etməsi seçilmək şərtlərindən biri kimi qeyd olunmuşdur. Gənclərin həyat tərzinin onların yaş və psixoloji xüsusiyyətlərinin – özünüdərk, özünütəsdiq, kiçik qrupların maraq prinsipi ilə formalaşması və s. tələblərinin ziddinə qurulması, əsas diqqətin dini ayinlərin yerinə yetirilməsinə yönəldilmişdir. Qızların valideynləri tərəfindən ərə verilməsi, onların idmanla məşğul olmasının mümkünsüzlüyü, şahmatın qadağan edilməsi, velosiped sürmək İranda əhalinin orta təbəqələri, xüsusən tələbə gənclər və qadınlar ilk növbədə, həmin nəzarətdən xilas olmağa cəhd edərək bu sahədə hər hansı bir

müsbət addım atmağa hazır olan qüvvələri dəstəklədiyini nümayiş etdirməyə çalışmışdır.

İranda son üç ildə keçirilən hər üç seçkidə (prezident, şuralar və parlament) İslam dəyərlərini qoruyub saxlaması və insanları bu dəyərlərə, xüsusən də ikinci dərəcəli davranış normaları ilə bağlı dəyərlərə riayət etməyə məcbur etmək istəyən və mühafizəkar adlanan qüvvələrin həqiqətdə ağır məğlubiyyəti məhz həmin faktorla, gənclərin (seçicilərin az qala yarısı) və qadınların onlara yox cavabı ilə bağlı olmuşdur. Azərbaycanla bağlı isə bu, o deməkdir ki, bizim ölkədə İslam dininin mövqeyinin güclənməsi, əgər güclənərsə, İranda dini hakimiyyətin tamamilə zəifləməsi və hətta dinin dövlətdən ayrılması ilə eyni vaxta düşəcəyindən ən güclü faktor olan İran faktoru öz-özünə sıradan çıxacaqdır.

İslam dininin güclü siyasi amilə çevrilə biləcəyinin şərtlərindən biri də Azərbaycanda fəaliyyət göstərən xarici təşkilatların öz aralarında güclü rəqabət aparmasıdır. Bu amil həmin təşkilatlara oriyentasiyalanan yerli təşkilatların da parçalanması və zəifləməsi deməkdir.

Nəhayət, necə deyərlər, milli islamçıların siyasi gələcəyi barədə bir neçə kəlmə demək lazımdır.

Dövlətin bu və ya digər dərəcədə nəzarəti altında olan rəsmi dini təşkilat – Ruhani idarəsinin müstəqil siyasi qüvvəyə çevrilmək ehtimalı azdır, hərçənd münasib şərait yaranarsa bu ehtimal gerçəkləşə bilər. Hal-hazırda isə bu təşkilat daha çox xarici İslam və digər dinlərin nümayəndələrinin Azərbaycanda fəallaşmasına qarşı mübarizədə daha maraqlıdır.

Hələlik, xarici oriyentasiyası olmayan müstəqil milli dini təşkilatın və dini liderin mövcud olmasından danışmaq inandırıcı görünmür.

Azərbaycanda İslam faktorunun perspektivi beynəlxalq şəraitlə də bağlıdır. Azərbaycanın demokratik, dünyəvi, hüquqi dövlət quruculuğu istiqamətində inkişaf etməsi, beynəlxalq əlaqələr sisteminə, xüsusən də Avropaya inteqrasiyası, təbii resursları və geopolitik mövqeyinə görə müxtəlif güclü dövlətlərin nüfuz dairəsinə daxil olması, ölkənin özünün Qərbə daha çox meylliyi burada İslam dininin və ruhanilərin (hələlik belə bir təbəqənin mövcudluğu aydın hiss edilmir) güclənə biləcəyi ehtimalını son dərəcə zəiflədir.

Bütün bunlarla yanaşı İslam dinindən siyasi məqsədlərlə istifadə etmək cəhdlərinə laqeyd qalmaq olmaz.

Bir sıra ümumbəşəri əxlaqi və sosial ədalət dəyərlərini əks etdirən İslam dini müəyyən şəraitdə bəzi siyasi qüvvələrin ideologiyasının mühüm tərkib hissəsinə çevrilə bilər.

Azərbaycanın müasir ictimai durumu, mövcud problemlər, korrupsiya, az-

saylı yuxarı və çoxsaylı aşağı təbəqələr (orta təbəqənin mövcudluğu az hiss olunur) arasında fərqlərin sürətlə artması, milli-əxlaqi dəyərlərin yeni mühitə adaptasiyasının çətinlikləri İslam dəyərlərinin müəyyən dərəcədə canlana bilməsinə şərait yaradır.

Bununla belə sürətlə dəyişən, qloballaşan və sərhədsizləşən dünyada özünə layiqli yer tutmağa çalışan Azərbaycanda geriyə, Orta əsrlər dəyərlərinə qayıdış, bu dəyərlərin daşıyıcılarının cəmiyyətə rəhbərlik etməsi ehtimalı, bir daha qeyd etməyi lazım bilirik ki, sıfır həddindədir.

2010-cu il.

MÜASİR İSLAMIN ƏSAS İDEYA CƏRƏYANLARI

XX əsrin son onillikləri və XXI əsrin əvvəlləri islam daxilində son dərəcə ziddiyyətli və mürəkkəb hadisələrin baş verməsi ilə səciyyəvidir. Bu ziddiyyətlər hər şeydən əvvəl islamdaxili birlik və parçalanma meylləri arasında özünü büruzə verməkdədir. Haqqında vahid bir qüvvə kimi danışmağa adət etdiyimiz islam indi daxili parçalanmaya məruz qalmış, islamın adından indi müxtəlif cərəyanlar çıxış etməkdədir. İslam daxilində cərəyan edən və əksər hallarda onun təbiətinə zidd olan bu hadisələr kənar qüvvələrin islamdaxili birliyi zəiflətməyə yönəldilmiş dağıdıcı fəaliyyətinin nəticəsidir, yaxud qanunauyğunluq? Bu məsələnin düzgün cavablandırılması hazırkı şəraitdə son dərəcə mühüm əhəmiyyət kəsb edir.

Qloballaşma və bəşər sivilizasiyaları arasında yaxınlaşmanın, əməkdaşlığın və rəqabətin intensivləşdiyi müasir dövr müsəlman ölkələri qarşısında tamamilə yeni, çətin, mürəkkəb və çoxsaylı vəzifələr qoyur. Bu vəzifələr arasında xarici təsirlərə müqavimət göstərə biləcək, rəqabətə davam gətirə biləcək çağdaş mədəniyyət quruculuğu xüsusilə önəmli yer tutur. Qarşıda duran vəzifələr o qədər çoxsaylı, rəngarəng və müxtəlif səciyyəlidir ki, onları vahid ideologiya əsasında həll etmək çətinləşir. Mövcud şəraitdə islam hakim ideologiya rolunu oynamaqda davam etsə də, artıq onun müxtəlif dini-siyasi cərəyanları meydana gəlir. Vahid bir dünyagörüşü kimi görməyə alışdığımız islam daxili parçalanmaya uğrayır. Meydana gələn hərəkatların heç birisi özünün islam daxilində yalnız bir dini-siyasi hərəkat olduğu ilə nəinki razılaşmır, hətta məhz özünün, «əsil islamı» təmsil etdiyini iddia edərək, islama münasibətdə öz xüsusi təsəvvürü ilə çıxış edir. Onlar öz aralarında hər cür əməkdaşlıqdan imtina edərək digər dini-siyasi cərəyanları özünün ideya rəqibi hesab edir. Müasir ərəb ölkələrində elə bir qüvvə çətin tapılsın ki, bir əhatəli dünyagörüşü kimi islamdan imtina etməyə çağırsın. Söhbət milli ideologiyada din amilinin nisbətindən və ondan istifadə etmək yollarından gedir. Bu mübahisəli və prinsipial məsələnin cavablandırılmasına uyğun olaraq islam dini-siyasi hərəkatı ənənəvi islam, islam modernizmi, fundamentalizm (sələfiyunə, üsuliyyunə) və başqa qiyafələrdə çıxış etməyə başlayır. Qeyd etmək lazımdır ki, ənənəvi islam tərəfdarları ilə islam fundamentalistləri özlərini müxtəlif islam cərəyanları elan etsələr də onların aparıcı prinsipləri arasında müəyyən yaxınlıq müşahidə olunur. Bu cərəyanların hər ikisi müxtəlif mədəniyyətlər arasında əməkdaşlıqdan imtina edərək bu sahədə qarşılıqlı surətdə təsirlənməyin yolverilməzliyini iddia edir və islamın ilkin köklərinə qayıtmaqla, «xarici təsirlərdən azad», özünəməxsus çağdaş islam mədəniyyəti qurmağa çağırırlar. Onların təmsil-

çiləri islamın aparıcı prinsiplərini (əl-qiyəm əl-kubra) sabit və dəyişməz hesab edərək onları xarici təsirlərdən qorumağa çağırırlar. Lakin eyni zamanda, onlar digər xalqların mədəni nailiyyətlərindən birtərəfli qaydada faydalanmağa çalışırlar. Məsələn, ənənəvi islam ideoloqu, Misir mütəfəkkiri Fuad Zəkəriyya, Ənvər əl-Cundi, M.Hüveydə və başqaları Qərb dövlətlərinin səhiyyə və kosmik tədqiqatlar sahəsində nailiyyətlərini bütün dünya xalqları ilə bölüşdürməli olduğunu iddia edir və dünyagörüşü sahəsində heç bir güzəştə getməməyə çağırırlar. Onlar Qərbin elmi-texniki tərəqqi sahəsindəki nailiyyətlərindən faydalanmağa və bu nailiyyətlərdən sırf istehlakçı kimi istifadə etməyə və eyni zamanda, müstəqil mədəni subyekt kimi çıxış etməyə çağırırlar». İslam fundamentalistləri get-gedə daha da genişlənməkdə olan Qərbin mədəni müdaxiləsinə adekvat cavab verə bilməyərək öz əməli fəaliyyətində radikal və ekstremal vasitələrə əl atır və beynəlxalq həyatın ən təhlükəli amilinə çevrilir. Onlar öz siyasətini «Müsəlman qardaşları», «Əl-Təkfir ə-l-hicrə», «Hizbullah, «Əl-Qaidə» və bir sıra başqa ekstremist qüvvələr vasitəsilə həyata keçirməyə, dinc əhalidə qorxu və təlaş oyatmaqla onlara öz mövqelərini təlqin etməyə çalışırlar. Onların son məqsədi müsəlman Şərqi ölkələrində fəaliyyətdə olan dünyəvi hakimiyyət formalarını güclə devirmək və burada xilafət tipli islam dövləti qurmaqdır. Onların fikrincə, müsəlman cəmiyyətinin rəhbər tutduğu və ya rəhbər tutmalı olduğu dəyərlər «böyük dəyərlər» və «kiçik dəyərlər» olmaqla iki qrupa bölünür. Kiçik dəyərlər elmi-texniki inkişaf, nizam-intizam, həyat və davranış tərzi sahələrini əhatə edirsə, böyük dəyərlər dini etiqad, həyat və təfəkkür tərzi sahələrini əhatə edir. Məhz bu sahədə hər bir dəyər və meyar sabit və dəyişilməz qalmalı və heç bir güzəştə yol verilməməlidir. Ənənəviçilər və fundamentalistlər (sələfiyyunə) müasir ərəb ölkələrinin əksəriyyətində fəaliyyət göstərən rəsmi islama nəinki əməkdaşlıq etməkdən imtina edir, hətta ona qarşı dini müxalifət təşkil edirlər. Misir rəhbərliyi ənənəviçilərin və fundamentalistlərin ölkədə ictimai sabitlik üçün təşkil etdiyi təhlükəni düzgün dəyərləndirərək onların fəaliyyətini nəzarət altında saxlamağa çalışır. Misir prezidenti Hüsni Mübarək 1994-cü ilin avqust ayının 8-də Peyğəmbərin mövludu münasibətilə bütünlükdə Misir xalqı ilə birlikdə yerli islam müxalifətinə də müraciət edir. O, islam müxalifətinin simasında yerli fundamentalistləri və ənənəvi islam tərəfdarlarını (üsuliyyunə) görür. Özünün çıxışında o, açıq şəklidə islam müxalifətini tənqid edərək rəsmi islamın bu məsələlərə münasibətini bildirir və deyir: «Allahın göndərdiyi və Peyğəmbərin çatdırdığı Hənif islam dini öz mövqeyini başqalarına güclə təlqin etməyin əleyhinədir. O, insanları qətlə yetirməyi və ding əhalidə vahimə oyatmağı pisləyir. Peyğəmbərin risaləsi özünün çevikliyi, dinamikliyi, dəyişən şəraitə uyğunlaşmaq qabiliyyəti ilə seçi-

lir». Ənənəvi islam tərəfdarları və fundamentalistlər yalnız özlərinin «əsil islamı» təmsil etməyə haqqı olduğunu iddia edərək bütün müsəlmanları küfr etməkdə günahlandırır və onlara qarşı müharibə elan edirlər və beləliklə, özlərini təkcə islam dünyasına qarşı yox, bütün dünyaya qarşı qoymuş olurlar. Müasir ərəb ölkələrində zəngin ənənələrə malik olan və geniş yayılmış islam cərəyanlarından biri də modernizmdir. Modernizm son onilliklərdə daxili parçalanmaya uğrayaraq bir qədər zəifləmiş olsa da, ərəb-müsəlman ictimai fikrində önəmli yer tutmaqda davam edir və ənənəvi islam tərəfdarlarından və fundamentalistlərdən fərqli olaraq dini dünyagörüşü daxilində geniş mütərəqqi islahatlar apararaq onu müasirləşdirməyə çağırır. Modernistlər müxtəlif bəşər sivilizasiyaları arasında əməkdaşlıq və qarşılıqlı zənginləşmə tərəfdarlarıdır. Onlar çağdaş bəşər mədəniyyətində elmi-texniki tərəqqinin yerini və rolunu düzgün dəyərləndirir, bu sahədə **Qərb mədəniyyətinin üstünlüklərini etiraf edərək islamın əxlaq nəzəriyyəsini Qərbin rasional təfəkkürü ilə zənginləşdirərək çağdaş islam mədəniyyəti formalaşdırmağa çalışırlar**. Onların fikrincə, müsəlman ölkələrinin hazırkı geriliyinin və tənəzzülünün başlıca səbəbi bu xalqların ətraf mühiti dərk etməkdə əsaslandıqları idealist idrak metodudur. Ənənəvi islam dünya həyatı və onun problemləri ilə əlaqələri minimal həddə endirərək öz səylərini axirət dünyasının problemlərinə kökləyir. Modernistlər heç də islam dünyagörüşündən imtina etməyə yox, onu əxlaq və mənəviyyat sahələri ilə məhdudlaşdırmağa və onu Qərb mədəniyyəti ənənələri ilə sintez etməyə çağırırlar. Onların fikrincə, informasiya və kommunikasiya vasitələrinin inkişaf etdiyi və xalqlar arasında əlaqələrin intensivləşdiyi müasir dövrdə bu və ya digər xalqın mədəniyyəti başqa xalqların mədəniyyətlərindən təcrid olunmuş şəkildə inkişaf edə bilməz. Planetar səviyyədə sosial-mədəni tərəqqinin inkişaf səmti isə vahid bəşər sivilizasiyasının formalaşması istiqamətindədir. Bu sivilizasiya artıq formalaşmaqdadır. Artıq ərəb-müsəlman ölkələrində Qərb incəsənətinə olan maraq dərinləşməkdə, Qərb idman ulduzlarına pərəstiş etmək halları, Qərbdəki kimi geyinmək, qərblilər kimi yaşamaq səyləri intensivləşməkdədir. İslam modernistləri bu səylərin təbii və obyektiv səylər olduğunu etiraf edir və beynəlxalq səviyyədə geniş mədəni mübadilə tərəfdarı kimi çıxış edirlər. Bu baxımdan, modernizm müasir islam dini-siyasi hərəkatı daxilində daha mütərəqqi və daha geniş perspektivlərə malik olan bir hərəkatdır. İslam modernistlərin xalqlar arasında mədəni mübadilə və vahid ümumbəşəri sivilizasiyanın formalaşması konsepsiyaları müasir qloballaşma prosesinə daha dolğun və tam şəkildə cavab verir. Fikrimizcə bu cərəyan tədricən özünün daxili birliyini bərpa edərək mütərəqqi istiqamətdə təkamül edəcək, bu dünyagörüşündə elmi-rasionalist elementlərin nisbəti daha da ar-

tacaq və o, islam dini-siyasi hərəkatı daxilində başlıca cərəyana çevriləcəkdir.

Müasir islam daxilində gedən parçalanma prosesi bir daha onu göstərir ki, dünya miqyasında və eləcə də bölgədə cərəyan edən siyasi-ideoloji proseslərin təsiri altında islamın müxtəlif cərəyanları müxtəlif tərzdə reaksiya verərək parçalanmaya məruz qalır, islam əhatəli bir dünyagörüşü kimi müxtəlif cərəyanlara parçalanır, bu cərəyanlar dünya hadisələrinə münasibətdə bir-birindən fərqli mövqelərdən çıxış edirlər.

Artıq islam dünyagörüşü vahid bir fenomen kimi çıxış edə bilmir. Burada müxtəlif ideoloji cərəyanların məqsədyönlü fəaliyyəti özünü büruzə verməyə başlayır. Bu cərəyanların hər biri guya özünün «əsil islamı» təmsil etməyə haqqı olduğunu iddia edir. Müasir islam fundamentalistlərinin praktiki fəaliyyəti bu fikri bir daha təsdiq edir. Bu islam cərəyanlarının heç biri özünün müasirləşmə, yenilikçi, ənənəvilik tərəfdarı və ya fundamentalizm tərəfdarı olduğunu boynuna almır, əksinə, yeganə islamı təmsil etdiyini iddia edirlər. Son olaraq qeyd etməliyik ki, adı çəkilən cərəyanların onlarla, bəlkə də yüzlərlə davamçıları onların əsas konsepsiya və prinsiplərini öz çoxsaylı əsərlərində tədqiq edərək, minlərlə tələbələrinə aşılayırlar.

«Milli Məclis» jurnalı, sentyabr-oktyabr 2010-cu il.

ƏHMƏD ZƏKİ VƏLİDİ TOQANIN HƏYAT VƏ ELMİ YARADICILIĞI

XX əsrdə türk xalqlarının istər qədim və orta əsrlər, istərsə də müasir tarixinin öyrənilməsində dünyanın aparıcı elmi mərkəzlərində və təhsil müəssisələrində çalışan görkəmli tədqiqatçı-alimlərlə bərabər, Türkiyədə müasir türk tarixşünaslığının banilərindən biri sayılan Prof.Dr. Əhməd Zəki Vəlidi Toqanın (1890, Başqırdıstan - 1970, İstanbul) da özünəməxsus rolu olmuşdur.

Türkiyə Cümhuriyyəti qurulduqdan sonra şərqşünaslıq elminin bir sahəsi olan türkologiyanın inkişafına dövlət səviyyəsində diqqət yetirilməyə başlanıldı. M.K.Atatürkün təşəbbüsü ilə Türk Dil Qurumu və Türk Tarix Qurumu kimi elmi mərkəzlər təsis edildi.

Yeni hökumət gənc alimləri Avropanın nüfuzlu universitetlərinə və elmi-tədqiqat mərkəzlərinə göndərərək onların inkişafına xüsusi qayğı göstərməyə başladı. 1920-1940-cı illərdə Türkiyə Cümhuriyyətində xaricdə təhsil alıb qayıtmış gənc alimlərin türk xalqlarının tarixinə və mədəniyyətinə aid apardıqları tədqiqatların nəticələri olan sanballı əsərlər ortaya çıxdı. Bu illərdən sonra Türkiyənin orta və ali təhsil məktəblərində tədris zamanı istifadə olunan əsərlərin əksəriyyəti ölkədə yetişmiş gənc alimlərin apardıqları araşdırmaların məhsulları idi.

Avropada təhsil alıb Türkiyəyə qayıdaraq fəaliyyət göstərən tədqiqatçı-alimlərlə yanaşı, Rusiyada 1917-ci ildə baş vermiş bolşevik çevrilişindən sonra 1917-1922-ci illər arasında qırmızı terrordan xilas olmaq üçün Azərbaycandan, Şimali Qafqazdan, İtil-Uraldan, Krımdan, Türküstandan və Rusiyanın başqa bölgələrindən də Türkiyədə çoxlu sayda millətçi ziyalılar da pənah gətirmişdi. Belə ziyalı şəxslərdən biri də Əhməd Zəki Vəlidi Toqan olmuşdur.

Prof.Dr. Əhməd Zəki Vəlidi Toqan 1890-cı il dekabrın 10-da Başqırdıstanın Sterlitamak mahalının Küzən kəndində anadan olmuşdur. Onun ata nəsli bu kəndin qədim sakinlərindən olub böyük nüfuz sahibi idilər. Molla Ağa da deyilən Əhməd Zəki böyüdükdən sonra atasından gələn Vəlidi soyadını seçmişdir (1935-ci ildə Toqan soyadını da qəbul etmişdir). Onun ana tərəfi də oxumuş bir ziyalı nəsli idi. Zəki Vəlidinin bir şəxsiyyət kimi formalaşmasında ana tərəfinin də təsiri böyük olmuşdur.

O, ilk və orta təhsilini əvvəl atasının Küzəndəki, dayısının Ütəkdəki mədrəsələrində alaraq ərəb və fars dillərini mükəmməl öyrənmişdir. Mükəmməl ali təhsil almaq üçün o, Orenburq və Həştərxan şəhərlərindən keçərək Kazana gəlir. Artıq rus dilini bilən Əhməd Zəki 1912-ci ildə burada qeyri-ruslar üçün açılmış «Müəllimlər Məktəbi»nə daxil olmaq üçün imtahan-

lara hazırlaşır və eyni zamanda Kazan Universitetində şərq dillərinin filologiyasına dair mühazirələri də dinləməyə başlayır. Zəki Vəlidi ali təhsilini uzun müddətdən sonra, yəni 1932-1935-ci illərdə Vyanada tamamlayır. Hələ Kazanda olan vaxtlar məşhur şərqşünaslar M.Aşmarin və N.Katanovla yaxından tanış olan Zəki Vəlidi onların təşəbbüsü ilə elmi axtarışlara başlayır və nəticədə «Türk və tatar tarixi»nin ilk cildini 1912-ci ildə Kazanda nəşr etdirir. Bu əsərə görə o, Kazan Universiteti Tarix və Arxeologiya Cəmiyyətinin üzvlüyünə qəbul edilir və 1913-cü ildə Kazan Universiteti, 1914-cü ildə isə Rusiya EA tərəfindən Fərqanə və Buxara bölgələrinə elmi ezamiyyətlərə göndərilir. Burada dəyərli materiallar toplayan, elmi jurnallarda məqalələr çap etdirən Zəki Vəlidi 1912-1913-cü illərdən etibarən «Manas» dastanı və XIV əsrdə yaşamış ərəb tarixçisi və filosofu İbn Xəldunun həyat və fəaliyyətinin öyrənilməsi ilə məşğul olur.

1914-cü ildə Birinci Dünya müharibəsi başladıqdan sonra onu orduya səfərbərliyə alırlar, lakin dostlarının köməyi ilə səfərbərlikdən saxlanılır. Bundan sonra o, çoxdan hazırlaşdığı «qeyri-rus məktəblərində rus dili müəllimi» ixtisasından imtahan verir və dəvət edildiyi Ufa şəhərinə gedərək «Osmaniyyə» mədrəsəsində türk tarixi ilə türk xalqlarının ədəbiyyatı tarixindən dərs deməyə başlayır. Zəki Vəlidi burada müəllimlik etməklə yanaşı, siyasi fəaliyyətə də başlayır və Dumaya üzv seçilmiş türk-müsəlman deputatları ilə xalq arasında əlaqə yaradan Büroya Ufadan nümayəndə seçilir və 1915-ci ilin sonlarında Peterburqa gəlir. O, burada olarkən həm başqa bölgələrdən seçilmiş təmsilçilərlə yaxından tanış olur, həm də Rusiyanın daxili vəziyyətini öyrənməyə çalışır. Zəki Vəlidi 1917-ci il noyabrın 10-da qurulan Milli Başqırd hökumətinin müdafiə və daxili işlər naziri olur. Ancaq 1918-ci il yanvarın 18-də Orenburq bolşeviklər tərəfindən işğal edildikdən sonra o, həbs olunur. Bir neçə aydan sonra, yəni 1918-ci il aprelin əvvəllərində qazax və başqırdların birləşmiş Milli qüvvələri Orenburqu bolşeviklərin əlindən geri aldıqdan sonra Zəki Vəlidi həbsdən xilas ola bilir. O, 1918-ci il iyunun 7-də Milli Başqırd hökumətini yenidən bərpa etməyə nail olur. Onun qurduğu bu hökumət 1920-ci il iyunun 29-na qədər həm sovetlərlə, həm də ağqvardiyaçılarla müəyyən tarazlıq saxlaya bilir. Lakin Leninin başqırd ordusunun ləğv edilib başqa qüvvələrlə birləşdirilməsi qərarından sonra Milli Başqırd hökumətinin fəal üzvlərindən biri olan Zəki Vəlidi və bəzi dostları artıq sovet qırmızı terrorunun uzaqda olmadığını hiss edərək mübarizələrini Türküstanda davam etdirmək qərarına gəlirlər. 1920-ci il iyunun 29-da Zəki Vəlidi bir neçə yaxın silahdaşı ilə gizlincə Türküstana yola düşür. Onun bolşeviklərə qarşı Türküstandakı mübarizəsi üç ilə qədər davam edir (1920-1922-ci illər). Burada olarkən o, təhlükəsizlik

məqsədilə tez-tez yerini dəyişməyə məcbur olmuşdur. Bu dövrdə hətta gizli olaraq Bakıda olmuş və burada Kommunist İnternasionalının İcraiyyə Komitəsinin və RK (b)P MK Siyasi Bürosunun qərarı ilə keçirilən Şərq Xalqlarının Birinci Qurultayında (1920-ci il sentyabrın 1-dən 7-dək) iştirak etmiş tatarbaşqırd nümayəndələrinə dəyərli məsləhətlər vermişdir. Zəki Vəlidi Türküstanda Basmaçılıq hərəkatının rəhbərlərindən biri kimi bolşeviklərə qarşı silahlı mübarizə aparmaqla yanaşı, gəzdiyi yerlərdə elmi-tədqiqat işləri ilə məşğul olmağa da vaxt tapırdı.

Onun bu dövrdə topladığı qiymətli əlyazmalar və apardığı araşdırmalar sonralar Avropada və Türkiyədə yazıb nəşr etdirdiyi kitab və məqalələrin əsasını təşkil edir.

Artıq Sovet Rusiyasının qoşunları ilə mübarizə aparmağın mümkün olmadığını görən Zəki Vəlidi ən yaxın silahdaşlarından biri olan Fəth əl-Qədir Süleymanov (sonralar Əbdülqədir İnan kimi tanınacaq. O, Türkiyədə ali təhsil almış və elmi tədqiqatla məşğul olaraq Ankarada universitetlərdən birinin professoru kimi dərs demişdir) ilə 1923-cü il fevralın 21-də İrana keçir və Əfqanıstan yolu ilə Hindistana gəlir. Onlar bir müddət burada qaldıqdan sonra 1923-cü il noyabrın 1-də gəmi ilə Bombeydən Türkiyəyə yola düşürlər. Lakin vizaları olmadığı üçün ölkəyə buraxılmırlar və yenidən İzmir yolu ilə Avropaya gedirlər. Zəki Vəlidi və dostu Əbdülqədir İnan əvvəl bir müddət Parisdə, sonra isə Berlində yaşamalı olurlar. O, Berlinə gəlib çıxana kimi keçdiyi şəhərlərdə olan kitabxana və arxivlərdə araşdırmalar apararaq türk tarixinə, ədəbiyyatına və mədəniyyətinə aid qiymətli mənbələri üzə çıxarıb toplamışdır.

1925-ci il martın əvvəlində Türkiyənin o zamankı maarif naziri doktor Rza Nur Berlində olarkən Zəki Vəlidi ilə görüşür və onu Türkiyəyə dəvət edir. Bu dəvəti qəbul edən Zəki Vəlidi və dostu Əbdülqədir İnan 1925-ci il mayın 10-da Türkiyənin paytaxtı Ankara şəhərinə gəlirlər.

Zəki Vəlidinin Türkiyədə yaşadığı dövrü iki hissəyə bölmək olar: birincisi- 1925-1932; ikincisi- 1939-1970-ci illər (vəfatına qədər). O, 1927-ci ildə İstanbula gəlir və İstanbul Universitetində müəllimlik etməyə başlayır. Dərs keçdiyi zaman oxuduğu mühazirələri daşbasması və litoqrafiya üsulu ilə çap etdirməyə də nail olur.

Onun həyatında dərin iz buraxmış hadisələrdən biri də 1932-ci ilin iyulunda Ankarada keçirilən Türk Tarix Qurumunun birinci qurultayı olmuşdur. Baxışlarına görə onu burada tənqid etsələr də, fikirlərinin üstündə möhkəm dayanır. Hətta ona burada ali universitet təhsili olmadığına görə «cahil» damğası vuranlar da tapılır. Bütün bu haqsız tənqidlərə dözə bilməyən Zəki Vəlidi 1932-ci il iyulun 8-də İstanbul Universitetində tutduğu vəzifədən istefaya çıxdığını bildi-

rir və ləngimədən ali təhsilini tamamlamaq və doktorluq mövzusu müdafiə etmək üçün Vyanaya gedir.

O, Vyana Universitetində həm universitet təhsilini tamamlayır, həm də 1935-ci il iyunun 7-də «İbn Fədlanın səyahətnaməsi» mövzusunda doktorluq işini müdafiə edir. Zəki Vəlidinin müdafiə etdiyi doktorluq işi o dövrdə öz dəst-xətti ilə seçilən məşhur şərqşünaslar (Ord.Prof.Dr. A.Hold-Ferneck, Ord. Prof.Dr. D.Kralik, Ord.Prof.Dr. J.Sölch, A.Dopssh, V.Koppers, Seif, Geiger və b.) tərəfindən yüksək qiymətləndirilir.

Doktor Zəki Vəlidi əvvəl Bonn, sonra Qettinqen Universitetində «Orta Asiya tarixi və islamiyyət» mövzusunda mühazirələr oxuyur. Artıq 1939-cu ildə onun «İbn Fədlanın səyahətnaməsi» əsəri alman dilində Leypsiqdə çapdan çıxır və «Əl-Biruni» əsəri isə ingilislər tərəfindən nəşrə hazırlanır. O, eyni zamanda türk və alman dillərində nəşr olunan elmi jurnallarda bir neçə məqalə də çap etdirir. Zəki Vəlidi bu illərdə Türkiyə Cümhuriyyətində qəbul olunmuş yeni soyad qanuna görə özünə Toqan soyadını seçmişdir.

1939-cu il sentyabrın 1-də Türkiyəyə qayıdan Ə.Zəki Vəlidi Toqan İstanbul Universitetinin ədəbiyyat fakültəsində türk tarixi üzrə professor təyin edilir. Bu illərdə onun Əlişir Nəvai haqqında əsəri, «Türk metodologiyası», «Ümumtürk tarixinə giriş» kitabları nəşr olunur. Onun «Bu günkü Türküstan və yaxın keçmişi» əsəri əvvəl Misirdə ərəb əlifbası ilə türk dilində, 1940-cı ildə isə latın əlifbası ilə yenə də türk dilində çap olunur.

İkinci Dünya müharibəsi zamanı (1939-1945) Türkiyə ilə SSRİ arasında vəziyyət gərginləşərkən Ə.Zəki Vəlidi Toqan 1944-cü il mayın 15-də bir neçə millətçi ilə birlikdə (Hikmət Tanyu, Nihal Atsız, Türkeş və s.) «turançılıq» təbliğatı ilə Türkiyədə SSRİ əleyhinə fəaliyyət göstərməsi ittihamı üzrə həbs edilərək 10 il müddətinə azadlıqdan məhrum olunur. Ancaq bir müddətdən sonra, yəni 1945-ci ilin oktyabrında bəraət alır.

1932-ci ildəki Türk Tarix Qurumu və 1944-cü ildəki irqçilik-turançılıq hadisələri Ə. Zəki Vəlidi Toqanın elmi fəaliyyətinə çox böyük ziyan vurur. O, 1948-ci ildə yenidən İstanbul Universitetinə işə qəbul olunur və məhsuldar elmi fəaliyyətə başlayır. Ə. Zəki Vəlidi Toqan «Tarixdə üsul» əsərini yenidən nəşrə hazırlayır və 1950-ci ildə çap etdirir. 1953-cü ildə özünün təşəbbüsü ilə yaradılan İslam Tədqiqi İnstitutuna müdir təyin olunur. Ə. Zəki Vəlidi Toqanın adını dünyada məşhurlaşdıran hadisələrdən biri də 1951-ci ildə İstanbulda keçirilən XXII Şərqşünaslar Konqresi olmuşdur. O, bu konqresin təşkilatçılarından və onun keçirilməsinə məsul olan şəxslərdən biri kimi yaddaşlarda xoş iz qoymuşdur. Sonrakı illərdə Ə. Zəki Vəlidi Toqan dünyanın bir çox ölkələrinin ali təhsil müəssisələrində və elmi mərkəzlərində mühazirələr oxuyur və elmi top-

lantılarda iştirak edir [Amerikada (1957), Pakistanda (1959), İngiltərədə (1954].

Onun 1960-cı illərin axırı-1970-ci illərin əvvəllərində «Xatirələr» (İstanbul, 1969, 643 s.), «Tarixdə üsul» (İstanbul, 1969, 350 s.), «Ümumtürk tarixinə giriş» (II nəşr, İstanbul, 1970, 497 s.), «Türkün müqəddəratı» (İstanbul, 1970, 240 s.), «Quran və türklər» (İstanbul, 1971, 62 s.) və «Oğuz dastanı» (İstanbul, 1972, 164 s.) əsərləri nəşr edildi.

Prof.Dr. Ə.Zəki Vəlidi Toqan 1970-ci il iyulun 26-da İstanbulda vəfat etmişdir. Onun cənazəsi Qaracaəhməd məzarlığında torpağa tapşırılmışdır.

Prof.Dr. Ə.Zəki Vəlidi Toqanın elmi fəaliyyətinin əsas istiqamətlərindən biri və ən əhəmiyyətlisi ümumtürk tarixini geniş şəkildə, ilkin mənbələr əsasında işləyib ortaya qoyması olmuşdur. O, bu tədqiqatlarını iki cilddə cəmləşdirsə də, ancaq birinci cildini «Ümumtürk tarixinə giriş» (İstanbul, 1946, 1970) adı ilə nəşr etdirmişdir. Əsər türklərin miladdan öncəki dövrlərdən XVI əsrə qədər olan tarixini əhatə etməkdədir. Tədqiqatçı bu irihəcmli tədqiqatında türk tarixinin əski dövrlərini (Türküstanın əsil sakinləri və türklər, Cənubi Türküstanın qədim sakinləri və onların qonşuları; Sakların türklüyü və Əfrasiyab (Alp Ər Tunqa); «Türk» və «turan» sözlərinin əsli və «türk» adını daşıyan ilk qövm; Əski dövrün, xüsusilə də ana yurdda baş vermiş hadisələrin ümumi təsviri, türk tarixinin islam çağında yüksəliş dövrü, türklərin fəthləri və yayılmaları, türk fəthlərinin ənənələri; Türk və monqol fəthinin dünya tarixindəki əhəmiyyəti; Türklərin yayılma formaları və buna səbəb olan amillər; Türklərin və turanlıların Şərqi və Cənubi Asiya, Şərqi və Orta Avropaya, həmçinin Ön Asiya və Şimali Afrikaya yayılmalarını) təsvir etməyə çalışmışdır. Müəllif bu tədqiqatında həmçinin səlcuqların və oğuzların Mavəraünnəhrdə həyatları, Azərbaycan və Anadoluda yerləşmələri, İlxanlılar, Osmanlılar və XIV-XVI əsrlərdə Azərbaycanda və Osmanlı imperiyasında baş vermiş siyasi, iqtisadi və mədəni sahədə gedən dəyişikliklər haqqında da ilkin mənbələrə əsaslanmaqla elmi və həqiqətə uyğun fikirlər irəli sürməyə çalışmışdır.

Prof.Dr. Zəki Vəlidi Toqan ümumtürk tarixini araşdırarkən İlxanlı hökmdarlarının türk tarixindəki yerini, uluş sisteminin türk tarixindəki əhəmiyyəti məsələsi, qanun və din münasibətlərini özünəməxsus üsullarla şərh edib göstərə bilmişdir.

Ə.Zəki Vəlidi Toqan 1929-32-ci illərdən başladığı tarixin öyrənilməsi üsullarına aid oxuduğu mühazirələrini 1941-ci ildə çap etdirmək istəsə də, məlum səbəblərdən bu iş yarımçıq qalmışdır. Ancaq, bu əsər 1950-ci ildə reallaşa bilmişdir (Tarixdə Üsul, İstanbul, 1950, 1969). Həcmi çox böyük olan ön sözdə Ə.Zəki Vəlidi Toqan mədəniyyət, nüfuz və başqa məsələlərə dair fikirlərini də

söyləməkdədir. O, bu əsərində türk tarixinin tədqiqinə yeni metodologiya gətirmişdir. Əsər üç ana bölmədən (I bölmə: Tarixin mövzusu və sahəsi (tarix və tarixdə üsul məfhumları, tarixin başqa elmlərlə münasibəti və müəllifin yanaşma tərzinə görə tarixin növləri:); II bölmə: Metod bilgisi (metodun tərifi, təkamül və ayrılması; mənbələr bilgisi; tənqid, şərh və sintez); III bölmə; Tarix fəlsəfəsi (Tarixin teokratik, materialist, pozitivist, idealist, empressionist, humanist və islam dininin baxışlarına görə qiymətləndirilməsi). Müəllif bu əsərin əlavələr hissəsində türk tarixinə aid qaynaqları; Şərqə, xüsusilə də islam və türk aləminə aid məcmuələri; tarixlə əlaqəli başqa elmlərin metodologiyasına dair olan əsərləri; təsnif və müəllif planlarını da daxil etmişdir.

Ə.Zəki Vəlidi Toqan burada həmçinin «kültür» və «mədəniyyət» fərqləri; yunan mədəniyyəti haqqında əl-Biruninin fikirləri; Qərb mədəniyyətini mənimsəmənin miqyasları; demokratiya və yaratma fikri məsələləri də çox dəqiqliklə araşdırılaraq şərh olunmuşdur.

Ə.Zəki Vəlidi Toqan ümumtürk tarixini öyrənərkən dastanlardan və rəvayətlərdən də istifadə etmişdir. O, hələ 1912-13-cü illərdən etibarən «Manas» dastanı ilə maraqlanmaqla bərabər, sonralar «Oğuz dastanı»nı da nəşrə hazırlamışdır. Bu əsər əsasən Rəşidəddin Fəzlullahın «Cami üt Təvarix» adlı əsərindəki «Oğuzların və türklərin tarixi» hissəsinin tərcüməsidir (s.17-78). Əsər Ə.Zəki Vəlidi Toqanın vəfatından sonra tələbəsi olmuş Tuncar Baykara tərəfindən çap edilmişdir (Rəşidəddinin Oğuznaməsi, tərcümə və təhlili, İstanbul, 1972, 164 s).

Ə.Zəki Vəlidi Toqanın elmi tədqiqatlarında İtil-Uralda, Türküstanda və Qafqazda yaşayan türklərin tarixi də xüsusi yer tutmaqdadır. Onun 1969-cu ildə İstanbulda nəşr olunmuş «Xatirələr» əsəri (digər adı «Türküstan və digər müsəlman Şərq türklərinin milli varlıq və kültür mücadiləsi»dir) XX əsrin birinci rübündə adı çəkilən ərazilərdə ictimai-siyasi və mədəni sahələrdə baş vermiş hadisələrin əksidir. Bütün bu hadisələrdə müəllif şəxsən özü iştirak etmişdir. Onun «Türk və tatar tarixi» (Kazan, 1912, 280 s) kitabı bir çox mənbələrdən yararlanaraq yazılmışdır. Burada da İtil-Uralda yaşayan türklərin milli istiqlal mübarizəsindən bəhs olunur.

Ə. Zəki Vəlidi Toqan elmi fəaliyyəti zamanı Azərbaycanın tarixinə çox böyük əhəmiyyət vermişdir. O, Azərbaycan türklərinin tarixinə, etnoqrafiyasına, ictimai-siyasi, iqtisadi və mədəni vəziyyətlərinə dair çoxlu sayda elmi məqalələr yazıb müxtəlif illərdə və müxtəlif dillərdə buraxılan elmi, elmi-kütləvi jurnallarda və ensiklopediyalarda çap etdirmişdir. Onun tədqiqatlarında Azərbaycan tarixinin qədim və orta əsrlər dövrünün müxtəlif problemləri xüsusi yer tutur. Alim öz araşdırmalarında tarixi etnoqrafiyaya xüsusi yer verdiyi

üçün bu sahəni daha geniş, ətraflı tədqiqata cəlb etmişdir. Onun bu sahəyə xüsusi meyl göstərməsi heç də təsadüfi deyildir. Məlumdur ki, 20-ci illərin əvvəllərində Azərbaycanın tarixi etnoqrafiyasının obyektiv şəkildə öyrənilməsi cəhdləri Məhəmməd Həsən Baharlı tərəfindən edilmişdir. Bu problemi Azərbaycandan kənarda ilk tədqiq edənlərdən biri məhz Ə.Zəki Vəlidi Toqan olmuşdur. O, 1927-ci ildə «Azərbaycan etnoqrafiyasına dair» adlı məşhur tədqiqatını işləyib nəşr etdirmişdir. O, seçdiyi mövzunun aktuallığını dərk etmiş və problemin dərindən tədqiqində ilk qaynaqlara daha çox əhəmiyyət vermişdir.

Ə.Zəki Vəlidi Toqan bu tədqiqatında miladdan sonra Azərbaycana şimaldan daxil olan türk tayfalarının mənşəyi məsələsinə və onların Azərbaycan toponimikasında qalan izlərinə xüsusi diqqət yetirmişdir. Müəllif «Azərbaycan Yurd Bilgisi» dərgisində nəşr etdirdiyi (1932, I, s. 35-48, 69-83, 123-132, 145-156) «Azərbaycanın tarixi colğrafiyası» məqaləsi ilə bu problemin öyrənilməsi istiqamətində mühüm addım atmış oldu.

Onun «Ümumtürk tarixinə giriş» əsərində Azərbaycan tarixinin qədim və orta əsrlər dövrünə geniş yer verilmişdir. O bu əsərində Azərbaycan tarixinin müxtəlif məsələlərini (Azərbaycanın miladdan öncə də türklərin vətəni olduğunu, miladdan sonra başqa türk tayfalarının həm şimaldan, həm də şərqdən Azərbaycana axınını, oğuzların yürüşlərini, monqol işğalı zamanı Azərbaycanın ictimai-iqtisadi vəziyyətini, Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin yaranması və fəaliyyətləri) işıqlandırmağa cəhd göstərmiş və buna müəyyən mənada nail ola bilmişdir.

Ə.Zəki Vəlidi Toqanın Azərbaycana aid əsərlərindən biri də Türkiyədə nəşr olunmuş «İslam Ensiklopediyası»nda (II c., 91-118) çap etdirdiyi «Azərbaycan» məqaləsidir. Müəllif burada Azərbaycan tarixinin mükəmməl icmalını özündə əks etdirmiş və məqalənin daxilində mövzuya uyğun olaraq mötərizə içində mənbənin adını göstərməklə yanaşı, sonda müxtəlif dillərdə yazılmış əsərlərin biblioqrafiyasını da vermişdir.

Tədqiqatçı-alim «İslam Ensiklopediyası»nda «Araz» (I c., s. 555-557) və «Arran» (I c., s. 596-598) məqalələrini də çap etdirmiş və bu sözlərin həqiqi mənalarını açmağa çalışmışdır.

Ə.Zəki Vəlidi Toqanın 1969-cu ildə İstanbulu nəşr olunmuş irihəcmli «Xatirələr» kitabında Bakıda Şərq Xalqlarının I Qurultayı keçirilən zamanı (1920-ci il sentyabrın 1-7-də) burada gizli fəaliyyət göstərəndə, 20-ci illərdə Türküstanda baş vermiş milli-mücadilə dövründə, İran yolu ilə Avropaya gedərkən Məşhəd şəhərində, sonralar Avropada və Türkiyədə yaşadığı zaman ünsiyyət saxladığı Azərbaycan türkləri haqqında maraqlı məlumatlar verilir.

Ə.Zəki Vəlidi Toqanın tarixçiliyində bir neçə nöqtə vardır. Onlardan biri onun kitabxanalarda araşdırmalar apararaq indiyə qədər Türkiyə tarixşünaslığında istifadə edilməmiş bir çox mənbələri ortaya çıxartmasıdır. Buna misal olaraq İbn Fadlanın səyahətnaməsini, əl-Biruninin əsərlərini və xarəzm dilinə aid əski nümunələri göstərə bilərik. Onun tarixşünaslığının ikinci yönü də müstəqil fikirlər irəli sürməsidir (Orta Asiyada quraqlıq, Kay/Kayı və bir çox başqa məsələlərdə).

Ə.Zəki Vəlidi Toqanın elmi fəaliyyətində 1950-60-cı illərdə türk kültürünün çoxcildli müfəssəl bir təməl, yəni eksiklopedik xarakter nəşrinin tərtib olunub dünya ictimaiyyətinə çatdırılması məsələsində tutduğu mövqe diqqəti daha çox cəlb etməkdədir.

O bu illərdə sol görüşlü istər türkiyəli, istərsə də xarici alimlərin mövqelərini kəskin tənqid edərək onlara qarşı yorulmadan mübarizə apararaq Türkiyə xaricində yaşayan türklərin haqqında və onların yaratdıqları mədəniyyət əsərlərinin bu təməl kitabda yer almasına çalışmışdır. Halbuki bəzi sol görüşlü müəlliflər onun bu fikrinin əleyhinə idilər.

Uzun illər Prof.Dr. Ə. Zəki Vəlidi Toqan və başqa mühacir alimlərin əsərləri Avropa və dünyanın başqa ölkələrinin elmi ictimaiyyətinə məlum olduğu halda, öz vətəni, Başqırdıstan da daxil olmaqla, keçmiş SSRİ ərazisində istifadə və nəşr olunması qadağan edilmişdir. Bu əsərlərə pantürkist və panislamist damğası vurulmuşdur. Sosialist sistemi ləğv edildikdən sonra adı çəkilən ərazilərdə Ə. Zəki Vəlidi Toqanın əsərləri də araşdırılmağa və tədqiq edilməyə başladı. Azərbaycanda da Ə. Zəki Vəlidi Toqan haqqında M.Ənsərlinin məlumat xarakterli kitab və məqalələri nəşr olunmuşdur. Azərbaycanda onun həyatını, fəaliyyətini və əsərlərini araşdıran tədqiqatçılardan tarix elmləri doktoru, professor Vaqif Piriyev, fiologiya elmləri doktoru İsfəndiyar Vahabzadə (Şəkili), tarix elmləri namizədi Tofiq Nəcəfli, t.e.n. Bəşarət Bəşirova və başqalarının adlarını qeyd etmək olar.

Ə. Zəki Vəlidi Toqan öz tədqiqatlarında türk tarixinin əski dövrləri; islam dövründə yüksəliş mərhələləri; türklərin qələbələri və yayılmaları; Ön Asiyada yeni türk vətəninin qurulması və Ağ dənizlə Qara dənizə hakim olan böyük türk dövlətinin meydana gəlməsi mövzularına aid Çin, ərəb, fars, latın, alman, fransız, ingilis, rus və başqa dillərdə olan mənbələri və yazılmış əsərləri dərindən müqayisəli təhlil etmişdir. O bu araşdırmaları zamanı müasir türk tarixşünaslığının qarşısında duran vacib problemlərin həll olunmasına çalışmışdır. Onun tədqiqat olbyektləri arasında Azərbaycanın qədim və orta əsrləri özünəməxsus yer tutmaqdadır.

Azərbaycanda türk xalqlarının tarixinə aid yazılan əsərlərdə vaxtilə

bilərəkdən və bilməyərəkdən buraxılmış səhvləri görkəmli alimin bu tədqiqatlarından istifadə etməklə düzəltmək olar.

Prof.Dr. Zəki Vəlidi Toqanın uzun illərdən bəri tədqiq etdikdən və araşdırdıqdan sonra türk tarixşünaslığında irəli sürdüyü fikirlərin aktuallığı öz nəzəri və təcrübi əhəmiyyətini indi də itirməmişdir.

QAYNAQLAR:

A.Kitabları

1. «Türk və tatar tarixi», Kazan, 1912, 280 s.
2. «Üsyan zamanında və Mixail Fyodoroviç Romanovu seçmə işlərində müsəlmanlar (XVI əsrin sonu – XVII əsrin əvvəllərində Rusiya müsəlmanlarına aid mülahizə), Kazan, 1913.
3. «Aşmarin Tatar ədəbiyyatı haqqında », Orenburq, 1913.
4. «Lütfi və onun divanı: Məşhur çağatay şairi Lütfi haqqında», Kazan, 1914, 44 s.
5. «Kokand xanı Xudayar xanın son günləri», Kazan, 1914.
6. «Qısa türk-tatar tarixi», Kazan, 1915, 136 s.
7. «Qısa türk –tatar tarixi», 2-ci nəşr, Kazan, 1917, 96 s.
8. Türk Tarihi-İslamiyyetten evvelki devirlerine ait dersler, İstanbul, 1928, 154 s.
9. Türk tarihinin ümumi hatlarına dair ilk methal dersi, İstanbul, 1928, 40 s.
10. Türk dillerinin tarihi coğrafiyasına ait derslere methal, İstanbul, 1928, 24 s.
11. Bugünkü Türkistan ve Yakın Mazisi, Cario, 1928, 710 s.; 1940.
12. Die gegenwartige Lage Mohammedaner Russlands, Budapest, 1930.
13. Onyedi kumaltı şehri ve Sadri Maksudi Bey, İstanbul, 1934, 60 s.
14. İbn Fadlans Reis-berichte (Abhandlung für die Kunde des Morgenlandes, XXIX, 3), Leipzig, 1939, XXXXIX, 336+46 ps.
15. Ümumi Türk Tarihine Methal, İstanbul, 1940, 80 s.
16. Birunis picture of the World (Memoirs of the Archacological Survey of İndia, vol. LIII), New Delhi, 1940, X, 142 ps.
17. 1929-1940 seneleri arasında Türkistanın vaziyeti, İstanbul, 1940, 43 s.
18. Türk Tarihine Methal, İstanbul, 1941, 112 s.
19. Moğollar, Cengiz ve Türklük, İstanbul, 1941, 32 s.
20. Tarihte Usul. İstanbul, 1941, 48 s.

21. 10-15 asır Asya tarihi haritası, İstanbul, 1941-42.

22. Bugünkü Türkeli (Türkistan) ve Yakın Tarihi, İstanbul, 1942, XII, 696 ps.; 1947;

23. Türkeli haritası ve ona ait izahlar, İstanbul, 1943, 32 s.+1 harita

24. Ümumi Türk Tarihine Giriş, İstanbul, 1946, XVI, 486 ps.; 2 baskı, İstanbul, 1970, XVI+ 537 s.

25. Tarihte Usul, İstanbul, 1950, XXXII, 373 s.; 2. Baskı, İstanbul, 1969, 350 s.

26. Horezmce tercümeli Muqaddimat al-adab, İstanbul, 1951, 532 s.

27. Scientific collaboration of the İslamic Orient and Occident, İstanbul, 1951, 26 ps.

28. İstanbulun 500 illiyi. Fetih yıldönümüne dair mülahazalar, İstanbul, 1953, 8 s.

29. Dokuments on cultural relation between the İlkhanides and Bizanfines, X.Milletlerarası Bizans Kongresi tebliğleri, İstanbul, 1957. 25 s.

30. Türk – Türküstan, İstanbul, 1960, 40 s.

31. «19 ve 20 asırlarda Orta ve Önasyada fikir ve kültür hayatı», 1961-1962 notları, İstanbul, 66 s.

32. On the miniatures in İstanbul Libraries, İstanbul, 1963, 68 s.

33. X-XII asırlarda İç-Asya kabileleri, 1962-63 notları, İstanbul, 1963, 96 s.

34. «Türk dili ve tarihi temel kitasını sola çevirme teşebbüslerine dair üç mektup», İstanbul, 1963, 16 s.

35. Temür ve Oğulları, 1964-65 notları, İstanbul, 1965, 220 s.

36. XVI asırdan günümüze kadar müstemleke devrinde Asya tarihi, 1965-66 notları, İstanbul, 1966, 199 s.

37. Salur Kazan ve Bayandurlar, İstanbul, 1966, 7 s.

38. Karahanlılar, 1966 – 67 ders notları, İstanbul, 1967, 114 s.

39. Tuyuhunlar ve Başkurtlar, 1968 ders notları, İstanbul, 1968, 56 s.

40. Hatıralar, İstanbul, 1969, 643 s.

41. Asya Tarihi, 1968-69 ders notları, İstanbul, 1969, 67 s.

42. Cengiz Han, 1969-70 ders notları, İstanbul, 1970, 66 s.

43. Türklügün mukadderatı üzerine, İstanbul, 1970, 240 s.

44. Kuran ve Türkler. İstanbul, 1971, 62 s.

45. Oğuz Destanı, İstanbul, 1972, 164 s. + VI Levha.

B. Məqalələri

1. «Kazan xanlığının son günleri», «Türk Yurdu» c. 12. № 7, İstanbul 1912, s. 575-580

2. «Romanovlar dövründə Rusiya dövləti və müsəlmanlar», «Məktəb», № 1, Kazan, 1913, s. 8-11.

3. «Mədrəsələrimiz haqqında», «Məktəb», Kazan, 1913, № 2, s. 35-38.

4. «Mədrəsələrimiz tarixinə bir nəzər», «Məktəb», Kazan, 1913, № 3, s. 78-81.

5. «Hansı millətdənsən», «Məktəb», Kazan, 1913, № 7, s. 179-183.

6. «Xalfinlər», «Şura», Orenburq, 1913, № 3, s. 67-72; № 4, s. 105-109; № 5, s. 138-141.

7. «Şəhabəddin Həzrətlərinin Orta Asya tarixinə aid böyük əsəri», «Anq», Kazan, 1914, № 4, s. 74-78.

8. «İbn Xəldunun Nazarında islam Hükümetinin istikbalı», «Bilgi», İstanbul, 1914, №7, s. 733-743.

9. «Mərcaninin bir əsəri haqqında Qəyyum Nasiri». «Şəhabəddin Mərcaninin tərcümeyi-halı», Kazan, 1915, s. 582-589.

10. «Rus tarixi ədəbiyyatında Mərcani», «Şəhabəddin Mərcaninin tərcümeyi-halı», Kazan, 1915, s. 468-484.

11. «Vostoçnıe rukopisi Ferqanskoy oblasti», (ZVOİRAO) XXII, 1915, s. 303-320.

12. «Otçyot o komandirovke v Buxarskoye xanstvo» ZVOİRAO, SPb., 1916, t.XXIII, s. 245-262.

13. «İbn ül Fakihin yeni nushası», «TY», Ankara, 1924, №4, s. 297-304.

14. «Meşxedskaya rukopis» İbnulfakixa», Bulletin de İ`Akademie des Sciences de Russie, Leninqrad, 1924, s. 237-248.

15. «Azerbaycan etnoqrafisine ait», «YK», 1927, № 10, 11, 14, 19 («AYB», II, s. 49-56, 101-107, 247-253)

16. «Türküstan meselesi», «YT», 1927, №1, s. 2-8.

17. «Bolşeviklerin şark ve müstemleke siyaseti», «YT», 1927, №2-3, s. 9-13.

18. «Türkistan ve Edil havzasının medeni münasebetleri tarihinden», «YT», 1927, №2-3, s. 25-30.

19. «Türkistanın iktisadıyatında yerli ve Rus nokta-i nazarları», «YT», 1927, №4, s. 15-21.

20. «Türkistan istiklal hareketine karşı Buhara Emiri», «YT», 1927, №5-6, s. 2-8.

21. «Türkistan ismi, hududu ve mesahası hakkında», «YT», 1927, №5-6, s. 30-35.

22. «Şarki Türkistanda kadim Küçalıların medeniyeti», «YT», 1927, №7, s. 29-38.

23. «Türklerde hars burhanı», «TY», 1927, № 24, s. 495-509.

24. «Chwarezmische Sätze in einem arabischem Fikh-Werk», İslamica, III, 1927, s. 190-213.

25. «Oğuzların hristianlığı meselesine dair», «TM», II, 1928, s. 61-74.

26. «Horezmde yazılmış eski Türkçe eserler», «TM», II, 1928, s. 315-346.

27. «Şeyh Muhsin-i Faninin Mahtumkulı Divanı neşrine ait tenkid», «TM», II, 1928, s. 466-474.

28. «Rus inkılabı devrinde Türkistan ilmi neşriyatı hülasası», «TM», II, 1928, s. 599-620.

29. «Moğollar devrinde Anadolunun iktisadi vaziyeti», «THİTM», I, 1930, s. 1-42.

30. «Azerbaycanın tarihi coğrafiyası», «AYB», I, 1932, s. 35-48, 69-83, 123-132, 145-156.

31. «On Mubarakshah Ghuri», «Bulletin of the School of Oriental Studies», VI/4, 1932, s. 847-858.

32. «Orta Asyadakı kuraklığa dair» «I.TTKZ», İstanbul, 1932, s. 167-176.

33. «Orta Asyadakı kumaltı şehirlerine dair», I. TTKZ, İstanbul, 1932, s. 369-376.

34. «Der İslam und die geographische Wissenschaft». «Hetners Geographische Zeitschrift, Heidelberg, 1934, s. 361-372.

35. «İslam and the science of geography», «İC» Hyderabad, 1934, s. 511-527.

36. «Consideration sur la collaboration scientifique entre I`Orient Islamique et I`Europe» Reveue des Etudes İslamiques, cahier III, 1935, s. 249-271.

37. «Die Schwerter der Germanen nach arabischen Berichten des 9 und 10 Jahrhunderts», ZDMG, XC, 1936, s. 19-37.

38. «Die Nordvölker bei al-Biruni», ZDMG, XC, 1936, pp. 38-51.

39. «Über die Beövlkerungs dichte Zentralasiens im mittelalter», Festschrift zum 70 Geburtstag von A.Dopsch, Wien-Leipzig, 1938, pp. 424-433.

40. «Göethenin Şarkı duyuşu», «Yücel», İstanbul, 1939, №55, s. 3-9.

41. «Eski Türk ve Moğolların haritaları ve haritacılığı meselelrine dair notlar», «Kopuz», İstanbul, 1939, №5, s. 164-169.

42. «Völkerschaften des Chazarenreiches im neunten jahrhundert», «Köresi Csoma Archivum», III/I, 1940, pp. 40-76.

43. «Sir Denison Ross ve eserleri», «Ülkü», 1940, №92, s. 103-112.

44. «Ali Şir (Nevayi), İA, 1941, I, s. 349-357.

45. «Amuderya», İA, 1941, I, s. 419-426.

46. «Biruni», İA, 1942, II, s. 635-645.

47. «Türk tarihinde milli birlik nasıl vücuda geliyordu?», «TY», XXVII/1-2, 1943, s.1-8.

48. «Harezm» İA. 1948, V, s. 240-257.

49. «Hazerler», İA, 1948, V. s. 397-408.

50. «Herat», İA, 1948, V. s. 429-442.

51. «Büyük Türk hükümdarı Şahruh» «İUEFTDED», 1949, III/3-4, s. 520-538.

52. «Kayseri ve Bursadakı bazı yazmalar hakkında», «TD, 1949, I/1, s. 67-76.

53. «XXII Beynelmilel Müsteşrikler Kongresinin mesaisi ve İslam tetkikleri», İTED, 1953 (1954), I/4, s. 1-38.

54. «Dünyada İslam tetkikleri», İTED, 1954, I/4, s. 95-115.

55. «Reşideddinin mektublarında Anadolunun iktisadi ve medeni hayatına kayıtlar», İ.Ü.İktisad Fakültesi mecmuası, XVI/1-4, 1953-54 (1955), s. 33-50.

56. «Das Özbekische Epos Channame», CAF, ½ (1955), 144-156.

57. «Doğu Türkleri üçün kültür birliği fikrinin ehemiyeti», «Mücahit», 1956, №6, pp. 1-8.

58. «Şur I`origine des Safavides», «Melanges L.Massignon, Damas, 1957, III. pp. 345-357.

59. «The Organization of Western and Central Asian Studies both in the Occident and in the Orient», «Report on Current Research on the Middle East, 1958. Washington, s. 15-21.

60. «Timurs Osteuropapolitik», ZDMG bd. 108, h.2, 1958, pp. 279-298.

61. «Timurs campaign of 1395 in the Ukraine and North Caucasus», The Annals of the Ukrainian Academy of Arts and Sciences, VI/3-4 (21-22), 1958, pp. 1358-1371.

62. «Londra ve Tahrandaki İslami yazmalardan bazılarına dair», İTED, III/2-4, 1960, s. 133-168.

63. «Timur», Urdu Encyclopedia of İslam, vol, IV, fasc. 15 (1961), pp. 919-943.

64. «The composition of the history of the Mongols by Rashid ad-Din», CAJ, VII/1, 1962, pp. 60-72.

65. «Zentral-asiatisce türkische literatur der İslamischen Zeit», Handbuck der Orientalistik, 5 B., I, Türkologie, Leiden, 1963, pp. 229-249.

66. «The earliest translation of the Quran into Turkish», İTED, IV/1-2, 1964, pp. 1-19.

67. «Eftalit ve Bermekilerin menşei meselesi», İTED, 1964, s. 58-64.

68. «Delhi Müsteşrikler kongresi», İTED, 1964, s. 89-102.

69. «Activities of the Turkish delagation at the 26 th Congress of Orientalists», İTED, 1964, s. 119-128

70. «Gazan Han Halil ve Hace Bahaüddin Nakşbend», Oriental Colloge Magasine, Lahore, 1964, pp. 191-199.

71. «Zamahşerinin doğu turkçesi ile Mukaddimet ül-edeb`i», Türkiyat Mecmuası, XIV, 1965, pp. 81-92.

72. «Cultural policies of RCD. powers», Paper read at the R.C.D, seminar on the common cultural heritage. Tehran, 1965, pp. 16-23.

73. «Kazan Hanlığında İslam-Türk kültürü», İTED, III/3-4, 1959-1960 (1966), s. 180-204.

74. «İslam Araştırmaları Enstitüsü ve Ümumi Türk Tarihi Kürsüsü çalışmaları», İTED, 1966, s. 269-312.

75. «Philologiae Türcicae Fundamenta», «Cultura Turcica» II/2, 1965 (1966), pp. 299-304 (almanca).

76. «The topography of Balkh down to the Middle of the Seventeenth century», CAJ, XIV/4, 1970, pp 277-288.

77. «Çengiz Khan», Urdu Encyclopaedia of İslam, vol. 7, fasc. 11, s. 691-704 (1971 Janv), vol. 7, fasc, 12, s. 705-717 (1971 març).

78. «Türk Sanat Tarihi Araştırmasının Temel Meseleleri», Türk Kültürü El Kitabı, II/a, İst. 1972, s. 1-6.

C. Tənqidi rəyləri

1. **T.Manzels.** German translation of W.Bartholds «Zölf Vorlesungen über die Geschihte der Türkvölker Mittelasiens», «OL», 1937, № 8-9, pp. 537-539.
2. **Saadet İshaki.** Cora Batur, «OL., 1938, № 2. pp. 114-118.
3. **K.Otto-Dorn.** Das islamische İznik, «TY», 1942. XXVI/2, s. 62-64.
4. **Aziz Suryal Atiya**. The Crusade in the Later Middle Age, «TY», 1942. XXVI/4, s. 126-128.
5. **Jaschke**. Der İslam in der neüen Türkei, «BO», X/6, 1953, s. 247.
6. **Taeschner.** Neschri-Chronik, «BO», 1953, X/6. s. 250-251.
7. **Taeschner.** Neschri-Chronik. İTED, I/4, 1953 (1954), s. 149-150.
8. **Jaschke**. Der Islam in der neüen Türkei, İTED, I/4, 1953 (1954), s. 153-155.
9. **Kirk.** The Middle East in War, İTED 1/4, 1953 (1954), s. 153-155.
10. **Mecmualar,** İTED, I/4, 1953 (1954) s. 170-172.
11. **B.Spuler.** İran in frühislamischen Zeit, İTED, 1960, III/2-4, s. 257-258.
12. Kafkasya tarihine ait yeni eserler, İTED, 1960, III/2-4, s. 258-260.
13. **S.H.Taqizade.** Mani u din-i, İTED, 1960. III/2-4, s. 268-270.
14. Prof. M.Shafi presentation volume, İTED, 1960, III/2-4. s. 270-273.
15. Al-Raşid b. al- Zubahr. Kitab al-Zahair va al' Tuhaf, İTED, 1959-1960

(1966), III/3-4, s. 237.

16. **(F.Rosental).** İbn Khaldun, The Muqaddimah, İTED, 1959-1960 (1966), III/3-4, s. 249-251.

17. **Doerfer.** Türkische und Mongolische, İTED, 1959-1960 (1966), III/3-4, s. 246-249.

18. Saykh Nadim al-Cisr. Qisas al-İman, İTED, 1959-1960 (1966), III/3-4., s. 257-259.

C. Haqqında yazılan əsərlər

1. Baykara, Tuncer. Zeki Velidi Togan, Ankara, 1989.

2. Devlet, Nadir. Rusya Türklerinin Milli Mücadele Tarihi (1905-1917), Ankara, 1999.

3. Devlet, Nadir. 1917 ekim İhtilali ve Türk-Tatar Millet Meclisi (İç Rusya ve Sibirya Müslüman Türk-Tatarlarının Millet Meclisi. 1917-1919) İstanbul, 1998.

4. Ənsərli M.M. Əhməd Zəki Vəlidi Toqanın həyat və elmi fəaliyyəti/ Elmi araşdırmalar: Azərbaycan MEA Şərqşünaslıq İnstitutu. – Bakı: Nurlan, 2006. – sayı 1-4, s. 41-45.

5. Ənsərli (Ləmbəli) M.M. Prof.Dr. Əhməd Zəki Vəlidi Toqan. Bakı. – «Qartal» – 1997. – III + 56 s.

6. Новая страница из жизни А.З.Валиди (Составление, предисловие и примечания Рината Н.Шигабдинова, перевод на русский язык с копии текста оригинала Абдулкадиром Захидой. Токио, 2001.

7. N.Togan, İsenbike Togan Arıcanlı. Z.V.Togan kendi tasnifisine göre mesai evraki. – Atatürk Universitesi Fen-Edebiyat Fakültesi Araştırma Dergisi, A.Z.V.Togan özel sayısı. – sayı 13. Fasikül: 1, 1985.

8. Şəkili İsfəndiyar, Ənsərli Mirzə. Mühacirət tarixindən yarpaqlar (Türkiyədə yaşamış məşhur tatar-başqırd mühacirləri), Bakı, 1997.

9. Öldatbaev A.M. İzvestnıy i neizvestnıy Zaki Validi (v paməti svoix sovremennikov), Ufa, 2008.

2010-cu il.

KEÇMİŞİ QAYTARMAĞIN UĞURSUZ CƏHDLƏRİ

Hicab mövzusu tarixən mübahisəli, müəyyən dövrlərdə isə hətta qalmaqallı məsələ olmuşdur. Hazırda islam ölkələrində, ruhanilər, ilahiyyatçılar və fikir adamları arasında bu məsələyə radikal baxışlarla yanaşı, liberal yanaşmalar da mövcuddur. Ən əvvəl onu demək lazımdır ki, qadınların örtünməsi faktına islamdan çox-çox öncə müxtəlif dinlərdə və ölkələrdə rast gəlinir, yəni bu, islamın gətirdiyi və onun inhisarında olan bir məsələ deyildir. Məşhur tarixçi və filosof Uilyam Dürant «Sivilizasiya tarixi» adlı çoxcildlik kitabında yəhudilikdə hicabın tətbiq olunduğunu və «Talmud»da bunun qanun şəklinə salındığını göstərərək, yazır: «Əgər hər hansı bir yəhudi qadın bu qanunu pozmaq fikrinə düşsəydi, məsələn, başına bir şey örtmədən camaatın arasına çıxsaydı…, kişilərlə söhbət edib ucadan danışsaydı və onun səsini qonşular eşitsəydi, onda o qadını başlıq vermədən boşayardılar».

«Tövratda, daha konkret desək, «Yaradılış kitabında» İbrahim peyğəmbərin zamanında hicaba riayət olunduğuna dair aydın işarələr vardır: «Rivqa başını qaldırıb İshaqı görəndə dəvədən düşdü. O nökərdən soruşdu: «Bizi qarşılamaq üçün çöllüyə gələn bu adam kimdir?» Nökər: «Ağamdır» - dedi. Rivqa rübəndini üzünə çəkib örtündü».

Ü.Dürant həmçinin qədim İranda Dariyuşun zamanından etibarən (e.ə. VI-V əsrlər) xüsusən varlı təbəqədən olan qadınlar arasında ciddi hicab qaydalarının hökm sürdüyünü göstərir: «Cəmiyyətin yüksək təbəqələrinə mənsub olan qadınlar məxsusi kəcavə və örtülü arabalardan başqa bir şeylə evdən çıxmağa cürət edə bilməzdi. Onlara heç vaxt icazə verilmirdi ki, aşkar surətdə kişilərlə qaynayıb-qarışsınlar. Ərli qadınların heç bir kişini, hətta ata və qardaşını belə görməyə haqqı yox idi. Qədim İranın daş kitabələrində həkk olunmuş şəkillərdə bir nəfər də olsun, üzüaçıq qadın görünmür və onların adı çəkilmir».

Qeyd etmək lazımdır ki, İran ərazisində qadının geyiminə və münasibətlərinə qoyulan məhdudiyyətlər Sasanilər dönəmində daha da sərtləşmiş və daha geniş sosial təbəqələri əhatə etmişdir. Tarixi qaynaqlar islamdan öncə Hindistanda və Bizansda da hicabın müxtəlif formalarının mövcud olduğunu göstərməkdədir.

Beləliklə, qadınların bədənini, başını və üzünü örtməsi bəşər cəmiyyətinin inkişafının müəyyən mərhələsində meydana gələn mədəni-ictimai hadisədir və onun tətbiqi din amili ilə bağlı olmaya da bilər. Tədqiqatçılar bu problemi çeşidli yönlərdən açıqlayaraq, hicabın tətbiqini müxtəlif səbəblərlə izah etmişlər. Həmin səbəblər aşağıdakı şəkildə qruplaşdırılır:

1. Guşənişinlik və tərkidünyalığa meyl (fəlsəfi səbəb);

2. Təhlükəsizlik və sosial ədalətin olmaması (ictimai səbəb);
3. Kişinin ailədə hökmranlığı və qadını öz mənafeləri üçün istismar etməsi (iqtisadi səbəb);
4. Kişinin qısqanclıq hissi və eqoizmi (əxlaqi səbəb);
5. Qadın orqanizmində hər ay təkrarlanan fizioloji prosesin onun yaradılışca kişi ilə müqayisədə nöqsanlı olması barədə təsəvvürlər və həmin proses dövründə onunla ünsiyyətdən çəkinilməsi (psixoloji səbəb)

Müsəlman müəllifləri islami hicabın qeyd olunan səbəblərin heç biri ilə əlaqədar olmadığını, tam fərqli və əlahiddə xarakter daşıdığını, ilahi hikmətin təzahürü kimi meydana çıxdığını sübut etməyə çalışsalar da, onun əvvəlki mədəniyyətlərin (xüsusən İran və Bizansın) təsirinə məruz qaldığını etiraf edirlər. Məsələn, müsəlman dünyasının, xüsusən şiələrin, ən nüfuzlu din alimi və filosoflarından sayılan Ayətullah Mürtəza Mütəhhəri «Hicab məsələsi» adlı kitabında yazır: «Qəbul etməliyik ki, sonralar ərəblərin təzə müsəlman olan qeyri-ərəb xalqları ilə qaynayıb-qarışması nəticəsində hicab və örpək məsələsi Peyğəmbəri – Əkrəmin (s) dövrü ilə müqayisədə daha da şiddətləndi». Təsadüfi deyil ki, bir çox müəlliflər hicri tarixin birinci əsrində hicaba o qədər də önəm verilmədiyini, qadın və kişilərin bir-birilə görüşdüyünü, küçədə birgə getdiyini, məsciddə birlikdə namaz qıldığını yazmış, yalnız xəlifə II Vəlidin dövründə (hicri 126-127-ci illərdə) hicabın qanun şəklində tətbiq olunduğunu vurğulamışlar.

Ümumiyyətlə, islamın yayıldığı geniş regionda hicaba baxış müxtəlif olmuş, yerli adət-ənənələrin təsiri ilə onun çeşidli formaları meydana gəlmişdir. Başqa tipli faktlar da olmuşdur: islamı X əsrdə qəbul etmiş Volqaboyu tatarlarda hicaba bütövlükdə riayət olunmamışdır. Hicabın tətbiqi Yaxın və Orta Şərqdə, Mərkəzi Asiyada daha sərt şəkildə həyata keçirilmişdir və burada təzyiq, məcburiyyət və zorakılıq faktoru az rol oynamamışdır. Təsadüfi deyil ki, dahi Nizami Gəncəvi «İskəndərnamə» əsərində hicabın «inzibati» yolla tətbiqinə münasibətini bildirmiş və çox maraqlı bir alternativ irəli sürmüşdür. Qıpçaq çölünə çatan İskəndər «ağappaq gözəllərin» örtüksüz və yaşmaqsız gəzdiyini və bu üzdən subay əsgərlərin idarəolunmaz hala gəldiyini görüb tayfa başçılarını yanına çağırır, onlara qadınlarını çarşaba bürüməyi əmr edir. Qıpçaq böyükləri hər bir məsələdə İskəndərə itaət göstərəcəklərini, lakin bu əmri yerinə yetirməyin mümkünsüzlüyünü bəyan edərək, deyirlər:

Üz örtmək doğru yol deyildir, ancaq,
İtaət etməz bu ayinə qıpçaq.
Üz örtmək ayini qoy olsun sənin,
Bizə də göz örtmək olmuşdur ayin.
Baxmamaq gərəkdir naməhrəm üzə,

Nə suçu var üzün?! Cəza ver gözə!...
Örtü salmaqdansa xalqın üzünə,
Özün bir örtü çək baxan gözünə.

Vəziyyəti belə görən İskəndər müdrik məsləhətçilərindən kömək istəyir.

Bəlinas problemi həll edəcəyinə hökmdarı əmin edir. O, qara daşdan bir qadın heykəli düzəldir, üstünə ağ mərmərdən çarşab salır. Heykəl Qıpçaq çölünün ən görünən yerinə qoyulur. Heykəldən nümunə götürən qıpçaq qadınları bir-birinin ardınca çarşab örtür və beləcə həmin ərazidə hicaba riayət olunmağa başlayır…

Bu epizodla dahi mütəfəkkir iki fikri çatdırmaq istəyir. Qıpçaq böyüklərinin dilindən söylənən sözlərlə Nizami hicabın ictimai əxlaqın qorunmasında yeganə vəsilə olmadığını vurğulayır, «açıq üzlə» yanaşı «baxan göz»ün də məsuliyyəti məsələsini qoyur, yəni faktiki olaraq yalnız qadına günahkar qismində baxılmasının düzgün olmadığını vurğulayır. İkinci bir tərəfdən, hicabın tətbiqində əmr və göstərişin səmərəli olmadığını, qadının buna daxili inam və könüllülük əsasında gəlməsinin vacibliyini göstərməyə çalışır. Bu ideyaların günümüzdə də aktual olduğunu geniş şərh etməyə, fikrimizcə, lüzum yoxdur.

Nizaminin müasiri, bəşər, özəlliklə qadın azadlığının yorulmaz tərənnümçüsü Məhsəti Gəncəvi isə qadının zorla evin bir küncündə saxlanmasına daha kəskin formada etirazını bildirir:

Olsan qoca, bir yerdə bizi kim saxlar?
Qəmlər dolu evlərdə bizi kim saxlar?
Zəncir kimidir zülfüm, özün bax, ey şeyx,
Burda daha zəncirdə bizi kim saxlar?!

Yüzilliklər sonra əslən Azərbaycan türkü olan qəzvinli şairə Tahirə Qürrətüleyn (1818-1852) sanki Məhsətinin arzusunu gerçəkləşdirdi və müsəlman Şərqində çadrasını atmış ilk qadın oldu. Əlbəttə, odlu-alovlu şeirlər müəllifinin bu hərəkətini onun babilik əqidəsi ilə izah edənlər də var. Amma babiliyə qarşı amansız mübarizə aparan Qacar hökmdarı Nasirəddin şahın da hicabın götürülməsi fikrinə düşməsi və bunu öz sarayında həyata keçirməsi, artıq bunun zamanın tələbi olduğunu söyləməyə əsas verir. Həmin tələb tədricən Azərbaycan və İran maarifçilərinin əsərlərində təzahürünü tapdı və Məşrutə inqilabı dövründə (1905-1911) var qüvvəsi ilə səslənməyə başladı. İranın mütərəqqi və yenilikçi ədibləri hicabdan qurtulmanı qadın azadlığının mühüm şərti kimi dəyərləndirirdilər. Mirzadə Eşqi, Arif Qəzvini, İrəc Mirzə, Məlikuşşüəra Bahar kimi şairlər açıq şəkildə hicabın götürülməsinin vacibliyini ifadə edən şeirlər yazırdılar. Çiçəklənmə dövrünə qədəm qoymuş mətbuatda bu məsələ başlıca mövzulardan birinə çevrildi, ilk qadın fəalları və cəmiyyətləri

meydana gəldi.

Ötən əsrin 20-ci illəri Orta Şərqdə qadın azadlığı və bu kontekstdə hicabsızlıq uğrunda mübarizənin ən qızğın çağları olmuşdur. Türkiyədə Mustafa Kamal Atatürk, Əfqanıstanda Əmanulla xan, İranda Rza şah bu mübarizənin önündə gedirdilər. Maraqlıdır ki, həm Əmanulla xan, həm də Rza şah bu işə öz ailə üzvlərindən başlamaqla, cəmiyyətə bir növ nümunə göstərmişlər. Digər düşündürücü məqam ondan ibarətdir ki, həmin dövrdə sovet Azərbaycanında da qadınların çadradan xilas olması uğrunda analoji mübarizə gedirdi – bu, onu göstərir ki, **həmin mübarizə siyasi sistemlərdən və dövlət quruluşlarından asılı deyildi, obyektiv tarixi inkişafın özünün məntiqi ilə diktə olunurdu**.

1928-ci ildə İran parlamenti hicabın qadağan edilməsi barədə qanun qəbul etdi. Bu, İran qadınlarının ictimai həyata sürətli inteqrasiyasına təkan verdi. Sonralar, ötən əsrin 40-cı illərində Məhəmmədrza Pəhləvi din xadimlərinin təzyiqi ilə həmin qanunu ləğv etdi. Bir neçə onillik ərzində ölkədə hicabı qadağan, yaxud məcburi edən hüquqi baza olmadı. Məsələ bir də 1979-cu il inqilabından sonra gündəmə gəldi. Radikal dini dairələr hicabın məcburi şəkildə tətbiq olunmasına dair çağırışlar səsləndirməyə başladılar. Həmin dövrdə (1979-cu ilin martında) rəsmi «Ettelaat» qəzetində ayətullah Mahmud Taleqani ilə hicabla bağlı geniş müsahibə dərc olundu. **«Hicab məsələsində məcburiyyət yoxdur»** başlığı ilə manşetə çıxarılan həmin müsahibə dövlət idarələrində hicabın məcburi tətbiqinə dair hökmə etiraz idi. Ayətullah Taleqani müsahibənin bir yerində deyirdi: «Hətta müsəlman qadınlara da hicabda məcburiyyət yoxdur, o da qalsın dini azlıqların nümayəndələrinə… Qadınlar bizim cəmiyyətin fəal üzvləridir… İslam, Quran və din xadimləri istəyirlər ki, qadının şəxsiyyəti qorunsun. Burada heç bir məcburiyyət ola bilməz. İslamın əvvəlindən indiyə qədər kəndlərimizdə qadınlarımız necə yaşayıblar? Məgər onlar çadra örtüblər?.. Kim bizim qadınları hicablı, ya hicabsız nümayişlərə gəlməyə məcbur edib? Onlar özləri məsuliyyət hiss ediblər. İndi də onların başını örtüb-örtməməsinə kimsə məcburiyyət qoymamışdır».

Lakin mütərəqqi düşüncəli ruhanilərin səsi tezliklə boğuldu və radikal dairələrin mövqeyi üstün gəldi. Ölkədə total hicablaşdırma prosesi başladıldı. Cəza qanununa «bədhicab» (hicaba riayət etməyən) qadınlara şallaq zərbəsi vurulması barədə bənd salındı, daha sonra bu, həbs və ya cərimə ilə əvəzləndi. Beləcə bir vaxtlar hicabın inzibati üsullarla qadağasını pisləyənlər onu zorla tətbiq etməyə başladılar. Əlbəttə, müasir demokratik düşüncə hər iki yöndə zorakılığı qəbul etmir. Amma ictimai orqanizmin inkişafına mane olan xəstəliyə cərrahi müdaxilə ilə onu geriyə sürükləmək cəhdinin fərqini, hər halda, nəzərdən qaçırmamalıyıq.

Bu gün məhz həmin radikal dairələr Azərbaycan Respublikasında hicab probleminin mövcudluğu barədə hay-küy qoparmışlar. Qəribə burasıdır ki, hicab az qala islami kimliyin təməli, müsəlmanlığın ən mühüm göstəricisi kimi qələmə verilir, onun «əldən getməsi» imanın, namus və qeyrətin süqutu kimi təqdim olunur. Doğrudanmı belədir? Bəs müqəddəs kitabımız bu barədə nə deyir?

Qeyd etmək lazımdır ki, «hicab» sözü Quranda bugünkü mənasında deyil, müxtəlif kontekstlərdə əsasən «pərdə» mənasında işlənir. Yalnız, bir yerdə – «Əhzab» surəsinin 53-cü ayəsində bu söz qadınlarla, daha dəqiq desək, peyğəmbərin zövcələri ilə əlaqədar işlənmişdir («Peyğəmbərin zövcələrindən bir şey istədiyiniz zaman pərdə arxasından istəyin»). İslami ədəbiyyatda «hicab ayəsi» dedikdə məhz bu ayə nəzərdə tutulur, onun nazil olma səbəbləri və şəraiti barədə təfsirlərdə geniş izahat verilmişdir.

«Hicab» sözünün indiki, yəni qadın örtüyü mənası ilə bağlı isə Quranda iki ayə vardır. Bunlar «Nur» surəsinin 31-ci və «Əhzab» surəsinin 59-cu ayələridir. Daha öncə nazil olmuş birinci ayədə deyilir: «Mömin qadınlara de: Gözlərini naməhrəmə baxmaqdan çevirsinlər, ayıb yerlərini örtülü saxlasınlar, özlüyündə görünənlər istisna olmaqla, zinətlərini göstərməsinlər, baş örtüklərini yaxalarına çəksinlər… Öz ayaqlarını yerə elə vurmasınlar ki, gizlətdikləri zinətlər bəlli olsun…» Burada baş örtüyü mənasında «xumar» (daha doğrusu, onun cəm şəkli «xumur») işlədilmişdir. Həmin örpəyin konkret şəraitlə və ərəb mühiti ilə bağlı olduğunu «Kəşşaf»a istinadən M.Mütəhhəri də qeyd edir: «Ərəb qadınları adətən uzun köynək geyirdilər, onların boğazları açıq qalırdı, boyunları və sinələri örtülmürdü. Başlarına atdıqları örpəklərin uclarını da qulaqlarının arxasından keçirib dal tərəfdə bir yerə yığır və kürəklərinə atırdılar… Belə olan halda onların qulaqları, qulaqlarının dibi, sırğaları, sinələri və boyunları aşkar şəkildə görünürdü. Bu ayə göstəriş verir ki, örpəyin başın dal tərəfində asılı vəziyyətdə salınan hissələri boyuna və sinənin sağ və sol tərəfdən üstünə atılmalıdır ki, bu hissələr tam örtülsün».

«Əhzab» surəsinin 59-cu ayəsi daha konkret sosial şəraitlə və ictimai amillərlə bağlıdır. Həmin ayədə deyilir: «Ey peyğəmbər! Zövcələrinə, qızlarına və möminlərin arvadlarına de ki, örpəklərini gözlərinə yaxınlaşdırsınlar. Bu onların tanınmaları və əziyyətə məruz qalmamalı üçün daha münasibdir».

Burada örpək mənasında «cilbab» (daha doğrusu, onun cəm şəkli «cəlabib») işlənmişdir. M.Mütəhhəri etiraf edir ki, təfsirçilərin yazdıqlarından bu sözün mənası o qədər də aydın olmur. Amma onun fikrincə, «qadınlar üçün iki növ örpək var imiş. Onlardan biri kiçikdir, ona ximar və məqnəə də deyilir. Adətən qadınlar evin daxilində ondan istifadə edirlər. Digəri isə evdən kənarda

istifadə etdikləri böyük örpəkdir. «Bu məna «cilbab» sözünün qeyd olunduğu rəvayətlərə də uyğun gəlir».

M.Mütəhhəri və tərəfdarları belə hesab edirlər ki, bu ayələrdə həm hicabın prinsipi, həm də forması müəyyən olunmuşdur. «Cilbab» sözü isə çadra (yaxud çarşab) anlamına gəlməkdədir. Lakin məsələyə fərqli baxış da vardır. Məsələn, Türkiyənin keçmiş Dəyanət İşləri Başqanı, görkəmli ilahiyyatçı alim, prof. Əli Bardakoğlu bir müddət öncə verdiyi telemüsahibədə demişdir: «Quran və hədislər qadınların örtünməsini istəmişdir. Örtünmənin hansı parça ilə, nə şəkildə olacağını, haradan bağlanacağını bildirməmişdir. Bu, artıq insanların zövqünə, bölgəsinə, mədəniyyətinə görə verəcəyi qərardır». Bardakoğlu həmçinin çarşab və niqabın dinin əmri olmadığını vurğulamışdır.

«Əhzab» surəsinin 59-cu ayəsinin ikinci hissəsi ilə bağlı M.Mütəhhəri təfsirçilərə istinadla yazır: «Münafiqlərdən bir qrupu axşam hava qaralarkən camaatın keçdiyi küçələrdə dayanaraq kənizlərə sataşırdılar (kənizlər üçün başı örtmək vacib deyildir). Bəzi hallarda bu əxlaqsızlar hətta azad qadınlara da sataşır, sonra bəhanə edib deyirdilər ki, biz onun azad qadın deyil, kəniz olduğunu zənn etmişdik. Buna görə də azad qadınlara göstəriş verildi ki, cilbab olmadan – yəni bədəni tam örtmədən evdən çıxmasınlar ki, kənizlərdən tamamilə seçilsinlər və əxlaqsızlar tərəfindən əziyyətə məruz qalmasınlar».

Bütün bunlar məsələnin konkret tarixi şərait və sosial strukturla sıx bağlı olduğunu aydın göstərməkdədir. Əlbəttə, biz heç də hicabın islamda vacib olmadığı təsəvvürü yaratmaq fikrində deyilik. Bura qədər dediklərimizlə sadəcə iki məsələni qabartmaq istəyirik.

Birincisi, hicab məsələsi nə qədər vacib sayılsa da, islamın təməl prinsipləri və ilkin şərtləri sırasında yer almır. Bunu, misal üçün, İranda nəşr olunmuş «İffət və hicab» adlı kitabçanın müəllifləri də etiraf edirlər: «Hicab islamın mühüm qaydalarından biri olsa da, şübhə yoxdur ki, o dinin əsaslarından sayılmır, dindarlıq və küfrün hüquqlarını müəyyənləşdirən amil hesab edilmir. İslam rəvayətlərində də ondan dinin əsası və islamın təməl daşı kimi bəhs olunmamış, onun üzərində namaz, oruc, zəkat, həcc qədər təkid edilməmişdir». Əli Bardakoğlu yuxarıda xatırlanan müsahibəsində daha konkret şəkildə: **«Din yalnız hicabdan və namazdan ibarət deyildir. Başını bağlayan hər kəsə dindar demək böyük yanlışlıqdır. İnsanın yaxşı bir müsəlman olması üçün yerinə yetirməli olduğu çoxsaylı şərtlər vardır»,** - söyləmişdir.

Bu halda hicabla bağlı hər hansı problemi dini düşüncə və etiqadın əsaslarına təcavüz kimi təqdim edənlərin başqa niyyətlər daşıdığını anlamaq o qədər də çətin deyil. Yaxud hicabı islamın simvolu və atributlarından biri kimi səciyyələndirən üzdəniraq ekspertlərin dini biliklərinin səviyyəsinə acımamaq

mümkünsüzdür.

İkincisi, Quran və hədislərdə azyaşlı qızların hicaba riayət etməsi, örtünməsi kimi göstəriş yoxdur. Əksinə, bir çox hədislərdə, əski osmanlıca da işlənən ifadə ilə desək, qızların «çarşaba girməsi» üçün yetkinlik yaşına çatmasının vacibliyi vurğulanır. Örnək olaraq, Ayişə bint Əbubəkrdən nəql olunan iki hədisi göstərmək mümkündür. Belə olan halda bəlli qrupların hicabın orta məktəblərə girməsi üzərində təkid etməsi nə dərəcədə düzgündür? Həddibuluğa çatmamış bir qızın ailə üzvlərinin, qohumlarının tapşırığı, təzyiqi əsasında örtünməsi dinin tələblərinə uyğundurmu? Axı o uşaq dinin mahiyyətini, Quranın hikmətini nə zaman anlayıb dərk etdi ki, indi də hicaba riayət etsin? Görəsən, onun yaxınları örtünmənin onun hələ tam formalaşmamış şüurunda hansı təsirlər qoyduğu, onda hansı psixoloji komplekslər doğurduğu barədə düşünürlərmi?!

Bura qədər dediklərimiz bir məsələni – mövzunun praktik aspektini də unutmamağı zəruri edir. İstənilən halda hicab məsələsinə tarixi-ictimai şərait nəzərə alınmaqla yanaşılmalıdır. Köhnə çağlarda – qadınların əsasən evdə oturduğu, uzağı həyətyanı sahəsində salışdığı vaxtlarda bu məsələ nisbətən rahat həllini tapır, sosial-psixoloji konfliktlərə meydan açmırdı. İndi isə qadınlar total şəkildə ictimai həyata cəlb olunmuşdur. Azərbaycan Respublikasında ictimai həyat dünyəvi prinsiplərlə tənzimlənir. Kimin xoşuna gəlib-gəlməməsindən asılı olmayaraq, hicabla haqqında söz açdığımız mübarizə qadın azadlığının, bütövlükdə modernləşmənin tərkib hissəsi kimi, çağdaş şərtlərlə ayaqlaşmaq istəyinin təzahürü kimi baş tutub. Bu, tarixdir, tarixin gedişatıdır. Tarixin təkərini isə geri qaytarmaq mümkün deyil. Bunu tələb edənlər, bu cəhddə bulunanlar onun sonrakı sosial, mədəni və, nəhayət, siyasi nəticələrini də göz önünə almalıdırlar, almağa borcludurlar.

«Azərbaycan» qəzeti, 9 fevral 2011-ci il.

AZƏRBAYCAN XALQININ İSLAM MƏDƏNİYYƏTİNƏ VERDİYİ TÖHFƏLƏR HEÇ DƏ BAŞQALARINKINDAN AZ DEYİL

İran İslam Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi general Həsən Firuzabadinin avqustun 9-da verdiyi hədələyici ruhlu açıqlamada Azərbaycan xalqının, dövlətinin və Prezidentinin ünvanına səsləndirdiyi sərsəm fikirlər cəmiyyətimizin haqlı narazılığına səbəb olmuş, ictimai-siyasi xadimlər, hərbçilər, ziyalılar bu bəyanata sərt təpki göstərmiş, Azərbaycan Xarici İşlər Nazirliyi İran hökumətinə rəsmi etiraz notası təqdim etmişdir.

Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasına neqativ münasibət ifadə edən fikirlər vaxtaşırı İranın kütləvi informasiya vasitələrində, ayrı-ayrı siyasətçilərin və din xadimlərinin çıxışlarında yer alır. Lakin bu cür münasibətin ali baş komandandan sonra İranın ən yüksək rütbəli hərbçisi, üstəlik ölkənin Milli Təhlükəsizlik Şurasının üzvü tərəfindən bəyan edilməsi xüsusi narahatlıq, təəssüf və hiddət doğurur.

İran İslam Respublikası meydana gəldiyi gündən beynəlxalq və regional səviyyədə, islam aləmində destruktiv rol oynayır. Bu da ilk növbədə tarixi tərəqqi baxımından anoxronizm olan ruhanilərin tam nəzarəti altında olan siyasi sistemin və ya rejimin özünü qoruyub saxlaması məqsədi güdür. Yarandığı zamandan daxili siyasi, iqtisadi, mədəni sosial problemlər və böhranlarla üzləşən rejim daxili ziddiyyətləri arxa plana keçirmək, əhalinin əsas diqqətini xaricə yönəltmək üçün daim düşmən obrazı yaratmaqla məşğul olaraq imkan daxilində həmin «düşmənlər»in əleyhinə müəyyən addımlar atmağa, terrorizmi dəstəkləmək, islam ölkələrində şiyə azlıqları siyasi hərəkatlara təhrik etmək, Yaxın Şərqdə sülh prosesinə mane olmaq və s. siyasəti yeridərək qarşı tərəfə əks-reaksiya göstərməyə sövq etməklə həmin «düşmən»in real mövcudluğunu vurğulamağa və bununla da daxildə rejimin möhkəmlənməsinin zəruri olmasına bəraət qazandırmağa çalışmışdır. İranın bütün səviyyələrdə destruktiv, dağıdıcı xarici siyasəti son nəticədə onun beynəlxalq, regional səviyyədə təcrid olunmasına, hətta ayrı-ayrı ölkələrin – Yaponiya, Aİ və sairə ölkələrin İrana qarşı milli sanksiyalar tətbiq edilməsi ilə nəticələnmişdir. Hazırda İran rejimi dünyanın, demək olar ki, əsas aparıcı ölkələri tərəfindən təzyiq altında yaşayır. Yaxın Şərqdə avtoritar rejimlərin süqutu və süqut etmə mərhələsini yaşaması İran rejimini ciddi narahat edən mühüm prosesdir. Son vaxtlarda Suriya Ərəb Respublikasında rejim ilə onun müxalifləri arasında şiddətlənməklə və genişlənməkdə olan, dünya ictimaiyyətinin diqqət mərkəzində olan hadisələr İranı daha çox narahat edir, çünki regionda yeganə müttəfiqini itirməkdən və onun sonrakı nəticələrindən ciddi şəkildə ehtiyat edir. İranın Suriyada xalq hərəkatı-

na qarşı yaxından iştirakı dəfələrlə qeyd edilmiş və həmin məsələ ilə bağlı ona xəbərdarlıq da edilmişdir. Bununla belə, İran Suriya rejimini müdafiə edəcəyini bəyan etməkdən çəkinmir. İran rəsmiləri Türkiyə - NATO, Türkiyə - ABŞ münasibətlərini nəzərə alaraq, Türkiyənin Suriya rejiminə İran üçün arzuolunmaz təsirinin və digər addımlarının qarşısını almaq üçün Türkiyə ilə Suriya arasında Suriyanın seçiləcəyini bəyan etmişdir. Qeyd etmək lazımdır ki, regionda baş verən hadisələr İranın xarici siyasət sahəsində xeyli fəallaşmasına, yerli islamçı qüvvələrlə müxtəlif formalı və səviyyəli əlaqələr qurmasına və bununla da diqqəti gərginləşməkdə olan daxili ziddiyyətlərdən yayındırmağa müəyyən dərəcədə imkan verir. İranda daxili ziddiyyətlər mərhələ-mərhələ inkişaf edərək hakim siyasi elitanın daxili məsələsinə çevrilmişdir. Belə ki, artıq rejim ilə hakimiyyətdə təmsil olunmayan qüvvələr, rejim ilə bir müddət öncə hakimiyyətdə olmuş islahatçı adlanan qüvvələr arasında ziddiyyətlərinə 2005-ci ildən hakimiyyətdə olan mühafizəkar adlanan qüvvələrin daxilində kəskin ziddiyyət əlavə olunmuşdur. Həmin ziddiyyət icra (prezident) hakimiyyəti ilə ali dini rəhbərin başçılığı ilə bütün digər qüvvələr arasında siyasi mübarizə formasında təzahür edir. İcra (prezident) hakimiyyətində təmsil olunan qüvvələr də mühafizəkarlara məxsus olduğundan siyasi elitanın «düzgün» seçim etməsi böyük gərginliklə müşayiət olunur. Belə bir şəraitdə əhalinin diqqətini əsas ziddiyyətdən yayındırmaq üçün İran rejiminə tamamilə yeni bir düşmən, necə deyərlər, heç kimin gözləmədiyi yerdə, düşmən obrazı yaratmaq tələb olunurdu ki, həmin rəhbərin ətrafında cəmləşmiş qüvvələr belə bir obraz kimi Azərbaycan Respublikası, onun rəhbərliyini seçmişlər. General Həsən Firuzabadi heç bir siyasi, diplomatik etikanı gözləmədən, necə deyərlər, saldofonluqla, başqa ölkəyə, onun rəhbərliyinə göstəriş vermək, xəbərdarlıq etməkdən çəkinməmiş, bununla da İran rejiminin ən çirkin siyasi oyunlara gedə biləcəyini nümayiş etdirmişdir. Silahlı qüvvələrin baş qərargah rəisi fars şovinist, paniranist ideologiyasının Şimali Azərbaycan haqqında formalaşdırmaq istədiyi təsəvvürü bir daha bəyan etmişdir.

Bir daha qeyd edirəm ki, İran rəsmilərinin bu kimi sayıqlamaları diqqəti Suriya hadisələrindən və ilk növbədə daxili ziddiyyətlərdən yayındırmağa yönəlmişdir.

General Firuzabadinin o qədər də geniş olmayan açıqlamasında üç məqam diqqəti cəlb edir. Əvvəla, o, Azərbaycan Respublikasını bir müsəlman ölkəsi olaraq İranla dostluq prinsiplərinə riayət etməməkdə və ölkədə sionistlərin (?) əl-qol açmasına şərait yaratmaqda ittiham edir. Bu ittihamın nə qədər əsassız və cəfəng xarakter daşıdığını sübut etməyə ehtiyac yoxdur. Sadəcə, İran İslam Respublikasının müsəlman torpaqlarını işğal etmiş Ermənistan dövləti ilə

günbəgün genişlənən, bəzi İran rəsmilərinin «qardaşlıq» kimi səciyyələndirdiyi əlaqələrini yada salmaq kifayətdir ki, kimin dostluq prinsiplərinə nə dərəcədə riayət etdiyi aydın olsun.

İkincisi, cənab Firuzabadi iddia edir ki, «Aran əhalisinin damarlarında İran qanı axır və onun ürəyi islam və Quran eşqi, Əli sevgisi ilə döyünür». Öncə onu deyək ki, Azərbaycan əhalisinin hansı hisslərlə yaşadığını müəyyən etmək cənab Firuzabadinin işi deyildir; yaxşı olar ki, o, İran əhalisinin arzu və istəklərini öyrənsin və təmsil olunduğu hökumətlə birgə onları həyata keçirməklə məşğul olsun. Generalın Azərbaycanı «Aran» adlandırması isə onun hansı düşüncəyə malik olduğunu, hansı ideologiyanın xidmətində durduğunu ortaya qoyur. Məsələ burasındadır ki, Azərbaycan Respublikası müstəqillik qazanandan bəri İranda bir dəstə tədqiqatçı, bəzi mətbuat orqanları onun ərazisinin tarixən Azərbaycan adlanmadığını «sübut etməyə» çalışır, torpaqlarımızı gah «Şimali İran», gah da «Aran» adlandırırlar. Məqsəd aydındır: Azərbaycan Respublikası əhalisinin İranda yaşayan azərbaycanlılarla etnik birliyini inkar etmək, eyni zamanda torpaqlarımızın tarixən İran ərazisi olduğunu vurğulamaq. Firuzabadinin «Aran» sözündən istifadə etməsi qatı antiazərbaycan və antitürk mahiyyətli bu çalışmaların hansı səviyyələrdə himayə edildiyini ortaya qoyur. Lakin general nəzərə almır ki, qonşu ölkənin beynəlxalq birlik tərəfindən tanınan, BMT-də təsbit edilən rəsmi adını söyləməkdən imtina dövlət məmuru olaraq onun özü üçün də, bütövlükdə İran hakimiyyəti üçün də əsl rüsvayçılıqdır.

Üçüncüsü, general Firuzabadi bütün hüquqi çərçivələri və diplomatik normaları aşaraq, Azərbaycan Prezidenti cənab İlham Əliyevi əhalinin islami hisslərinə və «oyanışına» diqqətli olmağa çağırır, əks təqdirdə, onun «təhlükəli aqibətlə üzləşəcəyi» barədə xəbərdarlıq edir. Əcəba, müstəqil bir dövlətin başçısına məsləhət vermək, xəbərdarlıq etmək haqqını və səlahiyyətini İran generalına kim verib?! Bu, açıq-aşkar qonşu dövlətin daxili işinə qarışmaq deyilmi? Görəsən, rəsmi təbliğatında daim Qərbi, xüsusən də ABŞ-ı başqa ölkələrin daxili işlərinə müdaxilədə suçlayan İran hökumətinin nümayəndəsi bunu özünə necə rəva görür?!

General Firuzabadinin bu açıqlama ilə çıxış etməsinin formal səbəbi Azərbaycanda qeydiyyata alınmamış İslam Partiyası üzvlərindən bir qrupunun həbs edilməsi və onların işinə məhkəmə baxışının başlanması, eləcə son aylar hicab məsələsi ilə bağlı ölkəmizdə gedən müzakirələrdir. Sual doğur: dini siyasi alət etmiş kiçik bir qrupa canıyananlıq edən, onları «məzlum» kimi qələmə verməyə çalışan cənab Firuzabadi öz ölkəsində çoxsaylı insanların, ö cümlədən azərbaycanlı mədəni fəalların həbsini görmürmü?! Bəlkə öz ana dilində qəzet,

jurnal buraxmaq, şeir, hekayə yazmaq islam və insan haqları baxımından yasaqdır?!

Hicab məsələsinə gəldikdə isə, deməliyik ki, Azərbaycan cəmiyyəti və dövləti bu məsələni demokratik müzakirələr şəraitində və qanun çərçivəsində həll etməyə qadirdir və bu işdə bizim kiminsə məsləhətinə qətiyyən ehtiyacımız yoxdur. Ümumiyyətlə, general Firuzabadi və onun kimilər bilməlidir ki, islam dini heç kəsin inhisarında ola bilməz: bu, həm də bizim dinimizdir və Azərbaycan xalqının islam mədəniyyətinə verdiyi töhfələr heç də başqalarınkından az deyil. Biz dini dəyərlərimizə ehtiramla yanaşırıq, eyni zamanda çağdaş dəyərlərə də sadiqik. Azərbaycan Respublikası dünyəvi dövlətdir, din dövlətdən ayrıdır. Bununla belə, dövlətimiz dini dəyərlərə hörmətini, onların qorunması və inkişafına qayğısını əməli fəaliyyətində nümayiş etdirir. Dini siyasət səhnəsinə gətirmək istəyənlərin arzusu isə elə arzu olaraq qalacaqdır.

Düşünürəm ki, Azərbaycan Respublikası həmin bəyanata qarşı müxtəlif səviyyələrdə qanuni-siyasi-diplomatik və digər cavabları səsləndirməklə yanaşı digər addımlar da ata bilər. Bununla belə İranda hərdən bir səslənən həmin bəyanatların ilk növbədə daxili auditoriyaya ünvanlandığını nəzərə alaraq ona ciddi əhəmiyyət verməmək də olar.

«525-ci qəzet», 18 avqust 2011-ci il.
Mətn 12 avqust 2011-ci ildə AzərTAC tərəfindən
də «Heç bir ölkə müstəqil Azərbaycan dövlətinin
daxili işlərinə qarışa bilməz» başlığı ilə yayımlanmışdır.

AZƏRBAYCAN RESPUBLİKASININ ŞƏRQ ÖLKƏLƏRİ İLƏ MÜNASİBƏTLƏRİ MÜASİR MƏRHƏLƏDƏ

Tarixi inkişafın qaçılmaz qanunauyğunluğu nəticəsində Sovetlər Birliyi dağıldıqdan sonra Azərbaycan öz müstəqilliyini bərpa etdi, bununla da çoxəsrlik tarixinin yeni mərhələsinə qədəm qoydu. Qarşıda Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin yaratdığı ağır nəticələri aradan qaldırmaq, ölkədə əmin-amanlıq yaratmaq, sabitliyi bərpa etmək, iqtisadiyyatı dirçəltmək, dövlətçiliyi xilas etmək kimi çox mürəkkəb vəzifələr dayanmışdı. Belə bir ağır vəziyyətdə geniş xalq kütlələrinin arzu və tələbi ilə yenidən hakimiyyətə qayıdan ümummilli liderimiz Heydər Əliyevin çoxşaxəli və gərgin fəaliyyəti başladı.

Dövlət quruculuğunun bütün sahələri kimi müstəqil dövlətimizin yeni beynəlxalq münasibətlərinin qurulması da Heydər Əliyevin adı ilə bağlıdır. Qüdrətli dövlətlərin mənafelərinin toqquşduğu mühüm geostrateji mövqeyi, zəngin yeraltı və yerüstü sərvətləri ilə böyük dövlətlərin diqqətini çəkən Azərbaycanda bütün bu məsələlərin həlli böyük müdriklik, uzaqgörənlik və polad siyasi iradə tələb edirdi.

İlk günlərdən Heydər Əliyev dövlətin xarici siyasətinin istiqamətlərini, prinsiplərini, xarakterini müəyyənləşdirdi. O, ilk növbədə AXC hakimiyyətinin xarici siyasət sahəsində buraxdığı kobud səhvləri və bunun nəticəsində Azərbaycan ətrafında formalaşmış çox gərgin beynəlxalq siyasi vəziyyəti aradan qaldırmaq istiqamətində iş aparmağa başladı, ölkənin strateji maraqlarını region dövlətlərinin və Qafqazda xüsusi təsiri olan ayrı-ayrı dövlətlərin maraqları ilə uzlaşdırmağa yönəlmiş siyasət yürütməyə başladı. Hələ Milli Məclisin sədri seçilərkən Heydər Əliyev xarici siyasətin başlıca vəzifə və prioritetlərini müəyyənləşdirdi: «Azərbaycanın müstəqilliyini təmin edən atributlardan biri xarici siyasətdir, Azərbaycanın sağlam xarici siyasəti olmalıdır, düşünülmüş xarici siyasəti olmalıdır, uzaqgörən xarici siyasəti olmalıdır, elə xarici siyasəti olmalıdır ki, Azərbaycanı dünya dövlətləri birliyinə bağlasın, Azərbaycanın bütün dövlətlərlə əlaqəsini, Azərbaycanın mənafeyini təmin etsin və Azərbaycanı de-fakto dünya miqyasında bir müstəqil dövlət kimi tanıtmağı təmin edə bilsin. Azərbaycanın indiyə qədər belə sağlam düşüncəli xarici siyasəti olmayıbdır...

Azərbaycanın bütün dövlətlərlə gərək bərabərhüquqlu əlaqəsi olsun, Türkiyə ilə, İran ilə, qonşu Gürcüstan ilə, Rusiya ilə də, Amerika ilə də, Avropa dövlətləri ilə də, Ərəb dövlətləri ilə də, müsəlman dövlətləri ilə də, türkdilli dövlətlərlə də, Orta Asiya dövlətləri ilə, Qazaxıstanla da bərabərhüquqlu əlaqələri olmalıdır...

Mən hesab edirəm ki, xarici siyasət sahəsində böyük səhvlər buraxılıbdır və bu səhvlər düzəldilməlidir. Xarici siyasətdə dövlətlər həmişə həm ikitərəfli müqavilələr bağlayırlar, həm də cürbəcür ittifaqlara daxil olurlar. Məsələn, təsəvvür edin, Amerika kimi böyük bir dövlət, dünya miqyasında ən güclü bir dövlət təkbaşına hərəkət etmədi, onun bir neçə ittifaqları var».

H.Əliyev 90-cı illərin əvvəllərində Azərbaycanın xarici siyasətində yer tutan özünütəcrid xəttinin tamamilə yolverilməz və milli maraqlara zidd olduğunu vurğulayır. O, özünütəcrid xəttinin acı nəticəsi kimi dünyanın Azərbaycanı tanımaması, problemlərimizi bilməməsi, haqq səsimizi eşitməməsini göstərir və belə siyasəti «özümüzün özümüzə vurduğumuz zərbə» adlandırır. Ölkənin mənafelərini qorumaq istiqamətində emosiyadan uzaq, hərtərəfli ölçülüb-biçilmiş addımların atılmasının gərəkliyini vurğulayan H.Əliyev Azərbaycanın dövlətçilik mənafelərini hər şeydən uca tutaraq müxtəlif dövlətlərin bütövlükdə Qafqaz və bilavasitə respublikamız üzərində qurulmuş iqtisadi maraq və nüfuz dairəsi uğrunda mübarizələrini nəzərə alaraq, çevik manevrlər və xüsusi taktiki gedişlər etdi. Onun müstəqil Azərbaycanın dövlət quruculuğu, xarici və daxili siyasəti haqqındakı fikirləri, ideya və düşüncələri, ötən dövrün dərslərindən istifadə edilməklə ölkəmizin işıqlı gələcəyinin gerçəkləşməsinə yönəldilmişdir. Şərq müdrikliyini və Qərb praqmatizmini özündə birləşdirən xarici siyasət konsepsiyasını açıqlayan Heydər Əliyev bildirmişdir: «Bizim xarici siyasətimiz birinci növbədə Azərbaycanın dövlət müstəqilliyini təmin etməyə yönəldilməlidir. Vəzifə dünyanın bütün dövlətləri ilə bərabərhüquqlu, qarşılıqlı faydalı əlaqələr yaratmaqdan və inkişaf etdirməkdən, bu əlaqələrdən həm Azərbaycan Respublikasının beynəlxalq mövqeyini möhkəmlətmək üçün, həm də respublikanın iqtisadiyyatını, elmini, mədəniyyətini inkişaf etdirmək üçün səmərəli istifadə etməkdən ibarətdir. Bizim xarici siyasətimiz sülhsevər siyasətdir, heç bir dövlətin suverenliyinə, ərazi bütövlüyünə toxunmaq məqsədi güdmürük. Lakin eyni zamanda nəyin bahasına olursa-olsun respublikanın suverenliyini, müstəqilliyini və ərazi bütövlüyünü xarici siyasət vasitəsilə təmin etməyə çalışacağıq. Güman edirəm ki, bundan sonra görülən işlər Azərbaycanın daha geniş tanınmasına şərait yaradacaqdır və respublikamız dünya dövlətləri birliyində öz layiqli yerini tutacaqdır... Bizim daxili siyasətimiz, xarici siyasətimiz dünya demokratiyasının açdığı yolla, demokratik prinsiplər əsasında gedəcəkdir». Göstərilən prinsiplər dövlətimizin xarici siyasətdə rəhbər tutduğu əsas vəzifələrdə öz əksini tapmışdır. Onlardan:

- mənafeyi Azərbaycanın dövlətçilik və milli mənafeləri ilə uyğun gələn, üst-üstə düşən dövlətlərlə tərəfdaşlıq və müttəfiqlik münasibətləri yaratmaq, respublikamızın beynəlxalq mövqelərinin möhkəmlənməsi üçün onların imkanlarından istifadə etmək,

- regionda gərginliyin aradan qaldırılmasına və mehriban qonşuluq münasibətlərinin yaradılmasına səy göstərmək,

- dövlətimizin bütün beynəlxalq və regional qurumlarda, iqtisadi, elmi-texniki, mədəni, humanitar və s. təşkilatlarda fəal iştirakına çalışmaq, düşünülmüş və xalqımızın mənafeyinə uyğun xarici iqtisadi siyasət yeritmək, ölkə iqtisadiyyatının dünya iqtisadiyyatına inteqrasiya olunması üçün bütün xarici və daxili amillərdən istifadə etmək, - və sairə kimi tezislərə nəzər saldıqda görürük ki, aparılan düzgün xarici siyasət bir çox sahələrdə artıq konkret nəticə vermişdir. Getdikcə Azərbaycanın xarici siyasəti sahəsində əsaslı dönüş yarandı. Axtarışlar dövrü başa çatdı və yeni mərhələ başlandı. Beləliklə, xarici siyasət kursunda mövcud reallıqları nəzərə alan və ölkənin köklü mənafelərinin qorunmasına yönəlmiş əməli dəyişikliklər edildi. İlk növbədə müstəqil Azərbaycan dövlətinin beynəlxalq münasibətlər sistemində yeri, Avropa ölkələri və ABŞ-la, yeni müstəqil dövlətlər və Rusiya ilə, türkdilli dövlətlər və Türkiyə, müsəlman dünyası və İranla əlaqələrin yaxın dövr üçün prioritetləri müəyyənləşdirildi və tədricən həyata keçirilməyə başladı. Dövlətlərarası münasibətlərdə qarşılıqlı əlaqələr genişlənərək bəzi anlarda şəxsi dostluq münasibətlərinə çevrildi.

Azərbaycan coğrafi mövqeyinə görə Şərqin və Qərbin arasında yerləşir. Şərq və Qərb arasındakı strateji mövqeyimizdən yararlanan respublika rəhbərliyi öz xarici siyasətində Azərbaycanın Şərqlə Qərb arasında siyasi, iqtisadi, elmi, mədəni və s. sahələrdə körpü rolunu oynamasından maksimum istifadə etməyə çalışırdı. Heydər Əliyevin xarici siyasətində, Şərqə münasibətdə, qonşu ölkələrlə, xüsusilə Türkiyə, İran və s. ölkələrlə münasibətlərdə dahi uzaqgörənlik, müdriklik və mahir davranış həmişə duyulurdu.

Ölkəmizlə çoxsaylı dini, mədəni, etnik tellərlə bağlı olan Yaxın və Orta Şərq ölkələrinə münasibətdə dünya siyasətinin istiqamətlərini və qanunauyğunluqlarını çox gözəl anlayan Prezident Heydər Əliyev bu ölkələrlə düzgün münasibətlərin qurulmasına nail olmuşdur. Regionda yerləşən bütün dövlətlərlə yaxın əlaqələr saxlamaq, bu əlaqələri inkişaf etdirib daha da möhkəmləndirmək Azərbaycan üçün çox vacib idi. Burada əsasən dünyada geostrateji əhəmiyyətə malik olan, eyni zamanda region problemləri ilə hər hansı bir əlaqəsi olan və bizə coğrafi və siyasi cəhətdən yaxın olan ölkələrlə münasibətlərə daha çox diqqət yetirilirdi. Belə ölkələrə birinci növbədə Türkiyə, İran, Səudiyyə Ərəbistanı, Misir, Pakistan və s. aiddir. Bu və İslam Konfransı Təşkilatına daxil olan digər ölkələrin Azərbaycana dəstəyi, mənəvi yardımı gənc dövlətimiz üçün çox vacib idi. Bütün bu amilləri nəzərə alan Heydər Əliyevin apardığı siyasət nəticəsində bu sahədə böyük uğurlar qazanılmış və qazanılmaqdadır.

Ümumiyyətlə, Heydər Əliyevin Şərq dünyası, eyni zamanda onların rəhbərləri ilə əlaqələri 70-ci illərdən qurulmağa, formalaşmağa başlamış,

Azərbaycan müstəqilliyini qazandıqdan sonra isə indiki vəziyyətə - mehriban qonşuluq və bərabərhüquqlu əməkdaşlıq münasibətləri səviyyəsinə çatmışdır.

Heydər Əliyevin 1982-1987-ci illərdə Misirə, Pakistana, İordaniyaya, Suriyaya, İraqa, Yəmənə və başqa ölkələrə səfərləri və islam dünyasının kral Hüseyn, Hafiz Əsəd, Yasir Ərafat və başqa liderləri ilə görüşləri onu dünyada aparıcı siyasətçilərdən biri kimi tanıtdı. O, köhnə əlaqələrini bərpa edərək müstəqil respublikamızın dünyada öz mövqeyini möhkəmlətməsi üçün yeni münasibətlər yaratdı.

Türkiyə ilə əməkdaşlığın ilk dövrlərindən iki ölkə arasında hərtərəfli münasibətlərin hüquqi bazası yaradılmışdır. Bir çox sahələrə aid saziş, protokollar imzalanmışdır. Müntəzəm surətdə hər iki dövlətin müxtəlif səviyyələrdə rəsmi nümayəndə heyətləri Bakıda və Ankarada görüşür, birgə əməkdaşlıq məsələləri haqqında müzakirələr keçirirdilər. Türkiyə dünya dövlətləri arasında birinci olaraq Azərbaycanı suveren dövlət kimi tanımış, ölkəmizlə diplomatik əlaqələr yaratmışdır. Müstəqilliyimizin ilk günlərindən Türkiyə bütün sahələrdə ölkəmizə dəstək vermiş, dayaq olmuşdur. O, bəzən öz maraqlarından belə keçərək Qarabağ probleminin həlli, beynəlxalq təşkilatlarda Azərbaycanın dəstəklənməsi üçün çox işlər görmüşdür. Türkiyənin Ermənistanla münasibətləri məhz Azərbaycana görə tam fərqlidir. Türkiyə Ermənistanı təcavüzkar kimi tanıyır və Azərbaycanın işğal olunmuş torpaqları azad olunmayana qədər heç vaxt Ermənistanla əlaqələrini bərpa etməyəcəyini dəfələrlə bəyan edib.

1994-cü il fevral ayının 8-11-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Türkiyə Respublikasına dövlət başçısı kimi ilk dəfə rəsmi səfər etdi. Səfər zamanı iki ölkə arasında 16 sənəd imzalandı. Bir çox görüşlər keçirildi. Sonralar ölkə Prezidenti dəfələrlə Türkiyədə rəsmi səfərlərdə olmuş və bu zaman qəbul olunmuş çoxsaylı sənədlər daim Azərbaycan-Türkiyə dostluq və qardaşlıq əlaqələrinin genişlənməsinə xidmət etmişdir.

Azərbaycan-Türkiyə əlaqələri qısa zamanda beynəlxalq siyasətdə və iqtisadiyyatda mümkün olan bütün aspektləri əhatə edərək, mahiyyət etibarilə strateji əhəmiyyət kəsb etdi. İqtisadiyyatımızın bütün sahələrində iki ölkə arasında əməkdaşlıq genişlənərək, strateji partnyorluğa çevrildi. Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərlərinin əsasları qoyuldu.

Azərbaycan-Türkiyə əməkdaşlığı hər iki dövlətin üzvü olduqları beynəlxalq təşkilatlarda da davam edərək, BMT, İƏT, AŞ, ATƏT, İKT kimi təşkilatlarda hər iki ölkənin nümayəndə heyətlərinin daim birgə mövqedən çıxış etmələri ilə nəticələndi.

Heydər Əliyev türk dünyasının problemlərinə də daim diqqət yetirmişdir. İstanbulda İqtisadi Əməkdaşlıq Təşkilatının II-ci forumunun iştirakçılarına 5 iyul 1993-cü il tarixli müraciətində o özünün türklük düşüncəsinin əsas aspekt-

lərini açıqlamışdır: ayrı-ayrı türk dövlətlərinin müstəqilliyinin müdafiə olunması, türk dünyasının birliyinə çalışılması və həmin birliyin dünyada harmoniya yaradılmasına xidmət etməsi.

Türk dünyasına məxsus, indi müstəqil dövlətlərə çevrilən sabiq sovet respublikaları ilə qonşuluq, dostluq və qardaşlıq münasibətlərinin bərpası və inkişaf etdirilməsi məhz yuxarıdakı prinsiplərdən irəli gəlirdi. Azərbaycan indiyə qədər türk dövlətləri başçılarının bütün sammitlərində iştirak etmiş, bu ittifaqı möhkəmləndirmək üçün əlindən gələni əsirgəməmişdir. Azərbaycan Türksoy və TRASEKA-nın da fəal iştirakçısıdır. 2000-ci ildə Azərbaycanda keçirilən növbəti sammit bütün türk dünyası və türk dövlətləri ailəsi üçün çox mühüm olan və gələcək əməkdaşlıq üçün proqram xarakteri daşıyan məşhur «Bakı bəyannaməsi»nin elan edilməsi ilə başa çatmışdır. Qırğızıstanda Manas dastanına həsr olunmuş beynəlxalq tədbirdə iştirak edərkən Heydər Əliyev söyləmişdir ki, dövlətlərimizin hərtərəfli əlaqələrinin inkişaf etdirilməsi üçün Azərbaycan-Mərkəzi Asiya xalqlarının əlaqələrinin öyrənilməsinə böyük ehtiyac vardır.

Azərbaycanla ən uzun sərhədlərə malik olan İranla mehriban qonşuluq münasibətlərinin ölkəmiz üçün zəruriliyini, İranla Azərbaycan arasında çoxsaylı mədəni, tarixi və etnik tellərin olmasını gözəl anlayan Prezident Heydər Əliyev bu sahədə də uzaqgörən, düşünülmüş, tarazlaşdırılmış siyasətə üstünlük verdi. 1992-1993-cü illərdə əvvəlki iqtidarın bu istiqamətdə yol verdiyi səhvlər nəticəsində yaranan problemləri yada salsaq, Azərbaycan-İran münasibətlərinin xüsusi əhəmiyyət kəsb etməsi aydınlaşar. İran İslam Respublikası rəsmi olaraq 12 mart 1992-ci ildə Azərbaycanın müstəqilliyini tanıdı. Azərbaycan-İran münasibətləri Heydər Əliyev hakimiyyətə gəldikdən sonra yüksələn xətlə inkişaf etməyə başlamışdır. Azərbaycan Prezidenti İranla dostluq, qardaşlıq və əməkdaşlıq prinsiplərinə əsaslanan xarici siyasət konsepsiyamızı müəyyənləşdirdi.

Ölkələrimiz arasındakı əlaqələr günü-gündən genişlənməkdə, inkişaf etməkdədir. Elə regionda, ölkəmizdə və İranda baş verən dəyişikliklər də bu prosesə yaxından yardım edir. İran ilə münasibətlərin formalaşdırılmasında Azərbaycan Respublikasının İran İslam Respublikasının şimal əraziləri ilə iqtisadi-coğrafi oxşarlığı, respublikamızda yaşayan azərbaycanlıların İranda yaşayan azərbaycanlılarla etnik, dini, tarixi, mədəni eyniliyi kimi amillər nəzərə alınmağa başlandı. Müxtəlif xarakterli əlaqələr daha da genişləndi. Sərhədlər açıldı, gediş-gəliş, ticari əlaqələr çoxaldı, müxtəlif müqavilələr bağlandı.

Heydər Əliyevin düzgün siyasəti nəticəsində ölkəmiz Xəzər dənizinin statusu ilə əlaqədar müstəqil siyasət apararaq öz sektoruna aid neft yataqlarını işlətdi, eyni zamanda Azərbaycanın demokratik, hüquqi, dünyəvi dövlət kimi

inkişaf edərək İranda yaşayan soydaşlarımızın ictimai şüurunun formalaşmasına təsirinin güclənməsinə nail oldu.

Prezident Heydər Əliyev İranla əlaqələrimizin hərtərəfli, qarşılıqlı faydalı inkişaf etdirilməsini ölkəmizin xarici siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyənləşdirərək, qonşu dövləti rəsmi səfərlə ziyarət etdi, həyatımızın bir çox sahələrinə aid müqavilələrin bağlanmasına nail oldu.

Ərəb dünyasının nəhəngləri olan Səudiyyə Ərəbistanı, Misir Ərəb Respublikası, müsəlman dünyasının liderləri olan İndoneziya, Pakistan, Malayziya və başqa dövlətlərlə də qardaşlıq və dostluq əlaqələri qurmaq Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətlərindən biri kimi Prezident Heydər Əliyev tərəfindən diqqətə alındı. Əlbəttə, regiondakı siyasi durum bu siyasətin taktika və strategiyasını qurmaqda mühüm və başlıca amillərdən biri oldu.

Məlumdur ki, Yaxın və Orta Şərq regionundakı bütün ictimai-siyasi abhavanı müəyyənləşdirən əsas məsələ - altmış ildən çox davam edən İsrail-ərəb qarşıdurmasıdır. Ərəb dünyası və İsrail arasındakı gərginliyin hələ də qalması, Fələstin probleminin bu günədək həll olunmaması hər iki tərəfə münasibətdə Azərbaycan Respublikasının həyati maraqlarına cavab verən bir siyasətin aparılmasının vacibliyini göstərirdi. Bu siyasi xətt konstruktiv olmalı, birtərəfli xarakter daşımamalıdır. Bir tərəfdən İsraillə əlaqələrimizdə ölkəmizdə böyük bir yəhudi icmasının yaşayaraq fəaliyyət göstərdiyini, iqtisadi, mədəni, elmi və hərbi sahələrdə bu ölkə ilə əməkdaşlıq etməyin bizim strateji maraqlarımıza cavab verdiyini nəzərə almalı, digər tərəfdən güclü potensiala malik olan ərəb dünyası ilə münasibətdə islam aləminə məxsus olmamız, ənənəvi iqtisadi və mədəni əlaqələrimizin mövcudluğu yaddan çıxarılmamalıdır.

Azərbaycan Prezidenti Heydər Əliyevin apardığı xarici siyasət xətti bütün bunları incəlikləri ilə nəzərə aldı. Düzgün ölçülmüş və tarazlaşdırılmış siyasi xəttin nəticəsidir ki, ölkəmiz həm İKT çərçivəsində böyük müvəffəqiyyətlər qazanmış, həm də İsraillə sabit və konstruktiv əməkdaşlıq edir.

Bu gün Azərbaycanın əksər ərəb dövlətləri ilə (Səudiyyə Ərəbistanı, Misir, Birləşmiş Ərəb Əmirlikləri, Küveyt, Suriya və s.) gözəl dostluq və əməkdaşlıq münasibətləri var. Ölkəmizdə bir sıra ərəb ölkələrinin səfirlikləri fəaliyyət göstərir. Azərbaycanın Səudiyyə Ərəbistanı Krallığı, Misir, BƏƏ, Suriya, Liviya, İordaniya, Küveyt və s. ərəb ölkələrində səfirlikləri var. 1994-cü ildə Heydər Əliyev Səudiyyə Ərəbistanı Krallığında səfərdə olmuş, «Azərbaycan Respublikası ilə Səudiyyə Ərəbistanı Krallığı arasında iqtisadiyyat, ticarət, investisiya, texnika, mədəniyyət, gənclər və idman sahələrində əməkdaşlığa dair Baş Saziş» imzalamışdır.

Azərbaycan müstəqillik qazandıqdan sonra İslam Konfransı təşkilatına üzv oldu. Heydər Əliyev müsəlman ölkələri arasında həmrəyliyi və əməkdaşlığı

möhkəmlətməyi, sülh şəraitini təmin etməyi, islam mənəvi dəyərlərini, mədəniyyətini, ənənələrini qoruyub saxlamaq və inkişaf etdirməyi əldə rəhbər tutan bu beynəlxalq təşkilatla yaxından əməkdaşlıq etmək, onun vasitəsi ilə müsəlman dünyasının haqq işimizdə bizə dəstəyinə nail olmaq prinsiplərini xarici siyasətimizin vacib istiqaməti hesab edərək bu təşkilatın bütün imkanlarından səmərəli istifadə etmək zərurətini daim vurğulayırdı. 1993-cü ilin ikinci yarısından başlayaraq bu istiqamətdə görülən işlər sanki yeni nəfəs aldı, İKT ilə ölkəmiz arasındakı əlaqə və təmaslar intensivləşməyə və fəallaşmağa başladı.

23 noyabr 1993-cü ildə İKT-yə üzv ölkələrin xarici işlər nazirlərinin BMT iqamətgahında keçirilmiş koordinasiya toplantısı Ermənistanın Azərbaycan Respublikasına qarşı təcavüzü ilə bağlı regiondakı vəziyyəti müzakirə edərək ölkəmizlə bağlı ilk sənədlərindən biri olan bəyanatı qəbul etdi. Toplantı iştirakçılarına Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin müraciəti təqdim edilmişdi. Müraciətdə Ermənistanın Azərbaycanın 20 faiz ərazisinin işğalı nəticəsində ölkədə yaranmış vəziyyət, bir milyondan artıq qaçqın ordusunun olması öz əksini tapmışdı. Toplantı iştirakçıları Ermənistan-Azərbaycan münaqişəsinin genişlənməsi ilə bağlı dərin narahatlıq hisslərini ifadə etmiş və Ermənistanın son təcavüzünün sülhə və əmin-amanlığa təhlükə yaratdığını qeyd etmişdilər. Toplantı iştirakçıları eyni zamanda Azərbaycan Prezidentinin qaçqınlara təcili humanitar yardım göstərilməsi barədəki müraciətini dəstəklədiklərini bildirmişlər.

Bundan sonra ölkəmiz ilə İKT arasında əlaqələr Prezident Heydər Əliyevin göstərişi ilə daha da intensivləşdi. Azərbaycan bu təşkilatın informasiya, maliyyə və siyasi dəstək göstərmək imkanlarından tam gücü ilə istifadə etməyə başladı. 1994-cü ilin sentyabr ayında İKT xarici işlər nazirlərinin Pakistan İslam Respublikasının İslamabad şəhərində keçirilmiş VII Konfransı Ermənistan-Azərbaycan münaqişəsi üzrə daha bir qətnamə qəbul etdi. Qətnamədə Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü və Azərbaycan Respublikası ərazilərinin 20 faizdən çoxunun işğalı qətiyyətlə pislənmiş, münaqişənin dövlətlərin ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığı prinsiplərinə hörmət əsasında ədalətlə və sülh yolu ilə həllinə çağırış səsləndirilmişdir.

Prezident Heydər Əliyevin İKT Baş katibi, doktor Həmid əl-Qabidlə 1994-cü ilin noyabr ayında Bakıda keçirdiyi görüşlər və danışıqlar respublikamızla İKT arasındakı əməkdaşlığı daha da fəallaşdırmaqla yanaşı, bir sıra müsəlman ölkələri ilə diplomatik münasibətlər yaratmaq nöqteyi-nəzərindən də çox mühüm əhəmiyyət kəsb etmişdir. Belə ki, İKT Baş katibi səfərdən qayıtdıqdan sonra respublikamızın o vaxtadək diplomatik münasibətlər qurmadığı müsəlman ölkələrinin rəhbərlərinə məktubla müraciət edərək, onların diqqətini bu məsələyə cəlb etmişdir.

Hələ 1994-cü ilin may ayından etibarən Azərbaycan Respublikasının Səudiyyə Ərəbistanı Krallığındakı səfirinə İKT Baş Katibliyində Azərbaycanın daimi nümayəndəsi funksiyasını daşımaq həvalə edildikdən sonra, səfirlik vasitəsilə İKT Baş Katibi və onun müxtəlif qurumları ilə mütəmadi və səmərəli iş aparılmağa başlanmışdı.

Azərbaycan Respublikasının İKT-nin beynəlxalq aləmdəki nüfuz və imkanlarından lazımi səviyyədə istifadə edə bilməsi istiqamətində Prezident Heydər Əliyevin 1994-cü ilin iyul ayında Səudiyyə Ərəbistanına rəsmi səfəri dönüş nöqtəsi oldu. Azərbaycan Prezidentinin Səudiyyə Ərəbistanı kralı Fəhd bin Abduləziz Əl-Saudla faydalı danışıqları və İKT rəhbərliyi ilə səmərəli görüşləri müsəlman aləmində ölkəmizə olan maraq və diqqəti daha da artırdı. Azərbaycanın islam aləminin bir hissəsi olması bir daha yüksək səviyyədə təsdiqləndi. Ermənistan-Azərbaycan münaqişəsi ilk dəfə 1994-cü ildə İKT-nin BMT ilə əməkdaşlığı üzrə problemlər siyahısına salındı. Münaqişənin informasiya cəhətdən və siyasi tərəfdən işıqlandırılması, dünya səviyyəsində onun həlli yollarının və üsullarının araşdırılması ölkəmiz üçün çox mühüm əhəmiyyət kəsb edirdi.

1994-cü ilin dekabr ayında ilk dəfə olaraq Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev İKT-yə üzv ölkələrin Dövlət və Hökümət Başçılarının Zirvə toplantısında iştirak etdi. Toplantıya yola düşərkən jurnalistlərlə söhbətində Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev İslam Konfransı Təşkilatının nüfuzlu beynəlxalq təşkilat olduğunu qeyd edərək bu təşkilatın Azərbaycan üçün əhəmiyyətini çox yüksək dəyərləndirdi: «İslam ölkələri dünyanın böyük bir hissəsini təşkil edirlər. Onların bir milyard nəfərdən artıq əhalisi var. İslam Konfransı Təşkilatı bu ölkələrin ümumi potensialından istifadə edərək həm ümumbəşəri proseslərdə iştirak edir, həm də İslam ölkələrinə məxsus spesifik problemlərin həll olunmasına çalışır. Mən şəxsən hesab edirəm ki, hər bir belə regional təşkilat əhəmiyyətlidir və bu kimi təşkilatlar öz səylərini, nəhayət, birləşdirə bilsələr, dünyada sülh daimi olar, əmin-amanlıq, təhlükəsizlik təmin edilə bilər. Ona görə də mən bu Zirvə toplantısına həvəslə gedirəm və şübhəsiz ki, bu toplantıdan çox şey gözləyirəm bir də ona görə ki, İslam Konfransı Təşkilatı öz əvvəlki toplantısında da qətnamə qəbul edərək Ermənistanın Azərbaycana təcavüzünü pisləyib, bu barədə beynəlxalq təşkilatlara müraciətlər edibdir».

Dövlət başçımız bu toplantını bir növ ATƏT-in üzvü olan ölkələrin Dövlət və Hökümət Başçılarının Budapeşt Zirvə toplantısının davamı hesab edir, orada da Azərbaycan üçün taleyüklü bir çox yeni qərarların qəbul ediləcəyini gözləyirdi. Elə buna görə də orada bu istiqamətdə bir sıra işlər görüləcəyini bəyan etmişdi.

Sammitdə Azərbaycan və onun rəhbəri bütün dövlət başçılarının, diplomat-

ların, KİV nümayəndələrinin, demək olar ki, bütün islam dünyasının diqqət mərkəzində idi. Bu, islam ölkələri toplantısında ölkəmizin başçısının ilk iştirak etdiyi sammit, onlara Azərbaycan həqiqətlərini çatdırmaq üçün əldə olunmuş ilk geniş fürsət idi. Bu həm də İKT-yə üzv olan dövlət başçıları üçün Azərbaycanla yaxından tanış olmaq, onun rəhbərini dinləmək, ölkəmizlə əlaqələr qurmaq, Prezident Heydər Əliyevin simasında həm də təşkilata yenicə üzv qəbul olunmuş müsəlman respublikalarının dünya siyasətinin bir çox məsələləri ilə bağlı nöqteyi-nəzəri ilə tanış olmaq üçün fürsət yaradırdı.

Prezident Heydər Əliyev həmişə olduğu kimi bu Zirvə toplantısında da ölkəmizi layiqincə təmsil edərək onun imicini yüksəklərə qaldırdı. Sammitdə Prezidentimizin çıxışı xüsusi diqqət və rəğbətlə qarşılandı, dəfələrlə alqışlara səbəb oldu. Son dövrdə ölkəmizin başına gələn fəlakətlərdən, Ermənistan-Azərbaycan münaqişəsinin səbəblərindən və onun həlli yollarından, müsəlman dünyasının qarşılaşdığı kəskin problemlərdən açıq, hərarətlə və səmimiyyətlə danışan Azərbaycan Prezidenti dünyaya və islam aləminə bizim baxışlarımızı yüksək tribunadan bəyan etdi.

Heydər Əliyevə göstərilən hörmət və diqqətin, böyük ehtiramın nəticəsi kimi İKT katibliyinin və bir sıra dövlətlərin xahişi ilə Azərbaycan Respublikasının Prezidenti konfransda Asiya dövlətləri adından da nitq söylədi.

Bu nitqdə Azərbaycan Prezidenti toplantıda iştirak edən dövlət başçılarına müraciətlə İslam Konfransı Təşkilatında Asiya dövlətləri adından söz demək üçün ona imkan yaradılmasından böyük şərəf duyduğunu və bunu yüksək qiymətləndirdiyini qeyd etdi. O, göstərdi ki, VII Kasablanka Zirvə toplantısı dünya müsəlmanlarının həmrəyliyinin daha da möhkəmlənməsində, islam dövlətlərinin nüfuz və qüdrətinin artmasında yeni bir mərhələ olacaqdır, islam aləminin qarşılaşdığı çətinliklərin və problemlərin dünya ictimaiyyəti tərəfindən daha aydın başa düşülməsinə geniş imkanlar yaradacaqdır. Dövlətimizin başçısı VII Zirvə toplantısında Asiya qitəsindən olan ölkələrin artan fəallığının onların İslam Konfransı Təşkilatında daha geniş təmsil olunması ilə səciyyələndiyini, sonuncu ildə İslam Konfransı Təşkilatının sıralarının 45-dən 52-yə çatmasının deyilənlərə əyani sübut olduğunu toplantı iştirakçılarının diqqətinə çatdırdı. Azərbaycan Prezidenti burada qəbul edilən qərarların bütün islam aləminin, xüsusən Asiya qitəsinin müsəlman ölkələrinin qarşısında duran problemlərin həllinə sanballı töhvə olacağını, Asiya qitəsinin müstəqilliyini yenidən qazanmış bir sıra müsəlman ölkələrinin, o cümlədən Azərbaycanın İslam Konfransı Təşkilatının diqqət və qayğısına böyük ehtiyac duyduğunu söylədi. Bu ölkələrin həm keçmişdən miras qalmış ağır problemlərlə, həm də möhkəmlənməkdə olan müstəqilliklərinin doğurduğu təbii çətinliklərlə üzləşdiklərini, dərinləşməkdə olan iqtisadi böhranların, ictimai-siyasi sistemin dəyişməsi ilə bağlı keçid dövrünün yaratdığı çətinliklərin, bəzi dövlətlərin

məruz qaldığı müharibələrin, iqtisadi blokada və müxtəlif siyasi təzyiqlərin də vəziyyətə təsir göstərdiyini bəyan etdi.

Azərbaycan Prezidenti Tacikistanda və Əfqanıstanda qardaş qanının axıdılması, Kəşmir və Fələstin problemləri, Ermənistanın Azərbaycana qarşı altı ildən bəri davam edən təcavüzü və onlarca digər problemlərin bu gün çox ciddi narahatlıqlar doğurduğunu, Asiya qitəsinin bütün ağır problemlərinin konfransda qaldırılmasını təqdir etdi, həm də onların həlli ilə bağlı nikbinliyin artmasını vurğuladı. Prezidentimiz bu problemlərin həllini dost və qardaş müsəlman ölkələrinin iqtisadi və siyasi yardımı ilə xeyli asanlaşa biləcəyini, İslam Konfransı Təşkilatının mövcud gərginliyin aradan qaldırılmasına, müharibə ocaqlarının söndürülməsinə, doğma yurdlarından didərgin düşənlərin el-obasına qayıtmasına kömək edəcəyinə, günahsız insanların qanının axıdılmasına son qoymaq üçün öz nüfuz və səylərini daha da artıracağına ümid etdiyini bildirdi.

Heydər Əliyev iştirakçıların diqqətinə onu da çatdırdı ki, Asiya regionunun müsəlman dövlətləri, o cümlədən Azərbaycan İslam Konfransı Təşkilatının fəaliyyətində, habelə Zirvə toplantısında qəbul edilmiş qərarların ardıcıllıqla yerinə yetirilməsində öz səylərini durmadan artıracaq, bu təşkilatın nüfuzunun daha da yüksəlməsi üçün əlindən gələni əsirgəməyəcəkdir.

Sonda Azərbaycan Prezidenti İslam Konfransı Təşkilatının VII Zirvə toplantısının uğurla başa çatması münasibətilə üzv dövlətlərin başçılarını bir daha təbrik etdi, onlara və onların xalqlarına, müsəlman bacı və qardaşlarımıza səadət və əmin-amanlıq arzuladı.

Səfər zamanı Azərbaycan Prezidenti İKT rəhbərliyi ilə keçirdiyi səmərəli görüşlərlə bərabər, Azərbaycanla İKT-yə üzv ölkələr arasında olan əlaqələri genişləndirmək və inkişaf etdirmək məqsədilə bir sıra ölkələrin Dövlət və Hökümət Başçıları ilə də ikitərəfli görüşlər keçirmişdir.

Azərbaycan Prezidentinin bu səfəri, orada keçirdiyi görüşlər, apardığı danışıqlar, qazandığı uğurlar öz müsbət nəticələrini verməyə başladı. Bu səfərdən sonra iKT ilə əlaqələrimizdə yeni uğurlar və nailiyyətlər dövrü başlandı.

İKT-yə üzv ölkələrin xarici işlər nazirlərinin 1994-cü ilin dekabr ayında Kasablankada keçirilmiş VII Zirvə toplantısı və XXII konfransı, 1995-ci ilin dekabrında Konakridə keçirilmiş XXIII konfransı, 1996-cı ilin dekabr ayında Cakartada keçirilmiş XXIV konfransı İKT Baş katibinin Ermənistan-Azərbaycan münaqişəsi üzrə məruzəsini müzakirə edərək, Ermənistanın Azərbaycana qarşı təcavüzünü kəskin şəkildə pislədi. Bütün bu konfranslarda qəbul edilən sənədlərdə də erməni silahlı qüvvələrinin işğal edilmiş Azərbaycan torpaqlarından təcili surətdə çıxarılması, Azərbaycan Respublikasının suverenliyinə və ərazi bütövlüyünə hörmət edilməsi tələbi qoyuldu.

Dövlətimizin başçısı İKT ilə olan əlaqələrimizi daim öz nəzarəti altında

saxlamış, onların durmadan inkişafı üçün müvafiq tədbirlər görülməsinə, bu sahədə ardıcıl iş aparılmasına xüsusi diqqət verirdi. 1996-cı il sentyabr ayının 21-də Bakıda keçirilən İslam İnkişaf Bankının Beynəlxalq İnvestisiya Konfransı məhz belə tədbirlərdən idi. Bu konfransın işində də Azərbaycan Prezidenti şəxsən iştirak etmişdir. Konfransda çıxış edən Heydər Əliyev bildirmişdir ki, İslam İnkişaf Bankının belə böyük tərkibdə, yüksək səviyyədə konfransının Azərbaycanda keçirilməsini yüksək qiymətləndirir və bunu Azərbaycan Respublikası ilə İslam ölkələri, İslam İnkişaf Bankı arasında mövcud olan sıx əlaqələrin təzahürü hesab edir. Prezident Heydər Əliyev əmin olduğunu bildirmişdir ki, İslam İnkişaf Bankının Azərbaycanda ilk dəfə keçirdiyi yüksək səviyyəli, geniş tərkibli mötəbər konfransı bundan sonra həm İslam İnkişaf Bankının bütün müsəlman ölkələrindəki fəaliyyətinə təkan verəcək, həm də İslam İnkişaf Bankı və onun ətrafında olan iş adamları ilə Azərbaycan arasındakı əlaqələri daha da genişləndirəcəkdir.

1997-ci ildə Prezident Heydər Əliyev Tehranda İKT-nin VIII Zirvə toplantısında iştirak etmiş, geniş məruzə ilə çıxış etmiş və çoxsaylı görüşlər keçirmişdir. Prezidentimizin orada söylədiyi nitqi və keçirdiyi görüşləri islam aləmində geniş reaksiyaya səbəb olmuşdur. İKT-nin sabiq Baş katibi İzəddin İraqı dövlət başçılarının Tehran zirvə konfransı günlərində Azərbaycan Prezidenti ilə keçirdiyi görüşdən sonra jurnalistin sualına verdiyi aşağıdakı cavab fikrimizə əyani sübutdur: «Mən fəxr edirəm ki, Azərbaycan Prezidenti Heydər Əliyevlə görüşdüm, onun fikirlərini dinlədim. Fəxr edirəm ki, o, təşkilatımızın işinə yüksək qiymət verdi. Biz təşkilatımızın Azərbaycanla əlaqələrinin daha da sıxlaşması üçün əlimizdən gələni edəcəyik… Mən cənab Prezidenti əmin etdim ki, İKT həmişə Azərbaycanın tərəfində olmuş və bundan sonra da olacaqdır. Mən cənab Prezidenti həmçinin əmin etdim ki, Azərbaycan torpaqlarının işğaldan azad edilməsi bizim dəyişməz mövqeyimizdir. Mən belə hesab edirəm ki, Azərbaycanın İKT ilə sıx əməkdaşlıq etməsi Prezident Heydər Əliyevin böyük zəkaya, ağıla malik olduğuna dəlalət edir».

Beləliklə, Prezident Heydər Əliyevin gərgin zəhməti və yorulmaz fəaliyyəti nəticəsində ilk vaxtlar İKT Baş Katibliyi Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı respublikamızın mövqeyini dəstəkləyən bəyanatlar verdiyi halda, sonrakı mərhələdə İKT konfransları Ermənistan-Azərbaycan münaqişəsi haqqında daha kəsərli qətnamələr qəbul etmişdir. Bu qətnamələrdə Ermənistan-Azərbaycan münaqişəsi birmənalı şəkildə Ermənistan Respublikasının Azərbaycan Respublikasına təcavüzü kimi qiymətləndirilir.

İKT xarici işlər nazirlərinin 1993-cü ildə Kəraçidə keçirilmiş XXI, 1994-cü ildə Kasablankada keçirilmiş XXII, 1995-ci ildə Konakridə keçirilmiş XXIII konfransları Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında münaqişə haqqında qətnamələr qəbul etdi. İKT xarici işlər nazirlərinin 1996-cı

ildə Cakartada keçirilmiş XXIV konfransında müvafiq qətnamənin adı dəyişdirilərək, «Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü haqqında» adlandırılmışdır. O vaxtdan etibarən xarici işlər nazirlərinin bütün konfranslarında bu qəbildən olan qətnamələrin adı dəyişilməz qalmışdır. Qeyd etmək lazımdır ki, İKT dövlət və hökümət başçılarının 1997-ci ildə Tehranda keçirilmiş VIII, 2000-ci ildə Dohada keçirilmiş IX və 2003-cü ildə Malayziyanın Putracaya şəhərində keçirilmiş X konfransları eyni adlı qətnamələr qəbul etmişdir. Əvvəlki qətnamələrdən fərqli olaraq, son qətnamələr xeyli təkmilləşdirilmiş, onlara yeni bəndlər əlavə edilmişdir: «İKT bütün dövlətləri təcavüzkarı münaqişəni dərinləşdirməyə təşviq edən və Azərbaycan ərazilərinin işğalını davam etdirməyə imkan yaradan silah və döyüş sursatı təchizatından imtina etməyə çağırır; İKT-yə üzv dövlətləri və dünya birliyinin digər ölkələrini Ermənistanın təcavüzünə və Azərbaycan ərazilərinin işğalına son qoyulması üçün təsirli siyasi və iqtisadi təzyiqlərdən istifadəyə dəvət edir; hesab edir ki, Azərbaycan ona dəymiş ziyana görə kompensasiya almaq hüququna malikdir və bu ziyanın tam şəkildə ödənilməsi üçün məsuliyyət Ermənistanın üzərinə düşür; bu məsələ üzrə İKT-yə üzv dövlətlərin mövqeyi barədə ATƏT-in hazırki sədrinə məlumat verməsini İKT Baş katibindən tələb edir» və s.

İKT dövlət və hökümət başçılarının təkcə 2003-cü ilin oktyabr ayında Putracayada keçirilmiş X Zirvə Konfransının qəbul etdiyi qətnamələr Azərbaycan-İKT münasibətlərinin indiki vəziyyətinin əyani göstəricisidir. Konfrans qeyd edilən siyasi qətnamə ilə yanaşı, «Azərbaycan Respublikasına iqtisadi yardım göstərilməsi haqqında» qətnamə qəbul etmişdir. Qətnamədə Ermənistanın Azərbaycan Respublikasının Dağlıq Qarabağ və digər bölgələrinin işğalı, bir milyonadək əhalinin öz yurdundan zorla qovulması ilə müşayiət olunan əməlləri pislənir, Azərbaycan hökuməti və xalqı ilə tam həmrəylik ifadə olunur, Azərbaycan qaçqınlarının əzab-əziyyətini yüngülləşdirmək məqsədilə İKT-yə üzv dövlətlərə, islam qurumlarına, eləcə də beynəlxalq təşkilatlara müraciət edilir ki, respublikamıza lazımi iqtisadi, maliyyə və humanitar yardım göstərsinlər.

Konfrans ölkəmizlə bağlı «Ermənistan Respublikasının təcavüzü nəticəsində Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində islam tarixi və mədəniyyəti abidələrinin məhv edilməsi və dağıdılması haqqında» qətnamə qəbul etmişdir. Geniş və əhatəli preambula və 7 bənddən ibarət bu qətnamə işğal edilmiş torpaqlarımızdakı mədəniyyət və tarixi abidələrimizin müdafiəsinə yönəlmişdir. Konfrans İKT Baş katibinin bu barədə müvafiq hesabatını nəzərdən keçirərək, erməni təcavüzkarlarının Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində islam sivilizasiyasının tam məhvinə yönəldilmiş vəhşi hərəkətlərini ciddi surətdə pisləmiş, BMT Təhlükəsizlik Şurasının 822, 853,

874 və 884 saylı qətnamələrinin Ermənistan tərəfindən qeyd-şərtsiz yerinə yetirilməsini tələb etmiş, problemlə bağlı İKT-yə üzv dövlətlərin mövqeyi barədə BMT, ATƏT və digər beynəlxalq təşkilatlara məlumat verməsini İKT Baş katibindən xahiş etmişdir.

Qeyd etmək lazımdır ki, İKT qətnamələri Azərbaycan üçün təkcə siyasi əhəmiyyət daşımır, respublikamıza müsəlman ölkələri tərəfindən göstərilən humanitar, texniki və başqa yardımın böyük bir hissəsi İKT konfranslarının qəbul etdiyi mühüm sənədlər əsasında həyata keçirilib. İslam İnkişaf Bankı 1994-cü ildən etibarən mütəmadi olaraq qaçqınlarımıza humanitar yardım göstərir, onlar üçün iş yerləri yaradılması məqsədi ilə dəzgah və avadanlığın alınmasına 1 milyon ABŞ dolları vəsait ayırmışdır. Respublikamızın sosial inkişaf layihələrinin texniki-iqtisadi əsaslandırılmasının hazırlanmasına İslam İnkişaf Bankı təmənnasız olaraq 1,424 milyon ABŞ dolları vəsait ayırmışdır. Bankın respublikamıza təqdim etdiyi güzəştli kreditin ümumi məbləği 74 milyon dollardan artıqdır. Səudiyyə Ərəbistanının humanitar müəssisələri, Kral Fəhd adına yardım proqramı, Körfəz ölkələrinin bir sıra humanitar təşkilatlarının və fondlarının yardımı qeyd olunan sənədlər əsasında həyata keçirilir.

1997-ci il oktyabrın 4-də BMT Baş Məclisinin 52-ci sessiyası çərçivəsində İKT xarici işlər nazirlərinin BMT iqamətgahında keçirilmiş əlaqələndirmə toplantısının yekun bəyanatında islam dünyasının digər problemləri ilə yanaşı, Ermənistan Respublikasının Azərbaycan Respublikasına təcavüzü də öz əksini tapmışdır. Toplantı Ermənistanın Azərbaycan Respublikasına təcavüzünü pisləmiş və erməni silahlı qüvvələrinin işğal edilmiş bütün Azərbaycan torpaqlarından dərhal, qeyd-şərtsiz və tamamilə çıxarılmasını tələb etmiş, ərazilərin güc tətbiq etməklə işğalının yolverilməzliyini bir daha təsdiq etmişdir, münaqişənin dövlətlərin ərazi bütövlüyü və beynəlxalq tanınmış sərhədlərin toxunulmazlığına ehtiram prinsipləri əsasında ədalətlə və sülh yolu ilə həll edilməsinə çağırmışdır.

Müstəqil Azərbaycanın Çin və Yaponiya kimi ölkələrdə də qarşılıqlı faydalı əməkdaşlığı durmadan inkişaf edirdi. 1994-cü ilin martında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Çin Xalq Respublikasının Sədri Tszyan Tszeminin dəvəti ilə bu ölkəyə rəsmi səfər etdi. Martın 7-də aparılan danışıqlarda Azərbaycan Respublikası ilə ÇXR arasında münasibətlərin inkişaf perspektivləri müzakirə olunub. Görüşdə qeyd edilib ki, iki ölkənin münasibətlərində istifadə edilməyən sahələr var. Bu sahələrə Çinin iqtisadi islahatlar təcrübəsinin öyrənilməsi, Azərbaycana kredit verilməsi, yeni istehsal sahələrinin işə salınması, yüksək texnoloji tutumlu məhsulların ixracı və onların istehsalı sahəsində əməkdaşlığın inkişafı aiddir. ÇXR-ın Sədri iki ölkə arasında əlaqələrin iki min ildən çox tarixi olduğunu və bu tarixin köklərinin İpək Yolu dövlətlərinə gedib çıxdığını qeyd edib. Səfər zamanı iki ölkə arasında ha-

va yolunun açılması, mədəni, elmi-texniki əlaqələr, təbabət, investisiyaların həvəsləndirilməsi və qarşılıqlı surətdə qorunması haqda müqavilələr imzalanıb, dostluq münasibətlərinin inkişaf etdirilməsi haqqında birgə bəyanat qəbul edilib.

24-27 fevral 1998-ci ildə Azərbaycan Prezidenti Heydər Əliyev Yaponiyada ilk dəfə rəsmi səfərdə olub. Yaponiyanın Tokio və Kioto şəhərlərini əhatə edən səfər çərçivəsində Azərbaycan Prezidenti bu ölkənin imperatoru əlahəzrət Akixito, baş nazir Haşimoto, hökumətin bir çox üzvləri, o cümlədən bu ölkənin çoxsaylı investorları, iş adamları ilə görüşüb, danışıqlar aparıb. Bu səfər nəticəsində iki ölkə arasında yeddi sənəd imzalanıb. Iki ən mühüm sənəd – "İki ölkə arasında dostluq və tərəfdaşlıq haqqında" birgə bəyanat və "Yaponiya ilə Azərbaycan arasında iqtisadiyyat və ticarət sahəsində əməkdaşlıq haqqında" birgə bəyanat 26 fevral 1998-ci ildə Tokioda Yaponiyanın baş naziri Haşimoto və Azərbaycan Prezidenti Heydər Əliyev tərəfindən imzalanıb. Qalan beş sənəd isə hər iki dövlətin müxtəlif hökumət qurumları arasında imzalanıb. Yaponiya-Azərbaycan münasibətlərinin hüquqi-normativ cəhətdən əsaslandırılması baxımından bu sənədlər baza rolunu oynadı. Səfər Azərbaycan və Yaponiya arasında diplomatik, siyasi, iqtisadi əlaqələrin qurulmasında və inkişafında tarixi əhəmiyyətə malik səfər kimi qiymətləndirilir. Bu səfər nəticəsində Yaponiyanın «İtoçu», «Mitsui», «Sumitoma», «Capeks», «Marubeni» və digər iri şirkətləri milli iqtisadiyyatımızın müxtəlif sahələrinə, o cümlədən sənaye, energetika, kənd təsərrüfatı və s. investisiya qoyublar və uğurla fəaliyyət göstərməkdədirlər. Cənubi Qafqazda Yaponiyanın əsas tərəfdaşı olan Azərbaycan Respublikası bu ölkədən gətirilən yeni texnologiyaların və müasir texnikanın milli iqtisadiyyata tətbiq edilməsi sahəsində və müştərək layihələrin həyata keçirilməsində fəal əməkdaşlığını davam etdirir.

Məlumdur ki, xarici siyasət daxili siyasətdən doğur və onun məntiqi nəticəsidir. Prezident Heydər Əliyevin Şərq siyasətini qısaca da olsa nəzərdən keçirəndə, onun etdiyi səfərləri, reallaşdırdığı görüşləri, verdiyi müsahibələri, bağladığı müqavilələri, müəyyənləşdirdiyi istiqamət və prinsipləri təhlil edəndə bir daha qənaətə gəlirik ki, böyük öndərimizin yürütdüyü xarici siyasət də daxili siyasəti kimi daim bir mərama, bir məqsədə, bir amala xidmət edib – müstəqil Azərbaycanı yaşatmaq, onu hərtərəfli inkişaf etdirmək, problemlərimizi həll etmək, xalqımızın dünya xalqları birliyində özünəlayiq yer tutmasına nail olmaq.

Bugün müstəqil Azərbaycan dünyanın əksər ölkələri ilə qarşılıqlı siyasi, iqtisadi, mədəni və digər əlaqələrini inkişaf etdirir. Bu istiqamətdə Şərq ölkələri ilə qurulan əlaqələr, hərtərəfli əməkdaşlıq Azərbaycan Respublikasının dövlətçilik siyasətinin mühüm bir hissəsi kimi daim təkmilləşməkdədir. Azərbaycan Respublikasının xarici Şərq siyasətində heç şübhəsiz birinci yer Tür-

kiyə Cümhuriyyətinə məxsusdur. Din, dil, soy bağlılığına söykənərək yüksələn xətlə inkişaf edən əlaqələrimiz bütün sahələrdə əməkdaşlıq və qardaşlıq bağlarının möhkəmlənməsinə şərait yaratmışdır.

Ulu öndər Heydər Əliyevin uğurlu siyasi fəaliyyətinin davamı olaraq 2003-cü ildən etibarən Prezident İlham Əliyev tərəfindən yürüdülən siyasət, gerçəkləşən görüşlər, işgüzar səfərlər, bağlanan müqavilələr nəticəsində Azərbaycan-Türkiyə arasında iqtisadi, mədəni, hərbi, elm və təhsil sahələrində əlaqələr durmadan inkişaf edir.

Prezident İlham Əliyevin 2003-cü ildə Türkiyədə «Avroatlantik İttifaqı Yol Ayrıcında» mövzusunda beynəlxalq konfransda, 2004-cü ildə NATO-nun üzvü olan ölkələrin dövlət və hökumət başçılarının zirvə görüşündə, İstanbulda Avroatlantik Tərəfdaşlıq Şurasına üzv olan ölkələrin dövlət və hökumət başçılarının görüşündə, 2006-cı ildə Antalyada Türkdilli Dövlətlərin və Toplumların X Dostluq, Qardaşlıq və Əməkdaşlıq qurultayında, 2008-ci ildə Qarsda Bakı-Tbilisi-Qars dəmir yolunun Türkiyə hissəsinin təməl qoyma mərasimində, Antalyada Türkdilli ölkələrin Dövlət Başçılarının VIII Zirvə görüşündə, sonrakı illərdə Türkiyəyə işgüzar səfərlərində IV Enerji sammitində, İstanbulda İqtisadi Əməkdaşlıq Təşkilatının XI sammitində, Asiyada Qarşılıqlı Fəaliyyət və Tədbirlər üzrə müşavirənin III Zirvə toplantısında, Türkdilli ölkələrin dövlət başçılarının X Zirvə görüşündə və digər mühüm beynəlxalq forumlarda iştirakı, habelə 2007-ci ilin martında Bakıda keçirilən Dünya Azərbaycan və Türk diaspor təşkilatları rəhbərlərinin I Forumunda Türkiyənin baş naziri Rəcəb Tayyib Ərdoğanın, həmin ilin noyabrında Türkiyə Cümhuriyyətinin Prezidenti Abdullah Gülün və baş nazir R.T.Ərdoğanın Bakıda keçirilən «XV Beynəlxalq Xəzər neft və qaz, neftayırma, neft kimyası» sərgi və konfransında, Naxçıvanda «Düzdağ» fizioterapiya mərkəzinin açılışında iştirakları, 2008-ci ilin sentyabrında və 2010-cu ilin avqustunda Abdullah Gülün Azərbaycana səfəri və digər işgüzar səfər və görüşlərin qısa xronikası Azərbaycan-Türkiyə əlaqələrinin inkişaf etdirilməsi Azərbaycan xarici siyasətinin mühüm tərkib hissəsi olduğunu bir daha nümayiş etdirir.

2010-cu ildə «Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının yaradılması haqqında» Birgə Bəyannamə qəbul olunmuş və «Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında strateji tərəfdaşlıq və qarşılıqlı yardım haqqında» Müqavilə imzalanmışdır.

2003-cü il Türkiyəyə səfəri zamanı Bilkənd Universitetinin fəxri doktoru seçilmiş İlham Əliyev eyni zamanda İhsan Doğramacı adına Dünya Sülh mükafatına, 2005-ci il 5 mart tarixində İpək Yolu Vəqfinin «2004-cü ilin siyasətçisi», 2006-cı il 12 iyulda Türkiyə Respublikasına işgüzar səfəri zamanı nüfuzlu «Ekovitrin» jurnalının «Avrasiyada ilin siyasət adamı» mükafatına və digər

mükafatlara layiq görülmüşdür. Prezident İlham Əliyevin Türkiyənin ayrı-ayrı televiziya, mətbuat işçiləri ilə şəxsən özünün görüşləri mühüm əhəmiyyət daşıyır. Müxtəlif vaxtlarda TRT televiziyasının sədrini, «Sərhədlərarası» proqramının aparıcısını qəbul edən, NTV, Samanyolu, SOY-TV kanallarına, daha sonra «İHLAS» xəbərlər agentliyinə, «TÜRKİYƏ» qəzetinə, «EKOVİTRİN» jurnalının müxbirlərinə, «CÜMHURİYYƏT», «HÜRRİYYƏT» qəzetlərinə müsahibələr verməsi ölkə başçımızın Türkiyə ilə əməkdaşlığa verdiyi önəmə daha bir bariz sübutdur.

Dövlətimizin məqsəd və maraqlarına uyğun olaraq elm və təhsil sahəsində əlaqələrin inkişaf etdirilməsi, Türkiyədə Heydər Əliyevin adını daşıyan mərkəzlərin, məktəblərin yaradılması, Azərbaycanda türk litseylərinin, Qafqaz Universitetinin fəaliyyət göstərməsi birgə mədəni tədbirlərin gerçəkləşməsi müasir əlaqələrə xüsusi məzmun verməkdədir.

Prezident İlham Əliyevin yürütdüyü xarici siyasətdə türkdilli xalqların inteqrasiyası, o sıradan Türkmənistan, Özbəkistan, Qazaxıstan və Qırğızıstan respublikaları ilə qurulan hərtərəfli əlaqələr xüsusi önəm daşıyır.

Türkdilli ölkələrin Dövlət Başçıları ilə görüşlər, imzalanan bəyannamələr, bağlanan siyasi, iqtisadi, mədəni, hərbi, hüquqi müqavilələr forma və məzmun baxımından mükəmməl və genişdir. Respublikamızın Prezidenti qazax, qırğız və digər türk xalqlarının görkəmli şəxsiyyətlərini qəbul edərək onların fəaliyyətini yüksək qiymətləndirir. 2006-cı ildə görkəmli qazax şairi və ziyalısı Oljas Süleymenovu qəbul etməsi, 2008-ci ildə Özbəkistan Prezidenti İslam Kərimovun Bakıya səfəri çərçivəsində özbək mütəfəkkir-şairi Əlişir Nəvainin Bakıda heykəlinin, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin büstünün, böyük şairimiz Nizami Gəncəvinin heykəlinin Daşkənd şəhərində ucaldılması, bugünlərdə Oljas Suleymenovu qəbul edərək 75-illik yubileyi münasibəti ilə «Dostluq» ordeni ilə təltif etməsi və digər hadisələr mədəni əlaqələrdə böyük önəm daşıyır.

2010-cu ilin sentyabr ayında Özbəkistana rəsmi səfər edən dövlətimizin başçısı bir sıra çox mühüm sənədlərə - «Azərbaycan Respublikası Prezidentinin və Özbəkistan Respublikası Prezidentinin birgə bəyannaməsi», «Azərbaycan Respublikası Hökuməti və Özbəkistan Respublikası Hökuməti arasında 2011-2015-ci illər üzrə iqtisadi əməkdaşlıq haqqında» saziş - imza atmışdır. 2010-cu ilin dekabr ayında Prezident İlham Əliyev ATƏT-in VII sammitində iştirak etmək üçün Qazaxıstana işgüzar səfər etmişdir. Səfər zamanı Qazaxıstan Prezidenti və bir sıra digər rəsmi şəxslərlə ikitərəfli görüşlər keçirilmişdir.

Azərbaycan Respublikasının dövlət siyasətində türkdilli ölkələr ilə qurulan əlaqələrdə beynəlxalq təşkilatlarda Azərbaycanın təmsilçiliyi xüsusi əhəmiyyətə malikdir. Belə ki, beynəlxalq qurum və təşkilatların, konfrans və digər tədbirlər çərçivəsində respublikamız türkdilli xalqlar ilə hərtərəfli və

çoxşaxəli əlaqələrin inkişaf etdirilməsində ciddi addımlar atmışdır. Türkdilli ölkələrin Dövlət Başçılarının zirvə görüşləri, xüsusilə 2009-cu ildə Naxçıvan Muxtar Respublikasında gerçəkləşən IX Zirvə görüşündə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası haqqında sazişin imzalanması, Naxçıvan bəyannaməsinin qəbulu, 8 sentyabr 2008-ci ildə «Azərbaycan və Türkmənistanın neft və qaz potensialı: energetika, iqtisadiyyat, ekologiya. Əməkdaşlığın strategiyası», Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Təşkilatının fəaliyyətində Azərbaycan dövlətinin və onun Prezidentinin uğurlu siyasi fəaliyyəti türkdilli xalqların inteqrasiyasında mühüm əhəmiyyət kəsb edir. Türkdilli xalqlarının inteqrasiyası istiqamətində baş tutan digər bir çox önəmli hadisə - Türkdilli Dövlətlərinin Parlament Assambleyasının (Türk PA) təsisi və baş katibliyinin Bakıda yerləşdirilməsidir.

İran İslam Respublikası ilə qarşılıqlı faydalı qonşuluq münasibətlərinin saxlanması və inkişaf etdirilməsi Azərbaycan xarici siyasətinin prioritet istiqamətlərindəndir. Ulu Öndərimiz Heydər Əliyev tərəfindən əsası qoyulmuş bu siyasət, Prezident İlham Əliyev tərəfindən də davam etdirilir. Azərbaycan-İran münasibətlərində müxtəlif dövrlərdə narazılıqlar baş versə də, hər iki tərəf qarşılıqlı əməkdaşlığı kifayət qədər yüksək səviyyədə saxlamışdır. Narazılıqların əsasında İranın Ermənistana hərtərəfli dəstək verməsi, Xəzər dənizinin bölgüsü məsələsində İran rəhbərliyinin beynəlxalq hüquqa zidd mövqe tutması, İİR-da fəaliyyət göstərən bəzi qurumların ölkəmizin daxili işlərinə kobud müdaxiləsi faktları dayanır. Lakin bunlara baxmayaraq əlaqələrin genişləndirilməsi və inkişaf etdirilməsi günün tələbidir və hər iki xalqın maraqlarına cavab verir.

2004-cü ilin avqustunda İran prezidenti Məhəmməd Hatəmi Azərbaycana səfərə gəlib. O, bir daha Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar İranın Azərbaycanı müdafiə etdiyini bildirən bəyanat verib. Hatəminin səfəri zamanı müxtəlif sahələrdə əməkdaşlıq müqavilələrinin bağlanması ilə yanaşı, Azərbaycan Respublikasının Təbriz şəhərində Baş Konsulluğunun açılması məsələsi də həll edilib. Qeyd edək ki, bu problem, Azərbaycan-İran münasibətlərində həlli çətin olan problemlərdən idi və yalnız Prezident İlham Əliyevin böyük səyi nəticəsində öz həllini tapdı.

2005-ci ilin yanvarında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İrana rəsmi səfər etdi. Səfər zamanı tərəflər arasında sərhəd, maliyyə, mədəniyyət, hidroenergetika və s. sahələrdə əməkdaşlıq haqqında müqavilələr imzalanıb.

2005-ci il 8-9 yanvar tarixlərində Azərbaycan-İran Dövlətlərarası Müştərək Komissiyasının növbəti 6-cı iclası keçirilmişdir. Iclasın nəticəsi olaraq iqtisadi, ticarət və humanitar sahələr üzrə əməkdaşlığa dair Memorandum imzalanmışdır.

2005-ci ilin dekabrında İran prezidenti Mahmud Əhmədinejad İrandan Naxçıvana çəkilmiş qaz kəmərinin açılışında iştirak etmək üçün Muxtar Respublikaya gəlib. Burada Əhmədinejad və prezident İlham Əliyev tərəfindən enerji sahəsində əməkdaşlığa dair Memorandum imzalanıb. 2006-cı ilin iyununda İqtisadi Əməkdaşlıq Təşkilatının Bakıda keçirilən IX Zirvə toplantısında Azərbaycan və İran prezidentləri ikitərəfli görüş keçirərək, bir sıra ikitərəfli və regional məsələlərə dair fikir mübadiləsi aparmışlar. Bu görüşlərdə prezidentlər iki ölkə arasında münasibətlərin yüksək səviyyədə olduğunu bəyan etdilər.

Prezident İlham Əliyev 2005-ci ilin sonu və 2006-cı il ərzində beynəlxalq miqyasda kəskinləşən nüvə enerjisi məsələsi ilə bağlı müsahibələrində İrana qarşı sanksiya tətbiq edilməsinin əleyhinə olduğunu bildirdi. O, Azərbaycan ərazisindən heç bir dövlətə qarşı istifadəyə yol verilməyəcəyini, nüvə məsələsinin danışıqlar və qarşılıqlı razılıq əsasında həllinə tərəfdar olduğunu söylədi.

2007-ci il avqustun 21-də İran Prezidenti Mahmud Əhmədinejad növbəti dəfə Azərbaycanda səfərdə olub. Prezident İlham Əliyevlə söhbətində dövlət başçıları bu səfərin əhəmiyyətli olduğunu vurğulayıblar. Səfər nəticəsində bir sıra sənədlər imzalanıb. 2007-ci il oktyabrın 16-da isə Prezident İlham Əliyev Xəzəryanı dövlət başçılarının II Zirvə toplantısında iştirak etmək üçün İrana səfər edib. Prezidentlərin görüşü zamanı siyasi, iqtisadi və digər sahələrdə əlaqələrin hər iki tərəfin mənafeyinə uyğun şəkildə uğurla inkişaf etdiyi bildirildi.

10 mart 2009-cu ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İrana rəsmi səfər edib. Prezidentlərin təkbətək görüşü zamanı ölkələrimiz arasında ikitərəfli münasibətlərin inkişaf perspektivləri və bir sıra beynəlxalq və regional məsələlər müzakirə edilib. Səfər zamanı Prezident İlham Əliyev İranın ali dini rəhbəri Seyid Əli Xameneyi ilə görüşüb. Görüşdə iki ölkə arasında qonşuluq və əməkdaşlığın müxtəlif sahələrdə, o cümlədən siyasi və iqtisadi sahələrdə də uğurla inkişaf etdiyi bildirilib, Azərbaycan-İran münasibətlərinin bundan sonra da genişlənəcəyinə əminlik ifadə edilib. Səfər zamanı bir sıra sənədlər, o cümlədən «Azərbaycan Respublikası Hökuməti və İran İslam Respublikası Hökuməti arasında iqtisadiyyat və ticarət üzrə əhatəli əməkdaşlığa dair» Protokol imzalanıb. Daha sonra Prezident İlham Əliyev Tehranda İqtisadi Əməkdaşlıq Təşkilatının X Zirvə görüşündə iştirak edib. Zirvə görüşünün yekunlarına dair Tehran Bəyannaməsi qəbul olunub.

2010-cu ilin sentyabrında İran İslam Respublikasında keçirilən Azərbaycan mədəniyyət günləri iki ölkə arasında əməkdaşlığın möhkəmlənməsinə mühüm töhfə oldu. Azərbaycan mədəniyyət günləri bu ilin ən yaddaqalan mədəniyyət hadisələrindən biri kimi tarixə düşdü. Ölkəmiz müstəqillik qazandıqdan sonra ilk dəfə idi ki, İranda Azərbaycan mədəniyyət günləri keçirilirdi. Tədbirin

yüksək səviyyədə təşkil olunması iki ölkə arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin, Azərbaycan və İran rəhbərliyinin qarşılıqlı tərəfdaşlığa və mehriban qonşuluğa verdikləri önəmin bariz təzahürüdür. Bu əlamətdar hadisə, eyni zamanda, iki ölkə arasında qədim mədəniyyət körpüsünün daha da möhkəmlənməsi, iki ölkənin mədəni mübadiləsinin yeni müstəviyə qədəm qoyması deməkdir.

İKT ilə əlaqələr Prezident İlham Əliyev tərəfindən inkişaf etdirilərək, yeni mərhələyə qədəm qoydu. Azərbaycanda İKT-nin bir sıra konfrans, forum, seminar və digər tədbirləri keçirilmişdir. 2005-ci ildə İKT-nin Məkkədə keçirilən fövqəladə sammitində Azərbaycan prezidenti şəxsən iştirak etdi. Onun təşəbbüsü ilə 2006-cı ildə (19-21 iyun) təşkilata üzv ölkələrin xarici işlər nazirlərinin XXXIII konfransı Bakıda keçirildi. Bakıda keçirilən İKT turizm nazirlərinin V konfransının (10-11 iyun 2009) nəticəsi olaraq qəbul edilmiş yekun bəyannamədə Ermənistanın Azərbaycana təcavüzü pislənməklə yanaşı, işğal edilmiş ərazilərdə və habelə Ermənistan daxilindəki mədəniyyət və islam abidələrinə qarşı həyata keçirilən vandalizm siyasəti, eləcə də işğal olunmuş ərazilərin təbii resurslarından istifadə edilməsini pisləyən maddələr əksini tapıb.

İKT indiyə qədər Azərbaycanla bağlı bir sıra önəmli qətnamələr qəbul edib: Azərbaycana iqtisadi yardım barədə qətnamə, Ermənistanın Azərbaycan Respublikasına təcavüzü nəticəsində islam tarixi və mədəni abidələrinin dağıdılması barədə qətnamə, Ermənistan və Azərbaycan arasındakı münaqişə barədə qətnamə və sairə. Azərbaycan Respublikası Milli Məclisinin nümayəndə heyəti, İKT Parlament İttifaqında müntəzəm iştirak edərək, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi, təcavüzkarı pisləyən, Azərbaycanın ərazi bütövlüyünü müdafiə edən bir sıra qətnamələrin qəbul olunmasına nail olmuşdur.

Azərbaycan öz növbəsində təşkilatın qərarlarının qəbul edilməsində fəal iştirak edir. İslam dövlətlərində baş verən proseslərə münasibətdə konstruktiv mövqe tutur. Təşkilatın bütün tədbirlərində Azərbaycan nümayəndələri birmənalı şəkildə Fələstin xalqının suverenlik hüququnu müdafiə edib, Qüdsdəki islam abidələrinin toxunulmazlığına tərəfdar çıxıb.

Azərbaycan İKT-nın aidiyyatı strukturları ilə də sıx əməkdaşlıq edərək həmin qurumların işində, eyni zamanda üzv ölkələrdə keçirilən tədbirlərdə çox yaxından iştirak edir. Bu nöqteyi nəzərdən H.Əliyev fondunun prezidenti Mehriban Əliyevanın fəaliyyəti və onun İSESKO-nun xoşməramlı səfiri təyin edilməsi və İKT-nin baş katibi Əkmələddin İhsanoğlu tərəfindən göstərdiyi xidmətlərə görə təşkilatın humanitar məsələlər üzrə xüsusi elçisi diplomu ilə təltif edilməsi təqdirəlayiqdir.

İKT-nin Uqandada keçirilən XI sammitinin (10-11 iyun 2008) və Seneqalda keçirilən xarici işlər nazirlərinin XXXV konfransında (13-14 mart 2008) nazir Elmar Məmmədyarov geniş çıxış edərək Azərbaycan-İKT münasibətlərinin səmərəli şəkildə inkişaf etdiyini vurğulayıb. Konfransın sonunda erməni işğalını pisləyən, eləcə də ermənilərin işğal etdikləri ərazidən dərhal və şərtsiz çıxmalarını tələb edən sənəd qəbul edilib. Təşkilatın XI sammitində Azərbaycan tərəfinin yorulmaz və məqsədyönlü fəaliyyəti nəticəsində yekun xartiyanın «məqsədlər və prinsiplər» bölməsinə üzv ölkələrin dövlət müstəqilliyi və təcavüz nəticəsində ərazisi işğala məruz qalmış dövlətlərin ərazi bütövlüyünün bərpa edilməsi ilə bağlı xüsusi bənd daxil edilib.

2010-cu ildə «Azərbaycan Respublikası Hökuməti və İslam Konfransı Təşkilatına bağlı beynəlxalq qurum-Dialoq və Əməkdaşlıq uğrunda İslam Konfransı Gənclər Forumu (DƏİKGF) arasında DƏİKGF-ın Avrasiya üzrə Regional Mərkəzin Bakı şəhərində yerləşməsi haqqında» saziş imzalandı.

Regionda strateji əhəmiyyət daşıyan ərəb ölkələri ilə də əlaqələr yüksələn xətlə inkişaf edir. 2004-cü ildən başlayaraq Prezident İlham Əliyevin Ərəb ölkələrinə bir sıra rəsmi dövlət səfərləri baş tutdu: 2004-cü ildə Qətərə, 2005-ci ildə Səudiyyə Ərəbistanı Krallığına, 2006-cı ildə Birləşmiş Ərəb Əmirliklərinə, 2007-ci ildə Misir Ərəb Respublikasına və İordaniya Haşimilər Krallığına, 2009-cu ildə Küveytə. Bütün bu səfərlər zamanı ikitərəfli əməkdaşlığın perspektivləri müzakirə edilmiş, birgə bəyannamələr qəbul olunmuş, bir sıra mühüm müqavilələr və sazişlər imzalanmışdır. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi və Azərbaycanın işğal edilmiş ərazilərində yaranmış vəziyyət xüsusi müzakirə obyekti olmuşdur. Azərbaycan hökuməti ilə bir sıra ərəb ölkələri hökumətləri arasında əməkdaşlığa dair Birgə Komissiyalar yaradılmışdır.

Aparılmış böyük işlərin, yaradılmış mühüm əlaqələrin və qarşılıqlı faydalı əməkdaşlığın nəticəsidir ki, 2008-ci ilin 14 mart tarixində BMT-nin Baş Assambleyasının 62-ci sessiyasında «Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət» adlı qətnamənin qəbul olunmasına dair keçirilən səsvermədə bir çox müsəlman ölkələri Azərbaycanın mövqeyini dəstəkləmişdir.

Beləliklə, islam aləmi problemlərimizlə yaxından tanışdır və bizi dönmədən dəstəkləyir. Bu ilk növbədə Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilmiş düzgün xarici siyasətin nəticəsidir.

2005-ci ilin 17-19 mart tarixində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Çin Xalq Respublikasına dövlət səfəri edib. Martın 17-də iki ölkənin dövlət başçılarının rəhbərliyi ilə geniş tərkibdə Azərbaycan-Çin danışıqları keçirilib. Daha sonra Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında birgə bəyannamə imzalandı. Martın 17-də Azərbaycan və Çin rəsmiləri arasında Azərbaycan Gənclər, İdman və Turizm Nazirliyi ilə Ümum-

çin Gənclər Federasiyası arasında gənclərlə iş üzrə əməkdaşlıq haqqında saziş, Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Şirkəti ilə Çin Mərkəzi Televiziyası arasında saziş, Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi ilə Çin İnformasiya Sənayesi Nazirliyi arasında qarşılıqlı əlaqələr haqqında Memorandum, habelə, Azərbaycan hökuməti ilə Çin hökuməti arasında texniki-iqtisadi əməkdaşlıq haqqında saziş və digər ikitərəfli sənədlər imzalanıb. Səfər zamanı keçirilən bütün görüşlərdə Azərbaycan və Çin dövlətləri arasında əməkdaşlığın istiqamətləri müzakirə edilib və bu sahədə geniş perspektivlərin olduğu müəyyənləşdirilib.

Azərbaycan Prezidenti İlham Əliyevin 8-11 mart 2006-cı ildə Yaponiyaya etdiyi rəsmi səfərdən sonra iki ölkə arasındakı siyasi-iqtisadi münasibətlər yeni inkişaf mərhələsinə qədəm qoyub. Bu səfər iki ölkə arasında əlaqələrin daha da inkişaf etdirilməsinə rəvac verib. Səfər çərçivəsində keçirilən iqtisadi forumda Prezident İlham Əliyev nitq söylədi və Yaponiya şirkətlərini Azərbaycanda daha geniş fəaliyyət göstərməyə, xüsusilə qeyri-neft sektorunun inkişaf etdirilməsi üçün yeni texnologiyaların gətirilməsində iştirak etməyə çağırdı. Prezident İlham Əliyev kənd təsərrüfatı, təhsil, səhiyyə sahəsində ölkəmizdə konkret proqramlar həyata keçirildiyini söyləyərək Yaponiyanı təmsil edən şirkətlərin bu sahədə fəal iştirak etmələrini arzuladı.

Forumun nəticəsi olaraq, hər iki ölkəni təmsil edən bəzi şirkətlər arasında bir neçə milyon dollarlıq müqavilələr imzalandı. Martın 10-da Yaponiya Baş nazirinin iqamətgahında ikitərəfli sənədlərin imzalanma mərasimi oldu. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Yaponiyanın Baş naziri Dzünitiro Koidzumi «Azərbaycan Respublikası və Yaponiya arasında dostluq və əməkdaşlığın gələcək inkişafı haqqında birgə Bəyannamə» imzaladılar. Sonra Azərbaycanın iqtisadi inkişaf naziri və Yaponiyanın ölkəmizdəki səfiri Tadahiro Abe «Azərbaycan Respublikasının Hökuməti və Yaponiya Hökuməti arasında texniki əməkdaşlıq haqqında saziş»i, Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov və səfir Tadahiro Abe «Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi və Yaponiya Xarici İşlər Nazirliyi arasında əməkdaşlıq proqramı»nı imzaladılar .

2007-ci ilin aprel ayında Prezident İlham Əliyev Koreya Respublikasına rəsmi dövlət səfəri etdi. Səfər zamanı aparılmış danışıqlar, müzakirələr, görüşlər nəticəsində prezidentlər İlham Əliyev və Ro Mu Hyun Azərbaycan Respublikası və Koreya Respublikası arasında Birgə bəyannamə imzaladılar. Daha sonra Azərbaycan Respublikası Hökuməti ilə Koreya Respublikası Hökuməti arasında sərmayələrin təşviqi və qorunması haqqında saziş, Elektron hökumətin formalaşdırılması sahəsində əməkdaşlıq üzrə anlaşma Memorandumu, İntellektual nəqliyyat sistemi sahəsində əməkdaşlıq üzrə anlaşma Memorandumu, Fövqəladə halların idarə olunması sahəsində əməkdaşlıq haqqında

anlaşma Memorandumu və digər sənədlər imzalandı. Prezident İlham Əliyev Azərbaycanın Koreya şirkətləri ilə əməkdaşlığa maraq göstərdiyini, gələcəkdə, əsasən energetika, nəqliyyat, kənd təsərrüfatı, informasiya texnologiyaları sahəsində əməkdaşlığın genişləndirilməsinə hazır olduğunu bildirdi. Aprelin 24-də Seulda Azərbaycan və Cənubi Koreya iş adamlarının biznes forumu keçirildi. Azərbaycan Prezidenti İlham Əliyev forumda iştirak edərək, geniş nitq söylədi.

Regionun digər ölkələri ilə (Hindistan, İndoneziya, Malayziya və s.) də əlaqələr yaradılır, səfirliklər açılır, qarşılıqlı səfərlər həyata keçirilir, müqavilələr və digər sənədlər imzalanır, müxtəlif sahələrə aid əməkdaşlıq edilir.

2011-ci il.

АРАБИСТИКА В СОВЕТСКОМ АЗЕРБАЙДЖАНЕ

Истоки востоковедения, в частности, арабистики в Азербайджане, уходят корнями в глубь веков. Это определялось всем ходом исторического развития Азербайджана, тесно связанного с историей стран Ближнего и Среднего Востока.

Конец 50-х годов XX в. ознаменовался важным событием в научной и культурной жизни республики: по инициативе Совета Министров Азербайджанской ССР и при содействии Академии наук СССР в марте 1958 г. на базе отдела истории стран зарубежного Востока Института истории АН Азерб.ССР был создан Институт востоковедения, призванный стать центром научно-исследовательских работ в различных областях востоковедения. Перед востоковедами республики была поставлена конкретная задача - продолжить имеющиеся традиции и создать качественно новую школу - школу национальных кадров для изучения актуальных проблем, особенно в тех областях, которые в силу ряда причин не могли быть реализованы в предыдущие годы. Это касалось, прежде всего, арабистики, особенно в период, когда на Арабском Востоке развернулась национально-освободительная борьба, приведшая к крушению колониализма на Ближнем Востоке.

Исторически Азербайджан на протяжении длительного периода находился в тесной взаимосвязи со странами этого региона. В задачу арабистов республики входило изучить процессы, происходившие в арабских странах, внести свою лепту в освещение некоторых страниц истории Азербайджана (это касается в основном периода, когда Азербайджан входил в состав халифата), создать фундаментальную базу для дальнейших исследований в различных областях арабистики.

Исходя из цели и задач развития арабистики в республике, активно включился в подготовку кадров-арабистов восточный факультет Азербайджанского Государственного университета, где в 1957 году начинает функционировать арабское отделение. Как нельзя более своевременным было издание учебника арабского языка А.Дж.Мамедова, выдержавшего несколько изданий и выдвинутого на Государственную премию СССР в области науки и техники за 1981 год.

Первый выпуск арабского отделения состоялся в 1962 г. и почти полностью был привлечен к научно-исследовательской работе в Институте востоковедения АН Азерб.ССР. Все последующие годы институт постоянно уделял серьезное внимание количественному и качественному росту

арабистов. Если до 1958 г. в республике, можно сказать, почти не было арабистов высшей квалификации - докторов и кандидатов наук, то в настоящее время армию арабистов республики представляют один академик республиканской Академии наук /З.М.Буниятов/, 3 доктора наук, профессора, /А.Дж.Мамедов, В.Мамедалиев, М.Р.Махмудов/, и свыше 20 кандидатов наук. В настоящее время около 40 научных сотрудника Института народов Ближнего и Среднего Востока изучают историю, экономику, общественную мысль и литературу арабских стран.

Проблема национально-освободительной борьбы и революционного процесса на Арабском Востоке была и остается в центре внимания ученых института. Она нашла свое освещение в целом ряде работ: «Иракская коммунистическая партия в борьбе за независимость и демократию /1934-1963 гг./» - Т.Б.Гасанов, «Борьба Национального Фронта за независимость и прогрессивное развитие Народной Демократической Республики Йемен /1963-1975 гг./» - И.А.Асадов, «ПАСВ в борьбе за независимость Сирии» - Г.Т.Кочарли, «Распространение идей социализма в НДРЙ» - Р.Я.Алиев, «Проблема национального единства в официальной идеологии Арабской Республики Египет /1952-1970 гг./» - Р.А.Мурсалов, «Развитие демократической мысли в Иракской республике /1965-1975 гг./» - З.К.Дадашева и др. Все эти работы вошли в коллективные темы «Формы и методы антиимпериалистической борьбы в Иране, Турции и арабских странах на современном этапе» и «Распространение идей социализма и разоблачение антикоммунизма в странах Ближнего и Среднего Востока». В этих работах исследуются социальные основы и движущие силы антиимпериалистической борьбы в арабских странах, типология социальных революций, проблемы революционного авангарда, роль и место арабских стран в современном мировом развитии и международных отношениях, освещаются проблемы идеологической жизни и борьбы в арабских странах, пути социального прогресса, в частности, некапиталистического развития, его специфических особенностей и возможных эволюций.

Наряду с актуальными проблемами современного Арабского Востока, которые находятся в центре внимания, интересные исследования проводятся в Институте и в области медиевистики. Здесь основной акцент делается на изучение народных движений и государственных образований на Ближнем и Среднем Востоке в средние века, а также проводится источниковедческая работа, имеющая целью ввести в научный обиход арабоязычные источники, доступные лишь узкому кругу специалистов. В свете вышеназванной проблематики историки-арабисты института под руков-

одством академика З.М.Буниятова подготовили ряд работ, среди которых следует упомянуть «Обзор источников по истории Азербайджана (арабские источники)» - З.М.Буниятов, «Азербайджан в VП-IX вв.» - З.М.Буниятов, «Сокращение /книги о/ «памятниках» и чудеса царя могущественного» – З.М.Буниятов, «Жизнеописание султана Джалал ад-Дина Манкбурны» ан-Насави» - З.М.Буниятов. «Государство Атабеков Азербайджана /1136-1225 гг./» - З.М.Буниятов, «Сведения арабских географов-путешественников IX-XП вв. об Азербайджане» Н.М.Велиханлы, «Секта азракитов» Э.Р.Агаевой, «Государство Тулунидов» А.Алиева, «Государство Ихшидидов» Р.Исмайлова, «Восстание зинджей в Аббасидском халифате» Э.Э.Ализаде, «Сведения об Азербайджане и Средней Азии по летописному своду ат-Табари «История пророков и царей» - Дж.А.Искендерова и др. Особая значимость этих работ определяется тем, что в них впервые освещаются неисследованные периоды средневековой истории народов Советского Востока, в частности, Азербайджана, и сопредельных стран, даются ценные сведения о традициях народов Востока, о тесных культурных связях между народами той эпохи.

Оригинальные работы академика З.М.Буниятова (монографии и переводы с комментариями сочинений средневековых арабских авторов) по истории Закавказья и Центральной Азии с научной достоверностью освещают малоизвестные события и факты средневековья.

Все более расширяющееся и крепнущее экономическое сотрудничество СССР с развивающимися странами выдвинуло задачу изучения особенностей экономического развития арабских стран после второй мировой войны. В соответствии с этим в институте разрабатываются темы: «Экономическая политика правительства АРЕ - в 1960-1970 г.г.» - С.М.Фахрадов, «Нефтяная промышленность АРЕ» - Г.Гусейнов, «Проблема внешнего финансирования экономического развития АРЕ в 1970-е годы» - В.И.Рагимов, «Внешнеэкономические связи Сирийской Арабской Республики» -Г.М.Аскерова, «Развитие транспорта в Иракской республике»- Р.А.Мамедов, «Социально-экономическая политика ПАСВ в 1968-78 гг.» - К.А.Рзаев и др., находящиеся в стадии разработки. Экономические исследования арабистов ставят своей целью изучение конкретных, специфических особенностей, а также наиболее общих закономерностей экономического развития арабских стран после достижения ими политической самостоятельности. Практическая значимость этих работ заключается в том, что в них содержится информация о тенденциях социально-экономического развития изучаемых стран.

Elmi istiqamətlər çərçivəsində işlər əsasən iki yolla aparılır. Bunlardan birincisi, şərqşünaslıq elminin əsasını təşkil edən Şərq tarixinin, mədəniyyətinin, bədii təfəkkür tərzinin, ictimai və fəlsəfi fikirlərinin ən vacib və aktual aspektlərini öyrənən fundamental tədqiqatların aparılmasıdır. İkincisi isə, elmi dəyəri ilə yanaşı, geniş oxucu kütləsini maraqlandıran elmi-populyar əsərlərin, eləcə də cari dövr üçün siyasi və ictimai əhəmiyyəti olan və elmi proqnozlar verən təhlili - informatik məlumatların hazırlanmasıdır.

Əməkdaşlarımız müasir Qərb sivilizasiyasına tarixi təkamül prosesində çoxəsrlik Şərq mədəniyyətinin təsiri, Qərbin sürətli iqtisadi-texniki və mədəni tərəqqi təcrübəsinin Şərq ölkələrində məqsədyönlü şəkildə tətbiqi imkanlarını, qloballaşma şəraitində Şərq-Qərb münasibətlərinin ziddiyyətli məqamlarını, onların mahiyyətini və aradan qaldırılma yollarını araşdırırlar. Alimlərimiz Şərqlə Qərbin qovuşduğu bir məkanda yerləşən ölkəmiz üçün müstəqillik şəraitində Qərb mədəniyyətinə yiyələnməklə milli mədəniyyətin fundamental dəyərlərini və mütərəqqi cəhətlərini qoruyub saxlamaq yollarını arayırlar. Ötən dövrdə yeni şəraitin tələbləri nəzərə alınmaqla institutda yeni «Şərq-Qərb» və «Mərkəzi Asiya və Uzaq Şərq» şöbələri yaradılmış, bir vaxtlar əsassız olaraq ləğv edilən «Cənubi Azərbaycan» şöbəsi bərpa edilmişdir. 90-cı illərin ikinci yarısından etibarən institutun elmi planlarında Azərbaycanşünaslıq istiqamətində mühüm dəyişikliklər edilmişdir. Əməkdaşlarımız ilk növbədə ərəbdilli və farsdilli Azərbaycan alimlərinin və ədiblərinin yaradıcılığına dair tədqiqatlar aparır, Azərbaycan tarixinə, mədəniyyətinə, dilinə, ictimai-fəlsəfi

fikrinə dair ərəb və fars dilində olan qaynaqların tapılıb araşdırılması üçün səmərəli fəaliyyət göstərirlər.

Tədqiqat planlarımıza ilk növbədə Azərbaycanın ərazi bütövlüyünün müdafiəsinə yönəlmiş, xalqımızın tarixinə və mədəni inkişaf məsələlərinə töhfələr verə biləcək əsərlər salınıb. Təəssüf ki, bir məqalədə bu istiqamətdə apardığımız tədqiqatlar, gördüyümüz işlər barədə konkret məlumat vermək imkan xaricindədir.

Son 8 ildə Azərbaycan Prezidenti İlham Əliyevin apardığı uzaqgörən və tarazlaşmış xarici siyasəti və bu siyasətdə Şərq ölkələrinin mühüm yer tutduğunu nəzərə alaraq «Prezident İlham Əliyevin Şərq siyasəti» adlı irihəcmli monoqrafiya tədqiqat planlarımıza salınıb. Azərbaycanda «dövlət-din-cəmiyyət» münasibətlərində görülən böyük işləri, əldə edilmiş nailiyyətləri və bunların bir çox Şərq ölkələri üçün örnək ola biləcəyini nəzərə alaraq, bu istiqamətdə də geniş araşdırma aparılır. Türkdilli xalqların inteqrasiyası sahəsində müstəqil Azərbaycanda dövlət səviyyəsində görülən işlər də tədqiqat obyektinə çevrilmişdir. Kollektivimiz hesab edir ki, Azərbaycanın müasir sosial-iqtisadi və mədəni inkişafı, qazandığı uğurlar təbliğ olunmalı və tədqiq edilərək Şərq cəmiyyətlərinə bir model kimi təqdim olunmalıdır. Bunun Şərq xalqları üçün böyük əhəmiyyəti və faydası olacaq. Bu baxımdan, ilk addım kimi, 2010-cu il mart ayının 17-18 tarixlərində «Müasir Şərq ölkələrinin sosial-iqtisadi inkişafı və Azərbaycan modeli» adlı beynəlxalq konfrans təşkil edilmişdir.

Hazırda dünyanın diqqət mərkəzində regional münaqişələr və terrorizm problemləri, etnokonfessional münasibətlər və demoqrafiya məsələləri, islam fundamentalizmi və radikal islami qruplaşmalar kimi mövzular dayanır ki, bunların da əsas meydanı Şərqdir. Azərbaycan bir tərəfdən Yaxın və Orta Şərq regionuna yaxındır, digər tərəfdən Avrasiya geosiyasi məkanına daxildir. Belə olan halda aparıcı Şərq ölkələrində gedən proseslərin elmi araşdırılmasının ölkəmiz üçün əhəmiyyətini sübut etməyə ehtiyac varmı? Son aylarda Ərəb dünyasında baş verən siyasi təlatümləri nəzərə alsaq, bu ehtiyac qat-qat artır. Bir qədər öncə keçirdiyimiz «Yaxın və Orta Şərq ölkələri son hadisələr işığında» elmi-nəzəri konfrans da məhz bu zərurətdən doğmuşdur.

Azərbaycanın tarixi, mədəniyyəti, ədəbiyyatı, incəsənəti müsəlman Şərqinə qırılmaz tellərlə bağlıdır, cəmiyyətimizdəki bir sıra mental xüsusiyyətlər, sosial-psixoloji faktlar islam dinindən qaynaqlanır. Bütün bunlar Azərbaycan şərqşünaslığının öyrənməli olduğu məsələlərdir.

Müasir mərhələdə Şərqşünaslıq İnstitutu ənənəvi İran-Türkiyə-Ərəb ölkələri üçbucağından çıxmalıdır. Bunu həm müstəqil dövlətimizin beynəlxalq mövqeyi və əlaqələri, həm də bu elmin inkişaf perspektivləri tələb edir. Belə

ki, biz artıq Şərq anlayışına qonşu müsəlman dövlətləri çərçivəsində yanaşa bilmərik. Ölkəmizin Çin, Yaponiya, Cənubi Koreya, Hindistan, Pakistan, Mərkəzi Asiya dövlətləri ilə günbəgün genişlənən əlaqələri bu regionun öyrənilməsini də zəruriləşdirir. İnkişafın özünəməxsus modelini tapmış Malayziya, Cənub-Şərqi Asiya ölkələrinin tədqiqi də bizim üçün önəmlidir. Yenicə təşkil edilmiş «Mərkəzi Asiya və Uzaq Şərq ölkələri araşdırmaları» şöbəsi məhz bu sahədə ixtisaslaşacaqdır.

Daha bir məsələ. Azərbaycan Respublikası bütün dünya azərbaycanlılarının dövlətidir. Bunu cənab İlham Əliyevin «Mən 50 milyonluq Azərbaycan xalqının prezidentiyəm» sözləri də təsdiq edir. Bu xalqın böyük bir hissəsi Arazın o tayında - İran İslam Respublikasında yaşayır. Düşünürəm ki, Cənubi Azərbaycanda yaşayan soydaşlarımızın ictimai-siyasi və mədəni inkişafının öyrənilməsi də bizim institutumuzun prioritet istiqamətindən biri olmalıdır. Nəzərə alaq ki, cənubi azərbaycanşünaslıq elmi istiqamət kimi məhz Şərqşünaslıq İnstitutunda yaranıb və bu gün də uğurla inkişaf edir. Bir sözlə, Şərqşünaslıq İnstitutu bu gün müstəqil Azərbaycanın milli və dövlət maraqlarına xidmət edən zəruri bir elmi tədqiqat mərkəzi olmaqla yeni dövrün tələblərilə ayaqlaşan inkişaf mərhələsinə qədəm qoyub.

«Şərqşünaslıq İnstitutu müstəqillik illərində» mövzusunda elmi sessiyada məruzə.17 oktyabr 2011-ci il.

MİLLİ RUHUN TƏNTƏNƏSİ

Məhəmmədhüseyn Şəhriyar Azərbaycan və İran poeziyasının ən nəhəng simalarından biridir, qüdrətli söz ustadı, XX əsr Azərbaycan və fars ədəbiyyatının iftixarıdır. Şairin poeziyası dövrün ictimai, siyasi, fəlsəfi və ədəbi görüşlərinin canlı aynasıdır. Onun ölməz irsi əbədidir, nəinki Şərq, dünya mədəniyyəti və ədəbiyyatı xəzinəsinin nadir incisidir. Ecazkar poeziyası ilə ürəkləri fəth etmiş şair geniş kütlələrin sonsuz məhəbbətini qazanmışdır. Onun şeirləri dildən dilə düşmüş, bir çox dillərə tərcümə olunmuş, insanların ruhunu oxşamışdır. Bu gün ölkəmizdə çətin elə bir insan tapıla ki, Şəhriyar poeziyasının vurğunu olmasın, onun şeir nümunələrini bilməsin.

Böyük öndərimiz H.Əliyev müsahibələrin birində: «Sevdiyiniz şair?» – sualına – «Şəhriyar», - cavab vermişdir.

Nədir Şəhriyar poeziyasını bu qədər insanlara sevdirən, onu populyarlaşdıran, dillərdə əzbər edən, çox sevilən mahnıların sözlərinə çevirən?

Bu ilk növbədə Şəhriyar şerinin fikir zənginliyi, bədii saflığı və səmimiyyətidir. Ümumbəşəri ideyaları yorulmadan tərənnüm edən şair insanları sülhə, bərabərliyə, xeyirxahlığa, mənəvi təmizliyə çağırır. Şəhriyar yaradıcılığında ümumbəşərilik, humanizm, insana böyük məhəbbət geniş əks olunmuşdur:

İnsanlarıq, insanlığı xoşlayın,
Bir millətik, birləşməyə başlayın,
Bu xan-xanlıq hökümətin boşlayın,
Bu gün gərək bəşər olsun bir millət,
Bir millətə olarmı yüz hökümət?!

Qloballaşan, sərhədsizləşən dünyamız üçün nə qədər aktual sözlərdir. İnsanpərvərlik, vətənpərvərlik və xəlqilik Şəhriyar yaradıcılığının ana xəttini təşkil edir. O ənənəvi qəzəl şairindən fars dilində romantik şeirin gözəl nümunələrini, daha sonra isə ana dilində dahiyanə realist tablolar yaratmış mahir sənətkaracan böyük yaradıcılıq yolu keçmişdir.

Şəhriyar poeziyası sənətkarlıq baxımından da yüksələn xətlə inkişaf etmişdir. O, novator şair kimi də özünü göstərmişdir. Klassik şer formasından geniş istifadə edən şair, özünü yeni şeirin də nümayəndəsi saymışdır. Onun sərbəst formada yazdığı şeirləri də gözəl sənət nümunələridir.

Şairin poetik dünyası zəmanəsinin ensiklopediyası olmaqla yanaşı bütün dövrlər üçün müasir olan əbədi mövzuları da əhatə edir.

Biz azərbaycanlılara şairi xüsusi sevdirən onun anadilli poeziyasına hopmuş milli ruhun poetik ifadəsidir. Milli ruh şairin anadilli poeziyasının həm

ideya-məzmun, həm də bədii-estetik xüsusiyyətlərində parlaq əksini tapıb. Şair ən ülvi insani duyğuları tərənnüm edərək oxucusunu mənəvi yüksəkliklərə səsləyir. Şəhriyarın şer dili – sadəliyi, ilkinliyi ilə qəlbləri fəth edir, şirin bir ana laylası kimi qulaqlarımızda səslənir:

Heydərbaba, Nənəqızın gözləri,
Rəxşəndənin şirin-şirin sözləri,
Türki dedim, oxusunlar özləri,
Bilsinlər ki, adam gedər, ad qalar,
Yaxşı-pisdən ağızda bir dad qalar.

Yaxud:

Qarı nənə gecə nağıl deyəndə,
Külək qalxıb qap-bacanı döyəndə,
Qurd keçinin Şəngülüsün yeyəndə
Mən qayıdıb bir də uşaq olaydım,
Bir gül açıb, ondan sora solaydım.

Şəhriyar poeziyası – bütövlükdə milli azərbaycanlı ruhunun təntənəsidir. Şəhriyarın füsünkar şeir aləmi, sehrli poetik dünyası büsbütün millidir, ruhumuzu oxşayır, oxucuya müqəddəs insani duyğuları, ülviyyəti aşılayır, ədalətə və azadlığa çağırır, məhəbbət və mərhəmət öyrədir. Şairin fikir dünyası olduqca genişdir, hətta sonsuzdur, insanı qanadlarına alaraq keçmişə, bugünə və sabaha aparır, Heydərbabanın qoynuna, xoşbəxt uşaqlıq çağlarına qaytarır, bugünün qayğılarını yada salır, sabahın müjdəsini verir. Şəhriyar poeziyasında hər birimizin ağlından və ürəyindən keçən, qəlbimizdəki zərif duyğular dahiyanə əksini tapır:

Heydərbaba, dünya yalan dünyadı,
Süleymandan, Nuhdan qalan dünyadı,
Oğul doğan, dərdə salan dünyadı,
Hər kimsəyə hər nə verib alıbdı,
Əflatundan bir quru ad qalıbdı.

Ayrılıq motivləri dərin iz buraxmışdır Şəhriyar yaradıcılığında. Mən deyərdim ki, Şəhriyarın bu mövzuda yazdığı şeirlər bütöv bir epoxanın rəmzinə çevrilmişdi:

Arazım vursun baş daşdan-daşa,
Göz yaşı gərək başlardan aşa,
Necə yad olsun qardaş qardaşa?

Nə din qanır, nə iman ayrılıq,
Aman, ayrılıq, aman, ayrılıq!

Birliyə çağırış çox güclüdür Şəhriyar yaradıcılığında. «Birlik yaradın, söz bir olar biz kişilərdə», - misrası dillərdə əzbərdir.

Şəhriyar yaradıcılığında ana dilinə məhəbbət çox gözəl ifadə olunub:

Türkün dili tək sevgili, istəkli dil olmaz,
Ayrı dilə qatsan bu əsil dil əsil olmaz.

Şəhriyarın yaradıcılığı həmişə tədqiqatçıların diqqət mərkəzində olub. Ayrı-ayrı vaxtlarda Ə.Atəş, Q.Beqdeli, H.Billuri, Böyük Nikəndiş, B.Budaqov, Əliməmməd Əbülfəzl, Cəmşid Əlizadə, İsa Həbibbəyli, Həsənəli Məhəmmədi, Əhməd Kaviyanpur, H.Qasımov, E.Quliyev, Barfiruş, Məhəmmədbağır Nəcəfzadə, Mübəyyin Məhəmmədhüseyn, Zilli Məniçöhr, Hüseyn Münzəvi, B.Nəbiyev, Fəthi Nüsrətullah, N.Rizvanov, Y.Şeyda, E.Şükürova, E.Quliyev və digərləri Şəhriyarın həyat və yaradıcılığı haqda dəyərli əsərlər yazmışlar.

İnanırıq ki, bu işlər yenə də davam etdiriləcək. Böyük öndər Heydər Əliyevin dediyi kimi: «Dahi sənətkarın yaradıcılığının dərindən öyrənilməsi, tədqiq və tədris edilməsi sənət və elm xadimlərimizin müqəddəs borcudur».

Və son olaraq aşağıdakı misraları səsləndirmək istərdim:

Evlər qalır, ev sahibi yox özü,
Ocaqların ancaq işıldar közü,
Gedənlərin az-çox qalıbdır sözü,
Bizdən də bir söz qalacaq, ay aman!
Kimlər bizdən söz salacaq, ay aman!

Bəli, şairdən ölməz söz qalır və bu əbədiyyətə qədər belə olacaq. Nə qədər ki, xalqımız var, Şəhriyar sözü qalacaq, yaradıcılığı yaşayacaq və onun haqda yenə və yenə söz salınacaq, irsi tədqiq olunacaq, yeni-yeni əsərlər yaranacaq. Şəhriyar irsi dilimizi, xalqımızı yaşadacaq, xalqımız isə Şəhriyar irsinin varlığının təminatçısı olacaq. Və beləliklə də, özü demişkən «el məşəli», «əbədiyyət gülü» Şəhriyar sonsuzluğa qədər yaşayacaq.

«Ədəbiyyat qəzeti», 9 dekabr 2011-ci il.

MƏRUZƏLƏR

NİZAMİNİN BİR ƏRƏB MƏNBƏYİ HAQQINDA

Dahi Nizaminin «Xəmsə»sinə daxil olan beş poemanı oxuduqca bunun şahidi oluruq ki, o hər bir əsərini yazmadan əvvəl xeyli axtarışlar aparmış, ayrı-ayrı dillərdə olan mənbələri, yazılı sənədləri öyrənmişdir. Şirvan hökmdarı Axsitanın (1187-1196) artıq iki şöhrətli məsnəvi – «Sirlər xəzinəsi» və «Xosrov və Şirin» – müəllifi olan Nizami Gəncəviyə yeni əsər barədə sifarişi konkret idi. O, ümumiyyətlə, məhəbbət mövzusunda bir məsnəvi deyil, Məcnunun Leyliyə olan məhəbbətindən bəhs edən bir məsnəvi yazmağı sifariş vermişdir. Bu da Nizami dövründə Məcnun rəvayətinin necə geniş yayıldığına dəlalət edir. Təbii ki, Məcnun mövzusundan yazmalı olan Nizaminin müraciət etməli, vərəqləməli olduğu ilk və ən mühüm mənbələrdən biri məhz X əsr məşhur ərəb ədəbiyyatçısı və musiqiçisi Əbülfərəc İsfahaninin «Nəğmələr kitabı»nın («Kitab əl-ağani») Məcnunla bağlı iki fəsli olmalıydı. Çünki Əbülfərəc bu fəsillərdə Məcnunun və Leylinin nəsli, Məcnunun Leyliyə olan sevgisinin tarixçəsi, Məcnunun şeir yaradıcılığı ilə bağlı ən müxtəlif qaynaqların verdiyi maraqlı xəbərləri, hətta, yeri düşəndə ziddiyyətli məlumatları belə toplayıb. Məcnunun bütün şeirləri bir mövzunu tərənnüm edir – Leylini, onun gözəlliyini, şairin ona olan coşğun məhəbbətini, sevgi xatirələrini. Məcnun Leyli ilə uşaqlıqda birgə olduğu günləri yada salır, kiminsə «Leyli» deyərək başqasını səslədiyi və bu sözün onda oyatdığı çılğın hissləri söyləyir, xoşbəxt günlərinin şahidi olan ət-Təübəd dağına müraciət edir, gözləri sevgilisinin gözlərini xatırladan ovçu toruna düşmüş ceyrandan söhbət açır, sevgilisindən vüsal diləyir. Onun ehtiras dolu şeirləri şəhvani hisslərə yaddır. Bu şeirlər orta əsr ərəb poeziyasının ən cazibəli istiqamətlərindən olan ərəb üzri məhəbbət poeziyasının örnəkləridir, onların hər birində bu poeziyaya xas olan mühüm əlamətlər – ülvi məhəbbət, platonik eşq, sevginin keşməkeşli yolları və faciəli aqibəti kimi zərif notlar qabarıqdır. Məcnunun şeirləri insan hisslərinin ən alisinə - məhəbbətə, onun həyatverici qüdrətinə, demək olar ki, əbədi bir nəğmədir.

Bu şerlərdə təbiət ilə insan duyğuları arasında da bir vəhdət var. Məsələn, dağ da qəhrəmanın dərdinə ağlayır. Leylinin obası köçəndə ayrılıq qarğası bəd xəbər gətirir, səhrada vəhşi heyvanlar sanki şairin məhəbbətinin gücünə səcdə edərək, onun gəlib ayaqları önündə uzanırlar. Məhz bu şerlərdəki məhəbbətin böyüklüyü, onun hər şeyə, hətta ölümə belə qalib gəlməsi Məcnun dastanına ümumbəşəri əhəmiyyət verir.

Nizaminin «Leyli və Məcnun»u yazarkən üz tuta biləcəyi yazılı mənbələr içərisində İsfahaninin «Nəğmələr kitabı» ən vacib mənbələrdən biridir. Bunu rus alimlərindən Y.Bertels, İ.Kraçkovski və B.Şidfar da etiraf ediblər. Bu

baxımdan Əbülfərəcin Məcnuna həsr etdiyi fəsillərin tərcüməsi və öyrənilməsi nizamişünaslığımız üçün də əhəmiyyətli bir istiqamətdir. Çünki həmin fəsillərlə tanış olandan sonra görürük ki, doğrudan da Nizami Əbülfərəcin gətirdiyi bir sıra əhvalatları şeirləşdirmiş, məsnəvisi boyu istifadə etmişdir. Ancaq Nizami «Nəğmələr kitabı»ndakı bir para Məcnun ünvanlı rəvayətlərin də üstündən keçmiş, onları poemasına daxil etməmişdir.

Məlumdur ki, Nizami Qeysi əslində dövrünə sığmayan, vaxtından yüksəkdə dayanan bir mütəfəkkir kimi təsəvvür və təqdim edir, məcnunluğu zəmanənin ona vurduğu damğa sayır. Bu cəhətdən Əbülfərəc İsfahaninin verdiyi bir məlumat diqqətə layiqdir: «Əl-Əsmai (məşhur ərə filoloqu – G.B.) deyirdi ki, Məcnun dəli olmayıb. O, yalnız sərgərdan olması ilə seçilirdi».

Əbülfərəc Məcnun təxəllüsü ilə yazan bir neçə ərəb şairinin olması barədə əhvalatları nəql edib, onların şeirlərindən parçalar verəndən sonra, Qeys ibn Müləvvəhin Leyliyə olan sevgisi barədə topladığı rəvayətləri gətirir. O bu və ya bu qəbildən olan məlumatların hamısını konkret hadisələr, rəvayətlərlə dəqiqləşdirir. Eyni məsələ haqqında bəzən bir neçə əhvalat nümunə gətirir, ayrı-ayrı qaynaqlardan topladığı Məcnun şeirləriylə bu əhvalatları əlaqələndirir.

«Nəğmələr kitabı»nın bir məziyyətini də xüsusi qeyd etmək lazımdır. Əbülfərəc adətən kitabına daxil etdiyi bütün rəvayətləri kimlərdən eşitdiyini göstərməyi vacib sayır. İndi adi oxucu bütün o ad sadalamalarını mətni nisbətən ağırlaşdıran cəhət kimi də qiymətləndirə bilər. Lakin unutmayaq ki, məhz bu cəhət Əbülfərəcin söhbət açdığı mövzu ilə bağlı axtarışlarının nə qədər ardıcıl olmasına dəlalət edir. Digər tərəfdən, həmin söhbətlərin inanımlıq dərəcəsini artırır, əfsanə və ya real hadisə olmasından asılı olmayaraq, canlı mənbələrə arxalandığını bəyan edir.

Ancaq bunu da qeyd etmək lazımdır ki, Əbülfərəcin Məcnun hekayətləri fraqment xarakteri daşıyır, dahi Nizaminin «Leyli və Məcnun»u kimi aşiqin məntiqcə bütöv, tamamlanmış sevgi tarixçəsi deyil. Bununla belə, «Nəğmələr kitabı»nın ayrı-ayrı hissələri Nizaminin «Leyli və Məcnun»una elə yaxındır ki, onlar əsərin mənbə baxımından tədqiqində böyük əhəmiyyət kəsb edir və böyük sənət incisi – «Leyli və Məcnun» poemasının yaranmasında Nizaminin necə dahi söz ustadı olduğuna, ərəb mənbəyinin ayrı-ayrı, çox vaxt sadə və bəsit fraqmentlərindən necə dahiyanə istifadə etməsinə bir daha tutarlı sübutdur.

Burada isə yalnız bir neçə oxşar məqamlardan söz açmaqla kifayətlənəcəyik. Bu zaman Nizami poemasının 1981-ci ildə Bakıda çap olunmuş filoloji tərcüməsinə (Nizami Gəncəvi. «Leyli və Məcnun», filoloji tərcümə, izahlar və qeydlər M.Əlizadənindir. Bakı, 1981) və Əbülfərəc İsfahaninin «Ki-

tab əl-ağani» əsərinin İbrahim əl-Əbyari nəşrinə istinad edərək gətirdiyimiz örnəklərin yanında qısa şəkildə müəllifin adını və səhifələri göstərəcəyik. Qeyd edək ki, Nizaminin poemasında Əbülfərəcin əsərinə bilavasitə isnad var. Şair yazır:

Fars oğlu fəsahətli şirindil dehqan,
Ərəbin əhvalını belə xatırlayır ki, ...
(Nizami, səh. 141)

Görünür, Əbülfərəcin «əl-İsfahani» nisbəsi və şiəlik mənsubiyyəti şairə onu «fars oğlu» adlandırmağa imkan verib.

Nizaminin də, Əbülfərəcin də Qeysi Ərəbistan yarımadasında məskən salmış Bənu Amir qəbiləsinə mənsubdur.

Nizaminin Qeysi zahirən çox gözəldir. Şair yazır:

Yaşı yeddidən ona çatdıqca,
Camalı xalqın dilinə düşdü.
(Nizami, səh. 62)
O, ağıl və fəsahətlə seçilir:
Hünərli Qeys dərs oxumaqda,
Yaqut dodağı inci səpməkdə idi.
(Nizami, səh. 63)

Əbülfərəc öz qəhrəmanını belə təsvir edir: «O hamıdan gözəl, incəqəlbli idi, ərəb şeirini hamıdan yaxşı bilirdi, söhbət əsnasında yaxşı müsahib idi» (İsfahani, səh. 462).

Nizaminin Leylisi:

Elə bir şux dilbər ki, kiçicik qəmzə ilə
Bir deyil, min qəlbi deşərdi.
(Nizami, səh. 53)

Əbülfərəcin Leylisi:

«Qızlar arasında ən gözəl, ən zərif, ən cazibəli, ən ağıllı, ən nəzakətli, ən yaraşıqlı idi» (İsfahani, səh. 462).

Hər iki əsərdə Leyli də, Qeys də şeir qoşurlar. Əbülfərəc Leylinin şeirlərindən nümunələr gətirir.

Nizamidə Məcnun və Leylinin eşqi belə başlanır:

Qeys onun dilbərliyini görüb,
Könül verdi, könlünü məhəbbətlə aldı.
O da Qeysin eşqini axtarırdı.
Hər ikisinin sinəsində məhəbbət rişə atdı..
(Nizami, səh. 63)

Əbülfərəc yazır: «Oğlan qıza bağlandı, necə ki, qız oğlana ehtirasla vuruldu, o isə qıza məftun oldu» (İsfahani, səh. 432).

«Onun qəlbinə Məcnun eşqi düşdü, necə ki, Məcnunun da qəlbində Leylidən başqa bir kimsənin eşqinə yer qalmadı» (İsfahani, səh. 433).

Hər iki müəllifin əsərlərində Leyli və Məcnun eşqi təzəcə yarandıqdan sonra dillərə düşür, baxmayaraq ki, sevgililər öz hisslərini kənardakılardan gizlətməyə çalışırlar. Nizami yazır:

Səbr etdilər ki, çalışsınlar,
Və o çılpaq açılan eşqin üstünü örtsünlər.
(Nizami, səh. 55)

Sonra ağılla belə məsləhət gördülər ki,
Oğrun-oğrun (gizlicə) bir-birinə baxsınlar.
(Nizami, səh. 65)

«Nəğmələr kitabı» nda Leyli Məcnuna deyir:

Yadlar yanında bir-birimizə nifrət nümayiş edək,
Olaq ancaq sənin mən xəbərdar.

İstədiklərimizi yalnız baxışlarla ifadə edək,
Məhəbbəti isə qəlbimizdə gizlədək.
(İsfahani, səh. 432)

Bir məqalədə hər iki əsərin bütün oxşarlığından söz açmaq mümkün deyil. Qısaca qeyd edək ki, Əbülfərəcin əsərində yuxarıda qeyd etdiklərimizdən başqa, Nizaminin məsnəvisinə yaxınlığı ilə səciyyələnən bir çox məqamlar vardır. Bunlardan – Məcnunun sevgilisinin ətrini Nəcd tərəfindən əsən küləkdə axtarmağı, Məcnunun atasının Leyliyə elçiliyə getməsi, Leylinin eşqiylə Məcnunun ağlayıb sızlaması və bu zaman qoşduğu qəzəllər, atasının Məcnunu Kəbəyə aparması, Məcnunun atasının Leyli qəbiləsinin qəsdindən xəbər tutma-

sı və bu haqda Məcnunu xəbərdar etməsi, Nofəlin Məcnunla tanışlığı və Leylinin qəbiləsinə elçi getməsi, Məcnunun ovçu torundan ahuları xilas etməsi, onun qara qarğaya xitabı, Leylinin ərə getməsi, Məcnunun atasının vəfatından xəbər tutması və onun qəbri üstündə ah-naləsi, Məcnunun səhrada vəhşi heyvanlarla ünsiyyəti və s. Bütün bu əlaqələri öyrənmək üçün Nizaminin poeması Əbülfərəcin əsərinin Məcnunla bağlı iki fəsli müqayisəli tədqiq olunmalıdır, özü də yalnız məzmun baxımından yox. Hər iki əsərin obraz sistemlərinin, ifadə vasitələrinin və poetikasının müqayisəsi vacibdir. Bunu etdikdə, biz ərəb-Azərbaycan ədəbi əlaqələrinin çox maraqlı təzahürləri ilə rastlaşa bilərik.

«Nizami irsi dünən və bu gün»
Nizaminin 850 illiyinə həsr olunmuş
elmi-nəzəri konfrans, Gəncə, 1991.

ƏBÜLFƏRƏC İSFAHANİNİN «NƏĞMƏLƏR KİTABI» VƏ KLASSİK İRSİMİZ

Filologiya elmi inkişaf etdikcə mənbəşünaslıq bir köməkçi sahə kimi daha böyük əhəmiyyət kəsb edir. Sırf ədəbiyyatşünaslıq araşdırmaları ilə mənbəşünaslıq və tekstologiya məlumatlarının vəhdətini təşkil edən bu sahə ədəbiyyatşünaslığın mühüm bir qoludur. Görkəmli rus alimi D.S.Lixaçovun sözləri: «Bəşər mədəniyyətinin bütün inkişaf tarixi təkcə yeni dəyərlərin yaranmasından yox, həmçinin də köhnə mədəni dəyərlərin kəşfindən ibarətdir», - (2, 101) bu günümüz üçün çox aktualdır. Və əgər bu istiqamətdə görüləsi işlər milli ədəbiyyatımızla bağlı mənbələrin tədqiqinə yönəlibsə, onların zəruriliyi bir neçə dəfə artır. X əsr görkəmli ərəb filoloqu və musiqiçisi Əbülfərəc İsfahaninin «Nəğmələr kitabı» məhz belə mənbələrdəndir.

Kitabın dünyanın Məcnun kimi tanıdığı ərəb şairi Qeys ibn Müləvvəh haqqındakı fəsilləri – «Əxbər Məcnun Bəni Amir və nəsəbuhu» və «Racə'l-xəbər ilə siyaka əxbər Məcnun» - bizim üçün xüsusən qiymətlidir. Məhz Əbülfərəc tərəfindən qələmə alınan Leyli və Məcnun hekayəti sonralar bu nakam sevgililər haqqında Şərqdə, o cümlədən də Azərbaycanda yaranan çoxsaylı məsnəvilərin əsas mənbələrindən biri olmuşdur. Kitabda müəllif, demək olar ki, ərəb şairi Qeys ibn Müləvvəh əl-Məcnun haqqında dövründə mövcud olan bütün materialları cəmləşdirmişdir. Şerlər nə vaxt və hansı şəraitdə qoşulduğu haqda hekayələrlə müşayiət olunurlar. Bu hekayələr Məcnun şeirlərinə bir növ şərhlər xarakteri daşıyır. Əbülfərəc adətən kitabına daxil etdiyi bütün rəvayətləri kimlərdən eşitdiyini göstərməyi vacib sayır. Bəzən bu istinad beş-altı addan ibarət silsiləyə çevrilir. Bununla belə elə hallar olur ki, eyni ravinin söylədikləri xəbərlər ziddiyyətli xarakter daşıyır.

Əbülfərəc adətən kitabına daxil etdiyi bütün rəvayətləri kimlərdən eşitdiyini göstərməyi vacib sayır. Bəzən bu istinad beş-altı addan ibarət silsiləyə çevrilir. Bununla belə elə hallar olur ki, eyni ravinin söylədikləri xəbərlər ziddiyyətli xarakter daşıyır.

Təhkiyənin ayrı-ayrı epizodları arasında xronoloji əlaqə yoxdur. Məsələn, Məcnunun atasının Leyliyə elçi getməsi, yaxud atasının Məcnunu Məkkəyə nicat üçün aparması epizodları sevgililərin görüş epizodundan, Məcnunun qonşuluqda yaşayan Leyligilə yağ dalınca getməsindən əvvəl gəlir.

Bəzən əsas rəvayət ilə heç bir bağlılığı olmayan epizodlara təsadüf olunur. Bu hal adətən fəsillərin sonunda baş verir ki, bu da qabaqcadan sonrakı fəsildə söhbət açılacağı mövzudan xəbər verir. Vaxtaşırı müəllif söhbət açdığı mövzuya öz münasibətini bildirir. Müxtəlif ravilərin xəbərlərini qələmə alaraq,

Əbülfərəc onların nə dərəcədə etibarlı olduğu haqda öz fikrini söyləyir, düzəlişlər aparır, bəzi yazılı mənbə və onların müəllifləri haqqında rəy söyləyir, fikrini təsdiqləyərək müxtəlif məlumatlar əlavə edir. Bütün bunlar müəllifin təhkiyəyə tənqidi münasibətindən və onun filoloji biliklərinin genişliyindən xəbər verir, bu da bizə imkan verir ki, «Nəğmələr kitabı»nda tənqidi müəllif əsası haqqında ehtimal irəli sürək.

Əbülfərəcin dili sadə və aydındır. Müəllif öz dövrünün ədəbi dilində yazır, tez-tez qoşa epitet və qoşa sinonim konstruksiya kimi orta əsr ədəbi üslubunun üsullarından istifadə edir. Lakin bu o demək deyil ki, kitabda o dövrün danışıq dili öz əksini tapmamışdır, dialoqlarda dəbdəbəli ibarələrdən və qeyri-adi leksikadan xali olan canlı danışıq dili işlədilir. Personajların danışığı fərdi dil məziyyətləri ilə səciyyələnir ki, bunların da arxasında onların sosial siması aydın duyulur.

Əbülfərəc İsfahaninin Məcnun haqqında hekayətində vahid bir süjet xətti yoxdur, bu da ki bütün üzri aşiqlər haqqındakı rəvayətlərə səciyyəvi olan bir cəhətdir. Rəvayət nəsr və poeziyanın sinkretik vəhdətindən təşkil olunub, nəsr hissəsi rəvayətdə epik başlanğıcdan xəbər verir, poeziya isə lirik başlanğıcdır və təhkiyəyə dərin emosionallıq gətirir.

Rəvayətin bədii xüsusiyyətlərinə gəldikdə isə, ilk növbədə onun obrazlar sisteminin ikiliyini qeyd etmək lazımdır. Birinci qat - daha primitiv, qəbilə həyatı və şüurunu özündə əks etdirən, ikinci isə estetik seçilmə prosesini keçmiş hissələrdən ibarətdir (5, 49).

Məcnunun bütün şeirləri bir mövzunu tərənnüm edir - Leylini, onun gözəlliyini, şairin ona olan coşqun məhəbbətini, sevgi xatirələrini. Məcnun Leyli ilə uşaqlıqda birgə olduğu günləri yada salır, kiminsə «Leyli» deyərək başqasını səslədiyi və bu sözün onda oyatdığı çılğın hissləri söyləyir, xoşbəxt günlərinin şahidi olan ət-Təubəd dağına müraciət edir, gözləri sevgilisinin gözlərini xatırladan ovçu toruna düşmüş ceyrandan söhbət açır, sevgilisindən vüsal diləyir. Onun ehtiras dolu şerləri şəhvani hisslərə yaddır. Bu şerlər orta əsr ərəb poeziyasının ən cazibəli istiqamətlərindən olan ərəb üzri məhəbbət poeziyasının örnəkləridir, onların hər birində bu poeziyaya xas olan mühüm əlamətlər - ülvi məhəbbət, platonik eşq, sevginin keşməkeşli yolları və faciəli aqibəti kimi zərif notlar qabarıqdır.

Məcnun poeziyasının bədii xüsusiyyətlərinə gəlincə isə, ilk növbədə cahiliyyə dövrünün poeziyası ilə müqayisədə onun zəngin sinonimikasını və obrazlar sistemini qeyd etməliyik. Lakin nəzərdən qaçırmamalıyıq ki, bu şerlərdə əvvəlki dövr ərəb poeziyasına xas olan köhnə ifadələrə də təsadüf olunur. Məcnunun şerləri əsasən təvil və bəsit bəhrlərində yazılıb.

Nizaminin «Leyli və Məcnun» poemasında şair Əbülfərəcin əsəri ilə tanış olduğuna bilavasitə işarə edir:

Fars oğlu fəsahətli (şirindil) dehqan
Ərəbin əhvalını belə xatırlayır ki,... (4,141)

Görünür, Əbülfərəcin «əl-İsfahani» nisbəsi və şiəlik mənsubiyyəti dahi şairimizə onu «fars oğlu» hesab etməyə əsas verib.

«Nəğmələr kitabı»nın Məcnun haqqındakı fəsilləri ilə Nizaminin «Leyli və Məcnun» poemasını müqayisə etdikdə, Nizaminin bu mənbədən istifadə etməsinə heç bir şübhə qalmır. Hər iki əsərdə baş verən hadisələr çox zaman bir birini təkrar edir, Nizami Əbülfərəcin gətirdiyi bir sıra əhvalatı şerləşdirmiş, məsnəvisi boyu istifadə etmişdir. Ancaq Nizami «Nəğmələr kitabı»ndakı bir para Məcnun ünvanlı rəvayətlərin də üstündən keçmiş, onları poemasına daxil etməmişdir. Burada biz hər iki əsərin bütün oxşar cəhətlərindən söz açmaq niyyətində deyilik. Qısaca qeyd edək ki, hər iki əsərdə Məcnunun sevgilisinin ətrini Nəcd tərəfdən əsən küləkdə axtarmağı, Məcnunun atasının Leyliyə elçi getməsi, Leylinin eşqi ilə Məcnunun ağlayıb sızlaması və bu zaman qoşduğu qəzəllər, atasının Məcnunu Kəbəyə aparması, Məcnunun atasının Leyli qəbiləsinin qəsdindən xəbər tutması və bu haqda Məcnunu xəbərdar etməsi, Nofəlin Məcnunla tanışlığı və Leylinin qəbiləsinə elçi getməsi, Məcnunun ovçu torundan ahuları xilas etməsi, onun qara qarğaya xitabı, Leylinin ərə getməsi epizodları və s. əksini tapmışdır.

Ancaq nəzərdən qaçırmamalıyıq ki, Əbülfərəcin Məcnun rəvayəti fraqment xarakteri daşıyır, dahi Nizaminin poeması kimi iki aşiqin məntiqcə bütöv, tamamlanmış sevgi tarixçəsi deyil. Bununla belə, «Nəğmələr kitabı»nın ayrı-ayrı hissələri Nizaminin «Leyli və Məcnun»una elə yaxındır ki, onlar əsərin mənbə baxımından tədqiqində böyük əhəmiyyət kəsb edir və böyük sənət incisi «Leyli və Məcnun» poemasının yaranmasında Nizaminin necə dahi söz ustadı olduğuna, ərəb mənbəsinin ayrı-ayrı, çox vaxt sadə və bəsit fraqmentlərindən necə dahiyanə istifadə etməsini bir daha sübut edir. Bütün bu əlaqələri öyrənmək üçün Nizaminin poeması Əbülfərəc əsərinin Məcnunla bağlı iki fəsli ilə müqayisəli şəkildə tədqiq olunmalıdır, özü də yalnız məzmun baxımından yox, hər iki əsərin obraz sistemlərinin, ifadə vasitələrinin və poetikasının müqayisəsi vacibdir. Bunu etdikdə, biz ərəb-Azərbaycan ədəbi əlaqələrinin çox maraqlı təzahürləri ilə rastlaşa bilərik.

«Nəğmələr kitabı»ının başqa üç fəsli də Azərbaycan ədəbiyyatı tarixi üçün çox əhəmiyyətlidir. Bu fəsillər VII-VIII əsr ərəbdilli azərbaycanlı şairlərə həsr olunublar: «Əxbər Musa Şəhavat və nəsəbuhu və xubruhu fi həzə-ş-şir», «Əxbər İsmail ibn Yəssar və nəsəbuhu» və «Əxbər Əbü-l-'Abbas əl-Ə'mə». Bu şairlərin

həyat və yaradıcılığını araşdırmaq üçün «Nəğmələr kitabı» ən vacib mənbə sayılır. Ədəbiyyatşünaslığımızda ilk dəfə bu məsələni tədqiq edən mərhum professor Malik Mahmudov yazırdı: «Əl-Əğani olmasaydı, bu üç Azərbaycan şairi haqqında tutarlı söz söyləmək imkan xaricində qalardı» (3, 14).

Fikrimizcə, yuxarıda deyilənlər «Nəğmələr kitabı»nın bu beş fəslinin gələcək tədqiqini ədəbiyyatımız üçün olduqca zəruri edir.

Ədəbiyyat

1. Əbülfərəc əl-İsfahani. Kitab əl-əğani, c. I-XXIV, Qahirə, 1963-1974, c. II.
2. Лихачев Д.С. «Об эстетическом изучении памятников культуры прошлого» - ж. «Вопросы литературы». M, 1963, №3.
3. Mahmudov M. Ərəb dilində yazmış azərbaycanlı şair və ədiblər. VII-VIII əsrlər. Bakı, 1983.
4. Nizami Gəncəvi. «Leyli və Məcnun». Bakı, 1981.
5. Шидфар Б.Я. Образная система арабской классической литературы (VI-XII вв.) M., 1974.

Orta əsr əlyazmaları və Azərbaycan mədəniyyəti tarixi problemləri. III Respublika elmi-nəzəri konfransının materialları. Bakı, 1992-ci il.

İSLAM DİALOQ DİNİDİR

TEZİSLƏR

Etiraf edilməlidir ki, son illərdə islama qarşı aparılan təbliğat işi müəyyən uğurlar qazanmışdır: Qərb ictimai fikrində islam haqqında dialoqa hazır olmayan, dözümsüzlük nümayiş etdirən, qəddarlığa çağıran bir din kimi təsəvvür yaradılmışdır. 11 sentyabr 2001-ci il Nyu-York və Vaşinqton hadisələri, Əfqanistanda talibançıların, İraqda ayrı-ayrı radikal islam qruplaşmalarının fəaliyyəti, İndoneziya və Rusiyada terror aktları, Fransada iki ərəb gəncin öldürülməsinə cavab olaraq küçə iğtişaşları və avtomobillərin yandırılması ilə bağlı olaylar və, nəhayət, Məhəmməd peyğəmbərə çəkilən karikaturlara reaksiya bu təbliğata heç də az rəvac verməmişdir.

Lakin islam mənbələrinə - Qurana və hədislərə ani bir nəzər belə bu dinin həqiqətən dialoq dini olduğunu görməyə imkan verir. Əsrlər boyu islam mütəfəkkirləri həmin mənbələrə istinadən bu dinin təklif etdiyi dialoqun əsasları və prinsiplərini işləyib hazırlamışlar.

İslamda dialoqun əsaslarını belə təsnif etmək olar:

1. Bəşər nəslinin mənşə birliyi. Allah insanları bir nəfsdən xəlq etmişdir (ən-Nisa, 1).

2. Bir mənşədən törəmiş insanlar öz seçimləri əsasında müxtəlif etnokonfessional qruplara bölünmüşlər (Hud, 118; əl-Maidə, 48).

3. Müxtəlifliyə baxmayaraq, hər bir insanın hörmətli münasibətə haqqı vardır (əl-İsra, 70; ət-Tin, 4; əl-Əraf, 11; əl-Bəqərə, 30; əl-Həcr, 29)

4. Hörmətli münasibət insanların bir-birini tanımasına, bir-birilə qarşılıqlı əməkdaşlığına imkan yaradır (əi-Hücürat, 13; əl-Maidə, 2).

5. Tanışlıq və əməkdaşlıq üçün dialoq lazımdır.

İslam dialoqun monoloqa çevrilməməsi və qarşılıqlı faydalı olması üçün aşağıdakı prinsipləri təklif edir:

1. Dialoq qarşı tərəfi öz mövqeyindən döndərmək məqsədi güdməməlidir (əl-Kafirun, 6);

2. Dialoq tərəflər arasında fərqli və ixtilaflı məsələlərin deyil, müştərək məsələlərin ön plana çəkilməsinə üstünlük verməlidir (Ali-İmran, 64);

3. Dialoq zora və təzyiqə deyil, hikmət və xoş öyüd-nəsihətə söykənməlidir (ən-Nəhi, 125);

İslamda dialoqun qeyd edilən əsasları və prinsipləri Peyğəmbərin də hədislərində öz əksini tapmışdır. İslam tarixində bu əsasların və prinsiplərin real tətbiqi ilə bağlı faktlar da istənilən qədərdir.

Elə isə, bu gün Qərb ictimai fikrində islam barəsində yaranmış yanlış təsəvvürlərin kökü ya Qərbin saxta demokratiya və azadlıq şüarlarına istinadən məqsədyönlü antiislam təbliğatında, ya radikal islamçıların islamın əsas prinsip və məramlarına yetərincə əməl etməmələrində, ya da hər iki amildə birlikdə axtarılmalıdır.

İslamda dialoq. Elmi konfrans.
May, 2003-cü il.

MÜASİR DÖVRDƏ QLOBALLAŞMA VƏ DİNLƏ BAĞLI AMİLLƏRİN ROLU

Hörmətli sədr!

Hörmətli konfrans iştirakçıları!

«Qloballaşan dünyada islam» mövzusu, həqiqətən, aktual mövzudur. Modernləşmə və qloballaşma prosesləri bütün dünyanı bürüyür, ən ucqar yerlərə belə nüfuz edə bilir. Qloballaşmanın ayrı-ayrı ölkələrin və xalqların taleyinə göstərdiyi təsirə reaksiya da müxtəlif olur. Xüsusilə islam dünyasında bu proseslər birmənalı qarşılanmır. Bu reaksiyanın öyrənilməsi, xüsusiyyətlərinin müəyyən edilməsi baxımından «Qloballaşan dünyada islam» mövzusu böyük nəzəri və praktiki əhəmiyyət kəsb edir.

Bizim institut artıq keçən il Bakı Dövlət Universitetinin İlahiyyat fakültəsinin, Qafqaz Müsəlmanları İdarəsinin, bir sıra ərəb ölkələrinin Bakıdakı səfirliklərinin iştirakı ilə «Qloballaşma və islam» mövzusunda bir konfrans keçirmişdir. Konfransın materialları nəşr edilmiş və böyük maraq doğurmuşdur. Konfransdan sonra ötən müddət bir daha göstərmişdir ki, «Qloballaşma və islam» mövzusu geniş və əhatəli mövzudur, dərin təhlil tələb edir. Bu səbəbdən biz Akademiyanın Rəyasət Heyəti ilə razılıq əldə edib daha bir konfrans keçirmək qərarına gəldik və iştirakçıların tərkibini genişləndirərək onlara problemlə bağlı fikirlərini daha müfəssəl açıqlamaq imkanı yaratmaq məqsədilə məruzələri tam şəkildə nəşr etdik.

«Qloballaşan dünyada islam» mövzusu müasir Azərbaycan gerçəkliyi baxımından da əhəmiyyətli sayılmalıdır, çünki ölkə artıq 14 əsrdir ki, islam mədəniyyəti orbitinə daxildir və son vaxtlar, xüsusilə dövlət müstəqilliyini əldə etdikdən sonra beynəlxalq təsisatlara - istər islam, istərsə də dünya və Avropa təsisatlarına sürətlə inteqrasiya olunur və, təbiidir ki, fərqli inkişaf yönümlərindən təsirlənir. Bu baxımdan qloballaşmanın gətirdiyi açıq cəmiyyət dəyərləri ilə islamın ənənəvi dəyərləri arasında müqayisəli təhlil elmi cəhətdən maraqlı, praktiki cəhətdən isə faydalı ola bilər.

İlk dəfə 1983-cü ildə Roland Robertson tərəfindən işlədilmiş «qloballaşma» anlayışı mürəkkəb, ziddiyyətli və hələ indiyədək yetərincə açıqlanmamış olmaqla yanaşı, həm də çoxmənalı anlayışdır. Onun ən geniş yayılmış mənaları arasında istər bütövlükdə aləm və təbiətlə bağlı qlobal problemləri (demoqrafiya, enerji, xammal, ekologiya problemlərini), istərsə də dünya dövlətləri arasında gedən siyasi, iqtisadi, mədəni inteqrasiya proseslərinin nəticələrini (vahid dünya bazarı, vahid informasiya məkanı, Qərbin mədəni təsirləri altında milli

mədəniyyətlərin öz üstünlüyünü itirməsi, kommunikasiya sahəsində inqilab və s.) nəzərdə tutan mənalar fərqləndirilir. Hər iki mənada qloballaşma özünə həm tərəfdarlar, həm də əleyhdarlar tapmışdır. Elm və texnikanın kortəbii inkişafının, heç bir məhdudiyyət bilməyən tərəqqinin planetdə həyatın özünü təhlükə altına aldığını deyən qloballaşma əleyhdarları böhrandan çıxış yolunu dini dəyərlərə qayıdışda görürlərsə, müasir kütləvi sivilizasiyanın dərin böhran keçirdiyini deyən din nəzəriyyəçiləri əxlaqi amilləri fetişləşdirir, dinin mənəvi dəyərlərinin təbliğinin gücləndirilməsini, dini şüurun dirçəldilməsini müasir ictimai inkişafın düzgün istiqamətləndirilməsi üçün zəruri şərt sayırlar.

Qloballaşma termini elmi dövriyyəyə son zamanlar daxil olsa da, qloballaşma özü yeni hadisə deyildir. Ümumdünya tarixi prosesinin təhlilli göstərir ki, insanlıq öz maddi və mənəvi mədəniyyətini inkişaf etdirmək, sosial-mədəni fəaliyyətinin nəticələrini daha da zənginləşdirmək üçün daima inteqrasiyaya can atmışdır. Qədim dövrlərin və orta əsrlərin sivilizasiyaları buna parlaq misaldır. Bu sivilizasiyalar yayıldıqları məkan-zaman hüdudlarında dünyanın qloballaşmasına xidmət etmişlər. Onların mühüm elementini təşkil edən buddizm, hinduizm, yəhudilik, xristianlıq, islam kimi dinlər gerçəkliyin dəyər qavramı hüdudlarını daha da genişləndirmiş, ölkələr və milli mədəniyyətlər arasındakı sərhədləri silərək yeni sosial-mədəni məkanın universal ideya əsasına çevrilmişlər. Xüsusilə islam din və dünyagörüşü sistemi kimi, insanlara, cəmiyyətə, dünyaya münasibət kimi, davranış və təfəkkür tərzi kimi elə bir sivilizasiya yarada bilmişdir ki, mədəni inkişaf səviyyələrinin, dillərinin, talelərinin, mentalitetlərinin müxtəlifliyinə baxmayaraq, fərqli coğrafi mövqelərdə yaşayan insanları birləşdirmiş, aralarında bir dinə mənsubluq əsasında həmrəylik yarada bilmişdir. İslamın orbitinə cəm edilmiş xalqların mədəniyyətlərinin sintezi nəticəsində vahid, bütün müsəlman xalqları üçün ümumi islam sivilizasiyası təşəkkül tapmışdır.

Sonralar müsəlman xalqları da modernləşmə və qərbləşmə proseslərinə qoşularaq yad mədəniyyətlərdən təsirlənmə və qloballaşma təcrübəsi nümayiş etdirmişlər. Lakin bu gün dünyanın məruz qaldığı qloballaşma intensivliyi, proseslərinin qarşısıalınmazlığı, yolu üstünə çıxan hər şeyi silib aparmaq qüdrəti baxımından heç bir ölçüyə sığmır. Təbiidir ki, belə qloballaşma ənənəvi mədəniyyətlər, o cümlədən islam mədəniyyəti tərəfindən müəyyən müqavimətlə qarşılanır. Ənənələr cəmiyyətdəki hegemonluğunu əldən vermək istəmir, ictimai şüurun ən geniş sosial bazaya malik forması kimi dini özünə sipər edir, dini şüura müraciət edir. Din öz tarixi keçmişində indiki duruma münasib nümunə axtarıb tapır, həmin nümunəni ideallaşdırır və mütləqləşdirir, yeni mədəni təsirlərə qarşı qoyur. Modern isə nəyin bahasına olursa-olsun,

özünə yol açmağa çalışır. Bu qarşıdurma müasir dünyada qloballaşma və dinlə bağlı amillərin rolu məsələsini aktuallaşdırır.

Bu gün dünyada baş verən iqtisadi, siyasi, mədəni inteqrasiya prosesləri, demoqrafiya və dinlə bağlı dəyişikliklər açıq-aşkar göstərir ki, qloballaşma və din mövzusu hələ uzun müddət əhəmiyyətini qoruyub saxlayacaqdır. Bəlkə də XXI əsrdə dünyanın simasını qloballaşma və dinlə bağlı amillər müəyyən edəcəkdir.

Ümid edirəm ki. konfransımız qloballaşma ilə islamın qarşıdurması, qarşılıqlı təsirlənməsi və bir-birinə uyğunlaşması ilə bağlı mürəkkəb və ziddiyyətli məqamların açıqlanmasında mühüm addım olacaqdır. Konfransın iştirakçılarına bütün bu məsələlərin müzakirəsində uğurlar arzu edirəm.

«Qloballaşan dünyada islam» mövzusunda
beynəlxalq elmi konfransın materialları.
Bakı, 30-31 may 2005-ci il.

BİRİNCİ TÜRKOLOJİ QURULTAY VƏ AMEA AKADEMİK Z.M.BÜNYADOV ADINA ŞƏRQŞÜNASLIQ İNSTİTUTUNDA TÜRKOLOGİYANIN İNKİŞAFI

Hörmətli konfrans iştirakçıları!

Azərbaycan Respublikasının Prezidenti hörmətli İlham Əliyevin 9 noyabr 2005-ci ildə imzaladığı Birinci Türkoloji Qurultayın 80 illiyinin yüksək səviyyədə və geniş miqyasda qeyd olunması haqda xüsusi sərəncamı çərçivəsində keçirilən hazırkı konfrans türkologiya elminin inkişafında çox önəmli hadisədir.

Məlumdur ki, qurultayda irili-xırdalı 19 məsələ ətrafında müzakirələr keçirilmiş, məruzələr dinlənilmişdir. Qurultay iştirakçıları türk xalqları tarixinin öyrənilməsinin müasir durumu və yaxın vəzifələri, türk xalqları mədəniyyət və ədəbiyyatlarının tədqiqinin nəticələri və perspektivləri, türkoloji mərkəzlərin vəziyyəti, təşkilati strukturu və qarşıdakı vəzifələri və sairə məsələlərə böyük diqqət yetirdilər.

Birinci Türkoloji Qurultayın yaratdığı ənənələr, qarşıya qoyduğu vəzifələr şərqşünas türkoloqlarımızın daim diqqət mərkəzində olmuşdur. Belə ki, 1958-ci ildə yaranan Şərqşünaslıq İnstitutunda Türkiyənin ictimai-siyasi, sosial-iqtisadi və mədəni inkişafının ən mühüm məsələlərinin elmi tədqiqi şərqşünas türkoloqlarımızın əsas tədqiqat istiqamətlərini təşkil etmişdir. Müasir problemlərlə əsaslı sürətdə məşğul olan türkoloqlarımız kamalizm (atatürkçülük) təliminin, cümhuriyyət dövrü türk cəmiyyətinin inkişafının bütün sahələrində dərin iz qoymuş respublikaçılıq, dünyəvilik (laisizm), dövlətçilik (etatizm), xalqçılıq, millətçilik kimi təməl prinsipləri ilə bağlı problemlərin öyrənilməsinə xüsusi diqqət yetirmiş, onların hərtərəfli işıqlandırılması işinə böyük əmək sərf etmişlər.

Tarix problemlərinə həsr olunmuş tədqiqatlar, istər orta əsrlər, istərsə də yaxın tarixi keçmiş və Türkiyə tarixinin ən yeni dövrünü əhatə etmişdir. Tarixçi alimlərimiz Türkiyədə milli-azadlıq hərəkatı, Türkiyə Respublikasında dünyəvilik prinsipinin bərqərar edilməsi, millətçilik ideologiyasının formalaşması, ictimai və bədii-estetik fikrin yaranması, maarif və mədəniyyətin inkişafı, islam, müasir Türkiyədə antiimperialist hərəkat problemlərinin öyrənilməsinə xüsusi diqqət yetirmişlər.

Türkiyə inqilabı və milli-azadlıq hərəkatı mövzusuna həsr edilmiş və elmi ictimaiyyət tərəfindən yüksək qiymətləndirilmiş tədqiqatlar içərisində ilk növbədə H.Əliyevin «Турция в период правления младотурок (1908-1918)» («Türkiyə gənc türklərin hakimiyyəti dövründə (1908-1918)») («Наука», M., 1972) monoqrafiyası, Y.Bağırovun «Türk xalqının imperialist işğalına və sultanlığa qarşı respublika uğrunda mübarizəsi (1917-1924-cü illər)» adlı tədqiqatı, habelə həmin müəllifin «Türkiyə Lozan konfransında» («Elm», Bakı, 1957) kitabı,

N.Əfəndiyevanın «Борьба турецкого народа против французских оккупантов на юге Анатолии» («Anadolunun cənubunda fransız işğalçılarına qarşı türk xalqının mübarizəsi») («Elm», Bakı, 1966) adlı monoqrafiyası qeyd olunmalıdır. Antiimperialist mübarizə mövzusu İ.Axundovun «Современная Турция: борьба против империализма» («Müasir Türkiyə: imperializm əleyhinə mübarizə») («Elm», Bakı, 1977) kitabında, «Müasir Türkiyədə tərəqqipərvər qüvvələrin demokratiya və müstəqillik uğrunda mübarizəsi. 1945-1960-cı illər» (V.Şirəliyev) tədqiqatında da işıqlandırılmışdır.

H.Əliyevin «Türkiyə birinci dünya müharibəsi dövründə» (Azərb. SSRİ EA nəşriyyatı, Bakı, 1965) kitabında Osmanlı imperiyasının tam iflası dövründə Türkiyədə daxili vəziyyət və s. məsələlər tədqiq olunmuşdur.

Kamalçı dünyəvilik prinsipi, onun mahiyyəti, Türkiyənin dövlət quruluşu, ictimai-siyasi və mədəni həyatının dünyəvi prinsiplər əsasında yenidən qurulması, dünyəvilik və islam dəyərləri və s. problemlər türkoloq alimlərimiz tərəfindən ciddi şəkildə və uğurla öyrənilmiş məsələlərdəndir. Laisizm mövzusunda İnstitutda xüsusi tədqiqatlar yerinə yetirilmişdir.

Şöbə əməkdaşları SSRİ ilə Türkiyə Respublikası arasında münasibətlərin öyrənilməsinə də xeyli əmək sərf etmişlər. Bu baxımdan Y.Bağırovun 1965-ci ildə çap olunmuş «Sovet-türk münasibətləri tarixindən» (1920- 1922-ci illər) adlı əsəri diqqəti cəlb edir. Başlıca olaraq Azərbaycan SSRİ materialları əsasında yazılmış bu kitab yeni Türkiyənin varlığının ilk çağlarında Sovet-türk münasibətlərinin tərkib hissəsi kimi Azərbaycan-Türkiyə əlaqələrinin öyrənilməsi sahəsində Sovet tarixşünaslığında edilmiş ilk uğurlu təşəbbüs olmuşdur.

Türkiyənin ən yeni tarixi üzrə şöbədə yerinə yetirilmiş tədqiqatlar içərisində aşağıdakılar da qeyd olunmalıdır: «30-cu illərdə Türkiyə Respublikasının daxili vəziyyəti» (M.Səidov), «İkinci dünya müharibəsi illərində Türkiyə hökumətinin daxili siyasəti» (V.Hüseynov), «60-cı - 80-ci illərin əvvəllərində Türkiyənin Yaxın və Orta Şərqdəki siyasətinin əsas istiqamətləri» (S.Məcidova), «ABŞ və Türkiyə: Trumen doktrinasından Atlantik İttifaqına (1947-1952)» (A.Rəsizadə), «İnqilabdan əvvəlki Azərbaycan dövri mətbuatında Türkiyəyə dair materialların qısa şərhli göstəricisi» (Z.Sultanova).

Şöbənin türkoloq alimləri (H.Əliyev, İ.Əlibəyov, F.Şabanov və b.) «Nauka» nəşriyyatı tərəfindən 1967-ci ildə buraxılmış «Новейшая история Турции» («Türkiyənin ən yeni tarixi») monoqrafiyasının yazılmasında fəal iştirak etmişlər. Türkiyə tarixinin müxtəlif məsələləri şərqşünaslarımız tərəfindən hazırlanıb nəşr edilmiş «Türkiyə tarixi məsələləri» toplusunda («Elm», Bakı, 1972) öz əksini tapmışdır. 1988-ci ildə alimlərimizin nəşr etdirdikləri «Müasir Türkiyənin aktual problemləri» məqalələr toplusunda müasir

Türkiyənin siyasi, iqtisadi, sosial və mədəni inkişafının bəzi mühüm aspektləri üzrə İnstitutda son illərdə aparılmış tədqiqatların nəticələri işıqlandırılmışdır. Təqdirəlayiq haldır ki, toplunu hazırlayan müəlliflər kollektivinin özəyini türkoloq alimlərimizin gənc nəsli təşkil etmişdir.

İnstitutda yeni dövrdə Türkiyənin ictimai-siyasi inkişafı məsələlərinin hərtərəfli öyrənilməsi sahəsində də xeyli iş görülmüşdür, sovet şərqşünaslığında ilk dəfə olaraq XIX əsrin ortalarında Türkiyədə dövlət hakimiyyəti və idarə sisteminin təşkili, tənzimatın hüquqi aktları və institutları hərtərəfli işıqlandırılmışdır.

Orta əsrlər Türkiyə tarixi məsələləri alimlərimizi daim maraqlandıran mövzulardandır. Bu qəbildən olan əsərlər içərisində «Suriyalı Mixailin «Salnamə»si Ön Asiyada türklərin XI-XII əsrlər tarixinin öyrənilməsinin mənbəyi kimi» və «Səlcuqlar Zaqafqaziyada» (hər iki araşdırmanın müəllifi R.Hüseynovdur), «İbn-Bibinin «Əl-avamir əl-əlaiyyə fil-umur əl-əlaiyyə» əsəri Anadolu səlcuqlarının tarixi üzrə mənbə kimi» (H.Musayev), «XVIII əsrin 20-30-cu illərində Azərbaycanda Osmanlı vergi siyasəti», «Ağqoyunludan Osmanlı imperiyasına qədər Şərqi Anadolu» (M., «Nauka». 1994) («Восточная Анатолия: от Ак-Коюнлу к Османской империи») tədqiqatları diqqəti cəlb edir.

Türkiyə iqtisadiyyatının şərqşünas alimlərimiz tərəfindən əhatəli şəkildə tədqiq olunan problemləri sırasında öncə «etatizm» (dövlətçilik yaxud dövlət kapitalizmi) problemi qeyd olunmalıdır. Türkiyənin təsərrüfatçılıq praktikasının başlıca xüsusiyyətlərindən birini təşkil edən etatizm problemi institutda yerinə yetirilmiş bir neçə tədqiqat işinin obyekti olmuşdur. Bunlardan ilkində (И.В.Алибеков. Государственный капитализм в Турции. «Наука», М., 1966) (İ.V.Əlibəyov. Türkiyədə dövlət kapitalizmi) Türkiyədə ictimai təraqqinin müxtəlif mərhələlərində dövlətçilik (dövlət kapitalizmi) siyasətinin həyata keçirilməsinin forma və metodları, dövlət kapitalının banklar, nəqliyyat və sənaye sahələrində fəaliyyəti, Türkiyənin sosial-iqtisadi inkişafında etatizmin rolu, türk cəmiyyətinin müxtəlif sinif və zümrələrinin dövlətçilik siyasətinə münasibəti məsələləri ətraflı təhlil olunmuşdur. Bu mövzuda aparılmış digər tədqiqatlarda müasir Türkiyənin kənd təsərrüfatında dövlətin tənzimləyici və sahibkarlıq fəaliyyətinin forma və istiqamətləri respublika quruluşu illərində istehsal infrastrukturunun yaradılması və inkişaf etdirilməsində dövlət - kapitalist tədbirlərinin rolu kimi məsələlər işıqlandırılmışdır (A.Əliyeva, A.Əfəndiyev).

İqtisadçı şərqşünas alimlərimiz Türkiyənin hakim siyasi partiyalarının iqtisadi platformaları və iqtisadi siyasətinin öyrənilməsinə ciddi əhəmiyyət verirlər. Bu mövzu «Türkiyədə Cümhuriyyət Xalq Partiyası hökumətinin iqtisadi siyasəti (1923-1939-cu illər)» (Ə.Şirinov), «1980-ci il dövlət çevrilişindən sonra Türkiyə hökumətinin iqtisadi siyasəti» (B.Hacıyev), «Türkiyə Ədalət Partiyası hökuməti-

nin iqtisadi siyasəti» (1965-1971) (T.Qurbanov) adlı tədqiqatlarda öz əksini tapmışdır. İnstitutda Türkiyə Respublikası vətəndaşı Y.Sertel tərəfindən «Müasir Türkiyədə mütərəqqi sosial-iqtisadi cərəyanlar» mövzusunda namizədlik dissertasiyası hazırlanaraq müdafiə olunmuşdur.

Türkiyə Respublikasının xarici iqtisadi əlaqələri, xüsusilə xarici ticarət və xarici ticarət siyasəti, Türkiyənin keçmiş sosialist ölkələri və başlıca olaraq SSRİ ilə iqtisadi və texniki əməkdaşlığı məsələləri ətraflı öyrənilmişdir.

Alimlərimiz müasir Türkiyənin iqtisadiyyatında xarici kapitalın fəaliyyəti ilə bağlı məsələlərin öyrənilməsinə böyük maraq göstərirlər. Bu mövzuda iki sanballı tədqiqat hazırlanıb çap olunmuşdur: H.Əliyev «Müasir Türkiyədə xarici kapital» (Azərb. SSRİ EA nəşriyyatı, Bakı, 1962) və И.В.Алибеков «Иностранный капитал в Турции» («Elm», Bakı, 2002) (İ.V.Əlibəyov «Türkiyədə xarici sərmayə»).

İnstitutun türkoloqları tərəfindən işlənib tamamlanmış mövzular içərisində «Türkiyədə şəhərləşmənin sosial-iqtisadi problemləri» (B.Bəşirova), «Türkiyədə regional inkişaf və regional planlaşdırma» (A.Kərimov), «Türkiyə Respublikasında sənaye kadrlarının hazırlanması problemi» (İ.Əlibəyova) tədqiqatları da vardır.

Müasir türk iqtisadiyyatının müxtəlif məsələləri alimlərimiz tərəfindən hazırlanmış topluda «İran və Türkiyənin iqtisadi inkişafı» («Вопросы экономического развития Ирана и Турции») toplusunun iki buraxılışında öz əksini tapmışdır (I buraxılış - Bakı, «Elm», 1978. II buraxılış - Bakı, «Elm», 1988).

Şərqşünas mütəxəssislərimiz tərəfindən Türkiyənin tarixinə və iqtisadiyyatına dair yuxarıda qeyd olunanlarla yanaşı ölkə və keçmiş ittifaqın mərkəzi mətbu orqanlarında 400-dən artıq müxtəlif həcmli elmi məqalə və digər yazılar nəşr olunmuşdur. Alimlərimizin bir sıra işlərinin nəticələri məruzə şəklində müxtəlif beynəlxalq elmi toplantılarda dinlənilmiş, onların materiallarında çap olunmuşdur.

Türkoloqlarımızın hazırkı araşdırmalarının tematikası müxtəlif mövzuları əhatə edir. Bu sıraya Osmanlı dövründə Anadoluda etnosiyasi proseslər, orta əsr Osmanlı şəhəri (E.Çələbinin «Səyahətnamə»sinin materialları əsasında), Türkiyə, Azərbaycan və Orta Asiya türk respublikaları, Müasir Türkiyənin hərbi-sənaye kompleksi, Türkiyə və Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi, Almaniyada türk işçiləri, müasir Türkiyənin neft problemi, etatizmdən bazar iqtisadiyyatına keçid şəraitində Türkiyənin xarici iqtisadi əlaqələri, iqtisadiyyatın dövlət tənzimlənməsinin Türkiyə təcrübəsi, Türkiyə iqtisadiyyatının dövlət bölməsində bazar islahatları və sairə bu kimi problemlər daxildir.

1966-cı ildən başlayaraq Azərbaycan EA Şərqşünaslıq İnstitutunda Şərq

xalqları ədəbiyyatı şöbəsi tərkibində ayrıca qrup, sonra isə müstəqil fəaliyyət göstərən Türk filologiyası şöbəsi türkologiya elmimizin inkişafında mühüm rol oynamışdır. Şöbənin ilk müdiri Azərbaycan EA-nın akademiki, Azərbaycan və Özbəkistan Respublikalarının əməkdar elm xadimi, Türk Dil Qurumunun, İraq EA, İslam sivilizasiyasını öyrənən İordaniya Kral cəmiyyətinin fəxri üzvü Həmid Araslı olmuşdur.

Hələ yetmişinci illərdə akademik H.Araslının türk şairləri Gülşəhri və Tofiq Fikrət yaradıcılığı haqqında «Tofiq Fikrət və Azərbaycan ədəbiyyatı», «Nizami Gəncəvinin ilk mütərcimi», «Gülşəhri və Gəncəli Nizami», «Tofiq Fikrətin Azərbaycana təsiri» adlı maraqlı elmi məqalələri çap olunmuşdur.

Ümumtürk mədəniyyətinin inkişafında müstəsna əhəmiyyəti olan qədim yazılı abidələr və türkdilli şairlərin yaradıcılıqlarının tədqiqinə xüsusi diqqət yetirən akad. H.Araslı bu sahədə geniş araşdırmalar aparmışdı. Alim Nizami, Nəsimi, Xətai, Füzuli, Nəvai və b. şairlərin ədəbi irsini həm yeni qaynaqlara əsaslanaraq əlavə izahlarla tərtib edib oxuculara çatdırmış, həm də bu sənətkarların yaradıcılıqlarını tədqiq yolu ilə Şərq şerinə təsirini aydınlaşdıraraq onların Şərq ədəbiyyatı, o sıradan türk xalqları ədəbiyyatlarındakı əvəzsiz yerini müəyyənləşdirmək baxımından əhəmiyyətli işlər görmüşdür. Bu baxımdan Nizami, Nəsimi, Nəvai, Füzuli kimi dünyaşöhrətli şairlərin yubileyləri münasibətilə keçirilən elmi sessiyalarda akad. H.Araslının rəhbərliyi ilə şöbənin fəal iştirakını xüsusi qeyd etmək lazım gəlir. Akad. H.Araslının bu istiqamətdə apardığı tədqiqatların nəticəsi olaraq çap olunan «Sabirin həyatı», «İmadəddin Nəsimi», «Xaqani Şirvani» kimi əsərləri və otuza yaxın məqaləsi elm aləmi üçün çox böyük əhəmiyyət kəsb edir.

Bunlardan başqa alim «Türk filologiyası» şöbəsinə rəhbərlik etdiyi dövrdə «Kitabi-Dədə Qorqud», «M.P.Vaqifin əsərləri», «Əlişir Nəvai», «Xətai, əsərləri», «Azərbaycan dastanları» və s. əsərlərin tərtibçisi olmuşdur.

Akad. H.Araslı ədəbiyyatımızın qədimliyini danan, şairlərimizin yaradıcılığını təhrif edən qərəzli mülahizələrə «Firuz Məhsuriyə açıq məktub», «Orxan Şaiqə açıq məktub» kimi yazıları ilə vaxtında və kəsərli cavab vermişdir. O, «Füzuli ərəb ədəbiyyatında», «Ədəbiyyat tariximiz haqqında yeni əsər», «Yaxın-uzaq Türkiyə» adlı mülahizə və rəylərin də müəllifidir.

Ümumiyyətlə, şöbədə aparılan tədqiqatlarda türk ədəbiyyatı tarixinin bir çox dövrləri və sahələrinə aid araşdırmalar aparılmış, görülən işlərin ədəbi, elmi təhlili verilmişdir. Ədəbi və nəzəri tədqiqin müxtəlif formalarından istifadə edərək aparılan araşdırmalarda Türkiyənin folkloru, klassik ədəbiyyatı və əsasən XIX-XX əsr mütərəqqi ideyalı şairlərinin, yazıçılarının həyatı, yaradıcılığı, sənətkarlıq xüsusiyyətləri, ədəbi aləmdə gedən inkişaf prosesləri, ədəbi-tənqidi jurnalların ədəbiy-

yatın tərəqqisinə göstərdiyi təsir, ədəbiyyatlarımız arasındakı əlaqələrin öyrənilməsi və s. şöbə əməkdaşlarının əsas tədqiqat obyekti olmuşdur.

Şöbədə aparılan tədqiqat işləri Türkiyənin özündə də böyük maraq doğuran, nəzəri cəhətdən araşdırmaya ehtiyacı olan mövzulara həsr olunmuşdur. Əhməd Əhmədovun Rəşad Nuri Güntəkinin romanlarının təhlilinə, Gövhər Quliyevanın II Dünya müharibəsindən sonra türk nəsrində kəndli məsələsinə, Vasif Nəsiboğlunun Orxan Xəncərlioğlunun yaradıcılığına, Aydın Abıyevin Ömər Seyfəddinin həyat və yaradıcılığına, Allahşükür Qurbanovun Əbdülhaq Hamidin dramaturgiyasına, Mirzəcan Gülmalıyevin «Sərvəti-fünun» jurnalına, Qaracaoğlanın yaradıcılığına, Məhəmməd Hatəminin sehrli türk nağıllarına, Barat Osmanovanın Məlih Cövdət Anday yaradıcılığına, Haldun Tanerin bədii nəsrinə, türk xalq teatrlarının tədqiqinə, Zahid Haşımovun hecaçı şairlərin yaradıcılığına həsr edilən namizədlik dissertasiya işləri istər Azərbaycanda, istərsə də Türkiyədə öz aktuallığı ilə seçilən mövzularda yazılmışdır.

Ondan çox kitabın müəllifi olan filologiya elmləri doktoru A.Abıyev şöbədə çalışdığı illərdə Türkiyə ədəbiyyatının müxtəlif problemləri və Azərbaycan-Türkiyə ədəbi əlaqələri məsələləri ilə mütəmadi məşğul olmuşdur. O, ən çox «Türkiyə teatrı və dramaturgiyası tarixi məsələləri», «Milli hekayə və novellanın banisi Ömər Seyfəddinin həyat yolu və yaradıcılığı», «Türkiyə ədəbiyyatında satirik janrların inkişafı və Azərbaycan ədəbiyyatı ilə əlaqələri», «Oğuz Kağan dastanı», «Füzuli və Türkiyə poeziyası», «İbrahim Şinasinin yaradıcılıq yolu» və s. mövzularda elmi əsərlər yazmışdır. A.Abıyev əllidən çox elmi məqalənin müəllifidir.

Filologiya elmləri doktoru Nüşabə Araslı şöbədə çalışdığı qısa müddətdə «Türk Divan ədəbiyyatında epik şer» adlı monoqrafiya üzərində işləyir.

F.e.n. Xalidə Quliyeva-Qafqazlı türk aşıq ədəbiyyatı üzərində tədqiqat aparır. Türk aşıq ədəbiyyatının «qızıl dövrü» hesab olunan XVII əsrin görkəmli aşıqlarından Qaracaoğlan yaradıcılığına həsr etdiyi namizədlik dissertasiya işi monoqrafiya halında çapdan çıxmışdır. O, Türkiyənin Ankara, Əskişəhər, Adana və s. şəhərlərində keçirilən beynəlxalq konfrans, simpozium və seminarlarda məruzə ilə iştirak etmişdir. Məruzələrin hamısı Türkiyədə çap olunmuşdur. X.Quliyeva-Qafqazlı hal-hazırda «Dədə Qorqud türk ədəbiyyatşünaslığında» adlı kitab və «Türk aşıq ədəbiyyatının inkişaf tarixi» adlı doktorluq dissertasiyası üzərində işləyir.

Şöbədə aparılan elmi tədqiqatlar arasında ədəbi əlaqələrlə bağlı mövzular da mühüm yer tutur. Məhz bu mövzuda «XX əsrin 20-ci illərində Azərbaycan mətbuatında Türkiyə ədəbiyyatının tədqiqinə aid materiallar» adlı kitab nəşr olunmuş, «Günəşi içənlərin türküsü» kitabına Nazim Hikmətin şeirləri, məqalələri,

Azərbaycanda onun haqqında yazılan şeirlər, poemalar, məqalələr toplanmışdır.

Şöbə əməkdaşlarından B.Osmanova, S.Qasımlı, E.Xəlilova 1998-2004-cü illər ərzində Əbül-Xeyr Ruminin XV əsrdə yazıya alınmış «Saltuknamə» dastanının tərcüməsi ilə məşğul olmuşlar. Hal-hazırda əsər çapa hazırlanır.

Çeşidli mövzular üzərində elmi tədqiqatlar aparılan şöbədə hazırda B.Osmanova və E.Xəlilova «1900-1920-ci illərdə Azərbaycan dövrü mətbuatında türkologiya problemləri», S.Qasımlı isə «Türkiyənin realist hekayəçiləri» mövzusu üzərində elmi araşdırmalarını davam etdirirlər.

Filologiya elmləri namizədi, şöbənin aparıcı elmi işçisi «Bakıya gedirəm... Nazim Hikmət və Azərbaycan» adlı kitabın müəllifi Rəşid Quliyev hazırda «Nazim Hikmət və Şərq» mövzusunda monoqrafiya üzərində işləyir. Orta əsr türk mədəniyyət tarixi, bektaşilik mövzuları üzərində tədqiqat aparan f.e.n. Cabbar Cəlil Bəydilli «Orta əsr türk mədəniyyət tarixində bektaşiliyin və bektaşi ədəbiyyatının yeri» adlı monoqrafiyasını yazıb bitirmişdir.

Türk filologiyası şöbəsində gənc alimlər də səmərəli elmi fəaliyyət göstərirlər. Onlardan Təranə Haşımovanın «Poeziya körpüsü» kitabı çapdan çıxmış, «XX əsr Azərbaycan ədəbiyyatının Mərkəzi Asiya xalqları poeziyasına təsiri» adlı dissertasiya işi müdafiəyə təqdim olunmuşdur. Kipr türk şairi «Osman Türkayın yaradıcılığı» adlı dissertasiyasını başa vuran Elmira Məmmədova artıq bir neçə beynəlxalq konfransda iştirak etmiş, xarici mətbuatda beş məqalə çap etdirmişdir. Səriyyə Gündoğdu «Mehmet Akif yaradıcılığı», Kəmalə Ələkbərova isə «XX əsrin əvvəllərində Azərbaycan ədəbi dilində Osmanlı türkcəsi elementləri» mövzusu üzərində elmi tədqiqat işi aparırlar.

Türk ədəbiyyatının müxtəlif problemlərinə dair tədqiqat aparan şöbə əməkdaşları «Türk filologiyası məsələləri» və «Şərq filologiyası məsələləri» məcmuələrində də maraqlı elmi məqalələr çap etdirmiş, son zamanlar Şərqşünaslıq elmi ilə bağlı Respublika miqyasında keçirilən elmi konfranslarda da fəal iştirak etmişlər.

Ümumiyyətlə, türk filologiyası şöbəsi fəaliyyətə başladığı dövrdən etibarən burada çalışan əməkdaşlar türk ədəbiyyatının aktual problemlərinə həsr olunmuş iyirmi beş kitab, iki yüzdən çox elmi məqalə (o cümlədən, xaricdə) və bir o qədər də publisistik məqalə çap etdirmişlər.

I Türkoloji qurultayın 80 illiyinə həsr olunmuş elmi konfrans. 2006-cı il.

AZƏRBAYCAN SİVİLİZASİYALAR QOVŞAĞINDA: MODERNLƏŞMƏ PROSESİNDƏ MƏDƏNİ SİNTEZ PROBLEMİ

Surətlə inkişaf edən, qloballaşan dünyamızda hər şey durmadan dəyişir: xalqlar və ölkələr yaxınlaşır, insanlar və talelər birləşir. Bütün bunlar bir daha «Şərq Şərqdir, Qərb isə Qərb, onlar heç vaxt uyğunlaşmayacaqlar», - deyənlərin yanıldığını göstərir.

Mədəniyyətlərin qarşılıqlı əlaqə və təsirinin minilliklərlə tarixi var. Eramızdan əvvəl ikinci minillikdə qədim Şərq mədəniyyətinin yunan mədəniyyətinə təsiri inkaredilməzdir. Müxtəlif xalqların qədim eposlarında genetik əlaqələr və analoji süjet və obrazlar buna aşkar sübutdur.

Ellinizm dövründə isə yunan mədəniyyəti Şərq mədəniyyətinə ciddi təsir göstərdi. Orta əsrlərdə mədəni təsirin istiqaməti yenə də Şərqdən Qərbə yönəldi. Barbarların hücumları nəticəsində yunan-rum sivilizasiyası süquta uğradıqdan sonra məhz müsəlman mədəniyyəti antik və Avropa Renessans mədəniyyəti arasında vasitəçi oldu. Onu da qeyd edək ki, dahi Azərbaycan mütəfəkkiri və şairi Nizami Gəncəvinin yaradıcılığında hələ XII əsrdə Şərq-Qərb paradiqması öz parlaq əksini tapmışdır. Yalnız hər iki sivilizasiyanın mədəni-fəlsəfi nailiyyətlərini dərindən mənimsəmiş müəllifin qələmindən «Xəmsə» kimi möhtəşəm əsər çıxa bilərdi. Xüsusən onun «İskəndərnamə» poeması bəşər sivilizasiya tarixində mədəni sintezin ən parlaq nümunəsidir. Nizami Gəncəvinin təkcə Şərq ədəbiyyatı deyil, intibah dövrü Avropa ədəbiyyatına da təsiri məhz onun bu keyfiyyət səciyyəsindən irəli gəlir.

Bəşəriyyətin tərəqqisində hər yeni inkişaf mərhələsi Şərq və Qərb sivilizasiyaları nümunələrinin üzvi sintezi nəticəsində baş verirdi. Hətta orta əsrlər hind, Şərqi Asiya, Ön Asiya, Bizans və Qərbi Avropa mədəniyyətlərinin təmas xəttində «sərhəd mədəniyyəti» adlanan mədəniyyətlər yarandı. XIX əsrin 20-ci illərində dünya ədəbiyyatlarının ən parlaq nümunələri ilə gözəl tanış olan Höte ümumdünya ədəbiyyatı konsepsiyasını irəli sürdü.

Müasir dövrdə qloballaşma prosesləri hər şeydən əvvəl beynəlxalq əlaqələrin güclənməsi, ölkələr arasında kommunikasiyanın genişlənməsi, ayrı-ayrı xalqların mədəniyyətlərində ümumi elementlərin artması ilə səciyyələnir. Eyni zamanda bu proseslərin gedişində daha çox Amerika və bir qədər zəif də olsa, Qərbi Avropa elementlərinin üstünlük təşkil etdiyi transmilli mədəniyyətin mədəni-siyasi hegemonluğunun özünü getdikcə daha bariz şəkildə göstərdiyini sezməmək mümkün deyildir. Bu hal bəzi tədqiqatçıları mədəniyyətlərin inteqrasiyası, vahid dünya mədəniyyətinin təşəkkülü, millətlərin və xalqların qovuşaraq «superetnos» yaradacağı barədə konsepsiyalar irəli

sürməyə ruhlandırırsa, digər mütəxəssisləri, əksinə, sivilizasiyaların toqquşmasından, Şərq və Qərb mədəniyyətləri arasında dialoqun qeyri-mümkünlüyündən danışmağa sövq edir. Hətta bəziləri belə hesab edirlər ki, hər bir sivilizasiyanın əsasında din durur, dini etiqad və inanclar xalqların şüurunda dərin kök salmışdır və buna görə də sivilizasiyaların dialoqu mümkün deyil.

Zənnimizcə, hər iki konsepsiyada ifratçılığa meyl güclüdür və onlardan heç biri ilə tam razılaşmaq olmaz.

Əvvəla, hər bir mədəniyyət başqa mədəniyyətdən öz genotipinə və inkişaf məntiqinə görə fərqlənir. Bu o deməkdir ki, yekcins dünya mədəniyyətindən danışmağa dəyməz. İkincisi, böyük sivilizasiyalar özlərində birləşdirdikləri millətlərin və xalqların etnik xüsusiyyətlərini tamamilə silib aradan qaldıra bilmir: etnik xüsusiyyətləri və etnik kimliyi qoruyub saxlamaq əzmi hər bir xalqın şüurunda möhkəm yer tutmuşdur. Məsələn, bir vaxtlar Afrika qəbilələrinin islamlaşması heç də onların etnik xüsusiyyətlərinin büsbütün aradan qalxmasına, zənci-Afrika mədəniyyətinin simasızlaşmasına gətirib çıxarmamışdı. Təşəkkül tapan yeni mədəniyyətdə ərəb-islam mədəniyyətinin elementləri nə qədər yer almışdısa, ənənəvi Afrika mədəniyyətinin ünsürləri də o qədər təmsil olunmuşdu. Bu nisbət bizim günlərdə də qorunub saxlanır. Yaxud bu gün Azərbaycanda «Makdonalds» şirkəti öz yeni filialını yaradaraq nüfuz dairəsini genişləndirsə də, ənənəvi «çayxana mədəniyyəti»ni silib aradan çıxarmağa qadir deyildir.

Üçüncüsü, bu gün dünyanın müxtəlif yerlərində baş verən və çox vaxt ekstremist islam qruplaşmaları tərəfindən törədilən terror hadisələrini islam-xristian qarşıdurması kimi qələmə vermək cəhdləri yanlış cəhdlərdir. Bu hadisələrin arxasında hər şeydən əvvəl geopolitik düzənin yenidən qurulmasından doğan ziddiyyətlər və konkret iqtisadi-siyasi maraqlar durur. Əks təqdirdə, biz yaxın keçmişdə baş vermiş İran-İraq müharibəsini, yaxud NATO-nun xristian Yuqoslaviya əleyhinə apardığı əməliyyatları izah etməkdə çətinlik çəkərik.

Qloballaşma dövründə ənənəvi mədəniyyətlərin, o cümlədən islam mədəniyyətinin xarici mədəni təsirlərə müqaviməti güclənsə də, bu, sivilizasiyalar və dinlər arasında dialoqu istisna etmir. Qloballaşan dünyada dinc yanaşı yaşamanın təmin edilməsinə yönəlmiş fəaliyyətin mühüm tərkib hissəsi və şərtlərindən biri də din və ümumbəşəri dəyərlər sahəsində mədəniyyətlərarası dialoqun mövcudluğudur. Belə ki, dialoq dinlərarası münasibətlərin düzgün məcrada cərəyan etməsinə və rəvan inkişafına zəmin yarada bilər. Dini konsepsiyaların böyük bir hissəsi insan haqqında ülvi təsəvvürləri, insan ləyaqətini qoruyan, insanı uca tutan dəyərləri ehtiva edir. Bu konsepsiyaların öyrənilməsi və kəsişmə nöqtələrinin açıqlanması ümumi mədəniyyətlərarası dəyərlərin aş-

kar edilməsində mühüm rol oynaya bilər. Odur ki, dünyada inteqrasiya proseslərinin gücləndiyi bir şəraitdə sivilizasiyaların dialoqu həmişəkindən daha zəruridir. Lakin bu dialoqun hüdudları olmalıdır. Bu hüdudlar isə dialoqun mənəvi-əxlaqi nöqteyi-nəzərdən məqbulluq dərəcəsi ilə şərtlənir. Bu baxımdan dinin norma və idealları sivilizasiyalar arasında həqiqi dialoqun gerçəkləşməsi üçün daha əlverişli sayılmalıdır. Çünki dinlər, hər halda əsas monoteist dinlər, özlərini İbrahim peyğəmbərin təkallahlılıq təlimi ilə bağlamaqla bir-biri arasında, deməli, sivilizasiyalar arasında da körpü salırlar. Digər tərəfdən, dinlər sivilizasiyalararası dialoq yolunda əsas maneə sayılan etnik separatizm meyllərini öz içərisində əridib yox etməyə çalışır.

Bütün dinlərdə dözümlülüyə çağırış vardır. Bu çağırış dinlərarası dialoq işində ən yararlı vasitə kimi geniş təbliğ edilməlidir. Tolerantlığın əsas prinsipi isə o olmalıdır ki, hər bir cəmiyyətin və fərdin bu və ya digər əqidəni, bu və ya digər həyat tərzini seçmək haqqı vardır. Bu haqqa qarşı zor işlədilməsi yolverilməzdir.

Dialoqun monoloqa çevrilməməsi və qarşılıqlı faydalı olması üçün dialoq qarşı tərəfi öz mövqeyindən döndərmək məqsədi güdməməli, tərəflər arasında fərqli və ixtilaflı məsələlərin deyil, müştərək məsələlərin ön plana çəkilməsinə üstünlük verməli, zora və təzyiqə söykənməməlidir.

Taleyin hökmü ilə Azərbaycan Respublikası coğrafi məkan baxımından Şərq və Qərbin qovşağında yerləşir, xalqımız isə zaman-zaman dünya mədəniyyətinə öz dəyərli töhfələrini verməklə yanaşı hər iki sivilizasiyanın təsiri altında olmuşdur. «Qoca Şərqin qapısı» adlanan Azərbaycan min ildən çox bir müddətdə müsəlman mənəvi-mədəni arealına daxil olduqdan sonra çar Rusiyasının tərkibində yeni dəyərlər sistemi ilə tanış oldu və rus dili vasitəsi ilə mütərəqqi Avropa elmini və ictimai-siyasi fikrini mənimsədi, maarifçilik ideyalarını qavradı.

Beləliklə, Şərq və Qərb dəyərlər sisteminin Azərbaycanda qovuşması üçün əlverişli şərait yarandı. Elə o dövrdə hər iki sistemin dəyərlərini təcəssüm etdirən gözəl maarifçi ziyalılar nəsli yetişdi. Mütərəqqi Azərbaycan ziyalıları xalqın yeni dəyərlər sisteminə, sivilizasiyanın qabaqcıl nailiyyətlərinə yiyələnməsi uğrunda böyük iş apardılar. Onların davamçılarının yaradıcılığında Qərb ədəbi-fəlsəfi fikri, müxtəlif sivilizasiyaların vəhdəti problemi öz əksini tapdı. Bu proses bütün çətinliklərə baxmayaraq Sovetlər dövründə də davam edirdi. Xalqın kütləvi savadlanması, dünya mədəniyyəti nailiyyətləri ilə yaxından tanış olması buna bariz nümunədir.

Totalitar sovet rejiminin dağılmasından bilavasitə sonrakı dövr bir vaxtlar sovet xalqları adlanan müsəlman Şərq xalqlarının, o cümlədən Azərbaycan

xalqının da tarixində ağır böhranlı dövr oldu. Azərbaycan üçün bu dövrün səciyyəvi xüsusiyyəti ondan ibarət idi ki, ölkənin təkcə siyasi və sosial-iqtisadi müstəqilliyi deyil, həm də və daha çox mədəni-mənəvi müstəqilliyi gözlənilmədən başlanmışdı. SSRİ-nin dağılması ilə Azərbaycan istər-istəməz özü üçün tamamilə yeni bir tarixi reallığa daxil oldu – ölkə xarici aləmə müvafiq hazırlıq işi aparmadan açılmışdı.

Bir yandan, sovet dövründə xeyli sarsımış, varislik əlaqələrini itirmiş ənənəvi mədəniyyətlə, xüsusilə islam mədəniyyəti ilə bağlı dəyərlər dirçəldilməyə başladı. Müsəlman Şərqi Azərbaycanı öz sıralarına qəbul etdi – ölkə İslam Konfransı Təşkilatının üzvü oldu. 1992-ci ildə qəbul edilmiş «Dini etiqad azadlığı haqqında» Qanun müxtəlif müsəlman və qeyri-müsəlman məzhəb və təriqətlərinin Azərbaycanda sürətlə yayılmasına imkan yaratdı. Bu sahədə ortaya çıxan problemlər hələ də tamamilə aradan qaldırılmamışdır.

Digər tərəfdən, xalqın hələ təqribən 150 il öncə baş qaldırmış Avropa mədəniyyətinə, tərəqqiyə qovuşmaq əzmi yenidən alovlandı, Azərbaycan Avropa-Asiya məkanında yerləşən bir ölkə kimi Avropaya açıldı, Avropa Şurasına qəbul edildi. XX əsrin əvvəllərində meydana gələn, sonralar sovet dövründə unudulan «avropalaşma, müasirləşmə və islamlaşma» şüarı yenidən aktuallaşdı və Azərbaycanın dövlət bayrağında öz ifadəsini tapdı. Demokratiya, vətəndaş cəmiyyəti, bazar iqtisadiyyatı, insan haqları, aşkarlıq və s. ilə bağlı dəyərlər haqlı olaraq cəmiyyətin inkişafı, müasirləşmənin, modernləşmənin meyarları kimi təqdim edildi. Bu meyarları qəbul etmək labüd idi, lakin asan iş deyildi.

Azərbaycan cəmiyyəti müstəqillik qazandıqdan sonra özündən asılı olmayaraq fərqli mədəniyyətlərin qovşağına düşmüş və bu mədəniyyətlərə eyni dərəcədə açılmışdır. Belədə ziddiyyətlərin yaranması qaçılmaz idi. Bu xüsusən özünü ilk öncə mənəvi dəyərlər sahəsində büruzə verir. Bu zaman bütövlükdə cəmiyyətdən və onun ayrı-ayrı fərdlərindən yüksək dərəcədə sayıqlıq, ətraf aləmə münasibətdə rasional seçimi müəyyənləşdirmək bacarığı, uyğunlaşma, nədənsə imtina etmə, nəyisə qəbul etmə, ağıllı seçki qabiliyyəti tələb olunur. Cəmiyyət bütün bunları yalnız bir şərtlə uğurla yerinə yetirə bilər ki, öz «Mən»ini itirməsin.

Müasir insanın modernləşmə tələblərinə tam cavab verə bilməyən ənənəvi dəyərlərlə bu günün reallıqları arasında yaranmış ziddiyyət məngənəsində sıxılması bir çox müsəlman Şərqi ölkələri kimi Azərbaycanın da hazırkı mədəni dinamikasının səciyyəvi cəhətlərindən biridir.

Zənnimizcə, dəyərlər münaqişəsinin Azərbaycan üçün ən məqbul həll yolu mövcud dəyərlər sistemlərinin - ənənəvi və modern dəyərlər sistemlərinin hansı birindənsə imtina etmək deyil, bu sistemlərin sintezi - mədəni sintez yolu ola

bilər. Mədəni sintezi həyata keçirmədən ölkənin gələcək inkişafı və yeniləşməsi yollarını təsəvvürə gətirmək çətindir. Bu cür sintez təkcə Azərbaycan üçün deyil, bütün müsəlman dünyası üçün aktualdır və əldə ediləcəyi təqdirdə geniş bir məkanda model rolunu oynaya bilər, çünki Azərbaycan modernləşmə yolundakı nailiyyətləri ilə Şərqin əksər ölkələrini arxada qoymuşdur. Yalnız bu prinsiplərə əməl edildiyi təqdirdə biz üçüncü minillikdə zəmanəmizin əsas çağırışı - sivilizasiyaların dialoqunun davam etdiriləcəyinə ümid bəsləyə bilərik. Eyni zamanda Azərbaycan dini tolerantlığın hökm sürdüyü unikal bir məkandır. Xalqımızın dinc, yanaşı yaşamaq ənənəsi tarixin dərinliklərindən gəlir. Təsadüfi deyil ki, Şərqdə ilk demokratik Respublika və ilk demokratik təsisatlar hələ arxada qoyduğumuz əsrin əvvəllərində məhz Azərbaycanda yaranmışdı. Azərbaycanda mədəni irsin gücü və daxili dinamizmi, qərbləşmə yolundakı əvvəlki uğurları onun modernləşməyə uyğunlaşmaq qabiliyyətini artırır. Hazırda Avropa mədəniyyətinin praqmatik nailiyyətləri Azərbaycan cəmiyyətinin canına başqa müsəlman cəmiyyətlərinə nisbətən qat-qat çox hopmuşdur. Bu amillər modernləşmənin tələblərinə cavab verən dəyərlərin və həyat oriyentasiyalarının Azərbaycan cəmiyyətində yayılmasına və möhkəmlənməsinə geniş şərait yaradır.

Bu gün Azərbaycanda həyata keçirilən modernləşmə milli mədəniyyətin, ənənələrin, tarixi təcrübənin möhkəm təməli üzərində qurulmalıdır. Milli-mədəni dəyərləri, milli kimliyi dərindən mənimsəmədən Avropa mədəniyyəti dəyərlərini tam həcmdə qəbul etmək və özününküləşdirmək mümkün deyildir.

Kütləvi informasiya vasitələrinin və təhsil sisteminin köməyilə demokratik dəyərlər ictimai şüura təlqin edilməli, modernləşməyə mane olan ideya və əxlaq stereotipləri tədricən sıxışdırılıb şüurlardan çıxarılmalıdır. Modernləşmə dövlət, cəmiyyət və şəxsiyyət arasındakı qarşılıqlı münasibətlərin yeni səviyyəyə qaldırılmasını tələb edir. Demokratik siyasi təsisatların möhkəmləndirilməsi, Milli Məclisin fəaliyyətinin çağdaşlaşma vəzifəsinə uyğun şəkildə istiqamətləndirilməsi, fikir müxtəlifliyinin və sağlam diskussiyaların genişlənməsi, demokratik seçkilərin keçirilməsi üçün münasib şəraitin yaradılması, hakimiyyətin məqsədyönlü və səmərəli bölüşdürülməsi, xalqın durmadan maarifləndirilməsi modernləşmə yolunda mühüm addımlardan sayılmalıdır. Və məhz bu istiqamətdə siyasi partiyaların görəcəyi işlər çoxdur.

Mədəni sintezin və bütövlükdə modernləşmənin uğurla həyata keçirilməsi üçün daha mühüm bir amil nəzərə alınmalıdır. Bu gün minlərlə azərbaycanlı istər müsəlman dünyası, istərsə də müasir Avropa və Amerika mədəniyyətindən bilavasitə «təsirlənmək» imkanına malikdir. Biz müxtəlif qrantlar vasitəsilə Şərqdə, Avropa və ABŞ-da işləyən, təhsil alan, təcrübə keçən azərbay-

canlıları nəzərdə tuturuq. Onlar nə vaxtsa Vətənə dönəcək, hər iki mədəniyyətin qeyri-ixtiyari ötürücüləri olacaq və beləliklə, mədəni sintezin gedişinə güclü təsir göstərə biləcəklər.

Hörmətli konfrans iştirakçıları!

Tarix boyu bəşəriyyətin inkişafına hərəkətverici təsir göstərən ən böyük dühalar insanları təkamülə, birliyə, inkişafa və tərəqqiyə çağırıblar. Belə də, xalqlarımızın inkişafı və tərəqqisi naminə onların göstərdiyi yolla getmək hamımızın mənəvi borcu deyilmi?

Çıxışımı iki misalla tamamlamaq istəyirəm. 2007-ci il YUNESKO tərəfindən Şərqin böyük mütəfəkkir-şairi Cəlaləddin Rumi ili elan olunmuşdur. İnsanları daim barışa və qarşılıqlı anlaşmaya dəvət edən Mövlanə deyirdi: «Dünyaya ayrılmaqçün yox, birlikdə olmaq üçün gəlmişik». Düşünürəm ki, bu sözlər günümüzdə çox aktualdır.

Söhbətlərin birində Azərbaycan xalqının böyük oğlu Heydər Əliyev «Yolumuz harayadır?» sualına qətiyyətlə cavab vermişdir:

- Yönümüz Şərqə olsa da, yolumuz Qərbədir!

İnanıram ki, ümummilli liderimizin əsasını qoyduğu və bu gün hörmətli Prezidentimiz İlham Əliyev tərəfindən davam etdirilən ictimai-siyasi və iqtisadi islahatlar Azərbaycanın modernləşməsi yolunda tezliklə öz bəhrəsini verəcək və ölkəmiz dünya ölkələri sırasına yüksək inkişafa malik, hər iki sivilizasiyanın ən gözəl nailiyyətlərini özündə birləşdirən modern bir dövlət kimi daxil olacaq.

«Sivilizasiyaların dialoqu: siyasi partiyaların rolu»
mövzusunda beynəlxalq konfrans. Bakı, 27 sentyabr, 2007.
Konfransın materialları Bakıda 2008-ci ildə
Azərbaycan, ingilis və rus dillərində nəşr edilib.

TÜRKDİLLİ ÖLKƏLƏRİN QLOBALLAŞAN DÜNYAYA İNTEQRASİYASI: REALLIQLAR, PROBLEMLƏR VƏ PERSPEKTİVLƏR

Qloballaşan dünyamızda inteqrasiya prosesləri getdikcə daha böyük vüsət alır. Xalqlar və ölkələr sürətlə bir-birinə yaxınlaşır, hətta lokal və regional problemlər belə əksər halda beynəlxalq ictimaiyyətin müzakirəsinə çıxır. Planetimiz getdikcə sərhədsizləşir. Təcridolunma, hansısa ölkənin özünü ayrıca bir dünya kimi təsəvvür etməsi artıq mümkün deyil. Bu, türkdilli ölkələrə də aiddir. Öz müstəqilliyinin 19-cu ildönümünü qeyd edən Azərbaycanın, Qazaxıstanın, Qırğızıstanın, Türkmənistanın və Özbəkistanın siyasət, iqtisadiyyat, sosial həyat, hüquq və digər sahələrdə mühüm islahatlar apardıqlarını, demokratikləşdirmə, insan haqlarının təmin olunması və bazar iqtisadiyyatı infrastrukturunun yaradılması prosesində xeyli tərəqqi olduğunu və bunun onların dünya birliyinə inteqrasiyasına kömək etdiyi xüsusi vurğulanmalıdır.

Beynəlxalq iqtisadi əməkdaşlığın nümunəsi kimi Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri layihəsinin reallaşdırılması sahəsində görülən işlər, TRASEKA, böyük «İpək yolu»nun bərpası layihələrinin həyata keçirilməsi türkdilli xalqların bir-birinə və bütövlükdə dünyaya inteqrasiyasına bariz nümunədir.

Qədim və zəngin mədəniyyətə malik olan, bəşəriyyətə görkəmli şəxsiyyətlər bəxş etmiş türk dünyası xalqlarının bu sahədə əməkdaşlığının daha da genişləndirilməsi vacibdir, tarixən yaranmış bənzərsiz mədəni irsimizi indiki nəsillərə qaytarmaqla yanaşı, onu dünyaya daha da yaxından tanıtmaq, eyni kökə, eyni tarixə malik olduğumuzu bir daha nümayiş etdirmək baxımından son dərəcə önəmlidir. Bu sahədə TÜRKSOY təşkilatının gördüyü işlər və ümumən onun fəaliyyəti qeyd edilməlidir.

Uğurlardan biri də o oldu ki, ölkələrimiz türk dünyasından təcrid olunmuş vəziyyətdən çıxarıldı. Türk dünyasına məxsus olan, indi müstəqil dövlətlərə çevrilən sabiq sovet respublikaları digər türk ölkələri ilə qonşuluq, dostluq və qardaşlıq münasibətlərini bərpa etdilər. Azərbaycan indiyə qədər türk dövlətləri başçılarının bütün sammitlərində iştirak etmiş, bu ittifaqı möhkəmləndirmək üçün əlindən gələni əsirgəməmişdir. 2000-ci ildə Azərbaycanda keçirilən növbəti sammit bütün türk dünyası və türk dövlətləri ailəsi üçün çox mühüm olan və gələcək əməkdaşlıq üçün proqram xarakteri daşıyan məşhur «Bakı bəyannaməsi»nin elan edilməsi ilə başa çatmışdır.

Türkdilli ölkələr mühüm coğrafi mövqeyə malikdirlər. Xalqlarımız əsrlər boyu hər iki sivilizasiyanın təsirini görüb. Min ildən artıq bir müddətdə müsəlman aləmində olduğumuz halda, sonradan çar Rusiyası torpaqlarımızı işğal edərək bizi yeni mühitdə yaşamağa məcbur edib. Bununla bərabər, çar

Rusiyası tərkibində olduğumuz zamanlarda yeni dəyərlər sistemi ilə tanış olmuşuq, ziyalılarımız rus dili vasitəsi ilə mütərəqqi rus və Avropa elmini və ictimai-siyasi fikrini mənimsəyib, maarifçilik ideyalarına yiyələnib. Sovetlər dönəmində də bu proseslər davam edib, əhali dünyəvi təhsil alıb, kütləvi savadlanıb.

Sovet rejiminin dağılmasından sonrakı dövr türkdilli ölkələrin tarixində ağır böhranlı dövr oldu. Əslində, bu böhranı təkcə biz yox, keçmiş Sovetlər Birliyinə daxil olan bütün respublikalar yaşadı.

Bu ölkələrin siyasi və sosial-iqtisadi müstəqilliyi ilə yanaşı, mədəni-mənəvi müstəqilliyi də birdən-birə başlandığından, əhalinin yeni proseslərə uyğunlaşması ağrılı getdi. Çünki ölkələr müvafiq hazırlıq işi aparmadan xarici aləmə açılmışdı. Sovet İttifaqının yürütdüyü siyasət nəticəsində mədəniyyətlərarası əlaqələr qırılmışdı, totalitar sovet rejimi dini əqidəni məhv etmək istiqamətində uzun illər ardıcıl iş aparmışdı. Təbii ki, bütün bunlardan sonra milli mədəniyyətlərin və islam dəyərlərinin bərpası asanlıqla başa gələ bilməzdi.

Digər tərəfdən, bu işə tələsik və qarmaqarışıq şəkildə başlanmışdı. Doğrudur, müsəlman Şərqi elə o zaman keçmiş Sovetlər Birliyinə daxil olan türkdilli ölkələri öz sıralarına - İslam Konfransı Təşkilatına üzv qəbul etsə də, bəzi ölkələrdə, o cümlədən Azərbaycanda «Dini etiqad azadlığı haqqında» qanun qəbul olunsa da, bu sahədə ortaya çıxan problemlərin bir çoxu bu günədək tam həllini tapmayıb.

Bundan əlavə, xalqlarımızın Avropa mədəniyyətinə və tərəqqiyə qovuşmaq arzusunun da tam reallaşması asan iş deyil. Bu gün demokratiya, vətəndaş cəmiyyəti, bazar iqtisadiyyatı, insan haqları, aşkarlıq və s. ilə bağlı dəyərlər getdikcə cəmiyyətlərimiz üçün daha çox yaşam normasına çevrilir. Amma bu meyarların ümummilli dəyərlər sırasında öz yerini tam tutması üçün müəyyən zaman kəsiyi lazımdır.

Azərbaycan cəmiyyəti müstəqillik qazanandan sonra özündən asılı olmayaraq fərqli mədəniyyətlərin arasına düşüb və onların hər birinin qarşılıqlı təsirini üzərində hiss edir. Əlbəttə, bu halda ziddiyyətlərin olması da təbiidir. Sadəcə cəmiyyətimizdən və onun hər bir üzvündən sayıqlıq, düzgün seçim etmək bacarığı tələb olunur. İnteqrasiya prosesi o zaman uğurlu olar ki, cəmiyyət öz «Mən»ini itirməsin. Bu mənada türkdilli ölkələrin bu gün hansısa ənənəvi, yaxud modern dəyərlər sistemindən imtina yolu ilə deyil, onların ən müsbət cəhətlərini özündə birləşdirmək yolu ilə getməlidir.

Demokratik dəyərlər mətbuat və təhsil sistemi vasitəsi ilə ictimai şüura yeridilməlidir. İnkişafa mane olan əxlaq stereotipləri çıxışdırılıb şüurlardan çıxarılmalıdır. Dövlət, cəmiyyət və şəxsiyyət arasındakı qarşılıqlı münasibətlər

yeni səviyyəyə qaldırılmalıdır. İctimai təşkilatların dövlət idarəçiliyinə cəlb edilməsinə şərait yaradılmalı, Parlamentlərin fəaliyyəti vətəndaş cəmiyyətinin tələblərinə uyğunlaşdırılmalıdır. Fikir müxtəlifliyinə və sağlam diskussiyalara geniş meydan verilməlidir.

Etiraf edim ki, Azərbaycanda artıq bu istiqamətdə xeyli ciddi addımlar da atılıb. Ümumiyyətlə, Azərbaycan çağdaş nailiyyətləri mənimsəmək baxımından həmişə Şərqdə birinci olub. Şərqdə ilk demokratik respublika və ilk demokratik təsisatlar ötən əsrin əvvəllərində məhz bizdə yaranıb. Xalqımız daim dinc, yanaşı yaşamaq ənənəsinə sadiq olub. Əhali dünyəvi təhsil alır. Avropa mədəniyyətinin nailiyyətləri Azərbaycanda başqa müsəlman cəmiyyətlərinə nisbətən qat-qat çox yayılıb. Məhz bu təcrübə və amil inteqrasiya proseslərinin sürətləndirilməsi üçün Azərbaycanda əlverişli şərait yaradır.

Bu gün Azərbaycanda həyata keçirilən islahatlar milli mədəniyyətimizin möhkəm təməli üzərində qurulur. Çünki milli-mədəni dəyərləri, milli kimliyimizi mənimsəmədən Avropa dəyərlərini qəbul edə və özümüzünküləşdirə bilmərik.

Bu gün azərbaycanlı gənclərin böyük hissəsi müsəlman dünyası ölkələrində, Avropa və Amerikada təhsil alırlar. Zənnimcə, onların həmin ölkələrin mədəniyyətindən daha çox bəhrələnmək imkanı var. Onlar Vətənə dönəndə bu mədəniyyətlərin də nailiyyətlərini özləri ilə gətirəcək və bununla da mədəni sintezə güclü təsir göstərə biləcəklər.

Ulu öndərimiz Heydər Əliyev Azərbaycanın sivil dünyaya inteqrasiyasının reallaşmasında böyük demokratik ənənəyə və regionda xüsusi çəkiyə malik olan qardaş Türkiyənin roluna daim ciddi önəm verir, ölkələrimizin uğurlarının məhz sıx qarşılıqlı əməkdaşlıqdan keçdiyini bildirirdi. Həqiqətən bu da faktdır ki, qloballaşma ideyasının gerçəkləşməsi və sivilizasiyaların qovuşması üçün vacib olan Şərq-Qərb münasibətlərinin tənzimlənməsində Türkiyə əhəmiyyətli rola malikdir və region üçün nümunə ola biləcək dövlətdir. Bəlkə də qardaş ölkənin elə bu sürətli inkişafı, modern dünyanın bir parçası olması onun ayrı-ayrı «siyasi» və terrorist qrupların hədəfinə çevrilməsinə səbəb olub. ABŞ Konqresi Nümayəndələr Palatasının Xarici Əlaqələr Komitəsində qondarma erməni soyqırımı haqqında qərar layihəsinin təsdiq edilməsi bu günlərin aktual mövzusudur...

Fikrimizcə bu gün söhbət Azərbaycan-Türkiyə münasibətlərindən deyil, daha geniş miqyasda - ümumtürk dünyası həmrəyliyindən getməlidir. Bu gün Türkiyənin qarşılaşdığı problemlə bağlı dəstək təkcə Azərbaycandan deyil, digər türk respublikalarından da gəlməlidir. Ümumiyyətlə, məruzəmizin əvvəlində qoyduğumuz problemin üzərinə qayıdaraq bildirirəm ki, qloballaşma

və inteqrasiya proseslərini biz ilk növbədə öz içimizdə aparmalıyıq. Əgər Şərqlə Qərb, əgər fərqli sivilizasiyalar vahid məcraya gəlirsə, eyni kök, eyni milli-mənəvi dəyərlərə malik xalqlar niyə bir-birinə qovuşmamalıdır? Vaxtilə sovet rejimi bu xalqları bir-birindən ayırmaq üçün onlara müxtəlif adlar qoysa da, köklərini ayrı-ayrı millətlərin tarixlərində axtarmağa məcbur eləsə də, mənəvi, ruhi bağlılığı qıra bilməyib. Bu gün əsas məsələ həmin əlaqələri genişləndirmək və həmin bağları möhkəmləndirməkdir.

Fikrimcə, bunu reallaşdırmaq üçün vasitələr də çoxdur. Məsələn, bu məqsədlə türk respublikalarının müxtəlif forma və məzmunlu birlikləri yarana və yaxud elmi, ədəbi, mədəni sahələrdə nailiyyətlərə görə ümumtürk respublikalarının vahid mükafatları, fəxri adları təsis edilə bilər. Ya da götürək terror problemini. Türk respublikalarının terrorizmə qarşı vahid mübarizə təşkilatını yaratmaq mümkün deyimli? Əlbəttə, mümkündür və onu da qeyd edim ki, dövlətlərimiz ayrı-ayrı olsa da, çox vaxt eyni mənşəli və eyni xətli problemlərlə üz-üzə qalır.

Türkdilli ölkələr arasında ticarət-iqtisadi əlaqələri genişləndirmək məqsədi ilə ikitərəfli və çoxtərəfli layihələrin, xüsusən sənaye, kənd təsərrüfatı, nəqliyyat, kommunikasiya və turizm sahəsində layihələrin hazırlanmasının və həyata keçirilməsinin əhəmiyyətini bir daha qeyd etmək istərdim.

Parlamentlər, mərkəzi və yerli hakimiyyət və idarəetmə, özünüidarə orqanları və qeyri-hökumət təşkilatları arasında əməkdaşlığın daha da dərinləşdirilməsinə xüsusi əhəmiyyət verilməlidir.

Türkdilli dövlətlərin dünya iqtisadiyyatına inteqrasiya prosesi də durmadan davam etdirilməlidir. Türkdilli dövlətlərin geosiyasi vəziyyətini nəzərə alaraq, hərtərəfli iqtisadi və sosial inkişafın təmin olunması üçün onların beynəlxalq maliyyə institutları, iqtisadi təşkilatlar, regional birliklərlə əməkdaşlıq genişləndirilməlidir, bütövlükdə dünya iqtisadiyyatına inteqrasiya prosesi sürətləndirilməlidir.

Milli iqtisadi maraqlardan irəli gələn şərtlər əsasında türkdilli dövlətlər Ümumdünya Ticarət Təşkilatının tamhüquqlu üzvü olmalıdırlar. Azərbaycan artıq Avropa İttifaqı ilə «Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi» imzalamış, Avropa qonşuluq siyasətinə daxil edilmişdir. Bu istiqamətdə digər türkdilli dövlətlərin səyləri gücləndirilməli, bütün sahələrdə Avropa standartlarının tətbiq edilməsi üzrə məqsədyönlü tədbirlər görülməlidir. Türkdilli ölkələrin malik olduqları zəngin təbii sərvətlər, onların mövcud iqtisadi, elmi-texniki potensialı bu sahədə daha səmərəli əməkdaşlıq üçün əlverişli şərait yaradır. Bütün bunlar, habelə ölkələrimizin mühüm coğrafi mövqeyi regionun iqtisadi tərəqqi zonasına çevrilməsi, dünya iqtisadi sistemində layiqli yer tutması üçün yaxşı zəmin-

dir. Bu, türkdilli ölkələr üçün həm də böyük siyasi üstünlüklər açır.

Böyük əhəmiyyət və xüsusi önəm daşıyan bu qurultayda türk dövlət və cəmiyyətlərinin əməkdaşlıq əlaqələrinin genişləndirilməsi, türk dünyası mədəni irsinin təbliği, gəncliyin qarşısında duran vəzifələr, onların milli ruhda tərbiyə olunması, ümumi problemlərin birlikdə həlli yollarının araşdırılması, türkdilli xalqlar arasında elm, texnika, mədəniyyət, təhsil, iqtisadiyyat, ticarət, turizm və maliyyə sahələrində əməkdaşlıq, informasiya mübadiləsi təminatı, müasir qloballaşma proseslərinin xalqlarımızın həyatına təsiri ilə bağlı məsələlər müzakirə ediləcəkdir.

Qurultayın işinə uğurlar diləyir və inamını ifadə etmək istəyirəm ki, görülən işlər tezliklə öz gözəl bəhrəsini verəcək. Çıxışımı XX əsr türk dünyasının böyük öndərlərinin sözləri ilə bitirmək istərdim. Mustafa Kamal Atatürk: «Efendiler! Çalışmadan, öğrenmeden, yorulmadan rahat yaşama yollarını alışkanlık haline getiren milletler, önce onurlarını, sonra hürriyyetlerini, daha sonra geleceklerini kaybetmeye mahkumdurlar». Və, Heydər Əliyev: «Dəfələrlə dediyimiz «Biz bir millət iki dövlətik» sözləri hər bir azərbaycanlının qulağında səslənməlidir. Bu ifadə bizim gələcəyimizin proqramıdır». Düşünürəm ki, bu ifadə digər türkdilli xalqlara da aiddir və həm də onların da proqramına çevrilməlidir.

Türk Dövlət və Cəmiyyətlərinin XI Dostluq,
Qardaşlıq və Əməkdaşlıq Qurultayının beynəlxalq
əlaqələr, media və informasiya texnologiyaları
komissiyasının iclasında məruzə. 18 noyabr 2007-ci il.

MÜHACİR ŞAİR ALMAS İLDIRIMIN YARADICILIĞINDA «DƏNİZ»

Zəngin tarixi keçmişə malik Azərbaycan ədəbiyyatının bir sıra nümayəndələrinin həyat yolu və yaradıcılığının vətənin hüdudlarından kənarda davam etməsi bəlli bir həqiqətdir. Mühacirət ədəbiyyatının tarixi hələ orta əsrlərdən başlayır. A.Musayevanın doğru olaraq qeyd etdiyi kimi, «çağdaş ədəbiyyatşünaslıqda Azərbaycan mühacirət ədəbiyyatı deyərkən, nədənsə, daha çox XX əsrin əvvəllərindən bəri vətəni tərk edən və əsasən, Türkiyəyə gedən sənətkarların yaradıcılığı nəzərdə tutulur. Halbuki, qədim və orta əsrlərdə də Azərbaycan mühacirət ədəbiyyatının varlığı bir reallıqdır». (Musayeva, 2007: 3) Yalnız XX yüzilliyin deyil, tarixi orta çağlardan başlayan Azərbaycan mühacirət ədəbiyyatının da Türkiyə ilə bağlılığı bəlli bir gerçəklikdir. XX yüzillikdə Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra türkçülüyün bütün səviyyələrdə - siyasi, ədəbi və ictimai sahələrdə təqibi bir sıra ziyalıların bu ölkədən mühacirət etməsi ilə nəticələndi. Məcburi vətən ayrılığı mühacir şairlərin şəxsində mühacirət Azərbaycan ədəbiyyatını yaratdı. Bu ədəbiyyatın, özəlliklə də şerin başlıca ayırıcı xüsusiyyəti isə vətən həsrətidir. Bu həsrət və nisgil Azərbaycan mühacirət ədəbiyyatının tanınmış nümayəndələrindən olan Almas İldırımın şeir yaradıcılığında konkret olaraq dəniz mövzusunu müəyyənləşdirən əsas amil oldu. Əslən bakılı olan və Xəzər dənizinin sahillərində boya-başa çatan Almas İldırım bütün həsrətini, nisgilini, küskünlük və incikliyini, vətən sevgisini, siyasi və ictimai görüşlərini, fəlsəfi və dini düşüncələrini dəniz və onunla bağlı mövzular ətrafında cəmləşdirmişdir.

Almas İldırım adı Azərbaycan oxucusuna qürbət, nisgil və həsrət şairi olaraq tanışdır. Onun nostalji hissləri, demək olar ki, hər şerində boy göstərir. Müşahidələrimiz göstərdi ki, şairin bu hissləri ifadə üçün seçdiyi obrazlar içərisində ən işlək və qabarıq olanı dəniz obrazıdır. «Vətən obrazından danışarkən Almas İldırıma xas olan bir cəhəti də qeyd etmək yerinə düşər ki, yalnız Almas İldırımda çox geniş aspektdə təzahür edən Vətən obrazının canlandırılmasıdır». (Həsənoğlu, 2007: 33) Qeyd etməliyik ki, bu vətənin canlı obrazı isə onun həm də vətənlə eyniləşdirdiyi dəniz obrazında da üzə çıxır. Dəniz Almas İldırımın şerində həm obraz, həm məcaz, həm də tərxis örnəyi olaraq çıxış etməkdədir. Şairin əsərlərində bir çox motivlər - vətən, türk xalqların dünəni və bu günü, dost (türk xalqları) və düşmən (rus) obrazları barədəki mülahizələr dəniz obrazı vasitəsilə ifadəsini tapmışdır. Şairi bu obraz və onunla bağlı mövzulara təkrar-təkrar qayıtmağa istiqamətləndirən cəhət, çox ehtimal ki, onun Xəzərin sahilində doğulub böyüməsidir. Onun bir

şair olaraq obrazlı düşüncəsinin və psixoloji durumunun formalaşmasında bu amilin istiqamətverici rolu şübhə doğurmur. Almas İldırımın əsərlərində ən çox yad olunan dəniz adının Xəzər olması da bu kontekstdə olduqca təbii səslənir. Xəzər dənizi və digər dənizlərlə bağlı mövzularda şairin bədbin əhval-ruhiyyəsi, küskünlüyü və s. qabarıq şəkildə özünü göstərməkdədir. Şeirlərində buz dənizi, dalğalar, fırtınalar və qasırğaların sıx-sıx xatırladılması ictimai-siyasi həyatın şairin şüurunda buraxdığı təsirin izləridir.

Şairin dənizlə bağlı düşüncələrinin ifadəsində qabarıq nəzərə çarpan cəhətlərdən biri də siyasilikdir. Şairin məhəbbəti və nifrətini ifadə üçün seçdiyi dəniz obrazı həm do onun gizli siyasi niyyətlərini və mövqeyini açıqlamağa yardım edən bir vasitədir. Almas İldırım ictimai həyat və siyasi düşüncələrdəki qarışıqlıq və çaxnaşmaları ifadə üçün dünya və yaradılmışın simvolu kimi çıxış edən dənizə tez-tez müraciət edir. Siyasi-ictimai motivli bir süjetin nəqlinə keçməzdən öncə şair dəniz və Xəzərə xas soyuq külək obrazları ilə bədii zəmin hazırlayır. Aşağıdakı misralarda soyuq küləyi kabus adlandırma fərdi xarakterli bir obrazlılıqdır. Bu «kabus» isə «Buzlar dənizi» deyə eyham vurduğu Rusiyadan gələn sovet ideologiyasıdır. Bu tərzdə isə giriş şairin bədii məntiqinin gücünü nümayiş etdirir :

Buzlar dənizində əsərdi rüzgar
Tənha sahili san gəzərdi ölü. (İldırım, 2007: 141)

V.Sultanlının qeyd etdiyi kimi, Almas İldırım şerinin mayası dərddən yoğurulmuşdur. Bu dərd bir yandan mühacirliyin, vətənə əlyetməzliyin doğurduğu dərddir. Digər tərəfdən isə, şairi kədərləndirən bir başqa səbəb isə vətənin əsir, kölə həyatı yaşamaqda olmasıdır». (Sultanlı, 2007: 50) Onun şeirlərinin böyük əksəriyyətində isə bütün bu duyğular və qəlb ağrılarını ifadə üçün seçilən başlıca ədəbi vasitə və obraz isə dənizdir. Şairin çox sevdiyi dənizi bu şəkildə pessimist təsvirləri onun özü ilə onu çevrələyən təbiət arasında bir ruhi həmahənglik və tənasüb yaratmasının, kainatı qəlb gözü ilə seyr etməsinin nəticəsidir. Almas İldırım özü bunu belə ifadə edir:

Dərdim gətirir cuşa qəlbimin dənizini,
İçimdəki tufanlar, fırtınalar, boranlar,
Hər bir anda könlümü gah üzər, gah yaralar,
Hər baxışdan qəlbimə saplanar dərin bir ox,
Heyhat, yetim qəlbimin heç bir təsəllisi yox...
(Sultanlı, 2007, 151)

Xüsusilə Bakı və Xəzər sevgisini şair dəniz mövzusu ətrafında açmağa meyllidir:

Söylə nədən səs verməyir Xəzərim,
Mən ki onun hər dərdini yazarım,
Sürgün olub uğrunda həp gəzərim,
Qismətim bu uzun yollar, a dağlar.

Tanınmış Azərbaycan ədibi Cəfər Cabbarlı kimi, Xəzərin adını Quzğun olaraq dönə-dönə yad edən Almas İldırımın bu ada xüsusi diqqət ayırması, zənnimizcə, təsadüfi deyildir. Xəzərin bu qədim adının dilimizdə yırtıcı quşlardan birinin də adı olması şairin dənizlə əlaqələndirdiyi dağıtmaq, iti sürətlilik və müəyyən anlamda bəd xislətlilik kimi sifətləri assosiativ olaraq yada salır. Aşağıdakı örnəklərə nəzər salaq:

Tarix boyu axdığı yerdən alıb izini,
Qoşmuş dəli Quzğuna Kür çağlaya-çağlaya
Görüncə baş ucunda dərdli Türkmən qızını,
Araz da dərdə gəlmiş yas bağlaya-bağlaya... (İldırım, 2007: 147)

Bəzən Almas İldırımın bədii düşüncəsinin ifadə tərzi və şeir texnikasında qüsur tapmaq mümkün olur, bununla belə, onun güclü duyğuları səmimi, sadə və təbii ifadə tərzi bu texniki cəhətlərdəki bəzi bəsitliklərin üzərinə örtük çəkir. Bundan başqa, V.Sultanlının da qeyd etdiyi kimi, «mühacirət ədəbiyyatının dəyəri bədiilik meyarı ilə deyil, onun ideya, məfkurəvi təsiri ilə ölçülməlidir». (Sultanlı, 2007: 45) Örnək olaraq, səmimiyyət və siyasi məfkurəni ifadə tərzi bədiiliyi üstələyən aşağıdakı şeri göstərə bilərik:

Bax nə deyir yenə bu coşqun Xəzər,
Qoynunda Şimaldan gələn yad gəzər,
Bu bir dərd ki, məni ömrümcə əzər,
Salır məni haldan-hala, əlvida. (İldırım, 2007: 152)

V.Sultanlının doğru olaraq qeyd etdiyi kimi, «mövcud şeir örnəklərinin təhlili göstərməkdədir ki, mühacirət şerində qürbət və qəriblik duyğusu, sadəcə məkan anlamı deyil, fəlsəfi, estetik bir mahiyyət daşımaqdadır». (Sultanlı, 2007: 46)

Aşağıda bir örnəyini verdiyimiz «Qara dastan» adlı məşhur əsərində Almas İldırım «sadəcə Azərbaycanın deyil, ümumiyyətlə Sovetlər İmperatorluğunda yaşayan türk xalqlarının ağır və acınacaqlı həyatından bəhs» edir. (Sultanlı, 2007: 53)

Almas İldırımın şeirlərində dəniz mövzusunda diqqəti çəkən cəhətlərdən biri də onun millətin adı, yəni etnonimlər əvəzinə həmin xalqların sahilində yaşadığı dənizi və ya çayın adını verməsidir. Metonimiya örnəkləri olan bu poetik hadisə daha çox siyasi məzmunlu şerlərdə müşahidə olunur.

Xəzər coşar, xəbər salar Kürünə,
Axar gedər Kür sürünə-sürünə,
İdil1 ağlar, Altun Ordu yedinə,
Aral da öz varlığından peşman hey,
Qoca Türkün düşdüyü dərd yaman, hey!
(İldırım, 2007: 147)

Və ya:

Mən dedim ax dəli, coşqun Xəzərə,
Get qucaqlaş və yar ol,
Mən dedim ölkələri
Güldürən bir bahar ol.
Mən demədim buzlu Şimal istəyinə
Uyaraq bizdən uzaq
Bir yerə dol. (İldırım, 2007: 264)

«Buzlu şimal» deyilərkən Sovetlər Rusiyanın nəzərdə tutulması hər hansı bir şübhədən kənardır. Bu tərzdə ifadə tərzinə repressiya qurbanlarından biri və Almas İldırım kimi Xəzər sahillərində doğulub boya-başa çatmış Ümmülgülsümün də yaradıcılığında rast gəlirik:

Darmadağın eylə dalğalarınla
Bizi dar divara alan qalanı,
Heçliklərə sovur nalələrinlə
Çıxılmaz tilsimə salan qalanı! (Ümmülgülsüm, 1992: 3)

Almas İldırımın dənizlə bağlı mövzular üzərində qurulan şeirlərində həm şairin vətən həsrəti, həm türkçülüklə, həm də Turanla bağlı düşüncələri ifadəsini tapmışdır:

Amudərya, niyə bəs
Vermiyorsan mənə səs?
Ya neçin dalgaların gəlmiyor üsyanla dilə?
Söylə göz yaşları, qan selləri boğmurmu səni?
Qoca Şərq dağları qan udmağa doğmuşmu səni?
(İldırım, 2007: 264)

Bu poetik parçalardan göründüyü kimi, Xəzər Azərbaycan və azərbaycanlıların, İdil (Volqa) tatarların, Aral və Amudərya, ümumiyyətlə, Türküstan türklərinin rəmzi olaraq şerə gətirilmişdir. Siyasi və ictimai motivlər bu kimi əsərdə xüsusi vurğusu ilə seçilir.

Almas İldırımın üsyankar ruhu onun «Qorkiyə» adlandırdığı və inqilabi ədəbiyyatın məşhur nümayəndəsi yazıçı Maksim Qorkiyə ünvanlandığı şeirdə

[1] Volqa

çox qabarıq şəkildə ifadəsini tapmışdır:

Sən, daşqın dənizlərin qayalarla çarpışan,
Yıldırımlar söndürən dalğasından yarandın... (İldırım, 2007: 272)

Şairin bu əsərində daşqın dəniz başı göylərə dəyib səmadakı odu - ildırımı söndürə biləcək çox qadir bir qüvvə kimi tərənnüm olunur. Bu da şairin həmin anda yaşadığı öz güclü hisslərinin olduqca poetik və fərdi ifadəsidir.

İnsanın istər yenilik axtarışı, istər fikri üsyanı, istərsə də siyasi inqilablar Almas İldırım şerində dəniz mövzusu ilə bağlı ifadəsini tapır. Tanınmış inqilabçı şair Lahutiyə xitabən şair deyir:

Mən bilirəm qoynunda qaynaşır uzaq ümman,
Üsyanların içində keçər günlər və aylar... (İldırım, 2007: 273)

Azərbaycanın sovet və rus əsarətinə son qoymasına ümidini də şair aşağıdakı dillər əzbəri misraları ilə ifadə edir:

Salam desəm rüzgar alıb götürsə,
Ağrı dağdan Alagözə ötürsə,
Gur səsimi göy Xəzərə yetirsə,
Xəzər coşub zəncirini qırsa oy,
Hökm etsə bu sərsəm gediş dursa, oy! (İldırım, 2007: 308)

Almas İldırımın vətən həsrəti və vətən sevgisindən doğan «nazlı Bakım, o neft qoxan gülüm» ifadəsi də dolayısı ilə Bakının dənizlə bağlı neftinə eyhamla deyilmiş, fərdi, olduqca poetik və təkrarsız epitetdir.

Tez-tez özü ruh halı və psixoloji durumu ilə dənizlər və çaylar arasında tənasüb yaratmağa meylli şair yazır:

Sorma içimdən qopub gələn o hıçqırıq nə?
O qərib bir irmağın qəlbimə çarpan səsi,
O dəli bir Quzğunun çağlayıb inləməsi... (İldırım, 2007: 284)

... Könlüm kimi coşan Araz,
Get Quzğuna boşan Araz. (İldırım, 2007: 284)

Orda qoca Hind dənizi əsəbi, qaynar,
Sahillərin qəlbi qırıq qasırğalardan... (İldırım, 2007: 162)

Onun qəmli könlünün gözü ilə dənizlər və çaylar da dərdlidir:

Ənginləri ötən qara gözlü buludlar,
Axıb gedən qanlı Qanqa şikayət eylər.... (İldırım, 2007: 162)

O zaman Qara dəniz
Fırtınalı, boralıydı.
Sular coşqun, əsəbiydi,
Daşqın qəlbi yaralıydı. (İldırım, 2007: 251)

Onun şeirlərində dənizin təzadlı təqdimi diqqəti cəlb edir: o ya sakit halında dərddən axan göz yaşıdır, ya da coşduğu zaman fırtınalar, boranlar mənbəyidir. Əslində Almas İldırımın təsvir etdiyi dənizin çox zaman adı dəyişir. Onlara aid edilən sifətlər və onlarla bağlı ifadə edilən fikirlərdə çox yaxınlıq diqqəti çəkir. Şairin əsərlərində dəniz olaraq yad olunan obyekt çox zaman Xəzər dənizidir, bəzən Qara dənizdir, bəzən Hind okeanı və ya Sena çayıdır... Hər zaman sabit qalan isə onun iç dünyası ilə, daxili təlatümləri ilə dəniz və çaylar arasında gizli bağların qurulması, bu dəniz və çayların onun əhval-ruhiyyəsinin tərcümanı olmasıdır. İctimai-siyasi həyatda baş verən üsyanları və çaxnaşmaları düşüncələrə və təbiətin bir parçası olan dənizin üzərinə köçürüb münasibət bildirmə Almas İldırımın şeir yaradıcılığında qabarıq nəzərə çarpan bir cəhətdir. Şair inqilablar və üsyanlarla dənizdəki qasırğa və tufanlar arasında fikri bağlılıq qurur:

Ey parçalanmış Şərq, ey gözəl ana,
Bənzə dənizlərdə qopan tufana,
Aciz yox, cəsur ol, hayqır düşmana,
Əzməsin inləyən elini Şərqin! (İldırım, 2007: 170)

Almas İldırımın poetik fikir sistemində, özəlliklə də bənzətmələr silsiləsində xüsusi bir yeri olan dənizə yalnız siyasi-ictimai düşüncəni ifadə üçün müraciət olunmur. Dəniz həm də məhəbbət mövzusunda bənzətmənin ünsürlərindəndir və hətta təbiətdə baş verən hadisələri də şair ara-sıra məhəbbət mövzusu ilə əlaqələndirir. Bu coşan məhəbbət dənizi bəzən insanın daxili aləmi, bəzən də təbiətdəki digər varlıqlarla əlaqələndirilir:

...Bilməzdi nə imiş bunun səbəbi,
O bəzən daralmış, bəzən əsəbi,
Dalğalı bir dəniz kimi coşardı,
Ürəyində qızın eşqi yaşardı. (İldırım, 2007: 215)

Boy atınca dənizdən çayların sevdiyi ay,
San busələr alırdı ləpələr ləpələrdən. (İldırım, 2007: 246)

Dənizin qoynunda dünyaya gəlib bir şəxsiyyət kimi formalaşan, ilhamını dəniz və onunla bağlı hadisələrdən alan Almas İldırım qəlb dünyasındakı dənizi psixoloji ovqatına, əhval-ruhiyyəsinə uyğun olaraq bəzən «ölü, durğun dəniz», bəzən də tufanlı dənizin bir parçası olaraq görür. Türkün şanlı tarixi keçmişinə poetik xəyali bir ekskurs edən şair:

...Mənmiyəm, ölü, durğun bir dəniz kimi böylə,
Söylə, ey Bozqurdların yaşıl diyarı, söylə? (İldırım, 2007: 246)

- deyə «mən» deyərək bütün türklərin adından türklüyün ümumi dərdlərini

dilə gətirir. Şeirlərinin birində:

Mən tufanla doğuldum, tufanla öləcəyəm, (İldırım, 2007: 315)

- deyən şair əslində əsas mövzusu dəniz və onunla bağlı mövzular olan şeirləri ilə ölümsüzlük qazandı...

Müraciət etdiyimiz nümunələr göstərir ki, Almas İldırımın yaradıcılığının leytmotivi olan vətən məhəbbəti, vətənin müstəqilliyi mövzuları dənizlə bağlı mövzularla əlaqəli açıqlanır. A.Həsənoğlunun qeyd etdiyi kimi, Almas İldırımın misralarının deyilişində çox qəribə bir hissiyyat – Xəzər pıçıltısı duyulur. Zamanın gedişini durdurmaq üçün coşub-daşan, amma öz sərhədini aşa bilməyən Xəzərin iniltisinə qarışır şairin iniltisi». (Həsənoğlu, 2007: 42)

Ədəbiyyat

1. İldırım, Almas, (2007): Boğulmayan bir səs, Bakı, «Avrasiya Press».
2. Həsənoğlu, Aygün, (2007): Ölməz eşqim Almas İldırım, Bakı, «Qarabağ».
3. Musayeva, Azadə (2007): XV-XVI əsrlər Azərbaycan mühacirət ədəbiyyatı və Xəlilinin «Firqətnamə»si, Bakı, «Elm».
4. Cabbarlı, Nikpur, (2003): Mühacirət və klassik ədəbi irs, Bakı, «Elm».
5. Ümmülgülsüm, (1992): Gözümüz yaşlıdır, sinəmiz dağlı, Bakı, «Nicat» nəşriyyatı.
6. Sultanlı, Vaqif (2007): Azerbaycan Mühaciret Edebiyatı, Avrupa Yakası yayınları.

Uluslararası Kibatek Edebiyatı Sempozyumu.
Türk Kültüründe Deniz ve Deniz Edebiyatı (Edebiyatda Deniz).
Antalya-Türkiye, 28 Nisan - 2 Mayıs 2008.

İSLAM MEMARLIQ ABİDƏLƏRİ ÜMUMBƏŞƏRİ MADDİ-MƏDƏNİ DƏYƏRLƏR KONTEKSTİNDƏ

Hörmətli xanımlar və cənablar!

Bəşəriyyətin çoxəsrlik tarixində insanların yaradıcı potensialı özünü daim göstərmişdir. Məhz bu potensialın nəticəsidir ki, minilliklərin dərinliklərindən günümüzə çatmış maddi mədəniyyət nümunələri bizləri valeh edir və bir daha insanın yaradıcı qüdrəti qarşısında baş əyməyə məcbur edir.

Məlumdur ki, ümumbəşəri maddi-mədəni dəyərlər müxtəlif xalqların və sivilizasiyaların qarşılıqlı əlaqə və təsiri nəticəsində yaranıb. Eramızdan əvvəl ikinci minillikdə qədim Şərq mədəniyyətinin yunan mədəniyyətinə təsiri inkaredilməzdir. Ellinizm dövründə isə yunan mədəniyyəti Şərq mədəniyyətinə ciddi təsir göstərdi. Orta əsrlərdə mədəni təsirin istiqaməti yenə də Şərqdən Qərbə yönəldi. Barbarların hücumları nəticəsində yunan-rum sivilizasiyası süquta uğradıqdan sonra məhz islam mədəniyyəti antik və Avropa Renessans mədəniyyəti arasında vasitəçi oldu.

İnsanların bədii yaradıcılığı çox qədim dövrlərdən başlayıb. Fərdlərin həyatında olduğu kimi xalqların da tarixində elə xüsusi dövrlər olur ki, bu zaman onların yaradıcılıq qabiliyyəti daha parlaq və tam realizə olunur. Müsəlman aləmində belə dövr orta əsrlərə (daha çox VIII-X əsrlərə) təsadüf edir. Məhz bu zaman Ərəb Xilafətində şəhər mədəniyyəti çiçəklənir, sənətkarlıq və ticarət inkişaf edir, möhtəşəm memarlıq abidələri (saraylar, türbələr, məscidlər, karvan-saraylar və s.) inşa edilir, universitetlər yaranır və burada ilahiyyatla bərabər müxtəlif dünyəvi elmlər tədris olunur, böyük kitabxanalar yaradılır.

Şərqin qədim sivilizasiyalarını və Aralıq dənizi xalqlarının mədəni ənənələrini mənimsəyib, yaradıcı şəkildə dəyişərək inkişaf etdirən ərəblər daha sonra XI-XIII əsrlərdə Qərbi onlarla tanış etdi və bununla da Avropa intibahına öz töhfəsini verdilər. Məhz ərəblər vasitəsilə Avropa ilk dəfə antik və Şərq elmi – tibb, riyaziyyat, astronomiya, fəlsəfə ilə tanış oldu.

İslam aləminin çoxəsrlik tarixində yaradılmış möhtəşəm islam memarlıq abidələri bu gün də insanları valeh edir, milyonlarla turistləri özünə cəlb edir. Abidələrin bəzisi öz estetik gözəlliyi ilə, öz əzəməti ilə, yaxud ölçülərinin nəhəngliyi və görülən işin böyüklüyü ilə bizlərdə müxtəlif duyğular yaradır. Amma bütün hallarda ümumi bir hiss – bəşər övladının sənətkarlıq qüdrəti qarşısında heyrət hissi bizləri tərk etmir. İslam maddi mədəniyyət abidələri ümumbəşər mədəniyyətinin ayrılmaz hissəsidir və mütləq qorunub gələcək nəsillərə ötürülməlidir.

Ənənəvi islam sənət məktəblərindən danışarkən, ilk növbədə qeyd olunma-

lıdır ki, o, dünyada özünü əsasən məscidlər, mavzoleylər (türbələr yaxud qübbələr), rabatlar, xanegah və təkyələr, xanələr (karvansaray) və s. şəklində göstərmişdir. Onların əsasən dini-ideoloji və sosial funksiyaları olmuşdur. İslam memarlığını təşkil edən ən başlıca ünsürlərdən biri minarədir. Onun məscidin funksiyasının yerinə yetirilməsində böyük rolu vardır. Şərq şəhərlərindən ən çox Qahirədə müxtəlif formalı minarələrə rast gəlmək olar. Bəzən bu şəhəri minarələr muzeyi də adlandırırlar.

Alimlərin fikrincə, islam memarlığında aşağıdakı məktəblər mövcuddur:

1. Əməvilər məktəbi; 2. Abbasilər məktəbi; 3. İspan Əməvilər məktəbi; 4. Fatimilər məktəbi; 5. Səlcuqilər məktəbi; 6. Əyyubilər məktəbi; 7. Monqol-islam məktəbi; 8. Məğrib-islam məktəbi; 9. Məmluklar məktəbi; 10. Səfəvilər məktəbi; 11. Osmanlı məktəbi; 12. Hind-islam məktəbi.

Misirli alim Ə.S. əl-Ələfinin fikrincə, ilk islam dövründə yaranmış memarlıq abidələrini də ayrıca məktəbə daxil etmək lazımdır.

Əməvilər memarlıq məktəbinin formalaşmasında başlıca rolu Suriya oynamışdır. Tikinti işləri əvvəlcə xəlifə Əbdülmalikin zamanında başlanmış və xəlifə Valid ibn Əbdülmalikin dövründə daha da çiçəklənmişdir. Məhz bu zaman Əməvi memarlıq məktəbinin inciləri sayılan Qüdsdəki Qübbət əs-səhra və Əl-məscid əl-Əqsa məscidləri, həmçinin Dəməşqin ən gözəl abidəsi – Əməvilər məscidi tikilib başa çatdırılmışdır. Xomsda Xalid ibn Valid məscidi də çox məşhurdur. Onlardan əlavə Qeyzəvanda Seyyid Akabə camesi, Tunisdə məşhur Zeytunə camesi inşa etdirilmişdir. Məhz Əməvilər dövründə əvvəllər istifadə edilməyən bir sıra ünsürlər (məs: minarənin tikintisi) tətbiq edilmişdir. Əməvilər islam sənətinə mozaika və ornament daxil etdi. Bu dövrdə memarlığa yeni bir bəzək ünsürü də daxil oldu ki, o əvvəllər yerli suriyalılara və ərəblərə tanış deyildi. Söhbət gipsdən düzəldilmiş ornamentlərlə divarların bəzədilməsindən gedir. O, daha çox yunan və roma mədəniyyətlərinin məhsulu idi.

Abbasilər memarlıq məktəbi – Abbasilər sülaləsinə mənsub ərəb xəlifələrinin hökmranlığı dövründə yaranmışdır. Mütəxəssislərin fikrincə, Abbasilər dövründə Bizans və yunan təsirləri çox azalmışdı. Əvəzində fars, sonra isə türk ənənələrinin təsiri güclənməyə başlayır. Bu dövr yaradılmış ən möhtəşəm islam abidələrindən Bağdadda Əbu Hənifə və ilkin olaraq mədrəsə kimi fəaliyyət göstərmiş «Abbasilər sarayı»nın adı çəkilir. XIV əsrin abidələrindən olan Kazımeyi və Əmirəddin Mərcan məscidləri diqqəti cəlb edir. Dövrümüzə qədər çatmış abidələrdən Kərbəladakı İmam Hüseyn məscidi də qeyd olunmalıdır. Abbasilər dövrünün ən görkəmli abidəsi isə Samarra minarəsi hesab olunur. Kərpicdən 52 metr hündürlüyündə tikilmiş bu minarə bir növ İraqın rəmzinə çevrilib.

Səfəvi memarlıq məktəbinin nümunələri kimi İranda inşa edilmiş Şeyx Səfi, Şax İsmayıl (Ərdəbildə) və Şah Abbas (İsfahanda) məscidləri qeyd olunmalıdırlar.

Osmanlı memarlıq məktəbinin çiçəklənmə dövrü Osmanlı imperiyasının ən qüvvətli vaxtına – XV-XVI əsrlərə təsadüf edir. Məhz bu zaman ölkədə saysız-hesabsız məscidlər, karvansaralar, türbələr və s. memarlıq abidələri yaradılmışdır.

Osmanlı dövlətinin tərkibinə XIV-XIX əsrlərdə daxil olan qeyri-türk, yəni ərəb, yunan, slavyan, fars və s. xalqların da bu mədəniyyətin yaradılmasında iştirakları şübhəsizdir. Bununla belə, göstərilən dövrdə yaradılmış abidələrin təkrarsızlığı, özünəməxsus xüsusiyyətlərə malik olması da inkaredilməzdir. İlk osmanlı islam memarlıq abidəsi Ədirnədə 1414-cü ildə inşa edilmiş Yaşıl Camedir. Daha sonra yüzlərlə came, türbə, xanegah, təkyə və s. abidələr inşa edilmişdir ki, onlardan bəziləri bu gün də öz möhtəşəmliyi və kamilliyi ilə insanları heyrətə gətirir. Bu – Süleymaniyyə, Nuri Osmaniyyə, Sultan Ahmet, Səlimiyyə və s. cameləri, Konyadakı Cəlaləddin Rumi məqbərəsi, Ərzurumda Ciftə minarə (Xatuniyyə) məqbərəsi və digər abidələrdir.

Ən möhtəşəm islam abidələrindən biri də Tac-Mahal hesab olunur. Bu məqbərə Böyük Moğol hökmdarı müsəlman Şah Cahanın öz sevimli arvadı – Mumtaz Mahalın xatirəsinə qoydurduğu abidədir. Şərq memarlığı üzrə mütəxəssislər Tac Mahalın bütün keyfiyyətlərini nəzərə alıb, onu hind-moğol mədəniyyətinin zirvəsi sayırlar. Tac Mahal dünyanın yeddi memarlıq möcüzəsindən biri sayılır.

Təmsil etdiyim Azərbaycan Respublikası da dövrümüzəcən gəlib çatmış islam memarlıq abidələri ilə zəngindir. Bu gün Azərbaycanın, demək olar, hər bölgəsində babalarımızdan bizlərə miras qalmış neçə-neçə islam abidələri var. Bunlardan Bibi-Heybət məscidi, Nardaran piri, Mömінə xatun türbəsinin adlarını çəkmək istərdim.

Təəssüf ki, Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş Azərbaycan ərazilərində İslam sivilizasiyasının bütün izləri silinmiş, bir milyonacan müsəlman öz ata-baba yurdundan etnik təmizləməyə məruz qalaraq qovulmuş, islam maddi mədəniyyət abidələri isə büsbütün məhv edilmişdir. Məscidlər dağıdılmış, müsəlman məzarlıqları yerlə yeksan edilmiş, Qurani-Kərimin nüsxələri yandırılmışdır. Hətta İslam Konfransı Təşkilatı kimi çox nüfuzlu beynəlxalq təşkilat «Ermənistan Respublikasının təcavüzü nəticəsində Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində islam tarixi və mədəniyyət abidələrinin məhv edilməsi və dağıdılması» haqqında qətnamə də qəbul etmişdir. Təəssüf ki, işğalçı Ermənistan bu və BMT, AŞPA, ATƏT kimi digər

beynəlxalq təşkilatların qəbul etdiyi qərar və qətnamələri hələ də qulaqardına vurur.

Hörmətli konfrans iştirakçıları!

Çıxışımı belə qurtarmaq istərdim: bir çox xalqlar tərəfindən və müxtəlif mədəniyyətlərin bədii yaradıcılıq ənənələrinin sintezi əsasında yaranan islam memarlıq abidələri bu gün ümumbəşər maddi mədəniyyətinin ayrılmaz hissəsidir, onu zənginləşdirir və rövnəqləndirir. Onları uçub dağılmaqdan, məhv olmaqdan qorumaq da bəşəriyyətin həlli təxirə salına bilməyən vəzifəsidir.

«Memarlıq təhsili və islam memarlıq irsinin qorunması problemləri». Beynəlxalq Konfrans. Florensiya (İtaliya), 1-5 dekabr 2008-ci il.

ORTA ƏSRLƏR ƏRƏB MƏNBƏLƏRİNDƏ NAXÇIVAN HAQQINDA MƏLUMATLAR

Azərbaycanın qədim diyarı Naxçıvan insan sivilizasiyasının ilk beşiklərindən olmuşdur. Gəmiqaya rəsmləri, Əshabi-Kəhf və Kilit mağaraları buna əyani sübutdur. Bu mənada bu günlərdə Naxçıvan şəhərində «Nuh peyğəmbər: dünya tufanı və Naxçıvan» mövzusunda keçirilən beynəlxalq simpozium böyük əhəmiyyət kəsb edir. Nuhun adıyla bağlı bu diyarda bir sıra toponimlərin (Nəbi yurdu, Nuhdaban və s.) yer alması, qədim dövrlərdən insanların Nuhun məzarı kimi ziyarət etdikləri Nuh türbəsi, əhali arasında Nuh peyğəmbərin Naxçıvanla bağlılığı haqda müxtəlif rəvayətlərin nəsildən-nəsilə ötürülməsi bu yerlərin həqiqətən də Nuh peyğəmbər, onun nəsli və dünya tufanı ilə əlaqələri haqda bizi düşünməyə sövq edir və bu istiqamətdə araşdırmaların daha da intensivləşməsini zəruri edir.

Hər bir azərbaycanlı üçün əziz olan qədim Naxçıvan torpağının orta əsrlər dövrü də olduqca zəngin olmuşdur. Şərqin məşhur elmi, mədəni, iqtisadi və ticari mərkəzlərindən olan Naxçıvan haqqında orta əsrlər ərəb-fars mənbələrində (Bəlazuri, İbn əl-Fəqih, İbn Xordadbeh, Qudama ibn Cə`fər, əl-Müqəddəsi, əl-İstəxri, əl-Biruni, Yaqut əl-Həməvi, F.Rəşidəddin, Həmdullah Qəzvini, Əbdürrəşid Bakuvi, Həsən Rumlu və b.) Naxçıvan haqda müəyyən məlumatlar verilir.

Məruzəmdə mən ərəb mənbələrindəki məlumatların bəziləri ilə Sizləri tanış etmək istərdim.

Əl-Bəlazuri (820-892) «Kitəb futuhi-l-buldən» («Ölkələrin fəthi») əsərində yazır:

«Şimşat, Qaliqala, Xilat, Arciş, Bəcuneys – IV Ərminiyyə[1], **Busfurracan** kurası (vilayəti), Dəbil, Sirac Tayr, Bəğravənd – III Ərminiyyə, Curzan – II Ərminiyyə, Sisəcan və Arran isə - I Ərminiyyə adlanırdı.

Başqalarının dediyinə görə isə, IV Ərminiyyə ancaq elə Şimşatdan ibarət idi. Qaliqala, Xilat, Arcış, Bəcineys – III Ərminiyyə, Sirac-Tayr, Bağravənd, Dəbil, **Busfurracan** – II Ərminiyyə, Sisəcan, Arran, Tiflis – I Ərminiyyə adlanırdı.

Ənuşirəvan Ərminiyyənin bizanslıların əlində olan bütün vilayətlərini tutdu və Dəbil şəhərini bərpa edərək, möhkəmlətdi. O, **Busfurracan** vilayətində **Nəşəva** şəhərini saldırdı. (Busfurracan – Arranın əyalətlərindən biridir, əsas şəhəri Nəşəvadır)» (1, 505).

Əl-Bəlazurinin digər məlumatına görə Naxçıvan xəlifə Osman ibn Affanın

[1] I, II, III, IV Ərmiyyə - ərəblərin Cənubi Qafqazda işğal etdikləri yerlərə verdikləri vahid inzibati ad. Bu və daha sonrakı iktibaslardan qörüdüyü kimi, mənbələrdə verilən Ərminiyyə toponimi heç də erməni dövləti, yaxud ermənilər yaşadıqları məkan anlamını vermir.

(644-656) dövründə ərəblər tərəfindən istila olunub. Həbib ibn Maslama (sərkərdə) Naxçıvanı işğal etdikdən sonra onun sakinləri ilə sülh müqaviləsi bağladı və onlara aşağıdakı fərmanı verdi: «Rəhman və Rəhim Allahın adı ilə! Bu fərman Həbib ibn Maslama tərəfindən Naşava (Naxçıvan) şəhərinin hazırda burda olan və olmayan sakinlərinə verilir ki, mən sizin toxunulmağınıza, əmlakınıza və şəhərinizin divarlarına təminat verirəm. Siz təhlükəsizlikdəsiniz və biz bu müqaviləyə əməl edəcəyik, nə qədər ki siz ona əməl edəcəksiniz, cizyə və xərac verəcəksiniz. Buna zamin Allahdır – zaminlərin ən etibarlısı» (1, 203).

**Əhməd ibn Vadih əl-Yə`qubi** (öl. 897) «Tə`rix» əsərində yazır:

«Xəzərlər bütün Ərminiyyə ölkəsini zəbt edənlərdəndir. Onların üzərində hökmdar vardır ki, ona «xaqan» deyirlər. Onun ər-Ran, Curzan, **əl-Bəsfurcan** (Naxçıvan), əs-Sisacan üzərində Yəzid Balaş adlı canişini vardı. IV Ərminiyyə adlanan bu vilayəti farsların padşahı Qubad fəth edir və Bab əl-Lanadək 1000 fərsəx uzanaraq 360 şəhəri əhatə edən bu əyalət Ənuşirəvana keçir» (2, 178-179).

Coğrafiyaşünas səyyah **İbn Rusta** (X əsrin əvvəli) «Kitab əl-ə`laq ən-nəfisə» («Nəfis daş-qaşlar kitabı») əsərində yazır:

«Beşinci iqlim məşriqdə yəcuclar ölkəsindən başlanır, sonra şimala, Xorasana doğru uzanır. Ticarət şəhərlərindən burada Navikət, İsbicab, əş-Şaş, Turarbənd, Xuvarəzm, Azərbaycan və Ərminiyyə vilayətləri, Bərdə, **Nəşavə**, Sisəcan, Arzan, Xilat vardır. [Bu iqlimə] Rum ölkəsindən – Xərşənə, Qurra, ər-Rumiyyə əl-kəbira da [daxildir]...

İranşəhrin hissələri:

Azərbaycan mahallarından: Ərdəbil, Mərənd, Bacarvan, Varsan, əl-Marağa.

Ərminiyyənin mahallarından: Arran, Curzan, **Nəşavə**, Xilat, Dəbil, Sirac, Suğdəbil, Bacuneys, Arcış, Sisəcan, əl-Bab əl-Əbvav şəhəri (bax: 3, 43).

**Qudama ibn Cə`fər** (?-922-948) «Kitab əl-xərac va san`ət əl-kitabə» («Xərac və katiblik sənəti haqqında kitab») əsərində yazır:

«Mərənddən əl-Cara 4 fərsəx, əl-Cardan Xuveyyə 6 fərsəxdir; bu yolla Ərminiyyəyə getmək istəyirsənsə, Mərənddən vadidəki əs-Səri adlı yerə 10 fərsəx, vadidən **Nəşavayə** 10 fərsəx, **Nəşavədən** Dəbilə 20 fərsəx getməlisən» (bax: 3, 46).

Əbu İshaq İbrahim ibn Məhəmməd əl-Farisi əl-İstəxri (öl. 957) «Kitab məsəlik əl-məməlik» («Məmləkətlərin yolları kitabı») əsərində yazır:

«Marağadan Dəbilə yol: Marağadan Urmiyaya 30 fərsəx, Urmiyadan Sələmasa 14 fərsəx, Sələmasdan Xuveyyə 7 fərsəx, Xuveydən **Nəşavəyə** 3 gün, **Nəşavədən** Dəbilə 4 mərhələ» (bax: 3,92).

Ibn Hovqəl (öl. 977) «Kitəb əl-məsəlik va-l-məməlik» («Yollar və

məmləkətlər kitabı») əsərində belə məlumat verir:

«Əl-Marağadan Dəbilə yol Urmiya, Sələməsi keçməklə Xuveyyədək 53 fərsəx, Xuveydən **Nəşavəyə** 5 gün, **Nəşavədən** Dəbilə 4 mərhələ» (bax: 3, 116).

Əl-Müqəddəsi (təqr. 946-1000) «Əhsən ət-təqasim fi mə`rifət əl-əqalim» («İqlimlərin öyrənilməsi üçün ən yaxşı bölgü») əsərində yazır:

«Dəbildən çıxsan, **Nəşavəyə** 4 mərhələ, sonra Xuveyyə 3 gün, sonra Sələməsa 2 mərhələ, sonra Urmiyaya 1 mərhələ, sonra Xərraqana 2 mərhələ, sonra Marağaya elə o qədər, sonra Ərdəbilə 40 fərsəxdir» (bax: 3, 136).

Əl-İdrisi (1100-1165) «Nuzhət əl-muştaq fi-htirak əl-əfaq» («Ölkələri gəzməkdən yorulmuşun əyləncəsi») əsərində yazır:

«Ərminiyyə - daxili və xarici Ərminiyyədən ibarətdir. Dəbil, **ən-Nəşavə**, Qaliqala, Ahar, Varzaqan və bunların tabeliyində olanlar daxili Ərminiyyəyə aiddir. Bərkəri, Xilat, Arciş, Şitan, əd-Davran xarici Ərminiyyəyə aiddir» (bax: 3, 151).

Yaqut əl-Həməvi (1179-1229) «Mu`cəm əl-buldən» («Ölkələrin lüğəti») əsərində yazır:

«**Basfurcan** – Arranda baş şəhəri **ən-Nəşavə** olan kura, Ənuşirvan Bab əl-Əbvabı tikdirdiyi zaman buranın da əsasını qoymuşdur» (4, I c., 423). Daha sonra: «**Naxcuvan** – bəziləri isə Nakcuvan deyir. Bu şəhərdən götürülən nisbə «nəşavi» – düzgün düzəlməyib. [Naxcuvan] başqa bir yerdə qeyd etdiyimiz kimi Azərbaycanın hüdudunda şəhərdir» (4,V c., 276).

«**Nəşavə** - bunun nisbəsi «nəşəvi»dir. Azərbaycanda böyük şəhərdir. Bəziləri isə deyirlər ki, Arrandır. O, Ərminiyyə ilə sərhəddir. Sadə xalq arasında Naxcuvan və ya Nakcuvan kimi tanınır. Əl-Bəlazuri deyib: ən-Nəşavə Bacfurcan vilayətinin baş şəhəridir. O, Həbib ibn `Affanın dövründə fəth edilmişdir. [Həbib] onun əhalisi ilə Dəbil sakinləri ilə olduğu kimi cizyə və xərac verməyi öhdələrinə götürmək şərtilə sülh müqaviləsi bağlamışdı» (4, V c., 286).

«**Basfurcan** – Aranda vilayətdir. Paytaxtı Nəşavadır, Nakçavan da deyirlər» (4, V c., 626).

«**Naxçavan** – Azərbaycanda şəhərdir, bəziləri isə deyirlər ki o Arandadır» (4, IV c., 784).

Həmdullah Qəzvini (1280-1349) «Nuzhat əl-kulub» («Ürəklər məlhəmi») əsərində Naxçıvanla bərabər Ordubad şəhəri və Azad adlı yaşayış məntəqəsi haqqında da məlumat verir:

«**Naxçıvan** dördüncü iqlimə aiddir. Onun uzunluq dairəsi 80° 51′, en dairəsi isə 33° 40′ dır. Şəhəri Bəhrəm Çubin salmışdır. Bu «nəkşi-cahan» adlanan gözəl yerdir.

Onun binalarının çoxu bişmiş kərpicdən tikilib. Ordakı tarlalar dənlilər,

pambıq, üzüm və biraz da meyvə məhsulu verirlər. Əhalisi ağ dərili, şafii məzhəbinə etiqad edirlər. Yaxınlıqda bir neçə möhtəşəm qala ucalır, onların arasında Ələncik (Ələincə) xərabələri də var. Vergilər 113 min dinar təşkil edir...

Ordubad – bağlar içində üzən əyalət şəhəridir. Burada gözəl üzüm, dənli bitkilər və pambıq yetişir. Su Kaban (Kafan) dağından gəlir, artığı isə Araz çayına axır.

Azad – çox da böyük olmayan şəhərdir, bol dənlilər, pambıq və üzüm məhsulları ilə şöhrət tapıb. Burnın çaxırı məşhurdur. Suyu Kaban dağından alırlar, artığı isə Araz çayına tökülür. İnsanlar ağdılar, xasiyyətləri bir qədər kobuddur. Vergilər 113 min dinar təşkil edir» (bax: 6, 51).

Digər orta əsr alimi **Əbdürrəşid əl-Bakuvinin** (XIV-XV əsrlər) «Kitab təlxis əl-əsər və `əcaib əl-məlik əl-kahhar» («Əsərlər» haqqında kitabın xülasəsi və qadir hökmdarın möcüzələri») əsərində yazılıb:

«**Nakçuvan** – uzunluq dairəsi 81° 15′, en dairəsi 33° 40′ - Azərbaycanda gözəl şəhərdir, divarları və kuhəndizi var. O düzəngah arasında hündürlükdə, Araz çayı görünən yerdə inşa edilib. Çoxlu bağları, meşələri var, meyvə və dənli bitkilərlə zəngindir. Havası təmiz, suyu şirindir. Orada məşhur binalar, mədrəsə və xanəgah var. Sakinləri bədii oyma, xörəklərin hazırlanması və əl-xələnd ağacından müxtəlif əşya və qab-qacaq düzəltməkdə mahirdirlər, onların hamısı müxtəlif ölkələrə çıxarılır» (bax: 7, 99).

Məmluklar dövrünün son böyük ensiklopediyasının müəllifi sayılan **əl-Qəlqəşəndinin** (1355-1418) «Sübh əl-ə`şa fi sina`ət əl-inşə» əsərində yazılıb:

«**Nəşuva** – onun adını İbn Səid Nəqcavan qoymuşdur... Yeddi iqlimin beşincisində, 73° 30′ uzunluq dairəsinin və 39° en dairəsinin kəsişdiyi yerdədir. İbn Səid deyir: «O, Şərqi Arranın şəhərlərindən biridir». Əs-Səm`aniyə görə, Ərminiyyə və Azərbaycan arasında yerləşən bir şəhərdir. İbn Səid deyir: «O, əl-Kurr çayının şimal sahilindədir». «əl-Ənsab»da deyilənə görə, Təbrizlə onun arası 6 fərsəxdir. İbn Səid qeyd edir ki: «Tatarlar onu dağıdıb, bütün əhalisini də qətlə yetirmişlər» (5, IV c., 362).

Sədrəddin əl-Hüseyni ərəbcə qələmə almış «Zubdat ət-təvarix [fi] əxbər əl-umara və-l-muluk əs-səlcukiyyə» («Səlcuk əmir və hökmdarlar haqda xəbərlər verən səlnamələrin qaymaqları») əsərində göstərir ki, Cahan Pəhləvanın qızı Cəlaliyyə sonradan Naxçıvanın hakimi olub (8, II, c. 83).

İbn əl-Fuvati adlı ərəb müəllifi özünün «Təlxis məcmə` al-ədəb fi mu`sam əl-əlkab» («Ləqəblər lüğətində ədəb məclisi haqqında xülasə») əsərində Naxçıvanda yaşayan məşhur həkim Fəxr əd-Din ən-Naxçıvani haqda məlumatlar verir (9, IV c., 95).

Əbu Bəkr ibn əz-Zəki adlı müəllif «Raudət əl-kuttab və hədiqət əl-əlbab»

(«Katiblərin çəməni və qəlblərin bağçası») əsərində məşhur naxçıvanlı həkim Əkməleddin ən-Naxçıvani haqda məlumat verir, onun böyük sufi şair və mütəfəkkir Mövlanə Cəlaləddin Ruminin dostu və həkimi olduğunu bildirir, «aqillərin ağası, dünya həkimlərinin rəisi» adlandırır (10, 118).

Düşünürəm ki, bu istiqamətdə araşdırmalar mütləq davam etdirilməlidir. Günümüzəcən elmə məlum olmayan, elmi tədqiqata cəlb edilməyən bir çox qədim ərəb əlyazmaları öz tədqiqatçılarını gözləyir. İnanıram ki, bu iş müntəzəm və sistemli şəkildə aparılsa, mütləq müsbət nəticə verəcək və biz vətənimizin uzaq keçmişi, onun müxtəlif bölgələri, o cümlədən qədim Naxçıvan haqda yeni-yeni maraqlı məlumatlar əldə edəcəyik.

İstifadə olunmuş mənbələr və ədəbiyyat siyahısı

1) Əbu-l-'Abbas Əhməd ibn Yəhya ibn Cabir əl-Bəlazuri. Kitəb futuhi-l-buldən. Qahirə, 1956.

2) Əhməd ibn Əbu Yaqub ibn Cəfər əl-Yaqubi. Tərix, Beyrut, 1959.

3) N.M.Vəlixanlı. IX-XII əsr ərəb coğrafiyaşünas-səyyahları Azərbaycan haqqında. Bakı, 1974.

4) Yaqut əl-Həməvi. «Mü`cəm əl-buldən». I-V c., Beyrut, 1977.

5) Şihəb əd-din Əbu-l-Abbas Əhməd ibn Əli əl-Qəlqəşəndi. Sübh əl-ə`sa fi sinaat əl-inşa. I-XIV c., Misir, 1913-1920.

6) Yaqut əl-Həməvi. Mü`cəm əl-buldən (Azərbaycan haqqında məlumatlar). Həmdullah Qəzvini. Nuzhət əl-kulub (Azərbaycana dair materiallar). Bakı, 1983, (ərəb dilindən tərcümə edənlər – Z.M.Bünyadov və P.K.Cuze).

7) Abd ər-Raşid əl-Bakuvi. Kitab talxis əl-əsər və `əcaib əl-məlik əl-kahhar. Tərcümə və şərhlər Z.M.Bünyadovundur. Moskva, 1971.

8) Akademik Z.M.Bünyadov. Seçilmiş əsərləri, III cilddə. Bakı, 1999 (rus dilində).

9) Ibn əl-Fuvati. Təlxis madcma` əl-ədəb fi mu`dcam əl-əlkab, c. I-IV, Diməşq, 1962-1965. IV c., 95.

10) Əbu Bəkr ibn əz-Zəki. Raudət əl-kuttab və həqiqət əl-əlbab. Ankara, 1972.

«Nuh, dünya tufanı və Naxçıvan» mövzusunda
Beynəlxalq Elmi Konfrans. 24-25 aprel 2009-cu il.

NƏSİMİNİN ƏRƏBCƏ QƏZƏLLƏRİNİN İDEYA-MƏZMUN VƏ BƏDİİ-ESTETİK XÜSUSİYYƏTLƏRİ

Görkəmli Azərbaycan şairi Seyid İmadəddin Nəsiminin yaradıcılığı hər zaman ədəbi ictimaiyyətin diqqət mərkəzində olmuş, onun əsərləri təzkirə və cünglərə daxil edilməklə yanaşı, ayrıca divanlar şəklində də üzü köçürülərək yayılmışdır. Onun şerinin geniş yayılmasını şərtləndirən səbəblərdən biri də əsərlərinin üçdilliliyidir. Şairin poetik irsinin üçdilliliyi barədə ilk məlumata orta çağ müəlliflərindən XVI əsr təzkiraçisi Lətifi Qəstəmonulunun «Təzkirətüş-şüəra» adlı əsərində rast gəlinir. Təzkiraçi Nəsiminin türk, fars və ərəb dillərinin hər birində divanı olmasını bildirir (Lətifi, 1314: 333).

Nəsiminin ərəbcə divanı bizə gəlib çatmasa da, ümumiyyətlə, onun belə bir divan sahibi olub-olmaması hələlik təsdiqini tapmasa belə, şairin poetik irsinin üç dildə qələmə alınması inkarolunmaz faktdır.

Ümumiyyətlə qeyd etməliyik ki, Nəsiminin şerində ərəbcə xüsusi çəkiyə malikdir. Bu dildən istifadə klassik şerimizə xas olan bir spesifikanın inikası şəklindədir, yəni şair ərəb dilindən istifadə özünü ayrı-ayrı ərəbcə ifadə, tərkib, cümlə və beytlər şəklində özünü göstərir. Nəsiminin Qurana bələdliyi, iqtibasları, təlmihləri, surə adlarına istinadları da (Ünver, 2003: 171) onun ərəb dilinə vaqifliyini göstərir.

Məlum olduğu kimi, mütəfəkkir şairin bizə gəlib çatan irsi türkcə və farsca iki divandan ibarətdir və hər iki divanda şairin ərəbcə beytlərinə də yer verilmişdir. Qeyd etməliyik ki, Nəsiminin azsaylı ərəbcə şeirləri onun farsca divanında «Ərəbcə şeirlər və müləmmə» qismində yer alır. Həm bu şeirlər, həm də Nəsiminin hər iki divanına səpələnən ərəbcə ifadə və cümlələr şairin bu dilə bələdliyi ilə yanaşı, onun ərəbcədəki sənətkarlığının səviyyəsini müəyyənləşdirməyə də yardım edir, şairin ərəb dilində bədii söz sənətkarlığını izləmək və ərəbcə əsərləri ilə bəzi paralellər aparmaq baxımından da maraq doğurur. Eyni ədəbi təzahür Füzuli yaradıcılığı üçün də xarakterikdir (Cümşüdlü, 2006: 9). Təəssüf ki, Nəsiminin ərəbcə əsərlərinin sayca azlığı onları daha geniş çevrədə, ərəb şeri kontekstində öyrənməyə və bu əsasda sələf-xələflik münasibətlərinin müəyyənləşdirilməsinə imkan vermir.

Burada bu cəhəti də vurğulamalıyıq ki, Nəsimi türkcə şeirlərində ərəbcə və farsca sözləri türkcə ilə ustalıqla əlaqələndirir, bu ifadələrlə yaradılan poetik vasitələr şerə bəzək vurur və nəticədə o poetik parça bədii-estetik dəyər kəsb etmiş olur (bu barədə bax: Ayan, I, 2002: 75).

Nəsiminin ərəbcə poetik irsi çox kiçik həcmli olsa da, istər Azərbaycan, istərsə də xarici ölkə tədqiqatçılarının diqqətindən kənarda qalmamışdır. Şairin

hər iki divanının nəşrlərindəki ön sözlərdə, yaradıcılığının müxtəlif problemlərinə həsr olunmuş tədqiqat əsərlərində yeri gəldikcə bu məsələyə də toxunulmuşdur. Bu barədə azərbaycanlı tədqiqatçılardan Həmid Məmmədzadə, Abdulla Məhəmmədi, türkiyəli araşdırıcılardan Hüseyn Ayan, iranlı tədqiqatçılardan Yədulla Cəlali Pəndari, Hüseyn Sədiq və digərləri söz açmışlar.

İranlı araşdırıcı Hüseyn Sədiqə görə, Nəsiminin ərəbcə divanının mükəmməl nüsxəsi tapılmasa da, onun Hafizi-Quran olduğu və ömrünün son illərini ərəblər arasında yaşamağı aydındır. Türkcə və farsca divanlarında işlətdiyi ərəbcə lətif müləmmələr onun ərəb şerinə müsəllət olduğuna bir sübutdur (Sədiq, 1387: 70). Tədqiqatçıya görə, bəlkə hürufiliyin ərəblər arasında qadağan olduğu, onun ərəbcə divanının gizli saxlanılmasına bir səbəb olmuşdur (Sədiq, 1387: 70-71). Bu mülahizə isə maraq doğursa da, fərziyyə olmaqdan irəli gedə bilmir.

Amma tanınmış türkiyəli alim Hüseyn Ayan şairin ərəbcə divanı olması barədəki mülahizəni şübhə altına alır. Nəsimişünas alimə görə, «istər türkcə, istər farsca divanlarındakı beytlərdən, müləmmələri və bir-iki dənə ərəbcə qəzəlindən ərəbcənin yaxşı bildiyi və bu dildə də şeirlər yaza biləcək qədər məlumata sahib olduğu görünür. Buna görə də bəzi qaynaqlar «əl-lisaneyni-səlasə»də şeir söyləmişdir deyirlər» (Ayan, I, 2002: 23). Tədqiqatçının istinadından onun «əl-lisaneyni-səlasə» ifadəsi ilə Lətifi Qəstəmonulunun «Təzkirətüş-şüəra»sını nəzərdə tutması məlum olur.

Qeyd etməliyik ki, şairin ərəbcə şeirlərinin səviyyəsi haqqında rəy müxtəlifliyi var. Həmid Məmmədzadəyə görə ərəbcə şeirlərin söylənməsində də Nəsimi məharət və kamillik göstərmişdir (Məmmədzadə, 1972: 6).

İranlı tədqiqatçı Yədulla Cəlali Pəndari isə şairin ərəbcə şeirlərini belə qiymətləndirir: «onun ərəbcə şeirlərini ərəbdillilərdən artıq farsdillilər başa düşər» (Pəndari, 1993: 28).

Şərqşünas alim A.Məhəmmədi «Nəsiminin yaradıcılığında ərəbcə ifadələrin forma və məzmunun bəzi xüsusiyyətləri» mövzusunda yazdığı dissertasiya işində Nəsiminin dilində ərəbcə ilə bağlılığın təzahür şəkillərini araşdırmış, hərf, ifadə, tərkib və cümlələr şəklində üzə çıxan bu bəhrələnməni ən incə nüanslarınadək tədqiq etmişdir. Bu araşdırmasının nəticəsi olaraq A. Məhəmmədi yazır ki, dövrünün böyük alimi olaraq, Nəsimi öz ana dili kimi ərəb dilinin də qrammatikasına yaxından bələd olmuşdur. (Mamedi, 1967: 9) H.Ayanın da araşdırması da bu məsələyə aydınlıq gətirir: «Zamanında mədrəsələrdə oxudulan ərəbcə sərf və nəhv, fiqh, təfsir və kəlam oxuduğuna işarət edən beytlərinə rast gəlinir» (Ayan. I, 2002: 13).

Nəsimi ərəbcə ifadə, tərkib və cümlələrinin xarakteri, bədii, fəlsəfi və

qrammatik dəyərləri barədə də araşdırmalarda bir sıra mülahizələr söylənilmişdir. Onun hürufilik görüşləri əsasında hərflərə leksik məna yükləməsindən də ayrıca bəhs edilmiş, şairin Quran ayə və surələrindən iqtibasları, ərəbcə idiomatik ifadələrdən istifadəsi Azərbaycan dilçiliyində dəyərləndirilmişdir (bax: Mamedi, 1967: 5).

Nəsiminin ərəbcə şeirlərinin təhlili göstərir ki, şairin bir sıra görüşləri türkcə və farsca şeirlərində olduğu kimi, ərəbcə şeirlərində də ifadəsini tapmışdır. Bu müştərəklik başlıca olaraq təsəvvüfi mülahizələrin ifadəsində görünür (bax: Mamedi, 1967: 17). Bununla yanaşı, onun bu azsaylı ərəbcə şeirlərində dini, fəlsəfi düşüncəsi, irfan və hürufiliklə bağlı görüşlərinin açıq ifadələri verilmişdir. İlahi eşqin inikasını tapdığı aşağıdakı örnəklərə bir göz ataq:

انى لقد اتصلت با لذات يا من قطع الوصال هيهات

(Pəndari, 1993: 381)

Mən zat (Tanrı) ilə birləşdim,
Ey vüsləti kəsən kişi, heyhat!

və ya:

لک العدل لک السلطان لک الحکم لک البر هان

لک قدیس یا سبحان لک العطف لک نعمة

(Pəndari, 1993: 381)

Ədalət sənindir, hökmranlıq sənindir, hökm sənindir, dəlil sənindir,
Ey Sübhan! Müqəddəslik sənindir, mərhəmət sənindir.

Sonuncu beytin yer aldığı ərəbcə şeirdə Nəsiminin səmimi islamı görüşləri və Tanrıya həmd və sənası görünür. Mütəfəkkir əsmai-hüsnadan Sübhan, Zahir, Tahir, Qadir, Qəffar, Munim, Muhsin, Mufzil, Vahid, Məcid, Həmid kimi adlarla Tanrıya xitab edərək, onun fəziləti və mərhəmətinə sığındığını dilə gətirir.

Nəsiminin ərəbcə şeirlərində Fəzlullaha münasibəti da ifadə edilmiş, ərəbcə iki beytlik şeri mürşidinə həsr edilmişdir:

رایت وجهک من تحت شعرک لیلا

بنور وجهک یا ذالجلال و الا کرام

(Pəndari, 1993: 383)

Gecə yüzünü saçının altında gördüm,
Sənin yüzünün nuruyla. Ey cəlal və şərəf sahibi!

اذا فنیت فقل لی بفضلک فضلا

وجدت وجه بقایی بفی و ضاد و لام

(Pəndari, 1993: 383)

Yox olduğun zaman mənə fəzlinlə Fəzl de;
Əbədilik yolunu «fe», «zad» və «lam»da buldum.

Nəsiminin farsca divanında iki, türkcə divanında da beş müləmmə şeir yer alır. Farsca divandakı şeirlər ərəbcə və farsca olmaqla ikidillidir, Türkcə divanında isə həm iki, həm də üçdilli müləmmələr yer alır.

Qeyd etməliyik ki, müləmmə (ərəb dilində [ləmmə] – yığmaq, toplamaq, birləşdirmək fel kökündən törəyib) – birdilli ədəbi əsərdə digər dilə müraciət hallarıdır. Qeyd etməliyik ki, dərvişlərin bir neçə parça tikəsindən tikilmiş geyimi də belə adlanır. Ədəbi növ kimi müləmmə elə şeirdir ki, beytin bir misrası ərəbcə, ikincisi farsca, yaxud türkcə, yaxud birincisi farsca, ikincisi türkcə, yaxud birincisi ərəbcə, ikincisi farsca yazılır. *faktxeber.com/yazdir.php?haber_id=399* Türk-fars, türk-ərəb, ərəb-fars dillərində işlənən söz və ifadələrin birgə iştirakı ilə yazılan örnəklər də «müləmmə» nümunələri sayılır.

Məlum olduğu kimi, müləmmə Şərq poetikasının bir fiquru olduğundan çoxdilli türk mənşəli şairlərin yaradıcılığında bu poetik fiqura aid kifayət qədər nümunəyə rast gəlinir. Qətran Təbrisi, Xətib Təbrizi, Əfzələddin Xaqani, Nizami Gəncəvi kimi sənətkarlar fars-ərəbdilli misraların bir-birini izlədiyi müləmmələr yaratmışlarsa da, XIV əsrdə Nəsimi, daha sonra Füzuli kimi söz ustadlarının yaradıcılığında rast gəlinən müləmmə elementləri bu ölməz şairlərin təxəyyülündən süzülüb gələn fikirlərin artıq başqa parametrli (türk-ərəb, türk-fars) dil sintezində ifadə tapdığını söyləməyə əsas verir. *faktxeber.com/yazdir.php?haber_id=399* Nəsiminin yaradıcılığında xüsusi yeri olan müləmmə şeirlərindən birində yer alan irfani məzmunlu ərəbcə bir beytə nəzər salaq:

لقد فنیت عن الغیر لا وجود سوایی
لان نفی وجودی ثبوته لبقایی

(Pəndari, 1993: 385)

Masivayı kəndimdən çıxardım, atdım, məndən başqa bir varlıq qalmadı,
Çünki varlığımın yox olması əbədiliyimin gerçəkləşməsi deməkdir.

Öncə qeyd etdiyimiz poetik parçalardan, eləcə də yuxarıdakı beytdən də göründüyü kimi, Nəsiminin ərəbcə şeirlərində diqqət yetirilən başlıca cəhət kamillik və Tanrı sevgisidir. Şairin bu əsərləri sayca azlığı və mövzu məhdudiyyəti baxımından, təəssüf ki, türkcə və farsca şeirləri qədər onun söz sənətkarlığı və poetik qüdrəti barədə söz açmağa imkan vermir. Bununla belə, bu əsərlər üçdilli bədii-fəlsəfi fikir tariximizin bir səhifəsi olması baxımından əhəmiyyət kəsb edir.

Ədəbiyyat

1. Ayan, Hüseyn (2002): Nesimi. Hayatı, Edebi Kişiliği, Eserleri ve Türkçe Divanının Tenkitli Metni, I. cilt, Ankara, Türk Dil kurumu yayınları.

2. Cümşüdlü R. (2006): Füzulinin ərəbcə divanı, filologiya elmləri namizədi alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı, Bakı.

3. Sədiq, Hüseyn (1387):

ديوان اشعار تركى سيد عمادالددين نسيمى، تصحيح، تحشيه و مقدمه: دكتر ح.م. صريق، انتشارات اختر، تبريز.

4. Lətifi, 1314: 333

لطيفي قسطمونولو. تذكره لطيفي، «در سعادت»، اقدام مطبعه سى، 1314.

5. Mamedi (Xanmuhammedi) A.Y. (1967): O nekotorııx osobennostyax formı i soderjaniya arabskix vırajeniy v tvorçestve Nesimi,

6. Məmmədzadə, 1972:

سيد عماد الدين نسيمى با مقدمه مقابله و تصحيح حميد محمد زاده، نشريات دولتى آذربايجان، باكو، 1972

7. Pəndari, 1993:

يد الله جلالي پنداري. سيري در زندگاني و اشعار نسيمي، - زندگي و اشعار عمادالدين نسيمي، به كوشش يدالله جلالي پنداري، تهران، 1993.

8. Ünver, Mustafa (2003): Hurufîlik ve Kuran. Nesimî Örneği, Fecr yayınları, Ankara: 2003.

9. faktxeber.com/yazdir.php?haber_id=399 Aytən Hacıyeva Şərq ədəbiyyatında çoxdillilik ənənəsi.

II Beynəlxalq Nəsimi Elmi Konfransı.
Bakı, 14-16 dekabr 2009-cu il.

MÜSTƏQİL AZƏRBAYCANDA ŞƏRQŞÜNASLIQ ELMİNİN İNKİŞAF PERSPEKTİVLƏRİ

Məlumdur ki, son illərə qədər respublikamızda şərqşünaslıq elmi bütövlükdə keçmiş sovet şərqşünaslığının bir qolu kimi inkişaf edirdi ki, bunun da öz mənfi və müsbət cəhətləri var idi. Mənfi cəhətlərdən mərkəz tərəfindən elmi araşdırmaların istiqamətləndirilməsi və məhdudlaşdırılması, elmi doktrina və konsepsiyaların məcburən qəbul etdirilməsi və s., müsbət cəhətlərdən ən başlıcası rus şərqşünaslığı vasitəsilə dünya şərqşünaslığının ən dəyərli nailiyyətləri ilə tanış olmaq imkanı, ölkənin bir sıra mühüm şərqşünaslıq mərkəzləri ilə sıx əlaqə, elmi təcrübə mübadiləsi imkanı, ən müxtəlif və yeni elmi-informativ məlumatları əldə etmək imkanı və sairəni sadalamaq olar.

Artıq bir neçə ildir ki, bu əlaqələr pozulub və müstəqil Azərbaycanın qədim və zəngin ənənələrə malik olan şərqşünaslıq elmi öz inkişafının yeni mərhələsinə qədəm qoyub. Bəs bu inkişaf necə olmalıdır, tədqiqatlar hansı istiqamətlərdə aparılmalıdır?

Fikrimizcə, Azərbaycan şərqşünaslığının öz simasını, öz dəsti xəttini ifadə edən əsas, aparıcı bir istiqaməti olmalıdır. Biz bu istiqaməti şərqşünaslığı, təbir caizsə, azərbaycanşünaslıq ilə əlaqələndirməkdə görürük. Nəzərə almaq lazımdır ki, Azərbaycan şərqşünaslığı özünəməxsus daxili xüsusiyyətlərə malikdir. Bu xüsusiyyətlər Azərbaycanın əsrlərdən bəri Şərq ölkələri ilə olan tarixi və mədəni əlaqələrindən, uyğunluğundan, tipoloji oxşarlığından irəli gəlir. Unutmayaq ki, Azərbaycan əsrlər boyu Yaxın və Orta Şərq ölkələri ilə vahid siyasi, iqtisadi və mədəni məkana - Ərəb xilafətinə daxil olub, və Azərbaycan xalqı möhtəşəm ərəb-müsəlman mədəniyyətinin yaradıcılarından biri idi. Odur ki, xarici Şərq ölkələrində baş verən siyasi və ictimai hadisələr Azərbaycan üçün daha anlaşılan, daha yaxındır. Elə buna görə də Şərq ölkələrində cərəyan edən hər hansı bir ictimai, siyasi, iqtisadi eləcə də ideoloji və mədəni proseslərin tədqiqinə biz milli xüsusiyyətlərimiz, tarixi keçmişimiz və bugünümüzün problemləri baxımından yanaşmalıyıq. Bu bir tərəfdən imkan verər ki, əldə olan bütün faktiki materialların müqayisəli təhlili aparılsın, hadisələrin daha obyektiv, real mənzərəsi yaradılsın, digər tərəfdən isə öz tariximizin az öyrənilmiş aspektlərini işıqlandırmış olarıq.

Gələcəkdə institutun elmi tədqiqatlarını 4 elmi istiqamətdə inkişaf etdirmək məqsədəuyğun olardı;

1. Yaxın və Orta Şərq ölkələrinin tarixi, bu ölkələrdə cərəyan edən ictimai-siyasi, iqtisadi, etnik proseslər, bu ölkələrin beynəlxalq münasibətlər sistemində rolu.

2. Orta əsrlər dövrü yazılı abidələrin tədqiqi, tərcüməsi və nəşri.

3. Yaxın və Orta Şərq ölkələrində ictimai fikir və din tarixi. Azərbaycanda islam.

4. Şərq filologiyasının inkişaf qanunauyğunluqları.

Bu elmi istiqamətlər çərçivəsində işlər əsasən iki yolla aparılmalıdır:

1. Şərqşünaslıq elminin əsasını təşkil edən Şərq tarixinin, mədəniyyətinin, bədii təfəkkür tərzinin, ictimai və fəlsəfi fikrinin ən vacib və aktual aspektlərini öyrənən fundamental tədqiqatların aparılması.

2. Elmi dəyəri ilə yanaşı geniş oxucu kütləsini maraqlandıran elmi-populyar əsərlərin, eləcə də cari dövr üçün siyasi və ictimai əhəmiyyəti olan və elmi proqnozlar verən təhlili-informatik məlumatların yazılması.

Yuxarıda adları çəkilən istiqamətləri qısaca şərh etmək istərdik.

I İstiqamət: Yaxın və Orta Şərq ölkələrinin tarixi, bu ölkələrdə cərəyan edən ictimai-siyasi, iqtisadi və etnik proseslər, bu ölkələrin beynəlxalq münasibətlər sistemində rolu.

Əgər biz hər hansı bir Şərq ölkəsinin tarixində baş verən ictimai-siyasi prosesi araşdırırıqsa, bu prosesə əvvəllər olduğu kimi sinfi mübarizə baxımından qiymət verməməliyik. Zaman tələb edir ki, Şərq xalqlarının obyektiv tarixi yazılsın. Ölkənin tarixi yazılarkən onun etnoqrafiyası, arxeologiyası, xalqın psixologiyası, nəsl tarixi - genealogiyası, dini mənsubiyyəti yaddan çıxarılmasın. Müasir dövrdə Şərq ölkələrinin beynəlxalq aləmdə tutduğu mövqe, regional problemlərin həllində yürütdükləri siyasət, ölkənin həyatında müxtəlif siyasi partiyaların və dini hərəkatların müəyyənləşdirilməsi, milli və etnik problemlərin öyrənilməsinə diqqət xüsusilə artırılsın. Bu istiqamətdə icra olunan tədqiqatlardan əldə edilən nəticələr müstəqillik qazanmış Respublikamızın öz qonşuları ilə beynəlxalq münasibətlərin müəyyənləşdirilməsində həqiqi bir faktora çevrilə bilər.

Bu gün, iqtisadi məsələlərin ön plana çəkildiyi və yenidən qurulduğu bir dövrdə xarici Şərq ölkələrinin, o cümlədən Türkiyənin iqtisadi təcrübəsinin öyrənilməsi də vacib məsələlərdən biridir.

II İstiqamət. Orta əsrlər dövrü yazılı abidələrin tədqiqi, tərcüməsi və nəşri.

Bu sahədə institutda çox işlər görülmüşdür. Onlar hamıya məlumdur və sadalamağa ehtiyac yoxdur. Bizə elə gəlir ki, orta əsr cəmiyyətinin tam və hərtərəfli mənzərəsini yaratmaq üçün yalnız tarixçilərin və filoloqların deyil, filosofların, ilahiyyatçıların, hüquqşünasların birgə əməyini səfərbər etmək lazımdır. Çünki biz mənbə dedikdə yalnız tarixi və bədii əsərləri deyil, eyni zamanda hüquqi, fəlsəfi, dini-etik əsərləri də təsəvvür edirik.

Qeyd etməliyik ki, bu günə qədər Azərbaycanın mədəni inkişafına dair müxtəlif mənbələr dünyanın bir sıra kitabxanalarında saxlanılaraq hələ

xalqımıza çatdırılmayıb. Alimlərimiz tərəfindən bu mənbələrin əldə edilməsi (elmi ezamiyyə), tədqiqi və nəşri elmin çox mühüm və təxirəsalınmaz bir vəzifəsidir. Bizim vətəndaşlıq borcumuzdur ki, xalqımızın zəngin mənəvi irsinin öyrənilməsinə, ərəb və fars dillərində olan abidələrin nəşri işinə biganə qalmayaq. Bu ilk növbədə öz milli ideologiyamıza, öz milli mədəniyyətimizə xidmət etmək deməkdir. Burada bir məsələyə də toxunmaq istərdik. Şərq dillərindən Azərbaycan dilinə yalnız orta əsr mənbələrini deyil, eyni zamanda görkəmli müəlliflərin müasir dövrdə yazdıqları bəzi tarixi, fəlsəfi və filoloji əsərləri də şərhlərlə tərcümə etmək məqsədəuyğun olar. Görkəmli dünya şərqşünaslarının Azərbaycana aid əsərləri xarici, o cümlədən rus və Avropa dillərindən dilimizə tərcümə edilib xalqımıza çatdırılmalıdır.

III İstiqamət. Yaxın və Orta Şərq ölkələrində ictimai fikir və din tarixi. Azərbaycanda islam.

Bu istiqamət çərçivəsində Şərq ölkələrində, o cümlədən Azərbaycanda ictimai fikir tarixi və onun inkişaf meylləri, islam dininin tarixi, dini hərəkatlar, təriqətlər və məzhəblər, ictimai həyatda islam amilinin rolu və s. kimi məsələləri tədqiq etmək nəzərdə tutulur. Məlumdur ki, son illərə qədər «mütərəqqi» fəlsəfi irs öyrənilmiş, lakin dini fikir tarixi unudulmuşdur. Halbuki orta əsr Azərbaycan fəlsəfi və dini fikri vəhdət təşkil edir və dünya əhəmiyyətinə malikdir. Bunları nəzərə alaraq İnstitutun elmi-tədqiqat planlarında «Azərbaycanda islam» mövzusu aparıcı istiqamətlərdən biri kimi müəyyənləşdirilməlidir.

IV İstiqamət. Şərq filologiyasının inkişaf qanunauyğunluqları.

Qədim və müasir Şərq ədəbiyyatlarında mövcud olan müxtəlif ədəbi cərəyanlar və bədii üslubların tədqiqi və təhlili, bu ədəbiyyatların ən görkəmli nümayəndələrinin ədəbi irsinin araşdırılması nəzərdə tutulur. Əsrlər boyu Azərbaycan ədəbiyyatı və bütövlükdə filologiya elmi müştərək ərəb-müsəlman mədəniyyətinin bir qolu kimi inkişaf etdikdən Azərbaycan-ərəb, Azərbaycan-fars və Azərbaycan-türk filoloji əlaqələrinin və genetik yaxınlığının çoxsaylı təzahürləri üzə çıxır ki, onları da müfəssəl surətdə öyrənmək filoloq – şərqşünasların üzərinə düşür. Səylərimizi müsəlman aləmində elmin və mədəniyyətin inkişafında müstəsna rolu olmuş, ərəb və fars dillərində yazmış azərbaycanlı alim və ədiblərin zəngin mənəvi irsinin araşdırılmasına və onları xalqa tanıtmağa yönəltmək lazımdır. Yolverilməz haldır ki, bu günə qədər Füzulinin ərəb divanı bütövlükdə tərcümə olunub xalqımıza çatdırılmayıb. Bu iş, əlbəttə ki, bizim ərəbşünasların üzərinə düşür. Şərqin özünəməxsus xüsusiyyətlərindən biri də, bəlkə də ən səciyyəvisi odur ki, onun ictimai-fəlsəfi fikri, bəzən də tarixi hadisələr məhz bədii əsərlərdə əks olunub. Belə əsərləri

tədqiq edib dilimizə çevirmək son dərəcə zəruridir.

Son olaraq, demək istərdik ki, bütün bu məsələləri vaxtında və yüksək professional səviyyədə tədqiq etmək üçün, əlbəttə ki, ilk növbədə elmi işçilərin maddi vəziyyətini kəskin surətdə yaxşılaşdırmaq və bununla da Şərqşünaslıq İnstitutunun üzləşdiyi ən ağrılı məsələ-kadr axıcılığına son qoyulmalıdır, əməkdaşlarımızı zəngin əlyazma xəzinələri olan xarici ölkələrə ezamiyyə etmək imkanı (maliyyə) əldə etməliyik və xarici ölkələrdən zəruri dövrü mətbuat, kitab və əlyazma surətlərinin alınması üçün bizə vəsait ayrılmalıdır. Lakin bu zaman yuxarıda danışdığımız vəzifələrin öhdəsindən uğurla gəlmək olar.

«Şərqin aktual problemləri: tarix və müasirlik».
Beynəlxalq konfransının materialları.
Bakı, 1-2 iyun 2011-ci il.

AZERBAYCAN MİLLİ İLMLER AKADEMİSİ DOĞU BİLİMLERİ ENSTİTÜSÜ'NÜN İLMİ ARAŞTIRMA FAALİYETİNİN ESAS İSTİKAMETLERİ

Azerbaycan Milli İlmler Akademisi Şarkiyat Enstitüsü 1958 yılında Respublika Bakanlar Kurulunun kararı ile kurulmuştur. O zamandan itibaren Azerbaycan şarkiyat ilminin gelişmesinde verimli bir dönem başlatıldı, coğrafi alan ve esas araştırma yönü belirlendi.

Yakın Doğu'nun bu gün dünyanın en gergin ve buhranlı bölgelerinden biri olduğu bellidir. Burada mevcut olan zengin petrol yatakları ve diğer tabii servetler büyük devletlerin ve uluslararası güç merkezlerinin dikkatini üzerine çekmiştir. Devam eden İsrail-Filistin münakaşası, İrak savaşı, çeşitli ülkelerde milli ayrılık, dini-fundamantalist cereyanlar, uluslararası terorizm tehlükesi ve başka problemler bütün dünyada bu bölgeye olan ilgiyi artırır.

Şu an Enstitüde ilmi araştırmalar başlıca olarak:

- Doğu ülkelerinin toplumsal-siyasi, ekonomik, kültürel gelişmenin kanuna-uyğunluklarını öğrenmik;
- Doğu halklarının tarihi, filoloji, dini-felsefi değerlerini araştırmak; yazılı abideleri araştırmak, tercüme ve yayınlamak;
- Doğu-Batı sivilizasyonunun karşılıklı ilişkilerini araştırmak;
- Azerbaycan ve Doğu halklarının tarihi-kültürel ilişkilerini araştırmak;

Bağımsız Azerbaycan Respublikası ile Doğu ülkeleri arasında politik, ekonomik, diplomasi ve kültürel ilişkileri araştırmak ve onlara dair proqnoz ve tavsiyeler vere bilmek yönünde yapılır.

Enstitünün kollektivi ilmi çalışmalarını şarkiyatın en aktüel problemlerini araştırmağa yöneltilmiştir. Türkiye, İran ve Arap ülkelerinin tarihi, sosyal-siyasi ve ekonomik gelişmesi, Doğu halklarının filolojisi, İslam tarihi, çağdaş Yakın Doğu da din ve toplumsal fikir akımları ve diğer alanlar Enstitü çaləşanlarının dikkat merkezlerindedir. Son yıllar özellikle güncel olan Güney Azerbaycanın ekonomik, toplumsal ve kültürel gelişim meseleleri, aynı zamanda İslam fundamentalizmi ve bu gibi meselelerin araştırılması daha geniş yayılmıştır.

Geçen zaman zarfında enstitüde 500-den fazla mongrafi, makaleler mecmuesi ve kitaplar yayınlanmıştır.

Enstitüde dokuz bölüm vardır: İran Tarihi ve Ekonomisi, Türkiye Tarihi ve Ekonomisi, Arap Ülkelerinin Tarihi ve Ekonomisi, Türk Filolojisi, İran Filolojisi, Arap Filolojisi, Tarihi kaynakların İncelenmesi, Yazılə Abidelerin Araştı-

rılması ve Yayımı, Dini ve Toplumsal Fikir Tarihi, Doğu-Batı bölümleri.

İran Tarihi ve Ekonomisi Bölümü kurulduğu zaman özellikle İranın yeni devr tarihi gelişimini, sosiyal, ekonomik, kültür meselelerini araştırmak esas olarak alınmıştır.

Bölüm İran tarihinin çeşitli problemlerinin öğrenilmesinde eski SSRB ilmi mekanında esas yer tuturdu. Bu problemlere ilk önce İran'da ziraat işlerinin, İran cemiyyetinin yeni struktur komponentleri ve İran'ın dış münasibetleri aid edile biler. İran'da XIX asrın sonu - XX asrın başlarında ziraat ilişkiler kompleksi dünya İranşünaslığında ilk defa Prof. Dr. Ş.E.Tağıyeva tarafından araştırılmış ve araştırmanın sonucu iki kitapta yer almıştır. Yazar geniş deliller esasında İran'ın Ziraat işlerinin bir çok unsurlardan meydan gelen özelliklerini vermiş, toprak sahipliyi, topraktan istifade şekillerini, toprak ilişkilerinin özellikleri, toprak (rentasının vergisinin çeşitlerini belirlemiş, köylerin ekonomik ve emlak göstericileri esasında köylerin çeşitli kategorisini belirlemiştir.

Bölüm İran cemiyyetinin sosyal kuruluşunda ortaya çıkan deyişikliklerin, yeni kuruluş komponentlerinin şekillenmesi durumunun öğrenilmesinde eski SSRB-de önemli yere sahip olmuştur. Prof. Dr. Z.Y.Abdullayev işçi sendikasının kurulup, şekillenmesini, bu işin sonlandırılmasını geniş şekilde araştırmıştır. Bu meseleleri Prof. Dr. Z.Y.Abdullayev iki kitabında açıklamşıtır.

Doç. Dr. R.A.Seyidov İran'da zengin tabakasının oluşması, o tabakanın sosyal, meslek ve etnik kuruluşunu, siyasi faaliyetini geniş şekilde araştırmıştır. Bu araştırma bir mongrafi olarak yayınlanmıştır.

İranşinaslıkta aydın tabakasının oluşması problemini ilk defa Dr. M.M.Aliyev geniş şekilde işlemiştir. Yazar aydın tabakasının kuruluşu, onların kurdukları siyasi-toplumsal kuruluşları ve onların faaliyetini araştırmıştır.

Bölümün meseleleri içinde İran'da siyasi-toplumsal kuruluşların meydana gelmesi, oluşması ve faaliyeti geniş yer tuturdu. Bu meselenin öğrenilmesi ile esasen. Doç. Dr. T.A.İbrahimov (Şahin) ilgilenmiştir. Onun İran'da siyasi cemiyetler ve toplumsal teşkilatlar hakkında eseri ilm aleminde tamamen yeni olay oldu. Doç. Dr. T.A.İbrahimov (Şahin) aynı zamanda İran Komunist Partisinin meydana gelip kurulmasını, onun siyasi-ideoloji faaliyeti, teşkilati ve etnik kuruluşunu ilk defa geniş olarak araştırmıştır. Araştırmalar kitap halinde yayınlanmıştır.

Bölümün en mühüm başarıları sırasında İran'ın dış ilişkilerinin araştırılması kayda değerdir. Bu alanda Doç. Dr. S.F.Apayev'in hizmetini göstermek gerekir. O, 1920-1941-li yılları kapsayan bir dönemde İranın dış ilişkileri problemini her-zönüyle araştırmıştır. S.F.Ağayev ilk defa olarak İran diplomasisinin Milletler liginde, İran'ın Sadabad paktında faaliyetini, İran'ın komşu Doğu ül-

keleri ile ilişkilerini ve s. araştırmıştır. İran'ın dış ilişkilerinin sonrakı durumunu Doç. Dr. H.3.Alibeyli ardıcıl ve kompleks şekilde araştırmıştır.

